**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**İbrahim Feyzulla oğlu Kazımbəyli**

# AZƏRBAYCANIN İRƏVAN BÖLGƏSİ XIX ƏSR-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

**5503.02 – Vətən tarixi**

**Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

# DİSSERTASİYA

**Elmi məsləhətçi: akademik Y.M.Mahmudov**

**NAXÇIVAN– 2018**

# MÜNDƏRİCAT

**GİRİŞ..........................................................................................................4**

**I FƏSİL. XIX ƏSRİN BİRİNCİ YARISINDA CƏNUBİ QAFQAZDA HƏRBİ-SİYASİ VƏZİYYƏT. İRƏVAN XANLIĞININ RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALI VƏ ONUN İDARƏÇİLİYİ............................................25**

1.1 XIX əsrin əvvəllərində Cənubi Qafqazda hərbi-siyasi vəziyyət və İrəvan xanlığının Rusiya tərəfindən işğalı.....................................................................25

1.2 Rusiya işğalından sonra İrəvan bölgəsinin idarəçiliyi.........................................41

1.3 XIX əsrin 40-cı illərinin islahatları və İrəvan bölgəsi.........................................57

**II FƏSİL.XIX ƏSRİN II YARISI - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN BÖLGƏSİNİN İNZİBATİ-SİYASİ VƏZİYYƏTİ..................................................70**

2.1 İrəvan quberniyasının yaradılması və onun idarə sistemi...................................70

2.2 İrəvan quberniyasının ərazisi və əhalisi..............................................................78

2.3 İrəvanın ermənilərə verilməsi və bölgədə erməni dövlətinin yaradılması prosesi...........................................................................................................101

**III FƏSİL. XIX– XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATI......................................................121**

3.1 İqtisadi vəziyyətdə dəyişikliklər........................................................................121

3.2 Əhalinin sosial-iqtisadi vəziyyəti.......................................................................149

3.3 Sosial hərəkatlar.................................................................................................164

3.4 Mədəniyyət.........................................................................................................178

**IV FƏSİL. ERMƏNİLƏRİN İRƏVAN BÖLGƏSİNƏ KÖÇÜRÜLMƏSİ, AZƏRBAYCANLILARA QARŞI DEPORTASİYA VƏ SOYQIRIMI............206**

4.1 Ermənilərin İrəvan bölgəsinə köçürülməsinin əsas mərhələləri, dinamikası və coğrafi yerləşdirilməsi..............................................................................206

4.2 XIX əsrin sonu - XX əsrin əvvəllərində Cənubi Qafqazdakı erməni-müsəlman konfliktinin İrəvan bölgəsində gedişi....................................................................234
4.3 1918-1920-ci illərdə İrəvan bölgəsində türk-müsəlman əhaliyə qarşı soyqırım və etnik təmizləmə siyasəti..............................................................................270
**NƏTİCƏ...............................................................................................................305**
**İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT...............................................323**

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
ADU

# GİRİŞ

**Mövzunun aktuallığı.** İrəvan bölgəsi tarixi Azərbaycan torpağıdır və tarixən də Azərbaycanda mövcud olan dövlətlərin tərkibində olmuşdur. Arpa çayın Arazla birləşdiyi yerdən başlayaraq Ağrıdağla Alagöz dağları arasındakı çökəklik vadi ərazi hələ orta əsrlərdə Sədi çuxuru kimi tanınmış və Çuxursəd istilahı şəklində işlənmiş, Azərbaycan Səfəvi dövləti dövründə, XVI əsrin əvvəllərində bu ərazidə mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyliyi yaradılmışdır. Nadir şah imperiyasının dağılmasından sonra bütün imperiya, o cümlədən Azərbaycan ərazisi xırda dövlət subyektlərinə - xanlıqlara parçalanan zaman İrəvan bölgəsində də İrəvan xanlığı təşəkkül tapmışdı. İrəvan xanlığı yarandığı 1747-ci ildən 1797-ci ilədək müstəqil xanlıq olmuş, 1797-1828-ci illər ərzində isə Qacarlar sülaləsinin idarə etdiyi İranın ali hakimiyyəti altında öz mövcudiyyətini davam etdirmiş, daxili müstəqilliyini, eyni zamanda xarici siyasətdə də bu və ya digər dərəcədə müstəqilliyini qoruyub saxlaya bilmişdi. İstər erkən orta əsrlərdə, istərsə də Çuxursəd bəylərbəyliyi dövründə İrəvan bölgəsini türk-müsəlman sülalələri idarə etdiyi kimi, İrəvan xanlığını da onun bütün mövcudluğu dövründə Qacar nəslinə mənsub türk sülaləsi idarə etmişdir.

Lakin İrəvan bölgəsi İrəvan xanlığının Rusiya tərəfindən işğal edildiyi və xanlıq səltənətinə son qoyulduğu 1827-ci ildən çarizmin süqut etdiyi 1917-ci ilə qədər Rusiya hərbi məmurları və general-qubernatorları tərəfindən idarə edilmiş, 1917-1918-ci illərdə bölgədə anarxiya hökm sürmüş və 1918-ci ilin may ayında İrəvan şəhəri və ətraf ərazilər ermənilərə verilərək bu ərazidə erməni dövləti yaradılmışdır. İlkin yarandığı dövrlərdə cəmi 9 min kv. km. ərazini əhatə edən Ermənistan sonrakı dövrlərdə Sovet hakimiyyətinin antiazərbaycan siyasəti nəticəsində öz ərazisini Azərbaycan torpaqları hesabına 29,8 min kv. km-ə qədər genişləndirmiş, bu ərazilərdə yaşayan aborigen əhali olan azərbaycanlılara irqi və milli zəmində dəhşətli diskriminasiya, terror, deportasiya və soyqırım aktları gerçəkləşdirmiş, nəticədə tarixən Azərbaycanın olan və azərbaycanlıların da yaşadığı Qərbi Azərbaycan – indiki Ermənistan ərazisində bir nəfər də olsun azərbaycanlı qalmamışdır. Ermənistan Respublikası bununla da kifayətlənməyərək, 1988-1994-cü

illərdə Azərbaycana hərbi təcavüz etmiş, Dağlıq Qarabağ və ona bitişik 7 rayonu işğal etmiş, dünyanın gözü qarşısında Xocalı soyqırımını törətmiş, bir milyondan artıq azərbaycanlını öz yurd-yuvasından didərgin salaraq qaçqın və məcburi köçkünə çevirmişdir.

İrəvan bölgəsinin Azərbaycanın digər ərazilərindən qoparılaraq onun ayrı salınması və bu gün bu ərazidə erməni dövlətinin mövcudluğu İrəvan xanlığının rus qoşunları tərəfindən işğalından sonrakı dövrdə Rusiyanın bu bölgədə həyata keçirdiyi hərbi, siyasi, ictimai və etnik siyasətin nəticəsidir. Məhz Rusiya işğalından sonra İran və Osmanlı dövlətlərindən köçürülən ermənilər bufer zona yaratmaq üçün əsasən İran və Osmanlı dövlətləri ilə sərhədyanı bölgə olan İrəvan bölgəsində məskunlaşdırıldı, onlara hər cür imtiyazlar və dövlət dəstəyi verildi. Bununla da, İrəvan bölgəsinin erməniləşdirilməsinin əsası qoyuldu. İrəvan bölgəsinin aborigen türk-müsəlman əhalisinin diskriminasiyalara məruz qalması fonunda bütün XIX əsr boyu və eyni zamanda XX əsrin əvvəllərində mərhələ-mərhələ bölgəyə gerçəkləşdirilən erməni köçləri nəticəsində adı çəkilən ərazidə süni şəkildə erməni çoxluğu yaradıldı. Məhz Rusiyanın həyata keçirdiyi köçürmə və erməniləri himayə siyasəti nəticəsində vətənsiz olan ermənilər özlərinə vətən əldə etmiş oldular, İrəvan bölgəsinin sahibinə çevrildilər. Bu mənada qədim Azərbaycan torpağı olan İrəvan xanlığının və rus işğalından sonrakı dövrdə İrəvan bölgəsinin ermənilərlə məskunlaşdırılması, erməniləşdirilməsi prosesinin, bununla bağlı bölgədə cərəyan edən hərbi, siyasi, ictimai, iqtisadi və mədəni proseslərin araşdırılması böyük aktuallıq kəsb etməklə bərabər, mühüm elmi və əməli əhəmiyyətə malikdir.

Ümumiyyətlə, Azərbaycanın XIX-XX əsrlər tarixi istər çarizm dövründə, istərsə də Sovet hakimiyyəti illərində ən çox təhriflərə və siyasiləşməyə məruz qalan tarixi dövrlərdən biri olmuşdur. Təsadüfi deyildi ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşündə bu məsələ üzərində xüsusi dayanıb, Azərbaycanın XIX-XX əsrlər tarixinin təhrif edildiyini xüsusi qeyd edərək deyirdi: “Belə hesab edirəm ki, indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XX

əsrlər tarixinin yazılmasıdır”[126].Etiraf etməliyik ki, ölkəmiz müstəqilliyini əldə etdikdən sonra keçən müddət ərzində, xüsusilə də Ümummilli Lider Heydər Əliyevin bu tövsiyyələrindən sonra tarixşünaslığımızda Azərbaycanın XIX-XX əsrlər tarixi ilə bağlı bir çox obyektiv tədqiqat əsərləri meydana gəlmişdir. Bununla belə, bu gün düşmən əlində olan İrəvan bölgəsinin tarixinin, xüsusilə də XIX əsrin əvvəllərindən başlayaraq İrəvan xanlığının Rusiya tərəfindən işğal edilməsindən sonrakı dövrdə bu bölgədə yaşayan yerli əhali olan azərbaycanlılara qarşı müstəmləkəçilik və diskriminasiya tədbirləri ilə müşaiyət olunan ermənilərin köçürülməsi, yerləşdirilməsi və bölgənin mərhələ-mərhələ erməniləşdirilməsi siyasətinin, bu ərazidə erməni dövləti yaradılması prosesinin, bütün bunların fonunda bölgədə gedən hərbi, siyasi, ictimai, iqtisadi və mədəni proseslərin öyrənilməsi xalqımızın ən yaralı yerlərindən biri olan İrəvan bölgəsinin zəngin, çox mürəkkəb və ziddiyyətlərlə dolu tarixi bir dövrünün və bütövlükdə Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixinin daha dolğun və kompleks şəkildə öyrənilməsinə mühüm töhfə olardı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də 2015-ci il noyabrın 9-da Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyində iştirak edən zaman çıxışında Azərbaycanın, xüsusilə də İrəvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinə və bu tarixin ermənilər tərəfindən saxtaşlaşdırılması cəhdlərinə diqqəti çəkərək İrəvan bölgəsinin əzəli Azərbaycan torpağı olduğunu və bugünkü Ermənistanın tarixi Azərbaycan torpaqlarında yaradıldığını xüsusi qeyd etmişdir: “Azərbaycanın çox zəngin tarixi vardır. Azərbaycan alimləri də, Azərbaycan ictimaiyyəti də bunu yaxşı bilirlər. Biz öz tariximizi, bu reallıqları dünya miqyasında daha da dolğun təqdim etməliyik. Nəyə görə? İlk növbədə, bizi tanısınlar, görsünlər ki, nə qədər zəngin tariximiz var. Digər tərəfdən, bizə qarşı təxribatlar aparılır. Yəni, Azərbaycan tarixini ermənilər təhrif etməyə çalışırlar və diaspor imkanlarından istifadə edərək, bəzi hallarda buna nail olurlar. “Erməni alimləri” xüsusilə regionun, Cənubi Qafqazın tarixi ilə bağlı yalan, uydurma əsasında kitablar dərc edirlər, təqdimatlar keçirirlər. Əlbəttə ki, bizim tariximiz bizim böyük sərvətimizdir. Bizim tariximiz onu göstərir ki, azərbaycanlılar bu torpaqda əsrlər boyu yaşamışlar. Bugünkü Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Təkcə XX əsrin

əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir; hər kəs görsün ki, indiki Ermənistan ərazisində yerləşən kəndlərin, şəhərlərin mütləq əksəriyyətinin adları Azərbaycan mənşəlidir. Budur reallıq. İrəvan xanlığının əhalisinin 70-80 faizi azərbaycanlılar olubdur”[128]. Prezident cənab İlham Əliyev bir neçə dəfə, o cümlədən 2016-cı il dekabrın 3-də Ağdam rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə İrəvan bölgəsinin tarixi Azərbaycan torpağı olduğunu, hazırki Ermənistanın tamamilə Azərbaycan torpaqlarında qurulduğunu və gec-tez Azərbaycanın öz itirilmiş torpaqlarını geri qaytaracağını və ərazi bütövlüyünü bərpa edəcəyini bir daha bəyan etmişdir: “Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir. Bizim tarixi torpaqlarımız təkcə Dağlıq Qarabağın ərazisi deyil. İrəvan, Göyçə, Zəngəzur bizim tarixi coğrafiyamızdır, tarixi torpaqlarımızdır. Ermənistan vaxtilə bizim o torpaqlarda qanunsuz olaraq dövlət qurub, indi də bizim torpağımızda ikinci dövlət qurmaq istəyir. Azərbaycan xalqı heç vaxt buna imkan verməyəcək...” [123].

Bu mənada, Azərbaycan tarixinin ən çox təhriflərə məruz qalan İrəvan bölgəsinin mürəkkəb, ziddiyyətli və gərginliyi ilə seçilən XIX-XX əsrin əvvəlləri dövrünün obyektiv araşdırılması Prezidentin də səsləndirdiyi dəyişməz tarixi həqiqətlərin elmi əsaslandırmalarla üzə çıxarılmasına və erməni tarixçilərinin saxtakarlıqlarını ifşa etməyə xidmət edəcək. Bu həm tarix, həm də müasirlik baxımından ciddi elmi və əməli əhəmiyyətə malikdir, bütün bunlar tədqiqat işinin aktuallığını şərtləndirir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işinin xronoloji çərçivəsi XIX-XX əsrin əvvəllərini, konkret olaraq 1800-1918-ci illəri əhatə edir. Xronoloji çərçivənin başlanğıcı kimi, Rusiyanın Cənubi Qafqazda fəallaşması və bölgənin işğalına başlaması, son həddi isə İrəvanın ermənilərə verilməsi, İrəvan bölgəsində erməni dövlətinin yaradılması prosesinin başa çatması götürülmüşdür. Lakin XIX əsrin əvvəlləri üçün İrəvan bölgəsində formalaşmış hərbi, ictimai - siyasi, iqtisadi vəziyyətin ümumi mənzərəsini və bu mənzərənin tarixi köklərini aydınlaşdırmaq üçün bəzən xronoloji çərçivədən də kənara çıxılmış, bölgənin ümumi tarixinə də nəzər salınmışdır.

**Mövzunun öyrənilmə vəziyyəti.** “Azərbaycanın İrəvan bölgəsi XIX-XX əsrin əvvəllərində” problemi indiyədək tarix elmində kompleks şəkildə ayrıca mövzu kimi müstəqil tədqiqat obyekti olmamışdır. Bununla belə, son iki əsrdəAzərbaycanın taleyüklü məsələlərinin həll olunduğu həddindən çox həssas, mürəkkəb və ziddiyyətli məqamlarla zəngin olan tədqiq etdiyimiz dövrlə bağlı istər Azərbaycanda, istərsə də Azərbaycandan kənarda yazılmış bir çox əsərlərdə xüsusilə ağrılı yerimiz olan Qərbi Azərbaycanın itirilməsi və bu ərazilərdə azərbaycanlılara qarşı həyata keçirilən təqib, deportasiya, soyqırım siyasəti, İrəvan bölgəsi tarixinin bu və ya digər məsələləri ilə bağlı bir sıra faktlar söylənilmiş, mülahizələr irəli sürülmüşdür.

Problemlə bağlı tarixşünaslığa kompleks şəkildə yanaşma aşağıdakı acı həqiqəti ortaya qoymaqdadır. Belə ki, XX əsrin əvvəllərinədək yazılan tarixi tədqiqatlarda İrəvan bölgəsinin tarixi də digər bölgələr kimi ümumazərbaycan tarixi kontekstində nəzərdən keçirilmiş, lakin bu bölgədə erməni dövlətinin yaradılmasından sonrakı, xüsusilə də sovet dövrü tədqiqatlarında bu tarixi, əzəli Azərbaycan torpağı “unudularaq” və elmi baxımdan da ermənilərə “bağışlanaraq” Ermənistan Sovet Sosialist Respublikasının tarixi kontekstində öyrənilmişdir.

XX əsrin 90-cı illərindən etibarən Azərbaycan tarixinin bir tam halında öyrənilməsi zərurəti irəli sürüldü və yazılan Azərbaycan tarixi dərsliklərində ölkənin şimalı (hazırki Azərbaycan Respublikası) ilə yanaşı, cənubunun (Cənubi Azərbaycan) da tarixi ümumi konteksdə nəzərdən keçirilməyə başladı. Lakin burada da bir sıra qüsurlar izləndi. Belə ki, 1828-ci il Türkmənçay müqaviləsindən – Azərbaycanın Rusiya və İran arasında iki hissəyə bölünməsindən sonra vəziyyət dəyişir, yalnız Rusiya imperiyasının tərkibinə daxil edilən Şimali Azərbaycanın tarixi öyrənilir, Cənubi Azərbaycan, o cümlədən İrəvan bölgəsi və itirilmiş digər tarixi Azərbaycan torpaqlarının tarixi isə bir növ kənarda saxlanılaraq, sadəcə əsas tarixi hadisələrinə diqqət yetirilir və ya bu tematika yalnız xüsusi tədqiqatlarda davam etdirilir.

Təəssüflə qeyd etmək lazımdır ki, tarixi Azərbaycan torpağı olan İrəvan bölgəsi XX əsrin 90-cı illərindən sonrakı dövrdə yazılan ümumi Azərbaycan tarixi əsərlərində də unudulmuşdur. Nəticədə İrəvan bölgəsinə sahib olub burada özlərinə dövlət yaradan ermənilər, Ermənistan tarixi haqqında da öz uydurma konsepsiyalarını

yaradıblar ki, bu konsepsiyaya görə, tarixi Ermənistan ümumi şəkildə nəzərdən keçirilir, Rusiya işğalından sonrakı dövrdə İrəvan bölgəsi və Qarabağ – Şərqi Ermənistan, Şərqi Anadolu vilayətləri isə Qərbi Ermənistan adlandırılır və erməni xalqının tarixi adı altında, onların hər ikisinin tarixi müasir dövrədək izlənilir.

Əslində indiki Ermənistan ərazisi, o cümlədən İrəvan bölgəsi tarixi Azərbaycan torpaqları olub bu ərazilərin ermənilərə heç bir aidiyyəti yoxdur. Bu gerçəkliyin ortaya qoyulması və elmi əsaslandırılması üçün İrəvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinin heç bir subyektivizmə yol vermədən obyektiv şəkildə araşdırılması vacibdir.

İrəvan bölgəsinin tarixi ilə bu və ya digər dərəcədə bağlı olan əsərləri bir neçə qrupa bölmək olar: Rusiya çarizminin mövcudluğu dövründə, 1917-ci ilə qədər yazılan əsərlər; Sovet dövründə yazılan əsərlər; Müstəqillik dövründə yazılan əsərlər; Mühacir və xarici tarixşünaslıqda yazılan əsərlər.

Rus çarizmi dövründə imperiyanın maraqlarına uyğun olaraq Cənubi Qafqaz bölgəsinin işğalından əvvəl və xüsusilə də işğaldan sonrakı dövrdə bu bölgənin ictimai, siyasi, hərbi, iqtisadi, etnoqrafik, mədəni və digər tərəflərdən öyrənilməsinə böyük maraq göstərilirdi və bununla əlaqədar olaraq rus qafqazşünaslığı adlandırılan bir məktəb yarandı. Doğrudur, bu əsərlərdə heç də Azərbaycanın, o cümlədən İrəvan bölgəsinin tarixini öyrənmək bir məqsəd kimi qarşıya qoyulmamış, əsas diqqət rus qoşunlarının Cənubi Qafqazdakı yürüşlərinə verilmişdir. Bununla belə, bu əsərlərdə Azərbaycanın, o cümlədən İrəvan bölgəsinin ictimai, siyasi, iqtisadi, etnoqrafik, mədəni tarixi ilə bağlı bir sıra məlumatlar toplanmışdır.

1836-cı ildə Peterburqda dörd cild halında nəşr olunan "Obozrenie Rossiyskix vladeniy za Kavkazom" toplusunda[347]ayrı-ayrı rus müəlliflərinin Cənubi Qafqazın, Azərbaycanın, o cümlədən İrəvan bölgəsinin təbii-coğrafi şəraiti, iqlimi, çayları, meşələri, dağları, bitki örtüyü, yolları, inzibati ərazi bölgüsü, sərhədləri, iqtisadi vəziyyəti, kənd təsərrüfatı, əhalisinin etnik və dini tərkibi və digər etnoqrafiq məlumatlar toplanmışdır. Bu məlumatlar bölgənin ictimai-siyasi, iqtisadi və mədəni mənzərəsinin ümumi şəkildə öyrənmək üçün əhəmiyyətlidir.

Rus hərb tarixçisi N.F.Dubrovinin əsərlərində [294;295;296;297;298]Rusiyanın Cənubi Qafqazda yeritdiyi işğalçılıq siyasəti və rus qoşunlarının Azərbaycanda, o cümlədən İrəvan bölgəsində həyata keçirdiyi işğalçılıq yürüşləri geniş təsvir olunmuşdur. Müəllif, əsas diqqətini Rusiyanın bölgədə həyata keçirdiyi işğalçılıq siyasətinin təsvirinə yetirməklə bərabər, İrəvan bölgəsinin təbii-coğrafi şəraiti, ictimai-siyasi və iqtisadi vəziyyəti, əhalisinin sayı, etnik tərkibi və adət-ənənəsini də diqqətdən kənarda saxlamamışdır.

XIX əsr rus müəlliflərindən P.Zubovun[302], V.A.Pottonun[370;371;372; 373], N.İ.Uşakovun[397], A.P.Şerbatovun[402;403], A.P.Qizettinin[286] və digər müəlliflərin əsərlərində də əsas diqqət rus qoşunlarının Qafqazdakı hərbi əməliyyatlarına verilir və bu əməliyyatlar təbii olaraq "zəfər yürüşləri" kimi tərənnüm edilir. Bununla belə, bütün məhdud tərəflərinə baxmayaraq, bu əsərlərdə tədqiq etdiyimiz mövzu baxımından bir çox qiymətli fakt və mülahizələr yer almışdır.

Rus qafqazşünaslarından S.N.Qlinkanın əsəri[174] Rusiyanın ermənilən İrandan Cənubi Qafqaza köçürülməsinə dair siyasətinin hazırlanması və həyata keçirilməsi məsələlərini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Müəllif köçürmə prosesini ətraflı təsfir etməklə yanaşı, bu prosesin iştirakçılarına aid bir çox sənəd və materialları da əsərə daxil etmiş və Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi işğalçılıq fəaliyyətində ermənilərin oynadığı rolu xüsusi olaraq vurğulamışdır.

Bu cəhət Q.A.Ezovun 1898-ci ildə nəşr olunmuş əsərinin[409]də əsas xəttini təşkil edir. Əsərdə Rusiyanın Qafqazda həm Azərbaycan xanlıqlarına, həm də İran və Osmanlı dövlətlərinə qarşı apardığı müharibələr zamanı ermənilərin rus qoşunlarına göstərdiyi yardımları işıqlandırılır.

N.N.Şavrovun 1911-ci ildə Peterburqda nəşr olunmuş əsərində[401] İran və Osmanlı dövlətlərindən ermənilərin Cənubi Qafqaza köçürülməsi və Azərbaycanın ayrı-ayrı bölgələrində yerləşdirilməsi məsələsindən bəhs olunur. Müəllif göstərir ki, XX əsrin əvvəllərində Cənubi Qafqazda yaşayan 1,3 milyon erməninin 1 milyonundan çoxu yerli deyil, Rusiya tərəfindən bu ərazilərə köçürülən ermənilərdir[401,c.63].

Rus qafqazşünaslarından V.N.İvanenkonun[304], M.Vladıkini[283], S.A.Yegiazarovun[299], V.L.Veliçkonun[280], S.Esadzenin[407;408] əsərlərində də əsas diqqət Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi işğalçılıq siyasətinə yönəldilsə də, bu əsərlərdə İrəvan bölgəsinin hərbi-strateji vəziyyəti, inzibati-ərazi və idarə sistemi, iqtisadi həyatı, əhalisinin sayı, etnik və sosial tərkibi kimi məsələlərlə bağlı bir sıra qiymətli fakt və mülahizələr yer almışdır.

Sovet tarixşünaslığına gəldikdə, qeyd etmək lazımdır ki, sovet hakimiyyətinin qurulmasından sonrakı ilk illərdə Azərbaycanda nəşr olunmuş bir sıra əsərlərdə İrəvan bölgəsinin, həmçinin İrəvan xanlığının tarixinə ümumazərbaycan tarixi kontekstində nəzər yetirilmiş və öyrənilmişdir. Bu əsərlər içərisində M.Vəlilinin (Baharlı) 1921-ci ildə Bakıda nəşr olunmuş "Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat" əsərini[239] qeyd etmək olar. Əsərdə İrəvan bölgəsinin coğrafiyasına, tarixinə, iqtisadiyyatına ümumazərbaycan kontekstində yanaşılmış və bölgə ilə bağlı bir çox faktlar, xüsusilə də bölgənin əhalisi ilə bağlı konkret rəqəmlər verilmişdir.

R.İsmayılovun 1923-cü ildə Bakıda nəşr olunmuş "Azərbaycan tarixi" əsərində[164] ən qədim dövrlərdən başlayaraq Azərbaycan Xalq Cümhuriyyətinə qədərki dövrdə Azərbaycanın coğrafi vəziyyəti, siyasi və iqtisadi tarixindən bəhs olunur. Əsərdə haqlı olaraq İrəvan bölgəsinin tarixi də ümumazərbaycan tarixi kontekstində nəzərdən keçirilir, İrəvan xanlığının siyasi tarixi, əhalisi, burada mövcud olan vergi və mükəlləfiyyətlər haqqında qiymətli məlumatlar verilir.

Bir qədər sonra rus sovet tarixşünaslığında formalaşmış stereotiplərə və ənənlərə görə müəlliflər, bəllı bir qayda olaraq Rusiyanın Cənubi Qafqazdakı işğalçılıq siyasətini pərdələməyə, hadisələrin əsl mahiyyətini gizlətməyə çalışır, rus işğalını "könüllü birləşmə", "Rusiyaya olan meyl" kimi konsepsiyalar baxımından işıqlandırır, İrəvan bölgəsinin tarixinə də ümumazərbaycan tarixi kontekstindən deyil, Ermənistan tarixi nöqteyi-nəzərindən baxırlar. Bütövlükdə götürdükdə, bu əsərlərin konseptual baxımdan hadisə və proseslərə yanaşması doğru olmasa da, onlarda yer alan bir çox qiymətli fakt və materiallar baxımından qiymətləndirilə bilər.

Rus sovet tarixşünaslığında İ.P.Petruşevskinin əsərində[356;357] digər Azərbaycan xanlıqları kimi, İrəvan xanlığının tarixi də siyasi-iqtisadi cəhətdən nəzərdən keçirilmiş, burada mövcud olan vergi və mükəlləfiyyətlər, torpaq mülkiyyəti formaları, əhalinin sosial-silki təbəqələşmə quruluşu və s. kimi məsələlər nəzərdən keçirilmişdir. Lakin müəllif ciddi səhvə yol verərək, İrəvan bölgəsinin tarixini Ermənistan tarixi kimi qələmə almış, İrəvan bölgəsində baş verən hadisələri erməni xalqının adına yazmışdır. Əsərdən açıq-aydın görünür ki, bölgədə ermənilərə aid olan hadisə və proseslər Eçmiədzin kilsəsindən kənara çıxmır, bölgənin ictimai-siyasi həyatında cərəyan edən hadisə və proseslər türk-müsəlmanlarla bağlıdır.

Rus müəlliflərindən N.A.Smirnovun əsərində[385] də dövrün digər əsərləri kimi, XVIII-XIX əsrlərdə Rusiyanın Qafqazda yeritdiyi işğalçılıq pərdələnir, Rusiyanın Cənubi Qafqaz, o cümlədən Azərbaycanda həyata keçirdiyi işğallar “könüllü birləşmə” kimi təqdim edilir.

A.Ş.Milmanın XIX-XX əsrin əvvəllərində Azərbaycanın siyasi quruluşundan bəhs edən əsərində[340] rus işğalından sonra Azərbaycanda tətbiq edilən idarəetmə mexanizminin forma və üsulları, yaradılan inzibati idarələrdən bəhs olunur. Lakin müəllif, Azərbaycan ərazisində yaranan xanlıqlardan bəhs edərkən, ciddi səhvə yol verərək, İrəvan xanlığını bu siyahıya daxil etmir, ümumilikdə İrəvan bölgəsinə Ermənistan ərazisi kimi yanaşır.

Rus sovet tarixçilərindən A.V.Fadeyevin əsəri[398;399] XIX əsrin birinci otuz ilində Rusiyanın Qafqazdakı işğalçılıq siyasətini öyrənmək üçün faktik materiallar baxımından əhəmiyyətlidir. Əsərdə Rusiyanın Qafqazdakı fəaliyyəti düzgün olaraq müstəmləkəçilik siyasəti kimi şərh edilir.

H.M.İbrahimbəylinin 1969-cu ildə Moskvada nəşr olunan “XIX əsrin birinci otuz ilində Rusiya və Azərbaycan” əsəri[303] faktik materiallar baxımından mövzumuz üçün əhəmiyyətli hesab oluna bilər. Əsərdə Rusiyanın Azərbaycan ərazisində İranla apardığı müharibələr, o cümlədən İrəvan bölgəsində aparılan hərbi əməliyyatlar işıqlandırılır. Lakin bununla belə, müəllif, digər sovet tarixçiləri kimi hadisələri dövrün stereotipləri baxımından işıqlandırır, İrəvan xanlığını Azərbaycan xanlıqlarından ayırır və bu xanlığı Ermənistan dövləti kimi təqdim edir.

Sovet dövrünün ermәni müәlliflәrinin әsәrlәrindә[277;305;353;389;393;394;395] yuxarıda da qeyd etdiyimiz kimi, İrәvan bölgәsinin tarixi bir qayda olaraq ermәni xalqının vә Şәrqi Ermәnistanın tarixi kimi nәzәrdәn keçirilir. İrәvan bölgәsinin tarixinin Ermәnistan tarixi kimi tәqdim edilmәsinә baxmayaraq, bu әsәrlәrdә yer alan bölgә ilә bağlı toponimlәrdә, antroponimlәrdә İrәvan xanlarının içәrisindә bir nәfәr dә olsun ermәninin olmaması, әhalinin böyük әksәriyyәtinin Azәrbaycan türklәri olması, ermәnilәrin bu әrazilәrә köçürülmәsi vә digәr bu kimi faktlar özü-özlüyündә bu әsәrlәrin saxta konsepsiya üzәrindә qurulduğunu vә İrәvan bölgәsi tarixi Azәrbaycan torpağıdırvә bu da hәmin әrazilәrin ermәnilәrә heç bir aidiyyәtinin olmaması gerçәyini ortaya qoyur. Sovet dövründәn sonrakı dövrdә ermәni müәlliflәrinin qәlәmindәn çıxan әsәrlәr dә bu konsepsiya baxımından vә daha şovinist ruhda yazıldığından, onların mәqsәd vә mәramı bәllidir. Bu sәbәbdәn onları ayrı-ayrılıqda tәhlil etmәyә lüzum görmürük.

Azәrbaycan öz müstәqilliyinә qovuşduqdan sonra, XX әsrin 90-cı illәrindәn etibarәn ölkәnin tarixi, xüsusilә dә XIX-XX әsrlәr dövrünün milli konsepsiya әsasında obyektiv araşdırılması istiqamәtindә ciddi addımlar atıldı, nәticәdә, bir çox mühüm ciddi tәdqiqatlar ortaya qoyuldu ki, bu proses hazırda da davam etmәkdәdir. Bu әsәrlәr içәrisindә 1996 vә 2009-cu illәrdә S.Әliyarlının redaktәsi altında ümumilәşdirilmiş "Azәrbaycan tarixi" әsәrindә[134], Azәrbaycan Milli Elmlәr Akademiyasının Tarix İnstitutu tәrәfindәn çap olunan yeddi cildlik "Azәrbaycan tarixi" әsәrindә[131] Azәrbaycanın XIX-XX әsrlәr tarixinin bir çox mәsәlәlәrinә obyektiv qiymәt verildi. Lakin bu әsәrlәrdә dә nәdәnsә İrәvan bölgәsinin tarixi unudularaq ümumazәrbaycan tarixi kontekstindә verilmәdi.

F.Әliyev vә U.Hәsәnovun birlikdә yazdıqları "İrәvan xanlığı" әsәrini[157] xüsusilә qeyd etmәk lazımdır. Әsәrә K.Şükürov tәrәfindәn yazılan "Ön Söz" dә "Qәrbi Azәrbaycan – indiki Ermәnistan tarixinin tarixşünaslığı vә ümumi Azәrbaycan tarixindә әksi" problemi konseptual baxımdan geniş şәkildә şәrh edilmişdir. Әsәrdә İrәvan xanlığının siyasi, ictimai, iqtisadi vәziyyәti, inzibati-әrazi bölgüsü kimi mәsәlәlәr işıqlandırılmışdır.

V.Arzumanlı və N.Mustafanın 1998-ci ildə nəşr olunan əsərləri[124] Cənubi Qafqaza ermənilərin köçürülməsi prosesini öyrənmək baxımından əhəmiyyətlidir. Əsərdə haqlı olaraq, İran və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülən ermənilərin İrəvan bölgəsində yerləşdirilməsinin Rusiyanın strateji məqsədlərindən irəli gəldiyi xüsusi vurğulanır, habelə ermənilərin İrəvan bölgəsində törətdiyi soyqırım aktlarına diqqət çəkilir.

K.Şükürovun əsəri[233] XIX əsrin əvvəllərində Rusiya-İran münasibətləri və Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalı prosesini öyrənmək baxımından xüsusi əhəmiyyətə malikdir. Əsər Türkmənçay müqaviləsinin imzalanmasına qədər və bu müqavilənin imzalanmasından sonrakı dövrdə Azərbaycan torpaqlarının bölüşdürülməsi məsələsi ətrafında gedən Rusiya-İran danışıqlarını xronika şəklində öyrənmək və bu prosesin mahiyyətini açmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

T.Mustafazadənin əsəri[208] XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Osmanlı-Azərbaycan münasibətlərinə həsr olunmuşdur. Əsərdə XIX əsrin əvvəllərində Rusiya, İran və Osmanlı dövlətlərinin Azərbaycana münasibətdə yeritdikləri siyasətlə bağlı bir sıra maraqlı fakt və mülahizələr yer almışdır.

V.Umudlunun əsəri [236] XIX əsrin əvvəllərində Azərbaycan xanlıqlarının rus işğalçılarına qarşı apardıqları müqavimət hərəkatını öyrənmək baxımından əhəmiyyətlidir. Əsərdə Rusiya-İran müharibələri dövründə İrəvan xanlığı uğrunda Rusiyanın apardığı hərbi-siyasi mübarizə və xanlığın müqavimət hərəkatı mövzumuz baxımından diqqəti cəlb edir.

G.Nəcəflinin əsərləri[210;211] XVIII əsrin ikinci yarısında Cənubi Qafqazda ictimai-siyasi vəziyyət, Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə əlaqələri və Rusiyanın Cənubi Qafqazda erməni dövləti yaratmaq istiqamətindəki sistemli fəaliyyətini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir.

2004-2005-ci illərdə nəşr olunan “Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası”nda[137;138] İrəvan quberniyası və bu ərazilərdə azərbaycanlılara qarşı törədilən soyqırım cinayətləri ilə bağlı əhəmiyyətli məlumatlar vardır.

M.Süleymanovun əsərləri[225;226;227] XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqazda həyata keçirdiyi işğalçılıq siyasətini, bu siyasətin bir sıra hərbi aspektlərini, habelə işğal prosesində ermənilərin və erməni kilsəsinin nə kimi rol oynadıqlarını öyrənmək baxımından maraq doğurur.

Z.Şahverdiyevin əsəri[229] XIX-XX əsrin əvvəllərində Naxçıvan bölgəsinin tarixinə həsr olunsa da, bu əsərdə İrəvan bölgəsi ilə bağlı maraq doğuran fakt və mülahizələrə rast gəlmək mümkündür.E. Arif (Şıxəliyevin) əsərində tədqiq etdiyimiz problemlə bağlı yeni faktlar diqqəti cəlb edir[147].

Tədqiq etdiyimiz mövzu ilə bağlı M.Quliyevin[175], E.Cəfərlinin[145], E.Zamanovun[242] və digər müəlliflərin əsərlərində də bir sıra qiymətli fakt və mülahizələr yer almışdır.

2010-cu ildə Y.Mahmudovun ümumi rəhbərliyi və redaktəsi altında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun müəllif kollektivi tərəfindən nəşr olunan və sonrakı illərdə bir çox xarici dillərə tərcümə edilən “İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi” əsəri[166] Rusiyanın Cənubi Qafqazda, Azərbaycanda, o cümlədən də İrəvan bölgəsində həyata keçirdiyi işğalçılıq və ermənilərin köçürülməsi siyasətinin əsl mahiyyətini üzə çıxarmaq, İrəvan xanlığı ərazisində ermənilərin məskunlaşdırılması, bölgənin etnodemoqrafiq vəziyyətinin dəyişdirilməsi və bu ərazidə erməni dövlətinin yaradılması prosesini öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir.

İ.Hacıyevin 2012-ci ildə Naxçıvanda çap olunmuş əsəri[159] ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və törətdikləri qanlı cinayətləri öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Əsərdə əsas diqqət Naxçıvan bölgəsi ilə bağlı cərəyan edən hadisə və proseslərə verilsə də, burada İrəvanla bağlı bir sıra maraq doğuran fakt və mülahizələr yer almışdır.

V.Rzayevin 2016-cı ildə Naxçıvanda çap olunmuş “XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr” adlı əsəri[219] İrəvan bölgəsində təhsil və məktəb problemini öyrənmək baxımından maraq doğurur.

Son dövr tədqiqatları içərisində İ.Niftəliyevin əsəri[342] 1918-1920-ci illərdə İrəvan bölgəsində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırım cinayətlərini araşdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Əsərdə söylənilən fakt və mülahizələri təsdiq edən sənəd və materiallar da verilmişdir.Həmçinin F.Cəfərovun əsərində də erməni vəhşiliyi yeni tutarlı faktlarla verilmiış,"Qırmızı tabor"un üzvülərinin bir çoxunun fəaliyyəti sistemli araşdırılmışdır [146].

Tədqiq etdiyimiz dövrlə bağlı Türkiyə tarixşünaslığında nəşr olunan əsərlər də maraq doğurur. XIX-XX əsrin əvvəllərində Osmanlı-Rusiya münasibətləri, Osmanlı dövlətinin Qafqaz siyasəti və ermənilərin törətdiyi soyqırımlarla bağlı yazılan əsərlərdə[247;248;249;251;253;257]İrəvan bölgəsində gedən proseslərə bu və ya digər dərəcədə toxunulmuşdur. Türkiyə tarixşünaslığında bəzi əsərlər istisna olmaqla əksəriyyət etibarilə yalnız türk mənbələrinə istinadən yazıldığından bu əsərlərdə birtərəflilik hökm sürür.

Azərbaycan mühacir tarixşünaslığında yazılan əsərlərdə İrəvan bölgəsinin tarixindən birbaşa bəhs edən əsərlər olmasa da, bu əsərlərdə İrəvan bölgəsi və xanlığının tarixinə ümumazərbaycan tarixi kontekstində yanaşılır, daha çox bölgədə baş verən soyqırım cinayətlərinə diqqət yetirilir. Bu əsərlər içərisində C.Zeynaloğlunun 1924-cü ildə İstanbulda nəşr olunan "Müxtəsər Azərbaycan tarixi" əsəri xüsusi maraq doğurur[243]. Əsərdə İrəvan xanlığının tarixinə digər Azərbaycan xanlıqları kimi ümumazərbaycan tarixi kontekstindən yanaşılır, xanlığın siyasi tarixi, əhalisi, iqtisadiyyatı, pul vahidləri, ölçü və çəki vahidləri, vergi və mükəlləfiyyətləri haqqında qiymətli məlumatlar verilir.

Beləliklə, tarixşünaslığın qısa xülasəsindən də aydın olur ki, dissertasiya işi üçün seçilmiş "Azərbaycanın İrəvan bölgəsi XIX-XX əsrin əvvəlləri" mövzusu indiyə qədər istər vətən, istərsə də xarici ölkə tarixşünaslıqlarında ayrıca tədqiqat obyekti olmamışdır. Odur ki, bu problemin ayrıca mövzu kimi ilkin arxiv sənəd və materialları və geniş elmi ədəbiyyat əsasında kompleks şəkildə araşdırılması tarixşünaslıqda mövcud olan boşluğun doldurulmasında əhəmiyyətli rol oynaya bilər.

**Mövzunun mənbə bazası.** Tədqiqatın gedişində mövzu ilə bağlı xeyli sayda arxiv sənədləri elmi dövriyyəyə cəlb edilmiş və geniş təhlil olunmuşdur. Bu

sənədlərin bir qismi Azərbaycan, Türkiyə, Gürcüstan və Rusiya arxivlərində saxlanılır, digər qismi isə müxtəlif illərdə Azərbaycan, Rusiya, Gürcüstan, və Ermənistanda sənədlər toplusu halında çap olunmuşdur.

Dissertasiyanın mənbəşünaslıq bazasının böyük bir hissəsini Moskvadakı Rusiya Dövlət Hərbi Tarix Arxivinin (Российский государственный военно-исторический архив – (РГВИА)) materialları təşkil edir. Bu arxivin 41 saylı "Hərbi-Elmi Arxiv" – VUA (Voenno-Uçenıy Arxiv) fondunda saxlanılan sənədlər XVIII əsrin sonu-XIX əsrin birinci yarısında Rusiyanın Qafqazdakı işğalları və bu ərazilərdə möhkəmlənməsi ilə bağlıdır. Bəhs edilən dövrdə Rusiyanın Qafqazdakı hərbi və mülki məmurları ilə mərkəzi hökumət arasındakı yazışmaları, Qafqazdakı rus məmurlarının mərkəzi hökumətə ünvanladıqları raportları və digər bu kimi məktub və yazıları ehtiva edən bu sənədlər içərisində Rusiya imperiyasının Cənubi Qafqaz, Azərbaycan, o cümlədən İrəvan bölgəsi ilə bağlı çox qiymətli sənəd və materiallar vardır. Bu sənədlər əsasında çarizmin İrəvan bölgəsində yeritdiyi siyasət və həyata keçirdiyi tədbirlər haqqında dolğun məlumat əldə etmək və bölgənin erməniləşdirilməsi siyasətini mərhələ-mərhələ izləmək və yeridilən siyasətin əsl mahiyyətini açmaq mümkündür.

Tədqiqat zamanı XIX əsrdə çarizmin Qafqazda,o cümlədən İrəvan bölgəsində yeritdiyi siyasətlə bağlı Rusiya Federasiyası Dövlət Tarix Arxivinin (Российский Государственный Исторический Архив (РГИА)) müxtəlif fondlarında saxlanılan sənəd və materiallarına da müraciət edilmişdir.

Dissertasiyanın mənbə bazasının böyük bir hissəsini Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində (BOA) Xətti-Hümayun (HAT) fond kodu altında saxlanılan sənəd və materiallar təşkil edir. Bu sənəd və materiallar XIX əsrdə, xüsusilə də əsrin birinci yarısında Osmanlı dövlətinin şərq vilayətlərinin ordu komandanlıqları ilə Osmanlı Hərbi Nazirliyi və sədrəzəmi arasında gedən yazışmalardır. Bu yazışmalarda rus işğalları ilə bağlı Qafqazdakı vəziyyət, Rusiya-Osmanlı müharibəsinin Qafqaz cəbhəsində gedişi, həmin dövrdə Azərbaycan xanlıqlarının, o cümlədən İrəvan xanlığının əhalisinin bu müharibəyə münasibəti, Osmanlı sərəsgərləri ilə müxtəlif Azərbaycan xanları, o cümlədən İrəvan xanı

arasındakı əlaqələr, Azərbaycana göndərilən sultan fərmanları və bu fərmanların doğurduğu nəticələr ilə bağlı çox mühüm əhəmiyyət kəsb edən məlumatlar vardır. Eyni zamanda Osmanlı arxiv sənədləri içərisində XX əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən İrəvan bölgəsində ermənilər tərəfindən türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım cinayətləri ilə bağlı Qafqazdakı Osmanlı ticarət konsullarından Osmanlı hökumətinə göndərilən raport və məktublar, İrəvan bölgəsi müsəlmanlarının adı çəkilən soyqırım cinayətlərinin qarşısını almaq üçün Osmanlı hökumətinə ünvanladıqları imdad çağırışlı müraciətnamələr, bu raport və müraciətlərlə bağlı Osmanlı hökumətinin Rusiya ilə apardığı danışıqları ehtiva edən sənəd və materiallar mövzumuz baxımından müstəsna əhəmiyyətə malikdir.

Tədqiqat zamanı Türkiyə Cümhuriyyəti Genelkurmay Başkanlığının Askeri Tarix və Strateji Etüd Arxivində (ATASE) Birinci Dünya müharibəsi kolleksiyasında saxlanılan sənəd və materiallardan, Azərbaycan Respublikası Dövlət Arxivinin (ARDA) 894, 970-ci fondlarından, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin (ARPİİSSA) 276-cı fondundan,Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin(314,45,582)fondlarından habelə Gürcüstan Respublikası Dövlət Tarix Arxivinin sənəd və materiallarına da müraciət edilmişdir.

Dissertasiyanın mənbəşünaslıq bazasının böyük bir hissəsini də çap olunmuş arxiv sənədləri təşkil edir. Çap olunmuş rus arxiv sənədləri içərisində A.Berjenin ümumi redaktəsi ilə tərtib olunaraq 1866-1904-cü illərdə Tiflisdə nəşr olunan Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları(AKAK) [261] xüsusi yer tutur. Bu aktlarda Rusiyanın Qafqaz siyasəti və bölgədə baş verən hadisə və proseslər, o cümlədən İrəvan bölgəsi ilə bağlı yüzlərlə sənəd, fərman, göstəriş, raport, məktub və digər sənədlər toplanmışdır. Tədqiqat zamanı bu aktlar toplusunun bütün cildlərindən istifadə edilmişdir.

XIX əsrin ortalarından etibarən 1916-cı islədək Tiflisdə nəşr olunmuş “Qafqaz təqvimləri”ndə (Кавказский календарь) cəmlənmiş sənəd və materiallara geniş müraciət edilmişdir.

Fransız mənşəli rus tədqiqatçısı İ.İ.Şopenin 1829-1832-ci illərdə “Erməni vilayəti” adlandırılan ərazidə - Naxçıvan və İrəvan xanlıqları ərazisində həyata

keçirdiyi kameral təsvirin nəticələri 1852-ci ildə "Rusiya imperiyasına birləşdiyi dövrdə Erməni vilayətinin tarixi abidələrinin vəziyyəti" adı altında nəşr olunmuşdur[405]. Geniş statistik məlumatların toplandığı bu əsərdə rus işğalının ilk illərində İrəvan bölgəsinin əhalisinin sayı, cinsi, milli-etnik tərkibi və yerləşməsi ilə bağlı çox mühüm sənədlər – aparılmış kameral təsvirin nəticələri toplanmışdır. Məhz bu əsərdə toplanmış materiallar İrəvan bölgəsinə ermənilərin köçürülməsi, yerləşdirilməsi və bu köçürmələrin bölgənin əhalisinin etnik tərkibində yaratdığı ciddi dəyişiklikləri tam gerçəkliyi ilə ortaya qoyur.

Qafqaz və Azərbaycanla bağlı çap olunmuş Osmanlı arxiv sənədləri 1993-cü ildə Ankarada nəşr olunaniki cildlik "Osmanlı devleti ile Azerbaycan türk hanlıqları arasındaki münasebetlere dair arşiv belgeleri"[254] adlı sənədlər toplusunda da mövzumuzla bağlı bəzi sənədlər yer almışdır.

Y.Mahmudov və K.Şükürovun "Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları" əsəri[187] bəhs etdiyimiz dövrdə Rusiya-İran və Rusiya-Osmanlı arasında imzalanan müqavilə və hüquqi aktları öyrənmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Əsərdə dövlətlərarası aktların meydana gəlməsi şərh edilmiş və imzalanan müqavilə və digər aktların tam mətni verilmişdir.

Tədqiqatın gedişində Rusiya, Gürcüstan və Ermənistanda müxtəlif illərdə çap olunmuş sənəd toplularına da müraciət olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** XIX-XX əsrin əvvəllərində İrəvan bölgəsinin hərbi, siyasi, ictimai, iqtisadi və mədəni tarixinin kompleks şəkildə araşdırılması tədqiqatın əsas məqsədidir. Bu məqsədə nail olmaq üçün konkret olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- XIX əsrin əvvəllərində Cənubi Qafqazın, o cümlədən İrəvan xanlığının hərbi-siyasi vəziyyətinin araşdırılması;

- Rusiya-İran müharibələri dövründə İrəvan xanlığının hərbi-siyasi vəziyyətinin, bu müharibələrdə mövqeyinin və onun Rusiya tərəfindən işğal edilməsi prosesinin araşdırılması;

- Rusiya işğalından sonra İrəvan bölgəsində tətbiq edilən idarəçilik sisteminin və bu sistemdə azərbaycanlıların yerinin və rolunun öyrənilməsi;

- İrəvan bölgəsinin erməniləşdirilməsi siyasətinin öyrənilməsi və bölgənin erməniləşdirilməsinin forma və metodlarının, mərhələlərinin araşdırılması;

- İran və Osmanlı dövlətlərindən ermənilərin Cənubi Qafqaza, xüsusilə də İrəvan bölgəsinə köçürülməsinə dair Rusiya siyasətinin hazırlanması və həyata keçirilməsinin araşdırılması;

- Ermənilərin İrəvan bölgəsinə köçürülməsinin əsas mərhələləri, dinamikası, coğrafi yerləşdirilməsi bu köçürülmələrin bölgənin etno-demoqrafik vəziyyətində yaratdığı dəyişikliklərin öyrənilməsi;

- XIX əsrin 40-60-cı illərində Cənubi Qafqazda həyata keçirilən islahatların İrəvan bölgəsində tətbiqinin və bunların ümumi nəticələrinin araşdırılması;

- İrəvan bölgəsinin iqtisadiyyatının əsas sahələrinin araşdırılması, iqtisadi vəziyyətdə baş verən dəyişikliklərin və bunların müstəmləkə xarakterinin aydınlaşdırılması;

- İrəvan bölgəsinin Azərbaycanın mədəni həyatında oynadığı rol və onun ümumazərbaycan mədəniyyətində yerinin aydınlaşdırılması;

- İrəvan bölgəsində tətbiq edilən quberniya idarəçiliyini və bölgənin inzibati-siyasi vəziyyətində baş verən dəyişikliklərin öyrənilməsi;

- İrəvan bölgəsinin ərazisinin və əhalisinin öyrənilməsi, əhalinin milli-etnik tərkibinin, onun yerləşməsinin və dinamik inkişafına təsir edən amillərin araşdırılması;

- XIX əsrin sonu - XX əsrin əvvəllərində Cənubi Qafqazdakı erməni-müsəlman konfliktini yaradan səbəblərin öyrənilməsi türk-müsəlmanlara qarşı soyqırımın İrəvan bölgəsində gedişinin izlənilməsi;

- 1918-1920-ci illərdə İrəvan bölgəsində ermənilərin azərbaycanlılara qarşı soyqırım və etnik təmizləmə siyasətinin öyrənilməsi, bu soyqırımların gedişi və yekun nəticələrinin aydınlaşdırılması;

- İrəvanın ermənilərə verilməsi və bu bölgədə erməni dövlətinin yaradılması prosesinin tədqiq edilməsi, öyrənilməsi və təhlillər aparılması.

**Tədqiqatın predmeti.** Dissertasiya işinin başlıca predmeti kimi 1800-1918-ci illərdə İrəvan bölgəsi ilə bağlı bölgədə və onun hüdudlarından kənarda cərəyan edən hərbi-siyasi, ictimai- iqtisadi, mədəni hadisə və proseslər tədqiq edilmişdir.

**Tədqiqat işinin metodoloji əsası.** Tədqiqatın metodoloji əsasını müqayisəli-tənqidi təhlil, sistemli analiz, tarixi hadisələrə kompleks yanaşma və obyektivlik prinsipləri təşkil edir. Tədqiqat zamanı həmçinin, tarixi alternativlik prinsipi əsas götürülmüş, mənbələrin müqayisəli-tənqidi təhlilinin aparılmasına üstünlük verilmişdir. Dissertasiya işi problemlər üzrə xronoloji ardıcıllıqla yazılmışdır. Tarixi hadisə və proseslərə yanaşmada rəğbət və ya nifrət deyil, tarixi fakt və hadisələrə obyektiv münasibət göstərilmiş, mənbələr hərtərəfli dərindən təhlil edilmiş, nəzəri fikirlər arxiv sənəd və materialları ilə əlaqələndirilmiş, məntiqi təhlil yolu ilə tarixi hadisə və proseslərin əsl mahiyyətinin açılmasına cəhd göstərilmiş, konseptual nəticələr əldə edilmiş, nəzəri ümumiləşdirmələr aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Təqdim olunan dissertasiya işində tarixşünaslıqda ilk dəfə olaraq "Azərbaycanın İrəvan bölgəsi XIX-XX əsrin əvvəllərində" mövzusu kompleks şəkildə ayrıca problem kimi elmi nəzəri cəhətdən ətraflı tədqiq olunmuşdur. Tədqiqat zamanı mövzu ilə bağlı Osmanlı və Rusiya mənbələri, o cümlədən geniş tarixi ədəbiyyat ətraflı araşdırılaraq aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

- XIX əsrin əvvəllərində Rusiyanın Cənubi Qafqaz siyasətində Azərbaycanın, o cümlədən İrəvan xanlığının yeri və rolu müəyyən edilmiş, İrəvan bölgəsinin hərbi-siyasi vəziyyəti aydınlaşdırılmışdır;
- Rusiya-İran müharibələrində İrəvan xanlığının mövqeyi aydınlaşdırılmış, təhlil edilmiş və xanlığın Rusiya tərəfindən işğal edilməsi prosesi işıqlandırılmışdır;
- Rusiya işğalından sonra İrəvan bölgəsində tətbiq edilən idarəçilik sistemi, bu sistemin mahiyyəti və bu idarəçilikdə azərbaycanlıların yeri və rolu öyrənilmiş, "Erməni vilayəti" idarəçiliyinin məhz bölgənin erməniləşdirilməsi üçün tətbiq edildiyi faktlarla sübuta yetirilmişdir;

- İran və Osmanlı dövlətlərindən ermənilərin Cənubi Qafqaza, xüsusilə də İrəvan bölgəsinə köçürülməsinə dair Rusiya siyasətinin hazırlanması və həyata keçirilməsi araşdırılmış, geniş təhlillər aparılmışdır;

- İrəvan bölgəsinin erməniləşdirilməsi və xaricdən bu ərazilərə zaman-zaman erməni köçünün gerçəkləşdirilməsi siyasətinin Rusiyanın strateji məqsədlərindən doğduğu və türk-müsəlman dünyasını bir-birindən ayırmaq və Osmanlı ərazilərinə gələcək müdaxilələr üçün bufer zona yaratmaq niyyətlərinə xidmət etdiyi sübuta yetirilmişdir;

- Ermənilərin İrəvan bölgəsinə köçürülməsinin əsas mərhələləri, dinamikası, coğrafi yerləşdirilməsi bu köçürülmələrin bölgənin etno-demoqrafik vəziyyətində yaratdığı dəyişikliklər öyrənilmiş, köçürülən ermənilər hesabına bölgənin tarixən formalaşmış etnik tərkibinin süni şəkildə dəyişdirildiyi faktlarla göstərilmiş və geniş təhlil edilmişdir;

- İrəvan bölgəsinin iqtisadi həyatı və Rusiya işğalının bölgənin iqtisadi həyatına gətirdiyi dəyişikliklər, çarizmin bölgədə yeritdiyi etnik ayrı-seçkilik siyasətinin iqtisadi sferada yaratdığı problemlər aydınlaşdırılmış, əhalinin sosial-iqtisadi vəziyyəti işıqlandırılaraq təhlil edilmişdir;

- İrəvan bölgəsinin inzibati-siyasi vəziyyətində tətbiq edilən dəyişikliklər, son olaraq bölgədə yaradılan quberniya idarəçiliyi, bu idarəçiliyin mahiyyəti və burada azərbaycanlıların yeri və rolu müəyyən edilmişdir;

- İrəvan bölgəsinin ərazisi müəyyənləşdirilmiş, xanlıq dövrü ilə müqayisədə quberniya dövründə bölgənin inzibati ərazi bölgüsündə və ümumi sahəsində yaranan fərqliliklər müəyyən edilmiş, bunun səbəbləri aydınlaşdırılmışdır;

- İrəvan bölgəsində yaşayan əhali, onun milli-etnik, dini, cinsi, silki tərkibi, yerləşməsi, onun dinamik inkişafına təsir göstərən amillər araşdırılmış və təhlil edilmişdir;

- XIX əsrin sonu - XX əsrin əvvəllərində Cənubi Qafqazdakı erməni-müsəlman konfliktini yaradan səbəblər öyrənilmiş, türk-müsəlmanlara qarşı soyqırımın İrəvan bölgəsində gedişi işıqlandırılmışdır;

- 1918-1920-ci illərdə İrəvan bölgəsində ermənilərin azərbaycanlılara qarşı soyqırım, etnik təmizləmə siyasəti, onun forma və metodları araşdırılmış, bu soyqırımların gedişi və yekun nəticələri aydınlaşdırılmış, azərbaycanlılara qarşı soyqırım siyasətinə erməni ziyalılarının və erməni dövlətinin birbaşa rəhbərlik etdiyi faktlarla sübuta yetirilmişdir;
- İrəvanın ermənilərə verilməsi və bu bölgədə erməni dövlətinin yaradılması prosesi araşdırılmış, bölgədə erməni dövlətinin yaradılması məhz böyük dövlətlərin təsiri və təzyiqi ilə gerçəkləşdirildiyi, Azərbaycan tərəfinin isə fakt qarşısında qalaraq bu acı reallığı qəbul etməkdən başqa bir iş görə bilmədiyi, ermənilərin isə İrəvanın onlara verilməsi və bölgədə erməni dövlətinin yaradılması qarşılığında üzərlərinə götürdüyü öhdəliklərin heç birinə əməl etmədiyi faktlarla sübuta yetirilmişdir.

**Tədqiqat işinin nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işində toplanmış çoxsaylı arxiv sənəd və materialları aparılmış təhlillər, ümumiləşdirmələr, irəli sürülmüş təkliflər XIX-XX əsrin əvvəllərində İrəvan bölgəsinin tarixi probleminə yeni yanaşma prizmasından müəyyən elmi maraq kəsb edir. Tədqiqat işində əldə edilən yekun elmi nəticələr XIX-XX əsrin əvvəllərində İrəvan bölgəsinin, həmçinin Azərbaycanın və bütövlükdə Qafqazın tarixi ilə bağlı tədqiqat işlərinin aparılmasında, ümumiləşdirilmiş əsərlərin yazılmasında istifadə oluna bilər. Eyni zamanda, uzun illər ərzində Azərbaycan tarixinin saxtalaşdırmalara ən çox məruz qalmış tarixi bir bölgəsinin tarixinin heç bir subyektivizmə yol vermədən, obyektiv şəkildə yazılması İrəvan bölgəsinin son iki yüz illik tarixi ilə bağlı ermənilərin "Ermənistan tarixi" və ya "Şərqi Ermənistan tarixi" adları altında təqdim etdikləri saxta, uydurma konsepsiyanın əsassız olduğu gerçəyini də sübuta yetirir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiyanın mövzusu Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında, Universitet Elmi Şurasında və AMEA-nın Humanitar və İctimai Elmlər üzrə Problem Şurasında təsdiq olunmuşdur. Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin "Azərbaycan tarixi" kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəaları dissertantın Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyyə etdiyi elmi

nəşrlərdə çap olunmuş əsərlərində,elmi məqalələrində, habelə respublika və beynəlxalq elmi konfranslarda etdiyi məruzələrdə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 4 fəsil, 13 paraqraf, nəticə, istifadə edilmiş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ ADU AZERBAIJAN UNIVERSITY OF LANGUAGES АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

# I FƏSİL
# XIX ƏSRİN ƏVVƏLLƏRİNDƏ CƏNUBİ QAFQAZDA HƏRBİ-SİYASİ VƏZİYYƏT. İRƏVAN XANLIĞININ RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALI VƏ ONUN İDARƏÇİLİYİ

## 1.1 XIX əsrin əvvəllərində Cənubi Qafqazda hərbi-siyasi vəziyyət və İrəvan xanlığının Rusiya tərəfindən işğalı

İrəvan bölgəsi tarixən Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. İrəvan şəhərinin bir mərkəz kimi yüksəlişi isə, Çuxursəd bəylərbəyliyi və İrəvan xanlığı dövrlərinə aiddir. XV əsrdən etibarən Arpa çayın Arazla birləşdiyi yerdən başlayaraq Ağrıdağla Alagöz dağları arasındakı çökəklik vadi ərazi Sədi çuxuru kimi tanınmış və Çuxursəd istilahı şəklində işlənmişdir. Azərbaycan Səfəvi dövləti dövründə, XVI əsrin əvvəllərində bu ərazidə mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyliyi yaradılmışdır[144, s.104]. Çuxursəd bəylərbəyliyi Qərbi Azərbaycan torpaqlarının böyük bir hissəsini əhatə etməklə bu ərazinin ilk ümumi coğrafi adı hesab oluna bilər.

1578-1590-cı illər Osmanlı-Səfəvi müharibəsi zamanı – 1585-ci ildə Çuxursəd bəylərləyliyi Osmanlı qoşunları tərəfindən işğal edildi və bu münasibətlə İstanbulda Topqapı sarayı ərazisində "Rəvan köşkü" adlanan abidə ucaldıldı. 1590-cı il İstanbul sülhünə görə, bir çox digər Azərbaycan əraziləri kimi, Çuxursəd bəylərbəyliyinin ərazisi də Osmanlı dövlətinə verildi[150, s.179]. Çuxursəd ərazisinin Osmanlı hakimiyyəti altında olduğu 1585-1603-cü illər ərzində bu ərazi Rəvan (İrəvan) əyaləti adlandırılmış və əyalətlə bağlı Osmanlı hökuməti bir neçə müfəssəl və icmal dəftərləri (Rəvan əyalətinin müfəssəl dəftəri-1590; Rəvan əyalətinin icmal dəftəri-təxm. 1595; Dəftəri Sicili Livayi Rəvan-1603) tərtib etmişdir[165, s.6-7]. 1590-cı il tarixli müfəssəl dəftərə görə, İrəvan əyalətinin 10 nahiyyəsi (İrəvan, Karbi, Vedi, Aralıq, Talin, Ərmus, Abnik, Abaran, Şərabxana) olan İrəvan livasından və 16 nahiyyəsi (Ağcaqala, Məvaziyi-Xatun, Mülki-Arslanlı, Qarabağ, Dərəşam,

Dərəşahbuz, Bazarçayı, Şərur, Zar, Zəbil, Əlincə, Sisyan, Azadciran, Ordubad (görünür bu müvəqqəti xarakter daşımışdır), Şorlut, Dərənürgat) və bir qəzası (Naxçıvan) olan Naxçıvan livasından ibarət idi[165, s. 8-9].

Səfəvi hökmdarı Şah Abbasın (1587-1629) apardığı 1603-1612-ci illər Səfəvi-Osmanlı müharibəsi zamanı, 1603-cü ildə İrəvan bölgəsi Osmanlı qoşunlarından azad edildi və tərəflər arasında bağlanmış 1612-ci il müqaviləsinə görə, Osmanlı dövləti 1590-cı il İstanbul sülhü ilə əldə etdiyi Səfəvi ərazilərini, o cümlədən də Çuxursəd ərazisini geri qaytarmalı oldu. Bundan sonrakı dövrdə Çuxursəd ərazisi bir neçə dəfə Osmanlı hücumlarına məruz qalsa da, bu ərazi əvvəlllər olduğu kimi, XVIII əsrin 20-ci illərinədək Səfəvi dövlətinin sərhədləri daxilində qalmışdır.

XVIII əsrin əvvəllərində Səfəvi dövlətinin keçirdiyi ağır iqtisadi- siyasi və hərbi böhrandan yararlanan Rusiya imperatoru I Pyotrun Xəzəryanı bölgələri işğal etməsi və buna cavab olaraq Osmanlı dövlətinin bölgəyə qoşun yeritməsi, nəticədə tərəflər arasında 1724-cü il İstanbul müqaviləsinin imzalanması ilə yekunlaşdı. Bu müqaviləyə görə, Xəzəryanı bölgələr istisna olmaqla, yerdə qalan bir çox Azərbaycan əraziləri, o cümlədən İrəvan bölgəsi Osmanlı dövlətinə verildi[131, s.363]. Osmanlı hökuməti 1590-cı ildə olduğu kimi, 1728-ci ildə də İrəvan əyalətinin müfəssəl dəftərini tərtib etmişdi. Bu zaman Osmanlı hökuməti Naxçıvan bölgəsi üçün ayrıca müfəssəl dəftər tərtib etmiş, Zar, Zəbil və Şərur nahiyyələri Naxçıvan sancağının tərkibindən çıxarılaraq İrəvan əyalətinə birləşdirilmişdi. Bundan əlavə, Maku, İğdır, Sürməli nahiyyələrinin İrəvan əyalətinə birləşdirilməsi ilə bərabər, bu əyalətin ərazisində Göyçə, Məzrə, Xınzirək, Qırxbulaq, Dərəçiçək və əhalisi 100 faiz türk olan Sədərək nahiyyələri və Şürəgəl livası yaradılmış, XVI əsrin sonunda mövcud olmuş Talin, Ərmavi, Abnik, Şərabxana nahiyyələri isə yeni yaradılmış nahiyyələrə verilmişdir[165, s.9].

1728-ci il tarixli İrəvan əyalətinin müfəssəl dəftərinə görə, adı çəkilən əyalət İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzirək, Karni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zarzəmin nahiyyələri və Şürəgəl livasından ibarət olmuşdur[165, s.9].

Səfəvilər dövlətinin əvvəlki qüdrətini bərpa edən Nadir xan Osmanlılara qalib gələrək, 1735-ci ildə İrəvan əyalətini Səfəvilərə qaytardı. Bundan sonrakı dövrdə İrəvan əyaləti digər Azərbaycan əraziləri kimi Nadir şah imperiyasının (1736-1747) tərkibinə daxil edildi. Nadir şahın inzibati ərazi bölgü siyasəti də böyük maraq doğurur. Belə ki o, Səfəvilər dövründə mövcud olmuş Şirvan, Qarabağ, Azərbaycan və Çuxursəd bəylərbəyiliklərini ləğv edib, bu bəylərbəyiliklərin ərazisində mərkəzi Təbriz olan vahid Azərbaycan vilayəti yaratdı. Bu addım təsadüfi olmayıb, digər bəylərbəyiliklər kimi Çuxursədin də Azərbaycan torpağı olmasının təsdiqi idi[157, s.13].

1747-ci ildə Nadir şahın qətli ilə onun yaratdığı imperiya xırda dövlətlərə - xanlıqlara parçalandı. Bu zaman Azərbaycan ərazisində də iyirmi xanlıq yarandı. Bunlardan biri də İrəvan xanlığı idi. İrəvan xanlığının meydana gəlməsi bir tərəfdən Nadir şahın qətlindən sonra yaranan vəziyyətlə bağlı idisə, digər tərəfdən Qərbi Azərbaycanın tarixi inkişafının nəticəsi idi. Artıq qeyd etdiyimiz kimi, Qərbi Azərbaycan torpaqları bu və ya digər dövlətlərin tərkibinə daxil olmuşdu, lakin burada ayrıca dövlət yaranmamışdı. İlk belə dövlət İrəvan xanlığı oldu[157, s.13].

İrəvan xanlığı tarixi Azərbaycan torpaqlarında yaranmaqla, Ağrı dağı ilə Alagöz dağı arasındakı Araz çayının hər iki sahilində yerləşən əraziləri əhatə edirdi. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsi İrəvan xanlığının mərkəz əraziləri idi. İrəvan xanlığı şimaldan Pəmbək əyaləti, Şəmşədil və Qazax sultanlıqları və Gəncə xanlığı, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənubdan Xoy və Maku xanlıqları, cənub-qərb və qərbdən Osmanlı imperatorluğu ilə həmsərhəd idi. 23,8 min kv. km. ərazini əhatə edən İrəvan xanlığı 15 mahala bölünürdü: 1) Qırxbulaq; 2) Zəngibasar; 3) Gərnibasar; 4) Vedibasar; 5) Şərur; 6) Şuran; 7) Dərəkənd; 8) Saatlı; 9) Talin; 10) Seyidli-Axsaxlı; 11) Sərdarabad; 12) Karpi; 13) Abaran; 14) Dərəçiçək; 15) Göyçə[405,c.442-446].

İrəvan xanlığı yarandığı 1747-ci ildən 1797-ci ilədək müstəqil xanlıq olmuş, 1797-1828-ci illər ərazində isə İranın ali hakimiyyəti altında mövcudiyyətini davam etdirmiş, daxili müstəqilliyini, eyni zamanda xarici siyasətdə də bu və ya digər dərəcədə müstəqilliyini qoruyub saxlaya bilmişdi. Bu müddət ərzində İrəvan

xanlığını aşağıdakı xanlar idarə etmişdir: Mehdi xan Qasımlı (Əfşar) (1747-1748), Məhəmməd Hüseyn xan Gəraylı (1748-1751), Xəlil xan Özbək (1751-1755), Həsənəli xan Qacar (1755-1759), Hüseynəli xan Qacar (1759/60-1783 noyabr), Qulaməli xan Qacaq (1783-1784 yay), Məhəmməd Hüseyn xan Qacar (1784-1805 iyun), Əliqulu xan Qacar (1797 iyun), Həsən xan Makulu (1797 yay), Mehdiqulu xan Qacar (1805 yay-1806 avqust), Əhməd xan Marağalı (1806 avqust-oktyabr), Hüseynqulu xan Qacar (1806 dekabr-1827 oktyabr) [166, s.60-61].

XVIII əsrin ikinci yarısında Azərbaycanda mövcud olan başqa xanlıqlar kimi, İrəvan xanlığının da siyasi tarixi ardı-arası kəsilməyən feodal vuruşmaları, qanlı saray çevrilişləri və yadelli işğalçılara qarşı mübarizə ilə bağlıdır[157, s.50]. Aparılan mübarizələrə baxmayaraq, XVIII əsrin ikinci yarısı boyu Azərbaycan xanlıqlarının vahid bayraq ətrafında birləşdirilməsi prosesi uğursuzluqla nəticələndi. Bu isə, əsrin sonlarına doğru Azərbaycan xanlıqlarına xarici hərbi müdaxilə və onları işğal etmək üçün əlverişli şərait yaradırdı.

XVIII əsrin sonlarında Azərbaycanla bağlı işğalçılıq planlarını həyata keçirmək üçün əsasən İran və Rusiya dövlətləri, qismən də Osmanlı dövləti Cənubi Qafqazda fəallaşdı. İran, bu əraziləri işğal edib Nadir şah imperiyasının sərhədləri daxilində imperiyanı bərpa etməyə çalışırdı. Rusiya isə, hələ I Pyotrun dövründən başlayaraq Cənubi Qafqazı işğal etmək siyasəti yeridir, lakin istər I Pyotrun (1682-1725), istərsə də II Yekaterinanın (1762-1796) dövründə Cənubi Qafqaza qoşun yeridən Rusiya bu ərazilərdən əliboş geri dönməli olmuşdu.

Böyük əksəriyyətini Azərbaycan xanlıqları təşkil edən Cənubi Qafqaz ərazisi Rusiya üçün siyasi və hərbi-strateji cəhətdən çox böyük əhəmiyyət daşıyırdı. Birincisi, bu diyarın işğalı ənənəvi rus-türk rəqabətində qüvvələr nisbətini Rusiyanın xeyrinə həll edə bilərdi. İkincisi, Rusiya Mərkəzi Qafqazı hələ tam fəth edə bilməmişdi. Cənubi Qafqazın istilası dağlıların ərazilərini şimaldan və cənubdan mühasirəyə almaqdan ötrü əlverişli şərait yarada bilərdi. Nəhayət, rus-ingilis rəqabəti Cənubi Qafqazın, o cümlədən Azərbaycanın əhəmiyyətini artırırdı. Rusiyanın bu yerləri işğal etməsi Böyük Britaniyanın Şərqdə təsirinə, Ost-Hind kompaniyasının inhisarına ağır zərbə endirə bilərdi[132, s.15]. Buna görə də, 1801-ci ildə Rusiyada

imperator taxtına oturan I Aleksandr (1801-1825) dərhal bütün diqqətini Cənubi Qafqazın işğalına yönəltdi. Bəhs edilən dövrdə Cənubi Qafqazdakı pərakəndəlik və mürəkkəb hərbi-siyasi şərait Rusiyanın bu bölgəni işğal etməsini asanlaşdırırdı. Yaranmış vəziyyətdən yararlanan çar I Aleksandr 1801-ci il sentyabrın 12-də Kartli-Kaxetiya çarlığını Rusiyaya ilhaq etdi[261,c.267-268;399,c.36]. Daha sonra Rusiyanın Qafqazdakı qoşunlarının baş komandanı K.F.Knorrinq (1801-1802) 1802-ci il dekabrın 26-da Georgiyevskə dəvət etdiyi Quba və Talış xanlıqları nümayəndələri, eyni zamanda Tarki şamxalı, Qaraqaytaq üsmisi, Tabasaran hakimi və digər Dağıstan hakimləri ilə müqavilə bağlayıb onları Rusiyanın "himayəsinə" aldı[294,c.485].

Şərqi Gürcüstanın Rusiyaya ilhaq edilməsi ilə Azərbaycanın Kartli-Kaxetiya çarlığından asılı olan Qazax, Şəmşədil, Borçalı və Pəmbək əraziləri də Rusiyanın nəzarətinə keçdi. İrəvan xanlığı Pəmbək ərazisini öz ərazisi hesab edirdi və bu səbəbdən Pəmbəkin geri qaytarılması üçün ruslarla toqquşmalı oldu, lakin uğur qazanmadı[261,c.817-818]. Bununla da, 1801-ci ilin payızından başlayaraq İrəvan xanlığı ilə rus qoşunları arasında hərbi toqquşmalar başlayır.

Rusiya, ilhaq etdiyi Şərqi Gürcüstanın təhlükəsizliyinin təmin edilməsi, eyni zamanda İran və Osmanlı dövlətlərinə qarşı mübarizədə mühüm strateji əhəmiyyət daşıyan, Osmanlı dövləti ilə sərhəddə yerləşən İrəvan xanlığının işğalına böyük əhəmiyyət verirdi. Məhz elə bu səbəbdən idi ki, I Aleksandr Knorrinqə göndərdiyi 24 aprel 1802-ci il tarixli təlimatnaməsində tapşırıq verirdi ki, o, "Gürcüstanın təhlükəsizliyinin təmin edilməsi üçün" İrəvan xanlığının Rusiyanın təbəəliyini qəbul etməsinə nail olsun və Gəncə xanlığını işğal etsin[93, v.11]. Hələ bu təlimatnamənin göndərilməsindən əvvəl Knorrinq İrəvan xanlığını ələ keçirmək üçün cəhdlər edir və bu məqsədlə o, 1802-ci il aprelin 2-də İrəvan xanı Məhəmməd xana göndərdiyi məktubunda ona Rusiya təbəəliyini qəbul etməyi təklif etmişdi[93, v.29]. Osmanlı paşaları arasındakı daxili mübarizələrə də qarışan Məhəmməd xan isə, Rusiya ilə münasibətlərdə daha çox vaxt uzatmağa, siyasi oyunlar vasitəsilə Rusiya, İran və Osmanlı dövlətləri arasında manevr etməyə və bu yolla öz müstəqilliyini qorumağa çalışırdı.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Fransa inqilabı (1789-1794) beynəlxalq münasibətlərə həlledici təsir göstərmişdi. Fransanın Avropadakı işğallarının genişlənməsi və 1798-ci il iyulun 2-də Napoleon Bonapartın Misirə qoşun çıxarması Osmanlı dövlətini Rusiya ilə yaxınlaşdırdı və 1798-ci il dekabrın 23-də Fransa təhlükəsinə qarşı iki ölkə arasında 14 maddəlik (əlavə olaraq 13 gizli və bir əlavə maddə) ittifaq müqaviləsi bağlandı[43]. Bu ittifaqdan  İrəvan xanlığına qarşı yararlanmağa çalışan Knorrinq bir tərəfdən rus qoşunları ilə Qars paşalığının İrəvan xanlığına qarşı birgə hücumlarını təşkil edir[261,c.709], digər tərəfdən isə Məhəmməd xana məktublar göndərərək ona Rusiya təbəəliyini qəbul etməyi təklif edirdi[93, v.29].

Bu dövrdə Eçmiədzin katolikosluğuna rəhbərlik etmək uğrunda erməni kilsə xadimləri arasında mübarizə gedirdi. İrəvan xanı Məhəmməd xanın Rusiya imperatorunun fərmanı ilə erməni katolikosluğuna təsdiq edilmiş Danili katolikos kimi qəbul etməməsi və bu vəzifəyə özünə sadiq digər bir erməni keşişi Davidi təsdiq etməsi də rusların qəzəbinə səbəb olmuş və Knorrinq də bundan İrəvana hərbi müdaxilə etmək üçün yararlanmağa çalışırdı[296,c.268;396,c.129;353,c.20].

1802-ci ildə Qafqazdakı rus qoşunlarının baş komandanı vəzifəsinə Knorrinqin yerinə  Pavel Dmitriyeviç Sisianov (1802-1806) təyin edildi. Bununla da, Azərbaycan xanlıqlarına münasibətdə Knorrinqin nisbətən mülayim siyasətini Sisianovun qatı irticaçı və açıq təcavüz siyasəti əvəz etdi. Sisianov Rusiya Azərbaycan xanlıqlarına qarşı açıq təcavüz və müharibəyə başladı. 1803-cü il martın 29-da Car-Balakən,1804-cü il yanvarın 4-də Gəncə rus qoşunları tərəfindən işğal olundu.

Gəncənin işğalından sonra Sisianov bütün diqqətini İrəvan xanlığının işğalına yönəltdi. İrəvan xanlığını Rusiya təbəəliyinə qəbul etmək və Danilin erməni patriarxı kimi tanınması ilə bağlı Sisianovla Məhəmməd xan arasında altı ay davam edən məktublaşmalar istənilən nəticəni vermədi[296,c.279-285;262,c.605-610]. Sisianov imperator I Aleksandra göndərdiyi raportunda yazırdı: “Məhəmməd xan əlahəzrət imperatorun Danilin erməni patriarxı kimi tanınması haqqında yüksək göstərişini yerinə yetirməkdən imtina edir. Onun cəzasız qalması silahla ələ keçirdiyimiz ərazilərdə imperator əlahəzrətin nüfuzunu zəiflədir. Ona görə də mən Məhəmməd

xanı cəzalandırmaq və Danili erməni patriarxı etmək üçün İrəvana getməli və orada qarnizon yerləşdirməliyəm. Yerli erməni tacirləri bizi ərzaqla təmin etməyi vəd edirlər...” [262, c.610]. Sisianov eyni zamanda, bu raportunda İrəvan yürüşünü uğurla başa çatdırmaq üçün daha 4 alay və 100 min gümüş rubla ehtiyac duyduğunu da imperatorun nəzərinə çatdırır və daha sonra qeyd edirdi ki, o bu qüvvələrlə İrəvan, Naxçıvan, Qarabağ ərazilərini işğal edəcək və Kür-Araz boyu ərazilərin bütünlüklə işğalı kampaniyasını yekunlaşdıracaqdır[262, c.610]. Sisianov 1804-cü ilin mayında İrəvan xanlığı üzərinə hücuma keçmək haqqında əmr imzaladı. Mayın 29-da general-mayor Tuçkonun başçılıq etdiyi rus qoşunları İrəvan qalasına doğru hərəkətə başladılar. Onun ardınca Sisianovun komandası altında yerdə qalan polklar həmin istiqamətə yola düşdülər. İrəvan istiqamətinə hərəkət edən rus qoşunlarının sayı 4370 əsgər və zabitdən ibarət idi[157, s.115-116].

1804-cü ilin yazında İran Cənubi Qafqazı işğal etməkdə olan Rusiyaya qarşı müharibəyə hazırlaşırdı. Bu barədə Sisianovda yetərincə məlumatlar var idi. Bu səbəbdən o, İran qoşunlarının Cənubi Qafqaza daxil olmasından əvvəl cəld tərpənib İrəvanı ələ keçirməyə çalışırdı. Eyni zamanda, İran hökmdarı Fətəli şahdan formal asılı olan Məhəmməd xanın müstəqil hərəkətləri Tehran hökumətini narazı salmışdı və buna görə də Fətəli şah Məhəmməd xanı İrəvanda hakimiyyətdən uzaqlaşdırmağa çalışırdı. İndi həm Rusiya, həm də İran qoşunlarının eyni zamanda İrəvan istiqamətində hərəkəti Məhəmməd xanı son dərəcə tədbirli davranmağa, ehtiyatlı olmağa və siyasi manevrlər etməyə məcbur edirdi. Gəncə xanı Cavad xanın aqibətindən son dərəcə narahat olan Məhəmməd xan Rusiya ilə münasibətləri diplomatik yolla nizama salmağa çalışdısa da, bir nəticə əldə olunmadı. Məhəmməd xan müqavimət göstərmək qərarına gəldi və İrəvan qalasını möhkəmləndirmək üçün ciddi tədbirlər gördü. Qalanın müdafiəçilərinin sayını 7 min nəfərə çatdırdı və ərzaq tədarükü gördü.

1804-cü il iyun ayının əvvəllərində Tuçkonun komandanlıq etdiyi 1 alay və 2 batalyondan ibarət dəstə 8 topun müşaiyəti ilə İrəvan xanlığına məxsus Şörəyel vilayətini işğal etdi[396,c.138].

1804-cü il iyunun 10-da İran ilə Rusiya arasında diplomatik münasibətlər kəsildi və bir neçə gün sonra iki ölkə arasında müharibə başladı. Vəliəhd Abbas Mirzənin rəhbərlik etdiyi İran qoşunları İrəvan istiqamətinə hərəkət etdilər. Vəziyyətin ciddiliyini nəzərə alan Məhəmməd xan İran baş komandanlığından kömək istədi. Şahın verdiyi əmrə görə, Naxçıvan və İrəvan qalaları ciddi müdafiə edilməli, rus qoşunlarının hərəkəti dayandırılmalı idi[209, s.83-84]. Lakin İran və Rusiya arasında Eçmiədzin və Qəmərlidə olan ilk döyüşlərdə rus ordusu üstünlük qazandı. İyulun 2-də rus qoşunları İrəvanı mühasirəyə aldı. Abbas Mirzənin uğursuzluğunu eşidən Fətəli şah özü də buraya gəldi. İrəvan ətrafında ikiqat mühasirə yarandı: ruslar İrəvanı, iranlılar isə rusları arxadan mühasirəyə aldı. Bütün giriş-çıxış yolları sonuncuların üzünə qapandı[134, s.588]. Ciddi ərzaq çatışmazlığı ilə üzləşən Sisianovun ordusu İrəvan müdafiəçilərinin həmlələri qarşısında itkilər verərək çıxılmaz vəziyyətə düşmüşdü[199, s.69]. İran ordusu ilə toqquşmalarda da rus ordusunun itkiləri böyük idi[374,c.269-270]. İyulun 15-də rus qoşunlarının İrəvan qalasını almaq üçün 8 saatlıq hücumu dəf edildi. 300-dən çox itki verən ruslar döyüşü dayandırmalı oldular. Rus qoşunları Abbas Mirzənin qoşunlarını Araz çayının əks tərəfinə sıxışdırmağa nail olsa da, İrəvanı ala bilmədi. Sisianovun qalanı təslim etməklə bağlı Məhəmməd xana göndərdiyi müraciətlər də heç bir nəticə vermədi.

İran qoşunlarının yürüşündən ruhlanan Şəmşədil, Qazax, Borçalı, Car və digər bölgələrdə rus işğalçılarına qarşı üsyan dalğası baş qaldırdı. Belə bir vəziyyətdə İrəvanda dirənişlə qarşılaşan rus ordusu ciddi ərzaq, silah-sursat və yem çatışmazlığı ilə üzləşdi. Bütün bunları nəzərə alan Sisianov avqustun 31-də topladığı hərbi şurada İrəvanın mühasirəsindən əl çəkmək haqqında qərar qəbul olundu. Sentyabrın 1-də Sisianov Məhəmməd xana İrəvan qalasını təhvil verməklə bağlı son müraciətini etdi, lakin rədd cavadı aldı. Bundan sonra Sisianov sentyabrın 3-də mühasirəni dayandırmaq və rus qoşunlarını İrəvan ətrafından geri çəkmək haqqında əmr verdi[262,c. 619]. Beləliklə, İrəvan yürüşündə iki mindən çox hərbçisini itirən rus ordusu məğlub durumda İrəvandan ayrıldı[262,c.815-816].

Rus qoşunları İrəvan qalasının mühasirəsindən əl çəksələr də, strateji əhəmiyyətə malik İrəvan xanlığı ərazisinin işğal olunması Rusiya hərbi dairələrinin

əsas məqsədi olaraq qalırdı. Məhz bu səbəbdən İrəvan xanlığının ərazsini hissə-hissə işğal etmək ön plana keçirildi. 1805-ci il martın sonlarında İrəvan xanlığına tabe olan, strateji və iqtisadi baxımdan əlverişli olan Şörəyel sultanlığı rus qoşunları tərəfindən tamamilə işğal edildi[166, s.303].

Uğursuz İrəvan yürüşündən geri dönən Sisianov İrəvanı işğal etmək və Abbas Mirzə ilə müharibəni arxayın davam etdirmək üçün ilk öncə rus işğalçılarına qarşı qalxan üsyanları yatırdı. Daha sonra Azərbaycan xanlarına qarşı hərbi-siyasi təzyiqlərini gücləndirdi. Bu təzyiqlərin nəticəsində 1805-ci il mayın 14-də Qarabağ və Şəki xanlıqları Sisianovla Kürəkçay müqaviləsini imzalayıb Rusiyanın himayəsinə keçməyə məcbur oldular. Bunun ardınca, dekabrın 25-də Şamaxı xanlığı tabe edildi[187, s.366-367].

1806-cı ilin əvvəllərində Sisianov yenidən İrəvan istiqamətində hücuma keçmək qərarına gəldi. Lakin onun Bakı əməliyyatı zamanı (1806-cı il fevralın 8-də) öldürülməsi bu işğalçı yürüşün həyata keçirilməsinə mane oldu. 1806-cı ilin iyununda Sisianovun yerinə general-feldmarşal İ.V.Qudoviç Qafqazın ali baş komandanı təyin edildi və ona Azərbaycan xanlıqlarını tamamilə işğal edib Rusiya imperiyasının tərkibinə qatmaq tapşırığı verildi[187, s.304]. 1806-cı ildə Dərbənd, Bakı və Quba xanlıqlarıRusiya tərəfindən işğal edildi[134, s.593-594,598-599].

Rusiyanın işğalçılıq niyyətlərindən xəbərdar olan Abbas Mirzə 1805-ci ilin yayında “xarici siyasətdə ardıcıl olmayan” Məhəmməd Hüseyn xan Qacarı hakimiyyətdən uzaqlaşdırıb Mehdiqulu xan Qacarı (1805 yay-1806 avqust) İrəvan xanlığında hakimiyyətə gətirdi[187, s.304].

Abbas Mirzənin rəhbərlik etdiyi İran ordusu Azərbaycan ərazisində olsa da, o Azərbaycan xanlıqlarının rus qoşunları tərəfindən işğal edilməsi prosesinin qarşısını ala bilmədi. I Rusiya-İran müharibəsindəki (1804-1813) ilk döyüşlərdə İran ordusunun əlverişli strateji vəziyyətdən yararlana bilməməsi nəticəsində strateji üstünlüyü ələ alan rus ordusu müharibənin sonunadək bu üstünlüyü qoruyub saxladı. Osmanlı dövləti də 1798 və 1805-ci illərdə Rusiya ilə imzaladığı ittifaq müqavilələrinə sadiq qaldığından Azərbaycanda gedən rus işğalına qarşı müqavimət hərəkatına heç bir yardım göstərmədi, bəzi hallarda, məsələn, İrəvan xanlığına qarşı

1802-ci il kampaniyasında Qars paşası hətta ruslara köməklik də göstərdi[261,c.709]. Nəticədə, 1806-cı ilin sonuna qədər aparılan hərbi kompaniyada Rusiya Şimali Azərbaycan xanlıqlarının işğal edilməsi prosesini əsasən başa çatdırmış oldu.

1806-cı ildə İran və Osmanlı dövlətlərində fəallaşan Fransa bu dövlətləri Rusiyaya qarşı müharibədə dəstəklədi və bu dövlətlərin ordularının təkmilləşdirilməsi istiqamətində bir çox yardımlar göstərdi. İrəvan xanı Hüseynqulu xan (1806-1827) da İrəvan qalasının Avropa hərb qaydaları əsasında möhkəmləndirilməsi işində fransız mütəxəssislərinin köməyindən yetərincə istifadə etdi [263,c.254;175, s.73]. Fransanın İrandakı bu missiyasını Tilzit sülhündən (1807) sonra İngiltərə yerinə yetirməyə başladı.Hüseynqulu xan qonşu xanlıqlarla sıx diplomatik münasibətlər qurmaq istəsə də alınmır.Çunki Qarabag,Şirvan,Naxçıvan və digər xanlıqlar Qacarlarin qətiyən vassalı olmaq istəmirdilər.

1806-cı ilin noyabrında Rusiya-Osmanlı müharibəsi (1806-1812) başladı. Qafqaz və Balkan cəbhələrində Rusiya-Osmanlı müharibəsinin başlanması ilə İranla aparılan müharibəni dayandırmaq istəyən Rusiya hökuməti ilkin dövrlərdə çalışırdı ki, İranla sülh imzalasın və bütün diqqətini Osmanlı cəbhəsinə yönəltsin. Bu məqsədlə barışıq barədə danışıqlar aparmaq üçün kapitan Stepanov Tehrana göndərildi. Lakin Qudoviçin İranla Rusiya arasında sərhəd xəttinin Kür və Araz çayları boyunca uzanaraq Arpaçaya qədər getməsini, habelə İrəvan və Naxçıvan xanlıqlarının da Rusiyaya keçməsini tələb etməsi, eyni zamanda bəhs edilən dövrdə İranda fəallaşan fransız diplomatiyasının fəaliyyəti nəticəsində bu danışıqlar uğursuz oldu [118,л.25].

Danışıqların uğursuz başa çatması ilə Rusiya qoşunları 1808-ci ilin sentyabrında İrəvan və Naxçıvan xanlıqları üzərinə yeni hücuma başladılar. 1808-ci il sentyabrın 25-də Qudoviç 240 zabit və 7506 əsgərlə İrəvan və Naxçıvan istiqamətinə hərbi yürüşə başladı[297,c.209]. Sentyabrın sonlarında ruslarla toqquşmada məğlub olan Hüseynqulu xanın geri çəkilməsi ilə oktyabrın 3-də İrəvan qalası Qudoviç tərəfindən mühasirəyə alındı[119, л.12-16]. Naxçıvanı tutmaq əmri alan general-mayor Nebolsin 78 zabit və 3062 əsgərlə oktyabrın 9-da Qarabağdan Naxçıvana doğru hərəkət etdi[297,c.215]. Naxçıvanın müdafiəsini təşkil etmək mümkün olmadı,

çünki əhali arasında böyük nüfuza malik Kəlbəli xan 1808-ci ilin yazında xanlıqdan məhrum edilərək ailəsi ilə birlikdə İrana aparılmışdı. Onun oğlu Şeyxəli bəyin öz yaxın adamları ilə Qarabağa qaçaraq ruslara qoşulması və Nebolsinin yürüşündə bələdçilik etməsi Naxçıvanın süqutunda mühüm rol oynadı [263,c.267-268;303,c.93]. 1808-ci il oktyabrın 28-də Naxçıvan yaxınlığındakı Qarababa adlı yerdə baş vermiş döyüşdə ruslar Abbas Mirzənin ordusunu məğlubiyyətə uğratdılar. Nəticədə 1808-ci il noyabrın 1-də Naxçıvan ruslar tərəfindən tutuldu[117,л.1-2].

İrəvan qalasının müdafiəsinə Hüseynqulu xanın qardaşı Həsən xan başçılıq edirdi. Qalanı təslim etməklə bağlı Qudoviçin təkidli müraciətlərinə Həsən xan tərəfindən rədd cavabı verildi[117, v.1-2]. Qudoviçin qalanı təslim etmək barəsində tələbinə Həsən xan aşağıdakı cavabı vermişdi: "...Siz tələb edirsiniz ki, İrəvan qalasını könüllü təslim edim, əvəzində İrəvan xanlığını mənə verəcəksiniz. Əgər bu cür əməl yaxşıdırsa, onda siz də İran hökmdarına qulluq edin, əvəzində İrəvan, Təbriz və başqa xanlıqların idarəsini alın"[374,c.473].

Qışın erkən gəlməsi ilə Tiflislə əlaqələrin kəsilməsi təhlükəsi qarşısında ərzaq, yem və silah-sursat çatışmazlıqları rus qoşunlarını çətin vəziyyətə salmışdı. Buna görə də Qudoviç bütün diqqətini İrəvan qalasının hücumla alınmasına yönəltdi.

Rus qoşunları 1808-ci il noyabrın 17-də İrəvan qalasına növbəti irimiqyaslı hücum həyata keçirdilər, lakin ciddi müqavimətə rast gəlib uğursuzluğa düçar oldular. Ciddi tələfat verib noyabrın 30-da geri çəkilməli olan rus qoşunları İrəvandan məğlub durumda geri döndülər. Rus hərb tarixçisi N.F.Dubrovin yazır ki, İrəvan hücumu nəticəsində rus alayları elə bir vəziyyətə düşdülər ki, qalaya təkrar hücum barəsində düşünməyə belə dəyməzdi[297,c.224]. Qudoviçin rus imperatoruna göndərdiyi raporta görə, bu döyüşdə 17 zabit və 269 əsgər ölmüş, 64 zabit və 829 əsgər isə yaralanmışdı[263,c.252-264]. Bölgədə möhkəmlənə bilməyəcəyini görən rus işğalçı dəstələrinin rəhbəri Nebolsin də Naxçıvanda möhkəmlənə bilmədi və buranı tərk etməli oldu[263,c.250-251]. Təqiblər və güclü qar yağması ilə bağlı soyuq hava şəraiti nəticəsində rus qoşunları daha min nəfər itki verərək Qarabağa qayıtdılar[396,c.305]. Bu, rus qoşunlarının 1804-cü il yürüşündən sonra İrəvan xanlığındakı ikinci rüsvayçı məğlubiyyəti idi. Onu da qeyd edək ki, rus qoşunlarının

İrəvanı almaq üçün istər 1804-cü, istərsə də 1808-ci il yürüşlərində ermənilər ruslarla paralel vuruşmaqla yanaşı, onları ərzaq, yem və digər zəruri vasitələrlə təmin edib öz yardımlarını gösrətmişdilər.

İrəvandakı məğlubiyyətdən sonra general Qudoviç  Qafqazdakı rus qoşunlarının baş komadanı vəzifəsindən geri çağırıldı, onun yerinə general Tormosov təyin edildi[297,c.279]. Tormosov İranla münasibətləri danışıqlar yolu ilə nizama salmağa çalışdı. Eyni zamanda İran şahı da Rusiyaya danışıqlara başlamağı təklif etdi[396,c.160]. 1810-cu ilin aprelində tərəflər arasında Əsgəranda aparılan danışıqlarda Rusiya Naxçıvan və İrəvan xanlıqlarını, İran isə Talış xanlığını tələb etdi. Ruslar burada vaxtilə Krım üçün işlətdikləri üsula əl ataraq, Talış xanlığının Rusiya və İrandan asılı olmayan bir ərazi olmasını təklif etdilər. Lakin bu danışıqlar nəticəsiz başa çatdı.

Tormosov da öz sələfi kimi İrəvan xanlığının işğal edilməsinə böyük əhəmiyyət verirdi və bu xanlığın işğalının İranı sülhə məcbur edəcəyini düşünürdü. Lakin Hüseynqulu xanın hərbi və diplomatık bacarığı Tormosovun planlarının reallaşmasına imkan vermirdi.

Bu dövrdə İranda fəallaşan İngiltərə Tehran hökumətinə Rusiyaya qarşı aparılan müharibədə hərbi-maliyyə yardımı etməklə yanaşı, eyni zamanda İranın Osmanlı dövləti ilə Qafqazda Rusiyaya qarşı birgə fəaliyyət göstərməsinə çalışırdı[40]. Rusiyanı Cənubi Qafqazdan çıxarmaq üçün Osmanlı dövlətinin yardımına ehtiyac duyan Abbas Mirzə 1810-cu ildə yenidən İstanbul hökumətinə ittifaq təklifi ilə çıxış etdi və ilkin razılıq əldə olundu. İngiltərənin bilavasitə təkidi ilə İranla Osmanlı dövləti arasında Rusiyaya qarşı ittifaq sazişi imzalandı. Sazişə görə, bundan sonra İran və Osmanlı qoşunları ingilislərin işləyib hazırladıqları plan əsasında Rusiyaya qarşı müharibədə birgə çıxış etməli idilər. Bu plana uyğun olaraq, 1810-cu ilin avqust-senytabr aylarında Osmanlı və İran qoşunları, eyni zamanda İrəvan xanı Hüseynqulu xanın qoşunları birlikdə hərəkət edərək rus qoşunlarına qarşı Axıska və Axalkələk istiqamətindən zərbə endirməyə çalışsalar da, rus qoşunlarının Kutais, Surami və Çalki istiqamətindən başlanan geniş miqyaslı hücumu nəticəsində baş tutmadı[398,c.154]. İran və Osmanlı komandanlıqlarının 1811-ci ilin yayı üçün

Cənubi Qafqazda Rusiyaya qarşı planlaşdırdıqları birgə hücum kampaniyası da icra edilməmiş qaldı[303,c.132]. Bütövlükdə, Qafqazdakı həm Rusiya-İran həm də Rusiya-Osmanlı cəbhələrində üstünlük tam olaraq Rusiya tərəfdə idi.

Napoleonun Rusiyaya hücum təhlükəsini duyan Peterburq hökuməti bu hücumun başlanmasından iki ay əvvəl, 1812-ci il mayın 16 (28)-da Buxarestdə Rusiya ilə Osmanlı dövlətləri arasında sülh müqaviləsi imzalandı[187, s.415-427]. Buxarest sülhünə görə, Osmanlı dövləti rus qoşunları tərəfindən işğal edilmiş Qafqazdakı qalalarını geri qaytara bilsə də, Cənubi Qafqazın Rusiya tərəfindən işğalının nəticələrini tanımalı oldu.

Eyni zamanda, Buxarest müqaviləsinin imzalanmasından sonra Rusiya Qafqazdakı rus-türk cəbhəsində olan qoşunlarını İrana qarşı müharibəyə cəlb etmək imkanı qazandığından İran müəyyən güzəştlərlə Rusiya ilə sülh bağlamağa səy göstərdi. Lakin Rusiyanın İranla demarkasiya xəttinin Kür, Araz və Arpaçay çayları boyunca keçməsi barəsində irəli sürdüyü təkliflər Abbas Mirzə tərəfindən qəbul edilmədi. Bununla belə, Abbas Mirzənin 1812-ci il hərbi kompaniyasının da tam uğursuzluqla nəticələnməsi İranı yenidən danışıqlara başlamağa sövq etdi.

Rusiyanın 1812-ci il Fransa-Rusiya müharibəsindən qalib ayrılmasından sonra İngiltərə dərk edirdi ki, Rusiya qüvvələrini cənuba yönəltməklə İranı tamamilə darmadağın edə və Britaniyanın Şərqdəki maraqlarına təhlükə yarada bilər. Buna görə də, inglislər Rusiyanın İranın içərilərinə doğru cənuba enməsinin qarşısını almaq üçün İranı sülhə məcbur etməklə yanaşı Rusiya ilə İran arasında danışıqlarda da vasitəçilik etdilər. Rusiya da öz növbəsində Napoleonun yürüşü nəticəsində dağılmış təsərrüfatını bərpa etmək üçün sülhə ehtiyac duyurdu və Qafqaza yeni baş komandan təyin olunan general N.F.Rtişşevə (1812-1816) İranla sülhü tezləşdirmək barədə göstəriş vermişdi. İngilislərin vasitəçiliyi ilə aparılan Rusiya-İran danışıqları 1813-cü il oktyabrın 12-də Gülüstan müqaviləsinin imzalanması ilə nəticələndi. Gülüstan müqaviləsinə görə, İran Rusiyanın Qafqazdakı işğalları ilə barışmalı oldu , Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Talış xanlıqlarının, habelə Şərqi Gürcüstan və Dağıstanın Rusiyaya keçdiyini təsdiq etdi [187, s.439;226, s.576]. İrəvan və Naxçıvan xanlıqları İranın tərkibində qaldı. Bununla da, XIX əsrin əvvəllərində

Rusiya və İran arasında Azərbaycan torpaqları uğrunda gedən müharibənin birinci mərhələsi yekunlaşmış oldu.

Gülüstan müqaviləsinin imzalanmasından sonra da İran-Rusiya münasibətləri gərgin olaraq qalırdı. İran öz uğursuzluğu ilə barışmır, Rusiya isə yeni ərazilər, xüsusilə də İrəvan xanlığını ələ keçirməyə çalışırdı. Rusiya imperatoru I Aleksandr 1816-cı ildə Qafqazdakı rus qoşunlarının baş komandanı A.P.Yermolova (1816-1827) yazırdı: "Çox yaxşı olardı ki, İran şahı İrəvan və Naxçıvanı bizim tərəfimizdən tutulan Arazdan cənuba doğru olan ərazilərə (Talış xanlığına-İ.K.) dəyişsin. Ancaq İran tərəfinin bu ərazilərin Rusiyaya güzəştə gedilməsində göstərdiyi inadkarlığı nəzərə alaraq, onların bu işə razılıq verəcəklərinə ümid etmək olmaz"[402,c.12-13].

İki Rusiya-İran müharibəsi arasındakı dövrdə (1813-1826) Rusiya və İran arasındakı mübahisəli məsələləri həll etmək üçün göstərilən diplomatik təşəbbüslər heç bir nəticə vermədi. Bu, daha çox Rusiyanın beynəlxalq aləmdə mövqelərinin güclənməsi və imperiya maraqları ilə bağlı idi.

1826-cı il iyulun 16-da Abbas Mirzənin komandanlıq etdiyi İran ordusu sərhədi keçib Şimali Azərbaycan torpaqlarına yürüşə başladı. İrəvan xanı Hüseynqulu xanın dəstələri də rus qoşunlarının Lori və Şəmşədil istiqamətindəki mövqelərinə doğru hücuma keçdilər. II Rusiya-İran müharibəsi (1826-1828) başladı.

Müharibənin ilkin dövrü Rusiya üçün uğursuz oldu. İran qoşunları Şəmkir və Gəncəyə qədər irəliləyə bildilər. Avqust ayının sonlarına doğru Yermolov Cənubi Qafqazdakı dağınıq ordu birləşmələrini komplektləşdirə bildi. 1826-cı ilin sentyabrında Şəmkir və Gəncə döyüşlərində ruslar İran ordusuna sarsıdıcı zərbə endirdilər. Gəncə döyüşündən sonra İran ordusu bir daha özünə gələ bilmədi. 1826-cı ilin sonunda artıq İran qoşunları Talış xanlığı istisna olmaqla, bütün Şimali Azərbaycan torpaqlarını tərk etmişdilər [134, s.615-616;303,c.198].

Müharibədə rus qoşunları hələ təşəbbüsü ələ almamış, imperator I Nikolay (1825-1855) rus qoşunlarına İrəvanı işğal etməyi tapşırdı. Onun general Yermolova göndərdiyi 1 avqust 1826-cı il tarixli fərmanında deyilirdi: "Təcili İrəvan sərdarı üzərinə yürüş edin. Tezliklə sizdən belə cavab gözləyirəm: Allahın köməkliyi ilə sərdar daha yoxdur və İrəvan vilayəti tamamilə tutulub – Siz və 15 min nəfərlik rus

ordusu qələbə qazanmaq üçün kifayətdir"[166, s.330]. Bu zaman Yermolov bütün diqqətini Şimali Azərbaycan bölgələrini bürüyən antirusiya üsyanlarını yatırmağa yönəltdiyindən rus qoşunlarının İrəvan yürüşü müvəqqəti də olsa, təxirə salındı.

1827-ci ilin martında Qafqazdakı rus qoşunlarının baş komandanı vəzifəsində general A.P.Yermoluvu general İ.F.Paskeviç (1827-1831) əvəz etdi"[402,c.226]. 1827-ci il aprelin 20-də Xudafərin körpüsünü tutan rus qoşunları İrəvan xanlığına doğru yönəldilər. General Benkendorf komandanlıq etdiyi rus qoşunları da erməni keşişi Nerses Aştaraketsinin müşaiyəti ilə Borçalıdan İrəvan istiqamətinə hərəkət etdi. Aprelin 13-də Eçmiədzin monastrını tutan Benkendorfun Sərdarabadı tutmaq cəhdi baş tutmadı. Aprelin 27-də rus qoşunları İrəvan qalasını mühasirəyə aldılar. İyunun əvvəlində general Paskeviç də İrəvan qalasının önünə gəldi. Benkendorfun qalanı təslim etmək barəsindəki tələbləri Hüseynqulu xanın qardaşı Həsən xan tərəfindən rədd edildi. Mühasirənin faydasız olduğunu görən Paskeviç iyunun 23-də mühasirəni dayandırmalı oldu.

1827-ci il iyunun 26-da Naxçıvan, iyulun 7-də Abbasabad rus qoşunları tərəfindən işğal edildi. Abbas Mirzənin müqaviməti heç bir nəticə vermədi. 1827-ci il iyulun 19-da A.Bakıxanovla birgə Abbas Mirzənin düşərgəsinə gələn A.S.Qriboyedov İrəvan və Naxçıvan xanlıqlarının güzəştə gedilməsi və təzminat ödənilməsi şərtilə danışıqlara başlamağı təklif etsə də, razılıq əldə edilmədi.

İ.F.Paskeviç Tehran hökumətini sülhə məcbur etmək üçün ilk öncə İran ordusunun cəbbəxanası olan Təbriz şəhərini işğal etməyi qərara aldı. Lakin çoxsaylı düşmən qüvvəsi cəmlənmiş İrəvan qalasını arxada qoymaq böyük risk tələb edirdi. Buna görə də, İ.F.Paskeviç əvvəlcə İrəvanı zəbt etməyi qərara aldı[157, s.137].

Bir həftəlik mühasirədən sonra, 1827-ci sentyabrın 20-də Sərdarabadı işğal edən rus qoşunları dörd gün sonra İrəvanı mühasirəyə aldılar. Əvvəllər olduğu kimi, yenə də Paskeviçin qalanı təslim etməklə bağlı tələbləri Həsən xan tərəfindən rədd edildi. Şəhər aramsız artilleriya atəşinə tutuldu. İrəvan qalasına 40 topdan mindən artıq mərmi yağdırıldı. V.Potto rus artilleriyasının İrəvan şəhərində törətdiyi dağıntılarla bağlı yazır: "Mənə elə gəlir ki, mühasirə artilleriyasının 4 gündə elədiyini 4 əsrdə eləmək mümkün deyil"[371,c.516].

1827-ci il oktyabrın 1-də qaladakı ermənilər işğalçılarla əlaqəyə girərək qiyam qaldırdılar və Həsən xandan tələb etdilər ki, qalanı ruslara təslim etsin. Ermənilər, xanın bütün səylərinə baxmayaraq, qalanın şimal qapılarını düşmənin üzünə açdılar[166, s.348]. Erməni tarixçisi V.Parsamyanın yazdığına görə, Həsən xanın qalanı tərk etməsindən sonra ermənilər qala qapılarını rus qoşunlarının üzünə açmışlar[353,c.43]. Beləliklə, 1827-ci il oktyabrın 1-də İrəvan qalası və şəhəri ruslar tərəfindən işğal edildi. Həsən xan başda olmaqla bütün qala qarnizonu əsir düşdü. Bununla da, İrəvan xanlığı süqut etdi.Hüseynqulu xan düşmən əlinə keçməkdən xilas olsa da,qardaşı Həsən xan(Sarı Aslan)ruslara əsir düşür və Tiflisə aparılir. İrəvanın ardından oktyabrın 2-də Mərənd, oktyabrın 13-də Təbriz rus qoşunları tərəfindən tutuldu. Rusiya ilə İran arasında Dehqarqanda başlayan sülh danışıqlarının (6 noyabr 1827-7 yanvar 1828) nəticəsiz başa çatması ilə irəli atılan rus qoşunları yanvarın 28-də Urmiyanı, fevralın 8-də Ərdəbili işğal etdilər. Rus qoşunlarının yeni hücumu İranın hakim dairələri arasında vahimə doğurdu. İranın tamamilə darmadağın ediləcəyindən ehtiyat edən Britaniya səfiri Makdonald döyüşən tərəflər arasında vasitəçi kimi çıxış etdi. Fevralın 6-da Təbriz yaxınlığında Türkmənçay kəndindəAbbas Mirzə ilə İvan Paskeviç arasında sülh danışıqları yenidən başlandı[132, s.47-48; 175, s.118]. İran Rusiya tərəfindən irəli sürülən şərtləri qəbul etməyə məcbur oldu. 1828-ci il fevralın 9-dan 10-na keçən gecə Rusiya ilə İran arasında Türkmənçay sülh müqaviləsi imzalandı. Türkmənçay müqaviləsinin üçüncü maddəsində Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya ilhaq edildiyi təsbit edildi.

Beləliklə, XIX əsrin əvvəllərindən başlayaraq Qafqazdakı rus qoşunlarına komandanlıq etmiş Sisianov və Qudoviçin Birinci Rusiya-İran müharibəsi dövründə bütün vasitələrlə ələ keçirməyə çalışdığı, lakin hər yürüşündə məğlub olaraq geri qayıtdığı İrəvan şəhəri və xanlığı Paskeviçin komandanlığı dövründə ələ keçirilmiş oldu. İrəvan xanlığı zor gücünə işğal edilərək imperiyaya qatıldı. İrəvanın alınması Rusiyada böyük ruh yüksəkliyi yaratdı. Bu xəbəri eşidən imperator I Nikolay Riqadan tələsik Peterburqa qayıtdı. Təntənəli mərasimlər təşkil edildi. İrəvanın alınması münasibətilə noyabrın 8-də imperatorun və onun ailə üzvlərinin iştirakı ilə Qış sarayında dua oxunması mərasimi keçirildi. Bu münasibətlə xüsusi medallar təsis

olundu. İrəvanın alınmasına görə general İ.F.Paskeviç “qraf” və “Erivanski” titullarını və 1 milyon rubl mükafat aldı. O, eyni zamanda 2-ci dərəcəli Georgi ordeni, bir çox başqa orden və medallarla təltif edildi[166, s.350-351; 371,c.591]. Bütün bunlar Rusiya imperiyası üçün İrəvan xanlığının nə dərəcədə xüsusi əhəmiyyət kəsb edən bir ərazi olduğunu göstərir.

İrəvanın işğalı ilə Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi prosesi başa çatdı. İrəvanın işğalından dərhal sonra tələm-tələsik xanlığın səltənəti dağıdıldı, bölgənin idarəçiliyi imperiyanın maraqlarına uyğun olaraq yenidən qurulmağa başladı.

## 1.2 Rusiya işğalından sonra İrəvan bölgəsinin idarəçiliyi

İrəvanın işğal edilməsindən bir neçə gün sonra, 1827-ci il oktyabrın 6-da Qafqazdakı rus qoşunlarının komandanı general İ.Paskeviçinin əmri ilə İrəvanda “Müvəqqəti idarə” yaradıldı. Yerli qoşunların komandanı general Krasovski idarənin rəisi, İrəvan qalasının komendantı podpolkovnik Borodin və erməni arxiyepiskopu Nerses Aştarakesi idarənin üzvləri təyin edildilər. İrəvan xanlığı ərazisində azərbaycanlı əhalinin mütləq çoxluğa malik olmasına baxmayaraq Müvəqqəti idarədə azərbaycanlılar təmsil olunmadı.

1827-ci il oktyabrın 6-da general İ.Paskeviç tərəfindən Müvəqqəti idarənin qarşısında dayanan vəzifələr haqqında Ümumi Qaydalar təsdiq edildi. Bu Qaydalara görə Müvəqqəti idarənin qarşısında 19 vəzifə qoyulmuşdu ki, bunlar aşağıdakılar idi:

1. Yerli qoşunların komandanı general Krasovskinin rəhbərlik etdiyi və erməni arxiyepiskopu Nerses Aştarakesi və İrəvan qalasının komendantı podpolkovnik Borodinin üzv olduğu Müvəqqəti idarə İrəvan xanlığı ərazisində bütün mülki işləri idarə etməli;
2. Müvəqqəti idarə ilk əvvəl bölgədə asayişin bərpa edilməsi , daxili sakitliyin yaradılması və bölgəni düşmən hücumlarından qorunması üçün tədbirlər görməli;

3. Xidməti əmlakı qeydiyyata almalı, əvvəlki hakimiyyətin gəlirlərini müəyyənləşdirməli və onlardan Rusiya hökumətinin xeyrinə istifadə etməli;

4. Qoşunların ərzaqla təmin edilməsi üçün başlıca olaraq yerli ehtiyatlardan istifadə etməli, xanlıq ərazisinə yenicə köçməkdə olan əhalinin talanmasına yol verməməli, yerli əhaliyə münasibətdə də əvvəlki hakimiyyətin topladığı vergidən artıq tələb etməməli və əhalinin var-yoxdan çıxmasına imkan verməməli idi;

5. Əhaliyə ədalət daxilində şərait yaradılmalı , düşmən müdaxiləsi olduğu halda isə silah gücü ilə qayğı göstərilməli idi;

6. Rusiya hakimiyyətini, himayədarlığını və onun tərəfindən fəth edilməsini istəyən Arazın cənubunda yaşayan əhaliyə qayğı göstərilməli;

7. Belələrinin gələcəkdə qəbul edilməsi və Ayırımlı Məhəmməd Cəfər xana müəyyən edilmiş şərtlərin onlara da şamil edilməsi;

8. Bölgənin mühafizəsi üçün daha çox yerli əhalidən, xüsusilə də ermənilərdən ibarət silahlı dəstələrin təşkil edilməsi;

9. Əhalinin və onların ağalarının hüquqlarının təmin edilməsi;

10. Rusiyaya sədaqətinə görə ziyan görmüş şəxslərə qayğı göstərmək;

11. Rusiya sərhədlərinin və yeni əldə edilmiş vilayətlərin sərhədlərinin Türkiyənin sərhəd vilayətlərində yayılmış taun xəstəliyindən qorunması üçün tədbirlərin görülməsi;

12. İrəvan , Sərdarabad qalalarının qarnizonlarını və əhalisini zəruri əşyalarla təmin etmək;

13. Türkiyə paşalıqları daxilində qoşunların bütün hərəkətləri və onların silahları haqqında, mümkün olarsa Türkiyə hökumətinin niyyətləri haqqında doğru məlumatlar toplamaq;

14. Sənətkarlığı və xüsusilə də Gürcüstanla ticarət əlaqələrini bərpa etmək;

15. Dağlarda yaşayan tatar (azərbaycanlı) əhalinin hərəkətlərini daim nəzarətdə saxlamaq, düşmən niyyətlərə və çıxışlara meyl edən belə əhalini dərhal hərbi güclə sakitləşdirmək;

16. Abaran və Dilican dərəsi vasitəsilə Gürcüstanla əlaqəni təmin etmək;

17. İrəvan və Sərdarabadda ələ keçirilmiş pambıq parça ehtiyatlarının satışını təşkil etmək, bu istehsal sahəsini və onun ticarətini gələcəkdə də dəstəkləmək , yerli əhalidən toplanan vergilərin bir hissəsini parça ilə almaq;

18. Duz istehsalını təşviq etmək, əhalinin istehsal etdiyi duzun bir hissəsini hökumətin hesabına qəbul etmək və Gürcüstanla duz ticarətini təşkil etmək;

19. Abbasabad qalası Şuşadan hündür dağlarla ayrıldığı üçün bu qalanın təminatını İrəvan ərazisindən aparmaq[268,c.480-481].

Göründüyü kimi, İrəvan bölgəsində hakimiyyəti tam ələ almaq, idarəetmə işlərini həyata keçirmək, qayda-qanun yaratmaq, bölgədəki rus qoşunlarının təminat və təchizat məsələlərini həll etmək kimi məsələlər Müvəqqəti idarənin qarşısına əsas vəzifə kimi qoyulmuş, eyni zamanda İrəvan xanlığı ərazisində təhlükəsizliyin təmin edilməsi və bölgədə qaravul xidmətinin təşkil edilməsi üçün erməni əhalidən piyada - süvari drujinaların təşkil edilməsi də bu idarəyə tapşırılmışdı[268,c.480-481]. İrəvan xanlığı ərazisində azərbaycanlı əhalinin mütləq çoxluğa malik olmasına baxmayaraq Müvəqqəti idarədə azərbaycanlıların təmsil olunmaması, təhlükəsizlik və qaravul xidməti üçün də məhz erməni əhalidən silahlı birləşmələrin yaradılması İrəvan bölgəsinin erməniləşdirilməsinin əsasını qoydu.

Rusiya-İran müharibəsi dövründə bütün vasitələrlə ruslara xidmət göstərən və bu xidmətlərinə görə 1828-ci ilin yanvarında çar I Nikolay tərəfindən "Aleksandr Nevski" ordeni ilə təltif edilən erməni arxiyepiskopu Nerses Aştarakesi İrəvanın işğalından sonra yaradılan Müvəqqəti idarənin rəisi general Krasovski ilə birləşərək bu bölgədə Rusiyanın himayəsi altında erməni dövlət qurumu təşkilinin əsaslarını yaratmağa çalışırdı. O, İrəvan xanlığı ərazisində erməni dövlət qurumunun yaradılmasına və bu quruma rəhbərliyi öz əlinə almasına böyük ümid edirdi. Nerses eyni zamanda, planlaşdırdığı gələcək erməni dövləti üçün yalnız İrəvan və Naxçıvan xanlıqlarının ərazisi ilə kifayətlənmirdi. O, bütün vasitələrlə rus generallarına, xüsusilə də İ.Paskeviçə təsir göstərirdi ki, Arazın cənubunda olan Maku xanlığı da Rusiya hüdudlarına daxil edilsin, Naxçıvandan sonra sərhəd xətti qərbə doğru düz xətt boyunca aparılsın və bununla da Maku xanlığı ərazisi burada olan Tatevos monastr kilsəsi ilə birlikdə Rusiya tərkibinə qatılsın. Nerses 1827-ci il oktyabrın 6-da

general İ.Paskeviçə göndərdiyi məktubunda açıq-aydın şəkildə iddia edirdi ki, əgər yeni Rusiya sərhəd xətti Araz boyunca uzanıb getsə, bu zaman gələcək erməni dövləti üçün nəzərdə tutulmuş torpaqların bir hissəsi İranda qalar. Maku dərəsi, çətin keçidli dağ yolları, bütöv Ararat, hətta duz mədənləri ilə zəngin olan Koxp da gələcək erməni dövləti hüdudları daxilində qalmalıdır[190, s.160].

Ümumiyyətlə, erməni arxiyepiskopu Nerses Aştarakesi bu zaman çox fəallıq göstərir, İrəvan bölgəsi və ətraf ərazilərdə Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılması, qonşu ölkələrdə olan erməni əhalisinin bu bölgədə məskunlaşdırılması ilə bağlı Rusiya hərbi və mülki hakimiyyət orqanları qarşısında məsələ qaldırır, layihə və təkliflər irəli sürürdü. O, hətta 1829-cu il yanvarın 21-də general İ.Paskeviçə yazdığı məktubunda ərazi iddiaları qaldırmaqla yanaşı Rusiyanın yeni sərhədlərinin müəyyən edilməsində Paskeviçin çox ciddi səhvlərə yol verdiyini də sərt şəkildə tənqid edirdi. Nerses, Maku ərazisinin də mütləq İrəvan bölgəsinə qatılmasını və nəzarətdə saxlanılmasını gələcəkdə yaradılacaq erməni dövləti üçün həyati əhəmiyyətli məsələ hesab edir və bunu təkidlə tələb edirdi[371,л.745-746]. Lakin Paskeviç arxiyepiskopun Maku ilə bağlı iddiasını onun bu ərazidə olan kilsəni öz nəzarətinə keçirmək cəhdi kimi qiymətləndirdi və eyni zamanda bu iddianı Rusiya üçün lazımsız hesab edərək rədd etdi.

1827-ci il oktyabrın 6-da yaradılan Müvəqqəti idarənin mövcudluğu dövründə İrəvan xanlığının inzibati-ərazi quruluşu dəyişdirilmədi və bu inzibati quruluş 1833-cü ilə qədər davam etdi. Xanlıq dövründə olduğu kimi, bu dövrdə də bölgə mahallara, mahallar isə kəndlərə bölünürdü. Mahalları rus hakim dairələrinə yaxın olan yerli bəylər, xanlar və məliklər idarə edirdilər.

Müvəqqəti idarənin adından da göründüyü kimi, bu idarə forması müvəqqəti bir xarakter daşıyırdı. İrəvanın işğalından az sonra Rusiya imperatorunun fərmanı ilə Peterburqda bir komitə yaradıldı. Bu komitəyə Rusiya maliyyə, daxili və xarici işlər nazirləri , baş qərargah rəisi daxil edildi. Bu komitəyə tapşırıldı ki, İrəvan və Naxçıvan xanlıqları ərazisində Rusiya işğalının nəticələrini və dövlət maraqlarını özündə əks etdirən quruluşun layihəsini hazırlasın. Nəticədə qısa müddət ərzində İrəvan əyalətinin və ətraf ərazilərin idarəçiliyi üçün əsas götürüləcək qaydalar

layihəsi hazırlandı və bu layihə 1827-ci ilin dekabrında Rusiya imperatoruna təqdim edildi[268,л.482-484].

18 maddədən ibarət olan bu Qaydalara görə İrəvan və Naxçıvan xanlıqlarının, habelə son müharibə dövründə işğal edilmiş Şuragöl və Pəmbək mahallarının idarə edilməsi üçün İrəvan Müvəqqəti idarəsi ləğv edilməli, onun yerində Xüsusi idarəetmə yaradılmalı idi. Bu idarəçilik Cənubi Qafqazın digər bölgələrində mövcud olan idarəçiliyə oxşar şəkildə qurulmalı və istər İrəvan bölgəsinin mərkəzi idarəçiliyində, istərsə də yerlərdəki idarəçiliyində xristian əhalinin müsəlmanlardan asılı vəziyyətdə qalmasına imkan verilməməli, müsəlman əhalinin idarə olunması isə müsəlmanlar arasından müəyyənləşdirilən nümayəndələrə həvalə edilməli idi. Bu idarəçilik general-adyutant İ.Paskeviçin rəhbərliyi altında həyata keçirilməli idi. Xüsusi idarəetmə qurumunun tərkibinə bölgədəki qoşunların komandanı, biri polis, digəri isə maliyyə işləri üzrə olmaqla iki nəfər Rusiya məmuru və məşvərətçi səslə bir erməni və bir müsəlman nümayəndə daxil edilməli idi. Maliyyə məsələləri üzrə məmur Maliyyə Nazirliyi tərəfindən göndərilməli, digər məmur və işçilər isə Paskeviç tərəfindən təyin edilməli idi[268,c.482-483].

Qaydalara görə, İrəvan bölgəsində yerli idarəçiliyin isə aşağıdakı formada qurulması təklif edilirdi: a) şəhərlərdə erməni toplumunun idarə olunması onların böyüklərinə və başçılarına tapşırılmalı idi; b) müsəlman naiblər tərəfindən idarə olunan kəndlərdə ermənilər də yaşayırdılarsa, onda həmin kəndlərdə ermənilərin idarə edilməsi onların arasından çıxmış bəylərə və yaxud nüfuzlu adamlara həvalə olunmalı idi. Əgər bu kəndlərdə müsəlmanlar da varsa, onda onlar əvvəlki kimi müsəlman naiblər tərəfindən idarə edilməli idilər; c) müsəlman kəndlərini idarə edən naiblərin hökumətə qarşı yarıtmaz əməlləri müşahidə edilməmişdisə, onlar yerində saxlanmalı idilər; ç) müsəlman xanların, bəylərin, məmurların daimi və ya müvəqqəti mülklərində yaşayan ermənilər özlərinin daxili idarəçiliyi üçün aralarından bir nəfəri başçı seçməli idilər. Bu başçı həm də ermənilərin öz sahibləri qarşısında olan mükəlləfiyyətlərini necə yerinə yetirməsini müşahidə altında saxlamalı idi; d) sahibləri tərəfindən tərk edilən mülkiyyət varsa, bu mülkiyyətlər müvəqqəti olaraq etibarlı adamların idarəsinə verilməli idi; e) köçəri əhali öz ağalarının idarəçiliyində

qalmalı, ağaları tərəfindən tərk edilmiş köçəri əhali isə, həmin ağaların Rusiyaya itaət edən qohumlarından birinə müvəqqəti olaraq tapşırılmalı idi. Müharibə qurtardıqdan və sülh bağlandıqdan sonra, İrəvan xanlığından getmiş xristianların geri qaytarılması üçün 5 il, müsəlmanların geri qayıtması üçün isə 2 il vaxt verilməli idi. Verilən müddət ərzində geri qayıdan xristianlar öz mülklərini geri ala bilərdilər. Verilən müddət ərzində geri qayıdan müsəlmanlar isə əvvəlcə Rusiyaya sədaqət andı içməli və bundan sonra onların əvvəlki mülklərinin geri qaytarılması məsələsinə baxılmalı idi. Geri qayıdan müsəlmanlara əyalətin idarəçiliyinə təsir göstərə biləcək hər hansı bir hüquq verilməməli idi. İrəvan xanlığı ərazisini tərk etmiş xan və bəylər verilmiş müddət ərzində geri qayıtmadıqları təqdirdə onların mülkləri dövlətə keçməli idi[268,c.482-483].

Bundan başqa, Qaydalarda İrəvan əyaləti daxilində dini əlamətlər üzrə yeni məhkəmələrin yaradılması nəzərdə tutulurdu. Müsəlman və xristianlar arasındakı mübahisələrə isə şəhər məhkəmələrində baxılması nəzərdə tutulurdu.

Bu Qaydalara görə, yaradılacaq Xüsusi idarə İrəvan xanlığı ərazisində yerli hakimiyyət orqanı funksiyasını yerinə yetirməli, bölgədə asayişi və sakitliyi təmin etməli, xanlıq ərazisində Rusiya üçün şübhə yaradan şəxsləri müşahidə altında saxlamalı, lazımi zamanda zərərsizləşdirməli, eyni zamanda Rusiya qoşunlarının baş komandanının göstərişi əsasında qoşunların ərzaqla təmin edilməsi üçün kömək göstərməli, qalaları zəruri ərzaq və əşyalarla təmin etməli, vergiləri toplamalı, ticarət və sənətkarlığın bərpasına, pambıq parça istehsalının genişləndirilməsinə çalışmalı idi.

Onu da qeyd etmək lazımdır ki, bu Qaydalarda İrəvan bölgəsi üçün nəzərdə tutulan Xüsusi idarəçilik formasında müsəlmanlarla müqayisədə ermənilərə üstünlük verilsə də, bu üstünlük Müvəqqəti idarədə olduğundan az idi və xüsusi idarəçilik əvvəlki kimi sırf erməni maraqlarına deyil, daha çox Rusiyanın bölgədəki dövlət maraqlarına uyğunlaşdırılmışdı.

Bu zaman erməni ideoloqları (X.Lazarev, A.Xudabaşyan, K.Arqutinski-Dolqoruki və b.) da İrəvan bölgəsində yaradılmaqda olan yeni idarəçilik formasını

özlərinin etnik istəklərinə uyğunlaşdırmaq üçün müxtəlif layihələr hazırlayaraq Rusiya hökumətinə təqdim etdilər.

Erməni arxiyepiskopu Nerses və onun baş məsləhətçisi Hovsep Arqutyanın iştirakı ilə hazırlanan və çar hökumətinə təqdim edilən layihəyə görə İrəvan xanlığı ərazisində erməni dövləti yaradılmalı , ona Rusiyanın himayəsi altında muxtariyyət verilməli idi. Rusiya imperatoru I Nikolay "qədim erməni çarlığının" bütün torpaqlarını özündə birləşdirən yeni erməni dövlətinin çarı elan edilməli idi[190,s.163]. Ermənilərə görə yaradılacaq erməni dövlətinin təhlükəsizliyini ermənilər özləri təmin etməli idilər. Bunun üçün ermənilər arasından könüllülük əsasında qvardiya və eskadron təşkil edilməli, bu hərbi qurumlara cəlb edilən erməni əsgər və zabitləri güzəştlərə malik olmalı, istismara məruz qalmamalı idilər. Layihədə göstərilirdi ki, hərbçilər arasında zülm və istismar nə qədər az olsa, xidmət o dərəcədə yaxşı olar. Hərbçilərə əlavə güzəştlərin verilməsi daha çox ermənilərin bu sahəyə cəlb edilməsinə maraq yarada bilərdi. Erməni muxtar hakimiyyətinin qurulması üçün zəruri olan kadrların isə Moskvadakı Lazarev institutundan və Tiflisdəki "Nersisyan" məktəbindən alınması məqsədəuyğun hesab edilirdi[190, s.360-361].

Rusiya sarayına yaxınlığı ilə seçilən erməni ideoloqu Xaçatur Lazarev 1827-ci ilin dekabrında Rusiya qoşunları Baş Qərargahının rəisi general Dibiçə və general Benkendorfa "Asiya xalqları haqqında məlumatların icmalı" adlı təkliflər-məlumatlar toplusunu təqdim etdi. Erməni ideoloqu bu icmalda II Yekaterinanın da erməni çarlığını bərpa etmək niyyətinə toxunur, bu ideyaya arxalanmaqla İrəvan xanlığı ərazisində Rusiyanın tərkibində olan Şimali Ermənistan knyazlığının və ya Erməni çarlığının təşkili təklifini irəli sürürdü. Bu icmalda İranda, Türkiyədə və başqa yerlərdə yaşayan ermənilərin təşkil olunacaq erməni qurumu ərazisinə köçürülməsinə də xüsusi yer ayrılırdı [120,л.21; 393,с.57;227, s.631].

İrəvan bölgəsinin idarəsi ilə bağlı layihələrdən biri də general Krasovski tərəfindən hazırlanmışdı. Erməni arxiyepiskopu Nerses Aştarakesinin də yaxından iştirakı ilə hazırlanan bu layihə də mahiyyət etibarilə erməni ideoloqlarının hazırladıqları layihələrdən fərqli deyildi və bölgənin erməniləşdirilməsini nəzərdə tuturdu. "Ehtimallar", "Baxış" və "Layihə" adlı üç hissədən ibarət olan Krasovski

layihəsinə görə İrəvan və Naxçıvan xanlıqları, Maku ərazisi bir inzibati vahiddə birləşdirilməli idi. Bundan başqa, Şuragöl və Pəmbək mahalı da bu inzibati vahidə daxil edilməli idi. İrəvan, Naxçıvan, Maku, Şuragöl və Pəmbək qəzalarından ibarət olacaq İrəvan vilayətinin rəhbəri hərbi-qubernator və ya əyalət rəisi olmalı idi. Vilayətin hakimi kimi qubernator bütün hərbi və mülki işlərə rəhbərlik etməli, onun katib, ober-auditor, 2 nəfər tərcüməçi və 4 nəfər mirzədən ibarət dəftərxanası yaradılmalı idi. Bundan başqa qubernator yanında vilayət şurası da yaradılmalı və bu şuraya aşağıdakılar daxil edilməli idi: general-mayor və ya polkovnik rütbəli sədr, biri hərbçi, digəri mülki şəxs olmaqla iki müşavir, prokuror, katib və biri xristian, digəri isə müsəlman olmaqla 2 nəfər də ruhani. Vilayətin qorunması üçün hər biri üç tabordan ibarət olan üç piyada alayı və tərkibi 1500 piyada və 500 atlıdan ibarət erməni legionu yaradılmalı idi[113,л.12-14;393,c.63-65 ].

Krasovski, planlaşdırdığı şəkildə təşkil ediləcək İrəvan vilayətinin ərazisini 9 mahala bölünməsini təklif edirdi: 1. Maku-Pəmbək; 2. Şərur; 3. Gərnibasar-Vedibasar; 4. Zəngibasar (Qırxbulaq); 5. Gərnibasar-Aparan, Baş Aparan və Talın; 6. Şuragöl-Pəmbək; 7. Sürməli-Parçi-Dərəkənd; 8. Dərəçiçək; 9. Göyçə-Kolandar. Naxçıvan xanlığı ərazisində isə əvvəllər mövcud olan mahal bölgüsü saxlanılmalı idi. Mahalları hərbçilərdən təyin edilmiş mahal hakimləri idarə etməli və onların yanında biri müsəlman, digəri isə erməni olmaqla 2 nəfər kovxa və tərcüməçi olmalı idi[393,c.64-65 ].

Krasovski, layihəsində erməni arxiyepiskopu Nerses Aştarakesini də unutmurdu. Layihəyə görə, Nerses hərbi qubernatorun və ya vilayət hakiminin müavini postunu tutmalı idi[393,c.66].

Bu layihə general Krasovski tərəfindən 1828-ci il yanvarın 25-də Rusiya qoşunlarının Baş Qərargah rəisi general Dibiçə göndərildi. Lakin bu zaman artıq Peterburqda İrəvan xanlığının idarəsi ilə bağlı layihə hazırlanmış və bu layihə baxılması üçün general İ.Paskeviçə göndərilmişdi. Paskeviç isə Krasovskinin fəaliyyətindən qəti razı deyildi. Krasovskinin İrəvan müvəqqəti idarəsinə rəhbərlik etdiyi qısa müddət ərzində Nerses ilə birləşib erməni arxiyepiskopunun iradəsini yerinə yetirməsi İrəvan bölgəsində müsəlman əhalinin ciddi narazılığı ilə qarşılanmış

və Krasovski-Nerses cütlüyünün həyata keçirdiyi irqi, milli, dini ayrıseçkilik siyasəti nəticəsində müsəlmanların kütləvi şəkildə Arazın o tayına köçməsi Paskeviçdə də ciddi narahatlıq yaratmışdı. Paskeviç bu narahatlığını Baş Qərargah rəisi Dibiçə göndərdiyi 17 mart və 2 aprel tarixli raportlarında geniş şərh edir və Krasovski-Nerses cütlüyünün İrəvan bölgəsinin idarəçiliyindəki fəaliyyətini Rusiyanın bölgədəki maraqlarına zidd qiymətləndirərək onların bu vəzifədən uzaqlaşdırılmasını vacib hesab edirdi[111,л.8-9; 113,л.64]. O, baş qərargah rəisinə göndərdiyi 2 aprel 1828-ci il tarixli məktubunda yazırdı: "Mən təsəvvür etməzdim ki, Krasovski yalnız Nersesin iradəsi ilə hərəkət edəcək, mənim ona verdiyim təlimata məhəl qoymayıb, yenicə ələ keçirilmiş əyalətin idarə edilməsi qayğısına qalmayacaq, bütün əhalinin dörddə üçünü təşkil edən müsəlmanlara himayədarlıq etməyəcək və onlara lazımi vəsait ayırmayacaq"[114,л.64].

Krasovski İrəvan bölgəsinin idarəçiliyi ilə bağlı öz layihəsini general Dibiçə göndərdikdən bir neçə gün sonra səhhəti ilə bağlı müalicə üçün Tiflisə getməsini Paskeviçdən xahiş etdi. O, özünün İrəvanda olmadığı müddətdə İrəvan Müvəqqəti idarəsinə rəhbərliyin general-mayor Pankratova və ya general-mayor Antrapova tapşırılmasını təklif edərək, bu generalların arxiyepiskop Nerses ilə birlikdə bölgənin idarəsini uğurla həyata keçirə biləcəyini bildirirdi[114,л.13].

Paskeviç 1828-ci il fevralın 3-də Krasovskiyə Tiflisə getməyə icazə versə də, İrəvan Müvəqqəti idarəsinə rəhbərliklə bağlı onun təklifini qəbul etmədi. Paskeviçin əmri ilə İrəvan Müvəqqəti idarəsinin rəisi vəzifəsinə general-mayor Aleksandr Çavçavadze təyin edildi. A.Çavçavadzenin İrəvana gəlməsindən sonra, fevralın 22-də Krasovski vəzifəsini ona təhvil verib Tiflisə yollandı[112,л.2].

General A.Çavçavadzenin İrəvan Müvəqqəti idarəsinə rəhbərliyə başlaması ilə bu idarənin tərkibində dəyişiklik edildi. Polkovnik Borodinin yerinə Şirvan piyada alayının komandanlığını öz üzərinə götürmüş polkovnik Xamutov təyin edildi. Müsəlman və erməni əhalisinin nümayəndələri kimi Məhəmməd xan və Məlik Saak da məşvərətçi səslə idarəyə üzv təyin edildilər[393,с.70].

Türkmənçay müqaviləsinin imzalanması ilə İranla müharibəni başa çatdıran general İ.Paskeviç Krasovski-Nerses cütlüyünün İrəvan Müvəqqəti idarəsindəki

fəaliyyətini yerində araşdırmaq üçün 1828-ci il martın 16-da İrəvana gəldi. O, bu vaxta qədər, hələ Təbrizdə olarkən, martın 3-də Nerseslə birləşən Krasovskinin İrəvan Müvəqqəti idarəsindəki yarıtmaz fəaliyyəti ilə bağlı Baş Qərargah rəisi general Dibiçə geniş məktub göndərmişdi[268,c.484-487]. Paskeviç İrəvana gəldikdən bir gün sonra, 1828-ci il martın 17-də general Dibiçə göndərdiyi raportunda Krasovski-Nerses cütlüyünün fəaliyyətini ciddi tənqid edərək bildirirdi ki, Krasovski İrəvanda heç bir iş görməyib, bütün işləri Nersesin ixtiyarına verib, sonuncunun qəbuluna isə ancaq ermənilər düşə bilib və bu vəziyyət müsəlmanlar arasında hökumətin etimadının itməsinə gətirib çıxarmışdır. Erməni arxiyepiskopu Nersesin İrəvan vilayətinin idarəsinə buraxmağı özünün böyük səhvi adlandıran Paskeviç yazırdı ki, "mən təsəvvür edə bilmirəm ki, genaral Krasovski bu dərəcədə siyasəti unudub əhalinin dörddə üçünü müsəlmanlar və yalnız dörddə birini ermənilər təşkil edən bir vilayətdə arxiyepiskopun birtərəfli baxışlarının adi bir icraçısına çevrilə bilər"[111,л.8].

Krasovski-Nerses cütlüyünün İrəvan Müvəqqəti idarəsindəki yarıtmaz fəaliyyəti ilə bağlı general Paskeviç aprelin 2-də Baş Qərargah rəisinə əvvəlkindən daha geniş və ətraflı olan yeni bir raport da göndərdi[114,л.64]. Bu və əvvəlki raportları ilə Qafqazdakı rus qoşunlarının baş komandanı baş qərargah rəisini inandıra bildi ki, Krasovski-Nerses cütlüyünün İrəvan Müvəqqəti idarəsindəki yarıtmaz fəaliyyəti vilayətin böyük əksəriyyətini təşkil edən müsəlman əhalisi arasında hökumətin etimadını heçə endirir, bu əhalinin kütləvi İran tərəfinə köçü baş verir və bütün bunlar Rusiyanın bu bölgədəki maraqlarına böyük zərbə vurur. Paskeviçin raportu imperator I Nikolaya məruzə olundu və nəticədə 1828-ci il aprelin 10-da general Krasovskinin hərbi xidmətdən tərxis edilməsi haqqında Rusiya imperatorunun sərəncamı verildi[112,л.10]. Bundan üç gün sonra, aprelin 13-də arxiyepiskop Nerses haqqında da onun İrəvan vilayətindən uzaqlaşdırılması haqqında qərar qəbul edildi o, Bessarabiya yaparxiyasının dünyasını dəyişmiş arxiyepiskopunun yerinə təyin edilərək Bessarabiyaya göndərildi[268,c.252-253; 393,c.88].

General İ.Paskeviç 1828-ci il mart ayının 19-da İrəvan Müvəqqəti idarəsinin tərkibində dəyişiklik etdi. İdarənin rəisi general A.Çavçavadze öz vəzifəsində qaldı. İrəvan qalasının yeni komendantı podpolkovnik N.Koşkarev və mayor V.Medoks general A.Çavçavadzeyə müşavir təyin edildilər. Müsəlman və erməni əhalisinin nümayəndələri kimi Məhəmməd xan və Məlik Saak da məşvərətçi səslə idarəyə daxil edildilər. Müvəqqəti idarənin hakimiyyəti İrəvan bölgəsindən başqa Naxçıvan və Ordubad dairəsinə də yayıldı. 1827-ci il oktyabrın 6-da general İ.Paskeviç tərəfindən təsdiq edilən “Qaydalar”dakı vəzifələrin yerinə yetirilməsi və müsəlman əhalisi ilə erməni əhalisinə münasibətdə bərabər yanaşma nümayiş etdirmək İrəvan Müvəqqəti idarəsinin ikinci tərkibinin qarşısına əsas vəzifə kimi qoyuldu[393,c.79-80].

1828-ci il martın 21-də Rusiya imperatoru I Nikolay İranla müharibənin başa çatması və Rusiya ilə İran arasında sülh imzalanması haqqında manifest verdi[359,c.271-272]. Bu manifestdə yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi “qədim Ermənistanın bir hissəsi” elan olundu[359,c.272].Bununla da, I Pyotr dövründən başlayaraq Azərbaycan torpaqlarının işğalı üçün onun etnik mənsubiyyətinin zorla dəyişdirilməsinə dair dövlət siyasəti və strateji məqsədin yerinə yetirilməsi burada təsbit edildi.

Elə həmin gün - 1828 ci il martın 21-də Rusiya imperatoru I Nikolay İrəvan və Naxçıvan xanlıqlarının Erməni vilayəti adlandırılması haqqında senata fərman verdi[359,c.272-273;386,c.278-279]. Fərmanda deyilirdi: “İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra Erməni vilayəti adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və onun idarə edilməsi qaydaları haqqında Senat lazımi göstərişləri vaxtında alacaqdır” [359,c.273]. Bununla da, 1827-ci il oktyabrın 6-da general İ.Paskeviçin əmri ilə İrəvan bölgəsini idarə etmək üçün yaradılmış Müvəqqəti idarə ləğv edildi, İrəvan və Naxçıvan xanlıqlarının ərazisində “Erməni vilayəti” adlı müvəqqəti inzibati-idarə yaradıldı. Vilayət idarəsi vilayət rəisindən, biri polis, digəri maliyyə üzrə olmaqla iki rus müşavirindən və iki asessordan ibarət idi. Asessorlardan biri azərbaycanlı, digəri erməni icmasından idi. “Erməni vilayəti” iki əyalətdən – İrəvan və Naxçıvan əyalətlərindən ibarət idi.

Ermənilər bunu sevinclə qarşıladılar. Bu zaman erməni ideoloqlarından olan K.Arqutinski X.Lazarevə yazırdı: “İranla bağlanmış sülh bir çox cəhətdən mənə gözəl dəqiqələr bəxş etdi ki, Naxçıvan və İrəvan əyalətlərinin Erməni vilayəti adlandırılması heç də onlardan sonuncu deyildi... Yeni vilayətlərin sakinləri, bizim həmsoylarımız Erməni vilayəti adında bəzi özünəməxsus halları mükafat alır. Gözəl və olduqca faydalı fikirdir”[233, s.79-80].

“Erməni vilayəti”nin rəisi vəzifəsinə yerli qoşunların komandanı, Müvəqqəti idarənin rəisi, general-mayor A.Çavçavadze təyin edildi. “Erməni vilayəti”nə keçmiş İrəvan və Naxçıvan xanlıqları, Ordubad dairəsi daxil idi. Yaradılan yeni inzibati vahidin mərkəzi İrəvan şəhəri oldu. Naxçıvan və İrəvan xanlıqları ərazilərində “Erməni vilayəti”nin yaradılması ilə Azərbaycan torpaqlarında erməni dövləti yaradılması üçün mühüm addım atıldı.

Erməni vilayətinin idarə edilməsi üçün qaydalar layihəsi də hazırlanmışdı. Həmin layihə erməni əhaliyə qarşı müəyyən liberallığın tətbiq edilməsini nəzərdə tuturdu. Layihə, ümumilikdə Rusiyanın vilayətdəki hakimiyyətinin möhkəmləndirilməsinə xidmət etsə də, bu bölgənin erməniləşdirilməsinə də zəmin yaratmalı idi[225, s.366].

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsindən qalib ayrılan Rusiya 1829-cu il sentyabrın 14-də Osmanlı dövləti ilə Ədirnə müqaviləsini imzaladı. Bu müqaviləyə görə Balkanlardakı bir sıra ərazilərlə yanaşı Cənubi Qafqazda da Axalsıx vilayəti Axalsıx və Axalkalaki şəhərləri ilə birgə Rusiyaya keçdi[369,c.155-157;404,c.149-150].

İ.Paskeviçin mövqeyinə görə, Qars paşalığı da Rusiyaya ilhaq edilməli və bu ərazi də köçürüləcək ermənilər hesabına xristianlaşdırılmalı idi. O, bu məqsədlə 1829-cu ilin iyun ayında xarici işlər naziri K.V.Neselrodeyə də müraciət etmişdi. Lakin Rusiya hökuməti, Qafqaz cəbhəsində daha çox Osmanlı ərazilərinin içərilərinə doğru genişlənməni sülh üçün təhlükəli hesab etdi, Axalsıx və Axalkələk paşalıqlarını alıb sərhədin bu paşalıqların sərhədləri boyunca çəkilməsini uyğun bildi[397,c.296-297].

1829-cu ilin yanvarında general-mayor A.Çavçavadze “Erməni vilayəti”nin rəisi vəzifəsindən azad edildi. “Erməni vilayəti”nin rəisi vəzifəsinə polkovnik M.Z.Arqutinski-Dolqoruki təyin edildi, lakin o bu vəzifədə cəmi bir il qaldı. 1830-cu il yanvarın 6-da M.Z.Arqutinski-Dolqoruki “Erməni vilayəti”nin rəisi vəzifəsindən azad edildi və bu vəzifəyə general-mayor V.Bebutov təyin edildi. V.Bebutov 1840-cı il “Erməni vilayəti”nin ləğv edilməsinədək bu vəzifədə qaldı. V.Bebutovun “Erməni vilayəti”nin rəisi vəzifəsinə təyin edilməsi ilə azərbaycanlı xanlara, bəylərə, ağalara qarşı güclü bir təqib kampaniyası başladı, idarəetmə metodunda dəyişiklik edildi. V.Bebutovun təkbaşına rəisliyi gücləndirildi, əvvəllər mövcud olan məşvərətçi orqanlar ləğv edildi.

Ermənilərin təkidi ilə vilayətin yeni statusunun möhkəmləndirilməsi naminə onun gerbi də qəbul olundu. Heç şübhəsiz, ermənilərin təkidi ilə qəbul olunmuş bu gerbdə həmin ərazilərin türklərə bağlılığını andıran bir əlamət yox idi. Gerbin aşağı hissəsində Ararat dağının şəkli çəkilmişdi. Onun fonunda tac və Eçmiədzin monastırı, gerbin yuxarı hissəsində isə Rusiya taxt-tacının emblemi olan ikibaşlı qartal təsvir edilmişdi. Bu gerb imperator I Nikolay tərəfindən 1833-cü il fevral ayının 27-də təsdiq olundu[225, s.367].

İrəvan bölgəsində “Erməni vilayəti” yaradıldıqdan sonra da hələ bir müddət mahal və kəndlərin idarə strukturu xanlıq dövründə olduğu kimi saxlanıldı. Rusiya hakimiyyət orqanlarına sədaqətli olan yerli bəylər və məliklər mahalları, kənd ağsaqqalları isə kəndləri idarə edirdilər. Yalnız vergi sistemində dəyişiklik edildi. Rus zabitindən və iki yerli məmurdan ibarət xüsusi komissiya yaradıldı[169, s.281].

1833-cü il iyunun 23-də Rusiya Dövlət Şurasının qəbul etdiyi qanuna görə “Erməni vilayəti”ndə yeni inzibati-ərazi dəyişikliyi həyata keçirildi[361,c.374].Qanuna görə, “Erməni vilayəti”nin adı olduğu kimi saxlanıldı, lakin onun kollegial idarə sistemi ləğv edilərək vilayət rəisinə böyük səlahiyyətlər verildi. İrəvan bölgəsi dörd dairəyə - İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Dairələr rus hərbçiləri tərəfindən idarə olunurdu. Hər bir dairə rəisliyində biri azərbaycanlı, digəri isə erməni olmaqla iki köməkçi var idi. Bundan başqa dairələrdə vergi işlərinə baxan komissarlar və onları müşaiyət edən mirzələr də var

idi. Yeni qanuna əsasən mahallar olduğu kimi qalırdı. Hər bir dairəyə bir neçə mahal düşürdü. İrəvan dairəsi Göyçə, Dərəçiçək və Qırxbulaq mahallarını; Şərur dairəsi Şərur, Vedibasar, Gərnibasar, Zəngibasar mahallarını; Sürməli dairəsi Sürməli mahalını, Dərəkənd-Parçenis darəsini və Araz çayının sağ tərəfində yerləşən Gərnibasar və Vedibasar mahallarının qalan hissəsini; Sərdarabad mahalı isə Saatlı, Talın, Seyidli-Ağsaqqallı, Abaran, Gərni və Sərdarabad mahallarını əhatə edirdi.

Bu dövrdə İrəvan bölgəsində cəmi 10 mahal qalmışdı. Rusiya hakim dairələrinin səyi nəticəsində bəzi mahallar birləşdirilmiş, onların sayı azaldılmışdı. Saxlanılmış mahallar bunlar idi: Qırxbulaq, Dərəçiçək, Göyçə, Şərur, Dərəkənd-Parçenis, Sərdarabad (Talın mahalının bir hissəsi ona birləşdirilmişdi), Sürməli, Zəngibasar, Vadibasar (Gərnibasar mahalı ona birləşdirilmişdi), Abaran (Körpübazar mahalı ona birləşdirilmişdi) [169, s.313-314].

1833-cü il 23 iyun qanununa görə "Erməni vilayəti"nin idarəçiliyi icraedici və məhkəmə olmaqla, iki hissəyə bölündü. Vilayətin başında əvvəllər olduğu kimi, yenə də hərbi general dururdu. Onun yanında üç nəfərdən ibarət şura yaradılırdı.

Yeni qanuna görə "Erməni vilayəti"nin məhkəmə sistemində də dəyişiklik edildi. Şəhər məhkəmələri yerinə yeni əyalət məhkəməsi yaradıldı. Məhkəmələr hərbi, mülki və şəriət olmaqla, üç hissəyə bölündü. Mülki işlərə İrəvan şəhərində yaradılmış əyalət məhkəməsində baxılırdı. Məhkəmədə sədr, bir rus və iki yerli məmurdan ibarət iclasçılar iştirak edirdi. Məhkəmə üç mərhələdən keçirdi. Birinci mərhələdə iddia əyalət rəisinin 500 rubldan yuxarı olmayan cəriməsi ilə əvəzlənirdi. Üçüncü apellyasiya məhkəməsində Qafqazdakı rus qoşunlarının baş komandanına müraciət edilirdi. Hərbi məhkəmə (və yaxud səhra məhkəməsi) isə İrəvan komendantının sədrliyi ilə keçirilirdi.

Yerli əhalinin adət-ənənələrinə qarşı çıxaraq yeni narazılıq dalğası yaratmaq istəməyən Rusiya hakimiyyət orqanları şəriət məhkəmələrini saxlamaq məcburiyyətində qaldılar. Bu məhkəmələr əsasən dairə və kəndlərdə fəaliyyət göstərir, məhkəmə hakimi hesab edilən qazılar mübahisəli məsələləri hər iki tərəfin razılığı ilə həll edirdilər. Şəriət məhkəmələrinin üzvlərinə hökumət maaş da verirdi.

Əyalətlərdə onların məvacibi 704 gümüş rubl, məhsulla 72 xalvar buğda, 5 xalvar çəltik və 4 xalvar arpa təşkil edirdi[169, s.282].

Şəhər idarəsi də yenidən quruldu. İrəvan şəhərində ayrıca polis idarəsi yaradıldı. Onun tərkibi polis rəisi, xüsusi pristav, şəhər məhəllələrini idarə edən 4 yüzbaşı və 10 nəfər onbaşı, 1 katib, Azərbaycan dilində yazan 1 mirzə və 1 tərcüməçidən ibarət idi[169, s.282-283].

1833-cü il 23 iyun qanunu ilə həyata keçirilən inzibati-ərazi və məhkəmə islahatının nəticələri 1840-cı il islahatına qədər qüvvədə qaldı. 1833-cü il 23 iyun islahatı İrəvan bölgəsində xanlıq dövrünün qayda-qanunlarına zərbə vursa da, onları tamamilə sıxışdırıb aradan çıxara bilmədi. Rusiya hakim dairələri isə İrəvan bölgəsində imperiyanın strateji xəttini tam həyata keçirmək üçün yeni islahat layihələri üzərində çalışır və türk-müsəlman amilini İrəvan bölgəsindən sıxışdırıb çıxarmaq, imperiyanın İran və Osmanlı dövlətləri ilə sərhəd zolağında yerləşən bu strateji bölgəni erməniləşdirməklə, Azərbaycanın şimalı ilə cənubu, eyni zamanda onunla Osmanlı dövləti arasında imperiyaya sadiq xristian əhalidən ibarət bufer zonası yaratmaq bu layihələrin hamısının ana xəttini təşkil edirdi. Yerli əhalinin kəskin müqaviməti ilə qarşılaşmamaq üçün bütün bu planlar mərhələ-mərhələ, tədricən həyata keçirilirdi.

İrəvan bölgəsində möhkəmlənən Rusiya imperiyası XIX əsrin 30-cu illərində bu bölgədə kilsə hakimiyyəti ilə yanaşı dünyəvi hakimiyyəti də öz əlinə almağa çalışan erməni kilsəsinin fəaliyyətini də tam öz nəzarəti altına almağa çalışırdı. Rusiya hökumətinin erməni kilsəsinin fəaliyyətinə müdaxiləsi 1799-cu ildə Qukasın (1780-1799) ölümündən sonra Eçmiədzin patriarxı vəzifəsinə öz namizədini irəli sürməsi ilə başlamışdı. Bu başlanğıc da çox mürəkkəb və ziddiyyətli olmuşdu. İosif Arqutinski-Dolqorukov (Xovsep Arlutean, 118-ci katolikos, 1800-1801) yalnız I Pavel tərəfindən təsdiq edilmişdi. Ondan sonra Eçmiədzin taxtı üstündə V David (119-cu katolikos, 1801-1807) və Danil (120-ci katolikos, 1807-1808) üstündə ziddiyyət yaranmışdı. Əsas siyasi hadisələrin dövründə cərəyan etdiyi Yefremi (121-ci katolikos, 1809-1830) isə Osmanlı dövləti katolikos kimi tanımaqdan imtina etmiş, onun legitimliyini İran tərəfindən Abbas Mirzə tanımışdı[231].

1826-1828-ci illər Rus-İran müharibəsində, xüsusilə İrəvanın alınmasında ermənilər və Eçmiədzin ruslara böyük köməklik göstərdi. 1827-ci ilin oktyabrında İrəvanın işğalı ilə Eçmiədzin Rusiyanın ərazisinə qatıldı. 1828-1829-cu il Rus-Türk müharibəsində qələbə, Ədirnə müqaviləsinin bağlanması da Rusiyanın mövqeyini gücləndirdi. Rusiya hökuməti İran erməniləri ilə yanaşı, Osmanlı ermənilərinin də yeni işğal edilmiş torpaqlara köçürülməsi ilə birgə, gələcəkdə Osmanlı ermənilərindən də siyasi məqsədləri üçün istifadə planını gündəliyə gətirdi. Belə bir şəraitdə erməni-qriqorian kilsəsinin imperiyadakı yerinin müəyyənləşdirilməsi istiqamətində addımlar atılmağa və Əsasnamə hazırlanması üçün tədbirlər görülməyə başlandı.

1836-cı il martın 11-də çar tərəfindən təsdiq edilən "Rusiyanın erməni kilsəsinin idarə edilməsi haqqında" 10 fəsil və 141 maddədən ibarət olan Əsasnamə ilə erməni ruhanilərinin siyasi hüquqları konkret çərçivəyə salındı və onlara birbaşa dövlət işlərinə qarışmaq qadağan edildi. Əsasnaməyə görə, Eçmiədzin katolikosluğunun fəaliyyəti hökumətin nəzarəti altına alındı və zərurət yarandığı halda hökumət onun fəaliyyətinə müdaxilə edə bilərdi. Rusiya ərazisində yaşayan ermənilər yeparxiyada birləşməli idilər. Əsasnamədə Rusiya hüdudlarında erməni-qriqorian kilsəsinin altı yeparxiyasının yerləşdiyi bildirilirdi: 1) Naxçıvan (Novorossiyada yerləşirdi) və Bessarabiya, 2) Həştərxan, 3) İrəvan, 4) Gürcüstan, 5) Qarabağ və 6) Şirvan. Əsasnaməyə görə, Qarabağ yeparxiyası Qarabağın özündəki (Tatev mitropoliyasını öz dindarları ilə istisna etməklə. Qeyd edək ki, bu mitropoliya Qarabağdan ayrılaraq patrarxın özünün rəisi olduğu İrəvan yeparxiyasına verilmişdi), Şəki və Talış əyalətlərindəki erməni-qriqorian kilsələrini əhatə edirdi. Bu yeparxiyada onun rəisi üçün Şəkidə vikari müəyyən edilirdi. Şirvan, Quba, Bakı və Dərbənd əyalətlərindəki erməni-qriqorian kilsələri Şirvan yeparxiyasının tərkibinə daxil edilirdi[231].

Hələ XIX əsrin əvvəllərində Cənubi Qafqazın işğalı prosesində Rusiya imperatoru I Aleksandrın 1809-cu il fərmanı ilə yeni işğal edilmiş ərazilərdəki alban kilsələri erməni katolikosluğuna tabe edilmiş, 1815-ci ildə isə Alban patriarxlığı mitropolitliyə endirilmişdi. 1836-cı il 11 mart Əsasnaməsi ilə isə Qanzasar Alban

kilsəsi və tarixi Albaniyanın ərazisində yerləşən digər kilsələr əsasında Eçmiədzin katolikosluğunun Qarabağ və Şamaxı yeparxiyaları yaradıldı.

Göründüyü kimi, 1836-cı il 11 mart tarixli Əsasnamə ilə erməni kilsəsinin hüquqları bir qədər məhdudlaşdırılsa da, bu Əsasnamə ilə Alban kilsəsinin müstəqilliyinə də son zərbə vuruldu və Alban kilsəsinə bir rəqib kimi baxan Eçmiədzin erməni katolikosluğu Rusiyanın əli ilə onun ləğvinə nail oldu. Erməni katolikosluğu Alban kilsəsinin ləğvindən sonra onun mülklərinə yiyələndi, tarixi irsini ələ keçirdi. Lakin məsələ bununla da bitmədi, erməni katolikosluğu nail olduğu irsi Azərbaycandan qoparmaq və ona olan hüququnu təsdiq etmək üçün ölkəyə qarşı dini-ideoloji və siyasi mübarizəni genişləndirdi. Çar Rusiyası ilə birgə hərəkət edən Erməni katolikosluğu bu dövrdən başlayaraq əsas diqqətini Azərbaycan xalqına qarşı ərazi iddialarına və etnik təmizləməyə yönəltdi.

Beləliklə, Rusiya Şimali Azərbaycanın işğalı zamanı ermənilərin çar ordusuna göstərdikləri xidmət müqabilində işğal olunmuş Azərbaycan torpaqlarında – İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" adlandırılan ərazi yaratdı və bu ərazini ermənilərə pay verdi. Bununla da ermənilər çar Rusiyasının himayəsi və köməyi ilə Cənubi Qafqazda özlərinə ərazi bazası yaratmış oldular. Bundan sonrakı mərhələdə Rusiya imperiyası tərəfindən İrəvan bölgəsində həyata keçirilən köçürmə siyasəti, inzibati, iqtisadi - siyasi islahatlar bu bölgədə ermənilərin sayının artmasına, onların burada güclənməsinə və bölgənin tamamilə erməniləşdirilməsinə xidmət etmişdir.

### 1.3 XIX əsrin 40-cı illərinin islahatları və İrəvan bölgəsi

Rusiyanın Azərbaycan torpaqlarının işğalı prosesində həyata keçirdiyi siyasi xəttinin əsas cəhətini xanlıqların ləğvi ilə bərabər, xanlıq üsul-idarəsinin də ləğv edilməsi təşkil edirdi. İşğal prosesində müqavimət göstərən xanlıqlar dərhal ləğv edilib əyalətlərə çevrildilər. Müqavilə yolu ilə Rusiyanın hakimiyyətini qəbul etmiş xanlıqlar isə növbəti mərhələdə - çarizmin bu ərazilərdə mönkəmlənməsindən sonra

ləğv edilərək əyalətlərə çevrildilər. Xanlıqlar ləğv edildikdən sonra yeni inzibati bölgü - əyalətlər yarandı. Əyalətlər keçmiş xanlıq ərazisində yaradılırdı, ləğv edilən hər bir xanlıq əvəzinə yalnız bir əyalət yaradıldı. Yalnız “Erməni vilayəti” istisnalıq təşkil edirdi. Beləliklə, xanlıq idarəçiliyi kommendant idarə sistemi ilə əvəz edildi. Azərbaycan ərazisində yaradılan əyalətlərin idarəsi Qafqaz xəttinin Ali Baş Komandanı tərəfindən rus ordusunun zabitlərindən təyin edilirdi. Bir qayda olaraq əyalət rəisi - komentdant yalnız xristian məzhəbindən olan mayor, podpolkovnik və ya polkovnik rütbəli zabitlərdən təyin edilirdi. Belə inzibati idarə sistemi komendant idarə sistemi adlanırdı. Rus rəsmi sənədlərində bu inzibati sistem “hərbi-xalq rejimi” adlansa da, bu, əslində hərbi işğal rejimi idi. Komendant idarə sistemində komendantlar nəzarətsiz hakimiyyətə və çox geniş səlahiyyətlərə malik idilər və bundan qeyri-məhdud sui-istifadə edirdilər.

Cənubi Qafqazda çarizmin iqtisadi siyasətinin həyata keçirilməsi, diyarın təbii ehtiyatlarının mənimsənilməsi cəhdləri bəzi digər amillərlə yanaşı, komendant üsul-idarəsinin təsiri altında ləngidilirdi. Bu idarəçilik üsulu hətta ali çar məmurlarının etiraflarına görə, “dövlət gəlirləri üçün soyğunçu, diyarın rifahı, onun sakinlərinin səadəti üçün məhvedici” oldu[132, s.110]. Çar hakimiyyət orqanları bunu aydın dərk edirdi.

Digər tərəfdən xanlıqlar dövründən qalma ənənəvi feodal istismarına müstəmləkə zülmünün əlavə edilməsi, yeni-yeni vergilər və mükəlləfiyyətlər qoyulması, vergilərin bölüşdürülməsi və yığılmasında hər cür qanunsuzluq, yerli hakimiyyət orqanlarının özbaşınalığı Azərbaycan kəndində sosial ziddiyyətləri daha da kəskinləşdirmişdi. Təsadüfi deyil ki, 1829-1830-cu illərdə Cənubi Qafqazda yoxlama aparan senatorlar qraf Kutaysev və Meçnikov müsəlman əyalətlərində maliyyə-vergi sistemində çoxlu qanunsuzluq və özbaşınalıqların mövcudluğunu xüsusilə qeyd etmiş, komendant idarə sistemini kəskin tənqid etmişdilər. Yerli idarədə himayə, məhkəmədə müdafiə olunmayan, hər şeyi itirmiş xalqın hökumətə inamı itmişdi. Senatorlar Cənubi Qafqazda yeni idarəçilik sisteminə keçilməsini hökumətə məsləhət bilmişdilər. Lakin komendant idarə sisteminin ləğvi bu dövrdə həyata keçirilmədi. Təsadüfi deyil ki, sosial şəraitin ən gərgin olduğu əyalətlərdə

müstəmləkə zülmü əleyhinə güclü xalq üsyanları baş vermişdi[135, s.83].

Hələ 1828-1829-cu illər rus-türk müharibəsi başa çatdıqdan sonra Qafqazın baş hakimi general Paskeviç 16 may 1829-cu il tarixli raportunda mövcud idarəetmə sisteminin qeyri effektiv olması məsələsini qaldırmışdı[268, c.18-20]. Paşkeviç komendant idarəçilik sisteminin dəyişdirilməsi ilə yanaşı hüquq, məhkəmə və idarəçilik sahəsində yerli xüsusiyyətləri tamamilə ləğv etməyi və burada Rusiyanın mərkəzi quberniyalarındakına bənzər mərkəzləşdirilmiş idarəçilik sistemi yaratmağı təklif edirdi. O, yerli xalqların adət - ənənələrini, dini - mədəni xüsusiyyətlərini nəzərə almırdı. Onun fikrinə görə, müsəlmanlar imperiyanın eyni, ümumi qanunları və təsərrüfatının təsiri altında qaldıqca, Rusiya ilə daha çox yaxınlaşacaqlar.

1829-1830-cü illərdə Cənubi Qafqazda senator təftişi aparmış senatorlar Meçnikov və Kutaysov general Paskeviçin baxışlarını bəyənmiş, ona tərəfdar çıxmışdılar. Onların fikrincə Cənubi Qafqazın idarəçiliyində ən başlıca prinsiplər mərkəzləşdirmə və ruslaşdırma prinsipləri əsas tutulmalı idi, gərək Cənubi Qafqazdakı sakinlər rus kimi danışmağa, rus kimi düşünməyə, rus kimi hissetməyə məcbur olunsunlar.

Cənubi Qafzaqda rus qanunları idarəçiliyi, maliyyə sisteminin tətbiqi və rus məmurlarının yerləşdirilməsi ilə yanaşı, diyarda çarizmin sosial bazasının yaradılması məsələsi də mühüm yer tuturdu. Bu dövrdə Azərbaycanın bəy, xan, sultan, ağalardan ibarət feodal zümrəsinin malik olduqları hüquq və imtiyazlar rəsmi rus dairələri tərəfindən inkar edilir, tanınmırdı. Rusiya rəsmi dairələri Cənubi Qafqazda “təbii rus zadəganlarını yerləşdirmək” niyyətində idilər.Yerli torpaq sahiblərinin ancaq bir hissəsinin zadəgan imtiyazlarının tanınması, özü də onların inzibati idarəçilik sisteminə buraxılması və təbii rus zadəganları ilə müqayisədə ikinci dərəcəli mövqedə “yerləşdirilməsi”, sözsüz ki, Azərbaycan feodallarının istər siyasi, istər mülkiyyət, istərsə də silki maraqlarına tamamilə zidd idi və odur ki, onlar Rusiyanın ölkədə sosial dayağı ola bilməzdilər.

Cənubi Qafqazın inzibati idarəçiliyi ilə bağlı Paskeviçin layihəsində təklif edilirdi ki, Gürcüstan quberniyası 10 qəzadan, əhalisinin əksəriyyəti müsəlman olan ikinci quberniya isə 8 qəzadan ibarət olsun. “Erməni vilayəti”nə gəldikdə isə,

Gürcüstanın tərkibində olan Pəmbək, Şuragöl ərazilərini də bura birləşdirmək və onun ərazisini genişləndirmək nəzərdə tutulurdu[101,л.16-22]. Paskeviçin inzibati vahid kimi "Erməni vilayəti"ni saxlamaqda məqsədi Rusiya imperiyasının strateji planlarına hesablanmışdı, belə uydurma dövlətçiliklə xaricdə, xüsusilə də İran və Osmanlı dövlətlərində yaşayan ermənilərin cəlb edilməsi yolu ilə bu ərazinin tamamilə erməniləşdirilməsi nəzərdə tutulurdu.

1833-cü il 12-25 may tarixlərində Rusiya imperiyasının Qanunlar departamentinin və Dövlət Şurasının ümumi yığıncaqlarında Paskeviçin, senatorların təklifləri, həmçinin "Erməni vilayəti"ndə idarəçiliyin çətinliklərlə üzləşdiyini və orada mərkəzləşmiş idarə sisteminin yaradılmasını təklif edən baron Rozenin təqdimatı nəzərdən keçirildi. Dövlət Şurası bu məsələyə baxılması üçün hərbi nazir knyaz A.İ.Çernışevin rəhbərliyi altında hərbi, daxili işlər, maliyyə və ədliyyə nazirlərindən ibarət xüsusi komitə təşkil etdi[103,л.75-76]. Bu komitə, 1834-cü il yanvarın 25-də sonradan "Rusiya imperiyasının Zaqafqaziya ərazilərini təşkil edən vilayətlərin idarəsinin əsas qaydalarının layihəsi" adı ilə rəsmiləşdirilən "Əsasnamə"ni qəbul etdi. Bu layihəyə əsasən Cənubi Qafqazı "Rusiya Zaqafqaziyası" adlandırmaq nəzərdə tutulurdu. İdarəetmə sistemi 4 mərhələyə bölünürdü: baş, əyalət, vilayət və qəza idarəetməsi. "Rusiya Zaqafqaziyası" əsas şəhərləri Tiflis və Bakı olmaqla, iki əyalətdən – Qərb (Qara dəniz) və Şərq (Xəzər dənizi) əyalətlərindən ibarət olmalı idi. Məhkəmə idarəçiliyi sahəsində rus qanunvericiyinin tətbiqi nəzərdə tutulurdu, müsəlman əhalisi üçün isə şəriət məhkəmələri saxlanılmalı idi. Qərb əyaləti xristian əhalinin yaşadığı vilayətlərdən təşkil olunmalı, erməni vilayəti də onun tərkibinə daxil olmalı idi[100,л.644].

Komitə layihə üzərində işini tamamladıqdan sonra, onu baxılması üçün Dövlət Şurasına təqdim etdi. Lakin layihə Qafqazın baş hakimi Q.V.Rozenin iradlarına görə təsdiqlənmədi[99,л.28-29].Bununla belə, bir sıra düzəlişlərdən sonra bu layihə yenidən gündəmə gətirildi. Dövlət Şurası Cənubi Qafqaz ərazisinin inzibati bölgüsünü coğrafi amillər və kommunikasiya şərtləri ilə əsaslandırır və eyni zamanda qeyd edirdi ki, bu iş əhalinin etnik tərkibi nəzərə alınmaqla həyata keçirilməlidir, bunun üçün də Cənubi Qafqazda iki quberniyadan artıq inzibati vahid yaratmağa

ehtiyac yoxdur. Dövlət Şurasının bu təklifi 1836-cı il may ayının 15-də çar tərəfindən təsdiq olundu. Xüsusi vilayətlərin yaradılmasına yalnız regional şərtlərin özünəməxsusluğunun çox olduğu hallarda yol verilə bilərdi. Bununla da, 1834-cü il layihəsinin əsasları təsdiq edilmiş oldu. Lakin islahata münasibətdə fikir ayrılıqlarının mövcud olması və buna görə də vahid qərarın qəbul edilməsinin çətin olduğunu nəzərə alaraq, Qafqazın baş hakiminə "Cənubi Qafqaz əyalətinin bölünməsinin əsasları"nı, komitəyə isə baş idarə və ali məhkəmə haqqında əsasnaməni hazırlamaq həvalə olundu. Eyni zamanda, işi sürətləndirmək üçün Tiflisə nazirliklərin nümayəndələrindən təşkil olunmuş xüsusi komissiya göndərmək də qərara alındı. Çarın 30 mart 1837-ci il fərmanına görə, komitənin fəaliyyət müddəti bütün iş başa çatana kimi uzadıldı, senator P.D.Qanın sədrlik etdiyi Zaqafqaziya komissiyası da ona tabe etdirildi[107,л.59;269,с.72].

Bu zaman "Erməni vilayəti"nin rəisi, milliyyətcə erməni olan V.Bebutov müxtəlif vasitələrlə Qafqaz hakiminə təsir edir, Cənubi Qafqazın yeni inzibati bölgüsünün hazırlanması layihəsində "Erməni vilayəti"nin mövcudluğunu qorumağa çalışır və eyni zamanda onun sərhədlərinin genişləndirilməsi üçün səy göstərirdi. V.Bebutov Qafqazın baş hakimi Q.V.Rozenin qarşısında "Erməni vilayəti"nin sərhədlərinin Şuragöl, Mehri və Qapan dairələrinin hesabına genişləndirilməsi ilə bağlı məsələ qaldırmış və bunu həmin ərazilərdə Qarsdan köçürülmüş ermənilərin məskunlaşması və eyni zamanda bu ərazilərin məsafə baxımından Tiflisdən daha çox İrəvana yaxın olması ilə əsaslandırmışdı[104,л.49].

1837-ci ilin payızında imperator I Nikolay Cənubi Qafqaza səfəri zamanı "Erməni vilayəti"nə də baş çəkdi, bu bölgədə baş verən özbaşınalıq və qanunsuzluq faktları ilə özü şəxsən üzləşdi. İmperator oktyabr ayının 5-də Sərdarabadda olarkən xalq kütlələrinin ağır vəziyyətini göstərmək üçün imperatora "ütülmüş xoruz"un təqdim edilməsi, İrəvanda küçə ilə gedərkən əlahəzrətin pişvazına çıxan və "ərzimiz var, qoymurlar" deyərək qışqıran müsəlman əhali kütlələrinin dairə rəislərindən, xüsusilə də Şərur və Sürməli dairələrinin rəislərindən, eyni zamanda vilayət rəisi V.Bebutovdan şikayətlərinin dinləməsi heç də onda xoş təəssürat oyatmadı. Bölgədəki vəziyyətlə bağlı öz yaxınlarına "hər yerdə dəhşətli özbaşınalıq və fırıldaq

hökm sürür" deyən çar üzünü yerli məmurlara tutaraq "din və imanla qulluq edin" deyib, onları "yoxsa sizi məhv edərəm" sözləri ilə hədələdi[278,c.382-385,]. Ümumilikdə imperatorun Cənubi Qafqaza səfəri zamanı burada hökm sürən anarxik vəziyyətlə tanışlığın nəticəsi olaraq 1837-ci ilin dekabrında Qafqazın baş hakimi Q.V.Rozen vəzifəsindən azad edildi, onun yerinə Y.A.Qolovin təyin edildi. Y.A.Qolovinin idarəçiliyi dövründə, 1838-ci fevralın 19-da mülki idarəçiliyin yaxşılaşdırılması məqsədilə Baş İdarə Şurası yaradıldı[102,л.4].

1838-ci ildə Dövlət Şurası islahat işini senator baron P.D.Qana həvalə etdi. Qan Cənubi Qafqazda yaşayan xalqlarda mövcud olan icitimai münasibətləri öyrənməyə cəhd etmədi, sürətli şəkildə Paşkeviç, Meçnikov və Kutaysovun layihələri əsasında "Cənubi Qafqaz diyarının inzibati idarəçilyinin" layihəsini hazırlamağa başladı. Qanın rəhbərlik etdiyi Zaqafqaziya komissiyası 1838-ci il 2 oktyabr tarixli iclasında "Erməni vilayəti"nin nəzərdə tutulan Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edilməsi ilə bağlı bir sıra məsələləri müzakirə etdi. İlkin layihədə məmurların sayının ixtisar olunması məqsədilə qəzaların sayının İrəvanla Naxçıvanın birləşdirilməsi hesabına azaldılması və vilayətdə Naxçıvan, Aleksandropol olmaqla iki qəzanın yaradılması təklif edilirdi. Lakin müzakirələrdə İrəvan qalasının hərbi-strateji əhəmiyyətə malik bir obyekt olması və İrəvan ərazisinin Naxçıvan qəzasına birləşdirilməsi ilə onun nəzarətsiz qalaraq məhv olacağı qeyd edildi. Həmçinin 2750 ailənin yaşadığı İrəvan şəhərində 6 karvansaranın, 1600 ticarət məntəqəsinin olduğu və xarici ticarətin həcminin 250 min gümüş rubla çatdığı diqqətə çatdırıldı. Yekunda komissiya belə qərara gəldi ki, İrəvanı bir şəhər kimi qoruyub saxlamaq və Pəmbək-Şuragöl distansiyasının bir hissəsini də daxil etməklə bu ərazidə üç qəza yaratmaq lazımdır[105,л.230-232]."Erməni vilayəti"nin bir inzibati vahid kimi ləğv olunmasına qarşı vilayətin rəisi, Zaqafqaziya ərazisinin Baş İdarə Şurasının üzvü V.O.Behbudov etiraz etdi. Lakin o, P.D.Qanın təzyiqi ilə bu əraziləri tərk etməli oldu və Polşaya Paskeviçin xidmətinə göndərildi[115,л.213].

Senator Qan islahat layihəsini tərtib edərək 1838-ci ilin fevralında onu Cənubi Qafqaz diyarının idarə edilməsi üzrə komitənin təsdiqinə verdi. Daha sonra Dövlət Şurasına təqdim olunan bu layihədə deyilirdi ki, guya xanlıqlar dövründə

Azərbaycanda xanın iradəsindən başqa heç bir qayda-qanun olmamış, azərbaycanlılar şəriət məhkəmələrinə müraciət etmirlər, rus məmurları və rus idarələri əyalət məhkəmələrində mövcud olan süründürməçiliyi azaldacaq, əhalini bəxtəvər edəcəkdir. Layihə 1839-cu il dekabrın 16-da Dövlət Şurasında geniş müzakirə olundu. Əsas müzakirələr Cənubi Qafqazda quberniya idarəçiliyinin dərhal, yaxud tədricən tətbiqi ətrafında oldu. Bu toplantıda eyni zamanda daha bir ciddi məsələ – Cənubi Qafqazın Rusiyanın müstəmləkəsi və ya bir hissəsi kimi qiymətləndirilməsi məsələsi haqqında da müzakirələr aparıldı. Çünki bu vaxta qədər Cənubi Qafqaz Rusiyanın müstəmləkəsi kimi qəbul olunmuş və gürcü zadəganlarından başqa, yerli feodal təbəqəsinin digər nümayəndələrinə – bəylər, ağalar, sultanlar və məliklərə rus zadəganları ilə müqayisədə aşağı səviyyədə baxılmışdı. Müzakirələrin yekununda Cənubi Qafqazın müstəmləkə deyil, bəzi şərtlərlə Rusiyanın bir hissəsi kimi qiymətləndirilməsi və Rusiyada qəbul olunmuş ümumi inzibati sisteminin qaydaları ilə idarə olunması, bu bölgənin sakinlərinə ölkənin bütün əhalisi ilə bərabər hüquqlar verilməsi qərara alındı[106, s.4].

Ümumi quberniya idarəçiliyinin tədricən tətbiqinə tərəfdar olduğunu bildirən Dövlət Şurası, işin sona çatdırılması üçün dövlət katibi M.P.Pozen, Y.A.Qolovin və P.D.Qandan ibarət yeni komissiyanın yaradılması haqqında qərar qəbul etdi. 1840-cı il fevralın 29-da komissiya layihənin hazır olması haqqında hesabat verdi. Layihəyə martın sonu – aprelin əvvəllərində Dövlət Şurasının birləşmiş Qanun və iqtisadiyyat departamentində baxıldı. Müzakirələr zamanı layihəyə bir sıra xüsusi qeydlər edildi: məsələn, "dairə", "dairə hakimləri" və s. adlar Cənubi Qafqaz əyalətlərinin Rusiya ilə yaxınlaşdırılması üçün "qəza"larla əvəz olundu. "Dairə" adı yalnız Quba və Dərbənd rayonlarından təşkil olunmuş hərbi ərazidə saxlanıldı[102,л.228-229].

Nəhayət, 1840-cı il aprelin 10-da I Nikolay tərəfindən "Cənubi Qafqaz diyarının idarə olunması üçün təsissatlar" adı altında təsdiq olundu[363,c.237-261]. 10 aprel 1840-cı il qanununa əsasən Cənubi Qafqazda Gürcü-İmeretiya quberniyası və xüsusi hərbi-dairəvi idarəçiliklə Xəzər vilayəti yaradıldı. Azərbaycan ərazilərində Bakı, Qarabağ, Quba, Car-Balakən, Yelizavetpol, Naxçıvan, İrəvan, Talış, Şəki və Şirvan qəzaları təşkil edildi. Gürcü-İmeretiya quberniyasının tərkibinə 11 qəza daxil

edildi: Tiflis, Qori, Telav, Balakən, Kutaisi, Yelizavetpol, Aleksandropol, İrəvan, Naxçıvan, Axalsıx və Quriya. Xəzər vilayəti isə 7 qəzadan ibarət oldu: Şirvan, Qarabağ, Şəki, Talış, Bakı, hərbi dairəyə daxil olan Dərbənd və Quba qəzaları[363,c.237].

1840-cı il 10 aprel qanunu ilə 1828-ci il martın 21-də yaradılmış "Erməni vilayəti" inzibati-ərazi vahidi kimi ləğv olundu, onun yerində bəzi istisnalarla keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazi bazaları əsasında İrəvan və Naxçıvan qəzaları təşkil edildi. Həmçinin, İrəvan bölgəsində daha bir yeni qəza – Axalkələk sahəsinin də birləşdirilməsi ilə Pəmbək-Şuragöl böldəsində Aleksandropol (Gümrü) qəzası təşkil edildi. Hər üç qəza Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edildi.

1840-cı il 10 aprel qanununa görə quberniya, əyalət və qəzaların idarəsi mülki məmurlar tərəfindən həyata keçirilməli, yalnız dairədə hərbi-dairə rəisi olmalı idi. Qəza idarə orqanlarının tərkibi genişləndirildi. Nəticədə, İrəvan şəhərinin idarə strukturuna daxil olan polis idarəsinin tərkibi 1 nəfər şəhər rəisi, 2 pristav, 4 məhəllə nəzarətçisi, 1 mirzə və onun 1 köməkçisi, 3 orta və 3 aşağı məvacibli mirzə və 22 polis qulluqçusundan ibarət oldu; Qəza məhkəməsi 1 iclasçı, 1 şəhərli, 1 kəndli olmaqla 2 katib, 4 şöbə müdiri, 4 köməkçi və 1 protokol yazan, 1 qeydiyyatçı, 1 arxivarius, 1 tərcüməçi, 4 yüksək, 4 orta və 8 aşağı məvacibli mirzədən; qəza xəzinədarlığı isə, 1 xəzinədar, 1 mühasib və 1 köməkçi, 2 orta və 3 aşağı məvacibli mirzə və 3 andçıdan ibarət oldu. Bundan əlavə, Qulp duz mədəninə nəzarət üçün xüsusi idarə orqanları yaradıldı. Onun tərkibi 1 mədən rəisi və 1 köməkçisi, 1 mirzə, 1 tərcüməçi, 1 katib, 3 minadüzən, 2 dükan gözətçisi və 2 xidmətçidən ibarət oldu[169, s.283].

Cinayət işləri üzrə məhkəmə icraatında hərbi məhkəmələr ləğv edilir, ilkin məhkəmə mərhələsi qəza məhkəmələri sayılırdı. Onlar məbləği 15 gümüş rubldan artıq olan işlərə baxırdılar. Məbləği daha kiçik işləri polisin araşdırması nəzərdə tutulurdu. Cinayət və mülki məhkəmə palatası ikinci mərhələ sayılırdı, burada müraciət və təftişlə bağlı işlərə baxılırdı. Məhkəmə işində ən ali mərhələ hakim senat sayılırdı. İlkin mərhələdə məhkəməyə ana dilində müraciət etməyə icazə verilirdi[363,c.259]. Məhkəmə haqqında qanun 1841-ci il 1 yanvar tarixində qüvvəyə

minməli idi. Bu islahatın müsbət cəhəti o idi ki, mülki hakimiyyət hərbidən ayrıldı; hərbi idarəçilik ləğv olundu; hərbi məhkəmələr mülki məhkəmələrlə əvəz olundu; vahid məhkəmə icraatı sistemi yaradıldı; Bütövlükdə Cənubi Qafqaz bölgəsi imperiyanın əsas hissəsi kimi tanındı. İslahatın mənfi cəhəti də o idi ki, sosial-iqtisadi səviyyədəki, məişətdəki fərqli cəhətlər, Cənubi Qafqazın yerli şəraiti və əhalisinin özünəməxsus xüsusiyyətləri nəzərə alınmadı.

İnzibati-məhkəmə islahatı çarizmin sosial dayağı məsələsini xeyli kəskinləşdirdi. İslahatın keçirilməsi zamanı hökumətdə mütləqiyyətin etibarlı dayağı ancaq “təbii rus zadəganları” olmalıdır, rus zadəganlarını burada bəy və ağaların tiyul torpaq sahibliyini ləğv etmək hesabına malikanələrinə yerləşdirmək fikirləri mövcud idi. Çarizm xüsusi və xəzinə ticarət-sənaye kompaniyalarına paylamaq üçün həmin yolla torpaq fondu yaratmaq niyyətində idi. Bəzi tərəddüdlərdən sonra çar hökuməti belə bir addımı atmaq qərarına gəldi. Cənubi Qafqaz diyarı Baş İdarə Şurasının Gürcü-İmeretiya quberniyası Qazax, Şəmşədil və Borçalı nahiyyələrinin ağaları və məliklərinin kəndlərin idarə olunmasından kənar edilməsi barədə 1841-ci il 13 fevral tarixli və Xəzər vilayəti bəylərinin kəndlərin idarəsindən kənar edilməsi barədə 1841-ci il 24 mart tarixli qərarlarına əsasən bəylər və ağalar özlərinin tiyul torpaqlarından məhrum edildilər. Guya bəylər və ağalar indiyədək öz malikanələrinin mülkiyyətçisi yox, sadəcə “idarəedənləri” idilər. Bu qərarlar 1841-ci il aprelin 25-də “Cənubi Qafqaz diyarının qurulması komitəsi”nin təsdiqindən keçdi və mayın 23-də çar tərəfindən təsdiq edildikdən sonra qanun gücünü aldı. 1841-ci il 13 fevral tarixli qərarın həyata keçirilməsi üzrə Qazax, Şəmsədil və Borçalı məntəqələrində 59 ağanın 15245 rəiyyət ailəsi yaşayan 102 kəndi müsadirə olundu. Müsadirələr ciddi müqavimətlə üzləşdiyindən və narazılıqlar doğurduğundan sonadək aparılmadı, yarımçıq qaldı. Xəzər vilayətində bu qərar həyata keçirilməmiş qaldı. Tezliklə 1841-ci ilin sonlarında çar hökuməti bəy torpaqlarının müsadirə edilməsinin yanlış addım olduğunu anladı və bu prosesi dayandırdı.

İslahatın uğursuzluğu ilə bağlı Qafqazdakı hakimindən məlumat alan çar I Nikolay imzaladığı 1842-ci il 3 fevral tarixli gizli reskriptlə hərbi nazir A.Çernışevə 1840-cı il tarixli layihəyə, mahiyyətinə dəymədən, istənilən dəyişiklik etmək və

ehtiyac olarsa baş idarə rəisini işdən azad etmək hüququ verdi. Uzun müddət islahatın hazırlanmasında iştirak edən dövlət katibi Rozenə yeni idarəçiliyin çatışmayan cəhətlərini aşkar etmək üçün məhkəmə və rəsmi yerlərin təftişini həyata keçirmək həvalə olundu. Cənubi Qafqaza göndərilən komissiya burada yerli feodalların hökumətin siyasətindən çox narazı olduğunu gördü və bunun günahını Qanın üzərinə qoydu. Yerli ali təbəqəyə qarşı həyata keçirilən bu siyasəti ədalətsiz, hökumət üçün ziyanlı hesab edən Çernışev və Rozen ağalar haqda yeni əsasnamə hazırlamağı, bəylərin isə hüquqlarını dəyişmədən saxlamağı təklif etdilər. Çar hökuməti bəy mülklərinin alınmasını dayandırmağa, sahibkarların hüquqlarını təsdiq edərək "müəyyən sahibkarlıq (bəylik) hüquqlarını toxunulmaz saxlamağa və xəzinənin xüsusi mülkiyyətə iddialarından əl çəkməyə" məcbur oldu. 1842-1846-cı illərdəki təftişin nəticəsində 1840-cı il inzibati-məhkəmə islahatında bir xeyli dəyişikliklər aparıldı[132, s.116-117].

Çarın 1842-ci il 30 avqust tarixli fərmanına görə, 1840-cı il komitəsi əvəzinə, A.X.Benkendorfun rəhbərliyi ilə Cənubi Qafqaz bölgəsi işləri üzrə komitə yaradıldı[108,л.1]. 1842-ci il noyabrın 12-də "Cənubi Qafqaz bölgəsinin baş idarə mandatı" qəbul edildi. Sənədə görə ucqarları imperiya ilə yaxınlaşdırmaq məqsədilə baş idarədən Rusiyada mövcud olan hüquqlar əsasında təbəqələrin hüquqlarını təyin etmək üçün lazımi tədbirlər görülməsi və yerli xüsusiyyətlər, dini görüşlər nəzərə alınmaqla rus məhkəmə icraatının tədqiq edilməsi tələb olunurdu.

Çar hökuməti Qafqazda öz mövqelərini möhkəmlədirmək üçün Cənubi Qafqaz diyarının Baş İdarəsi əvəzinə, 1844-cü ildə Qafqaz canişinliyini təsis etdi. Belə məsul vəzifəyə seçilməyə M.S.Vorontsov layiq görüldü, çünki onun Novorossiyisk general-qubernatoru kimi fəaliyyəti çar tərəfindən "çar təbəəsinə" layiq fəaliyyət kimi qiymətləndirilmişdi. 1844-cü il dekabrın 27-də o, Qafqaza canişin təyin edildi. 30 yanvar 1845-ci il tarixli reskriptlə canişinin hüquqları möhkəmləndirildi. Canişin çardan başqa heç kim, heç bir nazir qarşısında cavabdeh olmamaqla, böyük hərbi və mülki səlahiyyətlərə malik idi[364,c.151-152]. Beləliklə, imperiyanın daxilində xüsusi, başçısının hərbi və mülki hakimiyyəti öz əlində cəmləndirdiyi inzibati vahid yaradılmış oldu.

Qafqaz canişini M.S.Vorontsov Cənubi Qafqazda yaşayan əhaliyə münasibətdə ermənilərə xüsusi simpatiya bəslədiyini və onlara hər vəchlə kömək etməyə çalışdığını gizlətmirdi. Hələ 1842-ci ildə İmeretiya zadəganları Çernışevə müraciət edərək, İmeretiyanın əvvəllər müstəqil çarlıq olduğunu, Gürcüstanla birləşməklə onların hüquqlarının pozulduğunu diqqətə çatdırıb, hərbi nazirdən İmeretiyanın Gürcüstandan ayrılmasını xahiş etmişdilər. Bir qədər sonra bu məsələ ilə bağlı layihə hazırlandığı zaman canişin Vorontsov "gələcəkdə buna oxşar İrəvan və ya erməni əyalətinin olmasını da istərdim" deyə mövqe ortaya qoyaraq İrəvan bölgəsində yenidən xüsusi erməni inzibati vahidinin yaradılmasına açıq dəstək nümayiş etdirmişdi[331,c.196].

Bölgənin inzibati dəyişiklikləri haqqında məsələyə 1846-cı ilin sentyabr ayının sonunda çarın canişin dəftərxanasının rəisi S.V.Safonovla görüşü zamanı baxıldı. İmeretiya və Dağıstan əyalətlərinin yaradılması təklifi razılıqla qarşılandı. I Nikolay Polşa təcrübəsinə əsaslanaraq, bu inzibatı vahidləri quberniya adlandırmağı təklif etdi və bildirdi ki, istəsə də ölkə daxilində "dövlət idarələrini" ixtisar edə bilmir. O, fərqlərin silinməsi, bölgənin imperiya ilə "çuğlaşması" üçün quberniyaları regionlar üzrə, dairələri isə - qəzalar üzrə adlandırmağı təklif etdi. Canişin tərəfindən qaldırılan erməni vilayəti haqqında məsələyə isə heç toxunulmadı. Noyabr ayında Qafqaz komitəsi tərəfindən canişinin vilayətlərin təşkili haqqında təqdimatına baxıldı və komitə bölgədə ixtisar olunmuş idarəçiliyin tətbiqi, quberniyaların əsas şəhərlərin adlarına müvafiq adlandırılması ilə razılaşdı. 1846-cı il 14 dekabr tarixli əsasnaməyə görə Cənubi Qafqaz bölgəsində dörd quberniya yaradıldı: Tiflis, Kutaisi, Şamaxı və Dərbənd. İrəvan bölgəsi - İrəvan, Aleksandropol qəzaları və Naxçıvan qəzası 8 qəzadan ibarət olan Tiflis quberniyasının tərkibinə daxil oldu[365,c.647-648].

1846-cı il 14 dekabr tarixli əsasnaməyə görə həmçinin, Azərbaycan ərazisində olan bəzi qəzaların adları da dəyişdirildi. Belə ki, Şirvan qəzasının adı dəyişdirilərək Şamaxı qəzası, Şəki qəzası Nuxa qəzası, Qarabağ qəzası Şuşa qəzası, Talış qəzası Lənkəran qəzası adlandırıldı.

Çar Vorontsovu Qafqaz canişini vəzifəsinə təyin edərkən ona ali müsəlman silkinin və digər sahibkarların torpaq hüquqlarını nizamlamağı tapşırmış, "torpaqların

ağalardan alınmasını yanlış addım" adlandırmış və onları geri qaytarmağın zəruriliyini bildirmişdi. Buna görə də Vorontsov Tiflisə gələn kimi bəy və ağaların torpaq hüquqları məsələsinin həllinə də girişdi. Nəhayət, 1846-cı il 6 dekabrda "bəylərin, və ağaların torpaq hüquqları haqqında" qanun qəbul edildi. Bu qanuna görə hakim təbəqənin nümayəndələri müsəlman əyalətlərinin Rusiya tərəfindən işğalına qədər onların ailələrinə məxsus olan torpaqların qanuni varisi sayılırdılar. Ağalar və bəylərin 1841-ci ildə alınmış torpaqları onların özlərinə qaytarılır, bu torpaqlarda yaşayan kəndlilər isə dövlət kəndliləri kimi qeydə alınırdılar[365,c.617-619]. Bununla da, islahata qədərki münasibətlər bərpa olunur və hüquqi cəhətdən rəsmiləşirdi. Çarizm imperiyanın cənub ucqarlarında feodal təbəqənin hüquqlarının bərpa etməklə öz sosial dayağını genişləndirmiş oldu.

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, 1840-cı il inzibati islahatında çarizmin yeritdiyi müstəmləkəçilik siyasəti ilə paralel olaraq onun Azərbaycan torpaqlarına münasibətdə həyata keçirdiyi irqi, milli və dini ayrı-seçkilik siyasəti də özünü qabarıq göstərdi. Belə ki, bu islahatda da Azərbaycan torpaqlarının vahid mərkəzdə birləşdirilməsinə imkan verilmədi, onun ayrı-ayrı mərkəzlərdən idarə olunması saxlanıldı. Azərbaycanın Şirvan, Qarabağ, Şəki, Talış, Bakı, Quba və Dərbənd qəzaları Xəzər vilayətində birləşdirilsə də, Balakən, Yelizavetpol, İrəvan, Naxçıvan və Aleksandropol qəzaları Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edildi. 1840-cı il inzibati islahatının ən mütərəqqi hadisəsi isə 1828-ci il martın 21-də tarixi Azərbaycan torpaqlarında süni şəkildə yaradılan "Erməni vilayəti"nin ləğv edilməsi oldu. Lakin erməni başbilənləri "Erməni vilayəti"nin bərpası üçün müxtəlif yollarla bölgədəki çar məmurlarına təsir göstərməyə çalışır və bu istiqamətdə mübarizələrini davam etdirirdilər. Qafqaz canişini də onlara dəstək verirdi. Bir qədər sonra, XIX əsrin 40-cı illərinin sonlarında İrəvan bölgəsində eyni adlı quberniyanın yaradılması prosesində bu mübarizənin oynadığı rolu görəcəyik.

Bütövlükdə götürdükdə, 1840-cı il inzibati-məhkəmə islahatı, 1841-ci il qanunları və onlardan imtina edilməsi, Qafqazda canişinlik institutunun yaradılması, quberniyaların təşkili, ali müsəlman silkinin rus dvoryan və zadəganları ilə eyni hüquqlar əldə etməsi ilə çarizmin Qafqazdakı imperiya siyasətində bütöv bir mərhələ

yekunlaşdırıldı. Bu mərhələ bölgənin Rusiyanın müstəmləkəsi və ya bir hissəsi kimi qiymətləndirmək cəhdləri ilə başlayıb, Qafqazın imperiyanın xüsusi ucqar regionu kimi qəbul edilməsi ilə sona çatdı.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ
ADU

# II FƏSİL
# XIX ƏSRİN II YARISI - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN BÖLGƏSİNİN İNZİBATİ-SİYASİ VƏZİYYƏTİ

## 2.1 İrəvan quberniyasının yaradılması və onun idarə sistemi

İrəvan bölgəsi Rusiyanın nəzarətinə keçdikdən dərhal sonra bu ərazidə erməni inzibati vahidinin yaradılması, İran və Osmanlı dövlətlərindən köçürülən ermənilər hesabına bölgənin erməniləşdirilməsi, onların idarəçiliyə cəlb edilməsi üçün Rusiya hökuməti və onun Cənubi Qafqazdakı administrasiyası həmin dövr üçün mümkün olan bütün tədbirləri həyata keçirdi. Lakin bölgənin "Erməni vilayəti" idarəçiliyində Krasovski-Nerses cütlüyünün yerli əhali olan türk-müsəlmanlara qarşı həyata keçirdiyi irqi, milli və dini ayrıseçkilik siyasəti müsəlmanlar arasında Rusiya hökumətinə qarşı etimadsızlıq mühiti yaratmaqla yanaşı, müsəlman əhalinin kütləvi şəkildə İran və Osmanlı dövlətlərinə köçünün baş verməsinə gətirib çıxarmışdı. Vəziyyət elə bir miqyas və ciddi şəkil almışdı ki, general Paskeviç bundan bərk narahat olmağa başlamış, bölgədə yaranmış vəziyyəti Rusiyanın strateji maraqlarına təhlükə kimi qiymətləndirmiş və Krasovski-Nerses cütlüyünün bölgənin idarəçiliyindən uzaqlaşdırmağa nail olmuşdu[114,л.64;268, c.252-253].

Lakin Krasovski-Nerses cütlüyündən sonra "Erməni vilayəti"nin rəisi vəzifəsini 1828-1829 və 1829-1830-cu illərdə müvafiq olaraq icra edən A.Çavçavadze və M.Z.Arqutinski-Dolqorukinin dövrlərində bölgənin idarəçiliyində və yerli əhali olan türk-müsəlmanlara qarşı aparılan siyasətdə elə bir ciddi dəyişiklik olmadı. 1830-cu il yanvarın 6-da "Erməni vilayəti"nin rəisi vəzifəsinə təyin edilən milliyyətcə erməni olan general-mayor V.Bebutovun 10 illik rəisliyi dövründə isə, əvvəllər mövcud olmuş məşvərətçi orqanlar ləğv edilərək onun təkbaşına hakimiyyəti gücləndirildi, bununla da, bölgənin erməniləşdirilməsi, türk-müsəlmanların təqib edilməsi siyasəti daha da gücləndirildi. Vəziyyət elə bir şəkil almışdı ki, 1837-ci ilin payızında imperator I Nikolay Cənubi Qafqaza səfəri zamanı "Erməni vilayəti"nə

baş çəkən zaman bu bölgədə baş verən özbaşınalıq və qanunsuzluq faktları ilə özü şəxsən üzləşməli olmuş, buradakı müsəlmanların (yerli idarə orqanları tərəfindən imkan verilməməsinə baxmayaraq, çünki onlar müsəlman əhalinin çara yaxınlşmasının və ona hansısa bir müraciət etməsinin qarşısını maksimim dərəcədə alırdılar) fəryad dolu müraciətlərini dinləməli olmuşdu[278,c.382-385].Ümumilikdə imperatorun Cənubi Qafqaza səfəri zamanı burada hökm sürən anarxik vəziyyətlə tanışlığın nəticəsi olaraq 1837-ci ilin dekabrında Qafqazın baş hakimi Q.V.Rozen vəzifəsindən azad edildi, onun yerinə Y.A.Qolovin təyin edildi və bölgənin idarəçiliyinin dəyişdirilməsi ilə bağlı islahat işinin sürətləndirilməsi tapşırıldı[102,л.4].

Doğrudur, Rusiya hökuməti İrəvan bölgəsində erməni inzibati vahidinin yaradılmasını və bu ərazinin erməniləşdirilməsini özünün strateji hədəfi hesab edir, bu planın mərhələ-mərhələ gerçəkləşdirilməsini istəyir və bölgə ilə bağlı fəaliyyətində bu xüsusu həmişə önə çəkirdi. Lakin vilayət idarəçiliyinə rəhbərlik edən erməni generalının bölgədəki rus məmurlarını da ələ alıb, əsasən türk-müsəlmanların məskunlaşdığı və tarixən Azərbaycana bağlı olan bir ərazinin yerli əhalisinə qarşı həyata keçirdiyi diskriminasiya və repressiv tədbirlər elə bir məcraya gəlib çıxmışdı ki, mövcud anarxik vəziyyəti öz gözləri ilə görən, buna görə də bərk qəzəblənən çar bölgənin idarəçiliyinin dəyişdirilməsi ilə bağlı xüsusi olaraq tapşırıq verməli olmuşdu[278,c.389]. Buna görə də, Cənubi Qafqazın 1840-cı il inzibati islahat pakitendə "Erməni vilayəti" idarəçiliyinə yer verilmədi, bu idarəçilik və inzibati vahid ləğv edildi, keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazi bazaları əsasında eyniadlı qəzalar təşkil edildi, eyni zamanda Axalkələk sahəsinin də birləşdirilməsi ilə Pəmbək-Şuragöl böldəsində Aleksandropol qəzası təşkil edilərək, hər üç qəza Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edildi[363,c.237].

Lakin 1844-cü ildə Qafqaz canişinliyinin təsis edilməsi və geniş səlahiyyətlərə malik canişin vəzifəsinə ermənipərəstliyi ilə seçilən M.S.Vorontsovun təyin edilməsi ilə erməni kilsə rəhbərləri və ideoloqları özlərinə yeni hami tapmış oldular. Qafqaz canişini Cənubi Qafqazda yaşayan əhaliyə münasibətdə ermənilərə xüsusi simpatiya bəslədiyini də heç gizlətmir, açıq ifadə edirdi. Vorontsov Qafqazın yeni inzibati

islahat layihəsi hazırlanan zaman İrəvan bölgəsində yenidən erməni inzibati vahidinin yaradılması ilə bağlı təklif irəli sürsə də, son nəticədə 1846-cı il inzibati islahatının müzakirələrində və yekun layihəsində bu təklifə heç toxunulmadı. Erməni müəllifləri bunu bölgə ilə bağlı müzakirələrdə söz sahibi olan Paskeviç ilə N.Aştaraketsi arasında olan soyuq münasibətlərlə izah etməyə çalışsalar da[394,c.55], əslində bu, erməni inzibati vahidinin mövcudluğu dövründə bölgədə yaranmış böhranlı və anarxik vəziyyətlə bağlı idi. Beləliklə, Cənubi Qafqazın 1846-cı il inzibati bölgüsündə də erməni inzibati vahidinin yaradılmasına yol verilmədi. İrəvan bölgəsi - İrəvan, Aleksandropol qəzaları və Naxçıvan qəzası Tiflis quberniyasının tərkibinə daxil edildi[365,c.647-648].

Bununla belə, erməni kilsə xadimləri və ideoloqları, hamiləri olan canişin Vorontsovla birlikdə öz niyyətlərindən əl çəkmir, öz planlarını reallaşdırmaq üçün müxtəlif vasitələrə əl atır və səylə çalışırdılar. Bu zamana qədər Cənubi Qafqazda yaradılmış inzibati sistem I Nikiolay tərəfindən təqdirə layiq görülmüşdü. Çünki I Nikolay Vorontsova xoş münasibətini ifadə etmək üçün onu öz briliyant portreti ilə mükafatlandırmış və xüsusi olaraq qeyd etmişdi ki, o bölgənin idarəsi üzrə “etimadı” doğrultmuşdur[116,л.1-4]. Buna görə də canişin çarın təqdirindən istifadə edib yararlanmaq qərarına gəldi.

Vorontsov 1848-ci ilin oktyabr ayında vəlihədin Cənubi Qafqaza səfəri çərçivəsində İrəvan bölgəsinə gəlişi zamanı əsasən ermənilərdən xüsusi təşkil olunmuş əhali qrupları İrəvan bölgəsinin quberniya kimi təşkil olunması xahişi ilə ona müraciət etdilər[110,л.2]. Bunun ardınca canişin 1849-cu ilin fevral ayında Cənubi Qafqazda quberniya idarəçiliyinin təkmilləşdirilməsi və bölgədə ayrıca İrəvan quberniyasının yaradılması haqqında acizanə hesabat təqdim etdi. O qeyd edirdi ki, quberniyanı hələ 1846-cı ildə yaratmağı düşünmüşdü. Canişin bu təklifini Tiflis quberniyasının idarəçiliyinin olduqca mürəkkəb və geniş olması ilə əsaslandırır, sərhəd rayonu olan İrəvan bölgəsində erməni əhalisinin iqtisadi inkişafı üçün vacib saydığını bildirirdi. İrəvan bölgəsində quberniyanın yaradılması üçün Tiflis və Şamaxı quberniyalarında dövlət əmlakı palatalarının vahid ekspedisiya ilə əvəz

olunması, vahid xəzinə palatasının təşkili zamanı artıq qalan vəsaitdən istifadə edilməsi nəzərdə tutulurdu[110,л.1-4].

Qafqaz canişininin təklifinə 1849-cu ilin may ayında Qafqaz komitəsi tərəfindən baxıldı. Komitə Tiflis quberniyasının 470 min əhalisi olan Tiflis və 238 min əhalisi olan İrəvan hissələrinə bölünməsi ilə bağlı canişin tərəfindən irəli sürülən təklifi bəyəndi və bunu öz qərarı ilə rəsmiləşdirdi. İrəvan quberniyasının beş qəzadan ibarət olması nəzərdə tutulurdu. Yeni Bəyazid və Ordubad qəzaları sahəsiz təşkil olunmalı, Aleksandropol qəzasının Axalkələk sahəsi isə Axalsıxə verilməli idi. Hesablamalara görə, yeni idarəçiliyin tətbiqi 88 min gümüş rubla başa gəlməli idi[109,л.31-32].

Daha sonra Cənubi Qafqaz bölgəsinin təklif edilən yeni inzibati bölünmə ehtimalları ədliyyə deparatmenti tərəfindən bəyənildi. Nəhayət, 1849-cu il iyunun 9-da keçmiş “Erməni vilayəti” və 1840-cı ildə yaradılmış Aleksandropol (Gümrü) qəzası əsasında İrəvan quberniyasının yaradılması haqqında qərar qəbul edildi. Quberniya dövlət idarələri 1850-ci il yanvarın 1-də açıldı və fəaliyyət göstərməyə başladı[367,c.311-312;271,c.46].

İrəvan quberniyasının mərkəzi İrəvan şəhəri oldu. Bəzi inzibati ərazi dəyişikliklərindən sonra quberniyanın tərkibinə ilkin dövrdə Tiflis quberniyasından İrəvan, Naxçıvan və Aleksandropol qəzaları, Şamaxı quberniyasının Şuşa qəzasının Mehri mahalı və Qapan kəndi daxil edildi. Quberniya 5 qəzaya bölündü: İrəvan, Aleksandropol, Yeni Bəyazid, Naxçıvan və Ordubad qəzaları[367,c.311-312].

İrəvan qubeniyası mülki səlahiyyətləri də daşıyan hərbi qubernatora tabe idi. Onun geniş səlahiyyətləri var idi. Qubernatora onun xüsusi tapşırıqlarını yerinə yetirmək üçün iki böyük və iki kiçik zabit təhkim olunmuşdu. Hərbi qubernator quberniya idarəsinə sədrlik edirdi. Quberniya idarəsi vitse-qubernator, 2 məsləhətçi, katib, 4 böyük məmur, 4 böyük məmur köməkçisi, qeydiyyatçı, tərcüməçi, arxivarius, quberniya memarı və quberniya topoqrafından ibarət idi[284,c.10]. Vitse-qubernator qubernatordan sonra ikinci şəxs olmaqla, onun əsas köməkçisi idi və qubernator yerində olmadıqda onu əvəzləyirdi.

General-mayor İvan İvanoviç Nazorov İrəvan quberniyasının ilk general-qubernatoru təyin edildi (1849-1859)[288,c.376]. Sonrakı illərdə general-mayor Mixail İvanoviç Astafyev (1860-1866), general-mayor Mixail İvanoviç Roslavlev (1867-1880), general-leytenant Mixail Yakovleviç Şalikov (22 mart 1880-22 dekabr 1890), general-leytenant Aleksandr Aleksandroviç Freze (2 fevral 1891-16 noyabr 1895), həqiqi mülki müşavir, qraf Vladimir Fedoroviç Tizenhauzen (20 fevral 1896-1916), saray müşaviri Arkadi Evqeneviç Strelbiçkiy (1916-1917) İrəvan qubernatoru oldular[288,c.468-469,376].

Saray müşaviri Nikifor Vasilyeviç Blavatski İrəvan quberniyasının ilk vitse-qubernatoru oldu (1849-1861) [288,c.376]. Sonrakı illərdə onu bu vəzifədə, həqiqi mülki müşavir Vasili Afanasyeviç Dzyübenko (1861-1865), həqiqi mülki müşavir Karl İqnateviç Buçen (1865-1873), həqiqi mülki müşavir Valeri Afanasyeviç Çexovskiy (30 dekabr 1873-2 sentyabr 1890), həqiqi mülki müşavir, qraf Vladimir Fedoroviç Tizenhauzen (29 noyabr 1890-29 oktyabr 1892), həqiqi mülki müşavir, knyaz Mixail Aleksandroviç Nakaşidze (19 noyabr 1892-15 aprel 1904), podpolkovnik Viktor Petroviç Baranovski (6 sentyabr 1904-1913), saray müşaviri, knyaz Aleksey Pavloviç Çeqodayev (1913-1914) və saray müşaviri Arkadi Evqeneviç Strelbiçkiy (1914-1916) əvəz etdilər[288,c.376-377,469].

İrəvan bölgəsində quberniya idarəçiliyi yaradılsa da, ermənilər quberniyanın yüksək idarə heyətinə yaxın buraxılmadılar. İrəvan quberniyasının yaranmasından 1917-ci ilədək onu idarə edən qubernator və vitse-qubernatorların içərisində bir nəfər də olsun, erməni olmamışdır. Bu, vaxtilə bölgənin vilayət idarəçiliyi dövründə ermənilərin yarıtmaz fəaliyyəti və onların yüksək dövlət idarəçilik işlərində lazımi səriştəyə sahib olmamaları ilə bağlı idi.

İrəvan bölgəsində yeni yaradılmış quberniya idarəçiliyi, xərclərin artmaması üçün mövcud məmur ştatı ilə kifayətlənməli idi. İrəvan quberniyasının özünün ayrıca məhkəməsi, prokurorluğu və tibbi sahəsi var idi. Əvvəllər məhkəməyə tabe olan polis ondan ayrıldı.

Mülki idarəçiliyin təşkilində cinayət və mülki işlər üzrə palatalarla quberniya məhkəməsi yaradıldı. İrəvan quberniya məhkəməsi bir sədr, iki məsləhətçi, zadəgan

və tacir təbəqəsinin hər birindən 2 iclasçı, 2 katib, 6 katib köməkçisi, protokolçu-kargüzar və tərcüməçidən təşkil olunmuşdu. Hərbi-məhkəmə komissiyasının işləri də quberniya məhkəmələrinə verilir, həmçinin bu məhkəmələr özündən sonrakı orqanların fəaliyyətinə nəzarət edən ikinci məhkəmə instansiyası sayılırdı. Prokurorluq isə, quberniya prokuroru və onun köməkçisindən ibarət idi. Prokurorun yanında bir katib və bir mirzə var idi.

Müsəlmanlara qarşılıqlı olaraq şikayətlərinin baxılması üçün şəriət məhkəmələrinə müraciət etmək imkanı verilmişdi. Bu məhkəmələr hər bir şəhərdə var idi və onlara şeyxülislam başçılıq edirdi. Ona kömək üçün əhali tərəfindən, dövlətin də təsdiqi ilə ruhanilərin arasından bir neçə nəfər seçilirdi[284,c.11].

1850-ci ilin mart ayında İrəvan qubernatoru general-mayor İ.İ.Nazorovun dövlət idarələrinin təftişi zamanı yerli idarələrin, xüsusilə də məhkəmələrin fəaliyyətinin qeyri-qənaətbəxş olması müəyyən edildi. Məhkəmə icraatında olan həll edilməmiş işlərin sayı kifayət qədər çox idi. Yeni yaradılmış quberniya idarəsi və məhkəməsi bütün yerli məsələləri həll etməli, bununla da onların baxılması və icrası proseslərini sürətləndirməli idi.

İrəvan quberniyası Cənubi Qafqazdakı digər Azərbaycan quberniyaları kimi inzibati cəhətdən qəzalara, qəzalar sahələrə, sahələr isə kəndlərə bölünürdü. Qəzaları qəza, sahələri sahə rəisləri idarə edirdi. Hər bir qəzada qəza idarəsi var idi. Qəza idarəsi qəza rəisi, onun köməkçisi və katibi, iki katib köməkçisi və bir tərcüməçidən təşkil olunmuşdu. Qəza rəisləri qəza idarəsinin başından durmaqla və onu idarə etməklə yanaşı, qəzalarda polis rolunu da oynayır, həm də dövlət əmlakının qoruyucusu idilər. Qəza rəisləri həm də qəza ərazisindəki kəndlərin əhalisinə nəzarət etmək və onların müxtəlif problemlərini həll etmək səlahiyyətlərinə malik idilər. Aleksandropol və Naxçıvan qəzalarının qəza idarələrinin hər birində kəndli məsələləri ilə bağlı bir nəzarətçi, Yeni Bəyazid və Ordubad qəzalarında isə, qəza rəislərinin iki köməkçisi var idi[284,c.10].

Qəza xəzinəsi İrəvanda, Naxçıvanda və Aleksandropolda yerləşirdi. İrəvan xəzinəsi öz qəzasından savayı Yeni Bəyazid qəzasının, Naxçıvan xəzinəsi isə Ordubad qəzasının mədaxil və məxaricini idarə edirdi.

Şəhər polisi İrəvanda polismeyster, Aleksandropol və Naxçıvanda qorodovoy, Ordubad və Yeni Bəyaziddə polis komissarlarının nəzarətində idi. İrəvan polismeysteri istisna olmaqla, digər qəzalardakı polis orqanlarının hamısı müvafiq qəzanın rəisinə tabe idilər. İrəvan jandarm müfəttişi və İrəvan şəhər polis idarəsi isə birbaşa qubernatora tabe idi.

İrəvan quberniyasında ayrıca tibbi sahə də yaradılmışdı. Quberniyanın tibbi sahəsini İrəvan quberniya baş həkimi idarə edirdi. Ona bir kargüzar təhkim olunmuşdu. Hər bir qəzanın və eyni adlı şəhərin bir həkimi var idi. Yalnız İrəvanda qəza həkimi ilə şəhərin həkimi ayrı-ayrı idi. Bütün qəza və şəhər həkimləri İrəvandakı quberniya baş həkiminə tabe idilər. Tibbi sahəyə bir baytar həkim də daxil edilmişdi.

Qəzalara daxil olan sahələri idarə etmək üçün yaradılan sahə idarələri sahə rəisi, onun köməkçisi və tərcüməçidən ibarət idi. Sahə rəisləri yerlərdə həm məhkəmə, həm də polis rolunu oynayırdılar.

Kəndləri isə kənd ağsaqqalları idarə edirdi. Asayişə, vergilərin nizamlı olaraq yığılmasına və yerli rəisin göstərişlərinin lazımi səviyyədə yerinə yetirilməsinə nəzarət etmək üçün hər bir kəndin sakinləri tərəfindən, müstəqil olaraq, kənd başçısı (starşina) seçilirdi. Kənd başçısının səlahiyyətləri quberniya rəhbərliyi tərəfindən təsdiq edilirdi. Azərbaycan kəndlərində kənd başçısı kəndxuda, kovxa və ya yüzbaşı, erməni kəndlərində isə məlik adlanırdı. Starşina 3 illik seçilir, lakin bu qaydaya təsadüfi hallarda riayət olunur. Bəzi böyük kəndlərdə starşinalara köməkçilər – çavuşlar təyin olunurdu. Starşina vergi ödəməkdən və digər mükəlləfiyyətlərdən azad idi. Çavuşa isə əhalinin hesabına az miqdarda məvacib ödənilirdi. Hər ikisinin hüquq və mükəlləfiyyətlərini təyin edən heç bir əsasnamə yox idi və onlar yalnız yerli rəisin əmrlərini yerinə yetirirdilər. Köçəri tayfalarda irsi starşinalar və ya qəbilə rəisləri var idi, lakin onların hüquq və imtiyazlarına dövlət tərəfindən hələ baxılmamışdı. Burada əsrlik adətlər qanunları əvəz edirdi[284,c.11].

İrəvan quberniyası yaradıldıqdan sonra quberniya rəhbərliyinin qarşısında duran əsas məsələlərdən biri də bölgədəki dövlət əmlakının idarə olunması məsələsi idi. İmperator I Nikolayın təsdiq etdiyi 21 dekabr 1849-cu il tarixli “Cənubi Qafqaz

bölgəsində dövlət əmlakının idarə olunması haqqında Əsasnamə"yə görə iki ildən sonra onun yerli şəraitə uyğun olmasını yoxlamaq lazım idi. İrəvan quberniyasında bu sahəyə xüsusi yaradılmış kollegiya rəhbərlik edirdi. 1851-ci ildə İrəvan quberniyasında dövlət əmlakının qorunmasına məsul olan qəza rəislərinin bu məsələ ilə bağlı öz fikirləri öyrənildi. İrəvan qəza rəisinin təqdim etdiyi hesabatda dövlət əmlakının qorunması və idarə edilməsi üzrə onun fəaliyyətinə əngəl olan səbəblər kimi, qəza və sahələrdə idarə ştatlarının məmur çatışmazlığı, yuxarı idarə orqanları tərəfindən təftiş mexanizminin bürokratlaşdırılması, yenidənqurma tədbirlərinə zamanın yetərli olmaması kimi amillər qeyd etmişdi. Etiraf olunurdu ki, quberniyanın dövlət əmlakının idarə olunması üzrə müstəqil orqan yaradılması daha məqsədəuyğundur. İrəvan quberniyası idarəsi bu problemin bütün aspektlərini hərtərəfli araşdıraraq, 1853-cü il aprel ayının 7-də Qafqaz canişininə dövlət əmlakının vəziyyəti haqqında hesabatını təqdim etdi. Hesabatda quberniyada dövlət əmlakı şöbəsinin açılmasının zəruriliyi əsaslandırılırdı ki, bir qədər sonra bu məsələ öz müsbət həllini tapdı.

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, İrəvan bölgəsi Rusiyanın nəzarətinə keçdikdən sonra Rusiya hökuməti bu bölgədə idarəçilik aparatını təkmilləşdirmək, xanlıq dövründəki idarəçilik quruluşunu tamamilə sıxışdırıb aradan qaldırmaq və rus idarəçilik strukturlarını formalaşdırmaqla yanaşı burada süni şəkildə erməni inzibati vahidini yaradıb bölgənin erməniləşdirilməsinə də xüsusi diqqət ayırmışdır. Lakin qısamüddətli "erməni vilayəti" idarəçiliyi dövründə vilayətin idarə olunmasında yaranan anarxik vəziyyət, bölgədə tüğyan edən qanunsuzluq və özbaşınalıqlarla müşaiyət olunan xaos elə bir həddə çatdı ki, Rusiya hökuməti bölgənin idarəçiliyini dəyişdirməli oldu. 1840-cı ilin inzibati islahatında bölgədə erməni inzibati vahidi və vilayət idarəçiliyi ləğv edildi. 1844-cü ildə Qafqaz canişini təyin olunan, ermənipərəstliyi ilə seçilən M.Vorontsov yenidən erməni inzibati vahidinin yaradılması işinə girişdi. Lakin mövcud şərtlər altında erməni inzibati vahidinin yaradılmasını əsaslandırmaq mümkün deyildi. Buna görə də, Qafqaz canişini İrəvan bölgəsində ayrıca quberniyanın yaradılması təklifini irəli sürüb, bunu Tiflis quberniyasının idarəçiliyinin olduqca mürəkkəb və geniş olması ilə

əsaslandırmalı oldu. İrəvan bölgəsində ayrıca quberniyanın təşkil edilməsini buradakı erməni əhalisinin iqtisadi inkişafı üçün vacib hesab edən Vorontsov bu qərarla bölgənin tamamilə erməniləşdirilməsi işini sürətləndirəcəyini düşünürdü.

1849-cu il iyunun 9-da yaranan və 1850-ci il yanvarın 1-dən fəaliyyətə başlayan İrəvan quberniyasında yaradılan idarəçilik sistemi Rusiyanın digər quberniyalarında mövcud olan idarəçilik strukturları ilə eyni idi. Bununla belə, yeni tətbiq olunan quberniya, qəza, sahə, kənd idarəçilik sistemində də bölgənin türk-müsəlman əhalisinin sahib olduğu ənənəvi idarəçilik quruluşunun qalıqları hələ qalmaqda idi.

## 2.2 İrəvan quberniyasının ərazisi və əhalisi

İrəvan bölgəsi tarixən Ağrıdağ düzənliyini, Göyçə gölü hövzəsini və Araz çayı boyu uzanan bəzi əraziləri əhatə edirdi. XIX əsr rus hərbi tarixçisi N.Dubrovin İrəvan xanlığının sərhədləri haqqında məlumat verərkən, xanlığın şimaldan Pəmbək, Şəmsədil, Qazax sultanlıqları və Gəncə xanlığı, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənub və qərbdən isə İran və Osmanlı əraziləri ilə həmsərhəd olduğunu yazırdı[295,c.327]. Xanlıq dövründə İrəvan xanlığı şimaldan və şimal-şərqdən Borçalı, Qazax və Şəmsədil sultanlıqları, şərqdən Gəncə və Qarabağ xanlıqları, cənubdan Bəyazid paşalığı, Maku, Xoy və Naxçıvan xanlıqları, qərbdən Qars paşalığı ilə həmsərhəd idi. Xanlığın ərazisi 11.000 kv.verstə (1 verst=1,0668 km) bərabər idi[166, s.141-142]. Lakin bəhs edilən dövrdə Azərbaycanın digər xanlıqlarında olduğu kimi, İrəvan xanlığının da ərazisi hərbi-siyasi vəziyyətlə əlaqədar olaraq ayrı-ayrı vaxtlarda genişlənmiş və ya kiçilmişdir.

Rusiya işğalından sonra İrəvan bölgəsinin sərhədləri bir müddət xanlıq dövründə olduğu kimi qaldı. İrəvan quberniyası yaradıldıqdan sonra XIX əsrin əvvəllərində - 1802-ci ildə İrəvan bölgəsindən qoparılaraq Kartli-Kaxetiya çarlığı tərkibində Rusiyaya birləşdirilən Şuragöl və Pəmbək sultanlığı əraziləri (1840-cı ildə bu ərazilərdə Aleksandropol qəzası yaradılmışdı) yenidən onun tərkibinə qaytarıldı.

1849-cu il iyunun 9-da yaradılan və 1850-ci il yanvarın 1-dən fəaliyyətə başlayan İrəvan quberniyası Ferro adasının meridianından 38° 54′ və 41° 13′ şimal enliyində, 60° 75′ və 64° 30′ şərq uzunluğunda yerləşirdi. İrəvan quberniyasının 1855-ci ildə nəşr olunan hərbi-statistik icmalında quberniyanın ucqarları aşağıdakı şəkildə göstərilir: “İrəvan quberniyasının şimal ucqarı İrginçay sıra dağlarının aşırımında Tiflisdən Başkeçid vasitəsilə Aleksandropola aparan kəsə yolun üzərində; şərq ucqarı Araz çayının İranla sərhəd Şərəf və Derjava məntəqələri arasında; cənubu – Araz çayının Kərçivan və Ordubad məntəqələri arasında, birincidən qərbə doğru 4 ½ verst yuxarıda; qərbi isə Türkiyə ilə sərhəddə, sağdan Araza tökülən Zaqoran çayınıın məntəqəsində yerləşir”[284,c.1].

İrəvan bölgəsinin Osmanlı paşalıqları və İran  xanlıqları ilə böyük məsafədə sərhəd zolağı keçid üçün demək olar ki, heç bir əngəl törətməyən süni siyasi sərhəd təşkil edirdi. Bu əraziləri Cənubi Qafqazın digər hissələrindən fərqləndirən bir çox xüsusiyyətlərinə baxmayaraq, Osmanlı dövlətinin və İranın ona yaxın sərhəd zolaqları ilə ayrılmaz bir bütövlük təşkil edirdi. Sərhədlərinin böyük bir hissəsi Osmanlı dövləti və İranla kəsişən İrəvan quberniyası bu iki dövlətin əraziləri ilə bağlı maraqları və planları olan Rusiya imperiyası üçün mühüm strateji əhəmiyyətə malik bir ərazi idi. Quberniyanın hərbi əhəmiyyəti barədə XIX əsrdə hazırlanan hərbi-statistik icmallarda geniş məlumatlar verilmişdir[284,c.2]. İrəvan quberniyasının hüdudlarında geniş dağ silsilələri olmaqla yanaşı, ərazi mülayim iqlimə və bol suya sahib idi. Bu şərtlər bir tərəfdən İrəvan quberniyasında müxtəlif qoşunların saxlanması üçün əlverişli şərait yaradırdı. Çünki torpağın münbit olması ərzağın yerindəcə hazırlanmasını təmin edir və heç bir maneə yaratmırdı.

Cənubi Qafqazın digər bölgələri kimi, İrəvan quberniyasının da iqlimi, coğrafi mövqeyi, torpağı və yaradıcı həyatı qeyri-adi dərəcədə zəngin və müxtəlifliyi ilə seçilirdi. Çılpaq qayaları və qarlı dağları istisna olmaqla, torpaq hər yerdə olduqca münbit və məhsuldar idi. Quberniyanın ərazisindən nəinki Cənubi Qafqazdan İran və Osmanlı dövlətlərinə əsas quru ticarət yolları, ümumiyyətlə Şərqin Qərbə, Qərbin isə Şərqə siyasi fəaliyyət yolları da buradan keçirdi.

İrəvan quberniyası Kutaisi, Tiflis və Şamaxı quberniyaları, Qaradağ, Mərənd, Maku Cənubi Azərbaycan xanlıqları, Bəyazid, Qars və Axalsıx türk paşalıqları ilə həmsərhəd idi.

Quberniyanın şimal-qərb ucqarlarından – Axalsix paşalığı və Kutaisi quberniyası hüdudlarının daxildə Cənubi Qafqaz tərəfdən qovuşduğu nöqtədən başlayaraq onun sərhəd zolağı aşağıdakı süni və təbii hüdudlarda keçirdi: Şuragöl dairəsi və Aleksandropol qəzası, Axalkələk sahəsindən (Kutaisi quberniyasının Axalsıx qəzası) yuxarı Kiçik Qafqaz və ya Alagöz adlanan sıra dağlarına doğru 16 ½ verst uzanır. Leyli dağdan Borçalı sahəsinin (Tiflis quberniyasının Tiflis qəzası) sərhəddi başlanır və həmin sıra dağlar istiqamətindən Pəmbək sahəsinin (Aleksandropol qəzası) başlanğıcına qədər 19 ½ verst uzanır. Pəmbək və Borçalı sahələrinin sərhəddi əvvəlcə 23 verstə kimi süni hüdudla, Lori düzünü qapadan sonuncu dağ silsiləsi ilə uzanır. Sonra isə 44 verst Maşaver çayının axarını Dəbədi (Kamenski) çayının axarından ayıran Əkzəböyük adlı sıra dağları ilə davam edir. Bu sıra dağların şərqə ayrılan Allahverdi və ya Lilvər adlanan hissəsində sərhəd 13 verst məsafədə cənuba doğru demək olar ki, dağlıq, meşəlik ərazidir və Kamensk çayına dirənir. Bu çay 14 verstlik məsafədən Pəmbək çayı ilə birləşdiyi yerə qədər; Pəmbək çayının 2 ½ versti boyunca sağ axarının Çinaxçı çayına töküldüyü 12 ½ verstlikdən Pəmbək, Borçalı və Qazax sahələrinin qovuşduğu yerə qədər sərhəd zolağı keçir.

Sonuncu (Qazax sahəsi) Tiflis quberniyasının Yelizavetpol qəzasının bir hissəsidir; onun Pəmbək sahəsi ilə sərhədinin 23 versti süni hüdudla, bir hissəsi isə Xılxan dağından şimal-şərqə doğru olan ərazi ilə əhatə olunur. Bu hissə Pəmbək çayının qollarını Ağstafa çayının yuxarı hissəsindən ayırır. Xılxan dağı Aleksandropol və Yelizavetpol qəzalarının Yeni Bəyazid qəzası ilə birləşdiyi yerdə ucalır. Sonuncu iki qəzanın sərhədi şimaldan və şimal-şərqdən Göycə gölünü əhatə edən Kiçik Qafqaz və ya Alagöz sıra dağları ilə hüdudlanır. Yeni Bəyazid qəzası 51 verst məsafədə Qazax sahəsi ilə, 45 verst Qaraarxac dağına qədər Şəmsəddil sahəsi ilə, 31 verst Konqur dağa qədər Ayrümlə sərhəddir. Həmin yerdə Tiflis və Şamaxı quberniyalarının sərhədləri İrəvan quberniyası ilə birləşir. Buradan Yeni Bəyazid

qəzası 44 verst məsafədə Şuşa qəzasının Zəngəzur sahəsi ilə Konqur dağdan cənub-qərbə doğru sərhəddir.

Sarıyer-Sarçalı dağından Naxçıvan qəzası başlanır. Naxçıvan qəzasının Şamaxı quberniyası ilə sərhəddi yuxarıda adı çəkilən sıra dağ silsiləsinin cənubu ilə istiqamətlənir və qəzanı Zəngəzur sahəsindən ayırır. Zəngəzur sahəsi 38 ½ verst məsafədə Dərələyəz və 46 verst məsafədə Naxçıvan sahələri ilə qovuşur.

Sıra dağların əsas zirvəsinin sonrakı hissəsi Ordubad qəzası ilə Şuşa qəzası arasında yalnız 5 verstlik məsafədə sərhəd zolağı keçir. Ondan sonra Ordubad qəzasının tərkibinə daxil edilmiş Şuşa qəzasının Mehri sahəsinin ərazisi başlanır. Burada sərhəd zolağı baş sıra dağların Çonqur və ya Basut çayın qollarını Bazar çayın qollarından ayıran hissədən keçir. Bu sərhəd zolağı 86 verst məsafədə uzanır, Derjav və Şərəf məntəqəlləri arasında Araz çayına dirənir.

Beləliklə, İrəvan quberniyasının Cənubi Qafqaz tərəfdən daxili sərhədlərinin uzunluğu cəmi 515 ½ verst təşkil edirdi ki, bunun da 16 ½ versti Kutaisi quberniyası ilə, 278 ½ versti Tiflis quberniyası ilə və 220 ½ versti Şamaxı quberniyası ilə həmsərhəd idi.

İrəvan quberniyasının Osmanlı dövləti ilə sərhədi şimal-qərb ucqardan başlayaraq aşağıdakı təbii və süni hüdudlarla əhatələnirdi: Sərhəd Axalsıx və Aleksandropol qəzalarının ərazisində yerləşən Mədət postundan başlayaraq 8 verst məsafədə Arpaçay və Qazançı çaylarının axarı boyunca uzanır. Arpaçayın mənbəyi Axalsıx və Qars paşalıqlarının sərhədindədir. Daha sonra Arpaçay, Qars paşalığı ilə sərhəd xəttini təşkil edir: 68 verst Şuragöl sahəsi (Aleksandropol qəzası) və 44 verst İrəvan qəzasının Sərdarabad sahəsi boyunca Mirzə xan məntəqəsindən 1 ¾ verst aşağı sərhəd Arpaçaydan ayrılır və 25 verst Qaradağ sıra dağları boyunca istiqamətlənir. Bundan sonra sərhəd zolağı 3 verst cənub-qərbə doğru yönəlir və Zaqoran çayının yatağının əksi istiqamətində Araza dayanır. Daha sonra Sürməli sahəsi gəlir. Onun Qars paşalığı ilə sərhədi Arazın sağ sahilinə keçir və 20 verst məsafədə Zaqoran çayının axarı istiqamətində ta onun Dibas dağından yatağına qədər uzanır. Bura Qars paşalığının sonu, Bəyazid paşalığının başlanğıcıdır.

Sərhəd zolağı bu nöqtədən düz bucaq altında cənub-şərqə yönəlir və bu istiqamətini sürəkli kəsiklərlə Kiçik Ararat dağının zirvəsinə qədər qoruyur. Burada sərhəd zolağı olaraq Sınıq dağ silsiləsi qəbul olunur və Arazın hövzəsini Fərat və ya Muradın cənub qolunun hövzəsindən ayırır. Bu dağ silsiləsi üzrə sərhəd zolağı 44 verst uzunluğunda Dibas, Koroğlu və Qızıl Ziyarət dağlarının zirvələri ilə Balıq gölə qədər çatır. Balıq göl 4 verst boyunca sərhəd zolağı ilə bölünmüşdür; sonra 46 verst yenidən dağ silsiləsi ilə Aslanlı, Kurcaq, Zor, Dumanlı, nəhayət Pambıq və ya Xaç Gədik dağlarını keçir. Pambıq dağından sərhəd Böyük Araratın qərb yamacları boyunca 7 ½ verst cənub-qərbə gedir, sonra isə düz istiqamətdə 10 verst bu dağın yoxuşu ilə son zirvəyə qalxır. Daha sonra isə Böyük və Kiçik Araratın zirvələrindən keçən və uzunluğu 10 ½ verst olan sərhəd zolağını təşkil edir. Kiçik Araratın zirvəsində Rusiya, Osmanlı və İranın sərhədləri qovuşur.

Beləliklə, İrəvan quberniyasının Osmanlı dövləti ilə bütün sərhəd zolağının uzunluğu 287 verst idi ki, bunun da 8 versti Axalsıx paşalığının, 160 versti Qars paşalığının və 119 versti Bəyazid paşalığının payına düşürdü.

Sürməli sahəsinin Maku xanlığı ilə sərhədi 24 verst məsafədə Kiçik “Araratın” zirvəsindən başlayaraq düz istiqamətdə Burulan kurqanına qədər uzanır. Bu kurqandan sonra Şərur sahəsi başlayır. Daha sonra sərhəd zolağı 26 verst məsafədə Qarasu çayı boyunca, Aşağı Qarasunun Araza töküldüyü yerə qədər davam edir. Qarasu çayının mənbəyindən Şamaxı quberniyasının aşağı hüdudlarına kimi 232 verst uzunluqda Araz çayının daimi axarı ilə İrəvan quberniyasının sərhədi müəyyən olunur. Arazın sağ sahilində dağılmış Abbasabad qalasının qarşısında yerləşən Rusiyaya məxsus kiçik torpaq sahəsi istisnalıq təşkil edir. Araz çayının axarı ilə üzü aşağı Şərur sahəsi 39 verst məsafədə - İranla, 88 verst – Naxçıvanla, 49 verst – Ordubadla, 56 verst – Mehri ilə həmsərhəddir.

Beləliklə, İrəvan quberniyasının İranla sərhədinin ümumi uzunluğu Kiçik “Araratın” zirvəsindən Şamaxı quberniyasının hüdudlarına qədər 282 verst təşkil edirdi ki, bunun 158 versti Maku, 34 versti Mərənd və 90 versti Qaradağ xanlığı ilə həmsərhəddir[284,c.4-7].

Bu sərhəd xətləri İrəvan quberniyasının yarandığı zaman quberniyanın sərhədlərini təşkil edirdilər. Sonrakı dövrdə isə, quberniyanın sərhədləri bir qədər də genişləndirilərək ərazisi böyüdüldü.

İrəvan quberniyası keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazi bazalarında yaradılmışdı. İrəvan quberniyası yaradılan zaman onun tərkibinə Tiflis quberniyasının İrəvan, Naxçıvan, Aleksandropol qəzaları, Şamaxı quberniyasının Şuşa qəzasının Mehri mahalı və Qapan kəndi daxil edilmişdi. Yeni yaradılan quberniyada İrəvan qəzasının bölünməsi hesabına Yeni Bəyazid, Naxçıvan qəzasının bölünməsi hesabına isə Ordubad qəzaları yaradıldı. Şuşa qəzasından alınan Mehri mahalı və Qapan ərazisi də Ordubad qəzasına birləşdirildi. Nəticədə, İrəvan quberniyası 5 qəzadan ibarət oldu: İrəvan, Aleksandropol, Yeni Bəyazid, Naxçıvan və Ordubad qəzaları. Quberniyanın mərkəzi İrəvan şəhəri oldu"[367,c.311-312;271,c.46].

Bundan başqa İrəvan quberniyasına daxil olan bəzi qəzaların sahələrə bölünməsi də həyata keçirildi: a) İrəvan qəzasında 4 sahə var idi: Zəngibasar, Sürməli, Şərur və Sərdarabad. Zəngibasar sahə idarəsi Kəmərlidə, Sürməli sahə idarəsi Qazıqışlaqda, Şərur sahə idarəsi Baş Noraşendə, Sərdarabad sahə idarəsi isə Zeyvədə yerləşirdi; b) Aleksandropol qəzasında iki sahə var idi: Şuragöl və Pəmbək. Şuragöl sahə idarəsi Aleksandropolda, Pəmbək sahə idarəsi isə Böyük Kəpəklidə yerləşirdi; c) Naxçıvan qəzası iki – Naxçıvan və Dərələyəz sahələrinə ayrılırdı. Birincinin idarəçiliyi Naxçıvan şəhərində, ikincininki isə Keşişkənddə yerləşirdi. Ordubad qəzası Ordubad və Mehri sahələrinə ayrılır, Yeni Bəyazid qəzası isə sahələrə ayrılmırdı.

Xanlıq dövründən qalan mahal bölgüsü inzibati vahid kimi artıq işlənməsə də, əhali hələ də onu yaddaşlarında saxlayır və hər bir yerin vəziyyətini əvvəl daxil olduğu mahalın adı ilə təyin edirdilər. Quberniyasının mərkəzi qəzası olan İrəvan qəzasında aşağıdakı mahallar var idi: 1) Zəngibasar - İrəvan şəhərinin aşağı hissəsində, Zəngi çayının axarı ilə Araza qədər; 2) Gərnibasar – Gərni çayının axarı ilə; 3) Vedibasar - Vedi çayının axarı ilə; 4) Şərur - Doqiy yamacından Naxçıvan sərhədinə kimi Arazın sol sahilinin düzənliyi; 5) Sürməli - Böyük Araratın

ətəklərində Arazın sağ sahilindəki düzən; 6) Dərəkənd-Parçenis - Arazın sağ sahilində Sınıq dağın qaya sahələrinin yaratdığı dağlıq ərazi. Bu son iki mahal Sahat-Çuxuru dairəsini təşkil edirdi; 7) Saatlı - Arazın sol sahili və Qərbi Arpaçayın düzəngahı; 8) Talın - Aleksandropol qəzasının sərhədlərinin hündür yamacları və Alagözün cənub-qərb sahələri; 9) Sərdarabad - cənubdan Arazın axarı, digər tərəflərdən 5 sonuncu mahallarla əhatə olunan düzən.

Yeni Bəyazid qəzasının mahalları aşağıdakılar idi: 1) Dərəçiçək - Çubuxlardan Ozanlara, Quru Fəvvarədən və Saraşlıdan qəzanın şimal-qərbinə kimi; 2) Qarabulaq - Zəngi çayı ilə dağlıq sahələrin arası. Dağlıq sahələrdən biri Gərni çayını Qırxbulaq çayından ayırır, digəri Göycə gölünün hövzəsini qərbdən qapadır; 3) Göycə - Saraşlardan cənub-qərbə və cənuba Qida bulağa kimi; 4) Mehri - Qida bulaqdan Çubuxlova kimi, Göycə gölünün hövzəsinin cənub-şərq və şərq tərəfləri.

Naxçıvan qəzasının 6 mahalı var idi: 1) Xok - İrəvan vilayətinin Şərur mahalı ilə sərhədi; 2) Naxçıvan - Naxçıvan çayının axarı ilə; 3) Əlincə - Əlincə çayının axarı ilə; 4) Yaycı; 5) Dərələyəz; 6) Mavaze-Xatun. Sonuncu üç mahal Dərələyəz sahəsinin tərkib hissəsi idi və bir-birinin ardınca Arpaçayın istiqamətində yuxarıya doğru çayın mənbəyinə qədər uzanırdı.

Ordubad qəzası 5 kiçik mahala bölünmüşdü. Onların hər biri qəzanın vacib kəndlərinin adları ilə adlandırılmışdı: 1) Ordubad; 2) Əylis; 3) Dəstan; 4) Çenanoba; 5) Biləv.

Mehri sahəsi Mehri və Qapan mahallarından təşkil olunmuşdu.

Aleksandropol qəzasının Pəmbək sahəsi iki mahala bölünmüşdü: 1) Pəmbək; 2) Lori[284,c.11-12].

XIX əsr rus sənədlərində İrəvan bölgəsinin əhatə etdiyi ərazi ilə bağlı müxtəlif rəqəmlər vardır. 1836-cı ildə Rusiya imperatorunun fərmanı ilə nəşr olunan “Rusiyanın Qafqazdakı mülklərinin təsviri”ndə Dmitri Zubarevin hesablamalarına görə, İrəvan bölgəsinin ərazisi 11.000 kv.verst olaraq göstərilir[347,c.253]. Adı çəkilən təsvirə görə, Naxçıvan dairəsinin ərazisi 3000 kv.verst, Ordubad dairəsinin ərazisi isə 1200 kv.verst göstərilir. Buradan çıxış edərək, keçmiş “Erməni vilayəti”

ərazisinin 15.200 kv.verst olduğu məlum olur. 1840-cı ildə Pəmbək-Şuragöl bölgəsində yaradılan Aleksandropol qəzasının ərazisi də 8440 kv.verst idi.

1840-cı ildə Qafqazdakı Topoqraflar korpusunun zabitləri tərəfindən tərtib olunmuş "Erməni vilayətinin müxtəsər hərbi-statistik təsviri"ndə isə İrəvan əyalətinin 15.312 kv.verst, Naxçıvan dairəsinin 4435 kv.verst, Ordubadın 1000 kv.verst sahəyə malik olduğu və bütövlükdə keçmiş "Erməni vilayəti"nin ərazisinin 20.747 kv.verst göstərilirdi[284,c.13].

İrəvan quberniyasının 1855-ci ildə nəşr olunan hərbi-statistik icmalında Əlahiddə Qafqaz korpusunun Baş Qərargahı tərəfindən 1847-ci ildə hazırlanan xəritə əsas götürülərək İrəvan quberniyasının ərazisi 26.450 kv.verst (28.217 $km^2$) göstərilir. Bu sənədə görə İrəvan quberniyasının yeni yarandığı dövrdəki inzibati-ərazi bölünməsi və əhatə etdiyi ərazilər aşağıdakı cədvəldə verilmişdir[284,c.14].

Cədvəl 2.2.1

| İrəvan quberniyasının inzibati-ərazi bölünməsi və əhatə etdiyi ərazilər (XIX əsrin 50-ci illəri) | | | | |
|---|---|---|---|---|
| № | Qəzalar | Sahələr | Ərazisi (kv.verst) | Cəmi (kv.verst) |
| 1 | Aleksandropol | Şuragöl | 1760 | 4120 |
| | | Pəmbək | 2360 | |
| 2 | Yeni Bəyazid | - | 5300 | 5300 |
| 3 | İrəvan | Zəngibasar | 1060 | 9460 |
| | | Şərur | 1530 | |
| | | Sürməli | 3270 | |
| | | Sərdarabad | 3600 | |
| 4 | Naxçıvan | Naxçıvan | 2530 | 4680 |
| | | Dərələyəz | 2150 | |
| 5 | Ordubad | Ordubad | 1040 | 2890 |
| | | Mehri | 1850 | |
| **Cəmi** | | | | **26.450** |

İrəvan quberniyasının ərazisi və inzibati bölgüsü sonrakı illərdə bir sıra dəyişikliklərə məruz qaldı. 1856-cı ildə Qafqaz canişini vəzifəsinə təyin edilmiş general-feldmarşal A.İ.Baryatinski, imperator nəzdindəki Qafqaz komitəsinin

nəzərinə çatdırmaqla, diyarın inzibati idarə edilməsində müstəqil olaraq istənilən dəyişiklikləri həyata keçirmək hüququ aldı. 1859-cu il yanvarın 1-dən qüvvəyə minmiş "Baş idarə və Qafqaz canişini Şurası haqqında Əsasnamə"yə görə Canişin dəftərxanası və dövlət əmlakı ekspedisiyasının əvəzinə Cənubi Qafqazda əslində imperiyanın daxili işlər, maliyyə, dövlət əmlakı nazirliklərinin və digər mərkəzi orqanlarının rolunu yerinə yetirən bir sıra departamentlər və xüsusi idarələr yaradıldı. Baş idarə Şurası da Canişin Şurasına çevrildi. 1859-cu ildə böyük dağıntılara gətirib çıxaran Şamaxı zəlzələsindən sonra quberniya mərkəzi Şamaxıdan Bakıya köçürüldü. Şamaxı quberniyası Bakı quberniyası adlandırıldı. Şimali Qafqazda azadlıq hərəkatı yatırıldıqdan sonra çar hökuməti 1860-cı il martın 5-də "Dağıstan vilayətinin idarə olunması haqqında Əsasnamə" verdi. Bu əsasnaməyə görə, Dərbənd quberniyası ləğv edildi. Quba qəzası Bakı quberniyasının tərkibinə verildi. Car-Balakən hərbi dairəsi isə Zaqatala dairəsinə çevrildi və Ali Dağıstan hərbi rəisinə tabe edildi[132, s.196-197].

1862-ci ildə Baryatinskini canişin vəzifəsində əvəz edən M.Nikolayev (1862-1882) vəzifəsinin icrasına başlayandan dərhal sonra Cənubi Qafqazda inzibati idarə islahatlarına girişdi. 1865-ci ilin əvvəlində canişin Cənubi Qafqazdakı quberniya və qəzalardakı idarələrin bütün əsasnamə və ştatlarına yenidən baxmaq üçün Xüsusi Komitə yaratdı. Bu komitə tərəfindən hazırlanmış layihə imperaator II Aleksandrın 1867-ci il dekabrın 9-da imzaladığı "Qafqaz və Cənubi Qafqaz diyarının idarəsinin dəyişdirilməsi haqqında" fərmanla təsdiq edildi[368,c.386-388].

1867-ci ildə qəzaların sahələrə bölünməsi ləğv edildi və qəzaların parçalanması qərara alındı. Bu qərara uyğun olaraq Ordubad qəzası İrəvan quberniyasının tərkibində on yeddi il mövcud olduqdan sonra ləğv edildi, onun ərazisinin bir hissəsi Naxçıvan qəzasına birləşdirildi, bir hissəsi isə 1868-ci ildə yaradılmış Yelizavetpol quberniyasına verildi. Yelizavetpol quberniyasının tərkibinə Bakı quberniyasının Şuşa və Nuxa qəzları, Tiflis quberniyasının Qazaxla birlikdə Yelizavetpol qəzası və İrəvan quberniyasının ləğv edilmiş Ordubad qəzasının 1850-ci ildə Şuşa qəzasından alınmış Mehri sahəsi daxil oldu.

Ləğv edilmiş Ordubad qəzasının yerinə İrəvan quberniyasında Eçmiədzin qəzası təşkil edildi. İrəvan quberniyası yenə də beş qəzadan (İrəvan, Aleksadropol, Yeni Bəyazid, Naxçıvan, Eçmiədzin) ibarət oldu. İrəvan quberniyasının qəzaları arasında sərhədlərin dəyişdirilməsi işi canişinə həvalə olunmuşdu. Canişin bu hüquqdan istifadə edərək 1870-ci ilin əvvəllərində qəzaların hüdudlarında dəyişiklik etdi. Sürməli və Eçmiədzin qəzalarının bir hissəsi İrəvan qəzasına birləşdirildi. Şərur sahəsi isə İrəvan qəzasından ayrılaraq Naxçıvan qəzasına birləşdirildi[229, s.38].

Lakin İrəvan quberniyasında inzibati-ərazi dəyişiklikləri bununla da bitmədi. 1870-ci ildə İrəvan quberniyasının tərkibində əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Şərur-Dərələyəz qəzası (qəza mərkəzi Baş Noraşen) yaradıldı. Şərur-Dərələyəz qəzası Naxçıvanın iki sahəsi – Şərur və Dərələyəz sahələri əsasında təşkil edildi. Bir qədər sonra, 1874-cü ildə Dövlət Şurasının təsdiq edilmiş rəyinə əsasən İrəvan quberniyasında Sürməli qəzası yaradıldı. Beləliklə, çarizmin XIX əsrin 60-70-ci illərində Cənubi Qafqazda həyata keçirdiyi inzibati ərazi dəyişikliklərindən sonra İrəvan quberniyası 7 qəzadan – İrəvan, Aleksandropol, Eçmiədzin, Naxçıvan, Yeni Bəyazid, Şərur-Dərələyəz və Sürməli qəzalarından ibarət oldu və bu inzibati bölgü 1918-ci ilə qədər qüvvədə qaldı.

Qafqaz təqviminin 1878-ci il üçün olan məlumatına görə, İrəvan quberniyasının ərazisi 27822 km$^2$ olmuşdur. Bu ərazinin İrəvan quberniyasına daxil olan 7 qəza arasında bölgüsü aşağıdakı kimi idi: İrəvan qəzası – 3116,6 km$^2$, Naxçıvan qəzası – 4447,8 km$^2$, Aleksandropol qəzası – 3848,6 km$^2$, Yeni Bəyazid qəzası – 6157,1 km$^2$, Eçmiədzin qəzası – 3666,5 km$^2$, Sürməli qəzası – 3586 km$^2$, Şərur-Dərələyəz qəzası – 2999,4 km$^2$[312,c.326].

Sonrakı illərdə də İrəvan quberniyasının sərhədlərində bəzi inzibati ərazi dəyişiklikləri həyata keçirilmiş, quberniyanın ərazisi, cüzi də olsa, azalmışdır. Qafqaz təqviminin 1891-ci il üçün olan məlumatına görə, İrəvan quberniyasının ərazisi 26093,58 km$^2$ olmuşdur[319,c.14]. Bu ərazinin İrəvan quberniyasına daxil olan 7 qəza arasında bölgüsü aşağıdakı kimi idi: İrəvan qəzası – 2968,32 km$^2$, Naxçıvan qəzası – 4494,08 km$^2$, Aleksandropol qəzası – 3794,22 km$^2$, Yeni Bəyazid qəzası –

4690,99 km$^2$, Eçmiədzin qəzası – 3595,11 km$^2$, Sürməli qəzası – 3633,39 km$^2$, Şərur-Dərələyəz qəzası – 2917,47 km$^2$[318,c.12-14].

Qafqaz təqviminin 1917-ci il üçün olan məlumatına görə, İrəvan quberniyasının formalaşmış inzibati bölgüsü üzrə quberniyanın ərazisi 23194,79 verst$^2$ və ya 24744,2 km$^2$ olmuşdur[329,c.318]. Bu ərazinin İrəvan quberniyasına daxil olan 7 qəza arasında bölgüsü aşağıdakı kimi idi: İrəvan qəzası – 2724,30 verst$^2$ və ya 2926,28 km$^2$, Naxçıvan qəzası – 3939,04 verst$^2$ və ya 4202,16 km$^2$, Aleksandropol qəzası – 3386,7 verst$^2$ və ya 3612,93 km$^2$, Yeni Bəyazid qəzası – 4122,76 verst$^2$ və ya 4398,16 km$^2$, Eçmiədzin qəzası – 3237,40 verst$^2$ və ya 3453,65 km$^2$, Sürməli qəzası – 3147,09 verst$^2$ və ya 3357,31 km$^2$, Şərur-Dərələyəz qəzası – 2637,50 verst$^2$ və ya 2813,68 km$^2$[329,c.318].

Qafqaz təqviminin 1878-ci il üçün olan məlumatında İrəvan quberniyasının ərazisi ilə bağlı verilən 27.822 km$^2$ rəqəminin 1873-cü ilə aid olduğu göstərilir. İrəvan quberniyasının 1873, 1890 və 1917-ci illərdəki ərazilərini müqayisə etsək, görərik ki, quberniyanın ərazisi getdikcə azalmışdır və bu azalma quberniyaya daxil olan bütün qəzaların ərazisində hiss olunmaqdadır. Deməli, İrəvan quberniyasının ərazisi 1873-1890-cı illər arasında 1728,42 km$^2$ azalaraq, 27822 km$^2$-dən 26093,58 km$^2$-ə, 1890 və 1917-ci illər arasında isə daha 1349,38 km$^2$ azalaraq 26093,58 km$^2$-dən 24744,2 km$^2$-ə enmişdir. Bütövlükdə, 1873-1917-ci illər arasında quberniyanın ərazisi 3077,8 km$^2$ kiçilmişdir. Bu kiçilmə 996,11 km$^2$-lik Şuragöl ərazisinin Qars əyalətinin tərkibinə daxil edilməsi və qonşu quberniyalarla aparılan bir sıra ərazi-sərhəd düzənləmələri, habelə quberniya və qəzaların ərazisinin hesablamalarında aparılan dəqiqləşmələr hesabına yaranmışdır.

İrəvan bölgəsinin əhalisinə gəldikdə, qeyd edə bilərik ki, Rusiya işğalından sonrakı dövrdə Azərbaycanın əhalisinin say və etnik tərkibində ən çox və kəskin dəyişikliklər olan bölgələrindən biri İrəvan bölgəsi olmuşdur. Bu, Türkmənçay və Ədirnə müqavilələrindən sonra İran və Osmanlı dövlətlərindən köçürülən ermənilərin əsasən bu bölgədə yerləşdirilməsi ilə bağlı olmuşdur. İran və Osmanlı dövlətlərindən ermənilərin Cənubi Qafqaza, o cümlədən İrəvan bölgəsinə köçürülməsi prosesi, bu prosesin əsas mərhələləri, dinamikası və köçürülənlərin coğrafi yerləşdirilməsi ilə

bağlı tədqiqatımızın dördüncü fəslinin birinci yarımfəslində ayrıca problem kimi ətraflı bəhs edəcəyimizdən burada bu məsələnin üzərində xüsusi dayanmayıb, sadəcə köçürülmə prosesinin İrəvan bölgəsində əhalinin say və etnik tərkibində oynadığı rol və etnodemoqrafik vəziyyətin süni şəkildə ermənilərin xeyrinə dəyişdirilməsi bağlı bəzi rəqəmlərə diqqət yetirməklə kifayətlənmək istəyirik.

Çar Rusiyası tərəfindən İran və Osmanlı dövlətlərindən ermənilərin kütləvi surətdə İrəvan bölgəsinə köçürülməsindən əvvəl, İrəvan şəhərində 7331 nəfər (1807 ailə) azərbaycanlı (75,6 %), 2369 nəfər (567 ailə) erməni (24,4 %), ümumilikdə İrəvan xanlığı ərazisində isə 49875 nəfər (9196 ailə) azərbaycanlı, 20073 nəfər (3498 ailə) erməni yaşayırdı. Bütövlükdə, sonradan "Erməni vilayəti" adlandırılan ərazidə (İrəvan və Naxçıvan xanlıqları ərazisində) isə 81749 nəfər (16078 ailə) müsəlman, 25151 nəfər (4428 ailə) erməni və 324 nəfər (67 ailə) yezdi kürdü yaşayırdı. Deməli, köçürmədən əvvəl bölgənin 107224 nəfər ümumi əhalisinin 76,24 %-ni azərbaycanlılar, 23,45 %-ni ermənilər təşkil edirdi[405,c.641-642].

Lakin İran və Osmanlı dövlətlərindən köçürülən ermənilər bölgənin demoqrafik vəziyyətini kökündən dəyişdi. Belə ki, rəsmi rəqəmlərə görə, İrandan Cənubi Qafqaza köçürülən 8249 erməni ailəsindən 6946 ailə və ya 35560 nəfər "Erməni vilayəti"ndə məskunlaşdırıldı ki, bunun da vilayət üzrə yerləşməsi aşağıdakı şəkildə həyata keçirildi: 4559 ailə (23568 nəfər) İrəvan əyalətində, 2137 ailə (10652 nəfər) Naxçıvan əyalətində, 250 ailə (1340 nəfər) Ordubad dairəsində yerləşdirildi[405,c.635-642].

Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən, rəsmi sayı 14044 ailə və ya 90000 nəfər olan ermənilərdən 3682 ailə və ya 21666 nəfər "Erməni vilayəti"ndə məskunlaşdırıldı ki, bununda böyük əksəriyyəti (3674 ailə və ya 21639 nəfər İrəvan əyalətində, 8 ailə və ya 27 nəfər Naxçıvan əyalətində) İrəvan əyalətində yerləşdirildi[405,c.635-642].

Fransız mənşəli rus tədqiqatçısı İ.İ.Şopenin 1829-1832-ci illərdə rəsmən həyata keçirdiyi kameral təsvirin nəticələrinə görə, İran və Osmanlı dövlətlərindən "Erməni vilayəti"nə (İrəvan və Naxçıvan əyalətlərində) köçürülən ermənilərin ümumi sayı 10631 ailə və ya 57226 nəfər olmuşdur. Bu, köçürməyədək adı çəkilən bölgədə

yaşayan ermənilərin sayından (25151 nəfər) iki dəfədən də artıq çox idi. Nəticədə İran və Osmanlı dövlətlərindən köçürülən 10631 ailə və ya 57226 nəfər erməninin hesabına "Erməni vilayəti"ndəki ermənilərin sayı 4428 ailə və ya 25151 nəfərdən 15056 ailə və ya 82377 nəfərə çatdırıldı və bununla da ümumilikdə 31201 ailə və ya 164450 nəfər əhalisi olan bölgədəki ermənilərin sayı (82377) müsəlmanların sayını (81749) üstələdi[405,c.641-642].

Bütün bu yuxarıda göstərilən rəqəmlər İrəvan bölgəsinin əzəli Azərbaycan torpağı, aborigen əhalisinin isə ¾ hissəsindən çoxunun azərbaycanlılar olduğu, ermənilərin isə bu bölgənin yerli əhalisi olmayıb, Rusiya tərəfindən İran və Osmanlı dövlətlərindən bu ərazilərə köçürüldüyü, çarizmin məqsədyönlü şəkildə bu bölgəni erməniləşdirməyə çalışdığı faktını ortaya qoyur.

Çar Rusiyasının məqsədyönlü şəkildə İran və Osmanlı dövlətlərindən köçürdüyü erməniləri İrəvan bölgəsində yerləşdirməsi, onlara hər cür dəstək və üstünlüklər verməsi və bununla paralel olaraq bölgənin türk-müsəlman əhalisinə qarşı həyata keçirdiyi irqi, milli, dini ayrıseçkilik və diskriminasiya siyasəti müsəlman əhalinin Azərbaycanın digər ərazilərinə, İran və Osmanlı dövlətlərinə mühacirət etməsi ilə nəticələndi. Ermənilərlə müqayisədə türk-müsəlman əhalisi arasında təbii artımın yüksək olmasına baxmayaraq, sonrakı illərdə də İrəvan bölgəsində mütəmadi olaraq türk-müsəlman əhalinin sayı azalmağa, ermənilərin sayı isə artmağa doğru getdi.

1834-cü il siyahıyalınmasına görə, İrəvan bölgəsində 508 kənd, 22336 həyət və 65300 nəfər əhali qeydə alınmışdı. Bunlardan etnik tərkibinə görə, 29690 nəfərini azərbaycanlılar, 10350 nəfərini yerli, 24255 nəfərini köçürülən ermənilər,1000 nəfərini Bəyazid paşalığından gəlmiş kürdlər, cüzi hissəsini isə qaraçılar təşkil etmişdi[347,c.365].

İrəvan quberniyası yaranan zaman, 1849-cu ildə İrəvan bölgəsində 11594 ailə və ya 57970 nəfər azərbaycanlı qeydə alınmışdı[332,c.375].

İrəvan quberniyasının 1855-ci ildə nəşr olunan hərbi-statistik icmalında quberniya əhalisi arasında siniflər arasındakı fərqin qarışıq halda olduğu, buna görə də əhalinin siniflərə görə təsnif edilməsinin mümkün olmadığı diqqətə çatdırılır

vəqeyd edilir ki: "Rusiyanın özündə cəmiyyəti təşkil edən siniflər bir-birindən nə qədər kəskin fərqlənirsə, İrəvan quberniyasında onlar əksinə tam bir-birinə qarışmış haldadırlar. Burada tacirlər ayrı bir təbəqə kimi ümumiyyətlə mövcud deyil, zadəganlıq hüququ haqqında məsələyə hələ də tam aydınlıq gətirilməyib. Bunu müsəlmanlar arasında çoxarvadlılığın olduğu şəraitdə etmək xüsusilə çətindir. Nəhayət, müsəlman ruhaniləri, mollalar, cəmiyyətin demək olar ki, bütün sinifləri ilə qarışmışdır. Beləliklə, əhalini siniflərə görə qruplaşdırmaq mümkün deyil və təsnifat yalnız onların şəhərlərdə, sahələrdə və qəzalarda sayı əsasında siyahıyaalmanın yeknəsək nəticələri üzrə aparıla bilər"[284,c.185]. Adı çəkilən hərbi-statistik icmala görə XIX əsrin ortalarında İrəvan quberniyasının əhalisinin sayı, yerləşməsi, milli, dini və cinsi tərkibi ilə bağlı ümumi mənzərəni yaratmaq mümkündür.

İrəvan quberniyasının 1855-ci ildə nəşr olunan hərbi-statistik icmalına görə, bəhs edilən dövrdə Aleksandropol qəzasında 11280 nəfər yaşamışdır ki, onlardan 6000 nəfəri kişi və 5280 nəfəri qadın olmuşdur. Qəzadakı evlərin ümumi sayı 1984 olmuş, onlardan 1957-si xəzinəyə vergi ödəyirdi.Bunların da 1871-i erməni, 59-u müsəlman və 217-si yunan ailəsi olmuşdur. Qəzada ermənilərin ümumi sayı 10700, müsəlmanlar 363, yunanlar 105 nəfər təşkil edirdi. Ruhani ailələrin sayı: pravoslav 2 (4 nəfər), erməni-qriqoryan 25 (105 nəfər), molla 1, tatar ağaları 2 nəfər, maqdusilərin (Yerusəlimdə olan ermənilər) 652-si kişi və 324-ü qadın olmuşdur.

Aleksandropol qəzasının Şuragöl sahəsində 13766 nəfəri kişi və 954-ü qadın olmaqla, kəndlilərin ümumi sayı 23720 nəfər olmuşdur. Pravoslavların 469-u yunan, 22286-sı erməni-qriqoryan, 738-i erməni-katolik; müsəlmanların ümumi sayı 227 nəfər olmuşdur. Sahədə ruhani kişilərin 1-i yunan, 75-i erməni-qriqoryan, 6-sı erməni-katolik və 1-i azərbaycanlı olmuşdur.

Aleksandropol qəzasının Pəmbək sahəsində 8080-i kişi və 7249-u qadın olmaqla kəndlilərin ümumi sayı 15329 nəfər olmuşdur ki, bunlardan erməni-qriqoryan 9657, erməni-katolik 811, müsəlman 1040, pravoslav hərbi köçürülənlər 1262, təfriqəçilər 2559 nəfər təşkil etmişdir. Pravoslav ruhanilərin 2-si kişi və 1-i qadın, digər dinlərdən 65-i kişi və 57-si qadındır. Aleksandropol qəzasında şəhər ilə birlikdə, əhalinin ümumi sayı 51000 nəfər təşkil edidi"[284,c.185-186].

Bəhs edilən dövrdə İrəvanda 2606 evdə 12850 nəfər yaşayırdı ki, onların 1169 nəfəri erməni və 1437 nəfəri azərbaycanlı idi. Vergi ödəyicilərinin 1039 nəfəri erməni və 1239 nəfəri azərbaycanlı idi. Ruhanilər: 33 erməni ailəsi və 42 müsəlman ailəsi. Xan ailələrinin sayı 3, bəy ailələrinin sayı 48, seyid ailələrinin sayı 27, dərvişlərin sayı 5, erməni məliklərinin sayı 2 nəfər olmuşdur.

Zəngibasar sahəsinin oturaq əhalisini ümumi sayı 29472 nəfər idi ki, onların 16296-sı kişilər və 13176-ı qadın idi. Köçərilərin ümumi sayı 2270 nəfər, onların 1260-ı kişi və 1010-u qadın idi. Beləliklə, Zəngibasar sahəsinin vergi ödəyən əhalisinin ümumi sayı 31742 nəfərə çatırdı.

Şərur əhalisinin ümumi sayı 14609 nəfər, onların 8234-ü kişi və 6375-i qadın idi. Oturaq əhalinin 4192-si kişi və 3352-si qadın, köçəri əhalinin ümumi sayı isə 7544 nəfər idi. Sahənin vergi ödəyən sakinlərinin ümumi sayı 22153 nəfərə çatırdı.

Sərdarabadda 9267-i kişi və 9438-i qadın olmaqla, əhalinin ümumi sayı 18705 nəfər oturaq sakin; 1205-i kişi və 1228-i qadın olmaqla, ümumi sayı 2433 nəfər köçəri yaşayırdı. Sahənin vergi ödəyən əhalisinin ümumi sayı 21674 nəfər idi.

Sürməlidə 8655 nəfəri kişi və 9565 nəfəri qadın olmaqla, ümumi sayı 18220 nəfər oturaq əhali, 1706 nəfər kişi və 1748 qadın olmaqla, 3454 köçəri yaşayırdı. Sahənin vergi ödəyən əhalisinin ümumu sayı 21674 nəfərə çatırdı.

İrəvan qəzasında zadəganların sayı 1211 nəfər kişi və ruhanilərin sayı 1294 nəfər kişi təşkil edirdi.

Beləliklə, bütün İrəvan qəzasının əhalisinin ümumi sayını 114000 nəfər qəbul etmək olar"[284,c.186-187].

Yeni Bəyazid şəhərində əhalinin 1149 nəfəri kişi və 1050 nəfəri qadın idi. Onların hamısı erməni-qriqoryan idi. Bundan başqa, ruhanilərin də hamısı erməni-qriqoryan idi ki, onların 6-sı kişi və 8-i qadın idi. İrsi zadəganların 2-si kişi və 2-si qadın; şəxsi zadəganların 7-si kişi və 6-sı qadın idi.

Yeni Bəyazid qəzasında erməni-qriqoryan köçürülənlərin 10120-si kişi və 10207-si qadın; müsəlmanların 4103-ü kişi və 4204-ü qadın; təfriqəçilərin 294-ü kişi və 301-i qadın; erməni-qriqoryan ruhanilərinin 12 nəfəri qara (və ya zənci) kişi, 120-i ağ kişi və 115-i qadın; irsi zadəganların 6 nəfəri kişi və 5 nəfəri qadın; şəxsi

zadəganların 15 nəfəri kişi və 16 nəfəri qadın idi. Beləliklə, Yeni Bəyazıd qəzasının şəhər ilə birlikdə əhalisinin ümumi sayı 32000 nəfərə çatırdı”[284,c.187].

Bəhs edilən dövrdə Naxçıvan şəhərində cəmi 1334 ailə, 4410 nəfər yaşayırdı. Milli tərkibinə görə, müsəlmanların sayı 1322-si kişi, 1125-i qadın olmaqla, 2447 nəfər, ermənilərin sayı 1022-si kişi və 941-i qadın olmaqla, 1963 nəfər təşkil edirdi. Naxçıvan sahəsinin kəndlilərinin də əhalinin ümumi sayı 11433 nəfər təşkil edirdi ki, bunların da 5879-u kişi və 5554-ü qadın idi.

Dərələyəzdə ümumi sayı 9137 nəfərə çatan əhalinin 3212 nəfəri kişi, 3002 nəfəri qadın idi; bundan başqa 2923 nəfər köçəri əhalinin 1610 nəfəri kişi , 1313 nəfəri qadın idi. Hər iki sahənin (Naxçıvan və Dərələyəz) əhalisinin ümumi sayında: müsəlmanların 6716 nəfəri kişi və 6173 nəfəri isə qadın olmaqla, 12889 nəfər, ermənilərin 3985 nəfəri kişi və 3696 nəfəri qadın olmaqla, 7681 nəfər təşkil edirdi. Beləliklə, bütün Naxçıvan əhalisinin ümumi sayı 25000 nəfər idi.

Ordubadda 772 ev var idi ki, onlardan yalnız 36-sı erməni ailələrinə məxsus idi. Əhalinin ümumi sayı 3973 nəfər idi, onlardan 2318 nəfərini kişilər, 1655 nəfərini qadınlar təşkil edirdi. Ordubad qəzasının və ona birləşdirilmiş Mehri sahəsinin bir hissəsi də daxil olmaqla, 14008 nəfər sakini olmuşdur.Onların 7776-sı kişi və 6232-si qadın idi. Beləliklə, bütün Ordubad qəzasının şəhəri ilə birlikdə ümumi əhalisinin sayı 18000 nəfərə çatırdı”[284,c.187-188].

Rəqəmləri nəzərdən keçirərkən aydın olur ki, qoşunları, müxtəlif mülki və hərbi məmurları nəzərə almasaq, XIX əsrin ortalarında İrəvan quberniyasının əhalisinin ümumi sayının ən azı 240000 nəfər olduğu məlum olur”[284,c.188]. Buradan Naxçıvan bölgəsinin əhalisini (57609 nəfər) çıxdıqda İrəvan bölgəsi əhalisinin sayının 182391 nəfər olduğu ortaya çıxır.

İrəvan quberniyasının bütün qəzaları üzrə əhalinin artımına və milli-etnik tərkibinə nəzər saldıqda, xaricdən köçürülən ermənilər hesabına ermənilərin sayında kəskin artım olduğunun şahidi oluruq. Məsələn, müqayisə üçün İrəvan şəhərində əhalinin artımına və milli-etnik tərkibinə nəzər salaq. Köçürmədən sonra İrəvan şəhərinin əhalisi də 9700 nəfərdən 11463 nəfərə qədər artdı ki, nətəcədə şəhərdə azərbaycanlı əhalinin sayı 75,6 %-dən 64 %-ə endi, ermənilərin sayı isə 24,4 %-dən

36 %-ə qalxdı. Qafqaz təqviminin 1852-ci il üçün olan statistik məlumatına görə isə, İrəvan şəhərində 2606 ailə və yaxud 12603 nəfər əhali qeydə alınmışdı. Bunların cinsi tərkibinin 6259 nəfərini kişilər, 6344 nəfərini isə qadınlar təşkil edirdi. Etnik tərkibinə görə isə, İrəvanda yaşayan 12603 nəfər əhalinin 6488 nəfərini (51,47 %) azərbaycanlılar, 6115 nəfərini (48,52 %) isə ermənilər təşkil edirdi"[310,c.439-441]. Buradan da göründüyü kimi, 1831-ci ildən 1852-ci ilə qədər İrəvan şəhərində azərbaycanlıların sayı 64 %-dən 51,47 %-ə enmiş, ermənilərin sayı isə 36 %-dən 48,52 %-ə qalxmışdı. Azərbaycanlılarda təbii artımın həmişə ermənilərdən yüksək olduğunu da nəzərə aldıqda, şəhərdəki azərbaycanlı və erməni əhalinin faiz nisbətinin daha böyük olduğu ortaya çıxır. Bu da o deməkdir ki, ermənilərin İran və Türkiyədən Azərbaycan torpaqlarına, xüsusilə də İrəvan bölgəsinə köçü Türkmənçay və Ədirnə müqavilələrində köçürmə üçün nəzərdə tutulan müddət başa çatdıqdan sonra da davam etmişdir ki, nəticədə, belə bir mənzərə ortaya çıxmışdı.

1857-ci ildə isə, İrəvan şəhərində 5220 nəfəri kişi, 4151 nəfəri qadın olmaqla cəmi 9371 nəfər əhali qeydə alınmışdı ki, bu da beş il əvvəlki rəqəmlərlə müqayisədə şəhərdə əhalinin azaldığını göstərir. Bu azalma həmin dövrdə yayılmış bir sıra xəstəliklərlə bağlı şəhərdə ölüm hallarının çox olması və doğumu üstələməsi, eyni zamanda azərbaycanlı əhali arasında mühacirət edənlərin çox olması ilə bağlı olmuşdu.

1873-cü ildə İrəvan şəhərində azərbaycanlıların sayı 5805 (49,34 %), ermənilərin sayı 5959 (50,65), 1886-cı ildə müvafiq olaraq 7228 və 7142, 1897-ci ildə 12516 və 12529 olmuşdu[138, s.50]. Rəqəmlərdən də göründüyü kimi, artıq XIX əsrin 70-ci illərindən etibarən İrəvan şəhərində ermənilər azərbaycanlıları sayca üstələmişlər. Sonrakı illərdə də bu tendensiya davam etmişdi.

1886-cı il ailə siyahıyaalmasının nəticələrində görə, İrəvan quberniyasının əhalisi ümumilikdə 667464 nəfər olmuşdu ki, bunun da 359350 nəfərini kişilər, 308114 nəfərini isə qadınlar təşkil edirdi. İrəvan quberniyasındakı 5 şəhərin (İrəvan, Yeni Bəyazid, Aleksandropol, Naxçıvan, Ordubad) birlikdə əhalisi 29068 nəfəri kişilər, 26300 nəfər isə qadınlar olmaqla cəmi 55368 nəfər (qubarniya əhalisinin 8,3 %-i) təşkil edirdi. Şəhərlər üzrə əhalinin sayı aşağıdakı kimi idi: İrəvan – 14555 nəfər

(7662 kişi, 6893 qadın), Yeni Bəyazid - 7120 nəfər (3560 kişi, 3560 qadın), Aleksandropol - 22670 nəfər (11799 kişi, 10871 qadın), Naxçıvan – 6911 nəfər (3761 kişi, 3150 qadın), Ordubad – 4112 nəfər (2286 kişi, 1826 qadın)[317,c.146]. Əhalinin qalan hissəsi – 612096 nəfər (91,7 %) isə qəzalarda, o cümlədən İrəvan qəzasında 98438 nəfər (54061 kişi, 44377 qadın), Naxçıvan qəzasında 76310 nəfər (41478 kişi, 34832 qadın), Yeni Bəyazid qəzasında 93337 nəfər (49558 kişi, 73779 qadın), Eçmiədzin qəzasında 100799 nəfər (53833 kişi, 46966 qadın), Aleksandropol qəzasında 111909 nəfər (59177 kişi, 52732 qadın), Sürməli qəzasında 69724 nəfər (38482 kişi, 31242 qadın), Şərur-Dərələyəz qəzasında 61579 nəfər (33693 kişi, 27886 qadın) yaşayırdı[317,c.146]. İrəvan quberniyasının əhalisinin sayında 1886-cı ildə 1872-ci illə müqayisədə 127734 nəfər artım olmuşdu. Quberniyaya daxil olan 5 şəhər üzrə bu artım 7725 nəfər, qəzalar üzrə isə 120009 nəfər təşkil etmişdi[317,c.146].

Bəhs edilən tarixdə İrəvan quberniyası əhalisinin milli tərkibinə gəldikdə isə, 56,04 % ermənilər, 38,5 % azərbaycanlılar, 5,44 % kürdlər, qalanlarını da rus, yunan, aysor, yəhudi və digər millətlərin nümayəndələri təşkil edirdilər)[322,c.44-45]. Halbuki 1828-1832-ci illərdə aparılmış kameral siyahıyaalmaya görə, köçkün ermənilər nəzərə alınmazsa, İrəvan əyalətində 69948 nəfər yaşayırdı ki, bunların da 49875 nəfəri (71,3 %) azərbaycanlı, 20073 nəfəri (28,7 %) erməni idi. İrəvan quberniyası əhalisinin etnik tərkibi ilə bağlı 1886-cı ilə aid rəqəmləri Rusiya işğalından sonrakı ilk illərdə "Erməni vilayəti"nin əhalisinin milli tərkibi ilə müqayisə etsək, onda görərik ki, keçən dövr ərzində adı çəkilən bölgədə azərbaycanlıların sayı iki dəfə azalaraq 76,24 %-dən 38,5 %-ə enmiş, ermənilərin sayı isə 2,5 dəfə artaraq 23,45 %-dən 56,04 %-ə yüksəlmişdi)[405,c.641-642;322,c.44-45].

Əvvəlki kameral təsvirlərdə olduğu kimi, burada da İrəvan quberniyasının inzibati ərazi bölgüsü, əlalxüsus da Şərur-Dərələyəz qəzasına dair məlumatların ümumi şəkildə göstərilməsi İrəvan bölgəsinin əhalisini tam dəqiqliyi ilə öyrənməyə imkan vermir. Ona görə də burada şərti olaraq Şərur-Dərələyəz qəzasına dair rəqəmləri ikiyə bölüb, alınan rəqəmi (30790 nəfər) qəzanın Şərur sahəsi olaraq və İrəvan qəzasından Sədərək kənd cəmiyyətinin əhalisinə dair rəqəmi (3737) Naxçıvan

qəzasına dair rəqəmlə birlikdə (87333 nəfər) Naxçıvan bölgəsi kimi (ümumilikdə 121860 nəfər) İrəvan quberniyasının nəticələrinə dair ümumi rəqəmdən çıxırıq və beləliklə İrəvan bölgəsi əhalisinin sayını tapırıq. Bu halda 1886-ci il ailə siyahıyaalmasının nəticələrinə görə, İrəvan bölgəsindəki əhalinin ümumi sayı 545605 nəfər (292845 kişi, 252760 qadın) təşkil edirdi. Aşağıdakı cədvəldə İrəvan bölgəsinin əhalisi verilmişdir[317,c.146].

Cədvəl 2.2.2

| 1886-cı il ailə siyahıyaalmasına görə İrəvan bölgəsinin əhalisi | | | |
|---|---|---|---|
| Qəzalar | Əhali | | |
| | Kişi | Qadın | Cəmi |
| İrəvan qəzası (Sədərək kənd cəmiyyəti istisna olmaqla) | 59589 | 49667 | 109256 |
| Yeni Bəyazid qəzası | 53118 | 47339 | 100457 |
| Eçmiədzin qəzası | 53833 | 46966 | 100799 |
| Aleksandropol qəzası | 70976 | 63603 | 134579 |
| Sürməli qəzası | 38482 | 31242 | 69724 |
| Şərur-Dərələyəz qəzasının Dərələyəz sahəsi | 16847 | 13943 | 30790 |
| Cəmi | 292845 | 252760 | 545605 |

1897-ci il yanvarın 28-də keçirilən əhali siyahıyaalmasının nəticələrinə görə, İrəvan quberniyasında 804757 nəfər əhali qeydə alınmışdı[322,c.21;358,c.1]. Bunun 429689 nəfərini (53,39 %) kişilər, 375068 nəfərini (46,61 %) isə qadınlar təşkil edirdi. Əhalinin qəzalar üzrə sayı aşağıdakı kimi idi: İrəvan qəzası 127072 nəfər (69588 kişi, 57484 qadın), Aleksandropol qəzası 163435 nəfər (88443 kişi, 74992 qadın), Naxçıvan qəzası 100942 nəfər (53466 kişi, 47476 qadın), Yeni Bəyazid qəzası 123839 nəfər (64225 kişi, 59614 qadın), Sürməli qəzası 88844 nəfər (47391 kişi, 41453 qadın), Şərur-Dərələyəz qəzası 75982 nəfər (40968 kişi, 35014 qadın), Eçmiədzin qəzası 124643 nəfər (65608 kişi, 59035 qadın) [322,c.21].

1897-ci il siyahıyaalmasının nəticələrində görə, İrəvan quberniyasında şəhər əhalisi ümumilikdə 82278 nəfər (10,22 %), o cümlədən İrəvan qəzasında 28459 nəfər, Aleksandropol qəzasında 31594 nəfər, Naxçıvan qəzasında 13710 nəfər, Yeni Bəyazid qəzasında 8515 nəfər təşkil etmişdi[322,c.23]. 1886-cı ilin rəqəmləri ilə müqayisədə, 1897-ci ildə quberniya üzrə şəhər əhalisinin sayında təxminın 2 %-ə yaxın artım olmuşdu.

Ümumiyyətlə, Rusiya imperiyasında keçirilən 1897-ci il əhalinin birinci ümumi siyahıyaalmasının materialları bəhs edilən dövrdə əhalinin öyrənilməsi üzrə ən mühüm qaynaqlardan birini təşkil edir. Lakin əvvəlki kameral təsvirlərdə və ailə siyahıyaalmasında olduğu kimi, burada da İrəvan quberniyasının inzibati ərazi bölgüsü, xüsusilə də Şərur-Dərələyəz qəzasına dair məlumatların ümumi şəkildə göstərilməsi İrəvan bölgəsinin əhalisini tam dəqiqliyi ilə öyrənməyə imkan vermir. Ona görə də burada da şərti olaraq Şərur-Dərələyəz qəzasına dair rəqəmləri ikiyə bölməklə alınan rəqəmi (37991 nəfər) Naxçıvan qəzasına dair rəqəmlə (100942 nəfər) birlikdə (Sədərəkin təxminən 11067 nəfərlik əhalisi də nəzərə alınmaqla) Naxçıvan bölgəsi kimi (ümumilikdə 150000 nəfər[209, s.115]. İrəvan quberniyasının nəticələrinə dair ümumi rəqəmdən çıxırıq və beləliklə İrəvan bölgəsi əhalisinin sayını tapırıq. Bu halda 1897-ci il siyahıyaalmasının nəticələrinə görə, İrəvan bölgəsindəki əhalinin ümumi sayı 654757 nəfər təşkil edirdi[322,c.23;358,c.1].

Cədvəl 2.2.3

1897-ci il siyahıyaalmasına görə İrəvan bölgəsinin əhalisi

| Qəzalar | Əhali | | |
|---|---|---|---|
| | Kişi | Qadın | Cəmi |
| İrəvan qəzası (Sədərək ərazisi istisna olmaqla) | 63528 | 52477 | 116005 |
| Yeni Bəyazid qəzası | 64225 | 59614 | 123839 |
| Eçmiədzin qəzası | 65608 | 59035 | 124643 |
| Aleksandropol qəzası | 88443 | 74992 | 163435 |
| Sürməli qəzası | 47391 | 41453 | 88844 |
| Şərur-Dərələyəz qəzasının Dərələyəz sahəsi | 20484 | 17507 | 37991 |
| Cəmi | 349679 | 305078 | 654757 |

1886-cı il ailə siyahıyaalmasının nəticələri ilə müqayisə etdikdə görürük ki, 1886-cı ildən 1897-ci ilə qədər olan müddətdə İrəvan quberniyasının əhalisində 134352 nəfər, o cümlədən İrəvan bölgəsinin əhalisində 109152 nəfər olmaqla 20 % artım olmuşdu. Rusiya işğalının ilk dövrləri, yəni işğaldan sonra və köçürmədən əvvəlki demoqrafik vəziyyətlə müqayisə etdikdə isə, İrəvan bölgəsi əhalisinin sayının 69948 nəfərdən 654757 nəfərə qədər (təxminən 10 dəfə) artdığı məlum olur. Burada əhali artımının əsas səbəbləri kimi birinci növbədə çarizmin köçürmə siyasəti, daha sonra isə xanlıq dövründən fərqli olaraq ara müharibələrinə son qoyulması, əhalinin təbii hərəkətinin yüksək olması və sosial-iqtisadi həyatdakı nisbi inkişafı qeyd etmək olar.

Ermənilərin kütləvi surətdə Osmanlı dövlətindən Cənubi Qafqaz ərazilərinə, xüsusilə də İrəvan bölgəsinə köç prosesi XIX əsrin sonu-XX əsrin əvvəllərində yenidən geniş vüsət aldı. Ermənilərin təkcə 1893-1894-cü illərdə Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamlar uğursuzluqla nəticələndikdən sonra 100 mindən çox erməni Cənubi Qafqaza köç edərək əsasən Azərbaycan ərazilərində yerləşdi. Bu dövrdə həyata keçirilən rəsmi və pərakəndə köçürmələr hesabına 1896-cı ildə Cənubi Qafqazdakı ermənilərin sayı 900.000-ə, 1908-ci ildə isə 1,3 milyona çatdı. Təkcə, 1896-1908-ci illər ərzində ermənilərin sayı 400.000 nəfər artdı[401,c.64].

N.N.Şavrov 1911-ci ildə nəşr etdiyi “Zaqafqaziyada ruslar üçün yeni təhlükə. Muğanın yadlara satılacağı ehtimalı” əsərində XIX əsrin sonu–XX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqaza növbəti kütləvi köç prosesi ilə bağlı yazırdı: “...1897-ci ildə ... gəlmə ermənilər artıq 1896-cı ildə olduğu qədər 10000 deyil, 90.000-ə çatırdı. Onların buradan çıxarılması haqqında knyaz Qolitsının apardığı danışıqlar nəticə vermədi... O vaxtdan bəri ermənilərin Kiçik Asiyadan axını davam etməkdədir... Bu köçürmələr nəticəsində hazırda Cənubi Qafqazda yaşayan 1,3 milyon erməninin 1 milyondan çoxu yerli əhali deyildir, onları biz (ruslar-İ.K.) bura köçürüb gətirmişik” [401,c.63-64].

Cədvəl 2.2.4

| Rusiyanın Cənubi Qafqazda işğallarından sonra müasir Ermənistan Respublikası ərazisində əhalinin say dinamikası[232,s.271] | | | | | |
|---|---|---|---|---|---|
| İllər | 1831 | 1873 | 1886 | 1897 | 1914 |
| Cəmi | 161747 | 469140 | 635833 | 797853 | 1014255 |
| Onlardan: Kişi | məlumat yoxdur | məlumat yoxdur | 341946 | 426717 | məlumat yoxdur |
| Qadın | - | - | 293887 | 371136 | - |
| Orta illik artım | - | 2,6 | 1,9 | 2,1 | 1,4 |

Ermənilərin bütün bu kütləvi köç prosesləri hesabına Cənubi Qafqaz ərazisində, xüsusilə də İrəvan bölgəsində onların sayı dəfələrlə artdı. Bu, özünü bölgə əhalisinin etnik tərkibinin ermənilərin xeyrinə necə sürətlə dəyişməsində aydın göstərir. Azərbaycanlı əhali arasında təbii artımın ermənilərlə müqayisədə kifayət qədər yüksək olmasına baxmayaraq, İrəvan bölgəsi və bütövlükdə İrəvan quberniyası əhalisinin milli etnik tərkibində azərbaycanlıların çəkisinin azalması və ermənilərin çəkisinin yüksələn xətlə artmaqda davam etməsi xaricdən bölgəyə gələn erməni köçünün yeni dalğaları ilə bağlı idi. Məhz bu köçlərin nəticəsi idi ki, 1 yanvar 1916-cı il üçün olan məlumatlara görə, İrəvan quberniyasında yaşayan 1120242 nəfər əhalinin 59,8 %-ni ermənilər, 33,35 %-ni azərbaycanlılar təşkil edirdi.

1917-ci il Qafqaz təqviminin məlumatlarına (1 yanvar 1916-cı il üçün olan məlumatlara) görə, İrəvan quberniyasında 1120242 nəfər əhali yaşayırdı. Hər kv. verstə 48,3 nəfər düşürdü. Quberniya əhalisinin 589125 nəfəri (52,6 %) kişilər, 531117 nəfəri (47,4 %) qadınlar, 10145868 nəfəri (90,6 %) yerli sakinlər, 105374 nəfəri (9,4 %) müvəqqəti yaşayanlar təşkil edirdi[329,c.220-221].

İrəvan quberniyası əhalisinin milli tərkibinə gəldikdə isə, ermənilərin sayı 669871 nəfərlə 59,8 %, azərbaycanlıların sayı 373582 nəfərlə 33,35 % təşkil edirdi.

İrəvan quberniyasındakı 5 şəhərin (İrəvan, Aleksandropol, Yeni Bəyazid, Naxçıvan, Ordubad) birlikdə əhalisi 132559 nəfər (11,83 %) idi. Əhalinin qalan

hissəsi – 987683 nəfər (88,17 %) isə qəzalarda, o cümlədən İrəvan qəzasında 154331 nəfər, Aleksandropol qəzasında 174206 nəfər, Yeni Bəyazid qəzasında 174111 nəfər, Eçmiədzin qəzasında 167786 nəfər, Sürməli qəzasında 104791 nəfər, Şərur-Dərələyəz qəzasında 90250 nəfər, Naxçıvan qəzasında 122208 nəfər yaşayırdı. Azərbaycanlılar bütün şəhər əhalisinin 18,9 %-ni (25044 nəfər), qəzaların əhalisinin isə 35,3 %-ni (348538 nəfər) təşkil edirdi[329,c.214-221].

1917-ci il Qafqaz təqviminin məlumatına görə, İrəvan şəhərində 51286 nəfər əhali qeydə alınmışdı, onların 25548 nəfəri (49,8 %) kişi, 25738 nəfəri (50,2 %) qadın idi. Şəhər əhalisinin 22001 nəfəri daimi, 29285 nəfəri müvəqqəti yaşayanlar idi. Həmin məlumata əsasən, İrəvan əhalisinin 12557 nəfəri (24,5 %) azərbaycanlı, 37204 nəfəri (72,5 %) erməni idi[329,c.218-221]. Bu fakt 1828-1917-ci illər ərzində çarizmin həyata keçirdiyi məqsədyönlü köçürmə siyasəti və azərbaycanlılara qarşı irqi, milli, dini ayrı-seçkilik siyasəti nəticəsində İrəvan şəhərində yerli əhalinin – azərbaycanlıların sayı kəskin şəkildə azalmışdı.

Qafqaz təqviminin 1917-ci il üçün olan məlumatlarına görə 1916-cı il 1 yanvar tarixinə İrəvan quberniyası daxilində İrəvan bölgəsinin əhalisi təxminən 920242 nəfər təşkil edirdi ki, bu da quberniya əhalisinin 82,14 %-i demək idi[329,c.214-221].

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, İrəvan xanlığı Rusiya tərəfindən işğal edildikdən sonra 1916-cı ilə qədər keçən müddət ərzində İrəvan bölgəsi əhalisi təxminən 13 dəfə artmışdı. Bütövlükdə İrəvan quberniyası əhalisinə münasibətdə yeridilən siyasətə gəlincə, tam məsuliyyəti ilə qeyd edə bilərik ki, Rusiya çarizmi Türkmənçay müqaviləsindən başlayaraq özünün mövcudluğunun sonunadək keçən 89 il müddətində sistemli şəkildə və ardıcıl olaraq bölgə əhalisinin etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirmək siyasəti həyata keçirmişdir. Nəticədə bölgə əhalisinin milli tərkibində azərbaycanlıların sayı 2,5 dəfə azalmış, ermənilərin sayı isə 2,5 dəfə artmışdır. Yüz ilə yaxın bir müddətdə ermənilərin sistemli şəkildə köçürülərək İrəvan bölgəsində yerləşdirilməsi, onlara dövlət tərəfindən iqtisadi, siyasi, inzibati və digər sahələrdə hər cür dəstək göstərilməsi, bütün bunların bölgənin aborigen sakinləri olan azərbaycanlılara qarşı irqi, milli və dini diskriminasiya siyasəti ilə paralel və əlaqəli şəkildə aparılmasına baxmayaraq, bölgədə azərbaycanlı

əhalinin xüsusi çəkisi həmişə yüksək olmuş və bu vəziyyət həm çarizmi, həm də erməni siyasi və terror təşkilatlarını narahat etməyə başlamışdı. Buna görə də XX əsrin əvvəllərində bölgənin azərbaycanlı əhalisinə qarşı milli zəmində soyqırım cinayəti kimi bəşəri cinayətlərə start verildi.

## 2.3 İrəvanın ermənilərə verilməsi və bölgədə erməni dövlətinin yaradılması prosesi

Ermənilərin kütləvi şəkildə İrəvan bölgəsinə köçürülməsi və bu prosesin bütün XIX əsr boyu davam etməsi regionda demoqrafik vəziyyəti süni şəkildə ermənilərin xeyrinə ciddi dəyişdi. Rusyanın ermənilərə yaratdığı əlverişli şərait və verdiyi hərtərəfli dəstək ilə ermənilər İrəvan bölgəsində möhkəmlənə bildilər. Bununla da, Rusiya Şimali Azərbaycan ərazisində, Azərbaycanla İran və Osmanlı dövlətləri arasındakı sərhəd bölgədə ermənilərdən ibarət bufer zonası yaratmış oldu və eyni zamanda Azərbaycanın əzəli torpağı olan İrəvan bölgəsinə ermənilərin ərazi iddialarının əsası qoyuldu. Çarizm özünün antiazərbaycan və antitürkiyə siyasətini həyata keçirmək üçün ermənilərdən bir alət kimi istifadə etdi.

Dövrün arxiv sənəd və materiallarının təhlili göstərir ki, XIX əsrin əvvəllərindən başlayaraq Rusiya imperiyasının Cənubi Qafqazda həyata keçirdiyi köçürmə siyasəti və inzibati islahatları erməniləri İrəvan bölgəsində yerləşdirməyə, onların simasında adı çəkilən ərazidə bufer zonası və çarizm üçün ictimai dayaq yaratmağa, Cənubi Qafqazı gürcü, müsəlman və ermənilər arasında bərabər şəkildə bölməyə hesablanmışdı. Bu siyasət Azərbaycan torpaqlarının bir neçə mərkəzdən idarə olunmasına gətirib çıxartdı ki, bu da öz növbəsində ermənilərin, eyni zamanda gürcülərin Azərbaycana qarşı ərazi iddiaları üçün zəmin hazırlamaq idi.

Çar Rusiyasından hərtərəfli dəstək alan ermənilər XIX əsrin sonlarından etibarən sərsəm “Böyük Ermənistan” ideyasını reallaşdırmaq uğrunda açıq mübarizəyə başladılar. Bu ideyanın əsas tərkib hissələrindən biri də İrəvan bölgəsində yerli – azərbaycanlı əhalisini məhv etmək və onların yaşadıqları torpaqları tamamilə

ələ keçirmək və gələcəkdə erməni dövləti yaratmaq üçün zəmin hazırlamaqdan ibarət idi. Rusiya müstəmləkəçiləri tərəfindən silahlandırılan və hərtərəfli müdafiə olunan erməni silahlı birləşmələri bölgədə türk-müsəlman əhalisinə qarşı soyqırımlar həyata keçirməyə başladılar. XIX əsrin sonu-XX əsrin əvvəllərində təkcə İrəvan quberniyasında 200-dən çox azərbaycanlı kəndi ermənilər tərəfindən yerlə yeksan edilib, əhalisi soyqırıma məruz qalsa da, bu qırğınlar erməniləri sakitləşdirmədi. Onlar Birinci Dünya müharibəsinin doğurduğu tarixi şəraitdən istifadə edərək yenidən mifik “Böyük Ermənistan” dövləti yaratmağa cəhd göstərdilər.

Birinci Dünya müharibəsində vuruşan dövlətlərin hər birinin dünyanın siyasi xəritəsini öz xeyrinə dəyişdirməklə bağlı planları var idi. 1914-cü ilin avqustunda Antanta blokunun tərkibində müharibəyə girən çar Rusiyası imperiyanın sərhədlərini genişləndirmək, xüsusilə də Bosfor və Dardanel boğazlarına yiyələnib İstanbulu öz nəzarətinə keçirmək istəyirdi. Osmanlı dövləti müharibəyə girdikdən sonra Rusiya öz müttəfiqlərinə təzyiq göstərərək Bosfor və Dardanel boğazlarının ona verilməsini tələb etdi. 1915-ci il martın 12-də İngiltərə, aprelin 10-da da Fransa verdikləri notalarla Rusiyanın bu tələbini qəbul etdiklərini bildirdilər. Rusiya da öz növbəsində, İngiltərə və Fransanın Asiya Türkiyəsindəki və Osmanlı dövlətindən ayrılacaq ərəb ölkələri üzərindəki nüfuzlarını qəbul etdi. 1916-cı ildə Böyük Britaniya və Fransa ilə imzalanan gizli sazişə əsasən Rusiya nəinki Qafqazda öz mövqelərini qoruyub saxlamalı, habelə Osmanlı imperiyasının bölüşdürülməsi hesabına öz ərazilərini genişləndirməli idi. Həmin sazişə görə, Rusiya Ərzurum, Trabzon, Van və Urmiya gölü ətrafındakı əraziləri ilhaq etməli idi, əvəzində isə Sivas və Xarput arasında yerləşən, əhalisinin kiçik bir hissəsi ermənilərdən ibarət olan ərazini Kiçik Ermənistan adı ilə Fransaya hədiyyə edirdi. 1916-cı ildə İngiltərə və Fransa arasında imzalanmış gizli Sayks-Piko müqaviləsinə əsasən İngiltərə Mesopotamiyanın əsas hissəsini tutmalı, Fransa Kilikiya, Sivas, Xarput və Diyarbəkiri əldə etməli idi. Müttəfiqlər Trabzon, Van, Bitlis və Ərzurumun Rusiyaya keçməsinə etiraz etmirdilər[168, s.27].

Birinci dünya müharibəsinin başlaması ilə Rusiya Osmanlı dövləti ilə bağlı planlarını reallaşdırmaq üçün yenidən “erməni amili”ndən istifadə etmək qərarına

gəldi. Çünki ermənilər bu dövrdə Osmanlı dövlətinə qarşı müharibə etmək üçün tam hazır vəziyyətdə dayanmışdılar. Daşnakların niyyətləri ilə bağlı olaraq Qafqaz canişinliyinin mülki işlər üzrəköməkçisi N.Peterson 1914-cü il 9 avqust tarixli 1457 №-li tamamilə məxfi məktubunda Bakı qubernatoru V.V.Alışevskiyə yazırdı: "Ermənilər türk-erməni məsələsini növbəyə qoymaq üçün imkan qazanmaq istəyirlər. Bu iş müsəlman əhali əleyhinə açıq düşmənçilik xarakteri daşımasa da, mehriban qonşuluq xarakteri də daşımır"[171, s.250-251].

Dünya müharibəsi başladıqdan az sonra ermənilərin katolikosu V Gevork Qafqaz canişini İ.İ.Vorontsov-Daşkova göndərdiyi 1914-cü il 18/5 avqust tarixli 1131 №li məktubunda bütün erməni əhalisinin Osmanlı əleyhinə müharibəyə susadığını bildirərək, onların silahlandırılması və təşkilatlandırılmasına dair təkliflərini yazdı. Bunun müqabilində ermənilər üçün Şərqi Anadoluda muxtariyyət və Cənubi Qafqazda islahatların aparılmasını xahiş etdi. Erməni katolikosunun canişinə müraciətdə deyilirdi ki, gələcəkdə müharibənin nəticələrinin aradan qaldırılmasına müvafiq olaraq Rusiyanın protektoratlığı altında Osmanlı ermənilərinə ərazi muxtariyyəti verilməsinə çar hökuməti təminat verməlidir.

İ.İ.Vorontsov-Daşkov V Gevorkun təkliflərini öyrəndi. Onların yerinə yetirilməsini arzuedilən hesab edərək 1914-cü il 22/9 avqust tarixli 1955 №li məxfi məktubu ilə Nazirlər Şurasının sədri İ.Qoremıkinə göndərdi. İ.İ.Vorontsov-Daşkov yazırdı: "Mənə elə gəlir ki, Avropa müharibəsi başa çatdıqdan sonra Türkiyə ermənilərinə dair Rusiyanın öz proqramını həyata keçirəcəyi barədə hökumətin vədlərini vermək lazımdır. Hazırda isə general-inspektor haqqında ermənilərin istəklərini yerinə yetirmək çox məqsədəuyğundur"[171, s.251].

Çarizm, ermənilərin müharibədə Rusiyanı dəstəkləyəcəyi və Osmanlı dövlətinə qarşı qiyam təşkil edəcəkləri təqdirdə, onlara Şərqi Anadoluda, o cümlədən Kilikiyada muxtariyyət, Rusiya ermənilərinə isə islahatlar vəd etdi"[306,c.89]. Çar Rusiyası bu yolla türk boğazlarını, Şərqi Anadolunu və Kilikiyanı istila etmək istəyirdi. Ona görə də Vorontsov-Daşkov katolikos V Gevorka cavabında bildirdi ki, Rusiya ermənilərin tələbini müdafiə edir"[306,c.91-92]. Bununla da, Rusiyanın birbaşa dəstəyi və rəhbərliyi ilə Osmanlı dövlətinə qarşı vuruşmaq və eyni zamanda

daxildə qiyam qaldırmaq üçün erməni könüllü dəstələrinin formalaşdırılması işi sürətli şəkildə həyata keçirilməyə başladı.

Əvvəllər islahatlar arzusu ilə yaşayan erməni təşkilatları isə artıq müharibənin yekununda Anadoluda ermənilərə muxtariyyət, daha sonra tam müstəqillik alacaqlarına ümid edirdilər. Məqsədlər fərqli olsa da, çarizmi və erməni təşkilatlarını Osmanlıya qarşı müharibə birləşdirirdi. Qeyd etmək lazımdır ki, bu zaman Rusiyada tətil hərəkatı yaranırdı. Hakimiyyət daşnaklara muxtariyyət vədi verərək onu zəiflədə, sonra isə dağıda bildi. Bolşevik Arustanov sonralar xatirələrində yazırdı ki, Bakıda Elektrotokda baş verən tətildə daşnaklar mühüm rol oynayırdılar. Tətil uzun sürdü. Almaniyaya qarşı səfərbərlik həyata keçirildi. İ.İ.Vorontsov-Daşkov daşnaklara muxtariyyət vədi verdikdən sonra onlar tətilin pozulmasında mühüm rol oynadılar[13, s.8;171, s.264].

Osmanlı dövləti də hələ 1908-ci ildən məcbur olub, ölkədə pozuculuq fəaliyyətləri ilə məşğul olan daşnaklarla danışıqlar aparmağa başlamışdı. Dünya müharibəsinin başlanğıcında, 1914-cü ilin avqust ayının əvvəllərində Daşnaksütyun partiyasının Ərzurumda keçirilən səkkizinci konqresində İttihad və Tərəqqi partiyasının təmsilçiləri Ömər Naci, Bahəddin Şakir və Hilmi bəy daşnaklara Türkiyənin ermənilər yaşayan və müharibə nəticəsində Rusiyadan alınacaq Cənubi Qafqazın bəzi bölgələrini özündə birləşdirəcək muxtar erməni dövləti yaradılmasını təklif etmişdilər. Bunun qarşılığında ermənilər müharibədə Türkiyəni dəstəkləməli və Rusiyaya qarşı üsyan qaldırmalı idilər. Lakin bu təklif Daşnaksütyun partiyası tərəfindən rədd edildi. Daşnaklar partiyanın İstanbul komitəsi ilə Qafqaz bürosunun birləşdirilməsi məsələsini qəti olaraq həll edib, başlanacaq müharibədə Osmanlı dövlətinə qarşı Rusiyanın yanında yer almaq haqqında qərar qəbul etdilər və beləliklə də öz xalqlarının sonrakı taleyini müəyyənləşdirdilər[168, s.42-43].

Osmanlı hökuməti növbəti dəfə 1915-ci ilin əvvəllərində Daşnaksütyuna ermənilərin türklər tərəfinə keçməsini təklif etdi, müharibədən sonra onlara muxtariyyət veriləcəyini bildirdi. Lakin Daşnaksütyun türk hökumətinin bu təklifindən imtina etdi. Təkcə imtina etmədi, dinc türk, müsəlman əhalinin amansızlıqla öldürülməsini davam etdirdi[171, s.283].

1914-cü ilin dekabr – 1915-ci ilin yanvar aylarında Sarıqamışa türklərin hücumu zamanı ermənilər qiyam qaldıraraq dövləti arxadan vurdular. Türklər Sarıqamışda məğlub olduqdan sonra ermənilər döyüş meydanlarında qalan çoxlu silahı oğurlamağa başladılar. Yelizavetpol quberniya jandarma idarəsinin rəisi yazırdı ki, ermənilər öz əsgərləri, drujinaları və oraya xüsusi olaraq göndərilmiş adamları vasitəsilə oğurluq yolu ilə və ucuz qiymətə gizli olaraq silah, sursat və patron gətirirlər[171, s.284].

Türkiyənin uğursuzluğu erməniləri ruhlandırırdı. Rusiya Daxili İşlər Nazirliyinin sənədlərində yazılırdı ki, erməni ziyalıları Qafqazda və Rusiya daxilində özlərini rus dövlətinin himayəsi altında güclü, müstəqil hiss edir və Türk Ermənistanının Rusiyaya tam birləşdirilməsini arzulayırlar. "Qolos Kavkaza" qəzeti isə qeyd edirdi ki, ermənilər Türk Ermənistanına muxtariyyət istəyirlər, çünki onların fikrincə, Rusiya Ermənistanı Türk Ermənistanını özünə tərəf çəkməyəcək, özü ona tərəf meyl edəcəkdir. Lakin ermənilərin istəkləri Rusiya üçün vacib deyildi. Başlıca olan çarizmin maraqları idi. 1915-ci il 4 yanvar tarixli çıxışında Rusiyanın tarixçi professsoru P.N.Milyukov bununla əlaqədar olaraq açıq şəkildə bir daha bildirdi: "Əslində mənim üçün ermənilərin istəkləri deyil, Rusiya üçün əhəmiyyətli olan vacibdir" [171, s.284].

Müharibə dövründə Rusiya ilə paralel olaraq İngiltərə və Fransa da ermənilərə müxtəlif vədlər verərək Osmanlı dövləti ilə bağlı planlarını həyata keçirmək üçün onlardan bir alət kimi istifadə etdilər. Məsələn, Erməni-Britaniya komitəsinin sədri Vilyam 1915-ci il aprelin 15-də Ermənistanın gələcək taleyinin necə olacağı ilə bağlı Britaniya hökumətinə göndərdiyi sorğuya Xarici İşlər Nazirliyinin nümayəndəsi aşağıdakı cavabı vermişdi: "...Böyük Britaniya hökuməti Türkiyənin Asiya hissəsində məskunlaşan ermənilərin vəziyyətini izləyir və onların mənafelərini qoruyacaqdır. Lakin indidən gələcəkdə hansısa tədbirin görüləcəyi barədə söyləmək çətindir"[275].

Əslində Antanta dövlətlərinin hər biri ermənilərin Osmanlı dövlətinin ərazisində muxtariyyətinin əldə edilməsi ilə bağlı bəzi hallarda konkret, bəzi hallarda isə qeyri-müəyyən, mücərrəd vədlər verərək Osmanlı dövləti ilə bağlı planlarını reallaşdırmaq üçün ermənilərdən sadəcə bir vasitə kimi istifadə etdilər. Bu vədlərə

aldanan ermənilər təbəəsi olan Osmanlı dövlətinə qarşı cəbhənin arxasında qiyam qaldırdılar və türk-müsəlman əhaliyə qarşı geniş miqyasda soyqırım əməllərini davam etdirdilər. XIX əsrin sonunda olduğu kimi, Birinci dünya müharibəsi illərində də ermənilər Osmanlı dövlətinin ərazisində öz məqsədlərinə çata bilmədikdə, mübarizə meydanını Cənubi Qafqaza keçirib, burada öz amallarını reallaşdırmaq işinə girişdilər.

Rusiyada 1917-ci il fevralın 23-də başlanan inqilab fevralın 28-də qalib gəldi. Çar II Nikolay hakimiyyətdən devrildi, Romanovlar sülaləsinə son qoyuldu. Martın 2-də knyaz G.Y.Lvov başda olmaqla Müvəqqəti hökumət təşkil edildi. Müvəqqəti hökumət 1917-ci il martın 9-da Cənubi Qafqazı idarə etmək üçün Dövlət Dumasının yerli üzvlərindən ibarət Xüsusi Zaqafqaziya Komitəsi (OZAKOM) yaratdı. Komitənin sədri rus kadeti V.A.Xarlamov, üzvləri – azərbaycanlı kadet, sonralar müsavatçı M.Y.Cəfərov, gürcü federal-sosialisti K.Abaşidze, erməni kadeti M.Papacanov, rus kadeti P.Pereverzev idilər. İki gündən sonra Nazirlər Şurasının sədri Lvovun əmri ilə P.Pereverzev gürcü menşeviki A.Çxenkeli ilə əvəz edildi. Müvəqqəti hökumətə tabe olan Xüsusi Zaqafqaziya Komitəsi Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, qanunvericilik hüququna malik deyildi. Lakin paytaxla əlaqələr zəiflədiyindən bu komitə Cənubi Qafqazı 1917-ci ilin noyabr ayına qədər demək olar, G.Lvov və A.Kerenski kabinetlərindən müstəqil olaraq idarə etdi. Cənubi Qafqaz kimi mürəkkəb və çətin regionda sabitliyi təmin etmək üçün əsaslı addımlar atmaqda acizlik göstərən Xüsusi Komitə əslində hadisələrin gərginliyi fonunda batıb qalırdı.

A.Kerenski hökuməti "erməni məsələsi"nə beynəlxalq xarakter verməyə başladı. Müharibənin nəticəsində imzalanacaq sülh müqaviləsinin şərtlərinə Türk Ermənistanının muxtariyyəti haqqında məsələni də daxil edəcəyini ermənilərə vəd etdi. Daşnaksütyun bu dəfə Müvəqqəti hökumətin Cənubi Qafqazda möhkəmlənməsi üçün səylər göstərdi. Təşkilatın ideoloqlarından biri olan Tiflis şəhər dumasının keçmiş rəhbəri A.Xatisov Müvəqqəti hökumətin köməyi ilə Şərqi Anadolunu tutmağa ümid edirdi. Buna görə də Müvəqqəti hökumətin mövcudluğu dövründə Daşnaksütyun onun bölgədəki agenti oldu. Ermənilər Müvəqqəti hökumətin xarici

işlər naziri P.Milyukovun onlara olan isti münasibətindən istifadə edərək Qafqazda çoxlu silah - sursat topladılar, bundan  Anadoluda və İrəvan bölgəsində dinc türk-müsəlman əhaliyə qarşı törətdikləri kütləvi qırğınların miqyasını genişləndirmək üçün istifadə etdilər[171, s.371-372].

1917-ci il oktyabrın 25-də Petroqradda bolşeviklərin silahlı çevrilişi nəticəsində Müvəqqəti hökumət devrildi. Elə həmin gün Smolnıda açılan II Sovetlər qurultayında "Sülh" və "Torpaq" haqqında dekretlər qəbul edildi, V.İ.Leninin başçılığı ilə Rusiyada sovet hakimiyyətinin əsası qoyuldu.

1917-ci ilin Oktyabr çevrilişindən sonra, noyabrın 2-də bolşeviklər Bakı Sovetində hakimiyyəti öz əllərinə almağa müvəffəq oldular. Müvəqqəti hökumətin devrilməsi ilə Fevral inqilabından sonra Cənubi Qafqazı idarə etmək üçün yaradılan Xüsusi Zaqafqaziya Komitəsinin də fəaliyyəti sona çatdığından Xüsusi Komitənin təşəbbüsü ilə, Cənubi Qafqazda fəaliyyət göstərən siyasi təşkilatların 1917-ci il noyabrın 11-də (24-də) Tiflisdə keçirilən müşavirəsində gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdiklərini bildirib, Müəssislər Məclisi tərəfindən hakimiyyət məsələsi həll edilənə qədər regionu idarə etmək üçün Zaqafqaziya hökuməti yaratmaq haqqında qərar qəbul etdilər. Noyabrın 15-də (28-də) Zaqafqaziya Komissarlığı yaradıldı və gürcü menşeviki E.P.Gegeçkorininn rəhbərliyi ilə hökumət təşkil edildi[292,c.7]. Komissarlıq Petroqraddakı Sovet hökumətini tanımadığını bəyan etsə də, Rusiya ilə əlaqələrini kəsməmişdi və özünü "Böyük Rus Dövləti"nin bir hissəsi olaraq görürdü. Komissarlığın 1917-ci il noyabrın 18-də (dekabrın 1-də) elan etdiyi bəyannaməyə görə, yeni iqtidar Ümumrusiya Müəssislər Məclisinin çağırılmasına qədər hakimiyyətdə olacaqdı. Əgər Rusiya hadisələri Müəssislər Məclisinin toplanmasına imkan verməsə, bu hökumət Zaqafqaziyadan və Qafqaz cəbhəsindən Rusiya Müəssislər Məclisinə seçilən nümayəndələrin toplanmasına qədər iqtidarda olacaq, Məclisə seçilən nümayəndələr qrupuna tabe olacaqdı[292,c.8-9].

1917-ci il noyabrın 26-da Cənubi Qafqazda, o cümlədən Azərbaycanda Ümumrusiya Müəssislər Məclisinə seçkilər keçirildi. Bütün Cənubi Qafqaz üzrə

2.455.274 seçicinin iştirak etdiyi seçkilərdə səslərin 73 %-ni gürcü menşevikləri (661.934 səs), Azərbaycan müsavatçıları (615.816 səs) və erməni daşnakları (558.400) qazandılar[256, s.149;410,c.108]. Hər 60.000 səs üçün bir mandat verilməklə, gürcü menşevikləri 11, Müsavat 10, Daşnaksütyun 9, Müsəlman Sosialist Bloku 2, Bolşeviklər, Eserlər, Hümmət və İttihad isə hərəsi bir mandat qazandılar. Buradan da göründüyü kimi, artıq bəhs edilən dövrdə ermənilər Cənubi Qafqazda kifayət qədər möhkəmlənib, gürcü menşevikləri və müsavatçılardan sonra üçüncü bir güc halına gəlmiş və Daşnaksütyun ətrafında birləşmişdilər.

1917-ci il noyabrın 2-də (15-də) Sovet hökuməti "Rusiya xalqlarının hüquq bəyannaməsi"ni qəbul etdi. Bu bəyannamədə Sovet hakimiyyətinin milli siyasətinin əsas prinsipləri elan edildi. Burada keçmiş Rusiya imperiyasının tərkibinə daxil olan bütün xalqların bərabərliyi və suverenliyi, ayrılıb ayrıca müstəqil dövlət qurmağa qədər, bütün Rusiya xalqlarının öz müqəddəratını təyin etmək hüququ, bütün hər cür ictimai, milli - dini imtiyazların ləğv edildiyi, Rusiya ərazisində yaşayan milli azlıqların və etnik qrupların azad inkişafının təmin edilməsi və s. məsələlər öz əksini tapmışdı[290,c.39-41]. Ermənilər Sovet hökumətinin elan etdiyi "Rusiya xalqlarının hüquq bəyannaməsi"ndən və ölkədə yaranan anarxik vəziyyətdən yararlanıb İrəvan bölgəsində özlərinə dövlət yaratmaq üçün açıq mübarizə aparmağa başladılar. Bəhs edilən dövrdə Hnçaq partiyası daha çox Osmanlı ərazisində erməni dövləti yaratmaq uğrunda mübarizəsini davam etdirsə də, Daşnaksütyun partiyası əsas etibarilə mübarizə meydanını Cənubi Qafqaza keçirdi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması uğrunda açıq mübarizə apardı. Bu mübarizənin əsas yolu azərbaycanlılara qarşı soyqırım törədib bölgəni türk-müsəlmanlardan təmizləməkdən keçdi. 1917-ci ildə Rusiya imperiyasının dağılması ilə Cənubi Qafqazda yaranan anarxiya şəraitində ermənilər azərbaycanlılara qarşı soyqırımların daha dəhşətli dövrünü başladılar. Təkcə 1917-ci ilin son rübündən 1918-ci ilin mart ayına qədər İrəvan bölgəsində ümumilikdə 15.155 təsərrüfatın birləşdiyi 198 kənd darmadağın edildi, əhalisi soyqırıma məruz qaldı, bir qismi öldürüldü, qalan hissəsi isə öz yurd-yuvalarını tərk etməyə məcbur olaraq qaçqın və köçkünə çevrilmişdir. Qafqaz təqviminin 1908-ci il məlumatına görə 100.626 nəfər əhalinin yaşadığı bu 198 kənd

üzrə on il ərzində əhalinin 30 faizlik təbii artımı (34.374 nəfər) da nəzərə alınaraq ermənilərin törətdiyi soyqırım qurbanlarının ümumi sayı 135.000 nəfər təşkil edir[2,v.31-33;12, v.3-7]. Lakin bununla qırğınlar dayanmadı, əksinə daha geniş miqyasda davam etdirildi.

Daşnaklar bolşeviklərlə birləşib 1918-ci ilin martında Bakıda azərbaycanlıların soyqırımını törətdilər. 1918-ci ilin martında Bakıda 12 min günahsız insanın qətlə yetirilməsi ilə başlanan və bunun ardınca demək olar ki, bütün Azərbaycanı əhatə edən soyqırımlar nəticəsində 200 mindən artıq azərbaycanlı qətlə yetirildi və ya qaçqın və köçkünə çevrildi, əhaliyə milyardlarla ziyan vuruldu.

1918-ci il yanvarın 19-da Rusiyada Müəssislər Məclisi bolşeviklər tərəfindən qovulduqdan bir qədər sonra, regionda kifayət qədər güclü hakimiyyəti olmayan Zaqafqaziya Komissarlığı özünü buraxmaq məcburiyyətində qaldı. 1918-ci il fevralın 23-də (10-da) Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş nümayəndələrin Tiflisdə keçirilən yığıncağında Zaqafqaziya Seyminin yaradılması və bölgədə yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul edildi. Cənubi Qafqazın ali hakimiyyət orqanı kimi Seym öz işinə başladı və E.Gegeçkori başda olmaqla Zaqafqaziya hökuməti təşkil edildi. Zaqafqaziya Seymində Müəssislər Məclisinə seçilmiş nümayəndələrin sayını bərabər şəkildə üç dəfə artırmaq yolu ilə menşeviklər 33, Müsavat və bitərəf demokratik qrup 30, daşnaklar 27, Müsəlman Sosialist Bloku 7, eserlər 5, hümmətçilər 4, ittihadçılar isə 3 yer əldə etdilər[241,s.6].

Zaqafqaziya Seymi əslində məcburiyyət qarşısında meydana gəlmiş bir orqan idi. Seymə daxil olan hər üç millət – gürcülər, azərbaycanlılar və ermənilər öz-özlüyündə tamamilə müstəqil idilər. Bunların hər biri öz milli maraqlarına ən uyğun şəkildə təşkilatlarını qurmuşdular və milli ideallarını gerçəkləşdirməyə çalışırdılar. Hər üç millətin milli maraqları çox zaman bir-biri ilə toqquşurdu. Ona görə də bunların hər biri onu dəstəkləyəcək bir qüvvə, bir böyük dövlət axtarışında idi. Bu şərtlər daxilində Zaqafqaziya Seyminin gerçəklikdən uzaq bir birlik olduğu və ilk böyük sarsıntıda bu Seymin dağılacağı göz qabağında idi[168,s.74-75].

1918-ci il martın 3-də Sovet Rusiyası ilə Almaniya-Osmanlı bloku ölkələri arasında Brest-Litovsk sülh müqaviləsi imzalandı və bu müqavilənin dördüncü

maddəsinə görə, Rusiya Qars, Ərdəhan və Batum vilayətlərinin (bölgədə keçiriləcək referendumun nəticələrinə görə) Türkiyəyə keçdiyini təsdiq etdi[46;47;27;291,c.121].

Zaqafqaziya Seyminin Sovet Rusiyası ilə Almaniya-Osmanlı bloku ölkələri arasında Brest-Litovsk sülh müqaviləsini tanımaqdan və onun şərtlərini yerinə yetirməkdən imtina etməsi səbəbindən Osmanlı dövləti Seymlə ayrıca konfrans keçirməyə məcbur oldu. Bu məqsədlə tərəflər arasında 1918-ci il martın 14-də Trabzonda konfrans açıldı. Trabzon konfransında Osmanlı tərəfi Brest-Litovsk sülhü əsasında sülh bağlamağa israr edir, Seym nümayəndələri isə inadla buna qarşı çıxıb Brest müqaviləsinin qanuniliyini qəbul etməkdən imtina edirdilər[48;50;51].

Zaqafqaziya Seymi Osmanlı dövlətinin Brest sülhü ilə bağlı tələblərini qəbul etməyib 1914-cü il sərhədləri çərçivəsində müqavilə imzalamağa çalışmaqla bərabər, Osmanlı dövləti ərazisində ermənilərə muxtariyyət verilməsi kimi məntiqsiz bir təklif də irəli sürürdü [5; 6]. Əslində bu təklif Seymdəki ermənilər tərəfində Osmanlı dövləti ilə müqavilənin imzalanması üçün zorla irəli sürülmüşdü[292,c.83-84]. Azərbaycanlılarla paralel olaraq gürcülər də bu təklifi əsassız hesab edib danışıqlarda müdafiə edilməsini lüzumsuz bildilər.

Uzun sürən danışıqlarda nəticə əldə edilmədikdə, Osmanlı tərəfi Seym nümayəndə heyətinə ultimativ şəkildə bildirdi ki, Osmanlı dövləti ilə Seym arasında normal qonşuluq münasibətlərinin yaranması onun Brest-Litovsk sülhünü qəbul edib, şərtlərini yerinə yetirməsi və özünün statusunun tam şəkildə müəyyən etməsi ilə mümkün olacaqdır. Çünki, Seym tərəfi bir tərəfdən özünün müstəqil dövlət deyil, Rusiyanın bir parçası olduğunu iddia edir, digər tərəfdən isə Sovet Rusiyasının imzaladığı müqavilənin şərtlərini tanımaqdan imtina edirdi[5, v.6-7].

Brest sülhünü qəbul edib, Qars, Ərdəhan və Batum vilayətlərinin Türkiyəyə keçdiyini təsdiq etməklə bağlı Trabzondakı Zaqafqaziya nümayəndələri arasında, həmçinin Seymdəki fraksiyalar arasında birlik yox idi. Erməni və gürcülər Türkiyənin tələblərini rədd edib, onunla müharibə aparmağa çalışırdılarsa, Azərbaycan fraksiyası qarşılıqlı güzəştlər əsasında Osmanlı imperiyası ilə razılığa gəlməyi təklif edirdi. Ərazi məsələlərinin müzakirəsi son anda ona gətirib çıxartdı ki, gürcülər Batumu əldə saxlamaqla, Qars və Ərdəhanın güzəştə gedilməsinə razı

idilərsə, ermənilər Batum və Acariyanın güzəştə gedilməsinə tərəfdar olub, Qarsın Türkiyəyə verilməsinə razı deyildilər. Azərbaycan fraksiyası isə bu fikirdə idi ki, Qars və Ərdəhanın əhalisinin əksəriyyəti türklər olduğu üçün Brest-Litovsk müqaviləsinin bu iki vilayət haqqındakı maddələri yerinə yetirilməlidir. Onların fikrincə, Acariya Zaqafqaziyanın tərkibində ayrıca müsəlman respublikasına çevrilməlidir, əgər bu mümkün olmazsa, onda o, Türkiyəyə birləşdirilməlidir. Batum isə xaricə mühüm çıxış yolu kimi Zaqafqaziyanın tərkibində qalmalıdır[49, v.6;168,s.132].

Zaqafqaziya Seyminin Brest-Litovsk sülhünü qəbul etməməsi və digər tərəfdən öz statusunu konkret müəyyən etməməsi səbəbindən bir aya qədər davam edən Trabzon danışıqları uğursuzluqla nəticələndi. Seym 1918-ci il 13 aprel tarixli iclasında Osmanlı dövlətinin tələbləri qarşısına silahla çıxmaq haqqında qərar qəbul elədi[5, v.6-7;292,c.82-83].

Osmanlı dövləti ilə Zaqafqaziya Seymi arasında müharibə cəmi 8 gün çəkdi. Hələ aprelin 3-də Ərdəhanı ələ keçirən türk qoşunları aprelin 15-də Batumu, 25-də isə Qarsı ələ keçirdilər və beləliklə Osmanlı dövləti Brest sülhü ilə əldə etdiyi ərazilərə silah gücünə yiyələnməli oldu. Türk ordularının hücumları qarşısında tab gətirə bilməyən Zaqafqaziya Seymi Türkiyənin tələblərini qəbul etməyə məcbur oldu. Aprelin 22-də (9-da) Seymin iclasında Zaqafqaziya müstəqil Demokratik Federativ Respublika elan olundu. Osmanlı dövləti ilə sülh tərəfdarı olan A.Çxenkeli başda olmaqla yeni hökumət yaradıldı. Eyni zamanda, Osmanlı dövləti ilə sülh danışıqlarının davam etdirilməsi və tezliklə sülh müqaviləsinin bağlanması haqqında qərar qəbul edildi[292,c.222].

Osmanlı dövləti ilə Zaqafqaziya Seymi arasında sülh danışıqlarının ikinci mərhələsi kimi 1918-ci il mayın 11-də Batumda konfrans açıldı. Konfransda 10 nəfərlik Osmanlı nümayəndə heyətinə ədliyyə naziri və xarici işlər naziri vəkili Xəlil bəy Menteşə rəhbərlik edirdi. Qafqaz cəbhəsinin komandanı Ferik Mehmed Vehib paşa da bu heyətdə təmsil olunan əsas simalardan idi[25].

A.Çxenkelinin rəhbərlik etdiyi Zaqafqaziya nümayəndə heyətinə Seymdəki fraksiyalararası qarşılıqlı inamsızlıq səbəbindən 45 nəfər daxil idi. Lakin

nümayəndəlik 6 həlledici üzvdən ibarət idi. Buraya gürcülərdən A.Çxenkeli və N.Nikoladze, azərbaycanlılardan M.Ə.Rəsulzadə və M.H.Hacınski, ermənilərdən R.İ.Kaçaznuni və A.İ.Xatisov daxil edilmişdi[259,c.34].

Batum konfransı 1918-ci il mayın 11-də açıldı və ümumi toplantısı oldu. Türkiyə nümayəndəliyi adından Xəlil bəy Menteşə giriş nitqi söylədi, habelə Türkiyənin tələblərini şərh etdi. Nitqin qısa mahiyyəti ondan ibarət idi ki, əgər iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdılmışsa, həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz. Türkiyə tərəfindən hazırlanmış on iki maddədən və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Cənubi Qafqaz Konfederasyon Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsi müzakirə üçün Zaqafqaziya nümayəndələrinə təqdim edildi. Osmanlı dövləti ilə Zaqafqaziya Seymi arasında imzalanacaq müqavilənin layihəsi hələ may ayının 2-də Osmanlı dövlətinin baş komandan vəkili və hərbi naziri Ənvər paşa tərəfindən Batumdakı türk heyətinə göndərilmişdi. Ənvər paşa layihə ilə birlikdə Batumdakı hərbi nümayəndə Vehib paşaya belə bir təlimat da vermişdi ki, "verilən tələblər sülh yolu ilə qəbul edilməzsə, o zaman hərbi yolla qəbul etdirilməlidir"[26].

Bu layihədə artıq Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb edirdi[26;50;217,s.38;160, s.76-77].Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi. Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə Türkiyəyə Zaqafqaziyanın bütün dəmir yol şəbəkəsindən istifadə etmək hüququ verilməli idi[26;292,c.313-314].

Osmanlı dövlətinin bu tələbləri nəinki Brest müqaviləsinin Türkiyə üçün müəyyən etdiyi 1877-1878-ci illər müharibəsinə qədərki türk-rus sərhəd xəttini, hətta 1828-ci ildəki türk-rus sərhədini də aşırdı. Zaqafqaziya heyəti isə, Brest-Litovsk müqaviləsi əsasında sülh bağlamaq üçün Batuma gəlmişdi. Osmanlı dövlətinin

tələblərinə münasibətdə ümumi bir mövqeyə gələ bilməyən Zaqafqaziya heyətində fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşdi. Bu da öz növbəsində heyətdə təmsil olunan azərbaycanlı, gürcü və erməni nümayəndələrinin ayrı-ayrılıqda Türkiyə və Almaniya ilə danışıqlar aparmasına gətirib çıxartdı. Gürcülər türk tələbləri qarşısında çıxış yolu kimi Almaniyaya sığınmaq qərarına gəldilər. Gizli aparılan gürcü-alman danışıqları "Poti razılaşması" ilə nəticələndi ki, mayın 25-də imzalanan bu razılaşma ilə Gürcüstan Federasiyadan çıxıb öz müstəqilliyini elan edir və Almaniyanın qəyyumluğunu qəbul edirdi[168,s.158;259,c.34]. Elə həmin gün Batumdan Tiflisə qayıdan gürcü Milli Şurasının sədri N.Jordaniya Osmanlı dövləti ilə sülh danışıqlarının gedişi barədə menşeviklərin konfransına məlumat verdi və konkret olaraq Gürcüstanın Cənubi Qafqaz federasiyasından çıxıb müstəqilliyini elan etmək məsələsini gündəliyə çıxardı[259,c.57].

Cənubi Qafqaz federasiyasını qismən olsa saxlamağı zəruri bilən Batumdakı Azərbaycan nümayəndələri gürcülərə ermənilərsiz ikilikdə dövlət yaratmağı təklif etsələr də, gürcülər bunu qəbul etmədilər. Yaranmış vəziyyəti müzakirə edən Seymin müsəlman fraksiyası belə bir qərara gəldi ki, "Gürcüstan ayrılıb müstəqilliyini elan edəcəyi halda, Azərbaycan da öz müstəqilliyini elan etməlidir"[4, v.43].

1918-ci il may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi.Burada Gürcüstanın Federasiyadan çıxmaq haqqında bəyanatı dinlənildikdən sonra Zaqafqaziya Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi. Elə həmin gün Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi[292, л.336-338].İki gün sonra Gürcüstan Almaniya ilə aparılmış Poti danışıqlarının yekunu olaraq mayın 25-də imzalanmışgizli sazişi elan etdi və bununla da Almaniyanın qəyyumluğunu qəbul etdi[292,c.332-336].

Zaqafqaziya Seyminin buraxılması ilə bağlı yaranmış böhranlı siyasi vəziyyətlə əlaqədar Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdülər və özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdilər[4,v.46-47]. Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi[4,v.49-50].

Hələ may ayının 25-də, Seymin dağılacağının labüd olduğu tam gerçəkliyi ilə məlum olan zaman, Seymin müsəlman fraksiyasının üzvü F.X.Xoyski erməni fraksiyasının üzvləri ilə apardığı müzakirələr zamanı X.Korçikyan bəyan etdi ki, əgər gürcülər federasiyadan çıxıb öz müstəqilliklərini elan edərlərsə, o zaman ermənilər də müstəqilliklərini elan edəcəklər[4,v.43-45].

Lakin Seymin parçalanması halında Cənubi Qafqazda gürcü və Azərbaycan dövlətlərindən başqa erməni dövlətinin də yaradılması məsələsi ilkin şərtlər daxilində real deyildi. Çünki bəhs edilən dövrdə bölgədə faktiki güc sahibi olan və burada gedən prosesləri öz nəzarətində saxlayan Osmanlı hökuməti ilk öncə Seymin dağılması halında Cənubi Qafqazda yalnız Azərbaycan və gürcü dövlətlərinin yaradılması siyasətini yeridirdi. Zaqafqaziya Seyminin dağılması ərəfəsində, mayın 24-də Osmanlı dövlətinin sədrəzəmi Mehmed Tələt paşa Batum konfransındakı türk nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşəyə göndərdiyi teleqramında yazırdı: “Ermənilərin bir hökumət halında təşəkkül etməsinə qətiyyən tərəfdar deyiləm. Kiçik bir erməni muxtariyyəti beş il sonra beş milyon əhalisi olan bir erməni dövləti halına gələcək və bütün Qafqaza hakim olaraq Şərqin Bolqarıstanına çevriləcəkdir. İran və Amerikada olan bütün ermənilər orada toplanacaq, ingilis və fransızlardan hər cür yardım alaraq, gələcəkdə xristian gürcülərlə və çox asanlıqla əcəmlərlə birlikdə bizim əleyhimizə hərəkət edəcəklər. Bu səbəbdən mümkün olsa, “çibanı kökündən təmizləmək” ən xeyirli iş olacaqdır. Bu mümkün olmadığı təqdirdə Ermənistanın çox zəif və yaşamayacaq şəkildə təşəkkül etməsi zəruridir…”[253, s.661-662]

Onu da qeyd etmək lazımdır ki, Cənubi Qafqazda erməni dövlətinin yaradılması məsələsinə münasibətdə bu siyasət heç də Osmanlı hökumətinin bütün üzvləri tərəfindən dəstəklənmirdi. Sədrəzəm Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda erməni dövləti yaradılmasının əleyhinə idilər və bu məsələdə “çibanı kökündən təmizləmək” tərəfdarı idilər. Bu mümkün olmadıqda “Ermənistanın çox zəif və yaşaya bilməyəcək bir dövlət şəklində təşəkkül etməsini” təklif edirdilər. Lakin, Tələt paşa və Ənvər paşadan fərqli olaraq, Batum danışıqlarında Türkiyə nümayəndə heyətinə başçılıq edən Dövlət Şurasının sədri və ədliyyə naziri Xəlil bəy Menteşə və Osmanlı Orduları Qafqaz cəbhəsinin komandanı Ferik Mehmed Vehib

paşa Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına ermənilərə dövlət yaratmaq tərəfdarı idilər. Onlar güman edirdilər ki, bununla ermənilər həm Anadoludan uzaqlaşdırılacaq, həm Türkiyə-erməni münasibətləri birdəfəlik nizama salınacaq, həm də "erməni məsələsi" ilə bağlı Türkiyəyə qarşı beynəlxalq qınağa son qoyulacaqdır[186].

Onu da qeyd etmək lazımdır ki, Tələt və Ənvər paşaların mövcud vəziyyətdə erməni dövlətinin yaradılmasına imkan verməmək və bu məsələdə "çibanı kökündən təmizləmək" istəyinə Azərbaycan nümayəndələri heç də müsbət yanaşmırdılar. Onlar öz mövqeyini əsaslandıraraq bildirirdilər ki, əgər bölgədə üç – gürcü, müsəlman, erməni kantonları yerinə yalnız iki – gürcü və müsəlman dövlətləri yaradılarsa, o zaman Cənubi Qafqazda və xüsusilə də ultimatumda tələb edilən, Osmanlı dövlətinə birləşdiriləcək ərazilərdə olan böyük erməni kütləsi Azərbaycana axışacaq. Bu da Azərbaycana faktiki olaraq daha böyük qırğınlar, müsibətlər və dağıntılar gətirəcək. Buna yol verməmək üçün kiçik bir ərazidə ermənilərin milli dövlətlərini yaratmaq və onları ora cəm etmək lazımdır. Bu məsələ ilə bağlı Azərbaycan nümayəndələri 1918-ci il mayın 23-də Batumdan Ənvər paşaya yazılı bir müraciət də göndərdilər[53,v.12].

Azərbaycan nümayəndələrinin müraciəti, eyni zamanda Xəlil bəy Menteşənin təkidləri sədrəzəm Tələt paşa və hərbi nazir Ənvər paşanın erməni dövlətinin yaradılması məsələsindəki mövqeyinə ciddi təsir etdi. Erməni dövlətinin yaradılmasına razılıq əldə edildikdən sonra bu dövlətin hansı siyasi mərkəz ətrafında yaradılması məsələsi müzakirə predmetinə çevrildi. Qarsın ardınca Aleksandropol da türk qoşunları tərəfindən tutulduqdan sonra ermənilərə siyasi mərkəz olaraq İrəvanın verilməsi məsələsi gündəmə gəldi. Osmanlı siyasi dairələri İrəvanı güzəştə getmək istəməsələr də, ermənilər bu məsələ üzərində israrla dayandılar. İndi türklər yeni yaranan erməni dövləti üçün siyasi mərkəz olaraq ya Aleksandropolu ermənilərə verməli və bu şəhərlə bağlı irəli sürdüyü tələbindən geri çəkilməli, ya da İrəvanı müsəlmanlardan alıb onlara verməli idilər. Bu iki seçim qarşısında Aleksandropoldan imtina etmək fikrini belə qəbul etməyən türklər ikinci varianta üstünlük verdilər[29;54, v.113-115].

Xəlil bəy azərbaycanlılara məxsus ərazilərin bir qismini onlardan alıb ermənilərə vermək təklifini irəli sürdü. Əslində bu təklif ilk əvvəl ermənilər tərəfindən irəli sürülmüşdü. Trabzon konfransı uğursuzluqla nəticələndikdən sonra Osmanlı dövlətinin tələbləri qarşısına silahla çıxmağın əsas tərəfdarı olan ermənilər indi daha da sərtləşən türk tələbləri qarşısında əlacsız bir vəziyyətə düşmüşdülər. Onlar "erməni məsələsi"nin beynəlxalq bir problem olduğunu önə çəkərək, Osmanlı dövlətinin ermənilərə ayırdığı ərazilərin erməni xalqının yaşaması üçün həddindən çox az olmasından şikayətlənir və bildirirdilər ki, Türkiyənin təklif etdiyi sərhədlər iki xalq arasında daimi bir düşmənçiliyə yol açacaqdır. Erməni nümayəndələri sərt türk tələbləri qarşısında çıxış yolu kimi təklif edirdilər ki, heç olmasa, Azərbaycan torpaqlarından müəyyən bir ərazi ermənilərə verilsin. Bunun qarşılığında ermənilərlə müsəlmanlar arasında olan düşmənçilik də aradan qalxacaq və ermənilər Bakıdakı müsəlman əhalinin təhlükəsizliyini təmin etməyi öz üzərlərinə götürəcəklər. Xəlil bəy bu məsələ ilə əlaqədar M.Ə.Rəsulzadə və M.H.Hacınski ilə bir sıra danışıqlar apardı və nəticədə Osmanlı yardımına böyük ehtiyac duyan Azərbaycan nümayəndələrinin razılığını ala bildi[168, s.164-165].

Batum konfransında (11 may-4 iyun 1918) erməni dövlətinin yaradılması məsələsi ətrafında aparılan danışıqlar barədə sədrəzəmə məlumat verən Xəlil bəy bu məsələsini aşağıdakı şəkildə şərh edirdi: "... Ermənilərə gəlincə, onlar İrəvanın yerdə qalan qismində təşəkkül edə bilərlər. Sədrəzəmin Qafqazda erməni mövcudiyyətinin əleyhinə olmadığına məmnun oldum. Bu bir siyasi zərurətdir. Qafqazda ermənilərin ən kompakt yaşadığı yerlər Osmanlı dövlətinə birləşdiriləcək ərazilərdir, digər yerlərdə ermənilər müsəlmanlar arasında səpələnmiş şəkildə yaşayırlar. Osmanlı dövlətinə birləşdiriləcək ərazilərin qarşı tərəfində erməni dövlətinin yaradılması üçün bir ərazi ayrılmasının uyğun olub-olmadığını müsəlman nümayəndələr ilə geniş müzakirə etdik və nəticədə bunun qeyri-mümkün olduğu məlum oldu..."[51, v.55-57]. Sədrəzəmin erməni məsələsində mümkünsə "çibanı kökündən təmizləmək və erməni dövlətinin yaradılmasına ümumiyyətlə imkan verməmək" fikrini qeyri-mümkün və təhlükəli hesab edən Xəlil bəy ermənilərə dövlət yaradılmasını zəruri hesab edir və bildirir ki, "arzum xilafında olsa da, təbii ki, vəzifəmi icra edəcəyəm,

fəqət zərurət ilə qoyacağım bu imza həyatımın ən acı bir səhifəsi olacaqdır"[51, v.55-57].

Tələt və Ənvər paşalardan fərqli olaraq, Vehib paşa da mövcud reallığı dəyərləndirən Xəlil bəylə eyni mövqedən çıxış edirdi. O, Ənvər paşanın teleqramına 29 may 1918-ci il tarixində verdiyi cavabda "verilən əmrləri yerinə yetirmək üçün çalışdıqlarını" bildirməklə yanaşı, onu da qeyd edirdi ki, "erməniləri büsbütün qeyri-mövcud edə bilmərik. Hər halda onlara bir vücud vermək zərurət və məcburiyyətindəyik"[28]. Batumdakı türk heyətinin mövqeyinə görə yaradılacaq erməni dövləti Eçmiədzin və Yeni Bəyazid qəzalarından ibarət olmalı idi[168, s.168].

Xəlil bəy 1918-ci il mayın 26-da Batumda erməni məsələsi ilə bağlı Azərbaycan və erməni nümayəndələri ilə geniş danışıqlar apardı. Bu danışıqlardan əldə edilən nəticə ondan ibarət oldu ki: 1) Azərbaycan nümayəndələri hazırda ermənilərin əlində olan Bakı şəhəri ilə bağlı çox narahatdırlar və Osmanlı hərbi yardımını ölkəyə təmin etmək üçün Osmanlı dövlətinə keçəcək ərazinin qarşı tərəfində ermənilərə onları qismən təmin edəcək bir ərazi ayırmağa razı oldular; 2) Erməni nümayəndələri də belə bir ərazinin ayrılmasından məmnun qaldılar. Erməni nümayəndələri bu şəkildə onlara dövlət yaradıldığı təqdirdə İstanbula bir heyət göndərərək Osmanlı dövlətinə sədaqət ərz edəcəklərini bəyan edirlər; 3) Ermənilərə bu şəkildə dövlət yaradılmasının Avropa və Amerikada yaradacağı təsiri çox böyük olacaqdır[49,v.82-83;54,v.129-130].

İrəvan ətrafında erməni dövlətinin yaradılması məsələsi Batum konfransında aparılan danışıqlar may ayının 30-da sona çatdı. İrəvanın ermənilərə verilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması müqabilində erməni heyəti aşağıdakı şərtlərin yerinə yetirilməsini öz üzərinə götürdü:

1. Ermənilərlə müsəlmanlar arasında düşmənçilik aradan qaldırılacaq və erməni tərəfi Stepan Şaumyanla əlaqəyə girib Bakının müsəlman əhalisinin təhlükəsizliyini təmin edəcək, bununla azərbaycanlılara qarşı kütləvi qırğınların qarşısı alınacaqdır;

2. Azərbaycan qəzalarında erməni silahlı birləşmələri tərəfindən müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaqdır;

3. Ermənistan hökuməti İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində müsəlmanların sərbəst dini ibadət, mədəniyyət, siyasi və ana dilində təhsil almaq hüquqlarını təmin edəcəkdir;

4. Ermənilər Azərbaycana qarşı ərazi iddialarından imtina edəcəklər;

5. Ermənilər gələcəkdə Azərbaycanla vahid konfederativ dövlətdə birləşəcəklər[6,v.1-2;14,v.19;44,v.11-19;167,s.30;186].

Beləliklə, Batum danışıqlarında İrəvanın ermənilərə verilməsi ilə bağlı razılaşma əldə olunduqdan sonra, 1918-ci il mayın 29-da Azərbaycan Milli Şurasının Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən üçüncü iclasında İrəvan şəhərinin ermənilərə və İrəvan bölgəsində erməni dövlətinin yaradılması məsələsi müzakirə edildi[4,v.51-52].İclasda baş nazir F.X.Xoyski Ermənistanla Azərbaycan arasında sərhəd məsələləri barədə Azərbaycan Milli Şurasının üzvləri ilə Ermənistan Milli Şurasının üzvləri arasında aparılmış danışıqlar haqqında məlumat verdi. Fətəli Xan öz məruzəsində ermənilərin özlərinin siyasi mərkəzlərini yaratmaq üçün Aleksandropol türklər tərəfindən tutulduqdan sonra İrəvanın Ermənistana güzəştə gedilməsinin qaçılmaz olduğunu bəyan etdi. Daha sonra bu məsələ ilə bağlı X.Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxül-islamov və M.Məhərrəmov çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsinin tarixi zərurət, lakin bizim üçün qaçılmaz acı bir həqiqət olduğunu qeyd etdilər. Bu məsələ ilə bağlı səsvermədə 28 nəfər Şura üzvündən 16 nəfəri İrəvanın ermənilərə güzəştə gedilməsi təklifinin lehinə, 1 nəfər əleyhinə səs verdi, 3 nəfər isə bitərəf qaldı (protokolda (№ 3) belə göstərilmişdir) [4,v.51-52].Bununla da İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi ermənilərin xeyrinə həll edilmiş oldu.

Azərbaycan Cümhuriyyətinin baş naziri F.X.Xoyski elə həmin gün (mayın 29-da) Batumda olan xarici işlər naziri M.H.Hacınskiyə yazırdı: “Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik” [6,v.1-2].

Azərbaycan Milli Şurasının iyun ayının 1-də keçirilən dördüncü iclasında İrəvandan olan Milli Şura üzvləri M.H.Seyidov, B.Rzayev və N.Nərimanbəyov İrəvanın ermənilərə güzəştə gedilməsi ilə bağlı Milli Şuranın 29 may 1918-ci il tarixli

qərarına yazılı şəkildə etirazlarını bildirirlər. Lakin Milli Şura bu etirazı müzakirə etmədən işə tikmək haqqında qərar qəbul etdi[4,v.53-54;241, s.133-16].

Yeni yaranmış erməni dövlətinin ərazisi İrəvan şəhəri və ətrafındakı torpaqlardan ibarət olmaqla 9 min km$^2$ idi. Ermənistan Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi. Bura aşağıdakı ərazilər daxil idi: Yeni Bayazit qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla), Eçmiədzin qəzası (Sərdarabad istisna olmaqla) və Aleksandropol qəzası (qəza mərkəzi Aleksandropol istisna olmaqla)[50,s.69]. Ermənilərə verilmiş Azərbaycan ərazisinin əhalisi cəmi 321.000 nəfər idi ki, onun da 230 mini erməni, 80 mini türk-müsəlman, 11 mini isə digər xalqların nümayəndələri idi[50,v.69].

Nəticə etibarilə, Osmanlı dövləti Batum konfransının gedişində İrəvan mərkəz olmaqla, Azərbaycan torpaqları hesabına kiçik bir ərazidə (9 min km$^2$) ermənilərə dövlət yaratdı və İstanbul hökuməti onu de-fakto tanıyan ilk dövlət oldu. Bununla da, Xəlil bəy Menteşənin təbirincə desək, Osmanlı dövləti bir tərəfdən “erməni məsələsi” ilə bağlı beynəlxalq aləmdə ona qarşı olan “qınağ”ı aradan qaldırmış olur[49,v.82-83;54,v.129-130], digər tərəfdən də Rusiya və Fransa kimi dövlətlərin Şərqi Anadoluda yaratmaq istədikləri erməni dövlətini Cənubi Qafqazda yaratmaqla həm də erməni problemini özündən uzaqlaşdırmış olurdu.

Lakin ermənilər İrəvan bölgəsində özlərinə dövlət yaradılmasına nail olduqdan sonra üzərlərinə götürdükləri şərtlərin heç birini yerinə yetirmədilər. Belə ki, Batum konfransından sonrakı dövrdə daşnak hökuməti bölgədə türk-müsəlman əhalisinə qarşı soyqırım cinayətlərini həyata keçirməkdə olan erməni silahlı birləşmələrinin fəaliyyətini nəinki dayandırmadı, əksinə onları himayə etməyə başladı; Ermənistan ərazisində qalan müsəlmanlara qarşı soyqırımı həyata keçirtdi; Azərbaycana qarşı yeni ərazi iddiaları irəli sürdü; Azərbaycan torpaqlarını işğal etdi və s.

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, Azərbaycanın əzəli torpağı olan İrəvan xanlığı 1827-ci ildə Rusiya tərəfindən işğal edildikdən sonra çarizm mərhələ-mərhələ xanlığın aborigen əhalisi olan azərbaycanlıların

diskriminasiyası və xaricdən ermənilərin köçürülməsi hesabına bölgənin etnik tərkibini süni şəkildə dəyişdi və bu bölgənin erməniləşdirilməsini həyata keçirdi. İrəvan bölgəsində ermənilər Rusiyanın birbaşa köməyi ilə özlərinin ərazi bazalarını yaratdılar. 1827-ci ildən 1917-ci ilədək, 90 il müddətində Rusiya imperiyası da özünün antiazərbaycan və antitürkiyə siyasətinin həyata keçirilməsində ermənilərdən bir alət kimi istifadə etdi. Lakin nə qədər təzadlı görünsə də, son nəticədə, 1918-ci ildə ermənilərə İrəvan mərkəz olmaqla bölgədə dövlət yaradan onlardan Osmanlı dövlətinə qarşı öz məqsədləri üçün istifadə edən Rusiya, Fransa, İngiltərə kimi dövlətlər deyil, məhz Osmanlı dövlətinin özü oldu. Osmanlı dövləti də erməni dövlətini İrəvan mərkəz olmaqla tarixi Azərbaycan ərazilərində yaratdı. Lakin ermənilər və Ermənistan dövləti Osmanlı dövlətinin və eyni zamanda Azərbaycan Cümhuriyyətinin erməni xalqı qarşısındakı bu xidmətlərini qiymətləndirmədilər. 1918-ci ildən bu yana keçən dövr ərzində rəsmi İrəvan hökuməti və onun tərəfindən dəstəklənən, maliyyələşən, təşviq edilən erməni silahlı birləşmələri və terror təşkilatları Türkiyə və Azərbaycana qarşı müntəzəm terror, təqib, təcavüz, soyqırım cinayətləri həyata keçirdilər, bu siyasət hazırda da davam etməkdədir.

# III FƏSİL
# XIX– XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN BÖLGƏSİNİN SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ HƏYATI

## 3.1. İqtisadi vəziyyətdə dəyişikliklər

İrəvan bölgəsinin sosial-iqtisadi inkişafının ümumi səciyyəsini müəyyən etmək üçün Rusiya işğalından əvvəlki dövrdə burada mövcud olan vəziyyəti nəzərdən keçirmək vacibdir.

Rusiya işğalı ərəfəsində İrəvan xanlığı su mənbələri və irriqasiya sistemləri üzərində ağalıq prinsiplərinə əsasən 15 mahala bölünmüşdü. İ.İ.Şopenin də qeyd etdiyi kimi "Suyun üstün əhəmiyyətli vasitə təşkil etdiyi ölkələrdə inzibati baxımdan bölgü ən düzgün və münasibdir"[405,c.441].

Faktlara əsaslanan mənbələrin verdiyi məlumatların ümumiləşdirilməsi onu deməyə əsas verir ki, İrəvan xanlığının inzibati idarəçiliyi digər Azərbaycan xanlıqlarının inzibati idarəetmə sistemindən fərqlənmirdi. Xanlıq qeyri-məhdud hakimiyyətə malik xan və onun tabeliyində olan bəylər, naiblər, məliklər, ağalar və digər vəzifəli şəxslər tərəfindən idarə olunurdu. İnzibati və məhkəmə hakimiyyətinə malik olan məlik və naiblər xanlığın digər idarəçiləri ilə ayrı-ayrı kənd icmaları arasında əlaqələndirici rolunu oynayırdılar[395,c.12].

Mənbələrin təhlili göstərir ki, digər Azərbaycan xanlıqları kimi, İrəvan xanlığında da ənənəvi torpaq mülkiyyət formalarında ciddi dəyişiklik olmamışdı. Torpaq sahələri mülkiyyət formasına görə 5 qrupa bölünürdü: dövlət (divan) və saray (xalisə) torpaqları, mülk, tiyul, vəqf, icma torpaqları[166,s.111]. Bununla yanaşı, İ.Şopen İrəvan xanlığında Cənubi Qafqazın digər bölgələrindən fərqli mülkiyyət münasibətlərinin olmasını vurğulayaraq, qeyd etmişdir ki, "...hər şeyin və hər yanın müstəsna olaraq şaha, yəni xəzinəyə məxsus olduğu bu yerdə mülkiyyətçinin istifadəsində olan torpağı onun xüsusi mülkiyyəti hesab etmək olmaz"[405,c.925-926]. İ.Şopen qeyd edir ki, mülkədarların mülk torpaqları üzərində hüquqları məhdud

olmuşdur. Müəllifə görə, onlar sərdarın icazəsi olmadan mülklərini öz ehtiyaclarına görə istifadə edə, sata, girov qoya və bağışlaya bilməzdilər" [405,c.922]. Lakin bununla yanaşı, əsərinin digər yerində mülk sahiblərinin xana borclu olmamasını da göstərmişdir[405,c.926-928].

Şərti torpaq mülkiyyəti forması olan tiyul xan tərəfindən müəyyən şəxslərə vəzifə və hərbi xidmətə görə divan torpaqlarından verilirdi. Tiyul sahibinin vəfat etməsindən və yaxud xidmətini başa vurmasından sonra torpağın dövlət xəzinəsinə geri qaytarılması İ.Şopen tərəfindən də təsdiq olunur[405,c.928-929]. Lakin aparılmış tədqiqatlar göstərir ki, XVIII əsrin sonunda tiyul hüququ xeyli dəyişikliyə uğramışdı; XIX əsrin əvvəllərində kəndlilərə münasibətdə tiyuldar mülkədardan artıq heç nə ilə seçilmirdi. Məsələ ilə bağlı İ.Petruşevski qeyd edir ki, "tiyuldar çox vaxt kənddə yaşayır və kəndin bütün işlərini şəxsən özü idarə edirdi" [357,c.218-219].

Vəqf torpaqları müxtəlif vaxtlarda həmişəlik dini müəssisələrə - məscidlərə, mədrəsələrə və ya kilsələrə verilmiş torpaqlar idi. İrəvan xanlığının ərazisindəki məscidlərə və dini idarələrə məxsus vəqf torpaqları ilə yanaşı dini idarələrin mülkiyyəti - evlər, dükanlar, karvansaralar, dəyirmanlar, dinglər, yağ zavodları və s. də vəqf ola bilərdi[166,s.113].

İcma, yaxud camaat torpaqları əsasən kənd icmasına məxsus olurdu[356,c.72;157,s.28]. İ.Şopenin yazdığına görə, İrəvan xanlığında mövcud olan 8 icmaya məxsus kəndlərdə mülk hüququ həmin icmanın üzvü olan rəiyyətə məxsus idi[405, c.967-980].

Əhalinin bütün təbəqələrinin, o cümlədən dövlətin mövcudluğunun asılı olduğu kənd təsərrüfatı istehsalın mühüm bir hissəsini təşkil edirdi.

İrəvan xanlığında ümumi torpaq sahəsi 17.025 verst, yaxud 1.756.780 desyatin idi[395,c.20]. Göstərilən torpaq sahəsindən iqlim və suvarma şərtlərinə uyğun olaraq müxtəlif kənd təsərrüfatı bitkilərinin becərilməsi məqsədi ilə istifadə olunurdu. İrəvan xanlığının son dövrlərində müxtəlif bitkilər üzrə ümumi əkin sahəsi aşağıdakı kimi idi: [405,c.736-745]

Cədvəl 3.1.1

| Bitkilər | Sahə (xalvar*) | Sahə (ha) | Məhsul (xalvar**) | Məhsul (tonla) |
|---|---|---|---|---|
| Buğda | 17.000 | 42.500 | 75.500 | 37.000 |
| Arpa | 5.000 | 12.500 | 30.000 | 15.000 |
| Darı | 1.000 | 2.500 | 10.000 | 5.000 |
| Çəltik | 2.500 | 6.250 | 40.000 | 20.000 |
| Kətan | 200 | 500 | 2.000 | 1.000 |
| Küncüt | 200 | 500 | 2.000 | 1.000 |
| Pambıq | 3.000 | 7.500 | 3.500 | 1.500 |

Məlumatlardan da göründüyü kimi, İrəvan bölgəsinin kənd təsərrüfatı istehsalında əsas yeri buğda və arpa istehsalı tuturdu. Zəngibasar və Şərur mahalları çəltik istehsalına görə xüsusilə fərqlənirdi[347,c.278]. İrəvan xanlığında texniki bitkilərdən pambıq əsasən xanlığın aran yerlərində becərilirdi. Zəngibasar, Sərdarabad və Sürməli mahalları pambıq istehsalına görə fərqlənirdi[347,c.278-279]. Ağrı vadisində bağçılıq geniş yayılmışdı. Bütün İrəvan bölgəsi üzrə 2351 xalvar sahəsi olan 5.257 bağın mövcudluğu haqqında məlumat verilir[395,c.22].

İrəvan bölgəsində Azərbaycanın digər bölgələri üçün səciyyəvi olan yaylaq-qışlaq maldarlığı inkişaf etmişdi. Maldarlıqla əsasən Azərbaycan türklərinin məşğul olması danılmaz faktlardan biridir. İ.Şopenin verdiyi məlumata görə, bölgədə 534877 baş mal-qara qeydə alınmışdır[405,c.523-525].

Natural təsərrüfatın hökmranlığı şəraitində bölgədə sənaye hələ kənd təsərrüfatından ayrılmamışdı. Burada xammal kəndli təsərrüfatlarında emal edilirdi, başqa sözlə, zavod sənayesi mövcud deyildi. Lakin bununla yanaşı, zavod sənayesinin struktur elementlərinə rast gəlinirdi. Sahəvi sənaye nomenklaturasında sabunbişirmə, dəri emalı, yağ emalı və dəyirmanlara rast gəlinirdi. Sadalanan sənaye sahələrinin siyahısı belə bir qənaətə gəlməyə əsas verir ki, burada kənd təsərrüfatı

---

*Xalvar – sahə vahidi kimi təxminən 2,5 ha.

**Xalvar – çəki vahidi kimi təxminən 0,5 ton.

xammalının emalı elə həmin təsərrüfatların ehtiyacını ödəmək məqsədi ilə həyata keçirilirdi.

İrəvan bölgəsində toxuculuğun yüksək inkişaf etdiyini İ.Şopenin “hər ailədə bir toxucu dəzgahının olması” haqqında verdiyi məlumat da təsdiq edir[405,c.851-853]. Sənətkarlığın digər sahəsinin – dulusçuluğun da yüksək inkişaf etdiyini təsdiq edən İ.Şopen qeyd edirdi ki, İrəvanın bütün mahallarında dulusçuluq emalatxanaları fəaliyyət göstərir[405,c.862]. Bölgədə inkişaf edən sənətkarlıq sahələrindən biri də gön-dəri emalı idi. Məlumatlardan aydın olur ki, İrəvan sənətkarları ildə 32.000 manat dəyərində 400 ədəd iri, 2500 ədəd isə xırda dəri emal edirdilər[395,c.25]. Bölgədə bu tip müəssisələrin sayının 32 ədəd olması qeyd olunur.

İrəvan bölgəsində maldarlıqla əsasən Azərbaycan türklərinin məşğul olmasını nəzərə alsaq, onda belə bir qənaətə gələ bilərik ki, toxuculuq və gön-dəri istehsalı əksəriyyət etibarilə məhz onların fəaliyyət dairəsinə aid olmuşdur.

Beləliklə, yuxarıda gətirilən faktlar birmənalı şəkildə sübut edir ki, XIX əsrin birinci rübündə İrəvan bölgəsində feodal münasibətlər mövcud olmuşdur. Əsas istehsal vasitəsi olan torpaq hüquqi cəhətdən dövlətə məxsus idi. Kəndli təsərrüfatları əsasən natural xarakter daşıyırdı. Sənaye və sənətkarlıq hələ də tam şəkildə kənd təsərrüfatından ayrılmamışdı.

İrəvan bölgəsinin Rusiya tərəfindən işğalı ictimai-siyasi həyatda olduğu kimi, yeni istismar metod və formaları gətirməklə, iqtisadiyyatda da mühüm dəyişiklərə səbəb oldu.

Rusiya ağalığının ilkin dövrləri İrəvan bölgəsinin bir çox təsərrüfat sahələrində kəskin böhranın baş verməsi ilə səciyyələnir. Rusiya-İran müharibələri dövründə əkin sahələrinin, o cümlədən üzüm bağlarının böyük hissəsinin məhv edilməsi öz mənfi nəticələrini göstərməkdə idi. Diyarda həmçinin kənd təsərrüfatı texnikasının təkmilləşdirilməsi işi durğun vəziyyətdə deyildi. Buna uyğun olaraq, kənd təsərrüfatı istehsalı da zəif inkişaf edirdi. Yerlərin əksəriyyətində kənd təsərrüfatı alətləri olduqca köhnə konstruksiyalı, yöndəmsizliyi, xüsusilə ağırlığı ilə seçilən və hərəkətə gətirilməsi üçün çox zaman 6-8 cüt öküzün və 3-4 cütçünün tələb olunduğu kotanlardan, yenə də qeyri-münasib konstruksiyalı toxa və dırmıqlardan ibarət

idi[348,c.244-245]. Kənd təsərrüfatı texnikasının bu cür geriliyi fonunda diyarda hər hansı bir aqronomik tədbirlər də həyata keçirilmirdi. XIX əsrin 70-ci illərinin əvvəlləri üçün olan statistik məlumatların təhlili göstərir ki, bölgənin əkinəyararlı torpaqlarının səpin strukturu da bərabər bölünməmişdi; əkinəyararlı torpaqların böyük bir hissəsində dənli bitkilər, 13%-də texniki bitkilər becərilirdi, ümumi torpaq fondunun dörddə biri isə dincə qoyulmuşdu[395,c.71].

Rusiya ağalığının bərqərar olmasından keçən onilliklər ərzində heyvandarlığın inkişafında da nəzərəçarpacaq dəyişikliklər olmamışdı. Aqronom Spasski İrəvan quberniyasında heyvandarlığın inkişafını belə xarakterizə edirdi: “Ev heyvanlarının bəslənməsinin yerli üsulu tərifəlayiq deyil. Yerlilər, xüsusilə qış üçün yem tədarükü məsələsinə laqeyddirlər, nəticədə iribuynuzlu mal-qara dağlıq zolaqda uzun sürən qışdan sonra öz arıqlığı və müxtəlif növ xəstəliklərə həssaslığı ilə seçilir. Heyvanların düzgün cütləşdirilməsi ümumiyyətlə mövcud deyil, bu iş taleyin ümidinə buraxılmışdır. Buna görə də, İrəvan quberniyasında iribuynuzlu mal-qara cinsi kiçikdir, nə ətlik, nə südlük, nə də iş heyvanı xüsusiyyətləri ilə seçilmir” [384,c.188].

Bölgədə rus ağalığının bərqərar olmasından keçən 40 il ərzində təsərrüfatın hər iki mühüm sahəsi -əkinçilik və maldarlıq, göründüyü kimi, aşağı inkişaf səviyyəsində idi.

İrəvan bölgəsində mövcud olan sənaye sahələrindən ən çox diqqəti cəlb edən mis sənayesi idi. Bölgədə hələ qədim dövrlərdən mis emalı məlum olsa da, mis sənayesi haqqında ilk məlumatlar XVIII əsrə aiddir. Məhz həmin əsrdə iki mühüm mis zavodunun Allahverdi və Şamlıq zavodlarının əsası qoyulmuşdu[407,c.12-14].

XIX əsrin 50-ci illərindən etibarən İrəvan bölgəsinin müxtəlif hissələrində bir-birinin ardınca bir sıra xırda və orta mis zavodları istifadəyə verildi. Geoloq Abixin axtarışlarından sonra belə zavodlardan biri indiki Mehri rayonunun Aqaraq kəndində, 1852-ci ildə Zəngəzurda Qavart və 1856-cı ildə Qatar zavodunun, 1861-ci ildə isə Axta mis zavodunun əsası qoyuldu. Beləliklə, XIX əsrin 50-60-cı illərində bölgədə xırda və orta tipli bir neçə zavod fəaliyyət göstərməyə başladı.

Bölgədə fəaliyyət göstərən mis zavodlarının qeyri-qənaətbəxş fəaliyyət göstərməsi həmin dövrün mənbələri ilə də təsdiq olunur. İrəvan qubernatorunun

1864-cü ildə Qavart, Qatar Alidzor və Aqarak zavodlarına aid tərtib etdiyi hesabatda deyilirdi: “Onların hamısı elmi və ağıllı təsərrüfat tələblərindən çox uzaqdır. Bu zavodlar 20 ildən artıqdır ki, işləyirlər, ancaq hökumətə zərərdən başqa bir şey verməmişlər. Mədənlər bərbad haldadır və tükənmişdir” [395,c.80]. Hesabatda qubernator bu vəziyyətin səbəbini sərmayə çatışmazlığı ilə izah etsə də, əslində ən mühüm səbəblərdən biri də heç şübhəsiz ki, texniki vasitələrin təkmilləşdirilməməsi idi.

Statistik məlumatların təhlili göstərir ki, İrəvan bölgəsində XIX əsrin 60-cı illərində fabrik-zavod sənayesi olduqca zəif inkişaf etmişdi. 1863-cü ilə aid statistik təsvirə görə, İrəvan şəhərində fabriklər mövcud deyildi. Zavod sənayesi də burada olduqca zəif inkişaf etmişdi. Bölgədə 86 zavodun, o cümlədən 3 yağəritmə, 1 sabunbişirmə, 29 dəri, 46 boyaqçılıq, 3 şərab, 3 kirəmit, 1 dulusçuluq müəssisəsinin fəaliyyət göstərməsi qeyd olunsa da, lakin qeyd etmək vacibdir ki, bütün bu zavodlar həm öz strukturuna, həm də istehsal həcminin məhdudluğuna və texniki vəziyyətinə görə olduqca aşağı səviyyədə idi, belə ki, müasir mənada zavod sənayesi demək olar ki, İrəvan quberniyasında mövcud deyildi[388,c.64]. Statistik məlumat müəllifi boyaqçılıq və dəri müəssisələrinə diqqət yetirilməsi, bu sahələrin xeyli fərqləndiyini göstərir. Məlumatlardan belə aydın olur ki, İrəvanda mövcud olan boyaqçılıq müəssisələrindən hər biri ildə 700 manatlıq məhsul istehsal edirmiş.

Statistik məlumatlar 1863-cü ildə Gümrüdə 36 zavodun fəaliyyət göstərməsini təsdiq edir[388,c.76]. Lakin bu zavodların profili və buraxdıqları məhsullar haqqında heç bir məlumat verilmir. Məlumatlar göstərir ki, həmin dövrdə Yeni Bəyaziddə fabrik mövcud olmamış, yalnız 3 yağəritmə və 4 dəri zavodu fəaliyyət göstərmişdir ki, onlar da yaşayış evlərində yerləşir və onların ümumi illik məhsulu 2000 manatdan çox deyil.

Beləliklə, hər üç şəhərdə “zavod” adlandırılan bu müəssisələrin illik məhsullarının həcminə və işçi qüvvəsinə, habelə texniki strukturuna nəzər yetirsək, belə bir qənaətə gəlmək mümkündür ki, XIX əsrin 70-ci illərində İrəvan bölgəsində zavod sənayesi mövcud olmamışdır. Məlumatlara gəlincə, onu qeyd etmək vacibdir

ki, quberniya statistikası kustar tipli istehsal müəssisəsini yanlış olaraq sənaye istehsalına aid edərək, beləliklə, elmi baxımdan zavod anlayışını təhrif edir.

Cədvəl 3.1.2

1864-cü il üçün İrəvan quberniyasında mövcud olmuş zavod və fabriklər haqqında məlumat[395,c.83]

| Sənaye müəssisələri | Zavodların sayı | Fəhlələrin sayı | Məhsullar (rublla) |
|---|---|---|---|
| Araq | 22 | 40 | 24400 |
| Dulusçu | 39 | 85 | 4000 |
| Şam | 14 | 46 | 15000 |
| Piy | 4 | 28 | 10.000 |
| Dəri | 55 | 126 | 25.000 |
| Boyaqçılıq | 4 | 95 | 29.000 |
| Kirəmit | 15 | 112 | 12.000 |
| Sabunbişirmə | 16 | 64 | 22700 |
| Yağəritmə | 227 | 700 | 90000 |
| Əhəng | 19 | 42 | 12000 |
| Cəmi: | 424 | 2672 | 403668 |

1864-cü ildə bölgədə fəaliyyət göstərən müəssisələrin onlarda işləyən fəhlələrin və istehsal etdikləri məhsulların sayına görə qruplaşdırmaqla, sənayenin real vəziyyəti haqqında təsəvvür əldə etmək mümkündür:

Cədvəl 3.1.3

| Sənaye müəssisələri | Müəssisələr | Fəhlələr | Bir müəssisəyə düşən fəhlə |
|---|---|---|---|
| Boyaqçılıq | 4 | 95 | 24 |
| Kirəmit | 15 | 112 | 7 |
| Piy | 4 | 28 | 7 |
| Sabunbişirmə | 16 | 64 | 4 |
| Şam | 14 | 46 | 3 |
| Yağəritmə | 227 | 17 | 3 |
| Dulusçu | 39 | 85 | 2 |
| Əhəng | 19 | 42 | 2 |
| Dəri | 55 | 126 | 2 |
| Araq | 22 | 40 | 2 |

Məhsulun mütləq dəyərinə görə isə bu müəssisələr aşağıdakı kimi sıralanır:

Cədvəl 3.1.4

| | |
|---|---|
| Yağəritmə | 90000 rubl. |
| Boyaqçılıq | 20000 rubl. |
| Şərabçılıq | 29000 rubl. |
| Dəri | 25000 rubl. |
| Sabunbişirmə | 22000 rubl. |
| Şam | 15000 rubl. |
| Əhəng | 12000 rubl. |
| Kirəmit | 12000 rubl. |
| Piy | 10000 rubl. |
| Dulusçu | 4000 rubl. |

Cədvəllərin məlumatlarından göründüyü kimi, orada işləyən fəhlələrin sayına görə bu və ya digər dərəcədə müstəqil kustar sənaye sahələri təsiri bağışlayan boyaqçılıq, kirəmit, şam və piy istehsalından başqa, yerdə qalan müəssisələr yalnız kənd təsərrüfatının köməkçi sahələri olmuşdur.

Həm müəssisələrin, həm də orada çalışan fəhlələrin sayına görə müəssisələr arasında ilk yerdə durmasına baxmayaraq, yağ istehsalı sahəsi başlıca olaraq kəndlərdə cəmləşərək mövsümi xarakter daşıyırdı. Çünki 400 rublluq məhsul istehsalı bütün il boyu müəssisənin işləməsi üçün kifayət edə bilməzdi. Bütün bu deyilənləri kirəmit, əhəng və digər sənaye sahələrinə də aid etmək olar.

Sənayenin vəziyyətini əks etdirən məlumatlar onu göstərir ki, XIX əsrin 70-ci illərində İrəvan bölgəsində kapitalist istehsal üsulunun mövcud olmaması şəraitində kənd təsərrüfatı ilə bağlı olan kustar istehsal geniş yayılmışdı. Kustar istehsalın həcmi onu deməyə əsas verir ki, əmtəə xarakteri daşıyan boyaqçılıq, şam və yağ istehsalı istisna olmaqla, digər sahələr istehsalçının öz tələbatının ödənməsinə yönəlmişdi. Bu isə bölgədə əmtəə münasibətlərinin zəif inkişaf etməsinin göstəricisi hesab oluna bilər.

XIX əsrin 70-ci illərində İrəvan bölgəsində fabrik-zavod sənayesinin mövcud olmamasını dövrün digər mənbələri də təsdiqləyir. Qafqazın iqtisadi vəziyyətinə həsr olunmuş "Qafqaz təqvimi"nin 1877-ci il buraxılışında İrəvan quberniyası ilə bağlı

qeyd edilir ki, burada zavod sənayesi yerli əhalinin ehtiyaclarını zorla ödəyir, zavodlardakı ustalar ev sahiblərinin özləri, fəhlələr isə ailə üzvləridir. Fəhlələrin sayının 2000 nəfərə yaxın, dövriyyə kapitalı isə 230 min rubl olan həmin müəssisələrdən 149-u heyvandarlıq məhsulları, 282-si bitki məhsulları, 85-i faydalı qazıntılar emal edir[311,c.14].

Artıq XIX əsrin ortalarında Rusiyada mövcud olan ictimai quruluşun iqtisadi inkişaf şəraitində yeni yaranmış şəraitə uyğun olmaması iqtisadi dəyişikliklərin zəruri olmasını açıq şəkildə ortaya qoydu. Rusiyada hökmran olan feodal münasibətləri şəraitində mövcud münasibətlərin əsaslarını sarsıdan və yeni ictimai münasibətlərin rüşeymlərini meydana gətirən iqtisadi münasibətlərin yaranmağa başlaması, əmtəə-pul münasibətlərinin inkişafı Rusiyanı kapitalizm yoluna istiqamətləndirdi.

Rusiyanın yeni inkişaf yoluna qədəm qoyması ilk növbədə, vaxtını keçirmiş qaydaların ləğvini tələb edirdi ki, bunlardan birincisi də heç şübhəsiz təhkimçilik hüququnun ləğvi idi.

Çarizm Rusiyanı şərq bazarları ilə birləşdirən körpü rolunu oynayan Cənubi Qafqazda da islahatlar keçirmək məcburiyyətində qaldı.

Cənubi Qafqazda islahatın keçirilməsi üçün ilk addım 1861-ci il 19 fevral qanunun verilməsindən sonra Cənubi Qafqaz Komitəsinin yaradılması oldu. Həmin qayda ilə yerli mülkədarlar tərəfindən qəza komitələri yaradıldı.

1864-cü ildə Gürcüstanın iki quberniyası üçün qanun dərc edildikdən iki il sonra Baş canişin idarəsi nəzdindəki kəndlilərin yerləşdirilməsi üzrə komitə Tiflis və Kutaisi quberniyaları haqqında yeni "Əsasnamə"yə və 1861-ci il 19 fevral ümumi kəndli qanununa uyğun olaraq ağalar və kəndlilərin qarşılıqlı münasibətləri haqqında 1847-ci il "Əsasnamə"lərinə yenidən baxmağa başladı.

İslahatı keçirməyə hazırlıq üçün Baş canişin idarəsi şurasının qəbul etdiyi qərarla 1866-cı il mayın 29-da Tiflis, Bakı, İrəvan və Şuşa şəhərində "bəy komissiyaları" adı altında müvəqqəti komissiyalar təsis edildi[349,c.3].

Mərkəzi Cənubi Qafqaz Komitəsi bu komissiyaların işini öyrəndikdən sonra 1870-ci il mayın 14-də Cənubi Qafqaz quberniyaları: Yelizavetpol, Bakı, İrəvan və qismən Tiflis quberniyaları ali müsəlman silkindən olan şəxslərin, habelə erməni

məliklərinin torpaqlarında sakin olan dövlət kəndliləri torpaq quruluşu haqqında "Əsasnamə"nin layihəsi təsdiq edildi. Qafqaz canişinin qərarına əsasən, "Əsasnamə" 1970-ci il noyabrın 8-də qüvvəyə mindi[96,л.2].

"Əsasnamə"nin ikinci maddəsinə görə, kəndli daimi istifadə üçün torpaq payı ala bilərdi, lakin həmin torpaq yenə mülkədarın mülkiyyətində qalırdı. Üçüncü maddəyə əsasən kəndli torpaqdan istifadə müqabilində mülkədarın xeyrinə müxtəlif mükəlləfiyyətlər yerinə yetirməli idi. Beləliklə, "Əsasnamə" pay torpaqlarının satın alana qədər daimi istifadə üçün kəndlilərin ixtiyarına verirdi. Bu torpaqlar mülkədar bəylərin mülkiyyətində qalırdı[285,c.239]. Kəndlilər yalnız pulunu ödədikdən sonra torpağın mülkiyyətçisinə çevrilə bilərdilər.

Beşinci maddəyə əsasən kəndli xüsusi ödənc müqabilində torpaq payını ala və onu öz mülkiyyətinə çevirə bilərdi.

Qanun torpaq payının ölçüsünü 15 yaşına çatmış hər bir şəxs üçün mülkədarın ümumi torpaq fondunun üçdə ikisini keçməmək şərti ilə 5 desyatin müəyyən etmişdi. Yəni, kəndlilərin istifadəsində olan torpaqlar vıkup edilməsi (ödənc verib mülkiyyətinə keçirməsi) üçün onların sərəncamına verildikdə, bu zaman mülkədarın şəxsi istifadəsində qalan torpaqlar onun ümumi əkinə yararlı torpaqlarının üçdə birindən azını təşkil edərdisə, bu zaman mülkədar kəndlilərin istifadəsində olan 15 yaşından yuxarı hər bir kişi cinsi üçün nəzərdə tutulan torpaqların 5 desyatindən artıq olan hissəsini kəsib götürə bilərdi.

1870-ci il "Əsasnaməsi"nin əsas fərqli cəhətlərindən birini kəndliyə öz torpağını icma daxilində, bağ və sənaye təyinatlı müəssisəni isə icma xaricində bu və ya digər şəxsə verməyə imkan yaratmasından ibarət idi. Beləliklə, icma daxilində və xaricində torpaqla bağlı alqı-satqı əməliyyatlarının həyata keçirilməsi üçün imkan yaranmış olurdu. Torpağın azad şəkildə bir şəxsdən digərinə keçməsinə imkan yaradan qanun eyni zamanda, indiyə qədər mövcud olan torpaqların vaxtaşırı bölünməsi qaydasını da aradan qaldırmış olurdu.

Rusiyada həyata keçirilən 1861-ci il 19 fevral islahatından fərqli olaraq, 1870-ci il 14 may qanunu kəndlilərin öz pay torpaqlarını məcburi şəkildə satın almasını müəyyən etməmişdi.Lakin bununla yanaşı, mülkədarların öz torpaqlarını ancaq öz

silklərindən olan adamlara satmaq hüququna malik olduqları feodalizm şəraitində kəndlilərə torpaq əldə etmək hüququnun verilməsi burjua xarakteri daşımaqla, feodalların torpaq üzərində silki inhisar hüquqlarına zərbə endirirdi.

Kəndlilərin əksəriyyəti öz pay torpaqlarını əldə etmək üçün tələb edilən vəsaitə malik olmasalar da, islahat torpağın əmtəəyə və digər müxtəlif iqtisadi mahiyyətli əməliyyatların obyektinə çevrilməsi istiqamətində mühüm rol oynadı.

İslahat dövründə İrəvan, Gümrü, Yeni Bəyazid qəzalarının bütövlükdə, Şərur-Dərələyəz qəzasının isə Dərələyəz sahəsinin daxil olduğu İrəvan bölgəsində aşağıdakı torpaq sahibliyi qrupları meydana gəldi: 1. Dövlət kəndliləri; 2. Mülkədar torpaqlarında yerləşən xüsusi sahibkar kəndliləri; 2. Məscid və kilsə-monastır torpaqlarının da daxil olduğu mülkədarlar.

İrəvan quberniyasında 50.000 təsərrüfatın malik olduğu torpaqların həcmi 708640 ha idi[380,c.276-322]. Bu hər təsərrüfata hər bir növdən ortalama 14,1 ha, əkinəyararlı sahələrdən isə 7 ha torpaq düşməsi anlamına gəlir. 7200 təsərrüfatdan ibarət olan sahibkar kəndliləri isə 42.520 ha torpağa malik idilər ki, onların da hər təsərrüfatına 6 ha torpaq düşürdü.

Mülkədar və monastır torpaq sahiblərinin birlikdə malik olduqları torpaqların həcmi 82265 ha idi. Ortalama götürdükdə onların bir təsərrüfatına 228 ha torpaq düşürdü.

Quberniyanın müxtəlif qəzaları üzrə dövlət kəndilərinin torpaqla təminatını əks etdirən məlumatları müqayisə etdikdə qiymətli bitkilərin yetişdirilməsi üçün əlverişli torpaqlara malik olan bölgələrdə onların torpaqla daha az təmin olunması faktı ilə qarşılaşırıq. Bu tip bölgələrdə kənd təsərrüfatı üçün yararlı olan torpaqların böyük bir qismi mülkədarların mülkiyyətində idi.

Mülkədar torpaqlarında məskunlaşan kəndlilərin torpaq təminatı haqqında məlumatlar onu deməyə əsas verir ki, 1870-ci il 14 may qanununun 15 yaşına çatmış hər bir kişi üçün 5 desyatin torpaq payı müəyyən etməsinə baxmayaraq, reallıqda sahibkar kəndlilərinin əldə etdiyi torpaq sahələri xeyli az idi. Bütün İrəvan quberniyası üzrə mövcud olan 7200 təsərrüfatdan ibarət olan sahibkar kəndlilərinin

hər bir təsərrüfatına bütün növlərdən olan 5,7 ha, əkinəyararlılarına isə, 4,13 ha torpaq düşürdü.

İrəvan bölgəsinə daxil olan ərazilərdə torpaq sahibliyi aşağıdakı kimi idi [395,c.125]:

Cədvəl 3.1.5

| Torpaq sahibliyi qrupları | Təsərrüfatların sayı | Onların xüsusi çəkisi | Torpaqların həcmi (ha) | Xüsusi çəkisi | Təsərrüfata düşən torpaq (ha) |
|---|---|---|---|---|---|
| Dövlət kəndliləri | 67504 | 82,35 | 924528 | 36,5 | 13,6 |
| Xüsusi torpaqlarda məskunlaşan kəndlilər | 13338 | 16,22 | 60793 | 2,3 | 4,7 |
| Xizanlar*** | 299 | 0,40 | - | - | - |
| Xüsusi torpaq sahibləri | 1101 | 1,03 | 228978 | 8,7 | 228 |
| Xəzinə | - | - | 1352236 | 52,5 | - |

Cədvəldə verilmiş məlumatlardan göründüyü kimi, İrəvan bölgəsi ərazisindəki həcmi 2,56 milyon ha olan yararlı torpaqlar ictimai təbəqələr arasında belə bölünmüşdü: kəndli təsərrüfatlarına – 985,200 ha və yaxud bütün torpaqların 38,8%-i, xüsusi sahibkarlara – 228978 ha və yaxud bütün torpaqların 8,7%-i. Ümumilikdə götürdükdə isə, 98,97% təşkil edən bütün kateqoriyadan olan kəndlilərə torpaqların cəmi 38,8%-i, mülkədar və ruhanilərə isə xəzinə ilə birlikdə 61,2%-i məxsus idi.

Yuxarıda gətirilən faktlardan göründüyü kimi, əslində kəndliləri torpaqla təmin etməməsinə və gözlənilən kəskin dəyişikliklərə gətirib çıxarmamasına baxmayaraq, 1870-ci il 14 may islahatı İrəvan bölgəsində kapitalist münasibətlərinin yaranmasına rəvac verdi. Kapitalist münasibətlərinin sonrakı inkişafı, kəndlilərin təbəqələşməsi prosesi ilə paralel şəkildə baş verdi.

Mənbələrin verdiyi məlumatlar belə bir qənaətə gəlməyə imkan verir ki, Cənubi Qafqazda, o cümlədən İrəvan bölgəsində kapitalist münasibətlərinin inkişafı

*** Gürcü dilində–sığınmışlar. Minqereliyada mülkədar torpaqlarında əbədi icarə və mükəlləfiyyətlərin dəyişməzliyi şərti ilə yaşayan kəndlilər belə adlanırdı.

xeyli dərəcədə ləng getmişdir. Rusiya nümunəsinə uyğun olaraq, cənubi Qafqazda islahatlar keçirilsə də, islahatdan sonrakı yaxın onilliklərdə bölgədəki iqtisadi həyat elə bir ciddi dəyişikliklərə məruz qalmamışdı. Bölgədə mövcud olan iqtisadi münasibətlərin dəyişiklikliyə uğraması Rusiyada kapitalizmin sürətli inkişafı ilə qırılmaz şəkildə bağlı olmuşdur.

Cənubi Qafqazın iqtisadi cəhətdən mənimsənilməsi, onun dünya ticarət dövriyyəsinə daxil edilməsi və rus fabrik mallarının satış bazarına çevrilməsi problemi islahatdan sonrakı dövrdə Rusiyanın iqtisadi siyasətinin başlıca məsələlərindən birinə çevrilmişdi. Artıq XIX əsrin 70-ci illərində rəsmi mətbuat, ayrı-ayrı tədqiqatçılar və şərhçilər Cənubi Qafqazın iqtisadi cəhətdən mənimsənilməsinin zəruriliyi məsələsini qoyurdular[313,c.45]. İnkişaf etməkdə olan kapitalizmin mənafeyi müdafiə olunaraq göstərilirdi ki, Cənubi Qafqaz bazarının mənimsəmədən İran bazarının da mənimsənilməsini həyata keçirmək olmaz[313,c.50-51].

Lakin bununla yanaşı, Rusiya kapital nümayəndələrinin bütün cəhdlərinə baxmayaraq, Cənubi Qafqazı satış və xammal bazasına çevirmək cəhdləri yalnız XIX əsrin 80-ci illərinin sonunda reallaşmağa başladı.

Cənubi Qafqazın iqtisadi cəhətdən mənimsənilməsi baxımından bölgənin tranzit əhəmiyyətinin artırılması, dəmir və şose yollarının cəkilməsi zəruri idi. Artıq XIX əsrin 50-ci illərinin sonundan etibarən Rusiyadan Cənubi Qafqaza yolların çəkilməsi məsələsi Rusiya hakim dairələrinin müzakirə mövzusuna çevrilmişdi. Regionda dəmir yol şəbəkəsinin yaradılması layihəsi ilə çıxış edən V.Zaqorski və Çerevin öz mülahizələrini belə əsaslandırırdılar: “Dəmir yolu bu diyarda bütün sahələrdə, o cümlədən ticarət baxımından radikal dəyişikliklərə gətirib çıxaracaq. O, sənayeni inkişaf etdirəcək, yerlilərə yeni, hələ onlar tərəfindən sınaqdan keçirilməmiş pul dövriyyəsi üsulunu göstərəcəkdir” [307,c.8].

Cənubi Qafqazda dəmir yollarının çəkilməsinin zəruriliyi hakim dairələrin iqtisadi, siyasi və hərbi-strateji maraqları ilə şərtlənirdi. Qafqaz canişini knyaz Baryatinskinin qeydlərindən məlum olur ki, dəmir yolu çəkilişi ilk növbədə, bir sıra məhsulların Cənubi Qafqazdan Rusiyaya gətirliməsi üçün çəkilən nəqliyyat xərclərin

azalmasına, Cənubi Qafqazın Qərblə Şərq arasında körpüyə çevrilməsinə səbəb ola bilərdi[307,c.10].

Göründüyü kimi, Cənubi Qafqazda dəmir yolu şəbəkəsinin yaradılması ilkin olaraq ticari-iqtisadi motivlərlə şərtlənirdi. Bu dövrdə çarizm öz qarşısına Cənubi Qafqazı dünya əmtəə dövriyyəsinə cəlb etmək, onun yerli xüsusiyyətlərini rus sənayesinin ehtiyaclarına uyğunlaşdırmaq və burada daxili bazar yaratmaq məqsədi qoymuşdu.

1861-ci ildə çar II Aleksandrın Cənubi Qafqazda dəmir yollarının çəkilməsi planını təsdiq etməsi ilə regionda müvafiq işlərə başlanıldı. Qara dəniz sahilindən–Potidən Tiflisə qədər olan xəttin tikintisi 1872-ci ildə başa çatdı. Bundan sonra Bakı-Tiflis istiqamətində başlayan işlər isə 1883-cü ildə başa çatdırıldı. Bu dövr ərzində Rion-Kutais, Bakı-Suraxanı-Sabunçu xətləri də çəkildi.

Tiflis-Poti və Tiflis-Bakı dəmir yollarının çəkilməsi ilə Cənubi Qafqazın dünya əmtəə dövriyyəsinə cəlb edilməsi, onun təbii sərvətlərinin istismarı üçün əsas yaradıldı, Qara dəniz və Xəzər dənizlərini birləşdirmək imkanı yarandı, Cənubi Rusiya ticarəti Qara dəniz vasitəsilə Cənubi Qafqazla əlaqələndirildi. Lakin bununla yanaşı, bu dəmir yol xətləri hələ də Cənubi Qafqazın şərq bölgələri ilə Rusiyanın əlaqəsi məsələsini həll etmədiyi kimi, İranın iqtisadi cəhətdən mənimsənilməsi məsləsini də açıq qoymuşdu.

Dəmir yollarının çəkilişi ilə eyni zamanda yeni şose yollarının çəkilməsi və köhnələrinin abadlaşdırılması məsələsinə də diqqət yetirilirdi. Hələ 1868-ci ildə Qafqaz canişini Cənubi Qafqaz quberniyalarının qubernatorlarından diyarda mövcud və çəkilməsi zəruri olan yollar haqqında məlumat tələb etmişdi. Qubernatorlardan daxil olan məlumatları nəzərdən keçirən xüsusi komissiyanın 1871-ci ildə qəbul etdiyi qərara əsasən, bütün mövcud və tikiləcək yollar ilk növbədə malik olduğu hərbi əhəmiyyətinə görə dövlət və iqtisadi əhəmiyyətli yollara bölündü. Üçüncü kateqoriyaya daxil olan yollar isə quberniya əhəmiyyətli yollar idi[395,c.148].

İrəvan bölgəsindən keçən yollardan Dilican-Gümrü qolu da daxil olmaqla Tiflis-İrəvan yolu dövlət əhəmiyyətli hesab edilirdi. Bu yola hərbi baxımdan xüsusi əhəmiyyət verən canişinlik onu tamamilə şose yoluna çevirməyi zəruri hesab edirdi.

Tiflis-Culfa tranzit yolu İrəvan vasitəsilə Tiflisi İranla əlaqələndirərək, onu bu ölkə ilə Cənubi Qafqaz arasında körpüyə çevirirdi. Bu yolun İrəvan bölgəsi üçün əhəmiyyəti olduqca böyük idi. Şosenin çəkilməsi ilə əlaqədar olaraq, Tiflis və İrəvan arasında yük daşımalarının 1 pud üçün qiyməti 45 qəpikdən 30 qəpiyə enmiş, eyni zamanda, daşımaların özünün ümumi həcmi nəzərəçarpacaq dərəcədə artmışdı.

İrəvan və Zəngəzurdan keçən Naxçıvan-Şuşa magistralı da böyük iqtisadi əhəmiyyətə malik idi. Kür və Araz vadilərini birləşdirən bu yol, Zəngəzuru bir tərəfdən İrəvanla, digər tərədən isə Bakı ilə birləşdirməklə, Bakı vasitəsilə İranın Rusiya ilə ticarət aparmasında mühüm faktor kimi çıxış edirdi. Lakin qeyd etmək lazımdır ki, bu yolun, xüsusilə onun Biçənək-Gorus sahəsinin tikintisi yarımçıq qaldığından gözlənilən əhəmiyyəti əldə edə bilmədi.

XIX əsrin 80-ci illərinin ortalarında Cənubi Qafqazda kifayət qədər yolların çəkilməsinə baxmayaraq, onlar diyarı Rusiya ilə birləşdirmədiyindən, Cənubi Qafqaz Rusiya üçün hələ də potensial olaraq qalırdı. Rusiya ilə Cənubi Qafqaz arasında əlaqələrin zəruriliyini bir daha göstərən 1877-1878-ci illər rus-türk müharibəsindən sonra bu məsələ yenidən gündəmə gəldi.

Bütün dəmir və şose yollarının tikintisi 1889-cu ildən xüsusi şəxslərdən tamamilə xəzinənin ixtiyarına keçdi. Həmin dövrdə tikintisi 1894-cü ildə başa çatan Petrovsk-Qroznı-Beslan dəmir yolunun inşasına başlandı. Bu yol tikintisi hələ 1875-ci ildə başa çatmış və məlum olduğu kimi, ümumrusiya dəmiryol şəbəkəsi ilə birləşmiş Rostov-Vladiqafqaz xətti ilə birləşdi.1900-cü ildə Petrovsk-Qroznı-Beslan xətti ilə birləşən Petrovsk-Dərbənd-Biləcəri dəmir yolu xəttinin inşası başa çatdı[377,c.431-456]. Bu dəmir yollarının inşası ilə Cənubi Qafqaz dəmir yolları xətlərinin ümumrusiya dəmiryol şəbəkəsinə birləşməsi işi başa çatdı.

XIX əsrin sonlarında Cənubi Qafqazda inşa edilmiş dəmir yollarından yalnız biri İrəvan bölgəsindən keçirdi. Bu yolun Tiflis-Gümrü-İrəvan magistral xətti 1902-ci, İrəvan-Uluxanlı-Culfa sahəsi isə 1908-ci ildə açılmışdı.

İrəvan bölgəsində dəmir yollarının iqtisadi əhəmiyyəti bölgənin xalq təsərrüfatı ilə yanaşı, onun həm beynəlxalq, həm də imperiyadaxili ticari əhəmiyyəti ilə şərtlənirdi.

Dəmir yolu tikintisinin həyata keçirilməsi və Cənubi Qafqazın ümumrusiya şəbəkəsinə qoşulması ilə diyarın iqtisadi cəhətdən mənimsənilməsi yolunda başlıca əngəllərdən biri aradan qalxmış oldu. Diyarın zəngin sərvətlərini istismar etmək imkanı qazanmış rus və xarici – İngilis, İsveç, Alman, Belçika və Fransız kapitalı buraya axışmağa başladı.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, rus, o cümlədən xarici kapital üçün Cənubi Qafqazın bütün hissələri eyni dərəcədə maraq kəsb etmirdi. Məsələn, bu dövrdə Abşeron yarımadası, o cümlədən mis, marqans və s. sənaye sahələri rus və xarici kapitalı cəlb etdiyi halda İrəvan bölgəsinə maraq demək olar ki, yox dərəcəsində idi. Bölgədə mis sənayesi mövcud olsa da, o, XIX əsrin sonuna qədər aşağı texniki və məhsuldarlıq göstəricisi kimi fəaliyyət göstərirdi. Uralda çoxdan möhkəmlənmiş rus kapitalını da bölgə cəlb etmirdi.

Beləliklə, deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, islahatdan sonrakı dövrdə kapitalizmin inkişafı İrəvan bölgəsində digər Cənubi Qafqaz quberniyalarına nisbətən olduqca zəif gedirdi. Statistik məlumatlar da irəli sürdüyümüz bu mülahizəni təsdiq etməkdədir. 1893-1894-cü illərin məlumatları göstərir ki, Tiflis quberniyasında sənayedə çalışan fəhlələrin xüsusi çəkisi 24,2%, ümumi məhsul istehsalı 7,4, Kutais quberniyasında 20% və 46,1%, Yelizavetpol quberniyasında 24,3% və 5 %, Bakı quberniyasında 14,9% və 38,8% idisə, İrəvan quberniyasında bu göstəricilər müvafiq olaraq 16,6% və 2,7% idi[395,c.158]. İrəvan bölgəsində mövcud olan sənaye müəssisələrinin sahəvi strukturuna və xarakterinə nəzər saldıqda məlum olur ki, mis sənayesi istisna olmaqla onlar yarımkustar xarakterli idilər: 2214 müəssisə dənüyütmə, 196 yağəritmə, 361 pambıqtəmizləmə, şərabçılıq və s.

İrəvan bölgəsində sənayenin zəif inkişaf etməsi şəhər əhalisinin artımında da özünü göstərirdi. Statistik məlumatlardan aydın olur ki, Bakı əhalisinin 1865-ci ildə 14.715 nəfərdən artaraq 1886-cı ildə 86.611 nəfərə, Yelizavetpol əhalisinin 15.051 nəfərdən 20.294 nəfərə, Tiflis əhalisinin 67.790 nəfərdən 76.445 nəfərə, Kutais əhalisinin 11.807 nəfərdən 22.643 nəfərə çatdığı halda, İrəvan şəhərində bu rəqəm müvafiq olaraq 14.070 və 17.738 olmuşdur[395,c.160].

Cənubi Qafqazda islahatdan sonrakı dövrdə həyata keçirilən tədbirlər İrəvan bölgəsinin təsərrüfat həyatında bir sıra mühüm dəyişikliklərə gətirib çıxardı. Bu dəyişikliklər özünü həm kənd təsərrüfatında, həm də sənayedə kapitalist münasibətlərinin inkişafında göstərirdi.

Kənd təsərrüfatında meydana gələn dəyişikliklərin mahiyyətini bu sahədə əmtəə münasibətlərinin hakim təzahürə çevrilməsi ilə müşayiət olunurdu. XIX əsrin sonlarına doğru artıq kənd təsərrüfatı tamamilə əmtəə xarakteri daşıyırdı.

Beləliklə, kapitalist münasibətlərinin inkişafının nəticəsi olaraq bölgədə kənd təsərrüfatı istehsalını tələb edən daxili bazar yaranmağa başladı. Digər tərəfdən, Cənubi Qafqazın kənd təsərrüfatı məhsullarına kəskin ehtiyac duyan rus sənayesinin tələbatı da kapitalist münasibətlərinin inkişafına rəvac verirdi. Bu tələbatı qarşılamaq üçün bölgədə kənd təsərrüfatının ixtisaslaşması tələb olunurdu ki, bu da ticarət əkinçiliyinin inkişafında özünü göstərdi. Məsələn, Ağrıdağ vadisində kənd təsərrüfatının ixtisaslaşması bir tərəfdən vadi daxilində, digər tərəfdən isə vadi ilə dağətəyi və dağlıq bölgələr arasında əmtəə dövriyyəsi üçün əlverişli şərait yaratdı. Bunun nəticəsində düzən rayonların pambıqçıları dənli bitkilər istehsal edən bölgələrin kəndliləri ilə ticarət əlaqələri qururdular. Bu sonuncu bölgələr isə öz növbəsində, ixtisaslaşmaya məruz qalırdılar. Beləliklə, bütün kənd təsərrüfatı kapitalist münasibətlərinə cəlb olunurdu.

İrəvan bölgəsində ticarət əkinçiliyinin meydana gəlməsində ilk ciddi stimul rolunu rus toxuculuq sənayesinin inkişafı və onun pambığa böyük tələbatı oynadı. Sonrakı dövrlərdə pambıqçılıqticarəti ilə bərabər,şərabçılıq da inkişaf etməyə başladı.

Bazarın tələbatına tabe olan yeni yaranmış bu münasibətlər istehsalçının həm satıcıya, həm də alıcıya çevrilməsinə səbəb oldu. Şərab, pambıq və üzüm istehsalçısının çörəyə olan tələbatı ticarət əkinçiliyinin daha da genişlənməsinə gətirib çıxardı. Müəyyən bölgədə hər hansı bir bitki üzrə ticarət əkinçiliyinin inkişafı, digər bölgələrin də kənd təsərrüfatının bu və ya digər sahəsi üzrə ixtisaslaşmasına da təsir göstərirdi.

İrəvan bölgəsində ticarət əkinçiliyinin erkən inkişaf etdiyi sahələrdən biri pambıqçılıq olmuşdur. İslahatdan sonrakı dövrdə rus toxuculuq sənayesi olduqca

coşqun inkişaf dövrü keçirirdi. XIX əsrin 70-ci illərindən başlayaraq 80-ci illərin sonuna qədər Rusiyada pambığın digər kapitalist ölkələri ilə müqayisədə satış həcminin olduqca böyük olması toxuculuq sənayesinin yüksək inkişafının göstəricisi idi. Statistik məlumatlardan aydın olur ki, 1869-cu ildən 1883-cü ilədək olan dövrdə İsveç 28 tay, Almaniya 437 tay, Hollandiya 30 tay, Belçika 65 tay, Fransa 104 tay, İspaniya 112 tay, İtaliya 105 tay, Avstriya 185 tay, Rusiya isə 417 tay pambıq sərf etmişdi[390,c.636].

Qeyd etmək lazımdır ki, rus toxuculuq sənayesi həmin dövrdə xammal baxımından tamamilə idxaldan asılı idi. Statistik məlumatlar göstərir ki, Rusiya 1869-cu ilə 3.379 min, 1883-cü ildə isə 9.184 min pud pambıq və iplik idxal etmişdi[392,c.253].

Xammal baxımından tamamilə xarici bazardan asılı olan Rusiya xüsusilə 1862-ci ildə onun əsas pambıq tədarükçüsü hesab olunan ABŞ-da vətəndaş müharibəsi baş verdiyi zaman xammal qıtlığı ilə üzləşdi. Bu hadisə Rusiyanı özünün xammal bazasını yaratmaq üçün konkret əməli addımlar atmağa sövq etdi.

XIX əsrin 60-cı illərində Rusiyada baş vermiş xammal böhranına qədər hakim dairələrin Cənubi Qafqazda pambıqçılığı inkişaf etdirmək üçün həyata keçirdiyi hər hansı tədbirə rast gəlinmir. Sonrakı dövrlərdə isə “Qafqaz kənd təsərrüfatı cəmiyyəti” maraqlı tərəflərlə birlikdə əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın artırılması istiqamətində addımlar atmağa başladı. Bu tədbirlərdən ən mühümləri yerli pambıq sortunun Amerika sortu ilə əvəz edilməsi, təcrübə stansiyasının açılması, pambıqçılıqla bağlı broşuraların nəşr edilməsi, amerikalıların təcrübəsini öyrənmək məqsədi ilə mütəxəssislərin Amerikaya ezam edilməsi və s. idi. İrəvanda keçmiş sərdar bağında nümunəvi təcrübə pambıqçılıq stansiyasının təsis edilməsi də bu dövrə aid idi.

Beləliklə, XIX əsrin 70-ci illərində İrəvan bölgəsinin düzən ərazilərinin kənd təsərrüfatının rus toxuculuq sənayesinin möhkəm xammal bazasının yaradılması məqsədilə pambıqçılıq istiqamətində ixtisaslaşması zərurətə çevrilmişdi. Bütün bunların nəticəsində İrəvan quberniyasında pambıq istehsalı yüksək templə inkişaf edərək, bir onillikdə (1861-1870) 9 dəfə artmışdı[355,c.11].

İrəvan bölgəsində pambıqçılığın inkişafı ticarət firmalarının pambıq almaq və Rusiyaya göndərmək üçün buraya öz təmsilçilərini göndərməsi ilə müşayiət olunurdu.

1884-cü ildə S.Morozov və Nikolskinin firması İrəvana Amerika pambıq toxumu göndərdi. 1886-cı ildə isə Yoroslavldan A.Korzikin bölgənin müxtəlif yerlərində pambıq alışı məntəqələri təşkil etdi. Onların ardınca Moskvadan Vladimirov-Alekseyevin, Lodzdan Poznan firması, Tiflisdən Çitaxovun, Moskvadan tacir Gevorkoyanların firmaları bölgədə təmsil olundular[355,c.11-18]. Bölgədə təmsil olunan müxtəlif firmalar arasında mövcud olan rəqabət pambıqçılığın daha da sürətlə inkişaf etməsinə rəvac verdiyini statistik məlumatlar da təsdiq edir. Məlumatlardan görünür ki, əgər bölgədə 1887-ci ildə 326.048 pud pambıq istehsal edildiyi halda, bu rəqəm 1889-cu ildə artıq 508.764 puda çatmışdı[355,c.18]. Əkin sahələrinin və istehsal edilən məhsulun həcmi ilə yanaşı, məhsuldarlığın da artması müşaiyət olunurdu. Məlumatlara görə, İrəvan quberniyasında hər desyatindən 15 pud pambıq götürülürdü[390,c.636].

Qeyd etmək lazımdır ki, həmin dövrdə bütün Cənubi Qafqazda pambıq əkin sahələri genişlənirdi. Bu hal ABŞ-la ticarət müqaviləsinin dayandırılması nəticəsində pambığın qiymətinin artması ilə izah edilə bilər.

Pambıqçılıq kimi əməktutumlu sahə çoxsaylı işçi qüvvəsi tələb etdiyindən, burada muzdlu əməyin tətbiqi heç bir şübhə doğurmur. Muzdlu əmək əsasən məhsul yığımı zamanı tətbiq olunurdu. Pambıq yığımı mövsümündə dağlardan və şimal qəzalarından, başlıca olaraq Gümrüdən, Eçmiədzin qəzasının yuxarı kəndlərindən və Yeni Bəyaziddən Ağrıdağ vadisinə qazanc üçün çox sayda qadın və kişi gəlirdi. Pambıq yığımı ağır zəhmət tələb edən iş olsa da, iş müqabilində verilən əməkhaqqı 20 qəpiyi aşmırdı.

İrəvan bölgəsində istehsal olunan, onun hüdudlarından kənara ixrac edilən və tamamilə ticari xarakter daşıyan pambıq ticarət firmaları və pambıq alışı məntəqələri tərəfindən çoxsaylı alverçilər vasitəsilə əldə olunurdu.

Öz məhsulunu alıcılara verməzdən əvvəl, kəndli onu təmizləməli idi. Pambıqçıların hamısı şəxsi pambıqtəmizləmə müəssisələrinə malik olmadıqlarından,

pambığın təmizlənməsi varlı təsərrüfatlara məxsus olan müəssisələr tərəfindən həyata keçirilirdi. Çox zaman həmin müəssisələrin sahibləri özləri pambığı kəndlidən alır, təmizləyərək ticarət firmalarına satırdılar. İrəvan quberniyasında belə kiçik və orta pambıqtəmizləmə zavodlarının sayı 360-a çatırdı[395,c.213].

İrəvan bölgəsində üzümçülük də islahatdan sonrakı dövrdə artıq kapitalist inkişaf yoluna qədəm qoymuşdu. Ticarət üzümçülüyü əsasən İrəvan və Eçmiədzin qəzalarında geniş yayılmışdı.

İrəvan qəzasının 221 kəndindən torpaq-iqlim şərtlərindən asılı olaraq yalnız vadidə yerləşən 71 kənddə üzümçülüklə məşğul olmaq mümkün idi. Statistik məlumatların təhlili göstərir ki, 1886-cı ildə 5.428 təsərrüfatdan ibarət olan həmin 71 kəndin və əhalisinin 29,9 %-i üzüm bağına malik deyildi, əhalinin 51%-i isə cəmi 0,5 desyatin bağ sahəsinə malik idi. Əhalinin 73%-ni təşkil edən birinci iki qrup cəmi 693 desyatin üzüm bağına, yaxud bütün qəzanın üzüm sahələrinin 30%-nə sahiblik edirdi[395,c.214].

Buradan göründüyü kimi, qəzanın üzüm bağları bir qayda olaraq imkanlı qrupların əlində cəmlənmişdi. Məhz buna görə də varlı şəxslərin əlində cəmlənmiş üzümçülük ticari xarakter daşımalı idi. Bağçılığın göstərilən xarakteri qəzanın ixtisaslaşmış kəndlərinin simasında da özünü büruzə verirdi. Statistik məlumatlar göstərir ki, qəzada ixtisaslaşmış 11 belə kənd olmuşdur[379,c.35]. Məlumatlardan aydın görünür ki, bu 11 kənddə qəzanın bütün üzüm sahələrinin 42,53%-i cəmlənmişdi.

İki və daha çox desyatin üzüm bağına sahib olan şəxslər kənd varlılarını təmsil edirdilər. Təsərrüfatların ümumi sayında onların xüsusi çəkisinin 9,6% təşkil etməsinə baxmayaraq, bu təsəsrrüfatlar öz əllərində 374 desyatin üzüm bağı, başqa sözlə bütün üzüm bağlarının 39,7%-ni cəmləşdirmişdilər.

İrəvan bölgəsində üzümçülüyün varlı şəxslərin əlində cəmlənməsi onun ticari xarakteri ilə yanaşı, həm də digər kənd təsərrüfatı sahələrindən fərqli olaraq, xeyli kapital qoyuluşu tələb etməsi ilə də şərtlənirdi. Hesablamalara görə, hər desyatin üzüm bağı becərilmənin ilk üç ilində 200 rubl məbləğində davamlı sərmayə tələb edirdi. Buna görə də üzümçülüklə daha çox varlı təsərrüfatlar məşğul ola bilirdilər.

İslahatdan sonrakı dövrdə İrəvan bölgəsində, xüsusilə XIX əsrin sonu, XX əsrin əvvəllərində üzümün texniki emalı geniş inkişaf etmişdi. Şərabçılığın əvvəlki dövrlərdə də bu və ya digər dərəcədə inkişaf etməsinə baxmayaraq, şəraba olan cüzi tələbat onun texniki emalına imkan yaratmırdı. Üzümün texniki emalının aşağı səviyyədə olması həm də erməni müəllifi O.Tumanyanın da etiraf etdiyi kimi, üzümçülük bölgələrində müsəlman əhalisinin xüsusi çəkiyə malik olması ilə şərtlənirdi[395,c.222].

XIX əsrin ikinci yarısında bir tərəfdən kənd təsərrüfatının ixtisaslaşması, digər tərəfdən isə məhsulun həm daxili, həm də xarici bazarda realizə olunması imkanının meydana gəlməsi nəticəsində vəziyyət dəyişdi. Bununla əlaqədar olaraq üzümün realizə edilməsinin forma və şərtlərinin dəyişməsi müsəlman əhalinin də bu prosesə cəlb olunmasına rəvac verdi.

Əvvəlki dövrdə İrəvan bölgəsində üzümün emalı şərabçılıqla məhdudlaşırdı, sonrakı dövrlərdə isə araqçəkmə və konyak istehsalı inkişaf etdi.

Bölgədə şərabçılıqla primitiv şəkildə məşğul olan “müəssisələrlə” yanaşı, tədricən zavodlar meydana gəlməyə və təkmilləşməyə başladı. Məsələn, artıq XIX əsrin ikinci yarısında İrəvanda 4 belə zavod fəaliyyət göstərirdi. XIX əsrin 90-cı illərində İrəvan bölgəsində şərab istehsalının iki dəfə artması müşaiyət olunurdu. Əgər İrəvan quberniyasında 1895-ci ildə 588.000 vedrə şərab istehsal olunmuşdusa, bu rəqəm 1900-cü ildə 1.180.000 vedrəyə çatmışdı[379,c.77].

Şərabçılığın yüksək inkişaf etməsinin səbəbi təzə üzümün realizəsindən fərqli olaraq onun müqayisə olunmayacaq şəkildə gəlirli olması ilə izah edilir.

Şərabçılıqdan fərqli olaraq daha asan satılması və başa gəlməsi səbəbindən araqçəkmə daha da geniş inkişaf etmişdi. İrəvan quberniyasında 1864-cü ildə 22 qeyri-təkmil araqçəkmə müəssisəsi var idisə, artıq 1888-ci ildə quberniyada bu müəssisələrin sayı 223 idi[379,c.112].

Quberniya ərazisində fəaliyyət göstərən iri zavodların ümumi spirt istehsalında xüsusi çəkisi XIX əsrin 90-cı illərində cəmi 5-6% təşkil edirdi[379,c.112]. Buradan açıq-aydın görünür ki, araq əsasən qeyri-təkmil müəssisələrdə istehsal olunurdu.

Bölgədə istehsal olunan spirtin böyük bir hissəsinin qeyri-təkmil müəssisələrin payına düşməsinin səbəbi ölkədə qüvvədə olan aksiz qanunvericiliyindən (1887-ci il 15 iyun) irəli gəlirdi. Həmin qanuna əsasən, araq zavodları iki qismə - sənaye və qeyri-təkmil müəssisələrə bölünmüşdü ki, sonuncular böyük imtiyazlara sahib idilər.

Beləliklə, göründüyü kimi, XIX əsrin ikinci yarısından etibarən İrəvan bölgəsində kənd təsərrüfatının inkişafı yeni şəkil almağa başladı. Daxili bazarın genişlənməsinin və Rusiyada kapitalizmin sürətli inkişafının təsiri altında düzən bölgələrdə kənd təsərrüfatının başlıca olaraq, pambıqçılıq və üzümçülük istiqamətində ixtisaslaşması prosesi getmişdir. Pambıqçılıq və üzümçülük məhsullarının böyük bir hissəsi daxili və xarici bazarda alqı-satqı predmetinə çevrilmişdir.

Ticarət əkinçiliyinin inkişafı şəraitində bölgənin bir tərəfdən Cənubi Qafqazın digər hissələri, digər tərəfdən isə Rusiya ilə işgüzar ticarət əlaqələri yaranmış və inkişaf etmişdi. İrəvan bölgəsinin kənd təsərrüfatında məhz bu dövrdə ticarət kapitalı qismində əhəmiyyətli kənd təsərrüfatı məhsullarını xammal və yarımfabrikat şəklində alan rus kapitalı təmsil olunmağa başlamışdı.

İrəvan bölgəsində kənd təsərrüfatının ixtisaslaşması ayrı-ayrı bölgələr arasında ticarət əlaqələrinin və mal dövriyyəsinin yaranmasına, inkişaf etməsinə təsir göstərən başlıca amil kimi çıxış etmişdir. Ticarət əkinçiliyinin inkişaf etdiyi bölgələrdə kənd təsərrüfatı texnikası da dəyişikliyə məruz qalmışdır. Bu bölgələrdə ekstensiv kənd təsərrüfatından intensiv sistemə keçid baş vermişdir.

Kapitalizmin inkişafı islahatdan sonrakı dövrdə özünü sənayedə də göstərməyə başladı.

XIX əsrin 80-ci illərinə qədər Rusiya ilə dəmir yolları şəbəkələri vasitəsilə əlaqələrinin olmaması və Rusiyanın maraqlandıran sənaye sahələri üçün bölgədə zəruri xammalın yoxluğu səbəbindən İrəvan bölgəsində iri sənaye sahələri mövcud deyildi. Bölgədə dağ-mədən sənayesinin inkişafı üçün münbit şərait olsa da, bu sahə göstərilən dövrdə rus kapitalı üçün xüsusi maraq kəsb etmirdi.

İrəvan bölgəsinin dəmir yolu şəbəkəsi vasitəsilə Rusiya ilə birləşməsi və Rusiyanın öz iqtisadi inkişaf tələbatından çıxış edərək xarici kapitalın köməyi ilə

burada iri sənayenin inkişafı üçün imkan yaratması XIX əsrin sonlarından etibarən bu sahənin inkişafına gətirib çıxardı. Göstərilən dövrdə İrəvan bölgəsində mis, şərab, konyak sənayesi kifayət qədər sürətlə, pambıqtəmizləmə sənayesi isə nisbətən zəif inkişaf etmişdi.

Bəhs olunan dövrdə İrəvan bölgəsində mis sənayesi xeyli dərəcədə inkişaf etsə də, Qafqazda emal olunan misin böyük bir hissəsi Azərbaycanın digər bölgəsinin – Gədəbəyin payına düşürdü.

XIX əsrin sonlarında Rusiyanın misə ehtiyacının böyük olmasına baxmayaraq, İrəvan bölgəsində bu sənaye sahəsinin ləng inkişaf etməsini statistik göstəricilər də sübut edir. 1880-1890-cı illərdə bölgədə fəaliyyət göstərən mis zavodlarının istehsal etdiyi məhsullar aşağıdakı cədvəldə göstərilmişdir[314,c.192-195;315, c.135;316,c.96;318,c.65;319,c.225]:

Cədvəl 3.1.6

| № | Zavodlar | Mis əridilməsi (pudla) | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1880 | 1885 | 1886 | 1888 | 1889 | 1890 |
| 1 | Alaverd | 1081 | 9053 | 2318 | 1840 | 1300 | - |
| 2 | Şamlıq | - | 179 | - | 76 | - | - |
| 3 | Dilican | 180 | - | - | 877 | 315 | 196 |
| 4 | Alidzor | 815 | 1800 | 583 | 3109 | 6570 | 3730 |
| 5 | Uğurçay | 1445 | 1751 | 3660 | 7943 | 5100 | 3357 |
| 6 | Qatar | 751 | 405 | 1987 | 8951 | 11183 | 14605 |
| 7 | Sisamadan | - | - | - | - | - | 505 |
| Yekun | | 4269 | 7228 | 8548 | 22801 | 23568 | 22493 |

Göründüyü kimi, bölgədə mövcud olan misəritmə zavodlarının inkişafında qeyri-bərabərlik müşahidə olunurdu. Məsələn, Alaverd, Şamlıq, Dilican zavodlarının istehsalında cüzi yüksəliş olduğu və sonrakı dövrlərdə hətta tənəzzül baş verdiyi halda, Alidzor, Uğurçay və Qatar zavodları öz istehsal etdikləri məhsulun həcmini nəzərəçarpacaq dərəcədə artırmışdılar.

Statistik məlumatlardan görünür ki, İrəvan bölgəsində fəaliyyət göstərən zavodlar Gədəbəy mis zavodu ilə rəqabət aparmaq qabiliyyətində deyildilər. Gədəbəy mis zavodu 1880-ci ildə 30.517, 1885-ci ildə 73.817, 1886-cı ildə 85.000, 1888-ci

ildə 66.800, 1889-cu ildə 63.000, 1890-cı ildə 112.500 pud mis istehsal etmişdi[314,c.192-195;315,c.135;316,c.96;318,c.65;319,c.225] ki, bu da İrəvan bölgəsində fəaliyyət göstərən bütün zavodların birgə istehsal etdiyi misdən bir neçə dəfə çox idi.

XIX əsrin 90-cı illərində Rusiya, Qərbi Avropa və ABŞ-da sənayenin yeni yüksəlişi ilə mis sənayesinin vəziyyətində də mühüm dəyişikliklər baş verdi. Həmin dövrdən etibarən Rusiya dağ-mədən sənayesinə xarici kapitalın sürətli axını başladı. İrəvan bölgəsində fəaliyyət göstərən mis sənayesi fransız kapitalının diqqətini cəlb edirdi. Fransız kapitalistlərinin əsasən Alaverd və Axta zavodlarına qoyduqları sərmayə nəticəsində burada mis emalının yeni texnologiyası tətbiq edilməyə başladı. Lakin Alaverd mis zavodunda yanacağa olan tələbat onun işinin genişləndirilməsinə imkan vermirdi. Buna görə də fransız şirkəti 1899-cu ildə öz mövqeyini "Qafqaz Sənaye və Metallurgiya Şirkəti"nə güzəştə getməyə məcbur oldu. Məhz bu şirkətin fəaliyyəti dövründə Alaverd mis zavodu bütün fəaliyyəti dövründə heç bir zaman keçirmədiyi yüksəliş dövrünə qədəm qoydu. Təkcə onu qeyd etmək kifayətdir ki, 1852-1899-cu illərdə cəmi 188,6 min ton məhsul istehsal edən zavod yalnız 1909-cu ildə Şamlıq zavodu ilə birlikdə 183,1 min ton mis istehsal etmişdi[287,c.4-5]. Bu cür yüksəlişə həm də "Qafqaz Sənaye və Metallurgiya Şirkəti"nin burada fəaliyyətə başladığı dövrün Tiflis-Gümrü dəmir yol xəttinin çəkilişinin başa çatmasının üst-üstə düşməsi də səbəb olmuşdu.

İrəvan bölgəsində mis sənayesinin 1900-1906-cı illər ərzində inkişaf dinamikası aşağıdakı kimi olmuşdur:[324,c.56;325,c.51;326,c.61;327,c.52].

Cədvəl 3.1.7

| № | Zavodlar | Mis əridilməsi (min pudla) | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1900 | 1901 | 1902 | 1903 | 1906 |
| 1 | Alaverd | 19,7 | 59,8 | 57,05 | 75,4 | 84,5 |
| 2 | Şamlıq | - | - | - | - | - |
| 3 | Alidzor | 3,3 | 4,6 | 3 | 5,8 | 1,23 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 4 | Uğurçay | 5 | 8,7 | 10,60 | 13,7 | 25,79 |
| 5 | Qatar | 1,06 | 1.00 | - | - | 1,55 |
| 6 | Sünik | 38,84 | 41,82 | 42,16 | 45,6 | 27,120 |
| Yekun | | 64,6 | 115,92 | 112,1 | 140,5 | 140,19 |

Cədvəldən göründüyü kimi, cəmi 6 il ərzində bölgənin mis sənayesində ümumi istehsal 75,59 min ton artmışdı. Bu artımın əsas səbəblərində biri həmin dövrdən həm Rusiyada, həm də xaricdə elektrik sənayesinin inkişafı ilə bağlı misə olan tələbatın artması ilə şərtlənirdi. Əgər Rusiya sənayesinin misə olan tələbatı 1909-cu ildə 1.275 min pud olmuşdusa, bu rəqəm 1913-cü ildə artıq 1.118,8 pud təşkil edirdi[406,c.64].

Statistik məlumatlardan görünür ki, artıq XX əsrin əvvəllərində “Simens qardaşları” şirkəti Qafqaz mis sənayesində əvvəlki mövqelərini yavaş-yavaş itirirdi. Bu, 1908-1913-cü illərdə Qafqazda fəaliyyət göstərən sahibkarların istehsal etdikləri misin həcmini bildirən məlumatlardan da görünür:[279,c.32]

Cədvəl 3.1.8

| № | Zavodvə şirkətlər | Mis əridilməsi (min pudla) | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1908 | 1909 | 1910 | 1911 | 1912 | 1913 |
| 1 | “Simens qardaşları” | 85,5 | 89,3 | 95,4 | 96,2 | 89 | 78,9 |
| 2 | “Qafqaz Sənaye və Metallurgiya Şirkəti” | 116,2 | 183 | 196 | 220,3 | 233,6 | 231,5 |
| 3 | “Qafqaz Mis Sənayesi Yoldaşlığı” | 25,6 | 48,7 | 103,1 | 236,7 | 289,5 | 203,1 |
| 4 | Məlik-Azaryans | 47,1 | 56,1 | 52,2 | 34,8 | 34,4 | 58,1 |
| 5 | Kundurov qardaşları | 17,3 | 24.6 | 22,5 | 16,3 | 33,8 | 44,5 |
| 6 | Digər zavodlar | 8,7 | 3 | 3 | - | 14,7 | 3,3 |
| Yekun | | 300,3 | 404,6 | 471,3 | 403,3 | 595 | 619,4 |

Əgər cədvəldə verilmiş məlumatlardan İrəvan bölgəsinə aid olan göstəriciləri ayırsaq, onda məlum olur ki, həmin dövrdə Qafqazda istehsal edilən misin böyük bir hissəsi: 1908-ci ildə 63,3%-i, 1913-cü ildə isə 53%-i İrəvan bölgəsinin payına düşürdü.

Bölgədə mis sənayesinin inkişafı elektrikləşmə, maşınlardan istifadə kimi yeni təzahürləri meydana gətirir, iqtisadi inkişafın təmin edilməsində əhəmiyyətli rol oynayırdı.

XX əsrin əvvələrində bölgənin içki istehsalı sənayesində də mühüm dəyişikliklər baş verdi. Kiçik müəssisələrin aradan qalxması hesabına bu sahədə təmərküzləşmə prosesi gedirdi. Əgər 1896-cı ildə bölgədə istehsal edilən spirtin yalnız 5,1%-i iri zavodların payına düşürdüsə, bu rəqəm müvafiq olaraq 1902-ci ildə 22,8%, 1903-cü ildə 20,2%, 1904-cü ildə 35%, 1905-ci ildə, 43,1%, 1906-cı ildə 35,1%, 1908-ci ildə 37%, 1909-cu ildə 39%, 1910-cu ildə 46%, 1911-ci ildə 47,4%, 1912-ci ildə isə 60,3% olmuşdur[379,c.112;345, c.170-171;346, c.191-193].

Statistik məlumatlar nəticəsində belə bir qənaətə gəlmək mümkündür ki, 1909-1913-cü illərdə spirt və konyak istehsalına görə İrəvan bölgəsi Cənubi Qafqazda birinci yerdə dururdu. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür:[345, c.170-171;346, c.191-193].

Cədvəl 3.1.9

| № | İllər | Cənubi Qafqazda (dərəcə ilə) | | İrəvan bölgəsində (dərəcə ilə) | |
|---|---|---|---|---|---|
| | | Spirt istehsalı | Konyak istehsalı | Spirt istehsalı | Konyak istehsalı |
| 1 | 1909 | 35,063 | 5,718 | 12,525 | 4,776 |
| 2 | 1910 | 28,008 | 4,800 | 9,981 | 4,167 |
| 3 | 1911 | 35,751 | 8,518 | 15,184 | 6,799 |
| 4 | 1912 | 29,991 | 7,747 | 10,488 | 5,390 |
| 5 | 1913 | 43,586 | 9.986 | 16,606 | 7,248 |

Ticarət əkinçiliyinin inkişafı ilə əlaqədar olaraq, İrəvan bölgəsində pambıqtəmizləmə sənayesi də müəyyən inkişaf yoluna qədəm qoymuşdur. 1901-ci ildə bölgənin pambıqçılıq rayonlarında 335 pambıqtəmizləmə müəssisəsi fəaliyyət göstərirdi. Məlumatlara görə 108 zavod kerosin, 43 zavod buxar mühərriki,153 zavod su enerjisi, digərləri isə at qüvvəsi hesabına işləyirdi[387]. Bu zavodların yalnız 4%-i istehsal qüvvəsinə görə nisbətən iri sayıla bilərdilər; onlar bir gün ərzində 500 pud pambıq təmizləmək gücündə idilər, 16%-i 500 puda qədər pambıq təmizləyə bilərdi, digərləri isə kiçik olduqları üçün yalnız 200 pud pambıq təmizləmək iqtidarında idi.

İrəvan şəhərində fəaliyyət göstərən yeganə iri zavod gündə 1000 puddan çox pambıq təmizləmək kimi istehsal gücünə malik idi.

Bölgədə mövcud olan müəssisələrdən İrəvan şəhərində fəaliyyət göstərən iki dəri və bir mexaniki zavodu qeyd etmək olar. Ümumilikdə isə, XIX əsrin sonunda bölgədə iri sənaye istehsalını təmsil edən cəmi 15 müəssisə fəaliyyət göstərirdi. Bu müəssisələrdə kapital qoyuluşu 3 milyon rubl təşkil edirdi ki, orta hesabla onların hər birinə 200.000 rubl düşürdü. Kapitalın strukturu isə belə idi: 61,5% əsas, 38,5% dövriyyə kapitalı.

XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan bölgəsində sənayenin inkişaf prosesini təhlil edərək belə bir qənaətə gəlmək olar ki, göstərilən vəziyyətin yaranmasına XIX əsrin sonuna qədər sənayeyə nə xarici, nə də rus kapitalının geniş miqyasda cəlb edilməməsi səbəb olmuşdur. Burada mövcud olan müəssisələri ölçülərinə, fəhlələrin sayına və sərmayəsinə görə kiçik müəssisələr hesab etmək olar.

Gətirilən faktların təhlili nəticəsində belə bir qənaətə gəlmək mümkündür ki, bölgə sənayesi XIX əsrin sonuna qədər iki başlıca sahə: mis emalı və şərab-konyak istehsalı ilə məhdudlaşırdı. Lakin hər iki sahədə texnoloji yeniliklər olduqca ləng gedirdi.

Qeyd etmək lazımdır ki, bölgədə ictimai əmək bölgüsü kifayət qədər inkişaf etmədiyindən, mövcud sahələrin bazasında yeni istehsal sahələri də yarana bilmirdi. Sənaye istehsalının bu şəkildə geri qalmasının başlıca səbəblərindən biri, şübhəsiz çarizmin ucqarların inkişafına mane olan müstəmləkəçilik siyasəti idi. Bütün bunların nəticəsi idi ki, mis emalı kimi mühüm sənaye sahəsində texnika XIX əsrin 90-cı illərinin sonuna qədər bir heç bir dəyişikliyə məruz qalmamışdı. Bir çox sənaye sahələri isə adi manufaktura emalatxanalarından olduqca az fərqlənirdi.

İrəvan bölgəsinin sənayesində rus kapitalının rolu XIX əsrin sonuna qədər demək olar ki, sıfıra bərabər idi. Rus kapitalı yalnız XX əsrin əvvəllərindən etibarən şərab-konyak istehsalı sənayesinə nüfuz etməyə başlamışdı.

Xarici kapitalın rus kapitalından əvvəl bölgə iqtisadiyyatına nüfuz etməsinə baxmayaraq, o burada yalnız mis sənayesində təmsil olunmaqla kifayətlənirdi. Rəqibi

olmayan xarici kapitalistlər sənaye texnikasının inkişaf etdirilməsinin qayğısına qalmırdılar.

Yuxarıda göstərdiyimiz şərtlər daxilində İrəvan bölgəsinin sənayesi birləşmə və təmərküzləşmə yolu ilə deyil, ilkin müəssisələrin genişlənməsi hesabına inkişaf edirdi. Sənayenin eksterritorial xarakteri kapitalın təmərküzləşməsinə əngəl törədirdi. Sənayenin ümumi inkişafı hələ təmərküzləşmə və inhisarların yaranması səviyyəsinə çatmamışdı.

## 3.2. Əhalinin sosial-iqtisadi vəziyyəti

Azərbaycanın başqa xanlıqlarında olduğu kimi, İrəvan xanlığının iqtisadiyyatında torpaq üzərində mülkiyyət əsas əhəmiyyət daşıyır, onun başlıca sahəsini heyvandarlıq və əkinçilik təşkil edirdi. Digər xanlıqlar kimi, İrəvan xanlığında da mövcud olan torpaq mülkiyyəti formaları rus işğalına qədər varlığını sürdürmüşdür.

Xanlıqda mövcud olan torpaq mülkiyyət növlərinin hamısı – divan, mülk, xalisə, vəqf feodalların ixtiyarında idi. Yalnız "camaat" torpaqları istisna idi[356,c.72]. İcmalara məxsus olan torpaqlar həm az, həm də becərilmək üçün yarasız olduğundan, "camaat" torpaqlarının payı ümumi iqtisadi inkişafda cüzi idi. Feodallar münbit torpaqları öz əllərinə keçirərək, kəndlilərə əkin – biçin üçün yararsız olan dağlıq yerlərdə sahələr ayırırdılar. İrəvan xanlığında torpaq sarıdan korluq çəkən kəndlilər feodalların torpaqlarında işləməyə məcbur olurdular: onlar torpağı becərir, əkir, məhsulunu yığır, feodallar üçün odun qırır, onu lazımi yerlərə daşıyır və qış üçün ehtiyat hazırlayırdılar. Kəndlilər onlara verilən hər qarış torpağı təbiətlə mübarizə şəraitində becərməli olurdular[157,s.52-53].

İrəvan xanlığında feodal təsərrüfatının özünəməxsus səciyyəsini iki müxtəlif iqtisadi forma – oturaq əkinçilik və yarımköçəri maldarlıq təşkil edirdi ki, bu da kəndlərdən çoxsaylı vergilərin alınmasına gətirib çıxarırdı.

Pulla alınan və öz növbəsində vasitəsiz - vasitəli kimi iki qrupa bölünən vergilər həm şəhər, həm də kənd əhalisinə aid idi. Vasitəsizvergilər ildə bir dəfə taxılçılardan, şəhər əhalisindən, elatlardan vəEcmiədzin kilsəsindən yığılırdı. Vasitəsiz (birbaşa xəzinəyəödənilən) vergilər cəmiyyətlər (sosial qruplar) üzrəalınırdı. Bu vergini verən yerli əhali müxtəlif sosial təbəqələri əhatə edir vəsəkkiz cəmiyyətdəbirləşirdi.

İrəvan şəhər əhalisinin ödədiyi vergi birinci, Ecmiədzin kilsəsinin ödədiyi vergi ikinci, makulu Əli xandan alınan vergi üçüncü, elatlardan alınan vergi dördüncü, əhalinin binaçı (hərtərəfli imkanı olan əhalinin müəyyən hissəsi belə adlanırdı) vergisi ödəyən hissəsindən alınan vergi beşinci, pulla ödənilən hədiyyələr (peşkəş) altıncı, ermənilərin üzüm bağlarından alınan vergi yeddinci, xanın məmurlarının xeyrinə toplanan vergilər isə səkkizinci cəmiyyətə daxil idi[170,s.263].

İrəvan xanlığında dövlət xəzinəsinə daxil olan vasitəli vergiləri:qulp (duz mədənindən alınan vergi), dükanlardan, boyaqxanalardan, sabun bişirənlərdən və qəssabxanalardan, dövlət bağlarından, dövlətə məxsus dəyirmanlardan alınan vergilər, mizan-çəki pulu, karvansaralar, hamamlar, bazar meydanından, pul kəsənlərdən, ayaqqabıya nal vuran dəmirçilərdən, aksizdən, Göycə gölündən balıq ovuna görə, tütündən, dəri aşılamasından,  bostan torpağından, kəndlərin icarəyə verilməsindən, darğa vəzifəsinə alınan vergilər təşkil edirdi[170,s.264].

Əsas vasitəli pul vergilərindən biri ölkəyə gətirilən və aparılan mallardan alınan “rəhdar” - gömrük vergisi haqqında İrəvan xanı Quləməli xan qeyd edirdi ki, “İrəvan ölkəsinin əsas gəlirirəhdarxanaların icarəyə verilməsindən, yollardan ticarət məhsulu keçərkən tacirlərdən toplanılan rəhdarlıq vergiləridir” [16,v.76-77].

İrəvan xanlığında vasitəli və vasitəsiz pul vergisindən xəzinəyə ildə 39.709 tümən, 2 min altun, 12,5 şahı və yaxud 158.837 gümüş rubl, 5 qəpik ümumi gəlir gəlirdi[405, c.967-986].

Məhsulla alınan əsas vergi “malcəhət”  İrəvan xanlığında “bəhrə” adlanır və məhsulun 1/5-dən 1/3-nə qədər olan hissəsini təşkil edirdi. Kəndlilərin dövlət xəzinəsinə ödədiyi bəhrə “bəhrəceyi-divani”, mülkədarlara ödənilən isə “bəhrəceyi-

malikanə" adlanırdı[357, c.266-277]. Taxılçılıqla məşğul olan kəndlilərin bu vergini verməsi məcburi idi.

1829-cu ildə keçirilən yoxlamaya əsasən xanlıq dövründə müxtəlif kənd təsərrüfatı məhsullarından dövlət xəzinəsinə gələn gəlirin miqdarı 305.218 rubl, 51 qəpik, 1829-cu il vergi cədvəlinə görə isə 314.027 rubl 4 qəpik miqdarında olmuşdu[405, c.1119-1120].

İrəvan xanlığında da iki əsas zümrə - feodal və kəndli zümrələri mövcud idi. Məcazi mənada iyerarxiya pilləkəninin ən yüksək zirvəsində xan, xandan sonra aşağıya doğru xanın vəziri və yaxud, baş mirzə adlanan şəxs, sonrakı pilləkəndə isə müxtəlif vəzifə daşıyan bəylər - divan bəyləri, sərkərdələr, əmirlər və bu kimi şəxslər dururdular. Feodal sinfinə, həmçinin ali ruhanilər, maldarlıqla məşğul olan, yarımoturaq həyat tərzi keçirən elatların – maldarların qəbilə başçıları – elbəyilər də daxil idilər[157,s.53-54].

İki qrupa bölünən ruhani təbəqəsinin birinci qrupuna : şeyxülislam, müctəhid, axund, seyidlər; ikinci qrupuna – ruhanilər (adi mollalar, mədrəsədə və mollaxanada dərs deyən və məhəllə mollaları) daxil idi.

Bir qayda olaraq, feodalların hamısı vergi və mükəlləfiyyətdən azad idilər. Vergilər və mükəlləfiyyətlər aşağı təbəqələr – rəiyyət, rəncbər, elatlar tərəfindən məcburi şəkildə yerinə yetirilirdi.

Kəndli zümrəsinin özəyini təşkil edən rəiyyətlər kənd icması tərəfindən ayrılmış torpağı becərir və əldə etdikləri məhsulun 1/10-dən 1/5hissəsinə qədərini renta şəklində feodala verirdilər. Bəzi rəiyyətlər öz torpaqları yararsız olduğundan və suvarma cəhətdən korluq çəkdiklərinə görə feodaldan daha ağır şərtlərlə sahə icarəyə götürür, əldə etdikləri məhsulun 1/2-dən üç hissəsinə qədərini feodala verməyə məcbur olurdular[157,s.54].

Rəiyyətlər nəinki torpaqların becərilməsi ilə məşğul olur, həm də feodal torpaqlarında bir sıra tikinti işləri görürdülər. Rəiyyətlərin vəziyyəti həm də ona görə ağırlaşırdı ki, feodaldan aldıqları əmək alətləri, toxum və s. üçün əldə etdiyi məhsulun müəyyən hissəsini də feodala verməli olurdular.

Kəndlilərə becərdikləri feodal torpaqlarını atıb başqa yerlərə getməyə hüquqi cəhətdən icazə verilirdi. Lakin təcrübədə çox nadir hallarda bu cür köçmə əməliyyatı baş tuturdu. Belə hallarda onlar bir sıra çətinliklərlə qarşılaşırdılar ki, bu da rəiyyətlərin könüllü şəkildə köçmələrinə imkan vermirdi; köçməzdən əvvəl rəiyyət öhdəsinə düşən bütün işləri başa çatdırmalı, torpaqla bağlı olan bütün mükəlləfiyyətləri yerinə yetirməli idi. Rəiyyət başqa bir yerə köçəcəyi barədə neçə ay əvvəl feodala xəbər verməli, öz borclarını və vergiləri vaxtında ödəməli idi[157,s.53-54]. Göründüyü kimi, rəiyyətlərin feodal torpaqlarından köçmələri bir sıra ciddi çətinliklərlə qarşılaşırdı.

Rəncbər qrupuna məxsus olan kəndlilər daha ağır vəziyyətdəyaşayırdılar. Nə torpağı, nə də əmək aləti olmayan rəncbərlər xan,sultan, məlik, bəy və digər feodalların torpaqlarında işləyir və əldəedilmiş məhsulun, adətən 1/3 hissəsini alırdılar.

İrəvan xanlığının yaxın-uzaq ölkələrə gedən karvan yollarının qovuşduğu yerdə yerləşməsi ticarətin inkişafına öz təsirini göstərmiş və ticarətiqtisadiyyatda inkişaf etmiş əsas sahələrdən birinə çevrilmişdi. Dövlətin xəzinəsinə böyük gəlir gətirdiyindən İrəvan xanları ticarəti əllərində cəmləşdirmişdilər. Ticarətə böyük sərmayə yatıran xanlar daha varlı tacirlərin şəriki idilər[347,c.284].

Xanlığın xan titulu daşıyan nüfuzlu adamlarının da ticarətlə məşğul olmalarını göstərən İ.Şopen qeyd edirdi ki, “Onlar “sərdardan ibrət götürərək tacirləri pulla təmin edir, onları himayəyə alırdılar”[405,c.873]. General Paskeviç də İrəvan şəhərinin ticari əhəmiyyətini xüsusi qeyd edərək göstərirdi ki, “...İrəvanın ən böyük əhəmiyyəti onun üç dövlətin əhatəsində yerləşməsidir. Onun İran və Osmanlı dövlətləri ilə çevik ticarəti bizə görünməmiş qazanc gətirəcəkdir”[268,c.567].

İrandan və digər xanlıqlardan İrəvana xalça, şal, şəkər, qəhvə, nabat, şəkər tozu, xına, müxtəlif mis əşyalar, badam, albuxara, mismar, yağ, bal, xurma, ipək, dəri, tünd boyaq, pambıq parça, kişmiş, noxud, nar və üzüm şirəsi, Kartli-Kaxetiyadan alma, armud, xurma, əncir, kişmiş, qoz, zoğal, badam və başqa meyvələr, Osmanlı dövlətindən isə müxtəlif nov parça, yağ, yun, zəy, marena, çaxır, araq, bal, mum, qoz və müxtəlif meyvələr, tir, taxta və taxta piyalə və s.

gətirilirdi[405, c.883-884]. Öz növbəsində İrəvandan Osmanlı dövlətinə duz, qənd, ipək, yun, pambıq parçalar, düyü, tütün, xam pambıq, cürbəcür meyvələr, Kartli-Kaxetiyaya duz, kişmiş, boyaq bitkisi koşenil, ipək, pambıq ixrac edilirdi[330,c.184].

İrəvan xanlığı işğal edildikdən sonra da burada ticarət dayanmamışdı. 1837-ci il məlumatına əsasən şəhər anbarlarında olan malların ümumi dəyəri 10 min gümüş rubl dəyərində idi[347,c.285].

Lakin, Rusiya-İran müharibələri, xüsusilə sonuncu müharibə İrəvan bölgəsi əhalisinin sosial-iqtisadi vəziyyətinə olduqca mənfi təsir göstərdi. Bölgənin məruz qaldığı dağıntıların miqyası o qədər böyük idi ki, həm işğal dövründə, həm də işğaldan sonrakı dövrlərdə əhalinin sosial-iqtisadi vəziyyəti olduqca pisləşmiş, nəinki kəndlərdə, hətta İrəvan şəhərində də ticarət tamamilə tənəzzülə uğramışdı.

1827-ci ildə rus qoşunlarının hücumu zamanı əksər hissəsi əmlakları ilə birlikdə İrəvan qalasına sığınmış əhalinin, digər hissəsi isə qonşu ölkələrə pənah aparmışdı. Sonuncu mühasirə zamanı İrəvan şəhəri və qalası böyük dağıntılara məruz qalmış, irəvanlıların bir hissəsi döyüşdə həlak olmuşdu. 1829-cu ilin yazında başlayan kütləvi taun xəstəliyi xanlıqda yaşayan əhalinin onda birini məhv etdi. Bu təhlükə yenicə sovuşmuşdu ki, 1830-cu ildə vəba xəstəliyi başladı[405,c.874].

Beləliklə, XIX əsrin ilk otuzilliyində əhalinin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərən bir sıra amillər mövcud olmuşdur. Birincisi, İrəvan xanlığının yerləşdiyi əlverişli strateji mövqe onu qonşu xanlıqların və Kartli-Kaxetiya çarlığının təcavüz obyektinə çevirmişdi. Xüsusilə sonuncunun xanlıq üzərinə amansız və qarətçi yürüşləri əhalinin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərən amillərdən biri idi. İkincisi, feodal istehsal üsulundan irəli gələn şərtlər daxilində əhalinin aşağı təbəqələrinin çoxsaylı vergilər verməyə və mükəlləfiyyətlər daşımağa məcbur edilməsi iqtisadi inkişafı ləngidən amillərdən birinə çevrilmişdi. Üçüncüsü, XVIII əsrin sonlarında Azərbaycanda yaranmış hərbi-siyasi vəziyyət – Rusiya-İran müharibələrinin bir çox hərbi əməliyyatları İrəvan bölgəsində aparılmışdı. Bütün bunlar əhalinin həm öz əmlakını itirməsi, həm fiziki cəhətdən məhv edilməsi, həm də öz doğma yer-yurdlarını tərk etməsinə gətirib çıxarırdı. Beləliklə, XIX əsrin əvvəllərində bölgədə gedən hərbi-siyasi proseslər əhalinin sosial-iqtisadi vəziyyətinin

ağırlaşması, ənənəvi təsərrüfat sahələrinin və ticarətin tənəzzülü ilə müşayiət olunurdu.

Qeyd etmək lazımdır ki, Rusiya işğalının ilk dövrlərində İrəvan bölgəsi əhalisinin sosial-iqtisadi vəziyyətində elə bir nəzərəçarpacaq irəliləyişlər müşahidə edilmirdi. İşğalın ilk dövrlərində hərbi-feodal idarəçilik üsuluna üstünlük verən çarizm bölgədə mövcud olan sosial münasibətlərin dəyişdirilməsinə ciddi cəhd göstərmirdi.

Çarizmin Cənubi Qafqazda həyata keçirdiyi kəndli islahatları burada yaşayan əhalinin vəziyyətini heç bir şəkildə yaxşılaşdırmadı, əksinə kəndlilərin vəziyyətinin daha da ağırlaşmasına səbəb oldu.

Kəndli islahatının bütün məhdud cəhətlərinə baxmayaraq o, yeni sosial münasibətlər doğura biləcək bir sıra elementlərə malik idi. İslahat nəticəsində meydana gələn aztorpaqlılıq, torpaq icarəsi kimi yeni təzahürlər bir vaxtlar patriarxal xarakter daşıyan kənd icmasını daxildən sarsıtmağa başlamışdı.

İrəvan bölgəsində kəndlilər uzun müddət ərzində torpağı icma və həyətyanı sahələr prinsipi əsasında becərmişdilər. Kəndlilər torpaqdan icmalıqla istifadə zamanı otlaqlar və örüşlərdən icmalıqla faydalanırdılar. Bağ sahələri isə həyətyanı istifadəyə aid edilir, əkin və biçin sahələri isə dövrü olaraq bölüşdürülürdü. Torpaqdan həyətyanı istifadə prinsipi isə otlaqlar və örüşlərdən icmalıqla, digər işlərin isə kəndlinin şəxsi həyətyanı təsərrüfatı daxilində istifadəsini nəzərdə tuturdu.

Bölgənin Rusiya tərəfindən işğal edilməsindən sonra çar hökuməti kəndlilərin istifadəsində olan otlaqların istismarı üsullarını bir neçə dəfə dəyişsə də, əsas ağırlıq mərkəzini yenə də kəndlilərdən daha çox ödəniş əldə etmək təşkil edirdi. Əvvəllər hökumət kəndlilərdən vergini natura – mal-qara və ərzaq şəklində alırdısa, XIX əsrin 40-cı illərində natural vergidən pul vergisən keçilməsinə uyğun olaraq otlaqlara görə vergi də pulla ödənməyə başlandı. 1862-ci ildən etibarən bu üsul hər baş iribuynuzlu heyvana görə 10 qəpik, xırdabuynuzlu heyvana görə isə 1 qəpik vergi ödənilməsi qaydası ilə əvəz olundu. 1870-ci ildən isə hökumətin otlaqları müzaidə yolu ilə satmağa başlamasından sonra bu torpaqların böyük bir qismi şəxsi əllərdə cəmləşdi. Mənbələrdən məlum olur ki, 1884-cü ildə İrəvan quberniyasında mövcud olan

382.000 desyatin otlağın 135.000 desyatinini (37,3%) ayrı-ayrı şəxslər, xüsusilə varlı kəndlilər icarəyə götürmüşdülər[347, c.111-113]. Müqayisə üçün qeyd edək ki, kəndli icmaları bu zaman 247.000desyatin, yaxud 62,7% otlağa nəzarət edirdi.

Bölgədə yarımfeodal istehsal münasibətlərini saxlamağa yönəlmiş çar hökumətinin siyasətinə uyğun olaraq otlaqların istifadə qaydalarının dəyişdiriməsi məsələsinə sonrakı dövrdə yenə də baxılmışdı. 1884-cü ildə tərtib, növbəti il isə təsdiq olunmuş yeni qaydalara əsasən otlaqların bir hissəsi hərrac vasitəsilə icarəyə, digər hissəsi isə müəyyən ödənc müqabilində kəndli icmalarına verilirdi[274,c.101].

Çar hökumətinin təhkimçi siyasətinə baxmayaraq otlaqlar yenə də kənd burjuaziyasının əlində cəmləşməkdə davam edirdi. Otlaqlar ümumi istifadə üçün nəzərdə tutulsa da, faktiki olaraq böyük miqdarda mal-qaraya malik təsərrüfatların maraqlarına xidmət edirdi. Bundan əlavə, əvvəlki kimi otlaqları icarəyə götürən varlı kəndlilər orada nümunəvi təsərrüfat yaradır, yaxud da, əlavə ödəniş müqabilində onu yenidən kəndlilərə icarəyə verirdilər.

Torpaq münasibətlərini qaydaya salmaq istəyən çar hökuməti 1913-cü ildə Qafqaz canişinin timsalında Qafqazın dövlət əmlakı müvəkkilinə otlaqların yeni istisması qaydalarını hazırlamaq üçün onlar haqqında məlumatlar toplamağı tapşırmışdı[260,c.152]. Lakin Birinci Dünya müharibəsinin başlaması bu planın baş tutmasına mane oldu.

Yuxarıda qeyd edildiyi kimi, əkin və biçin sahələri vaxtaşırı olaraq ayrı-ayrı kəndli həyətləri arasında bölüşdürülürdü. Bölüşdürmə müddəti hər bir yer üzrə mövcud adətlər baxımından dəyişirdi. Məsələn, Üçmədzin və Sürməli qəzalarında torpaqların bölüşdürülməsi 1,5, İrəvan qəzasında 3 ildən bir, Aleksandropol qəzasında isə 11 ildən bir həyata keçirilirdi[381,c.70].

Torpaqların vaxtında bölüşdürülməməsi səbəbindən bəzən elə hallara rast gəlinirdi ki, kəndli həyətlərinin yarısı nəzərdə tutulduğundan az torpağa malik olurdu. Kəndli həyətlərinin bir hissəsinin isə ümumiyyətlə əlavə torpağı olmurdu.

İrəvan quberniyasında bir kəndliyə düşən torpaq payı sahəsinin daimi olaraq azalmasını  statistik məlumatlar da təsdiq edir. Məlumatlardan aydın olur ki, 1884-

1885-ci illərdə quberniyanın kəndli əhalisinin hər birinə 1,07 desyatin əkin sahəsi, yaxud 2,13 desyatin bütün işlər üçün istifadə edilən torpaq düşürdü[395,c.165].

İqtisadi güclərinə arxalanan varlı kəndlilər icarə, sələmçilik, alqı, zəbtetmə yolu ilə torpağı digər istehsal vasitələrini öz əllərində cəmləşdiridilər. Yuxarıda sadalanan üsullar arasında icarə daha geniş yayılmışdı.

Qeyd etmək lazımdır ki, varlı kəndlilər xəzinə və mülkədarlarla yanaşı, pay torpağını öz vəsaiti hesabına becərə bilməyən yoxsul kəndlilərdən də torpaq icarəyə götürürdülər. N.Nikiforovun qeyd etdiyi kimi, "iş heyvanı, yaxud əmək alətləri olmadığından, öz pay torpağını şəxsən becərə bilməyən təsərrüfat sahibi onu adətən əldə edilən məhsulun yarısı qarşılığında həmkəndlisinə icarəyə verirdi"[381,c.548].

Yoxsul kəndlilərin pay torpağını icarəyə götürən varlılar çox zaman onu zəbt edir və öz mülkiyyətlərinə çevirirdilər.

Varlı kəndlilər icarə, alqı, zəbtetmə və s. üsullardan başqa torpaqları ələ keçirmək üçün digər imkanlara da malik idilər. Məsələn, icma kəndlilərə otlaqları əkin yerlərinə çevirməklə öz əkin torpaqlarının sahəsini böyütməyi qadağan etməsə də, aydındır ki, bu hüquqdan daha çox varlı təsərrüfatlar istifadə edirdilər.

Əmlakı az olan kəndlilər üzərlərinə düşən vergiləri ödəmək iqtidarında olmadıqlarından hakimiyyət həmin torpağı ödənişləri etməyə razılaşan kəndlilərə verirdi ki, bunlar da təbii ki, varlı kəndlilər olurdu[381, c.20-22,323].

Varlı kəndlilər torpaqla yanaşı, kənd əhalisinin həyatında mühüm əhəmiyyət daşıyan suvarma suyunu da öz əllərində cəmləşdirmişdilər.

Hər bir mahalda suyun bölüşdürülməsi formal olaraq kəndlilər tərəfindən seçilən, lakin faktiki olaraq qəza rəisi, yaxud qubernator tərəfindən təyin edilən inzibati orqanların əlində idi. Suyun bölüşdürülməsi, irriqasiya sistemləri üzərində nəzarət mirab və cuvarlar tərəfindən həyata keçirilirdi. Əlində inzibati və məhkəmə hakimiyyətini cəmləşdirmiş mirab suyu icmalar arasında bölüşdürür, sudan istifadə ilə bağlı yaranmış mübahisəli məsələləri həll edirdi. Suvarma arxlarına nəzarət edən cuvarlar isə polis funksiyasını yerinə yetirir, sudan istifadə qaydalarının pozulması barədə dərhal miraba məlumat verirdilər.

1890-cı ilə dekabrın 3-də çar tərəfindən "Cənubi Qafqazda torpaqları suvarmaq üçün sudan istifadə haqqında "Qaydalar" təsdiq edildi[362,c.89]. "Qaydalar"a əsasən müəyyən edilmiş dairə şurası təşkilatı tamamilə varlı elementlərdən 3 il müddətinə seçilirdi. Mirabın başçılığı ilə fəaliyyət göstərən şura onun hüquqlarını heç nə ilə məhdudlaşdırmırdı.

Varlı kəndlilər suvarma suyunu vəzifələrindən sui-istifadə edən mirab və cuvarlardan pulla alırdılar. Beləliklə, "mirab bir tərəfdən növbəli su ilə alver edir, digər tərəfdən isə seçkilər zamanı onun namizədliyinə qarşı səs vermiş icmalardan amansızlıqla qisas alırdı"[381, c.144-145].

Beləliklə, kənd burjuaziyasının torpağı, suvarma suyunu və digər istehsal vasitələrini öz əlində cəmləşdirməsi nəticəsində kəndlilərin sosial təbəqələşməsi baş verirdi. Bu prosesi aşağıdakı cədvəldən də aydın şəkildə görmək mümkündür:[98,л.11].

Cədvəl 3.2.1

| Qəzalar | Hər iki cinsdən olan şəxslər | Torpaqsızların sayı | Pay torpağına malik şəxslərin sayı (bütün torpaqlar) | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | 0,5 | 0,5-1 | 1-2 | 2-3 | 3-5 | 5-7 | 7-10 | 10-15 | 15-dən çox |
| İrəvan | 66701 | - | 4992 | 24208 | 15570 | 13494 | 6521 | 986 | 555 | 343 | 32 |
| Aleksandropol | 102580 | 239 | - | 4987 | 57699 | 29920 | 8343 | 1392 | - | - | - |
| Naxçıvan | 22689 | - | 3276 | 1499 | 6310 | 4891 | 4280 | 1373 | 614 | 446 | - |
| Yeni Bəyazid | 84216 | - | - | 590 | 31670 | 36573 | 12637 | 2044 | 702 | - | - |
| Sürməli | 39410 | - | 1499 | 21339 | 9500 | 4619 | 1995 | 388 | - | 70 | - |
| Şərur-Dərələyəz | 46498 | 1150 | 6789 | 12312 | 7716 | 9347 | 5332 | 2416 | 595 | 233 | 608 |
| Eçmədzin | 68022 | - | 8929 | 21213 | 25590 | 6725 | 2878 | 1926 | 761 | - | - |
| Cəmi | 430116 | 1389 | 25485 | 86148 | 154055 | 105559 | 41986 | 10525 | 3227 | 1092 | 640 |

Əgər 1 desyatinə qədər pay torpağına sahib olan kəndliləri yoxsul, 1-3 desyatin torpağa sahib olanları ortabab və 3 desyatindən çox torpağa malik olanları varlı kəndlilər qrupuna aid etsək, onda İrəvan bölgəsi əhalisinin sosial tərkibi (Naxçıvan və Yeni Bəyazid qəzaları da daxil olmaqla) faiz nisbəti ilə belə olacaqdır: yoxsul kəndlilər – 26,2%, ortabab kəndlilər – 60,2%, varlı kəndlilər – 13,2%.

Cədvəldə verilmiş məlumatların təhlilindən aydın olur ki, İrəvan bölgəsində kəndlilərin təbəqələşməsi prosesi bütün qəzalarda eyni şəkildə baş verməmişdir. Təbəqələşmə dərəcəsi xüsusilə İrəvan, Eçmiədzin, Sürməli və Şərur-Dərələyəz qəzalarında daha yüksək olmuşdur. Fikrimizcə, bu həmin bölgələrin əsas ticarət əkinçiliyi mərkəzləri olmasından irəli gəlirdi. Artıq qeyd edildiyi kimi, ticarət əkinçiliyi kəndlilərin təbəqələşməsinin güclü faktorlarından biri kimi çıxış edirdi.

XIX əsrin 90-cı illərində hökumət icmaların saxlanılması istiqamətində yeni cəhdlər etdi. 1893-cü ildə kəndlilərə öz pay torpaqlarını satmaq və girov qoymaq, 1898-ci ildə isə həmçinin icarəyə vermək qadağan edildi. Bununla bağlı Qafqazın baş hakimi qubernatorlara, qəza rəislərinə və digər vəzifəli şəxslərə kəndlilər arasında torpaqla bağlı icarə müqavilələrinin təsdiq edilməməsi barədə təklif verdi[95,л.1-2].

Lakin hökumətin həyata keçirdiyi bu tədbirlər icmaların dağılmasının və kəndlilərin təbəqələşməsinin qarşısını ala bilmədi. Yalnız 1895-1896-cı illərdə torpaq satışı ilə bağlı İrəvan qəzasında 4, Eçmiədzin qəzasında 18, Şərur-Dərələyəz qəzasında 6, bütövlükdə üç qəzada 28 hal qeydə alınmışdı[339,c.293].

Kəndlilər öz pay torpaqlarını satmaqla yanaşı, onu həm də varlı qonşularına icarəyə də verirdilər. Təkcə 1898 ci- ildən 1900-cü ilə qədər olan dövrdə pay torpaqlarının icarəyə verilməsi halı 20% artmışdı[274,c.114].

Göründüyü kimi, hökumətin kəndli icmalarını qadağalar yolu ilə saxlamaq cəhdləri gözlənilən nəticələri verməmişdi.

Kapitalist münasibətlərinin inkişafı şəraitində kənddə muzdlu əmək geniş şəkildə tətbiq edilirdi. İrəvan bölgəsinin bütün qəzalarında muzdlu əməyin təsərrüfatın bütün sahələrində istifadə edilməsi barədə kifayət qədər məlumatlar vardır. Məsələn, İrəvan qəzasında muzdlular taxıl, ot yığır, müxtəlif işləri yerinə yetirir, Şərur-Dərələyəzdə əsasən daşyonan, dülgər, yerqazan, sənətkar kimi

çalışırdılar[381,c.696]. Yerli kəndlilərdən başqa İrəvan bölgəsinə Cənubi Qafqazın digər rayonlarından və İrandan da işləmək üçün gəlirdilər. Kəsbkarlar daha çox düzən rayonlarda təsərrüfat işlərində çalışırdılar[381,c.697].

Kapitalist münasibətlərinin inkişaf prosesini göstərmək üçün həm də muzdlu əməkdən istifadə edən təsərrüfatların sayını müəyyənləşdirmək mühüm əhəmiyyət daşıyır. İrəvan qəzasında muzdlu əməkdən istifadə edən təsərrüfatların sayı və xüsusi çəkisi haqqında aşağıdakı cədvəldən məlumat əldə etmək mümkündür: [352, c.162-163]

Cədvəl 3.2.2

| Qəzalar | Kəndli təsərrüfatlarının ümumi sayı | İşçi, yaxud qulluqçuya malik olan təsərrüfatların sayı | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 və 3 | 4 və 5 | 6 və 10 | Ümumi kəndli təsərrüfatları içərisində işçilərə malik olan təsərrüfatların faiz göstəricisi |
| İrəvan | 17774 | 839 | 83 | 3 | 2 | 5,2 |
| Aleksandropol | 16189 | 211 | 33 | 4 | 1 | 1,5 |
| Naxçıvan | 15060 | 395 | 45 | 7 | - | 2,9 |
| Yeni Bəyazid | 13127 | 203 | 39 | 4 | - | 1,8 |
| Sürməli | 11884 | 91 | 22 | 5 | - | 0,9 |
| Şərur-Dərələyəz | 10993 | 304 | 31 | 6 | 1 | 3,1 |
| Üçmədzin | 16395 | 671 | 54 | 3 | 2 | 4,3 |
| Cəmi | 134597 | 4183 | 580 | 50 | 7 | 3,6 |

Cədvəldən göründüyü kimi, qolçomaq təsərrüfatları daha çox İrəvan və Eçmiədzin qəzalarında daha çoxşaxəli inkişaf etmişdi. Ticarət pambıqçılığı və üzümçülüyün inkişafı bu qəzaların varlı kəndlilərinə təsərrüfatda işlətmək üçün işçilər tutmaq imkanı verirdi.

XX əsrin əvvəllərində də kəndlilərin əksər hissəsi yenə taxılçılıqla məşğul olurdular. Lakin bununla yanaşı İrəvan qəzasında pambıqçılıq və üzümçülüyün

inkişafı ilə əlaqədar olaraq taxıl yığımı nəzərə çarpacaq dərəcədə azalırdı. Məsələn, qəzada 1900-1903-cü illərdə 66.225 min pud taxıl yığılmışdısa, bu rəqəm 1910-1913-cü illərdə 52.503 min pud təşkil edirdi[274,c.188]. Buna görə də İrəvan bölgəsinə taxıl Rusiyadan idxal edilirdi. Məlumatlara görə bölgəyə Rusiyanın daxili quberniyalarından 1903–cü ildə 890 min pud, 1913-cü ildə isə 3297 min pud buğda və un gətirilmişdi[333,c.34-35;336,c.112-117].

Statistik məlumatların təhlili göstərir ki, taxılçılıqla müqayisədə bölgədə düyü istehsalı, ətlik və südlük ticarət maldarlığı inkişaf etmişdi. Məsələn, İrəvan qəzasından 1908-ci ildə 25 min, 1913-cü ildə isə 172 min pud düyü ixrac edilmişdi[334,c.81-82;335,c.209-210]. Ətçilik yönümlü maldarlıq Aleksandropol, Yeni Bəyazid və Şərur-Dərələyəz bölgələrində xüsusilə inkişaf etmişdi.

İrəvan bölgəsində XX əsrin əvvəllərində üzümçülük xüsusilə inkişaf etmişdi. Bölgədə 1900-1901-ci illərdə 4892 min ton, 1912-1913-cü illərdə isə 8975 min ton üzüm yığılmışdı[274,c.192].

XX əsrin əvvəllərində digər təsərrüfat sahələri ilə müqayisədə pambıqçılıq daha sürətlə inkişaf edirdi. Lakin Azərbaycanın digər bölgələri ilə müqayisədə İrəvan bölgəsində pambıqçılıqla iri icarədarlar və mülkədarlar deyil, kiçik sahibkarlar məşğul olurdular. Bütün bunlara baxmayaraq, İrəvan quberniyasında pambıq əkini və yığımı ildən-ilə artırdı. Məsələn, bölgədə 1900-cü ildə 15 min desyatin sahədə pambıq əkilib, 382 min pud məhsul götürülmüşdüsə, bu rəqəmlər 1914-cü ildə müvafiq olaraq 44 min desyatin və 710 min pud olmuşdur[391,c.4-6].

Əkin sahələrinin yaxşılaşdırılması ilə yanaşı, varlı kəndlilər və sələmçilər pambıqtəmizləmə zavodları da inşa edirdilər. XX əsrin əvvəllərində bu zavodların sayı artmış və 1912-ci ildə 328 vahidə çatmışdı[391,c.66-85].

Lakin bölgədə ticarət əkinçiliyinin inkişafına yenə də mütləqiyyətin aqrar və müstəmləkə siyasəti, habelə çoxsaylı feodal qalıqları ciddi şəkildə mane olurdu.

Ticarət əkinçiliyin inkişafı bölgədə təkmilləşdirilmiş kənd təsərrüfatı alətlərinin yayılmasına rəvac verirdi. Həmin dövrdə geniş yayılmış dəmir kotanla yanaşı, kəndlilər həmçinin biçin maşınlarından, dənsovuran maşınlardan, səpin maşınlarından, otbiçən maşınlardan və s. istifadə edirdilər.

XX əsrin əvvəllərində ticarət əkinçiliyinin inkişafı həm də kənddə ticarət və sələmçi kapitalın güclənməsi ilə müşayiət olunurdu. Həmin dövrdə artıq ticarət kapitalı kəndlilərin mütləq çoxluğunu əhatə edirdi. Sələmçilər ya yerli varlı əkinçi kəndli qismində, yaxud da tacir qismində çıxış edirdilər. Həmin dövrə aid olan məlumatların birində göstərilirdi ki, Yeni Bəyazid qəzasında hər çodarın (mal-qara alverçisi) kəndlilərdə 10-20 min rubl pulu vardır. Yazda onlar kəndlərə gəlir və pulun əvəzinə mal-qara alıb aparırdılar[274,c.203]. Bu faktlar onu göstərir ki, artıq bu dövrdə kənddə ticarət kapitalı sələmçi kapitalla qovuşmuşdu. Bununla yanaşı, qolçomaqlar icarəyə verilən böyük torpaq sahələrini əllərində saxlayaraq onları kəndlilərə təkrar icarəyə verirdilər. Torpaqların icarəyə verilməsində vasitəçilikdən başqa, sələmçilər kəndliləri onlara faizi ilə birlikdə qaytarmaq şərti ilə borc pul vermək yolu ilə də istismar edirdilər.

XX əsrin əvvəllərində mövcud olan sələmçilik kəndlilərin böyük bir qismini əhatə etməklə, əvvəlki illərdən kəskin şəkildə fərqlənirdi. Məsələn, 1905-1910-cu illərdə borcluların ümumi kəndli əhalisi içərisində xüsusi çəkisi belə idi: Yeni Bəyazid qəzası və Ağrıdağ vadisində 95%, Zəngəzurda 80%, Sisiyanda 65%[274,c.206]. Beləliklə, ticarət-sələmçi kapitalın inkişafı şəraitində kəndlilər olduqca yoxsul vəziyyətə düşürdülər.

Yuxarıda göstərilənlər birmənalı şəkildə sübut edir ki, XX əsrin əvvəllərində kəndlilərin təbəqələşməsi prosesi daha da sürətlənmiş, XIX əsrin sonları ilə müqayisədə XX əsrin əvvəllərində yoxsul kəndlilərin sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Bu barədə əlimizdə dəqiq statistik məlumatlar olmasa da, 1907-ci ildə baş vermiş aclıq zamanı ehtiyacı olan kəndlilərin müəyyənləşdirilməsi üçün bölgəyə ezam olunmuş çar məmurlarının hazırladıqları hesabatlardan müəyyən məlumatlar əldə etmək mümkündür. Həmin hesabatlar Aleksandropol, Yeni Bəyazid, Zəngəzur qəzalarını, Lori və Qazax sahələrini əhatə edir. Məlumatlardan aydın olur ki, bu ərazilərdə 45985 həyətin, hər iki cinsdən 225653 əhalinin olduğu 223 kəndi araşdıran məmurlar kəndliləri çörəyə ehtiyacı olanlar, toxuma ehtiyacı olanlar və varlı kəndlilər kimi üç qrupa bölmüşlər[94]. Beləliklə, bu məlumatların 1884-cü il məlumatları ilə

müqayisəsi göstərir ki, 1907-ci ildə yoxsul kəndlilərin sayı 42,1% artmış ortababların sayı 38,7% azalmış, varlıların sayı isə 19,2% artmışdı.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində İrəvan bölgəsi daxilində varlılar tərəfindən muzdla işə götürülən kəndlilərin sayı kəskin şəkildə artmışdı. Təkcə bir il ərzində (1912-1913) İrəvan quberniyasında belə kəndlilərin sayı 14000 nəfərdən 17000 nəfərə yüksəlmişdi[343,c.14;344,c.16].

XX əsrin əvvəllərində İrəvan bölgəsində əhalinin sosial-iqtisadi vəziyyətindən danışarkən daha bir amilə də diqqət yetirmək lazımdır. Apardığımız təhlillərdən məlum olur ki, bölgədə muzdlu əmək tətbiq edən qolçomaq təsərrüfatlarının inkişafı ilə kəndlilərin müflisləşməsi prosesi biri birinə tərs mütənasib idi. Buna görə də əkinçilikdə inkişaf etməkdə olan kapitalizm yaranmaqda olan böyük işçi kütləsini təmin etmək iqtidarında deyildi. Kapitalizmin zəif inkişafı fonunda İrəvan bölgəsində həyat səviyyəsi olduqca aşağı idi və kəndlilər adətən əmək haqqının müqayisədə daha çox olduğu sənaye mərkəzlərinə üz tuturdular.

Birinci Dünya müharibəsi illərində İrəvan bölgəsinin kənd təsərrüfatı böyük sarsıntılara məruz qaldı. Bütün əsas kənd təsərrüfatı bitkiləri üzrə əkin sahələrinin həcminin kəskin şəkildə azalması özünü taxıl istehsalının aşağı düşməsində, bu da öz növbəsində kəndlilərin vəziyyətinin pisləşməsində göstərdi. Kəndlilərin ağır vəziyyəti ilə hesablaşmayan çarizm müharibə illərində birbaşa və dolayı vergiləri, xüsusilə də natural mükəlləfiyyətləri artırırdı. Kənd əhalisi hərbi yolların, körpülərin və istehkamların tikintisi üçün səfərbər olunurdular. Tez-tez kəndlilərin iş heyvanlarını ordunun ehtiyacları üçün istifadə edirdilər. Cənubi Qafqaz dəmir yolu əsasən ordu və cəbhənin ehtiyacları üçün istifadə edildiyindən, bölgəyə taxıl və sənaye mallarının gətirilməsi kəskin şəkildə ixtisar olunmuşdu.

İrəvan bölgəsinin kənd təsərrüfatında XIX əsrin sonu və XX əsrin əvvəllərində baş verən prosesləri müqayisə edərək belə bir qənaətə gəlmək mümkündür ki, kapitalist münasibətlərinin inkişafı böyük templə getmiş, əkinçilik daha sürətlə metropoliyanın tələblərinə uyğunlaşmış, kənd əhalisinin sosial cəhətdən təbəqələməsi daha da sürətlənmişdir.

Beləliklə, XIX əsr – XX əsrin əvvəllərində İrəvan bölgəsi əhalisinin sosial-iqtisadi vəziyyətinin araşdırılması bu problemlə bağlı bir sıra nəticələrə gəlməyə əsas verir. Əhalinin sosial-iqtisadi vəziyyətində dəyişikliklər ictimai-iqtisadi həyatda baş verən yeniliklərələ düz mütənasib olduğundan, biz onu şərti olaraq bir neçə dövrə bölə bilərik:

XIX əsrin ilk 30 illiyinə düşən birinci dövrdə İrəvan xanlığında feodal münasibətləri mövcud olmuş, təsərrüfatın aparılmasında əsasən patriarxal qaydalar üstünlük təşkil etmişdir. Bu dövrdə xanlığın qonşu dövlətlər tərəfindən təcavüz obyektinə çevrilməsi, Rusiya-İran müharibələrinin onun ərazisində aparılması, Rusiya imperiyasının məkrli köçürmə siyasəti nəticəsində ermənilərin buraya köçürülməsi kimi amillər bölgə əhalisinin sosial-iqtisadi vəziyyətinin olduqca pisləşməsinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, işğalın ilk illərində mövcud münasibətləri dəyişdirməyən çarizmin müstəmləkəçi siyasəti əhalinin vəziyyətini daha da ağırlaşdıran amillərdən biri idi.

XIX əsrin 40-60-cı illərini əhatə edən ikinci dövrdə çarizmin həyata keçirdiyi müstəmləkə və təhkimçilik siyasəti əhalinin vəziyyətini nəinki yaxşılaşdırdı, əksinə daha da ağırlaşmasına səbəb oldu.

XIX əsrin 70-ci illərindən XX əsrin əvvəllərinə qədər davam etmiş üçüncü dövrdə həyata keçirilmiş kəndli islahatı feodal-asılı münasibətlərə zərbə vurub, kapitalizmin inkişafına yol açsa da, təhkimçilik qalıqlarının saxlanılması, kredit verilməməsi nəticəsində kəndlilərin öz pay topaqlarına sahib ola bilməmələri onların vəziyyətinin müsbətə doğru dəyişməməsinə səbəb oldu.

XIX əsrin sonu – XX əsrin əvvəllərində İrəvan bölgəsində kapitalist münasibətlərinin inkişafı təsərrüfatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında özünü göstərməyə başlamışdı. Kapitalist münasibətlərinin inkişafı – muzdlu əməyin tətbiqi, ticarət və sələm kapitalının meydana gəlməsi kəndlilərin sürətlə təbəqələşməsinə səbəb olmuş, torpaqsız və aztorpaqlı kəndlilərin sayı nəzərəçarpacaq dərəcədə artmışdı.

## 3.3. Sosial hərəkatlar

İrəvan bölgəsində, XIX əsrin əvvəllərində, eyni zamanda Rusiya tərəfindən işğal edildikdən dərhal sonra da müstəmləkə siyasəti və mülkədar zülmünə qarşı kütləvi kəndli çıxışlarına, bir sözlə, sosial hərəkatlara rast gəlmək mümkün deyildir.

Bunun əsas səbəblərindən biri bölgədə təhkimli münasibətlərin mövcud olmaması, kəndlilərin feodallardan yalnız iqtisadi zəmində asılılığından irəli gəlirdi. Ümumiyyətlə, Azərbaycanın digər bölgələri kimi, İrəvan bölgəsində də təhkimli kəndli təbəqəsi sadəcə olaraq mövcud deyildi.

Məlum olduğu kimi, bölgənin əsas yerli əhalisi olan azərbaycanlılar üçün təhkimli münasibətlər bütün tarix boyunca yad olmuşdur. Lakin artıq rus işğalı dövründə bölgədə etnik cəhətdən fərqli digər əhali qrupları da məskunlaşdırılmağa başladı.

İrəvan bölgəsinin işğalından sonra, çar Rusiyası tərəfindən buraya yeni əhali qrupu-ermənilər kütləvi şəkildə köçürülməyə başladı. Erməni tədqiqatçısı V.Rştuninin də etiraf etdiyi kimi, "İndiki Ermənistanın, yəni keçmiş İrəvan quberniyasının əksər kəndli əhalisi bölgənin çar Rusiyası tərəfindən işğal edilməsi zamanı köçürülmüşdü, İran və Osmanlı mülklərindən olan qaçqın-ermənilərdən ibarət idi"[378,c.8].

Çarizmin həyata keçirdiyi təhkimçilik siyasəti ilə əlaqədar olaraq bölgədə feodallar kəndlilər üzərində hüquqlarını daha cəsarətli şəkildə həyata keçirməyə, kəndlilərin müəyyən qismi üzərində bu və ya digər bəhanələrlə ağalıq hüquqlarını təsbit etməyə başladılar.

İrəvan bölgəsində sosial hərəkatların mahiyyətini düzgün anlamaq üçün ilk növbədə, burada yeni rus hakimiyyətinin bərqərar olması ərəfəsində mövcud olan xüsusiyyətləri nəzərə almaq lazımdır. Çünki bu xüsusiyyətlər bölgənin sonrakı yüzillikdə də sosial-iqtisadi inkişafına öz təsirini göstərmişdir.

Göstərilən şərtlər daxilində yerli feodallara və çarizmə qarşı kəskin silahlı çıxışların baş verməsi demək olar ki, qeyri-mümkün idi. Heç də təəccüblü deyildir ki,

bölgədə rus işğalının ilk dövründə baş verən çıxışlar sonrakı dövrdə də kəskin silahlı qarşıdurma vəziyyətinə gəlib çıxmamışdı.

İrəvan bölgəsində azlıq təşkil edən mülkədar kəndlilərinin feodal zülmünə qarşı mübarizəsi məsələsindən danışarkən, ilk növbədə məntiqi cəhətdən belə bir nəticəyə gəlmək mümkündür ki, onların mübarizəsi feodal zülmü ilə düz mütənasib olmalı idi. Lakin göstərilən halın müşahidə olunmaması onu deməyə əsas verir ki, İrəvan bölgəsində kəndlilər üzərində feodalların hakimiyyəti imperiyanın digər regionlarında, məsələn, qonşu Gürcüstanda olduğu kimi o qədər də ağır deyildi.

İrəvan bölgəsinin mülkədar və tiyuldarlarının onlardan asılı olan kəndlilərə münasibətdə belə demək mümkünsə, təhkimçilik niyyətləri XIX əsrin 40-cı illərində çarizm tərəfindən həyata keçirilən təhkimçi siyasətdən sonra daha çox özünü göstərməyə başladı.

I Nikolayın 1846-cı il dekabrın 6-da canişinin adına imzaladığı reskript feodalların həm irsi mülk torpaqları, həm də "müsəlman əyalətlərinin Rusiyaya birləşdirilməsi zamanı onların nəsillərinin malik olduqları və indi mübahisəsiz şəkildə onların ixtiyarında olan" len torpaqları - tiyullar üzərində tam nəsli mülkiyyət hüququnu təsdiq edirdi[366].

1846-cı il reskripti ilə tiyul və mülk torpaqlarının eyni mahiyyətli feodal torpaq mülkiyyətinə çevrilməsi, Azərbaycan feodallarının torpaq, eyni zamanda onların kəndlilər üzərində də hüquqlarının möhkəmlənməsi demək idi. Bununla əvvəllər müvəqqəti mülkiyyət sayılan tiyul irsi mülkə çevrildi, tiyuldarlar isə mülkədar kateqoriyasına daxil oldular. Onların torpaq üzərində mülkiyyət hüququ artıq xidmət müddəti ilə müəyyən olunmurdu. Əvvəllər torpaq üzərində hüquqları yalnız orada yaşayan kəndlilərdən vergi almaları ilə məhdudlaşdırılan tiyuldarlar indi həmin torpaqlardan istədikləri kimi istifadə etmək hüququ əldə etdilər. Kəndlilərin əsrlərdən bəri istifadə etdiyi torpaqlar tamamilə feodalların sərəncamına keçdi.

Göründüyü kimi, mülkədar və tiyuldarların göstərilən niyyətləri Cənubi Qafqaz, hətta mərkəzi hökumət dairələrində belə dəstəklənsə də, bir amili unutmaq lazım deyildir ki, Azərbaycan feodalları hüquqları baxımından heç bir zaman rus zadəganlarına bərabər tutulmamışdılar. Əlbəttə, bu göstərilən amillər mülkədarlar və

onların kəndliləri arasında olan qarşılıqlı sosial-iqtisadi, hüquqi münasibətlərə öz növbəsində sonuncuların feodallara qarşı mübarizəsinə təsirsiz ötüşməmişdi.

XIX əsr və XX əsrin əvvəllərində İrəvan bölgəsində baş vermiş sosial hərəkatlardan, xüsusilə kəndli hərəkatından danışarkən daha bir detala diqqət yetirmək vacibdir. Məsələ ondadır ki, bölgədə yaşayan kəndlilərin mütləq əksəriyyəti azərbaycanlı olduğu üçün, təbii ki, yuxarı təbəqənin də mütləq əksəriyyətini azərbaycanlılar təşkil edirdi. Bununla bağlı erməni tarixçisi V.Rştuni qeyd edir ki, "...Yuxarı təbəqəyə daxil olmayan mülkədar ermənilərin payı cüzi olduğu kimi, yuxarı təbəqədən olan erməni torpaq sahiblərinin payı müqayisədə olduqca az idi" [378,c.10]. Doğrudur, V.Rştuni Azərbaycan feodallarının bölgənin ümumi feodalları içərisindəki xüsusi çəkisinin müəyyən edilməsinin çətinliyini əsas gətirərək, məsələdən yayınmağa çalışsa da, etnik azərbaycanlı olan mülkədar kəndliləri haqqında danışarkən göstərir ki, "burada ancaq sadəcə olaraq azərbaycanlıların mütləq çoxluğundan danışmaq olar" [378,c.10]. Beləliklə erməni tarixçisi özü də etiraf edir ki, bölgənin əsas köklü sakinləri, həm də çoxluq təşkil edən əhali qrupu türk etnik elementi – azərbaycanlılar olmuşdur. Göründüyü kimi, çarizmin məkrli köçürmə siyasətinə baxmayaraq, hələ XIX əsrin 40-50-ci illərində də azərbaycanlılar bölgədə mütləq üstünlüklərini qoruyub saxlamışdılar.

Bildiyimiz kimi, bir sıra şərtlər XIX əsrdə İrəvan bölgəsində sosial hərəkatların xarakterinə öz təsirini göstərmişdi. Xüsusilə təhkimçilik hüququnun olmaması, sahibkar kəndlilərinin sayca azlığı bölgədə kütləvi silahlı çıxışlara gətirib çıxarmamışdı.

Lakin buna baxmayaraq, İrəvan bölgəsində sosial hərəkatlar, xüsusilə kəndli hərəkatı bütün XIX əsr ərzində və XX əsrin əvvəllərində müxtəlif formalarda təzahür etmiş, gah zəifləmiş, gah da güclənmiş və çarizmə öz müstəmləkə siyasətini bərqərar etdiyi ilk günlərdən narahatlıq gətirmişdir. Bu hərəkatlar ilk növbədə, çarizmin iltifatından asılılığında olan kəndliləri qarət etmək üçün istifadə edən mülkədarlara qarşı çevrilmişdi. 1870-ci il islahatlarından sonra meydana gəlmiş kənd burjuaziyasına qarşı mübarizə də islahatdan sonrakı dövrdə baş verən sosial hərəkatların yeni bir təzahür forması idi.

Ermənistan SSR Elmlər Akademiyasının Tarix İnstitutunun 1948-ci ildə nəşr etdirdiyi, kəndli hərəkatını əks etdirən arxiv sənədlərinin təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, İrəvan bölgəsinin Rusiya tərəfindən işğalı dövründə sahibkar kəndlilərinin nəzərəçarpacaq iri çıxışları baş verməmişdir. Arxiv sənədlərinin təhlilinə əsasən qeyd etmək olar ki, 1837-1838-ci illərdə bölgədə hakimiyyət orqanlarına qarşı ilk iri və kütləvi çıxışlar məhz dövlət kəndliləri arasında qeydə alınmışdır. Dövlət kəndlilərinin çıxışları çarizmin zülmünə qarşı yönəlmişdi.

Sahibkar kəndlilərinin hərəkatı XIX əsrin 40-cı illərindən sonra açıq və sərt xarakter almağa başlamışdı. Qeyd olunduğu kimi, məhz XIX əsrin 40-cı illərində çarizmin Azərbaycan feodallarına münasibətdə həyata keçirdiyi siyasətdə kəskin dəyişiklik baş vermişdi. Bu dəyişiklik Qafqaz canişini Vorontsovun siyasətində və 1846-cı il reskriptində özünü açıq şəkildə göstərdi.

XIX əsrin 50-60-cı illərində İrəvan bölgəsində kəndli hərəkatı kütlələrin çarizmin yeni kursuna və mülkədar qruplarına verilmiş təhkimçilik hüquqlarından faydalanmaq niyyətlərinə münasibətini aydın şəkildə əks etdirir.

İrəvan bölgəsində kəndli hərəkatının yeni dalğası XIX əsrin 60-cı illərində Rusiya və Gürcüstanda islahatların keçirilməsi, Azərbaycanda bununla bağlı hazırlıq işlərinin aparılması ilə bağlı baş vermişdir. Maraqlıdır ki, bu münasibətlə həmin dövrdə həm də mülkədarlar hökumət orqanlarına şikayətlər ünvanlayırdılar. Həmin dövrdə kəndli hərəkatında başqa bir əlamət də özünü göstərməyə başlamışdı: kəndlilər 1865-ci ildə yaradılmış İrəvan bəy komissiyasının[350,c.3] fəaliyyətinə qarşı kəskin etiraz hərəkatına başlamışdılar. Başqa sözlə desək, çarizmin tapşırığına əsasən bölgədə gələcək islahatlar üçün hazırlıq prosesi gedirdi və hazırlıq prosesindən mülkədar qrupları yararlanmağa çalışırdılar. Kəndlilərin etirazı da məhz yuxarı təbəqələrin qeyri-qanuni əməllərinə qarşı yönəlmişdi.

XIX əsrin 70-ci illərinin əvvəllərindən etibarən kəndlilərin mübarizəsi çar məmurlarının həyata keçirdikləri təhkimçilik siyasətinə qarşı yönəlmişdi. Bu dövrdə kəndlilərin nizamnamə fərmanlarına qarşı mübarizəsi, onların mülkədarların hüquqları barəsində qaldırdıqları məsələ və bütün mükəlləfiyyətləri icra etməkdən boyun qaçırmaları kimi məsələlər mühüm əhəmiyyət daşımaqdadır.

XIX əsrin 70-ci illərinə aid olan mənbələr birmənalı şəkildə kəndlilərin torpaq nizamnamələrinə, pay torpaqlarının ədalətsiz bölgüsünə qarşı çıxmaları və vergi verməkdən imtina etmələri haqqında qiymətli məlumatlar saxlamışdır. Bunlara misal olaraq, Eçmiədzin qəzasının Canfəda kənd sakinlərinin 1872-1884-cü illərdə, İrəvan qəzasının Yuva kənd sakinlərinin 1872-1875-ci illərdə mülkədarla davam etmiş mübarizəsini[337, c.179-185] göstərmək olar.

XIX əsrin 80-ci illərində ödənc məsələsinin yaranması ilə, habelə pay torpaqları, vergi - mükəlləfiyyətlərlə bağlı kəndlilər və mülkədarlar arasında kəskin toqquşmalar qeydə alınmışdır. Xüsusilə XIX əsrin 70-ci illərinin sonu – 80-ci illərini əhatə edən arxiv sənədlərində kəndlilərin daha çox mülkədarların xeyrinə vergi verməkdən imtina etmələri əks olunmuşdur. 1878-ci il sentyabrın 12-nə aid olan bir arxiv sənədində Eçmiədzin qəzasının Xeyirbəyli və Hacı Bayram kəndlərinin mülkədarın xeyrinə vergi verməkdən imtina etmələrindən bəhs olunur. Arxiv sənədləri göstərir ki, bu mübarizə təxminən iki il davam etmiş, nəticədə sahibkar 1879-cu ilin vergilərini Xeyirbəyli kəndinin sakinlərindən alsa da, Hacı Bayram sakinləri onu tamamilə ödəməmişdilər[337, c.262-263].

Beləliklə, XIX əsrin 80-ci illərində, xüsusilə 90-cı illərinin əvvəllərindən etibarən İrəvan bölgəsində baş verən sosial hərəkatlarda yeni xüsusiyyətlər özünü göstərməyə başladı. Bu xüsusiyyətlər hərəkatların özünü daha açıq şəkildə göstərməsi və daha da kəskinləşməyə meyl etməsi ilə büruzə verirdi. Göstərilən yeni təzahürlərin əsas səbəbi fikrimizcə, artıq XIX əsrin sonlarında kənddə daxili mübarizə şəraitində kəndlilərin təbəqələşməsi və kapitalist münasibətlərinin inkişafı ilə bağlı olmuşdur. Məsələn, 1896-cı il iyunun 11-də İrəvan qəzasının Vərməziyar kənd sakinləri onların icma torpaqlarının 4 həmkəndliləri tərəfindən zəbt edilməsi ilə bağlı şikayət ərizəsi ilə müraciət etmişdilər[337,c.376].

1870-ci il aqrar islahatının hazırlanması dövründən etibarən kəndli hərəkatında daha bir əlamət özünü göstərməyə başladı. Bu dövlət və sahibkar kəndlilərinin çar hakimiyyət orqanlarının polis-bürokratiya istismarına qarşı çevrilmiş mübarizəsi idi. Kəndlilərin bu mübarizəsi ilk növbədə yerli hakimiyyət orqanlarının özbaşınalığına, hökumətin köçürmə siyasətinə qarşı çevrilmişdi. Köçürmə siyasəti

nəticəsində erməni, rus köçkünləri yerli əhalinin torpaqları hesabına ən münbit, bərəkətli torpaqlarda yerləşdirilir və xüsusi imtiyaz sahiblərinə çevrilirdilər.

İrəvan bölgəsində geniş miqyaslı kəndli hərəkatı XIX əsrin sonundan etibarən özünü daha açıq şəkildə göstərməyə başladı. Bu hərəkat çarizmin vergi zülmü zəminində yaranmış, təhkimçilik siyasəti isə onun genişlənməsini şərtləndirmişdi. XIX əsrin 70-80-ci illərində kəndli hərəkatı daha çox kəndli islahatının keçirilməsi və onun nəticələrinə qarşı mübarizəyə yönəlmişdi. XIX əsrin 80-ci illərinin sonu – xüsusilə 90-cı illərində bu hərəkatda kənd təsərrüfatında kapitalist münasibətlərinin inkişafı ilə əlaqədar olaraq, yeni meyllər müşahidə olunmağa başlamışdı. Artıq bu dövrdə kəndlilərin mübarizəsi təkcə çarizmin müstəmləkə zülmünə və feodal istismarına qarşı deyil, həm də kənd burjuaziyasının istismarına qarşı yönəlmişdi.

İrəvan bölgəsində kəndli hərəkatları müxtəlif formalarda təzahür etmişdir. Kəndlilərin öz narazılıqlarını, tələblərini, tələbatlarını ifadə etmək üçün istifadə etdikləri ən geniş yayılmış formalardan biri qəza, quberniya, canişinin nümayəndələrinə, İrəvan quberniyasını təftiş edən məmurlara yazdıqları şikayət məktublarıdır. Həmin məktubların təhlili göstərir ki, kəndlilər quberniya, Qafqaz və mərkəzi dövlət idarələrində aylar, illər, hətta onilliklər ərzində mülkədarların sıxışdırmalarına, çar məmurlarının özbaşınalıq və ədalətsizliklərinə qarşı öz hüquqlarını müdafiə etmək üçün mübarizə aparmalı olmuşlar.

Öz-özlüyündə kəndlilərin qanun çərçivəsində apardıqları bu mübarizə də çar məmurlarının narahatlıq keçirmələrinə səbəb olmuşdur. Məsələn, İrəvan qubernatorunun 1860-cı ildə Qafqaz canişinliyi baş idarəsinin rəisinə yazdığı məktubda kəndli şikayətlərinin "lazımı həddi aşdığı" qeyd olunurdu[337,c.14].

Kəndlilərin mübarizəsinin digər forması haqqında müxtəlif mülkədar qruplarının yerli və quberniya hakimiyyət orqanlarının nümayəndələrinə ünvanladıqları şikayət məktublarından məlumat əldə etmək olar. Bu məktublarda kəndlilərin məhsul və pul vergilərini verməkdən, müxtəlif mükəlləfiyyətləri yerinə yetirməkdən imtina etmələri kimi məsələlər öz əksini tapmışdır.

Mülkədar qruplarının şikayət məktublarının təhlili göstərir ki, kəndli mübarizəsinin bu forması xüsusilə 1870-ci islahatından sonra daha kəskin şəkil almış

və hakimiyyət orqanları ilə münaqişələrin baş verməsinə gətirib çıxarmışdı. Bu haqda təkcə mülkədar şikayətləri deyil, eyni zamanda hakimiyyət orqanları tərəfindən həyata keçirilən çoxsaylı qabaqlayıcı tədbirlər barədə məlumat verir.

Vergi verməkdən imtina edən kəndliləri itaətə gətirmək üçün çox zaman yerli polis orqanlarının köməyinə müraciət olunurdu.

Kəndlilərin feodal asılılığından azad olmaq üçün apardıqları mübarizənin formalarından birini də onların sahibkar torpaqlarından xəzinə torpaqlarına keçmələri təşkil edirdi. Bu mübarizə formasına kəndlilər daha çox çarizmin təhkimçi siyasət kursunun müəyyənləşdiyi 40-cı illərdən başlayaraq (1846-cı il reskripti, 1847-ci il “Kəndli Əsasnamələri”) bütün XIX əsr ərzində müraciət etmişlər. Kəndlilərin belə cəhdlərinə hətta mülkədarlarla onlar arasında ciddi narazılığın olmadığı dövrlərdə belə rast gəlmək mümkündür. Daha çox ciddi narazılığın mövcudluğu zamanı rast gəlinən hallarda isə kəndlilər elə bir güclü müqavimət göstərirdilər ki, onları adi vasitələrlə itaətə gətirə bilməyən hakimiyyət orqanları güc tətbiq etmək məcburiyyətində qalırdılar.

Qeyd etmək lazımdır ki, çar hakimiyyət orqanları bir çox hallarda kəndlilərə öz yaşayış yerlərini tərk edərək xəzinə torpaqlarına köçməyə icazə vermək məcburiyyətində qalırdılar. 1864-cü il mart ayının 19-da Dərələyəz mahalının Ağkənd yaşayış məntəqəsində yaşayan 17 ailənin xəzinə torpaqlarına köçmək üçün etdikləri müraciət 1865-ci il sentyabrın 6-da müsbət cavablandırılmışdı[337,c.126].

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bu mübarizə formasının mövcudluğu, yəni kəndlilərin Qafqaz ali hakimiyyət orqanlarının icazəsi ilə sahibkar torpaqlarından köçərək xəzinə torpaqlarında məskunlaşmaları, şübhəsiz ki, çarizmin bütün təhkimçi siyasəti və bu istiqamətdə dərc etdiyi qanunvericilik aktlarına baxmayaraq, Azərbaycan kəndlilərini torpağa təhkim etməyin uğursuzluğunu göstərən dolayı faktlardan biri hesab edilə bilər.

XIX əsrdə İrəvan bölgəsində kəndli hərəkatları həm çar hökumətinin, həm də yerli feodalların zülmünə qarşı çevrilmiş kütləvi çıxış  xarakteri daşımağa başlamışdır. Qeyd etmək lazımdır ki, bu mübarizə üsulu xüsusilə 1870-ci il islahatına qədərki dövrdə xeyli geniş yayılmışdı. Məsələn, kəndlilərin 1837-ci ildə Göyçədə baş

verən belə çıxışları çarizmin vergi zülmünə qarşı çevrilmişdi[378,c.16]. Mənbələrdən məlum olur ki, görülən tədbirlərin heç biri kəndliləri sakitləşdirməmiş, onlar vergiləri verməkdən imtina edərək öz nümayəndələrini Tiflisə baş komandanın yanına göndərmişdilər. Kəndliləri güzəştə getməyə məcbur etmək "Erməni vilayətinin" rəisi general Bebutova da müəssər olmamışdı. Buna görə də Qafqaz administrasiyası polkovnik Propikovun başçılığı altında oraya 2 bölük yeger və 100 kazak göndərməli olmuşdu. Maraqlıdır ki, hadisə ilə bağlı hərbi nazir Çernışevin vasitəsilə imperator I Nikolaya da məlumat verilmişdi. Rəsmi sənədlərin təhlili göstərir ki, Göyçə kəndlilərinin hərəkatı İrəvan bölgəsinin digər yerlərində də əks-səda doğurmuşdu.

Kəndlilərin coşqun kütləvi çıxışlarından biri də 3-4 onillik ərzində Yeni-Bəyazid qəzasının ağa kəndlilərinin mübarizəsi idi. XIX əsrin 40-cı illərində başlayan bu mübarizə 1899-cu ildə kəndlilərin ağaların asılılığından azad edilməsi ilə başa çatmışdı.

1844-cü ildə İrəvan qəzasının Gədikli və Dəlilər kəndlərinin sakinləri öz ağalarının xeyrinə hər hansı bir mükəlləfiyyət yerinə yetirməkdən imtina edərək bəyan etmişdilər ki, "onların kəndləri xəzinəyə məxsusdur və heç bir sahibkar tanımırlar" və "onlar həbsxanada cəza çəkməyə, yaxud Sibirə sürgün edilməyə razıdırlar, amma mülkədara heç bir vergi ödəməyəcəklər" [337,c.18].

Beləliklə, mənbələrin təhlili göstərir ki, İrəvan bölgəsində 1870-ci il islahatına qədər kəndli hərəkatı güclənən feodal-təhkimçi istismarına və çar hökumətinin ağır vergi zülmünə qarşı yönəlmişdi. 1870-ci ildən sonra isə kəndli hərəkatı başlıca olaraq islahatlara və onun təhkimli qalıqları ilə mübarizəyə həsr olunmuş, kənddə kapitalist münasibətlərinin ləng, lakin kifayət qədər nəzərəçarpacaq inkişafı fonunda, xüsusilə XIX əsrin 90-cı illərində, həmçinin kənddə yaranmış yeni imkanlı təbəqəyə qarşı çevrilmişdi. Qeyd etmək lazımdır ki, İrəvan bölgəsində kəndlilərin mübarizəsini şərtləndirən mühüm amillərdən birini də çarizmin köçürmə siyasəti təşkil edirdi. R.Niftəliyevin qeyd etdiyi kimi, "kəndlilərin mübarizəsini doğuransəbəblərdən olan yerli əhalinin xristianlaşdırılması və bu prosesitezləşdirmək məqsədilə Rusiyanın daxili quberniyalarından rusdilli, İran və Türkiyədən isə ermənilərin, digər xristian

məzhəbliəhalinin İrəvan, Yelizavetpol və Bakı quberniyalarındaməskunlaşdırılması" olmuşdur[214,s.15].

XX əsrin əvvəllərində Rusiyada ümumi iqtisadi böhran fonunda baş verən siyasi böhran sosial hərəkatların genişlənməsinə də şübhəsiz, öz təsirini göstərdi. Birinci rus inqilabının ilk illərində çarizmə qarşı böyük kəndli kütlələrinin mübarizəyə başlaması bunun bariz göstəricisi idi. İnqilab dövründə İrəvan bölgəsində kəndli mübarizəsi yeni xarakter kəsb edib ümumrusiya kəndli hərəkatı ilə qovuşaraq, iqtisadi tələblərlə yanaşı, siyasi tələblər də irəli sürməyə başladı. Kəndli hərəkatında meydana gəlmiş bu yeni təzahürlər həmin dövrdə artıq çar gizli polisinin də diqqətini cəlb etmişdi. Buna görə də Qafqaz xalqlarının həmrəyliyinin qarşısını almaq üçün ənənəvi "parçala və hökm sür" siyasətindən istifadə edən çarizm erməni quldur dəstələrinin dinc azərbaycanlılara divan tutmasına göz yumur, bir çox hallarda isə bu qanlı əməllərə rəvac verirdi.

1905-ci ildə yaranmış ümumi inqilabi vəziyyətdə çarizmin kəndli hərəkatını özü üçün necə bir təhlükə hesab etdiyini belə bir faktdan görmək mümkündür ki, ali Qafqaz hakimiyyəti canişin Vorontsov-Daşkovun timsalında həmin ilin sonunda mərkəzə Cənubi Qafqazda kəndlilərin ödənc vermədən pay torpaqları ilə birlikdə azad edilməsi və mülkədarların xəzinə hesabına mükafatlandırılması barədə layihə təqdim olunmuşdu[260,c.176-177]. Doğrudur bu layihə həyata keçirilməsə də, onun meydana çıxma səbəbləri tamamilə aydın idi: yalançı islahat vədləri ilə kəndlilərin inqilabi hərəkata qoşulmasının qarşısını almaq.

Göründüyü kimi, Cənubi Qafqazda, o cümlədən İrəvan bölgəsində yaranmış bu ümumi vəziyyət 1905-1907-ci illər inqilabı ərəfəsində və illərində, irticaçı 3 iyun sistemi dövründə də mövcud olmuş, Birinci Dünya müharibəsinin başlandığı dövrə qədər davam etmişdir.

Aparılan tədqiqatların təhlilləri göstərir ki, qısa zaman kəsiyində - XX əsrin ilk 15 ilində İrəvan bölgəsində sosial hərəkatlar bu mürəkkəb hadisə və proseslərlə zəngin dövrün güclü təsirinə məruz qalmışdır. Lakin bölgədə mövcud olan kəndli hərəkatı qonşu Gürcüstanda olduğu kimi, mülkədarlara və çarizmin zülmünə qarşı kütləvi inqilabi çıxışlar səviyyəsinə qədər yüksəlmədi.

XX əsrin əvvəllərində İrəvan bölgəsində mövcud olmuş kəndli hərəkatlarının ümumi gedişatı və xüsusi əlamətləri baxımından aşağıdakı kimi müəyyənləşdirmək mümkündür: İnqilabi böhranın yetişməsi ərəfəsində (1900-1904) İrəvan bölgəsində kəndli hərəkatı bir qayda olaraq mülkədarlara qarşı ayrılıqda, hərdən isə kəskin, lakin dağınıq mübarizə çərçivəsindən kənara çıxmır və müxtəlif formalarda təzahür edirdi.

Qeyd etmək lazımdır ki, bölgədə çarizmin köçürmə siyasəti nəticəsində yaranmış problemlər XX əsrin əvvəllərində də qalmaqda və kəndli hərəkatına təsir göstərməkdə davam edirdi. Bu, xüsusilə 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi zamanı və bu müharibədən sonra bölgəyə köçürülmüş erməni kəndlilərinin etirazlarında özünü göstərirdi. İrəvan və Eçimədzin qəzalarının müxtəlif kəndlərinə köçürülmüş bu əhali qrupu torpaqsızlıqdan şikayətlənərək ona istinad edirdilər ki, “onların hamısı Rusiya təbəəliyini və pravoslav inancını qəbul etmişlər” [260,c.177-178]. Özgə torpaqlarında məskunlaşmış həmin kəndlilər İrəvan quberniyası dövlət əmlakını idarə edən məmurdan onlara ərazi ayrılmasını tələb edirdilər.

Bəhs olunan dövrdə sahibkar və dövlət kəndlilərinin əsas mübarizə predmeti torpaq idi. Bu mübarizə təkcə mülkədarlarla kəndlilər deyil, eyni zamanda kəndlilərin öz aralarında da baş verirdi. Məsələn, İrəvan qəzasının Kəlalay kəndinin sakinlərinin 1901-ci 10 mart tarixli şikayət ərizəsində qeyd olunur ki, “Qonşu Hacı Eylaz, Haçapara və Acıqışlaq kəndlərinin sakinləri bizim bağlarımızın mərz nişanlarını məhv etmiş, sərhədləri keçmiş və bizim torpaqlarımızın bir hissəsini zəbt etmişlər. Bizim aramızda xoşagəlməz hadisələr və tez-tez toqquşmalar baş verir, lakin bununla yanaşı, bizim təmsilçilərimiz bağların sərhədlərinin qeyri müəyyən olması səbəbindən qonşuları inandırmaq və torpaqlarımızı geri qaytarmaq iqtidarında deyillər” [260,c.179]. Ərizədən məlum olur ki, Haçapara və Acıqışlaq kəndləri sahibkar mülkləri olub keçmiş İrəvan xanlarının mülkiyyətinə daxil idi və bu kəndlər mübahisə predmeti olan torpaqları öz əraziləri hesab edirdilər. Şikayət edənlər isə köçürmə siyasəti nəticəsində burada məskunlaşdırılmış və əslində iddia üçün heç bir hüquqi əsası olmayan əhali qruplarından ibarət idi. Beləliklə, ərizədən də anlaşıldığı kimi, bölgədə kəndli çıxışlarının səbəblərindən birini də çarizmin köçürmə

siyasətinin nəticəsi olaraq yad elementlərin burada yerli azərbaycanlıların dədə-baba torpaqları hesabına məskunlaşdırılması təşkil edirdi. Əslində köçürmə siyasəti və onun daşıyıcıları onsuz da əkinəyararlı torpaqlar baxımından vəziyyəti o qədər də yaxşı olmayan bölgə üçün əlavə problemlər gətirmişdi.

Yuxarıda göstərilənlərlə yanaşı, qeyd etmək lazımdır ki, torpaq yenə də əsasən mülkədarlar və kəndlilər arasında əsas mübahisə obyekti idi. Kəndlilərin yerli hakimiyyət orqanlarına ünvanladıqları şikayət məktublarında daha çox mülkədarların onların pay torpaqlarını zəbt etmələrindən, qanunsuz mülk vergisinin toplanmasından, mülkədarların suvarma suyundan qeyri-qanuni istifadə etmələrindən və s. bəhs olunur.

Eçmiədzin qəzasının Yuxarı Ağcaqala kəndinin sakinlərinin 1901-ci il 24 aprel tarixli şikayət ərizəsində Qaraqovmaz kənd sakinlərinin mülkədarın təhriki ilə onların əkin sahələrinin bir qismini, kürdlərin isə qışlaqları zəbt etməsindən bəhs olunur. Yenə həmin ilin 30 iyununa aid olan Yeni Bəyazid qəzasının Yellicə kəndinin mülkədarı A.Makaşev tərəfindən yazılmış şikayət ərizəsində Dələkli kənd sakinlərinin müəyyən edilmiş hüdudu keçərək onun torpaqlarını zəbt etmələri qeyd olunur[260, c.182-183].

Həmin dövrdə kəndlilərin etirazına səbəb olan hadisələr içərisində mülkədarların onların pay torpaqlarını zəbt etmələri xüsusi yer tuturdu. İrəvan qəzasının Bağcacaq kənd sakinləri Vəli Salman oğlu və Əli Kərbəlayi Tahir oğlu tərəfindən yazılmış 1901-ci il 13 sentyabr tarixli şikayət ərizəsində qeyd olunurdu ki, “Bizim bağımızla qonşu olan Süleymanbəyovlar bizim pay torpağımızın bir hissəsini qanunsuz olaraq tutaraq istifadə edirlər” [260,c.184].

Kəndlilərin etirazına və yerli hakimiyyət orqanlarına şikayət etmələrinə səbəb olan amillərdən biri də mülkədarların qanunsuz olaraq onlardan mülk vergisi tələb etmələri ilə bağlı idi. İrəvan qəzasının Buğamlı kənd sakinləri Əli Məşədi Abbas oğlu və Kərbəlayi Məhərrəm Məmməd oğlunun imzası ilə 1901-ci il avqustun 24-də yazılmış şikayət ərizəsində kəndin sahibi Məmməd ağa Sultanovun kənd icmasından onların imkanları xaricində olan vergiləri ödəməyi tələb etməsindən bəhs olunur[260,c.184].

Qeyd etmək lazımdır ki, etiraz əlaməti və mübarizə formalarından biri kimi kəndlilər tez-tez vergiləri ödəməkdən, mükəlləfiyyətləri yerinə yetirməkdən imtina edirdilər ki, bu mülkədarların hakimiyyət orqanlarına şikayət ərizəsi ilə müraciət etmələrinə səbəb olurdu. Belə şikayət ərizəsi ilə 1907-ci il aprelin 17-də İrəvan qəzasının Ərinc kəndinin mülkədarı Q.Məlik-Ağamalov, 1909-cu ilin iyununda və 1911-ci ilin oktyabrında yenə həmin qəzanın Zöhrablı kəndinin sahibləri Həsən-Cəlalovlar müraciət edərək kəndlilərin mülk vergisini ödəməkdən imtina etdiklərini və onların mülkədar hüquqlarının pozulduğunu qeyd edirdilər[260,c.233].

İrəvan bölgəsi kəndlilərinin etirazlarına səbəb olan hallardan birini də suvarma suyunun düzgün bölüşdürülməməsi və mülkədarların bu istiqamətdə törətdiyi qeyri-qanuni əməllər təşkil edirdi. 1902-ci ilin avqustunda Eçmiədzin qəzasının Sərdarabad kəndinin sakinləri onlara məxsus olan suvarma suyunun İrəvan sakini S.Yegizarov tərəfindən qanunsuz olaraq ələ keçirilməsi barədə İrəvan quberniyasının dövlət əmlakını idarə edən məmura şikayət ünvanlamışdılar. Növbəti ilin oktyabrına aid olan yeni şikayət məktubunda isə S.Yegizarovun Sərdarabad kəndlilərinə məxsus olan torpaq sahələrini də zəbt edilməsi barədə məlumat verilirdi [260, c.188-189]. Rus əsarətinə və çarizmin mustələkəcilik siyasətinə,milli və dini zülmə qarşı xalq hərəkatları,üsyanlar baş verdiyi zaman müsəlman ruhanilər bu üsyanların başında dururdular.

Bundan başqa, kəndli kütlələrinin torpaq icarəsi ilə bağlı qolçomaqlarla, xüsusilə pay torpağının bölgüsü ilə bağlı mülkədarlarla apardıqları mübarizə də xüsusi əhəmiyyət daşıyırdı. Məsələn, 1907-1909-cu illərdə İrəvan qəzasının Zod kəndində icarədarlar və mülkədarların kəndlilərlə mülk vergisi ilə bağlı mübahisəsi baş vermişdi. Eynilə icarədarlarla sakinlər arasında baş vermiş belə bir insidentə 1907-ci ilin sentyabrında İrəvan qəzasının Donquzian kəndində, 1910-cu ilin yanvar-iyun aylarında yenə həmin qəzanın Kitran kəndində baş vermiş hadisələrin timsalında rast gəlmək mümkündür[260,234,238,241].

Yuxarıda göstərilən məlumatların təhlili belə qənaətə gəlməyə əsas verir ki, İrəvan bölgəsi kəndlilərinin XX əsrin əvvəllərində feodallara qarşı mübarizəsinin əsas üsulları içərisində yenə də mübarizənin şikayət ərizələri yazma, vergi və

mükəlləfiyyətləri ödəməkdən boyun qaçırma kimi passiv formaları üstünlük təşkil edirdi.

Qeyd etmək lazımdır ki, 1907-ci ilin iyununda II Dumanın qovulması ilə başlayan irticacı 3 iyun sistemi illərində belə, kəndlilərin yerli feodallara, qolçomaqlara və çar hakim dairələrinə qarşı mübarizəsi səngiməmişdi. Kəndli hərəkatını əks etdirən arxiv sənədlərinin təhlili belə bir maraqlı faktı da ortaya çıxarır: bir çox hallarda dövlət orqanlarına şikayətçi qismində kəndlilər tərəfindən vergilərin ödənilməsindən imtina edilməsi nəticəsində mülkiyyət hüquqlarının pozulması iddiası ilə mülkədar və icarədarların özləri çıxış edirlər.

Azərbaycanda həyata keçirilən 1870-ci il islahatının müddəalarına əsaslanan yerli hakimiyyət orqanlarının nümayəndələrinin mülkədar malikanələrində torpaqların dövrü olaraq bölüşdürülməsi qaydasını ləğv etmələri də kəndlilərin çıxışlarına səbəb olan başlıca amillərdən biri idi. Bununla heç cür barışmayan kəndli kütləleri XIX əsrin son rübündən başlayaraq, XX əsrin iki onilliyi ərzində mübarizə aparmış, qubernatorun qarşısında torpaqların yenidən bölüşdürülməsi ilə bağlı vəsatət qaldırmışdlar.

Yeni Bəyazid qəzasının Aşağı Qaranlıq kənd sakinləri torpaqların yenidən bölüşdürülməsi uğrunda 1912-ci ildən 1914-cü ilədək mübarizə aparmışdılar. Kənd əhalisi təmsilçilərinin 1912-ci il 25 fevral tarixli şikayət ərizəsində qeyd edilirdi ki, "28 il ərzində bizim kəndimizin torpaqları yenidən bölüşdürülməmişdir, nəticədə yoxsul təbəqə pay torpaqlarının çatışmazlığından olduqca əziyyət çəkir, bununla yanaşı öz istifadələri üçün xeyli torpaqları əllərində cəmləşdirmiş zənginlər onların hesabına daha da varlanmışlar..." [260, c.283-284,288-292]. Eynilə bu xahişlə Yeni Bəyazid qəzasının Basarkeçər kəndinin sakinləri də 1912-1914-cü illərdə İrəvan qubernatoruna və Qafqaz canişinin mülki hissə üzrə köməkçisinə müraciət etmişdilər.

Torpaqların bölüşdürülməsi uğrunda kəndlilərin mübarizəsi çar hakimiyyət orqanları ilə yanaşı, pay torpaqlarının ən yaxşı qismini öz əllərində cəmləşdirmiş və bölüşdürmə barədə verilən vəsatətlərə qarşı müxtəlif üsullarla maneçilik törədən kənd qolçomaq təbəqəsinə də qarşı çevrilmişdi.

Beləliklə, XIX əsr və XX əsrin əvvəllərində İrəvan bölgəsində baş vermiş sosial hərəkatların səbəblərini ümumiləşdirərək belə bir qənaətə gəlmək mümkündür ki, həmin hərəkatlar ictimai-iqtisadi həyatın bir sıra problemlərindən, habelə çarizmin məkrli köçürmə siyasətindən qaynaqlanırdı. Kəndli etirazlarının kökündə ilk səbəblərdən biri kimi, XIX əsrin 40-cı illərindən etibarən çarizmin həyata keçirdiyi təhkimçilik siyasəti dayanırdı. Xüsusilə çarizmin yerli feodallarla ittifaqa girməsi və onları himayə etməsi kəndlilər üzərində istər-istəməz mülkədar hakimiyyətinin güclənməsinə səbəb olmuşdur. Bununla yanaşı, Azərbaycanda heç bir zaman təhkimçilik ənənələri və onun yaranması üçün zəruri şərtlərin də olmaması səbəbindən çarizmin bu istiqamətdə həyata keçirdiyi siyasət uğur qazana bilmədi.

XIX əsrin 70-ci illərində kəndli islahatının həyata keçirilməsi feodal-asılı münasibətlərə ağır zərbə vursa da, sözün əsl mənasında onu tamamilə aradan qaldırmadı. Nəticədə kəndlilər hüquqi cəhətdən azad, iqtisadi cəhətdən asılı kimi müvəqqəti mükəlləfiyyətli vəziyyət adlanan aralıq bir vəziyyətdə qaldılar. Beləliklə, XIX əsrin 70-ci illərindən etibarən kəndlilərin etiraz hərəkatının yeni bir dalğası – təhkimçilik qalıqlarına qarşı mübarizə dövrü başladı.

İrəvan bölgəsində kəndli hərəkatının spesifik cəhətlərindən biri də nisbi qeyri-fəal formalarına üstünlük verilməsi idi. Buna görə də kəndlilərlə hakimiyyət orqanları arasında iri silahlı qarşıdurma, yaxud kütləvi zorakılıq hallarına demək olar ki, olduqca az təsadüf edimişdir. Bunun əsas səbəbi Azərbaycan kəndlisinin bütün tarix boyunca azad olması, mülkədarların onların həyatları barədə sərəncam vermək kimi səlahiyyətlərinin olmaması ilə bağlı idi. Buna görə də Şimali Azərbaycanın bütün bölgələrində, o cümlədən İrəvan bölgəsində kəndli hərəkatları böyük qarşıdurmalar və zorakılıqla müşayiət edilmirdi.

XX əsrin əvvəllərində İrəvan bölgəsində kəndli hərəkatları əvvəlki dövrdəki əlamətlərini saxlasa da, yeni xüsusiyyətlər də kəsb etməmiş deyildi. Bu dövrdə kəndin öz daxilində yoxsul kəndlilərlə varlılar arasında torpaq və torpaqdan istifadə məsələləri ətrafında ziddiyyətlər xeyli dərinləşmişdi. Bu əlbəttə, həmin dövrdə kapitalist münasibətlərinin kəndə geniş şəkildə nüfuz etməsi ilə bağlı olmuşdur. Lakin bunula yanaşı, qeyd etmək lazımdır ki, göstərilən dövrdə kəndli hərəkatının

əsas mübarizəsi yenə də mülkədarlara və onların dayağı kimi çıxış edən çar hakimiyyət orqanlara qarşı aparılırdı.

## 3.4. Mədəniyyət

Rusiya imperiyasının Qafqazda həyata keçirdiyi siyasət bütövlükdə imperiyanın mənafelərinə, regionun siyasi, iqtisadi və mədəni cəhətdən əsarət altında saxlanılmasına xidmət etmişdi. İctimai-siyasi həyatın bütün sahələrində olduğu kimi, çarizmin mədəniyyət sahəsində həyata keçirdiyi siyasət də bu mənada istisna təşkil etmirdi. Lakin diyarda öz mövqelərinin möhkəmlənməsinə yardım etməyə qadir olan məmurlar ordusu hazırlamağa xidmət edən yeni xalq təhsili sisteminin yaradılması zərurəti ilə qarşılaşan Rusiya imperiyası təhsil sahəsində müəyyən addımlar da atmağa məcbur idi.

Məktəb və təhsil. Rus işğalından sonrakı dövrdə də Cənubi Qafqazın azərbaycanlılar yaşayan hissələrində ibtidai təhsil yenə də ənənəvi məktəblərdə cəmləşmişdi. Müsəlman ruhanilərinin ixtiyarında olan, qəti təhsil müddəti, tədris proqramı, şagirdlərin yaş üzrə qruplara bölünməsi qaydalarının tətbiq edilmədiyi ənənəvi ibtidai məktəblər məktəbyaşlı uşaqların hamısını deyil, yalnız onda birini əhatə edirdi[271,c.127-128]. Qeyd etmək lazımdır ki, yeni ictimai-iqtisadi münasibətlərin yaranması, iqtisadi inkişafın sürətlənməsi fonunda ənənəvi məktəblər artıq öz əhəmiyyətini itirməyə başlamışdı.

Cənubi Qafqaz diyarının idarəçiliyinin müxtəlif sahələrində imperiyanın məmur kadrlarına olan ciddi ehtiyacını ödəmək məqsədilə hakim dairələr yerlərdə rus məktəblərinin açılması qərarına gəldi. Cənubi Qafqazda rus məktəblərinin açılması üçün hüquqi əsas 1829-cu il "Əsasnaməsi" idi[360, c.571-574]. Şimali Azərbaycanda dünyəvi xalq maarifi sisteminin tarixinin başlanğıcı hesab edilən bu nizamnaməyə[152,s.19] görə Cənubi Qafqazda açılan bu tip məktəblər ümumrusiya xalq maarifi sisteminin bir hissəsi sayılsa da, onlar regionun şəraitindən doğan bəzi xüsusiyyətlərə malik idilər.

“Əsasnamə”nin tələblərinə uyğun olaraq Azərbaycanın bir sıra bölgələrində açılan qəza məktəblərindən biri də 1832-ci il yanvarın 14-də İrəvanda fəaliyyətə başladı[300,81,86]. Azərbaycanlı uşaqların da təhsil aldıqları bu məktəbdə 1844-cü ilin sentyabrından etibarən Azərbaycan dili dərsi birinci sinifdə iki saat, ikinci sinifdə isə bir saat artırılmışdı.

Məlumatlar göstərir ki, İrəvan qəza məktəbində azərbaycanlı şagirdlərin sayı o qədər də çox deyildi. Tədqiqatçı İ.Məmmədovun Ermənistan Mərkəzi Dövlət Arxivinin məlumatlarına əsasən verdiyi göstəricilərdən aydın olur ki, qəza məktəbində 1850-ci ildə cəmisi 15, 1852-ci ildə 20,[194,628] 1863-cü ildə isə 24 nəfər azərbaycanlı uşaq təhsil alırdı,[194,s.536]. Ölkədə irticanın güclənməsi ilə əlaqədar olaraq 1848-1853-cü illərdə kəndli uşaqlarının qəza məktəblərinə qəbul edilməsinin tamamilə qadağan olunması[301,c.51] da bu məktəblərdə azərbaycanlıların sayına mənfi təsir göstərən amillərdən biri idi.

XIX əsrin ikinci yarısında baş verən sosial-iqtisadi dəyişikliklər şəraitində rus məktəblərinin milli ideallara, ənənəvi məktəblərin isə yeni dövrün tələblərinə cavab verməməsi dünyəvi milli məktəb uğrunda hərəkatın başlanmasına səbəb oldu.

Beləliklə, XIX əsrin ikinci yarısında baş verən sosial-iqtisadi və mədəni dəyişikliklərin təsiri altında həmin əsrin 70-ci illərində “üsuli-cədid” hərəkatı genişləndi. Bu hərəkatın təsiri altında ayrı-ayrı məktəblər tədris prosesini yeni üsul əsasında qurmağa başladı. Əsas prinsiplərindən birinin köhnəlmiş heca üsulunun alternativi olan səs üsulu təşkil edən üsuli-cədid məktəblərinin xüsusi əhəmiyyəti həm də ilk dəfə olaraq elmin əsaslarının Azərbaycan dilində öyrədilməsindən ibarət idi.

Azərbaycanın tarixi torpaqlarının bir qismi kimi İrəvan bölgəsində də göstərilən dövrdə anadilli məktəb məsələsi xüsusi diqqət mərkəzində saxlanılırdı. Mənbələrin verdiyi məlumatlardan görünür ki, 1880-ci ildə İrəvan qəzasının Uluxanlı kəndində, 1882-ci ildə isə İrəvan şəhərinin özündə yeni tipli məktəblər fəaliyyətə başlamışdı[122,s.11].

XIX əsrin 80-ci illərindən başlayaraq İrəvan bölgəsinin əhalisi azərbaycanlılardan ibarət olan kəndlərində yeni tipli məktəblərin fəaliyyətə başlaması

prosesi xeyli sürətlənmişdi. Yeni tipli məktəblər 1883-cü ildə İmanşalı, 1884-cü ildə Zod, 1889-cu ildə Böyük Vedi, 1895-1896-cı illərdə Uluxanlı, Qəmərli, Basarkeçər, Mahmudlu, Qurdqulu, Başkənd, Yengicə və Çobankərə kəndlərində fəaliyyətə başladı[194,s.537].

Statistik məlumatlara əsasən qeyd etmək olar ki, əhali ənənəvi məktəblərdən fərqli olaraq yeni tipli məktəblərə daha çox və həvəslə üz tuturdu. Bunu aşağıdakı cədvəldən də aydın şəkildə görmək mümkündür: [194,s.537;191,s.98]

Cədvəl 3.4.1

| İllər | Təhsil alan şagirdlərin sayı | |
|---|---|---|
| | Ənənəvi məktəblər | Yeni tipli məktəblər |
| 1886 | 672 | 3551 |
| 1887 | 567 | 5155 |

Statistik məlumatlar bir daha onu deməyə əsas verir ki, İrəvanda yeni üsulla təhsil verən məktəblərə maraq olduqca yüksək olmuşdur. Bu tip məktəblərə marağın artması həm də 1881-ci il martın 31-də İrəvan gimnaziyasının açılması ilə də şərtlənirdi. Gimnaziyada təhsil alan şagirdlərin milli tərkibinə nəzər salsaq görərik ki, 1883-cü il yanvarın 1-i üçün gimnaziyada 33 nəfər rus, 7 nəfər gürcü, 151 nəfər erməni, 37 nəfər azərbaycanlı, 1 nəfər yəhudi, 2 nəfər alman təhsil alırdı[194,s.622].

Təkcə Azərbaycanın deyil, bütövlükdə Qafqazın müsəlman əhalisinin dünyəvi təhsilə olan ehtiyacının ödənilməsində heç şübhəsiz 1881-ci il noyabrın 3-də açılan İrəvan Müəllimlər Seminariyasının mühüm rolu olmuşdur. İlk buraxılışı 1885-ci ildə olmuş seminariyanın məzunları arasında 25 nəfər azərbaycanlı da var idi[152,s.119].

İbtidai məktəb müəllimi vəzifəsində işləmək səlahiyyəti olan seminariya məzunları demək olar ki, bütün Qafqaz regionunda çalışırdılar.

Qeyd lazımdır ki, nə İrəvan Müəllimlər Seminariyası, nə də Qori Müəllimlər Seminariyasının 1879-cu ildə açılmış Azərbaycan şöbəsi ibtidai Azərbaycan məktəblərinin, o cümlədən rus-tatar məktəblərinin ehtiyacı üçün kifayət qədər müəllim kadrları hazırlamaq iqtidarında deyildi. İrəvanda mövcud müəllim

kadrlarının şagird kontingenti ilə nisbət təşkil etməməsini, hətta 1897-ci il siyahıyaalınmasının məlumatlarından da aydın şəkildə görmək mümkündür. Rəsmi məlumatda göstərilir ki, İrəvanda bütün məktəbyaşlı uşaqları təhsilə cəlb etmək üçün 54 məktəb komplekti (hər birində 1 müəllim, 50 şagird) lazım olduğu halda, hazırda İrəvanın ibtidai məktəblərində 10 müəllim və 496 şagirddən ibarət cəmi 10 komplekt vardır[194,s.537].

İrəvan bölgəsində azərbaycanlılar say cəhətdən çoxluq təşkil etmələrinə baxmayaraq, onların dünyəvi təhsil sisteminə cəlb olunma səviyyəsi qeyri-qənaətbəxş idi. 1891, 1897, 1899 və 1900-cü il məlumatlarına görə İrəvan quberniyasının dünyəvi məktəblərində təhsil alan şagirdlərin milli mənsubiyyətinə görə bölgüsünə nəzər salsaq görərik ki, İrəvan gimnaziyasında 1891-ci ildə təhsil alan 245 şagirddən 18 nəfəri, 1897-ci ildə təhsil alan 296 şagirddən 29 nəfəri, 1899-cu ildə təhsil alan 333 şagirddən 42 nəfəri, 1900-cü ildə təhsil alan 326 şagirddən 42 nəfəri azərbaycanlı olmuşdur[320, c.82-83;321, c.72-74;323, c.84-87;324, c.64-67]. Müqayisə üçün qeyd edək ki, gimnaziyada 1891-ci ildə 145 erməni, 70 rus, 1897-ci ildə 166 erməni, 84 rus, 1899-cu ildə 187 erməni, 82 rus, 1900-cü ildə isə 183 erməni, 80 rus təhsil alırdı[320, c.82-83;321, c.72-74;323, c.84-87;324, c.64-67].

Bölgədə fəaliyyət göstərən digər təhsil müəssisələrində də vəziyyət eyni idi. İrəvan müəllimlər seminariyasında 1891-ci ildə təhsil alan 66 şagirddən 11, 1897-ci ildə təhsil alan 59 şagirddən 8, 1899-cu ildə təhsil alan 73 şagirddən 13, 1900-cü ildə təhsil alan 76 şagirddən 15 nəfəri azərbaycanlı idi[320, c.82-83;321, c.72-74;323, c.84-87;324, c.64-67]. İbtidai məktəblərdə təhsil alan azərbaycanlı şagirdlərin də sayı nəzərəçarpacaq dərəcədə az idi. 1897-ci ildə 2598 şagirddən cəmi 675 nəfəri, yaxud 25,9%, 1900-cü ildə isə 6983 şagirddən 800 nəfəri, yaxud 11,4%-i azərbaycanlı uşaqlar idi.

Qeyd etmək lazımdır ki, azərbaycanlı uşaqların təhsilə cəlb edilməsində maarifpərvər ziyalıların rolu da olduqca böyük əhəmiyyət daşıyırdı. Xalqın inkişafı üçün yeganə çıxış yolunu maariflənməkdə görən bu ziyalılar qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün şəxsi vəsaitlərini belə əsirgəmir, fədakarlıqla fəaliyyət göstərirdilər. Belə ziyalılara misal olaraq, öz vəsaiti hesabına İrəvanda oğlan və qız

Leyli məktəbləri açmış əslən irəvanlı olan keçmiş çar zabiti Məmmədqulu bəyi[198,s.17], azərbaycanlı uşaqlara təmənnasız dərs deyən Molla Tağı Mahmud oğlunu, 1856-1885-ci illərdə Mirzə Ələkbər Elxanov kimi vətənpərvərləri göstərmək olar[194,s.540].

İrəvanın maarifpərvər ziyalılarının yeni tipli məktəblər açılması istiqamətində təşəbbüsləri hakim dairələr tərəfindən cavabsız qalsa da, əhali öz vəsaiti hesabına 1898-ci ildə belə bir məktəb təşkil edə bilmişdilər[194,s.628]. Nəzarətçisi Haşımbəy Vəzirovun təyin edildiyi bu məktəbin birinci bölməsində artıq 1900-cü ildə 54 şagird oxuyurdu[194,s.629].

Gətirilən faktlar bir daha sübut edir ki, İrəvan bölgəsində maarifpərvər ziyalıların anadilli məktəb uğrunda mübarizəsi Azərbaycan maarifçilik hərəkatının tərkib hissəsini təşkil etməklə, bölgədə təhsilin inkişafında əhəmiyyətli rol oynamışdır.

Şimali Azərbaycanın digər regionları kimi, İrəvan bölgəsində də yeni təhsil və tədris üsulu uğrunda müntəzəm xarakter alan mübarizə çar Rusiyasının həyata keçirdiyi qatı millətçi və ermənipərəst siyasət fonunda olduqca mühüm əhəmiyyətə malik idi. Ana dilində dünyəvi elmlərin öyrənilməsi, gənc nəslin düzgün tərbiyə edilməsi həmin dövrdə çarizmin və ermənilərin təzyiqləri məngənəsində sıxılan bölgənin əsil sahibləri olan azərbaycanlılar üçün öz milli kimliklərini qoruya bilməyin yeganə vasitəsinə çevrilmişdi.

XX əsrin əvvəllərində milli-azadlıq hərəkatının təsiri altında əvvəlki dövrlə müqayisədə digər sahələrdə olduğu kimi, maarif sistemində də bir sıra inkişaf xüsusiyyətləri nəzərə çarpırdı. Lakin çarizmin həyata keçirdiyi ənənəvi ayrı-seçkilik siyasəti milli ucqarlarda təhsil sisteminin inkişafının qarşısında duran başlıca əngəllərdən biri kimi hələ də qalmaqda davam edirdi.

XX əsrin əvvəllərindəAzərbaycanda dünyəvi məktəblər şəbəkəsi nəzərəçarpacaq dərəcədə inkişaf edirdi. Bu dövrdə maarif sistemində yaranmış müsbət təzahürlərdən biri müsəlman qızların təhsilə daha çox cəlb edilməsindən ibarət idi.

İrəvan bölgəsində XX əsrin əvvəllərində fəaliyyət göstərən təhsil müəssisələrini təxminən belə qruplaşdırmaq olar: 1) ibtidai və orta məktəblər; 2) Müəllimlər seminariyası; 3) fərdi məktəblər; 4) ənənəvi məktəblər. Qeyd etmək lazımdır ki, ibtidai məktəblər ya xəzinə hesabına, yada ictimai vəsait hesabına maliyyələşdirilirdi. "Кавказский календарь" bülleteninin məlumatına görə 1902-ci ildə İrəvan quberniyasında fəaliyyət göstərən ibtidai məktəblərdən 6-sı xəzinə hesabına maliyyələşirdi[326,c.83]. İctimai əsaslarla fəaliyyət göstərən ibtidai məktəblərdən 14-ü şəhər, 12-si zemski, 8-i ikisinifli, 10-u birsinifli, 10-u xristian məktəbi idi[326,c.83]. 1902-ci ilə aid "İrəvan quberniyasının yaddaş kitabı" adlı mənbədə isə İrəvan quberniyasında İrəvan kişi gimnaziyası, İrəvan Qız Gimnaziyası, İrəvan Müəllimlər Seminariyası, 3 sinifli İrəvan şəhər məktəbi, 2 sinifli İrəvan qız məktəbi, İrəvan Müəllimlər Seminariyası nəzdindəki məktəb, 2 sinifli İrəvan rus-tatar məktəbi və İrəvan türmə nəzdində 1 sinifli məktəbin fəaliyyət göstərdiyi məlum olur[351, c.72-78]. Ümumilikdə isə İrəvan quberniyasında 99 ibtidai məktəb fəaliyyət göstərirdi[326,c.83].

Qeyd etmək lazımdır ki, göstərilən dövrdə bölgədə azərbaycanlı qızların dünyəvi təhsil sisteminə cəlb edilməsi prosesi Bakıda müsəlman qız məktəbinin açılmasından sonra geniş vüsət aldı. 1901-ci ildə Antonina Valentina Kalininanın təşəbbüsü ilə azərbaycanlı qızların dünyəvi təhsil almaları üçün rus-tatar məktəbinin açılması bu prosesin əsasını qoydu[194,s.99]. Bu məktəb Qafqazda müsəlman qızların təhsil aldıqları üç məktəbdən biri idi.

1913-cü il sentyabrın 15-də P.V.Miansarovanın təşəbbüsü ilə İrəvanda ikinci şəhər qız məktəbinin açılması azərbaycanlı qızların təhsilə cəlb edilməsi işində növbəti mühüm addımlardan biri idi. Açıldığı ildə 18 şagirdlə fəaliyyətə başlayan məktəbdə təhsil 1916-cı ildə iki şöbədə həyata keçirilirdi. Məlumatlardan görünür ki, 1915-1916-cı tədris ilində məktəbdə 24 azərbaycanlı qız təhsil alırdı.

XX əsrin əvvəllərində İrəvan bölgəsində azərbaycanlı uşaqların ibtidai təhsilə cəlb edilməsi hələ də qənaətbəxş səviyyədə deyildi. Təhsilə cəlb edilmək baxımından azərbaycanlıların ermənilərdən xeyli geri qalmasını aşağıdakı məlumatlardan da görmək mümkündür.

1916-cı il yanvarın 1-nə olan məlumata görə İrəvan quberniyasının ibtidai məktəblərində təhsil alan erməni və azərbaycanlı şagirdlərin sayı: [329,c.310]

Cədvəl 3.4.2

| Azərbaycanlılar | | Ermənilər | |
|---|---|---|---|
| oğlan | Qız | oğlan | qız |
| 1090 | 96 | 5629 | 1283 |

XX əsrin əvvəllərində bölgədə qızların təhsilə cəlb edilməsi prosesi əvvəllki dövrlə müqayisədə xeyli dərəcədə sürətlənsə də, digər millətlərlə müqayisədə yenə də böyük gerilik müşahidə olunurdu. Məsələn, 1916-cı ildə quberniya üzrə təhsil alan qızların cəmi 5,2 %-ni azərbaycanlı qızlar təşkil edirdi[329,c.310].

Statistik məlumatlar onu deməyə əsas verir ki, XX əsrin əvvəllərində əvvəlki dövrlə müqayisədə İrəvan şəhərində fəaliyyət göstərən dünyəvi təhsil müəssisələrində azərbaycanlı şagirdlərin sayı nəzərəçarpacaq dərəcədə artmışdı. Şagirdlərin milli mənsubiyyətinə və onların təhsil müəssisələri üzrə təmsil olunmalarına dair 1916-cı il aid olan məlumatlar bunu deməyə əsas verir. Həmin məlumatlara əsasən 1916-cı ildə İrəvan gimnaziyasında təhsil alan 727 şagirddən 141, Müəllimlər Seminariyasında təhsil alan 117 şagirddən 22, Ripsime gimnaziyasında təhsil alan 405 şagirddən 14, ali ibtidai məktəblərdə təhsil alan 88 şagirddən 22 nəfəri azərbaycanlı olmuşdur[329,284,288,290,298,304].

Azərbaycanlı uşaqların gimnaziyalara hazırlaşmaları prosesində İrəvan şəhərində fəaliyyət göstərən iki pansionatın[230,s.45] da mühüm rolu olmuşdur. Cəfər bəy Cəfərov və İbadulla bəy Muğanlinski tərəfindən açılmış bu pansionatlarda tədris yeni təhsil üsuluna uyğun şəkildə qurulmuşdu. Bu təhsiləqədərki tədris müəssisələrinin əhəmiyyəti onunla izah oluna bilər ki, xalqımızın böyük ictimai və elm xadimləri olan Mustafa Topçubaşov, Əziz Şərif, Mirəhməd Miryəhyayev kimi şəxslər ilk təhsillərini məhz burada almışdılar.

Qeyd etmək lazımdır ki, İrəvan bölgəsində xalq təhsilinin inkişafına ən müxtəlif maneələr mənfi təsir göstərirdi. Çar hökumətinin yaratdığı bürokratik

əngəllər, maliyyə çatışmazlığı, xüsusilə 1914-cü ildə Birinci Dünya müharibəsinin başlaması ilə bölgənin cəbhəyanı əraziyə çevrilməsi təhsil sisteminin normal inkişafına əngəl törədirdi. İrəvan şəhərinin rus qoşunlarının toplanış məntəqəsinə çevrilməsi, məktəb binalarında əsgərlərin yerləşdirilməsi xüsusilə 1915-1916-cı tədris ilinin başlanğıcında böyük çətinliklər yaratmışdı.

Çarizmin müstəmləkəçilik və ruslaşdırma siyasətinin mənfi təzahürlərindən biri hesab edilən ana dilli təhsilin sıxışdırılması Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan bölgəsində də özünü tam çılpaqlığı ilə göstərirdi. Qafqaz Tədris dairəsinin qəyyumunun 1903-cü ilə aid hesabatında qeyd edilirdi ki, mahalın bütün ibtidai məktəblərinin 92,4%-də dərslər rus dilində keçilir, məktəblərin yalnız 7,6%-də şagirdlərə ana dili tədris edilir[122,s.17].

Milli ucqarlarda təhsilin inkişafına yaratdığı süni əngəllərlə kifayətlənməyən çar hökuməti mövcud məktəbləri də müxtəlif bəhanələrlə zaman-zaman bağlayırdı. Hökumətin bu siyasətinin nəticəsi olaraq 1920-ci ilə kimi artıq bölgədə 15 rus-tatar məktəbi qalmışdı[122,s.16]. Qeyd etmək lazımdır ki, 1917-1918-ci illərdə baş verən mürəkkəb siyasi hadisələr, xüsusilə Ararat Respublikasının yaranması azərbaycanlıların təkcə fiziki deyil, həm də mənəvi cəhətdən soyqırıma məruz qalmaları ilə nəticələndi. Daşnakların iki il sürən hakimiyyəti dövründə İrəvan bölgəsində Azərbaycan məktəblərinin bağlanması prosesi daha da sürətləndi. Hətta iş o yerə çatmışdı ki, 1920-ci ildə İrəvan bölgəsində cəmi 2-3 rus-tatar məktəbi qalmışdı[122,s.16].

Gətirilən faktlar sübut edir ki, İrəvan bölgəsinin yerli sakinləri olan azərbaycanlılar XIX əsrin ikinci yarısında geniş vüsət almış maarifçilik hərəkatından kənarda qalmamış, yaradılmış bütün süni əngəllərə baxmayaraq, dünyəvi təhsil sistemi qura bilmişdilər. XIX əsrin sonu-XX əsrin əvvəllərində bölgənin təhsil sistemində əldə edilmiş nəzərəçarpacaq uğurlar çar Rusiyasının və onun dəstəklədiyi erməni millətçilərinin məkrli və qanlı siyasəti nəticəsində olduqca böyük zərər görmüşdür.

Elm. XIX əsrdə Azərbaycanın sosial-iqtisadi inkişafı, dünyəvi təhsil sisteminin formalaşması, yeni istehsal sahələrinin meydana çıxması kökləri hələ orta əsrlərə

söykənən Azərbaycan elminin inkişafını da labüd edirdi. Artıq bu dövrdə Azərbaycan mütəfəkkirləri ənənəvi elm sahələri ilə yanaşı, digər yeni elm sahələri ilə də maraqlanır, dünyəvi elmlərin əxz olunmasına xüsusi diqqət yetirirdilər.

Cənubi Qafqazın, xüsusilə Şimali Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı fonunda ölkənin təbii sərvətlərinin, relyefinin öyrənilməsinə yaranmış ehtiyac geologiya, coğrafiya, kimya kimi elmlərin inkişafı üçün münbit zəmin yaradırdı.

XIX əsrin ikinci yarısında Qərb elminin pozitiv təzahürlərinin Azərbaycan elminə daxil olması istiqamətində Şimali Azərbaycan ziyalıları arasında aparılan qızğın diskussiyalar İrəvan bölgəsindən də yan keçməmişdi. İrəvanın elmi-mədəni mühitində böyük nüfuza malik olan Firudin bəy Köçərli və İrəvanlı Haşım bəy Vəzirov bu sahədə xüsusilə fərqlənmişdilər. Məsələn, Firudin bəy Köçərli Azərbaycan elminin ləng inkişafının səbəbi kimi müsəlman ruhanilərinin cahilliyində və islam dininin mülki qanunlarının mütləqləşdirilməsində görürdü[281, c.103-112].

Göstərilən problemi daim diqqət mərkəzində saxlayan H.Vəzirov da islamın bəzi təriqət və ayinlərini, xüsusilə bidətçi cərəyanlar olan müridizm və babiliyi tənqid edirdi[309].

Yuxarıda göstərilən hər iki ziyalının mövqeyi bir daha onu sübut edir ki, həmin dövrdə görkəmli maarifçi M.F.Axundovun fəlsəfi ideyaları İrəvan bölgəsinin ziyalıları tərəfindən mənimsənilmişdi.

M.F.Axundovun elmi-fəlsəfi və maarifçi ideyalarından bəhrələnən F.Köçərli böyük mütəfəkkirin işlərini davam etdirərək Qərb elmindən tərcümələr edərək onu elmi-pedaqoji mühitə çatdırmağa çalışmışdı. Bu istiqamətdə fəaliyyət göstərən F.Köçərli yunan filosofu Sokratı ana dilinə tərcümə edərək “Təlimati Sokrat” adı ilə 1891-ci ildə Baxçasarayda çap etdirmişdi[224].

Yeni elmi-fəlsəfi dünyagörüşünün yayılması qarşısında əngələ çevrilmiş cahil din xadimlərini kəskin tənqid edən F.Köçərli qeyd edirdi ki, “...inkişaf üçün nəinki Şərqdən, hətta xristian Qərbindən də kitab, qəzet gətirmək vacibdir” [234].

Artıq XIX əsrin ortalarında baş verən ictimai-siyasi proseslər özünü İrəvan elmi mühitində də göstərməyə başlamışdı. Bu dövrdən etibarən artıq İrəvan ziyalıları içərisində sözün həqiqi mənasında alimlər, dünyəvi xadimlər yetişməyə başlamışdı.

Əslən irəvanlı olan və dünyəvi elmlər sahəsində uğurlara imza atmış şəxslərdən biri 1851-ci ildə İrəvanda zadəgan ailəsində doğulmuş, Tiflisdə D.Kipiani pansionunu, 1871-ci ildə isə real gimnaziyanı bitirmiş, daha sonra Peterburqda Əkinçilik İnstitutunda təhsil almış İsasultan Şahtaxtinski idi. Bundan başqa Paris və Londonda iki il Siyasi iqtisada, Sürixdə isə təbiətşünaslığa dair mühazirələrə qulaq asan İ.Şahtaxtinski 1875-ci ildə "Təbiət və cəmiyyətin inkişafında meşənin rolu" mövzusunda magistr dissertasiyasını da uğurla müdafiə etmişdi[308]. Qeyd etmək lazımdır ki, elmimizdə təbiətin mühafizəsi və bitkilər aləminə həsr edilmiş bu əsərlə Azərbaycanda dendrologiya elminin əsası qoyulmuşdur. Bu baxımdan İ.Şahtaxtinski yalnız analoji tədqiqatlar aparmış H.Zərdabi ilə müqayisə edilə bilər.

İ.Şahtaxtinski təbiət elmləri ilə yanaşı siyasət və tarix kimi elm sahələrinə də maraq göstərmişdir. 1877-ci ildə "Kavkazski almanax" adlı məcmuə nəşr etdirərək burada sanballı məqələrlə çıxış edən İ.Şahtaxtinskinin siyasi və tarixi məsələlərə həsr etdiyi "Şərq böhranı" adlı əsəri bu baxımda xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan elmini Avropa miqyasına çıxaran, onu Avropada layiqli şəkildə təmsil edən görkəmli tədqiqatçılardan biri, Şahtaxtinskilər nəslinin digər tanınmış nümayəndəsi M.Şahtaxtinski olmuşdur. M.Şahtaxtinski Tiflis gimnaziyasını bitirmiş, daha sonra Leypsiq Universitetinin fəlsəfə, hüquq və tarix fakültəsində təhsil almışdır. Ərəb, fars, alman, fransız, rus dillərini mükəmməl bilən tədqiqatçı diqqəti cəlb etmiş və 1898-ci ildə Parisdə Şərq xalqlarının dillərini tədqiq edən nəhəng elmi mərkəzə dəvət olunmuşdu. M.Şahtaxtinskinin elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin bariz nümunələrindən biri onun ən nüfuzlu təhsil müəssisələrindən hesab edilən Sarbonna Universitetinə müəllim kimi dəvət edilməsi idi[289,c.144].

XIX əsrin ikinci yarısında İrəvanda fəaliyyət göstərən ziyalıların gərgin əməyi hesabına ölkəşünaslıq və folklorşünaslıq kimi sahələrdə də müəyyən irəliləyişlər baş vermişdi. Belə ziyalılardan biri olan F.Köçərli İrəvan azərbaycanlılarının folklor nümunələrinin toplanmasında xüsusi fəallıq göstərirdi.

Rusiya imperiyası tərəfindən Qafqaz diyarının əhalisi, adət-ənənələrinin öyrənilməsi istiqamətində irəli sürdüyü təşəbbüsün nəticəsi olaraq meydana çıxmış

“Qafqaz əraziləri və tayfalarının təsvirinə dair materialların toplusu” (Сборникь материаловь для описания местностей и племень Кавказа (СМОМПК)) məcmuəsində Qafqaz xalqlarının müxtəlif folklor nümunələri nəşr edilmişdir. Göstərilən məcmuənin 1890-cı il 9-cu burxılışında İrəvanda müəllim işləyən Mirhaşım Vəzirovun topladığı folklor nümunələri nəşr edilmişdir[281, c.103-112].Digər müəllim Rəhim Xəlilov tərəfindən nəşr edilmiş məqalədə İrəvan müəlmanlarının məhərrəmlik təziyələri ilə bağlı mərasimlər, adət və ənənələr geniş şəkildə təsvir edilmişdir[400, c.166-188].

İrəvan bölgəsinin folklor nümunələrinin toplanaraq geniş oxucu kütləsinə çatdırımasında Məhəmməd Vəli Qəmərlinin də mühüm xidmətləri vardır[173].

Yuxarıda göstərilən ziyalıların gərgin əməyi nəticəsində Azərbaycanın böyük bir bölgəsinin əhalisinin dini-fəlsəfi dünyagörüşünü əks etdirən mühüm nümunələr günümüzə qədər gəlib çatmışdır.

Mədəniyyətin mühüm tərkib hissəsi olan elmin İrəvan bölgəsində XIX əsrin ikinci yarısında inkişafının araşdırılması göstərir ki, yeni müsbət təzahürlərin təsiri altında göstərilən dövrdə bölgədə bu sahədə köhnə stereotiplər artıq aradan qalxmağa, dünyəvi elmlər inkişaf etməyə başlamışdı. Məhz bu inkişafın nəticəsi idi ki, artıq bölgə ziyalıları ənənəvi elmlərlə yanaşı fundamental elmlərə də xüsusi diqqət yetirir, hətta Azərbaycan elmini ölkə hüdudlarından kənarda da layiqincə təmsil edə bilirdilər.

Ədəbiyyat.XIX əsrin ikinci yarısında İrəvan bölgəsində mədəniyyətin bütün sahələrində baş verən dəyişikliklər özünü ədəbiyyatda da göstərirdi. İctimai-siyasi sahədə baş verən yeniliklər ədəbiyyata daha dərindən sirayət edir,Qərb mədəniyyətinin təsiri altında yeni janrlar və ideya istiqamətləri meydana gəlirdi. Bununla yanaşı, qədim köklərə və ənənələrə malik olan Azərbaycan ədəbiyyatının mühüm sahələri daha da inkişaf edir, yeni yaranmış sahələrin inkişafı isə milli xüsusiyyətlərə əsaslanırdı.

XIX əsrin ikinci yarısında Azərbaycan ədəbiyyatında baş verən mühüm keyfiyyət dəyişiklikləri İrəvan bölgəsinin ədəbi mühitində də özünü göstərirdi. İrəvan bölgəsinin mədəniyyət xadimlərinin yeni müsbət təzahürləri düzgün

dəyərləndirmələri, dünya mədəniyyətinin mühüm töhfələrindən lazımınca bəhrələnmələri XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində də şəhərin Cənubi Qafqazda Azərbaycan mədəniyyətinin mərkəzlərindən biri kimi əhəmiyyətinin qorunub saxlanmasında mühüm rol oynadı. F.Köçərlinin dediyi kimi, "keçmişdə mərkəzi-üləma, füzəla və şüara olan şəhri-İrəvan"[245,s.19] böyük dəyişikliklərin müşahidə olunduğu XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində də bu statusunu qoruyub saxlamışdı.

Bəhs olunan dövrdə İrəvan ziyalılarının ədəbiyyat, başlıca olaraq isə mədəniyyət qarşısında yerinə yetirdikləri mühüm xidmətlərdən biri heç şübhəsiz qonşu ölkələrdə kitabların çapı, dünya ədəbiyyatından müxtəlif tərcümələr və ana dilində orijinal kitabların nəşr olunması idi [194,s.543].

Göstərilən dövrdə yeni inkişaf mərhələsinə qədəm qoymuş İrəvan ədəbi mühiti müəyyən dərəcədə köhnə ənənələri də qoruyub saxlayırdı. Bu dövr ədəbiyyatı əsasən əsərlərin daha çox doğma dildə, qismən isə fars və ərəb dillərində yazılması ilə xarakterizə edilə bilər.

Aparılmış tədqiqatlar göstərir ki, XIX əsrdə İrəvan ədəbi mühitində "Bəzmi" təxəllüsü ilə yazan Məşədi İsmayıl Hacı Kazımzadə, "Mütəlle" təxəllüslü Mirzə Kazım Qazi Əsgərzadə, Axund Əhmədov, "Sabir" təxəllüsülü Hacı Seyid Rza Əmirzadə, Mirzə Əlixan Şəmsül Hükəma, Ləli kimi şairlər yazıb-yaratmışlar[245,s.19]. Məsələn, Seyid Rza Əmirzadənin şeirləri ilk mətbu orqanımız olan "Əkinçi" qəzetində də nəşr edilirdi.

Göstərilən dövrdə müşahidə olunan müsbət təzahürlərdən biri də şairlərin öz əsərlərini nəşr etdirməyə təşəbbüs göstərmələridir. Bu istiqamətdə ilk təşəbbüs göstərən şair  Molla Hüseyn İrəvani öz əsərini 1888-ci ildə Təbrizdə daş basması üsulu ilə çap etdirmişdir[202].

Əslən irəvanlı olan, İranda "Həkimlər günəşi" kimi fəxri ada layiq görülmüş Ləli İrəvani Qacar hökmdarı Müzəffərəddin şahın həkimi olmuşdur.  Mirzə Əlixan Ləli Azərbaycan və fars dilində mükəmməl şeirlər yaratmışdır[200;201]. Dövrünün görkəmli şairi kimi tanınmış, həm lirik, həm də satirik üslubda şeirlər yazmışdır.

Şairin satirik şeirlərində cəmiyyətdə mövcud olan naqis hərəkətlər, sosial ədalətsizlik kimi problemlər ustalıqla əks olunmuşdur.

XIX əsrdə İrəvanda yaşamış şairlərdən “Qəsaid” və “Növhəcat” adlı əsərlərin müəllifi olan[15] Möhtac Hacı Əbdülhüseyn İrəvani və Münzib təxəllüsü ilə yazan Fətəli Hacı Həsən oğlu İrəvani də Azərbaycan ədəbiyyatı tarixinə istedadlı şairlər kimi daxil olmuşlar.

Qeyd olunan şairlərdən başqa, İrəvan zadəgan nəsillərinin bir çox nümayəndələri içərisindən də tanınmış söz ustadlarına rast gəlinir. Əslən Qacar tayfasına mənsub olan İrəvan xan nəslindən çıxmış bu şairlərdən İrəvan xanı Məhəmməd xanın üç övladını-Çeşmə təxəllüslü Rzaqulu xan İrəvanini, Qabil təxəllüslü Hüseynəli xan İrəvanini, Şəhab təxəllüslü Həsən xan İrəvanini göstərmək olar[221,s.192]. Göstərilən şairlərdən başqa zadəgan nəslindən çıxmış Aşüftə İrəvani xan adı ilə məşhur olan, anadilli şeirin inkişafında xidmətlər göstərmiş Kəlbə Həsən, Höccət İrəvani, əsasən Qacar şahdəzəsi Abbas Mirzəni mədh etmiş Hərif İrəvani də dövrün qüdrətli söz sənətkarları kimi tanınmışlar.

XIX əsr Azərbaycan şeirinin inkişafında xüsusi xidmətləri olmuş şairlərdən öz şeirlərində həm də İrəvanın tarixi abidələri, onların inşası tarixi haqqında səhih məlumatlar vermiş Dəlil İrəvani və Aşub İrəvani də xüsusilə seçilirlər.

XIX əsrin ikinci yarısında İrəvan ədəbi mühitinin inkişaf xüsusiyyətlərindən biri də bədii tərcümə sənətinin geniş intişar tapması təşkil edir. Sosial-iqtisadi və mədəni əlaqələrin inkişafı fonunda yaranmış tələbatla bağlı olaraq göstərilən dövrdə Qərbi Avropa və Rusiya bədii ədəbiyyatının nümunələri doğma dilimizə tərcümə edilir və azərbaycanlı oxuculara çatdırılırdı. Bədii tərcümə sahəsində mühüm xidmətləri olmuş İrəvan ziyalılarından Əbülfət Şahtaxtinski Hötenin “Gənc Verterin iztirabları”nı[193,s.99], Mirzə Əli Qəmərlinski Molyerin “Zorən təbib” əsərini Azərbaycan dilinə çevirmişdilər[246].

Göstərilən dövrdə rus ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə çevrilməsi istiqamətində də mühüm nailiyyətlər əldə olunmuşdu. Bu istiqamətdə fəaliyyət göstərən F.Köçərli, A.Məmmədzadə, C.Sultanov, İ.Şəfibəyov rus klassiklərindən xeyli tərcümələr etmişdilər. Məsələn, F.Köçərli Puşkinin “Torçu və balıq”

əsərini[235], Lermontov və Kolsevin “Üç xurma ağacı və ya kişi niyə yatıbsan?”[238] şeirlərini dilimizə çevirib nəşr etmişdi. Digər ziyalı İ.M.Əkbərov M.Y.Lermontovun nəzmə çəkdiyi “Aşıq Qərib” adlı Azərbaycan nağılını ana dilimizə tərcümə edərək İrəvanda nəşr etdirmişdi[125].

Qeyd etmək lazımdır ki, tərcümə sənətinin inkişafı onunla bağlı olan digər bir sahənin-nəşr işinin də yaranıb inkişaf etməsinə səbəb oldu. Göstərilən dövrdə İrəvan şəhərində fəaliyyət göstərən “Güləmiryan”, “Edilson”, “Kultura” və “Lüis” mətbəələri yeni şriftlər sayəsində ərəb qrafikası əsasında Azərbaycan dilində kitablar nəşr edirdilər. Bu da öz növbəsində şəhərdə Məhəmməd Axundov, Əkbər Hüseynov, İbrahim Xəlilov, kimi peşəkar naşirlər[192,s.30] nəslinin yetişməsinə mühüm təsir göstərdi.

Bədii tərcümənin və nəşr işinin inkişafı öz növbəsində yeni ədəbi janrların da yaranmasına mühüm təsir göstərmişdi. Bu sahədə ilk dəfə qələmini sınayan ədiblərdən biri olan Eynəlibəy Sultanov mətbuat səhifələrində vaxtaşırı olaraq müxtəlif məqalələrlə çıxış edirdi. Bundan başqa, Eynəlibəy Sultanov “Tatarka” (“Azərbaycan qadını”) adlı ilk bədii əsərini İrəvanda rus dilində nəşr etdirmiş, pyes rus səhnəsində də tamaşaya qoyulmuşdu. İrəvan ədibləri içərisində yeni ədəbi janrlara müraciət etməsi ilə müəllif xüsusilə seçilirdi.

Vasaq Məmmədov “Gözə görünməyən şal” adlı bir hissəli vodevil[196] (həcmcə bir o qədər böyük olmayan, bəzən bəndləri və rəqsi də olan məzəli teatr pyeslərinə, habelə birpərdəli şən komediya-İ.K.), “Tamahkarlıq düşmən qazanır” adlı üç məclisdən ibarət komediya[197] yazmış və İrəvanda nəşr etdirmişdi.

Göstərilən əsərlər Azərbaycan ədəbiyyatında yeni yaranmış janrların İrəvan ədəbi mühitində ilk nümunələri olmaqla, şəhərdə teatr sənətinin inkişafına da mühüm təsir göstərmişdir.

Yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, XIX əsrin ikinci yarısı-XX əsrin əvvəllərində İrəvan ədəbi mühiti ənənəvi və yeni olmaqla iki mühüm istiqamət üzrə inkişaf edirdi. Ənənəvi istiqamətə mənsub olan ədiblər əsasən klassik ənənələrə üstünlük verir, yaradıcılıqlarında daha çox lirik və dini mövzulara müraciət edirdilər. Lakin qeyd olunduğu kimi, hətta Ləli kimi klassik üslubun nümayəndəsinin

yaradıcılığında tənqid və satira meyillərinin müşahidə olunması bu istiqamətin də bir xətt üzrə sabit inkişaf etmədiyinin göstəricisidir.

İrəvan ədəbi mühitində yeni ədəbi janrlar və təfəkkür tərzi ilə müşaiyət olunan ikinci istiqamətə mənsub olan ədiblərin yaradıcılığı heç şübhəsiz, maarifçilik ideyalarının təsirinə məruz qalmışdılar. Yeni ədəbi janrların yaranması və inkişafında qeyd etdiyimiz kimi, rus ədəbiyyatı və onun vasitəsilə Avropa ədəbi mühiti ilə tanışlıq mühüm rol oynamışdı.

Qeyd etmək lazımdır ki, XIX əsin sonu, XX əsrin əvvəllərində İrəvan ədəbi mühitində müşahidə edilən bu meyllər ümumilikdə Azərbaycanda baş verən ədəbi proseslərlə sıx vəhdətdə olub qarşılıqlı surətdə inkişaf edirdi.

Aşıq sənəti. Dədə Qorqud ənənələrinə söykənən Azərbaycan aşıq sənətinin mühüm mərkəzlərindən biri olan Qərbi Azərbaycan daim  özünəməxsus inkişaf xüsussiyyətləri, ustad aşıqları ilə seçilmişdir. Mədəniyyətin ümumi yüksəlişi ilə əlaqədar XIX əsrin ikinci yarısında öz inkişafının yeni dövrünə qədəm qoymuş İrəvan-Göyçə aşıq məktəbi göstərilən dövrdə də Azərbaycan mədəniyyətinə unudulmaz simalar bəxş etmişdir.

Tarixən Göyçə aşıq sənətinin mərkəzi olmaqla ətraf bölgələrə mühüm ədəbi təsir göstərmiş, İrəvan şəhəri və onun ətrafındakı bölgələr isə yaradıcılıq nümunələrinin qorunub saxlanması sahəsində mühüm xidmətlər göstərmişdir. Buna misal olaraq İrəvan aşıqlarının dastan yaradıcılığının tipik örnəyi olan “Aşıq Ələsgərin Zəngibasar səfəri” adlı dastanı göstərmək olar[127,s.24].

Bütövlükdə coşqun inkişaf yolu keçmiş İrəvan-Göyçə aşıq məktəbi XIX əsr boyunca daha da təkmilləşmiş, onun müraciət etdiyi mövzular içərisində ictimai-siyasi mövzular, xalqı narahat edən problemlərin dilə gətirilməsi kimi mühüm məsələlər ön plana çıxmağa başlamışdı.

İrəvan bölgəsinin öz adını qızıl hərflərlə mədəniyyət tariximizə yazmış aşıqlarından biri Göyçə mahalının Kərkibaş kəndində doğulmuş, Aşıq Alının ustadı olmuş[220,s.9], Ağ Aşıq adı ilə tanınan Aşıq Allahverdi idi.

Bölgədə öz dəsti-xətti, yaradıcılıq üslubu ilə tanınmış ustad aşıq kimi məşhurlaşmış Aşıq Alı Mirzə oğlu 1801-ci ildə Çiçəkli kəndində dünyaya göz

açmışdır. Yüz il ömür sürən məşhur aşıq qoşma, gəraylı, təcnis, müxəmməs, divani və s. janrlarda şeir qoşmuş, habelə yeni saz havaları da yaratmışdır[163,s.41].Günümüzədək otuza qədər şeiri gəlib çatan Aşıq Alının "Aşıq Alının Türkiyə səfəri" adlı dastanı da vardır[220,s.9]. Aşıq Alı həm də korifey sənətkar Aşıq Ələsgərin ustadı olmuşdur.

İrəvan bölgəsinin aşıq məktəbinin görkəmli nümayəndələrindən biri olmuş Aşıq Əsəd Rzayev (1875-1950) Əzizli kəndində doğulmuşdur. Yaradıcılığı xüsusi zənginliyi ilə seçilən asıq Azərbaycan SSR Yazıçılar İttifaqının üzvü olmuş, "Şərəf nişanı" ilə təltif edilmişdir[163,s.41].

Aşıq Məhərrəm (1825-1910) və Aşıq Əziz (1825-1918) İrəvan bölgəsi aşıqları içərisində öz dəsti-xətti və yaradıcılıq üslubu ilə seçilən sənətkarlar kimi tanınmışlar. Dövrünün ictimai eyiblərinə, ədalətsizliyə biganə qalmayan Aşıq Əziz cəmiyyətdə gördüyü naqis cəhətləri tənqid etdiyinə görə dəfələrlə həbs edilərək sürgün olunmuş, hətta saz çalması qadağan edilmişdi[220,s.36].

XIX əsr Azərbaycan aşıq şeiri öz inkişafının zirvə nöqtəsini görkəmli söz ustadı, öz intellekti və xüsusi istedadı ilə seçilən Aşıq Ələsgərin (1821-1926) yaradıcılığında tapmışdır.

Aşıq Ələsgər Göyçə mahalının Ağkilsə kəndində kasıb kəndli ailəsində dünyaya göz açmışdır. Ağır maddi ehtiyac içərisində yaşayan aşıq, cəmiyyətdə mövcud olan ictimai eyibləri, hökm sürən sosial ədalətsizliyi, yuxarı təbəqələrin özbaşınalıqlarını müşahidə etmiş və bütün bunları öz yaradıcılığında xırda incəliklərinə qədər əks etdirə bilmişdi.

Böyük intellektə, zəngin dünyagörüşünə malik olan Aşıq Ələsgər tez bir zamanda ustad aşıq səviyyəsinə yüksəlmiş, vətənini qarış-qarış gəzərək el məclislərində iştirak etmişdir[148,s.13]. S.Paşayevin düzgün olaraq qeyd etdiyi kimi, "... Aşıq Ələsgər xalq akademiyasını bitirmiş xüsusi istedada malik dühaydı" [216,s.57].

Aşıq şeirinin müxtəlif janrlarına uğurla müraciət edən ustad sənətkar qoşma, gəraylı, təcnis, cığalı təcnis, ustadnamə, müxəmməs, gəraylı və s. əvəzsiz sənət nümunələri yaratmışdır. Aşıq Ələsgərin bütün əsərləri poetik fikirlə ifadə tərzi,

dilinin sadəliyi, rəvanlığı ilə seçilir. Aşıq şeirinin hazırcavab-intellektual təzahürünü özündə əks etdirən deyişmə sənəti də məhz ustad aşığın sayəsində yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur.

Aşıq Ələsgər yaradıcılığı klassik və yeni ənənələrin məharətli sintezi ilə seçilir. Bir tərəfdən klassik ənənəyə sadiq qalan Aşıq Ələsgər məhəbbəti, gözəlliyi və digər dəyərləri ustalıqla tərənnüm etmiş, digər tərəfdən isə, dövrünün ictimai eyiblərini eyni sənətkarlıq və ustalıqla oxucunun diqqətinə çatdırmışdır. Aşığın hətta lirik şeirləri də istər məzmununa, istərsə də ifadə vasitələrinə görə öz müasirliyi ilə seçilmişdir. Bu amil özünü xüsusilə aşığın gözəlləmələrində daha aydın şəkildə göstərir. Azərbaycan aşıq sənətinin məşhur tədqiqatçılarından olan Q.Namazov bunu nəzərə alaraq göstərirdi ki, “Bu gözəlləmələrdə aşığın bədii ifadə vasitələri bəzən ədəbi irsimizdən, klassik bədii söz sənətindən irəli gəlsə də, vəsf edilən xarakter öz təbiəti, ruhu etibarilə yenidir, müasirdir[185,s.96].

Aşıq sənətinin yeni inkişaf dövrü kimii ctimai-siyasi proseslərin daha sürətlə inkişaf etdiyi XX əsrin əvvəlləri daha xarakterik bir mərhələ kimi diqqəti cəlb edir. Göstərilən dövrün xarakterik xüsusiyyətlərindən biri heç şübhəsiz, ictimai-siyasi həyatda baş verən hadisə və proseslərin, mövcud reallıqların xalq yaradıcılığına sirayət etməsi, yeni ideya-bədii məzmun kəsb etməsi olmuşdur. Bu da öz növbəsində, xalq yaradıcılığında, xüsusilə aşıq sənətində realizm ənənələrinin daha da güclənməsində özünü büruzə vermişdir.

XX əsrin əvvəllərində İrəvan bölgəsinin yaşadığı faciəli taleyi yaşayan İrəvan el sənətkarlarının yaradıcılığında Azərbaycan xalqının düçar olduğu fəlakətlər bədii boyalarla təsvir edilmiş, xalqın qəhrəman oğulları vəsf olunmuşdur. Ümumiyyətlə, XX əsrin əvvəlləri dövrü üçün İrəvan aşıq ədəbiyyatı həm də bölgənin tarixi haqqında təsəvvür yaratmaq üçün qiymətli məxəz rolunu oynamaqdadır.

Faciəli tale yaşayan, erməni qəsbkarlarının amansız terror siyasəti nəticəsində öz dədə-baba yurdlarını tərk edərək qaçqın həyatı yaşamağa məcbur olan, çoxunun taleyi naməlum qalan İrəvan aşıqlarının yaradıcılığında erməni vəhşiliyinə qarşı inamlı mübarizə aparmış xalqın qeyrətli oğulları haqqında məlumatlar mühüm yer tutmuşdur. Belə xalq qəhrəmanlarından biri qeyrətli oğulları öz ətrafına toplayaraq

Vedini düşmən işğalından qoruyan Abbasqulu bəy Şadlınskinin obrazı və ümumilikdə həmin dövrdə Vedidə baş vermiş hadisələr Şahablı Aşıq Cəlilin (?-1918) bizə gəlib çatmış bir şeirində təsvir olunmuşdur[127,s.402].

Vedibasar mahalının Şahablı kəndində anadan olan Aşıq Cəlil[188,s.179] erməni vəhşiliyinin və xəyanətinin bilavasitə şahidi olmuş, lakin mənfur düşmən qarşısında baş əyməmişdir. Ona görə də ermənilər aşığın dilini dibindən qopardaraq, üstünə neft töküb, sazı ilə birlikdə kərmə qalağı içərisində diri-diri yandırmışlar[153,s.529].

Vedibasar mahalının Qarabağlar kəndində anadan olmuş Aşıq Xudayar da ermənilərin İrəvan bölgəsində həyata keçirdiyi qanlı soyqırımı aktlarını, habelə Abbasqulu bəyin başçılığı altında xalqın mənfur düşmənə qarşı apardığı mübarizəni ətraflı təsvir etmişdir[127,s.403]. Bundan başqa görkəmli el sənətkarı Abbasqulu bəylə yanaşı, erməni vəhşilərinə qarşı mübarizə aparmış Məhərrəm, İbrahim, Xəlil, Nəbi, Nəcəf, Qəmlo, Kəblə İsmayıl kimi vətənpərvərlərin də adını çəkmişdir[127,s.403-404]. Eyni zamanda aşıq öz şeirlərində Azərbaycan xalqının qəddar düşmənləri, qaniçən daşnaklar – Andranik, Njde və digərlərinin adını çəkərək onların törətdikləri qanlı cinayətləri təsvir etmişdir[127,s.404].

İrəvan mahalının Sürməli qəzasının Hüseyn kəndində anadan olan görkəmli el sənətkarı Yaqub Mustafa oğlunun (1881-?) da yaradıcılığının ana xəttini bölgə əhalisinin məruz qaldığı soyqırımı və düçar olduğu ağır qaçqınlıq həyatı təşkil edir.

Əslən Vedibasar mahalının Kotuz kəndindən olan Aşıq Məhəmməd Adıgözəl oğlu Kotuzlu[188,s.182] da doğma yurdundan didərgin düşmüş, erməni vəhşiliyinin bilavasitə şahidlərindən olmuşdur. Keçirdiyi ağır günlər, üzləşdiyi ədalətsizliklər və vəhşiliklər aşığın yaradıcılığına da sirayət etmişdir. Aşığın bizə gəlib çatmış ən məşhur əsərləri olan “Məscidin”, “Qanadında Ayla Günün nişanı”, “Səndən mənə bir imdad”, “Qoşma”, “Sənin”, “İbrahim Xəlil”, “Məni”, “Ay gavur” şeirlərində bu hal özünü açıq-aydın şəkildə göstərməkdədir.

Zod kəndində anadan olmuş el şairi Hacı Əliş ağanın (1838-1919) bölgənin ədəbi ənənələrinin inkişaf etdirilməsində mühüm xidmətləri vardır. Qori Müəllimlər Seminariyasında təhsil almış, ərəb, fars və rus dillərini mükəmməl öyrənmiş Hacı

Əliş ağa Şərq, eləcə də, Azərbaycan klassiklərinin ədəbi irsini dərindən bilirdi[188,s.116]. Göyçə ədəbi mühüti ilə yaxından əlaqə saxlamışdır. Hacı Əliş ağa 1880-1885-ci illərdə İrəvan quberniyasında və Qarabağda dövlət idarələrində çalışmış, məşhur tarixçi Mirzə Adıgözəl bəylə dostluq əlaqələri saxlamışdır. “Molla Nəsrəddin” jurnalı ilə də yaxından əlaqə saxlayan Hacı Əliş ağa, jurnal üçün Sabir üslubunda satirik şeirlər də yazmışdır. Görkəmli sənətkarın da taleyi faciəli olmuş, 1918-ci ildə ermənilərin törətdiyi soyqırımı nəticəsində doğma yurdunu tərk etmiş və 1919-cu ildə Gəncədə vəfat etmişdir[184,s.160].

Aşıq Ələsgərin qardaşı Məhəmməd Alməmməd oğlu da xalq arasında şair Məhəmməd və ya Çoban Məhəmməd kimi tanınmışdır. Erməni millətçilərinin Azərbaycan xalqına tutduğu amansız divan şairin yaradıcılığından da yan keçməmiş, onun yaradıcılığının mühüm bir hissəsini erməni vəhşiliyi, torpaq, yurd həsrəti təşkil etmişdir. Şairin xüsusilə “Fələk” rədifli şikayətnaməsində Göyçədə erməni quldurlarının törətdiyi faciələr təfsilatı ilə təsvir olunmuşdur[156,s.289].

Əslən Göyçənin Alçalı kəndindən olan Məhərrəm Alçalının (1825-1910) yaradıcılığında da erməni quldurlarının azərbaycanlılara qarşı törətdiyi cinayətlər bədii şəkildə öz əksini tapmışdır. Şair öz şeirlərində 1905-1906-cı illərin hadisələrini, doğma xalqına qarşı törədilən cinayətləri ürək yanğısı ilə təsvir etmişdir.

Xüsusilə, XX əsrin əvvəlləri dövrü üçün İrəvan ədəbi mühitinin öyrənilməsi, bölgə əhalisinin mədəni inkişaf səviyyəsini müəyyən etməklə yanaşı, həmin dövrdə azərbaycanlı əhaliyə qarşı erməni quldurları və onların havadarları tərəfindən aparılmış qanlı soyqırımı siyasətinin də araşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Faktların təhlili onu deməyə əsas verir ki, bədii-estetik cəhətdən yüksək inkişaf dövrü keçirən İrəvan bölgəsi aşıq sənəti həm də dövrün ictimai-siyasi hadisələrini obyektiv reallığa uyğun şəkildə əks etdirdiyindən tariximizin bu keşməkeşli və ziddiyyətli dövrünün öyrənilməsi baxımından mühüm mənbə rolunu da oynamaqdadır.

Qərbi Azərbaycan aşıq sənətinin öz inkişafı və ədəbi xüsusiyyətləri baxımından böyük fenomen olması özünü erməni mədəniyyətinə yaxından təsir etməsində də büruzə verir. Azərbaycan aşıq yaradıcılığının təsiri altında, həm də

Azərbaycan dilində yazıb yaradan erməni aşıqlarının adını və yaradıcılığını tarix bu günlərədək qoruyub saxlamışdır. Bu aşıqlardan XVIII əsrdə yaşamış və Azərbaycan dilində yazıb-yaratmış Sayat Nova, Miran, Qul Yeqaz, Bağıroğlu, Əmiroğlu Turab Dədənin adlarını çəkmək olar.

Azərbaycan ədəbiyyatının erməni ədəbiyyatına təsir etməsi bir tərəfdən mədəniyyətimizin yüksək inkişafı, forma və məzmun baxımından daha mükəmməlliyi, Azərbaycan dilinin böyük ədəbi imkanlara, rəngarəng bədii təsvir vasitələrinə malik olması, digər tərəfdən isə göstərilən dövrdə hələ yeni erməni dilinin aşxarabarın formalaşmaması ilə izah edilə bilər. Ümumiyyətlə bədii imkanlarına görə Azərbaycan dilinin daha mükəmməl olmasını etiraf edən erməni Leo yazırdı ki, “Aşıqlar üçün nağıllarda, mahnılarda təsvir olunan həyatı ifadə etmək üçün türk dili (Azərbaycan dili) erməni ləhcələrindən daha səlis, daha ifadəli və daha zəngindir”[166,s.208]. Digər erməni müəllifi professor Arşaruni də bu fikri təsdiq edərək yazırdı ki, “Azərbaycan dili demək olar ki, erməni aşıqlarının və erməni xalqının doğma dili olmuşdur. Əks təqdirdə onlar dinləyicilər qarşısında müvəffəqiyyət qazana bilməzdilər və onların dili dinləyicilər üçün anlaşılmaz olardı.”[121,s.102].

Göründüyü kimi, bütövlükdə Azərbaycan mədəniyyətinin tərkib hissəsi olan İrəvan ədəbi mühiti özünün bir sıra mühüm xüsusiyyətləri ilə seçilmişdir. Birincisi, göstərilən bölgədə türk milli ruhu, ənənələri daha mühafizəkar şəkildə qorunmuş, ikincisi, Azərbaycanın digər bölgələrinə nisbətən kənar təsirlərə olduqca cüzi şəkildə məruz qalmışdır. Erməni mədəniyyətinə, xüsusilə folklor və yazılı ədəbiyyata mühüm təsir göstərən İrəvan ədəbi mühiti çox maraqlıdır ki, bu qarşılıqlı əlaqələr şəraitində özü erməni mədəniyyətindən heç nə götürməmişdir. Bütün bunlar bir daha ermənilərin “qədim mədəni xalq” olması haqqında yaratdıqları mifi bir daha darmadağın edir. Hamıya məlum olan həqiqət ondan ibarətdir ki, xalqın qədimliyi və mədəniliyi onun təfəkkür tərzinin, intellektual səviyyəsinin göstəricisi olan mədəniyyət, xüsusilə ədəbiyyat hesab edilir.

İncəsənət.XIX əsrin ikinci yarısında Azərbaycan  mədəniyyətində baş verən mühüm keyfiyyət dəyişiklikləri özünü incəsənət sahəsində də göstərirdi. Avropa

mədəni dəyərləri ilə tanışlıq incəsənətin yeni növ  janrlarının meydana gəlməsinə və inkişafına mühüm zəmin yaratmış oldu. Bu ilk növbədə peşəkar incəsənət xadimləri nəslinin yetişməsində, onların arasından dünyada tanınmış sənətkarların çıxmasında özünü göstərirdi.

XIX əsr Azərbaycan mədəniyyətinin tədqiqi bir daha sübut edir ki, yeni mədəni dəyərlər xalqımız tərəfindən birtərəfli qaydada qəbul edilməmiş, R.Əfəndinin qeyd etdiyi kimi, "...onlar yerli zəminə söykənərək qədim mədəniyyətimizə uyğun şəkildə qavranılmışdır"[149,s.114].

XIX əsr Azərbaycan incəsənətinin yeni meyillərə məruz qalmış və daha sürətli inkişaf yolu keçmiş sahələrindən biri rəssamlıq olmuşdur. Rus və Qərbi Avropanın Q.Qaqarin, V.Vereşşagin, Jül Buron kimi sənətkarlarının təsiri Azərbaycan incəsənət xadimlərinin istər iş üslubuna, istərsə də ideya-estetik zövqünə təsirsiz ötüşməmişdi. Məhz bu müsbət meyillərin təsiri altında realist istiqamətin nümayəndələri olan Azərbaycan rəssamlarının Mirzə Qədim İrəvani, Mir Möhsüm Nəvvab və Xurşidbanu Natəvan kimi bütöv bir nəsli yetişmişdi.

XIX əsr Azərbaycan rəssamları içərisində öz xüsusi dəst-xətti, yaradıcılıq üslubu ilə seçilən, adını Azərbaycan incəsənəti tarixinə qızıl hərflərlə yazdırmış əslən irəvanlı olan  Mirzə Qədim İrəvani xüsusilə seçilir. Azərbaycan rəssamlığında yeni meydana gələn realizmi öz yaradıcılığında ustalıqla təmsil etmiş M.Q.İrəvani həm də dəzgah boyakarlığının banisi hesab olunur. Dünyəvi təhsil almış, rus, fars və fransız dillərini mükəmməl bilən M.Q.İrəvani həm də dövrünün açıq fikirli ziyalılarından idi.

Rəssamlığın bir çox sahələrində uğurlu fəaliyyət göstərmiş, portret və ornament kompozisiyalar sahəsində daha böyük nailiyyətlər qazanmış M.Q.İrəvaninin şüşə, dəri və parça üzərində işlənmiş əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, Gürcüstan Dövlət İncəsənət Muzeyində və Sankt-Peterburqda Dövlət Ermitajında mühafizə olunur.

Qədim Azərbaycan naxışlarını dərindən bilən və yardıcılığında tətbiq edən M.Q.İrəvani divar boyakarlığı üçün bir çox ornament çeşnilərinin də müəllifi kimi məşhur olmuşdur. Əsas mövzusu fauna və flora aləmindən götürülmüş bu çeşnilərin

əsasında yaradılmış rəsmlərdə qədim zamanlardan sevgi rəmzi sayılan[149,s.115] “bülbül-gül” motivi xüsusi yer tutur.

Görkəmli rəssamın şəxsi imzasının əks olunduğu 20 ədəd əsəri hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində hifz olunur. Bundan başqa, onun 1860-70-ci illərdə yaratdığı “Vəcihulla Mirzə”, “Molla”, “Ayaq üstə dayanmış qadın”, “Oturmuş qadın”, “Gənc oğlan” rəsmləri Azərbaycan İncəsənət Muzeyində, “Çiçəklər və quşlar” Sankt-Peterburqda Ermitajda saxlanılır[130,s.517-518]. Realizm üslubunda çəkilmiş bu portretlərdə həm də konkret tarixi şəxsiyyətlərin əks olunması tarixi portret janrının inkişafı anlamına gəlir. Bütün əsərlərində milli ənənələrdən məharətlə bəhrələnmiş, miniatür rəssamlığın təsvir əlamətlərini müasir realizmlə uğurlu şəkildə sintez etmiş M.Q.İrəvani T.Əfəndiyevin təbirincə desək, “Avropa incəsənəti ruhunda realist tematik tablolar yaratmışdır” [151,s.113].

XIX əsrin ikinci yarısında İrəvan bölgəsində monumental-dekorativ boyakarlıq sənətinin inkişafı artıq bu dövrdə memarlıq abidələrinin fasad hissəsinin bəzədilməsində kaşıdan istifadə olunmasından imtina edilməsi ilə bağlı olmuşdur. Göstərilən dövrdə dekorativ-boyakarlıq sənətinin bölgədə inkişafında M.Q.İrəvaninin əvəzsiz rolu olmuşdur. Məlum olduğu kimi, məşhur rəssam 1850-ci ildə İrəvan Sərdar sarayının divar rəsmlərini bərpa etmiş, bundan başqa, “Sərkərdə”, “Fətəli şah” kimi portretlər və “Asiya boyakarlığının ən yüksək nümunəsi” hesab edilən[183] daha bir neçə əsər yaratmışdır. Təəssüf ki, Sərdar sarayı 1918-ci ildə erməni vandalizminin qurbanı olmuş, dahi rəssamın yaratdığı bütün incilər sarayla birlikdə yerlə-yeksan edilmiş, yalnız “Sərkərdə” və “Fətəli şah” əsərləri Gürcüstana aparıldığı üçün indiyədək gəlib çatmışdır. Hazırda göstərilən hər iki əsər Tiflisdə Gürcüstan Dövlət Muzeyində hifz olunur.

İrəvan şəhəri XIX əsrin 70-ci illərində Azərbaycan mədəniyyətində baş vermiş ən əlamətdar hadisələrin birindən – milli teatrın yaranmasından kənarda qalmamışdı. Lakin İrəvanda ilk Azərbaycan tamaşasının baş tutması 1873-cü ildə Bakıda verilən və Azərbaycan milli teatrının əsası hesab edilən ilk teatr tamaşasından bir az sonrakı dövrə - XIX əsrin 80-ci illərinə aid edilir.

İrəvanda Azərbaycan teatrının nə zaman fəaliyyətə başlaması məsələsi tarixşünaslıqda mübahisə obyekti olaraq qalır. Göstərilən problemə dair xüsusi tədqiqat əsəri həsr etmiş S.Rzayev qeyd edir ki, İrəvanda ilk Azərbaycan teatr tamaşasının verilməsi 1886-cı ilə aiddir[218,s.162]. Eyni fikir çoxcildlik "Azərbaycan tarixi"nin altıncı cildində də təkrar edilmişdir[132,s.397]. İrəvan bölgəsinə dair müxtəlif tədqiqatların müəllifi, dövrün arxiv materialları, habelə mətbuatı ilə dərindən tanış olan İ.Məmmədov isə "Psak" (Çələng) qəzetinin 1882-ci il 10 aprel nömrəsində dərc edilmiş məqaləyə əsaslanaraq göstərir ki, İrəvanda ilk Azərbaycan tamaşası 1882-ci ildə göstərilmiş "Tamahkarlıq düşmən qazanır" adlı tamaşadır[194,s.575-576]. Müəllifin mətbuat səhifəsindən gətirdiyi bu fakt fikrimizcə daha inandırıcı görünür.

İrəvanda Azərbaycan teatrının inkişafı XIX əsrin 80-90-cı illərində coşqun inkişaf dövrünü keçirirdi. İ.Məmmədovun erməni mətbuatına əsaslanaraq verdiyi məlumatlardan görünür ki, göstərilən illərdə mütəmadi olaraq, çox zaman xeyriyyə məqsədi ilə tamaşalar təşkil edilirdi. Çox maraqlı faktlardan biri ondan ibarətdir ki, Azərbaycan dilində təşkil edilən və sırf azərbaycanlıların məişətindən götürülmüş bu tamaşalara ermənilər, hətta ruslar da gəlirdilər[194,s.577-578].

İrəvan bölgəsi həm də Azərbaycan memarlıq sənətinin mühüm incilərinin təmsil olunduğu region kimi diqqəti cəlb edir. İrəvan memarlığının tədqiqi göstərir ki, bölgədə Azərbaycanın digər bölgələri üçün səciyyəvi olan ənənəvi mənzil tiplərinin hamısı mövcud olmuşdur.

XIX əsrin ortalarından başlayaraq mədəni həyatda baş verən dəyişikliklərin təsiri altında İrəvan bölgəsində ənənəvi Azərbaycan memarlığına mənsub olan tikililərlə yanaşı yeni memarlıq üslubuna aid olan abidələr də meydana çıxmağa başladı. Lakin daha sürətlə inkişaf edən neft Bakısından fərqli olaraq İrəvan kimi əyalət şəhərində tikilən yeni binalar sırf Avropa üslubunda inşa edilmir, özündə Şərq və Qərb memarlığının ənənələrini üzvi surətdə birləşdirirdi.

XIX əsr İrəvan memarlığında meydana gələn yeni meyilləri azərbaycanlı zadəganlar üçün ucaldılmış mülklər özündə daha çox əks etdirir. Məsələn, İrəvan xanı Hüseynqulu xanın qardaşı Pənah xana məxsus olan

mülkün[276,c.43;154,s.246;155,s.246] memarlıq üslubunda Azərbaycan memarlıq sənətinin səciyyəvi xüsusiyyətləri dərindən hiss olunsa da, Avropa ənənələrinə uyğun olaraq mülk küçəyə yaxın yerləşdirilmiş, onun giriş qapısı və pəncərələri küçəyə açılmışdır. Halbuki, göstərilən hal ənənəvi Azərbaycan memarlığına xas deyil. Əli xanın Şəhər küçəsində yerləşən evi[155,s.248] də eyni üslubda inşa edilmişdir. Bundan başqa İrəvan şəhərində Müəllimlər Seminariyasının binası[155,s.248] kimi elə ictimai binalar mövcud idi ki, onlar sırf Avropa memarlıq üslubunda inşa edilmişdi.

İrəvanın qədim Azərbaycan-müsəlman şəhəri olması faktını şəhərin memarlığında hətta Ermənistan sovetləşən dövrədək müsəlman-türk ünsürünün hələ də güclü olaraq qalması bir daha sübut edir.

Qeyd etmək lazımdır ki, XIX əsrdə İrəvan şəhərində olduğu kimi, ətraf bölgələrdə də müxtəlif təyinatlı yeni tikililərin inşası davam etmişdir. Buna misal olaraq, bölgədə ilk dünyəvi məktəblərdən hesab edilən Uluxanlı məktəbinin binasını[244], 1895-ci ildə Ağbulaq kəndində Kərbəlayi Abbas tərəfindən əsası qoyulmuş Ağbulaq məscidini[162,s.118-120] (1988-ci ildə erməni vandalları tərəfindən yerlə-yeksan edilmişdir), 1855-ci ildə inşa edilmiş Urud körpüsünü[237,s.54] göstərmək olar.

Memarlıq abidələrinin memarlıq həllinin araşdırılması onu deməyə əsas verir ki, bölgədə göstərilən dövrdə inşa edilmiş tikililər klassik ənənələrə söykənsə də, qərb mədəniyyətinin də təsiri özünü göstərməkdədir.

Son yüz ildə Ermənistan Respublikasının bütün sahələrdə olduğu kimi, Azərbaycan xalqına qarşı apardığı mədəni soyqırımının nəticəsi olaraq bu abidələr dağıdılmış və onların əksəriyyəti yer üzündən silinmişdir.

Mətbuat. İrəvan bölgəsi dövrün mədəni nailiyyətlərinin mənimsənilməsi baxımından xeyli qabaqcıl mövqe tutsa da, burada anadilli mətbuatın meydana gəlməsi xeyli sonrakı dövrə - XX əsrin əvvəllərinə təsadüf etmişdir.

Arxiv sənədlərinin araşdırılması göstərir ki, İrəvan qubernatoru tərəfindən Mir Məhəmməd Mir Fətullayevə və Cabbar Əsgərzadəyə verilmiş 21 yanvar 1914-cü il tarixli şəhadətnamədə onlara jurnal buraxmaq icazəsi verilmişdir[97,s.14].

Şəhadətnamədən göründüyü kimi, naşirlər jurnalda şeir, şəhər işləri, Qafqaz xəbərləri, teleqramlar, xarici və daxili xəbərlər, felyeton, təmsil, poçt qutusu, elanlar vermək hüququna malik idilər.

İlk nömrəsi 1914-cü il fevral ayının 22-də İrəvanda "Luys" mətbəəsində nəşr olunan "Lək-lək" jurnalının nəşri həmin ilin 30 iyulunadək davam etmiş, bu müddət ərzində cəmi 12 nömrəsi işıq üzü görmüşdü.

İrəvanda doğma dilimizdə nəşr olunan ilk mətbuat orqanı, həftəlik məzhəkəli məcmuə olan "Lək-lək" jurnalı (sənədlərdə "Leylək"-İ.K.) mətbuat tariximizdə "Molla Nəsrəddin" ədəbi məktəbi ənənələrinin davamçısı kimi tanınmışdır. Jurnalın baş redaktorlarından olan, dövrünün istedadlı ziyalısı, satirik şeirlər və tənqidi məqalələrin müəllifi kimi tanınan Cabbar Əsgərzadə həm də alovlu bir vətənpərvər kimi tanınırdı. Bütün həyatını doğma xalqının azadlıq hərəkatına, maarifinə, mədəniyyətinə, incəsənətinə sərf edən C.Əsgərzadə ədəbi fəaliyyətini xalqının işıqlı gələcəyinin əldə edilməsinə yönəltmişdi. Buna görə də C.Əsgərzadənin başçılıq etdiyi, satira və yumor dili ilə siyasi irticanı, ətaləti, cəhaləti özünə tənqid hədəfi seçən jurnal xalqın sevimlisnə çevrilmişdi.

"Lək-lək"in qarşısına qoyduğu əsas məqsədlərdən biri, müsəlman dünyasının geriliyinə, avamlığına səbəb olan əsas amillərdən biri ilə - xurafatla mübarizə aparmaq olmuşdur. Bu məsələyə jurnalın xüsusi diqqət yetirməsini onun şöbələrindən birinin məhz buna həsr edilməsindən də görmək mümkündür.

Xalqın tərəqqisini ilk növbədə maarifdə, elmdə, təhsildə görən jurnal naşirləri demək olar ki, hər nömrədə ziyalıları dərslik, kitab, qəzet, məcmuə buraxmağa səsləyir, təhsil sistemində rast gəlinən naqis hallar kəskin şəkildə tənqid olunurdu. Məsələn, jurnalın 2-ci sayında dərc olunmuş "İrəvan xəbərləri", "Çəkic", "Axırıncı bir manat", "İrəvanda russki-tatarski məktəbi və yaxud veyil fabrikası" adlı satirik yazılarda İrəvanda təhsilin əsl vəziyyəti təsvir edilmişdir[188,s.22-23].

"Lək-lək" jurnalının səhifələrində həyati əhəmiyyətli bir sıra mühüm problemlər – ana dili, milli əlifba və mədəniyyət kimi məsələlər vaxtaşırı olaraq işıqlandırılmışdır. Ərəb qrafikalı əlifbanın dilimizin tələbatına cavab vermədiyini,

onun öyrənməyin bir çox çətinliklər törətdiyini qeyd edən jurnal vaxtilə bu sahədə Mirzə Fətəli Axundovun irəli sürdüyü təşəbbüsü təqdir edirdi[188,s.23].

Göstərilən istiqamətdə jurnalda nəşr edilmiş məqalələrin təhlili bir daha onu deməyə əsas verir ki, xalqın inkişafında maariflənməyi başlıca vasitə hesab edən İrəvan ziyalıları bu məqsədə çatmaq üçün təmiz, saf ana dilinin inkişaf etdirilməsini başlıca amil hesab edirdilər.

Jurnalın elanlar şöbəsində dərc olunan materiallardan onun yayılma arealını müəyyənləşdirmək mümkündür. Buradan belə qənaətə gəlmək olur ki, jurnal İrəvandan başqa Naxçıvan, Culfa, Ordubad, Gəncə, Bakı, Tiflis, Mərv və Təbriz kimi şəhərlərdə yayılmışdır.

Birinci Dünya müharibəsi ərəfəsində - 1914-cü ilin yayında beynəlxalq aləmdə gərginliyin artması kontekstində “Lək-lək” jurnalının dərc etdiyi məqalələrin məzmununda ciddi keyfiyyət dəyişiklikləri özünü göstərməyə başlamışdı. Jurnalın 1914-cü il 30 iyul tarixli axırıncı, 12-ci nömrəsində oxucuların diqqəti “Sarayevo sui-qəsdi”nə yönəldilir, müharibə etmək istəyən tərəflərin təbliğatı ifşa edilir, bir sözlə, müharibənin gətirə biləcəyi mümkün fəlakətlər qeyd edilirdi. Çox maraqlı faktlardan biri də ondan ibarətdir ki, jurnalda müharibə başlayacağı təqdirdə erməni-türk, erməni-azərbaycanlı münasibətlərini kəskinləşdirən amillərin meydana çıxacağı xəbərdarlığı da edilirdi.

İrəvan dövrü mətbuatı tarixində 1917-ci ilin yanvar-iyun aylarında nəşr edilmiş və cəmi 9 nömrəsi işıq üzü görmüş “Bürhani-həqiqət” jurnalının xüsusi yeri vardır. Ayda iki dəfə nəşr olunan jurnalda mühüm ədəbi, siyasi, tarixi, elmi məsələlərə toxunulmuşdur. Jurnalın səhifələrində Əli Məhzun, Cabbar Əsgərzadə, Aciz İrəvani, Əbdülhəq Mehrülnisə, Səri Xanım, T.Fikrət, Ə.Sədi, Təhsin Nahid, H.Rəmzi, Təhsin İrəvani, Mirzə Cabbar Məmmədov və digər fikir sahiblərinin yazılarının yer alması[194,s.561] onun əhəmiyyətini göstərməkdədir.

Jurnalın nəşr edilməsinin məqsədi “Həqiqət” başlığı adı altında dərc olunan məqalədən də açıq şəkildə görünməkdədir. Buradan bəlli olur ki, naşirlərin qarşılarına qoyduqları əsas məqsəd milli zülmə, cəhalət və xurafata qarşı mübarizə aparmaq olmuşdur[194,s.562].

Qeyd etmək lazımdır ki, "Bürhani-həqiqət" jurnalının nəşr edildiyi dövr erməni millətçilərinin milli ədavəti qızışdırdıqları, şovinist siyasətə başladıqları və bunun nəticəsi olaraq İrəvan bölgəsində yaşayan azərbaycanlı əhalinin ağlasığmaz zorakılıqlara və qətliamlara məruz qaldıqları dövrə təsadüf edirdi. Qarşılarına türksüz "Böyük Ermənistan" yaratmaq məqsədi qoymuş erməni vandalları azərbaycanlılar yaşayan kəndləri dağıdır, sakinlərini kütləvi surətdə qırır, əhalini məqsədyönlü şəkildə soyqırıma məruz qoyurdular. Məhz dövrün bu təbəddülatlı hərbi-siyasi hadisələri jurnalın diqqətindən yayınmamış, baş verən proseslər xalqın başa düşəcəyi tərzdə şərh edilərək onun nəzərinə çatdırılmışdı.

"Lək-lək" kimi "Bürhani-həqiqət" jurnalı da ana dilinin saflığı, milli mədəniyyətin, xüsusilə ədəbiyyatın inkişaf məsələlərini önə çəkmişdir[192,s.174].

Xalqın maariflənməsi məsələlərinə xüsusi diqqət yetirən jurnalın "elmi məqalələr" şöbəsi elmi yenilikləri oxucuların diqqətinə çatdırmış, onların mahiyyətini şərh etmişdir[192,s.181].

Qeyd etmək lazımdır ki, jurnalın "elanlar şöbəsi"də həmin dövrdə bölgədə yaşayan azərbaycanlıların həyatı, müsəlman xeyriyyə cəmiyyətinin fəaliyyəti haqqında xeyli maraqlı məlumatlar dərc edilmişdir ki, bu da onun tarixi mənbə kimi əhəmiyyətini artırmaqdadır.

İrəvan bölgəsində ana dilində nəşr edilmiş mətbuat nümunələrinin araşdırılması onu deməyə əsas verir ki, bölgədə bu sahədə inkişaf Şimali Azərbaycanın digər regionları ilə müqayisədə xeyli gec başlasa da, maarifpərvər ziyalıların xidmətləri sayəsində ümummilli səciyyə daşımışdır. Azərbaycan mətbuatının "Əkinçi", "Molla Nəsrəddin" kimi nümunələrinin davamçısı olan Azərbaycan-İrəvan mətbuatı xalqın maarifləndirilməsi, dövrün problemlərinin şərh olunaraq çıxış yollarının göstərilməsi, millətin birlik və həmrəyliyə çağırılması kimi mühüm məqsədləri qarşısına məqsəd qoymuşdur.

Gətirilən faktlar onu deməyə əsas verir ki, XIX - XX əsrin əvvəllərində İrəvan bölgəsinin mədəni inkişafı nəinki Azərbaycanın digər bölgələrindən fərqlənmiş, hətta bir sıra parametrlər üzrə bəzi bölgələri qabaqlamışdır. Faktların müqayisəli təhlili belə bir nəticə çıxarmağa əsas verir ki, dünyəvi məktəblərin, teatrın açılması kimi

mühüm uğurlar İrəvan mədəni mühiti tərəfindən lazımınca qiymətləndirilmiş və vaxtında reaksiya verilmişdir. Bir çox mədəni yeniliklərin İrəvanda Şimali Azərbaycanın digər şəhərlərindən daha tez həyata keçirilməsi həmin dövrdə bölgənin azərbaycanlı əhalisinin yüksək mədəni səviyyəsi ilə izah edilə bilər. Göstərilən dövrdə bölgənin ölkəyə dünya şöhrətli elm və mədəniyyət dahilərini bəxş etməsi də İrəvanın Azərbaycanın mədəni inkişafında öncül yerlərdən birini tutmasını sübut edir.

# IV FƏSİL
# ERMƏNİLƏRİN İRƏVAN BÖLGƏSİNƏ KÖÇÜRÜLMƏSİ, AZƏRBAYCANLILARA QARŞI DEPORTASİYA VƏ SOYQIRIMI

## 4.1 Ermənilərin İrəvan bölgəsinə köçürülməsinin əsas mərhələləri, dinamikası və coğrafi yerləşdirilməsi

Rusiya imperiyası Cənubi Qafqazda möhkəmlənmək, özünün gələcək işğalçılıq planlarını həyata keçirmək üçün Türkmənçay və Ədirnə müqavilələrinin şərtlərinə əsaslanaraq İrandan və Osmanlı imperiyasından ermənilərin kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına köçürməyə başladı. Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi məsələsi hələ XVIII əsrin əvvəllərindən başlayaraq Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq niyyəti güdən Rusiya imperiyasının çoxdankı işğalçılıq planlarının tərkib hissəsi idi. İran və Türkiyə sərhədlərində bufer xristian zolağı yaratmaq niyyətində olan Rusiya erməniləri başlıca olaraq Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərinə köçürdü.

Ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən İrəvan bölgəsinə köçüb gəlməsi prosesi 1441-ci ildə erməni katolikosluğunun Kilikiyadan Azərbaycan Qaraqoyunlu dövlətinin ərazisinə - Üçkilsəyə köçürülməsindən sonra başlamışdı. Qriqoriyan kilsəsinin müxtəlif vasitələrlə Azərbaycan türklərinə məxsus torpaqları ələ keçirməsinə və zaman-zaman erməniləri burada yerləşdirməsinə baxmayaraq, ermənilər İrəvan bölgəsində say etibarilə həmişə cüzi azlıq təşkil edirdilər[166,s.375].

XVIII əsrin əvvəllərində I Pyotrun (1682-1725) Xəzəryanı bölgələrə yürüşü zamanı Azərbaycan xanlıqları ərazisində erməni elementinin sayının artırılması məsələsi Rusiya sarayının diqqət mərkəzində dayanan məsələlərdən biri idi[227,s.647]. Rusiya imperiyasının Cənubi Qafqaza doğru genişləndirilməsi prosesində bölgənin xristianlaşdırılmasına da xüsusi diqqət yetirilirdi. Cənubi Qafqaz bölgəsində ermənilərlə bərabər xristian dininə mənsub gürcülər  yaşasa da, Peterburq hökuməti Azərbaycan xanlarının ram edilməsi, azərbaycanlı əhalinin antirusiya

narazılıqlarının səngidilməsi üçün ermənilərə arxalanmağı daha çox məqsədəuyğun hesab edirdi. Çünki öz xisləti, mənəvi keyfiyyətləri etibarilə ermənilərdə müsəlmanlara qarşı nifrət, məkr və xəyanətkarlıq daha güclü idi[225,s.369].

Ermənilər Rusiyaya qarşı sədaqətlərini nümayiş etdirmək üçün ilk dəfə I Pyotrun Xəzəryanı bölgələrə işğalçı yürüşü zamanı imkan qazandılar. Pyotr işğal etdiyi ərazilərdə Rusiyanın mövqeyinin möhkəmləndirilməsi üçün orada xristian əhalinin gücləndirilməsi və müsəlmanların sayının azaldılmasını yaxşı vasitə hesab edirdi və buna görə də işğal olunmuş Xəzəryanı torpaqlarda ermənilərin məskunlaşdırılmasına xüsusi əhəmiyyət verməyə başladı[187,s.138]. I Pyotrun 1725 ci ildə ölümündən sonra onun xələfi I Yekaterina (1725-1727) da ermənilərə münasibətdə sələfinin siyasətini davam etdirib, 1726-cı il fevralın 22-də ermənilərin yüksək mərhəmətə və himayəyə layiq görülmələri haqqında fərman verdi[386,c.43]. XVIII əsrin II yarısında imperatriçə II Yekaterinanın hakimiyyəti dövründə (1762-1796) Rusiya imperiyasının yenidən Cənubi Qafqazda fəallaşması ilə İran və Osmanlı dövlətlərinin sərhədlərindəki Azərbaycan ərazilərində erməni dövlətinin yaradılması və ermənilərin köçürülərək bu ərazilərdə yerləşdirilməsi ilə bağlı layihələr ortaya atıldı. II Yekaterinadan sonra Rusiyada imperator taxtına çıxan Pavel (1796-1801) Cənubi Qafqazın işğal edilməsi siyasətindən imtina etsə də, onun hakimiyyəti dövründə də ermənilərin himayə edilməsi ilə bağlı əvvəlki siyasət davam etdirildi. Belə ki, 1797-ci il oktyabrın 1-də Pavelin fərmanı ilə iranlı erməni məliklərin və onların itaətində olan erməni əhalisinin (2 min nəfər) Rusiyanın təbəəliyinə qəbul edilməsi və onların Qafqaz xətti boyunca yerləşdirilməsi qərara alındı[386,c.32]. Bunun ardınca, Kartli və Kaxetiya çarı Georgiyə ünvanlanan 1799-cu il 3 iyun tarixli ali çar fərmanında "Qazax adlanan ərazidə erməni məliklərini və onların itaətində olan erməniləri məskunlaşmaqdan məhrum etməmək" tapşırılırdı[386,c.33].

1801-ci ildə Pavelin öldürülməsi ilə imperator taxtına çıxan I Aleksandrın (1801-1825) dövründə Rusiyanın Cənubi Qafqazda istər Azərbaycan xanlıqlarına qarşı apardığı müharibələrdə və onların işğalında, istərsə də İran və Osmanlı dövlətlərinə qarşı apardığı müharibələrdə ermənilər rus siyasətinin əsas aləti kimi

çıxış edib və çarizmin Cənubi Qafqazı işğalında və bu bölgədə möhkəmlənməsində mühüm xidmətlərini göstərdilər. İstər Azərbaycan xanlıqlarının işğalı prosesində, istərsə də Rusiya-İran və Rusiya-Osmanlı müharibələrinin gedişində ermənilər təbəəsi olduqları xanlıqlara və dövlətlərə xəyanət edərək düşmən tərəfə - Rusiya tərəfinə keçdilər, göstərdikləri casusluq, pozuculuq, xəyanət və digər bu kimi fəaliyyətlərlə qələbələrin qazanılmasında rus qoşunlarına xüsusi kömək göstərdilər. Naxçıvan, Sərdarabad, İrəvan, Təbriz, Qars, Ərzurum və digər bir sıra şəhər-qalalar məhz təbəəsi olduqları ölkələrə xəyanət edib, satqınlıq edən ermənilərin xidmətləri sayəsində rus qoşunları tərəfindən işğal edildi.

Ermənilərin bu xidmətləri Rusiya hökuməti tərəfindən dəyərləndirildi. Rusiya imperiyası Cənubi Qafqazda apardığı işğal prosesində, eyni zamanda İran və Osmanlı dövləti ilə apardığı müharibələrdə ona xidmət edən erməni əhalisinin müharibənin başa çatmasından sonra cəzalandırılmasına imkan verməmək və onları qorumaq, eyni zamanda ruslara göstərdiyi mühüm xidmət müqabilində onları mükafatlandırmaq məqsədilə İran və Osmanlı ərazilərində yaşayan ermənilərin yeni işğal edilmiş Azərbaycan ərazilərinə köçürülməsi haqqında göstəriş verdi. Hələ II Rusiya-İran müharibəsinin gedişində, 1826-cı il sentyabrın 16-da İranla bağlanacaq müqavilənin əsas müddəaları Rusiya hökuməti tərəfindən ayrıca bir bəyannamə şəklində elan edildi. Burada "ermənilərin Cənubi Qafqaza köçürülməsi" layihəsinin müəllifi A.Qriboyedovun təklifləri də nəzərə alınmışdı. İranla imzalanacaq müqavilənin şərtləri haqqında çar fərmanı 1827-ci il mayın 24-də Cəlaloğlu yanındakı rus düşərgəsinə gətirildi [134,s.617].

1827-ci ilin noyabrında Dehqarqanda keçirilən Rusiya-İran danışıqları zamanı A.Qriboyedovla İ.Paskeviç görüşərkən erməni arxiyepiskop Nersesin Xoydan göndərdiyi nümayəndələri onlardan ermənilərin köçürülməsi qayğısına qalmağı xahiş etmişdilər. Dekabr ayında Paskeviç Tiflisin hərbi qubernatoru Sinyaginə göndərdiyi məktubda qeyd etmişdi ki, Urmiya ətrafında yaşayan 15 min yunan və erməni Rusiyanın əyalətlərinə köçmək istəyirlər. Sinyagin isə onların İrəvan və Naxçıvan əyalətlərində yerləşdirilməsi fikrini irəli sürmüşdü[124,s.25].

Rus qoşunlarının hərbi təzyiqinin müşaiyəti altında 1828-ci il fevralın 6-da Təbriz yaxınlığındakı Türkmənçay kəndində İngiltərə səfiri Makdonaltın vasitəçiliyi ilə İran vəliəhdi Abbas Mirzə ilə general İ.Paskeviç arasında başlanan sülh danışıqlarının növbəti raundu fevralın 9-dan 10-na keçən gecə Rusiya ilə İran arasında Rusiya tərəfindən irəli sürülən şərtlərin hamısının qəbul edilməsi ilə nəticələnən Türkmənçay sülh müqaviləsinin imzalanması ilə başa çatdı[268,c.594-595]. Türkmənçay müqaviləsinin üçüncü maddəsində Naxçıvan və İrəvan xanlıqlarının Rusiyaya keçdiyi təsbit edildi[136,s.584]. Türkmənçay müqaviləsində ermənilərin İrandan Şimali Azərbaycan ərazilərinə köçürülməsi məsələsi öz əksini tapdı. Ermənilərin İrandan Cənubi Qafqaza köçürülməsi məsələsi prinsip etibarilə Rusiya və İran tərəfləri arasında Dehqarqanda aparılan danışıqlarda müzakirə edilmiş və razılaşdırılmışdı[376, c.186-187]. Bu səbəbdən Türkmənçay danışıqlarında bu məsələ geniş müzakirə edilmədi. Buna heç imkan da qalmamışdı, çünki Paskeviç Dehqarqanda hazırlanmış müqavilə layihəsini ortaya qoyub İran tərəfinə açıq şəkildə bildirmişdi ki, o, maddələrin müzakirəsi ilə bağlı qarşı tərəfin təkliflərini qəbul edib danışıqların uzanmasına imkan verməyəcəkdir.

Türkmənçay müqavilənin 15-ci maddəsinə görə, şah hökuməti müharibə dövründə öz dövlətinə xəyanət edərək ruslara xidmət etmiş Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına (ermənilərə) tam bağışlanma əta edir və onlar təqibə məruz qalmamalı idi; bundan əlavə, bu gündən başlayaraq o məmur və əhaliyə öz ailəsi ilə birlikdə İran vilayətlərindən sərbəst şəkildə Rusiya vilayətlərinə keçməsi hökumət və yerli hakimlərin heç bir maneçiliyi olmadan, onların satlıq əmlakına, əşyalarına hər hansı gömrük haqqı və vergi tətbiq edilmədən daşınan əmlakını aparmaq və satmaq üçün bir illik möhlət verilir; daşınmaz əmlaka gəldikdə isə, onun satılması və ya onun haqqında sərbəst qərar qəbul edilməsi üçün beş illik möhlət müəyyənləşdirilirdi[136,s.283;227,s.596]. Bununla da, İranda yaşayan ermənilərə sərbəst şəkildə Rusiyaya köçmək hüququ verildi və İrandan Azərbaycan torpaqlarına ermənilərin böyük köçü başlanmış oldu.

Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi layihəsi hələ 1827-ci ildə A.Qriboyedovun başçılıq etdiyi Cənubi Qafqaz diyarının diplomatik

dəftərxanasında hazırlanmışdı. Ermənilərin köçürülməsi layihəsinin müəllifi olan və bu işdə canfəşanlığı ilə seçilən A.Qriboyedov ermənilərin İrandan Rusiya sərhədlərinə, yəni Çuxursəd çökəkliyinə köçürülməsinə xüsusi diqqətlə yanaşır və bu məsələyə Rusiyanın Şərqdəki mövqelərinin möhkəmlənməsinin təminatı kimi baxırdı. Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinin reallaşması ilə əlaqədar olaraq Rusiya hökumətinin İranla sərhədboyu ərazilərə 80 min kazakın köçürülməsi barədə əvvəllər hazırladığı layihə qüvvədən salındı[166,s.380].

Ermənilərin köçürülməsi üçün hazırlıq işlərinə hələ 1827-ci ilin may ayında Paskeviçin Peterburqdan xüsusi tələbnamə əsasında ermənilər arasında nüfuza malik olan polkovnik Yegiazar Lazarevi öz sərəncamına götürməsi vaxtından başlanmışdı. Milliyətcə erməni olan və az sonra ermənilərin köçürülməsi işinə rəhbərlik edəcək polkovnik Lazarev 1827-ci il oktyabrın əvvəlində Cənubi Azərbaycan erməniləri arasında iş aparmaq üçün ayrılan dəstənin tərkibində idi və az sonra – oktyabrın 19-da o, Paskeviç tərəfindən Təbrizin komendantı təyin edildi. Bu təyinat ermənilər tərəfindən böyük sevinclə qarşılandı.

Tarixi məsələlərdə,etnik-mədəni münasibətlərdə,etnik yer dəyişmələrdə erməni problemi ciddi yer tutmuşdur.

Türkmənçay müqaviləsinin imzalanmasından dərhal sonra, 1828-ci il fevralın 14-də polkovnik Lazarev general Paskeviçə göndərdiyi raportunda ermənilərin köçürülməsi işinin ona tapşırılması ilə əlaqədar olaraq vəsadət qaldırdı və bu işin ona tapşırılmasını xahiş etdi[268,c.595-596]. Raportda qeyd edilirdi ki, ermənilər müharibənin gedişində Rusiyanın qələbəsi üçün əllərindən gələni etmişlər və buna görə də, onların Rusiyada yaşamaq arzusuna diqqətlə yanaşılmalıdır. İran ərazilərində yaşayan ermənilərin sürətlə və rahat şəkildə Rusiyaya köçürülməsini təşkil etmək üçün Lazarev aşağıdakı təklifləri irəli sürdü: 1) Köçürmə işlərinə rəhbərlik etmək üçün Paskeviç tərəfindən ona yazılı təlimat verilsin və həmin sənəddə köçənlərə verilən güzəştlər göstərilsin; 2) Köçürmə işlərinə rəhbərlik etmək üçün erməni dilini bilən lazımi qədər ştabs və ober-zabitlər təyin etmək məsələsi onun ixtiyarına verilsin; 3) İqlim şəraitinə görə köçürmə işlərinin ləngiyəcəyi yerlərdə rus ordusu

orada gözləsin və ordu köçənləri müşayət etsin; 4) Kasıb köçkünlər üçün xəzinədən vəsait ayrılsın.

İran ermənilərinin işğal edilmiş Şimali Azərbaycan ərazilərinə köçürülməsinin təşkili üçün Paskeviçin rəhbərliyi altında xüsusi təlimat hazırlandı. 19 maddədən ibarət olan bu təlimat Paskeviç tərəfindən fevralın 26-da Lazarevə göndərildi[174,s.42-47]. Təlimatın preambula hissəsində göstərilirdi ki, "Azərbaycanın müxtəlif yerlərində yaşayan ermənilərin demək olar ki, hamısı bizim vilayətlərə köçməyə hazır olduqlarını bildirmişlər... Güman etmək lazımdır ki, sərt şaxta və bəlkə də, bütün Azərbaycanın həmişəlik bizim əlimizdə olacağı ümidi bu vaxta qədər orada qalan xristianları köçməyə başlamağa qoymurdu. Ancaq indi məlum oldu ki, İran hökuməti tərəfindən bizə çatacaq təzminatın 1,5 kururu ödənilənə qədər bizim qoşunlarımız sülh müqaviləsinə görə, əlimizdə girov qalan Urmiya, Xoy və Makudan başqa, Azərbaycanı sürətlə təmizləməlidir və yazın yaxınlaşması ilə köçürmə artıq xüsusi çətinliklərlə bağlı deyil. Köçürülmənin qayda-qanunla həyata keçirilməsini və köçürülənlərə lazımi hallarda zəruri vəsaitin verilməsini, bu prosesin icrasını bilavasitə siz cənablara tapşırıram və sizə aşağıdakı kimi hərəkət etməyi əmr edirəm" [174,s.42-43].

Preambula hissəsindən sonra 19 maddə şəklində verilən təlimatın ilk 9 maddəsi "xristianların yerlərindən çıxarılmasına hazırlıq barədə", sonrakı 10 maddəsi isə "köçkünlərin bizim vilayətlərin sərhədlərinə qədər gəlməsi haqqında" olmaqla iki hissədən ibarət idi. Təlimatda göstərilirdi ki: "polkovnik Lazarevə köçürmə işini həyata keçirmək üçün lazımi zabit heyəti seçmək səlahiyyəti verilir və köçürmə işi üçün tələb olunan malliyyə vəsaitinin general-mayor Pankratyevdən almaq tapşırılır; xristian əhalinin əsl niyyəti və köçmək arzusunun olub-olmadığı müəyyənləşdirilməli idi; erməni əhalisini köçməyə sövq etmək üçün zorakı tədbirlər işlədilməməli, əksinə geniş təbliğati iş aparılması yolu ilə əhali həvəsləndirilməli idi; erməni əhalisinə hökumət adından təminat verilməli ki, köçürülən xristinlardan ticarətlə məşğul olanlar şəhərlərdə yerləşdiriləcək ki, onlar yenə ticarətlə məşğul olsunlar; kəndlilərə də kifayət qədər əlverişli torpaq sahəsi veriləcək və onlar 6 il müddətinə vergilərdən 3 il müddətində isə torpaq mükəlləfiyyətlərindən azad ediləcəklər; köçməyə hazır

olan ailələrə təhlükəsiz köçürüləcəkləri ilə bağlı vərəqələr və burada onların vergi - mükəlləfiyyətlərdən azad olacaqları ilə bağlı sənəd verilməlidir; köçən xristianlara məxsus əmlakın satılması üçün hər bir kəndə özləri tərəfindən vəkil qoymağa hüquq verilməli, bu vəkillərin hər cür himayə və maddi yardımla təmin edilməsi üçün Abbas Mirzənin yanında olan komissara müraciət edilməlidir; Köçürülmə zamanı ən vacib azuqə, xüsusən də mal-qara üçün yem çatışmamazlığı olmasın deyə, köçkünlər kəndlər üzrə dəstələrə bölünməli, hər bir dəstə 150-dən 300-ə qədər ailədən ibarət olmalı və bir dəstənin digər dəstə ilə birləşməməsi üçün həmin dəstələr Rusiya sərhədlərinə müxtəlif yollarla aparılmalıdır; hər bir ailənin təhlükəsizliyinə zəmanət vermədən onlara ayrı-ayrı da köçməyə icazə verilməlidir; köçürülənləri İrəvan və Naxçıvan əyalətlərinə istiqamətləndirmək lazımdır ki, həmin ərazilərdə xristian əhali mümkün qədər artırılsın; Qarabağa yaxın olan kəndlərin sakinləri isə həmin əyalətə köçürülsün; hər bir dəstəni müşaiyət etmək üçün ermənicə bilən bir zabit və 2-5 kazak ayrılsın; köçkün dəstələri yola düşən kimi, ailələrin sayı, onların yaşadıqları ərazinin iqlim şəraiti, məşğuliyyəti, malik olduqları sürülər və sərhədə yetişəcəkləri təxmini vaxt haqqında dərhal İrəvan Müvəqqəti İdarəsinə məlumat verilməlidir; kasıb olan ailələrə maddi yardım göstərmək, qabaqcadan nəzərdə tutulmayan xərclər, habelə hər ailə başına 10 gümüş rubldan çox olmayaraq maddi yardım göstərmək üçün 25 min rubl pul ayrılsın; Bu puldan eyni zamanda, hər verstə görə 2 qəpik gümüş pul, qərargah zabitlərinə və baş zabitlərə isə iki at hesablayaraq verstlərin sayına görə onları at kirəsi ilə təmin etməli və səfərdə olarkən qeyri-qənaətbəxş vəziyyətlərinə görə qərargah zabitlərinə ayda 30, baş zabitlərə isə 20 gümüş rubl vermək hüququnuz var və bu işi sizə həvalə edirəm" [174,s.42-47;247,s.370-372].

Bunun ardınca, 1828-ci il fevralın 29-da Paskeviç, İrəvan bölgəsinə köçürüləcək erməni əhalisini yerləşdirməklə bağlı problemləri həll etmək üçün İrəvan Müvəqqəti İdarəsinə 16 maddədən ibarət xüsusi bir təlimat göndərdi[376,c.189]. Təlimatda göstərilirdi ki: "Komitə köçürülən əhalinin sayına uyğun torpaq sahəsi ayırmalı və onların nəzərdə tutulan yerlərdə məskunlaşmasına rəhbərlik etməlidir; Komitə çalışmalıdır ki, köçürülən kəndlərin sakinləri, əvvəlki ərazilərindəki kimi, yığcam şəkildə ayrıca və bir-birinə qonşuluqda yerləşdirilsinlər; Dağlıq şəraitdə

yaşayanlar dağlıq yerdə, düzənlikdə yaşayanlar isə düzənlikdə yerləşdirilməlidir ki, onlar mümkün qədər xəstəlik və ölümdən xilas olsunlar, eyni zamanda onların adət-ənənələrinin və təsərrüfat vərdişlərinin qorunub saxlanılmasına şərait yaradılsın; Müsəlmanların yaşadıqları kəndlərdə xristianların yerləşdirilməsinə yol verilməməli, xristianlardan ibarət ayrıca dairə və mahallar yaradılmalıdır; Müsəlman kəndlərinin əhatəsində yaşayan xristianları da öz dindaşlarının yanına köçürmək lazımdır; Köçürülənlər mülkədar torpaqlarında deyil, dövlət torpaqlarında yerləşdirilməlidir; Yeni məhsul götürülənədək ilkin taxıl səpini üçün köçürülənlərə bərabər miqdarda borc verilməli, təsərrüfatın dirçəldilməsi üçün götürülən borc faizsiz olaraq dörd il müddətində verilməli, bundan sonra altı il ərzində ödənilməlidir; Köçürülən əhalini məskunlaşdırmaq üçün yer seçərkən sağlamlıq üçün şərait və yaxşı içməli suyun olması nəzərə alınmalıdır. Hər bir ailənin yerləşdirilməsi haqqında xüsusi formada hesabat verilməli və hesabatda çəkilən xərclərin ümumi miqdarı göstərilməlidir" [166,s.382-383;124,s.27-28].

Həyata keçirilən köçürmə prosesində yuxarıda qeyd edilən təlimatların "köçürmədə könüllülük prinsipinin əsas tutulması barədə" tələbləri bir çox hallarda kobud şəkildə pozulur və zorakılıqlarla müşaiyət olunan köçürülmələr həyata keçirilirdi. İran vəliəhdi Abbas Mirzə bu qənaətdə idi ki, yalnız ruslara xidmət edən erməni əhalisi köçürüləcək. Lakin köçürmənin miqyası genişləndikcə, zorakı tədbirlərlə müşaiyət olunduqca Abbas Mirzə buna rəsmi etirazını bildirdi və Türkmənçay müqaviləsinin şərtlərinə əməl edilməsini tələb etdi[174,s.29-30,33-34].

İlkin dövrdə İran hökuməti, xüsusilə də Abbas Mirzə köçürülmənin miqyasının böyük olmayacağı, yalnız ruslara xidmət edən erməni əhalisinin köçürüləcəyi qənaətində idilər. Lakin köçürmənin miqyası böyüdükcə və zorakı tədbirlərlə müşaiyət olunduqca Abbas Mirzə iki dəfə Lazarevə məktubla müraciət etməli oldu. O, köçürmə prosesində müşaiyət olunan zorakılıqlarla bağlı rəsmi etirazını bildirir və Türkmənçay müqaviləsinin şərtlərinə əməl edilməsini tələb edirdi[174,s.29-30,33-34]. Bu etirazla bağlı Abbas Mirzə tərəfindən göndərilən Xoy xanlığının hakimi Əsgər xanın oğlu Lazarevlə birlikdə Xoy qalasının bir ağaclığında 200 ailədən ibarət erməni köçkünləri arasında "köçürmə prosesində zorakılıq halların olub-olmadığı"

ilə bağlı təftiş apardılar. Bu zaman rusların təbliğatı altında olan ermənilər hamısı bir ağızdan “İran çörəyini yeməkdənsə, rus otunu otlamaq yaxşıdır!” deyərək zorakılığın olmadığını və könüllülük prinsipi ilə köçdüklərini nümayiş etdirdilər[174,s.30].

Abbas Mirzə erməni əhalisinin kütləvi şəkildə köçürülməsinin qarşısını almaq və bu prosesə mane olmaq üçün, erməni əhalisinə köçmədikləri halda onların altı il müddətində vergilərdən azad olunacaqlarını da vəd etdi və bununla bağlı zəruri təbliğat işi apardı[268,c.619-620;166,s.384]. Lakin bu tədbirlər prosesin qarşısını ala bilmədi.

Lazarev 1828-ci il martın 30-da İranın erməni əhalisinə müraciət etdi. Müraciətdə İran tərəfinin mənasız və yalan vədlərlə “erməni əhalisinin xoşbəxt Rusiyaya köçünə” mane olmağa çalışdığı vurğulanır, bu cür vədlərə aldanmamaq tövsiyyə edilir və daha sonra bildirilirdi ki: “Alicənab Rusiya hökmdarı köçmək arzusunda olanlara öz dövlətində ümidli, rahat və xoşbəxt sığınacaq verir. Özünüzün seçəcəyiniz yerlərdə - İrəvanda, Naxçıvanda, Qarabağda yalnız onda bir hissəsi dövlət xeyrinə əkilib-becəriləcək bol məhsullu torpaq alacaqsınız. Siz hər cür vergidən altı il müddətinə azad olunursunuz və sizin ən kasıbınıza kömək veriləcək... Orada xristianlarla məskunlaşmış yeni vətən tapacaq, müqəddəs dinə olan təzyiqi daha görməyəcəksiniz... Xristian torpağı haqqında bir fikir sizə sevinc bəxş etməlidir. İranın müxtəlif vilayətlərinə səpələmiş xristianlar öz birliklərini görəcəklər və Rusiyanın böyük hökmdarının sizin sədaqətinizin əvəzini nə ilə çıxacağını biləcəksiniz. Tələsin! Vaxt qiymətlidir. Tezliklə rus qoşunları İran hüdudlarından çıxacaq, onda sizin köçürülməyiniz çətinləşəcək və biz sizin təhlükəsiz getməyiniz üçün cavab vermək iqtidarında olmayacağıq. Az qurbanla həmişəlik hər şeyi alacaqsınız” [174,s.47-48].

Köçürmə prosesi böyük vüsət aldı və miqyası genişləndi. Ermənilərin köçürülməsi prosesinə rəhbərlik etmiş Lazarevin Xoydan Paskeviçə göndərdiyi 1828-ci il 9 mart tarixli raportunda göstərilirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdir[268,c.624-625].

Lazarevin Paskeviçə təqdim etdiyi 24 dekabr 1829-cu il tarixli yekun hesabatına görə, ermənilərin İrandan Şimali Azərbaycan torpaqlarına köçürülməsi

işlərinə 1828-ci il fevralın 26-dan başlanılmış və bu proses iyunun 11-də başa çatdırılmışdır. Bu müddət ərzində İran ərazisindən 8249 erməni ailəsi Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ əyalətlərinə köçürülmüşdür. Bundan başqa, köçürülməli olan daha 1500 erməni ailəsinin köçürülməsini həyata keçirmək ayrılan zamanın başa çatması ilə əlaqədar olaraq mümkün olmamışdır. Köçürmə işlərinə xəzinədən 14.000 qızıl və 400 gümüş rubl xərclənmişdir[174,s.57;166,s.388;247,s.376,382]. Polkovnik Lazarev general İ.Paskeviçə göndərdiyi adı çəkilən hesabatında yazırdı: “1828-ci il fevralın 26-da fəaliyyətə başlayıb, yerlərdə saxlanılan təxminən 1500 ailə istisna olunmaqla, elə həmin il iyun ayının 11-də fəaliyyətimi başa çatdırdım... Bu müddətdə əlahəzrətdən 14.000 manat qızıl pul və 400 manat gümüş pul almışam. O cümlədən də, Naxçıvan şöbəsinə verdiyim 2000 manatdan çox qızıl pulla 8249 xristian (erməni – İ.K.) ailəsi köçürmüşəm” [174,s.57]. Onu da qeyd etmək lazımdır ki, 8249 ailə (təxminən 40-50 min nəfər) rəqəmi ancaq rəsmi köçürülənləri əks etdirir, qeyri-rəsmi köçənlərin sayı bu rəqəmlərə daxil deyildir.

1829-cu ildə İ.Paskeviçin verdiyi xüsusi tapşırıq əsasında fransız mənşəli rus tədqiqatçısı, kollec assesoru İ.İ.Şopen 1829-1832-ci illərdə Erməni vilayətində kameral təsvir həyata keçirmişdir. Əlyazması 20 cilddən ibarət olan bu kameral təsvirin nəticələri müəllifin 1852-ci ildə nəşr edilən “Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi” əsərində[405] verilmişdir. İ.İ.Şopenin bu əsərdə verdiyi statistik məlumatlara görə, İrandan köçürülən ermənilərdən təkcə 366 ailə (1715 nəfər) İrəvan şəhərinin özündə, 265 ailə (1110 nəfər) Naxçıvan şəhərində və 36 ailə (182 nəfər) isə Ordubad şəhərində yerləşdirildi. Bundan başqa İrandan köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində məskunlaşdırıldı. Bütövlükdə, İrəvan əyalətində 4559 ailə (12.498 kişi, 11.070 qadın, cəmi 23.568 nəfər), Naxçıvan əyalətində 2137 ailə (5641 kişi, 5011 qadın, cəmi 10.652 nəfər), Ordubad dairəsində 250 ailə (698 kişi, 642 qadın, cəmi 1340 nəfər) erməni yerləşdirildi. Nəticədə “Erməni vilayəti”ndə 35560 nəfərdən ibarət 6946 erməni ailəsi köçürüldü[405, c.635-642].

Yeni təşkil edilmiş “Erməni vilayəti”ndə müsəlmanların sayı 81749 nəfər (16078 ailə) və ermənilərin sayı 25131 nəfər (4428 ailə) olmuşdusa, İrandan erməniləri köçürdükdən sonra onların sayı 60691 nəfərə (11374 ailə) çatdı. Bununla da, bölgədə ermənilərin sayı 24 faizdən 43 faizə qalxdı[124,s.32].

Beş min erməni ailəsinin İrəvan xanlığı ərazisində yerləşdirilməsi məsələsi ortaya çıxanda “Erməni vilayəti”nin rəhbərliyindən Paskeviçə bildirilmişdir ki, burada onların hamısının dolandırılması üçün imkan yoxdur. Vilayət rəhbərliyi ermənilərin bir qisminin də Qarabağda yerləşdirilməsini məqsədəuyğun hesab edirdi. Lazarev Paskeviçə göndərdiyi məktubunda bildirirdi ki, Urmiya, Səlmas və Xoydan olan köçkünlər artıq Naxçıvana çatmışlar. Onların arasında daha çox ehtiyac içərisində olanlar Qarabağa göndərilsinlər. Orada 3000 erməni ailəsinin yeni məhsul əldə edilənə qədər ərzaqla təmin edilməsi üçün imkan vardır[282,c.106]. Buradan da aydın olur ki, 6946-sı “Erməni vilayəti”ndə yerləşdirilən İrandan köçürülən 8249 erməni ailəsinin yerdə qalan 1303 erməni ailəsi də Qarabağda və ətraf ərazilərdə yerləşdirilmişdir.

Rusiya İranla Türkmənçay müqaviləsini imzaladıqdan az sonra – 1828-ci il aprelin 26-da Osmanlı dövlətinə müharibə elan etdi və Rusiya-Osmanlı müharibəsi başladı[404,c.32]. Müharibə Balkan və Qafqaz cəbhələrində olmaqla iki cəbhədə aparıldı. Rusiya-İran müharibəsində olduğu kimi, Rusiya-Osmanlı müharibəsində də ermənilər təbəəsi olduqları Osmanlı dövlətinə xəyanət etdilər və düşmən tərəfə - Rusiyaya xidmət etdilər. Osmanlı erməniləri Rusiya tərəfə keçib öz ölkələrinə qarşı vuruşmaqla yanaşı, ölkə daxilində də ruslara xidmət edərək, casusluq edir və müxtəlif provakasiyalar törədirdilər. Axıska, Qars, Ərzurum və digər şəhər-qalaların rus qoşunları tərəfindən ələ keçirilməsində ermənilərin ruslara göstərdiyi xidmətlər çox mühüm rol oynamışdı.

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi Rusiyanın qələbəsi ilə başa çatdı 1829-cu il sentyabrın 14-də Rusiya tərəfindən diktə edilən şərtlər əsasında Ədirnə müqaviləsi imzalandı[369,c.155;404, c.149-150]. Ədirnə müqaviləsinə görə, Axalsıx və Axalkələk paşalıqları və bu ərazilərdən şimalda yerləşən Anapa və Poti

qalaları, eyni zamanda Müqəddəs Nikolay limanına qədər Qara dənizin bütün şərq sahilləri Rusiyaya keçdi (IV maddə).

Rusiya Türkmənçay müqaviləsində olduğu kimi, Ədirnə müqaviləsində də erməniləri unutmadı. Osmanlı dövlətinə xəyanət edərək, Rusiya tərəfə keçib öz ölkələrinə qarşı vuruşan, eyni zamanda ölkə daxilində də ruslara xidmət edən erməni əhalisini "təqiblərdən qorumaq" adı altında müqaviləyə ayrıca maddə salındı. Müqavilənin on üçüncü maddəsinə görə, hər iki dövlət müharibə dövründə düşmən tərəfə xidmət edən təbəələrini əfv edir və onlara 18 ay müddətində öz daşınar əmlakları ilə istədikləri yerlərə köçmək hüququ verilirdi. Ruslar tərəfindən işğal edilən və Osmanlılara geri verilən yerlərdə yaşayan əhalinin iki dövlətdən birinin ərazisinə köçmək istəyənlərinə də 18 ay müddət verilirdi[369, c.155-157;293,c.79]. Bu maddə Türkmənçay müqaviləsinin on beşinci maddəsi ilə eyni mahiyyətdə idi və Osmanlı imperiyası ərazisində yaşayan ermənilərin Rusiya imperiyası ərazilərinə köçürülməsini nəzərdə tuturdu.

Ermənilərin Cənubi Qafqaza köçürülməsi layihəsinin memarlarından olan general İ.Paskeviç Qars paşalığını da Rusiyaya ilhaq edərək "Erməni vilayəti"nə birləşdirmək və bu ərazini də köçürüləcək ermənilər hesabına xristianlaşdırmaq niyyətində idi. O, bu məqsədlə hələ Rusiya-Osmanlı müharibəsi başa çatmamış - 1829-cu ilin iyununda xarici işlər naziri K.V.Neselrodeyə müraciət etmişdi. Lakin Rusiya hökuməti, Qafqaz cəbhəsində daha çox Osmanlı ərazilərinin içərilərinə doğru genişlənməni sülh üçün təhlükə hesab edib Axalsıx və Axalkələk paşalıqları ilə kifayətlənməyi uyğun bilmişdi[397, c.296-297].

Osmanlı dövlətindən ermənilərin köçürülməsi işlərinə general Pankratyev rəhbər təyin olundu. General İ.Paskeviç Osmanlı ərazilərindən köçürülən erməni əhalisini yerləşdirmək və onların qayğılarını qarşılamaq üçün xüsusi komitə yaratdı. Bu komitənin fəaliyyəti üçün 12 maddədən ibarət qaydalar müəyyən etdi[268,c.835-836]. Bu qaydalar aşağıdakılardan ibarət idi:

1. Köçürülənlər Rusiyanın ərazisinə daxil olan kimi onların qayğısı üçün bütün sərəncamları Köçkünlər komitəsi verəcəkdir; 2. Köçürmə prosesi sona çatana, köçürülənlərin hamısı yaşayış yerlərində məskunlaşana və kəndlərdə köçkünlərin

təsərrüfat qayğıları həll edilənə qədər komitə öz fəaliyyətini davam etdirməlidir. Bundan sonra komitə baş komandanlığa yekun hesabat verib öz fəaliyyətini dayandırmalıdır; 3. Komitə dərhal Gürcüstanda və digər əyalətlərdə boş dövlət torpaqları haqqında məlumat toplamalıdır; 4. Bütün köçkünlər üç zümrəyə ayrılmalıdır: 1) tacirlər və alverçilər; 2) sənətkarlar və istehsalın hər hansı növündən baş çıxaranlar; 3) əkinçilər və yaxud kəndlilər. Köçkünlərin məskunlaşması zamanı tacir və sənətkarları şəhərlərdə bu işlə məşğul olmağa imkan olan yerlərdə, kəndliləri isə kəndlərdə yerləşdirmək, bu zaman iqlim şəraitini və əvvəlcə məskunlaşdıqları səviyyəni nəzərə almaq lazımdır. Yelizavetpolda və digər şəhər və əyalətlərdə boş dövlət evləri vardır, ona görə də komitə, sənətkarları , tacirləri həmin yerlərdə yerləşdirməyi nəzərdə tutmalıdır; 5. Köçkünlər Komitəsi Osmanlı ərazisindən köçürülənlərin siyahısını hərbçilərdən tələb edən zaman onların haradan köçürüldükləri, hansı işlə məşğul olmaları haqqında məlumat verməyi də tələb etməlidir; 6. Komitə çalışmalıdır ki, köçürülən kəndlər bütövlükdə, bu mümkün olmazsa, qonşuluqda yerləşdirilsinlər; 7. Komitə köçürülən əhalini hər kənddə ailələrin, hər ailədə nəfərlərin sayına mütənasib olaraq lazımi qədər torpaqla təmin etməlidir; 8. Köçürülənlər bütövlükdə dövlət torpaqlarında, əgər bu kifayət etməsə, kilsə və mülkədar torpaqlarında yerləşdirilməlidirlər; 9. Köçürülənlər 6 il müddətinə vergilərdən, 3 il müddətində isə torpaq mükəlləfiyyətlərindən azad edilməlidirlər; 10. Yeni köçürülən xristian kəndlərini müsəlman kəndləri ilə qarışdırmamaq, onlardan ibarət ayrıca mahal və dairələr təşkil etmək lazımdır; 11. Köçürülənləri məskunlaşdırmaq üçün yer seçərkən rahatlığı, gözəlliyi və yaxşı suyun olmasının qayğısına qalmaq lazımdır; 12. Köçürülən hər bir ailəyə orta hesabla 25 rubl gümüş pul həcmində maddi köməklik göstərilməlidir[268,c.831-832;124,s.36-37].

Köçürmə prosesində bu qaydalara ciddi əməl olundu. Köçürülən erməni əhalisi Rusiya tərəfindən məqsədyönlü şəkildə işğal edilmiş Şimali Azərbaycan ərazilərində, əsasən də İrəvan, Naxçıvan və Qarabağ əyalətlərinin təbii gözəlliyi, yaxşı iqlimi, saf suyu olan dağətəyi rayon və şəhərlərində kompakt şəkildə yerləşdirildi, onların qayğıları hökumət tərəfindən qarşılandı.

İranda olduğu kimi, Osmanlı dövlətindən də ermənilərin köçürülməsi prosesində erməni katolikosu və yepiskopları xüsusi rol oynadılar. Onlar daha çox təbliğat, təsir və təzyiq kimi vasitələrdən istifadə edərək erməni əhalisinin köçürülmə prosesinə maksimum cəlb edilməsinə çalışırdılar[247,s.406].

General İ.Paskeviç Ədirnə müqaviləsinin imzalanmasından dərhal sonra ermənilərin köçürülməsi prosesini həyata keçirmək üçün hərəkətə keçdi. O, 1829-cu il oktyabrın 10-da imperator Nikolaya göndərdiyi raportunda ermənilərin köçürülməsi işinə başlamaq üçün icazə istəyir və bunun üçün maliyyə ayrılmasını xahiş edərək: "Bəyaziddə 2000 erməni bizim əsgərlərin cərgəsində vuruşmuşlar, Ərzurumda xristian əhalinin böyük hissəsi bizim dini bayramı qeyd etmişlər. Qarsda ermənilərdən ibarət 800 nəfərlik könüllü batalyon təşkil edilmişdir. Onların ailələrindən 10 min nəfərinin başının üstünü labüd təhlükə almışdır. Mərhəmətli hökmdar, mərhəmətli diqqətinizi bu bədbəxt qurbanlara yönəldin, onların Rusiyaya göstərdikləri sədaqətə görə Osmanlılar tərəfindən cəzalandırılmasına imkan verməyin. Ona görə də cəsarət edib əlahəzrət imperatordan bu ailələri Gürcüstan və Erməni vilayətlərinə yerləşdirmək ixtiyarını mənə verməsini xahiş edirəm. Zənnimcə, köçürülən hər bir ailəyə orta hesabla 50 gümüş rubl kifayət edəcəkdir"[268,c.830].

1829-cu il noyabrın 18-də hərbi nazir Çernışev Paskeviçə yazırdı ki, imperator onun təklifini bəyənmişdir"[268,c.830-831]. Paskeviçin yazışmaları və dövrün digər sənədləri göstərir ki, Qafqazdakı Rusiya hərbi komandanlığı İrandakı təcrübədən çıxış edərək Osmanlı dövlətindən ermənilərin köçürülməsi işinə əvvəlcədən lazımi hazırlıqlar görmüşdü. Buna görə də Ədirnə müqaviləsinin imzalanmasından dərhal sonra hələ hökumət tərəfindən köçürmə prosesinə maliyyə vəsaiti ayrılmadan köçürmə prosesi başlamışdı. İlkin olaraq yardıma ehtiyacı olmayan və öz vəsaitləri hesabına köç etməyə hazır olan ermənilər köçürüldü, bunlar Alagöz, Lori və Gümrü bölgələrindəki boşalmış müsəlman kəndlərində məskunlaşdırıldı[268,c.831].

Onu da qeyd etmək lazımdır ki, Ədirnə müqaviləsinin 13-cü maddəsində nəzərdə tutulmuş "köçmək hüququ" təkcə xristianlara deyil, eyni zamanda bölgədə yaşayan müsəlman əhalisi üçün də nəzərdə tutulmuşdu. Müqaviləyə görə Rusiyaya keçən ərazilərin müsəlman əhalisi Rusiya hakimiyyəti altında yaşamaq istəmədiyi

təqdirdə, eyni zamanda müharibə dövründə Cənubi Qafqazın Osmanlı ordularına dəstək verən müsəlman əhalisi də nəzərdə tutulmuş müddət ərzində Osmanlı ərazilərinə köçə bilərdi. Osmanlı dövləti bölgənin müsəlman əhalisi üçün bu hüququn tanınmasına müharibə dövründə onu dəstəkləyən müsəlmanların ruslar tərəfindən təqib olunmasının qarşısını almaq zərurəti kimi baxırdı. Rusiya isə bundan bufer zona üçün nəzərdə tutduğu ərazilərdə müsəlmanların sayının minimuma endirilməsi və köçürülən ermənilərin müsəlmanlar tərəfindən boşaldılmış evlərə yerləşdirilməsi üçün istifadə etdi. Rusiya təqibindən çəkinən müsəlmanların Osmanlı dövlətinə mühacirət etməsi və Osmanlı dövlətindən ermənilərin planlı şəkildə köçürülərək İrəvan bölgəsində yerləşdirilməsi nəticəsində bölgənin demoqrafik durumu ermənilərin xeyrinə kəskin dəyişdi.

Paskeviç tərəfindən hərbi nazir Çernışevə göndərilən 22 yanvar 1830-cu il tarixli raportda qeyd edilirdi ki, Qars bölgəsindən köçürülən 2500 erməni ailəsi onların əvvəl yaşadıqları iqlim şəraiti nəzərə alınmaqla, Pəmbək distansiyasının Alagöz yaxınlığındakı boşalmış müsəlman kəndlərində, Ərzurumdan köçürülən 95 ailə Loridə yerləşdirilmiş, köçürülməyə hazırlanmış daha 2000 ailə isə, öz istəklərinə uyğun olaraq Axalsıx və ətraf ərazilərdə yerləşdiriləcəkdir. Bəyazid şəhərindən köçürülməyə hazırlanan 1143 erməni ailəsi, eyni zamanda Bəyazid sancağından 2000-ə qədər erməni ailəsi yazın gəlməsi ilə köçürüləcək və onların istəyinə uyğun olaraq, Erməni vilayəti və ya Qarabağ əyalətində yerləşdiriləcəklər"[268,c.832-833]. 1829-cu ilin payızında başlanan ermənilərin köçürülməsi prosesi sərt qışın gəlməsi ilə müvəqqəti olaraq səngisə də, 1830-cu ilin yazından etibarən geniş miqyas aldı və köçürmə üçün müəyyən edilən müddətin sonuna qədər davam etdi.

Osmanlı dövləti onun ərazisində səpələnmiş halda olan ermənilərin ruslar tərəfindən köçürülüb sərhəd boyunca ərazilərdə yığcam şəkildə yerləşdirilməsindən narahatlıq keçirirdi. Ona görə də Osmanlı hökuməti ermənilərin kütləvi köçürülməsinin qarşısını almaq məqsədilə Rusiya ilə müharibə zamanı ermənilərin Osmanlı dövlətinə etdiyi xəyanəti, törətdikləri vəhşilikləri bağışlamaq barədə qərar verdi və fevralın 17-də yerlərdəki ermənilərə "əfvnamə"lər göndərdi"[166,s.393]. Lakin bu tədbirlər ermənilərin kütləvi köçünün qarşısını ala bilmədi. Çnki rusların və

onlarla birgə fəaliyyət göstərən erməni ruhanilərinin erməni əhalisi üzərində təsiri və təzyiqi daha güclü idi və bu amil prosesin kütləvi hal almasına gətirib çıxartdı.

Ədirnə sülh müqaviləsinə görə, köçürmə üçün müəyyən edilən 18 aylıq müddət 1831-ci il mart ayının 10-da başa çatdı[247,s.398]. Lakin bu zaman ermənilərin köçürülməsi prosesi hələ tam başa çatdırılmamışdı. Buna görə də köçürmə prosesinə rəhbərlik edən general Pankratyev İ.Paskevicəmüraciət edərək köçürmə prosesini tamamlamaq üçün müddətin daha 2 ay, bu mümkün olmadıqda isə, heç olmasa köçürülən ermənilərin Osmanlı ərazilərində qalan əmlaklarının satılması işini başa çatdırmaq üçün daha 40 gün uzadılmasına təşəbbüs göstərilməsini xahiş edirdi. Ədirnə müqaviləsinə görə ermənilərin köçürülməsi üçün müəyyən edilən müddətin başa çatmasına baxmayaraq köçürmə işlərinin planlaşdırıldığı kimi hələ tam başa çatmadığını görən Paskeviç Osmanlı tərəfinə müraciət, arximandrit Tatos, Makdesi Karapetyan, Ağacan Karapetyan, Hovanes Matevesyan, Ağacan Osipov və Hakop Hanakovdan ibarət 6 nəfərlik heyəti ermənilərin qoyub gəldikləri əmlakların və torpaq sahələrinin satışını təşkil etmək üçün Ərzuruma göndərdiyini və satış işləri ilə bağlı onlara köməklik göstərmələrini xahiş etdi[247,s.395-398].

Ədirnə müqaviləsinin imzalanmasından sonra keçən bu müddət ərzində Osmanlı dövlətindən Rusiyaya rəsmi rəqəmlərə görə 14.044 ailə və ya 90.000 nəfər erməni əhalisi köçürüldü[268,c.845-847;405,c.642]. Pankratyevin Paskeviçə yuxarıda qeyd etdiyimiz müraciətindən anlaşılır ki, Osmanlı dövlətindən 18 ay müddətində 14.044 ailə və ya 90.000 nəfər erməni köçürsə də, bu rəqəm daha çox miqdarda erməni əhalisinin köçürülməsini planlaşdıran Rusiya hərbi və siyasi dairələrini tam təmin etməmişdi. 1831-ci il martın 26-da Paskeviçin hökumətə təqdim etdiyi raporta və eyni tarixdə tərtib edilən sənədə görə, ermənilərin Osmanlı ərazilərindən Cənubi Qafqaza köçürülməsi, yerləşdirilməsi prosesinin yekunları aşağıdakı cədvəldəki kimi olmuşdur: [268,c.847]

Cədvəl 4.1.1

(Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayı və onların yerləşdirildikləri ərazilər)

<table>
<tr><th>Haradan köçürülmüşdür</th><th>Köçürülən ailələrin sayı</th><th>Köçürülənlərin məskunlaşdırıldığı yerlər</th></tr>
<tr><td>Ərzurumdan</td><td>7298</td><td rowspan="2">-Böyük əksəriyyəti (5000 ailə) Axalsıx paşalığının ərazisində;<br>-1050 ailə Borçalı distansiyası və Çalki ətrafında;<br>-Yerdə qalan 1315 ailə isə Pəmbək və Şörəyel distansiyalarında.</td></tr>
<tr><td>Ərdahandan</td><td>67</td></tr>
<tr><td>Karsdan</td><td>2264</td><td>Pəmbək və Şörəyel distansiyalarında</td></tr>
<tr><td>Karsdan</td><td>200</td><td>Erməni vilayəti və Talın mahalında</td></tr>
<tr><td>Bəyaziddən</td><td>4215</td><td>Erməni vilayəti, Göyçə gölü ətrafı və Baş Abaranda</td></tr>
<tr><td>Cəmi</td><td>14044</td><td></td></tr>
</table>

Cədvəldən də göründüyü kimi, Ədirnə müqaviləsinə görə 1829-cu ilin oktyabrından 1831-ci ilin martına qədər əksəriyyəti Osmanlı dövlətinin Ərzurum, Bəyazid və Qars ərazilərindən Cənubi Qafqaza 14.044 erməni ailəsi köçürülmüşdür. Bunlardan Ərzurum köçkünü olan 7298 və Ərdəhandan köçürülən 67 erməni ailəsindən (ümumilikdə 7365 ailə) 5000 ailə Axalsıx paşalığının ərazisində, 1050 ailə Borçalı distansiyası ərazisində və Çalki ətrafında, 1315 ailə isə Pəmbək və Şörəyel distansiyalarında yerləşdirilmişdir. Qarsdan köçürülən 2464 erməni ailəsindən 2264 ailə Pəmbək və Şörəyel distansiyaları ərazisində, 200 ailə isə “Erməni vilayəti” və Talın mahalında məskunlaşdırılmışdır. Bəyazid sancağından köçürülən 4215 erməni ailəsi isə “Erməni vilayəti”, Göyçə gölü ətrafı və Baş Abaranda yerləşdirilmişdir[268, c.847].

Rusiya sənədlərində Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayı ilə bağlı rəsmi olaraq 14.044 ailə və ya 90.000 nəfər qeyd edilsə[268,c.845-847] də, bu son rəqəm deyildi. Bir çox tədqiqatçılar, hətta erməni tarixçiləri də etiraf edirlər ki, Osmanlı dövlətindən köçürülən ermənilərin sayı 100.000 civarında və ya ondan da çox olmuşdur.

1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsi dövründə general Paskeviçin yavəri olmuş və sonralar rus ordusunda general rütbəsinə qədər yüksəlmiş N.İ.Uşakov (1802-1861) "1828-1829-cu illərdə Asiya Türkiyəsindəki hərbi fəaliyyətlərin tarixi" adlı əsərində 14.000 erməni ailəsinin və ya 90.000 nəfər erməninin köçürüldüyünü qeyd edir[397,c.291].

İlkin mənbələr əsasında "1829-1831-ci illərdə ermənilərin Cənubi Qafqaza köçürülməsi" problemini araşdıran rus tarixçisi O.Kuznetsov isə bəhs edilən dövrdə Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayının 150.000 olduğunu yazır[338,c.60].

Erməni tarixçisi N.A.Tavakalyan Osmanlı ərazilərindən Rusiyaya köçürülən ermənilərin sayının 14.000 ailədən çox və ya 100 min nəfər ətrafında olduğunu yazır[389,c.37].

Başqa bir erməni tarixçisi R.Hovannisian Osmanlı dövlətindən köçürülən ermənilərin sayının 100 min nəfər civarında olduğunu yazır[410,c.9].

Dövrün Osmanlı mənbələri əsasında "1828-1829 Osmanlı-Rus savaşında Şərqi Anadoludan Rusiyaya köçürülən ermənilər"lə bağlı xüsusi tədqiqat aparan türk tarixçisi K.Beydili köçürülən ermənilərin sayının 100 min civarında olduğunu qeyd edir[247,s.407].

Bu rəqəmlərdən göründüyü kimi, Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərin sayı ilə bağlı Rusiya rəsmi hesabatlarında səslənən 90.000 rəqəmi yalnız rəsmi statistikanı əks etdirir və belə demək mümkünsə, bunu da heç tam əks etdirmir. Dövrün sənədlərində də əks olunduğu kimi, rəsmi rəqəmlərdən başqa qeyri-rəsmi köçkünlər də kifayət qədər olmuş və köç prosesi müqaviləyə görə nəzərdə tutulmuş müddətin başa çatmasından sonrakı dövrdə də davam etmiş və bu prosesin qarşısını almaq mümkün olmamışdır. Hələ 1829-cu ilə qədər Şörəyel-Pəmbək distansiyalarına 1536 erməni ailəsi (5425 nəfər kişi cinsi) köçürülmüşdü. Bu distansiyalar 1801-ci ildə Gürcüstana birləşdirildiyindən "Erməni vilayəti"nə daxil edilməmişdi. Sonra isə Osmanlı dövlətindən 3148 ailə (10575 nəfər kişi cinsi) köçürülmüşdü. 1832-ci ilin sonu-1833-cü ilin əvvəlində Osmanlı dövlətindən Zolqaya köçürülən ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-

Pəmbək distansiyalarına köçürüldü. Köçürülənlər arasında 169 nəfər yunan və 963 nəfər erməni katoliki də var idi. Şörəyel-Pəmbək bölgəsində 100-ə yaxın kənddə Osmanlı dövlətindən köşürülən ermənilər yerləşdirilmişdi[124,s.41].1834-cü ilin məlumatına görə, Bəyaziddən köçürülən 1000 nəfər (təxminən 300 ailə) yezidi kürd də İrəvan əyalətində məskunlaşdırıldı[166,s.402]. Sonrakı illərdə də ermənilərin pərakəndə köçü davam etmişdi. Bütün bunları ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, qeyri-rəsmi köçkünlərlə birlikdə Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülərək əsasən Azərbaycan torpaqlarında məskunlaşdırılan ermənilərin sayı 150 min civarında olmuşdur.

Rusiya hökuməti Osmanlı ərazilərindən ermənilərin köçürülməsi işində fərqlənən hərbi və mülki məmurlarını müxtəlif orden, medal və pul mükafatları ilə təltif etdi. Erməni arxiyepiskop Karapet isə hələ köçürmə prosesinin gedişində 1-ci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif edilmişdi. Sonralar imperator I Nikolay 1837-ci ildə Axıskaya gedərək Karapetlə görüşmüş, həmin xidmətlərinə görə ona öz minnətdarlığını bildirmişdi[124,s.40].

İmperatorun fərmanı ilə 1831-ci il aprelin 24-də Osmanlı dövlətindən köçürülən ermənilərin təsərrüfat ehtiyaclarını ödəmək üçün verildiyi vaxtdan 4 il keçəndən sonra, 6 il müddətinə faizsiz olaraq qaytarmaq şərtilə xəzinədən 380.000 rubl pul ayrılmışdı[268,c.846;124,s.40].

Türkmənçay və Ədirnə müqavilələrinə görə 1828-1831-ci illər ərzində İran və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülən ermənilərin əsasən Şimali Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ əyalətlərində yerləşdirildi. Nəticədə bu ərazilərdəki etnodemoqrafik vəziyyət süni şəkildə ermənilərin xeyrinə dəyişdirildi. Çar Rusiyası tərəfindən köçürmə prosesinin həyata keçirilməsindən əvvəl 1828-ci ildə "Erməni vilayəti" adlandırılan ərazidə 107.224 nəfər əhali yaşayırdı ki, bunun da 76,24 %-ni azərbaycanlılar, 23,45 %-ni ermənilər təşkil edirdi. İrəvanın 9700 nəfərlik əhalisinin 75.6 %-i azərbaycanlılar, 24.4 %-i ermənilər idi. Azərbaycanlıların əhalinin etnik tərkibində bu cür üstünlük təşkil etməsi həmin torpaqların tarixi Azərbaycan ərazisi olduğunu təsdiq edən inkaredilməz faktdır. Köçürmədən sonra əhalinin etnik tərkibi kəskin dəyişdi. Təkcə İrəvan şəhərində köçürmə nəticəsində əhalinin sayı

11463 nəfərə çatdı. Nətcədə azərbaycanlı əhalinin sayı 64 %-ə endi, ermənilərin sayı isə 36 %-ə qalxdı[157,s.15-16].

İ.İ.Şopenin verdiyi məlumatlara görə, "Erməni vilayəti"ndə 752 kənd olmuş, onlardan 521-i İrəvan əyalətinə, 179-u Naxçıvan əyalətinə, 52-si isə Ordubad dairəsinə yerləşirdi. Müharibə nəticəsində İrəvan əyalətində 310, Naxşıvan əyalətində 43, Ordubad dairəsində 6 kənd, ümumilikdə 359 kənd dağıdılmış, xaraba qalmış, əhalisi isə didərgin düşmüşdü. Deməli, dağıdılan və xaraba qalan kəndlərlə birlikdə Erməni vilayətində 1111 kənd olmuşdur[124,s.23].

General İ.Paskeviçin tapşırığı əsasında 1829-1832-ci illərdə İ.İ.Şopenin "Erməni vilayəti"ndə həyata keçirdiyi və nəticələri müəllifin 1852-ci ildə nəşr edilən "Erməni vilayətinin Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" adlanan əsərində[405] verilən kameral təsvirin nəticələrinə görə, köçürmədən əvvəl və sonra "Erməni vilayəti"nə daxil olan İrəvan və Naxçıvan əyalətlərinin, Ordubad dairəsinin hər bir mahalı üzrə yaşayan azərbaycanlıların və ermənilərin sayı, cinsi, ailə tərkibini, eyni zamanda İran və Osmanlı dövlətlərindən köçürülən ermənilərin sayı, cinsi, ailə tərkibini və hansı ərazilərdə yerləşdirildiyini izləmək mümkündür[405,c.635-642].

Cədvəl 4.1.2

(İ.İ.Şopenin kameral təsvirinə görə "Erməni villayəti"ndə əhalinin sayı və milli tərkibi)

| 1. İrəvan əyaləti | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Adlar | Müsəlmanlar | | Yerli ermənilər | | İrandan köçürülən ermənilər | | Osmanlı dövlətindən köçürülən ermənilər | | Cəmi | |
| 1 | 2 | | 3 | | 4 | | 5 | | 6 | |
| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| İrəvan şəhərində | 1807 | 7331 | 567 | 2369 | 366 | 1715 | 11 | 48 | 2751 | 11463 |
| Mahallar üzrə | | | | | | | | | | |
| 1. Qırxbulaq | 81 | 383 | 262 | 1396 | 216 | 1043 | 38 | 231 | 597 | 3053 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2. Zəngibasar | 910 | 5413 | 133 | 603 | 442 | 2360 | - | - | 1485 | 8376 |
| 3.Gərnibasar | 753 | 4176 | 34 | 145 | 1211 | 5359 | - | - | 1998 | 9680 |
| 4.Vedibasar | 574 | 3449 | 2 | 15 | 200 | 1069 | - | - | 776 | 4533 |
| 5. Şərur | 1305 | 6510 | - | - | 336 | 1757 | - | - | 1641 | 8267 |
| 6. Sürməli | 709 | 4832 | 935 | 5892 | 299 | 1459 | 261 | 1342 | 2204 | 13525 |
| 7. Dərəkənd Parçenis | 589 | 3267 | 1 | 5 | - | - | - | - | 590 | 3272 |
| 8. Səədli | 160 | 1004 | - | - | - | - | - | - | 160 | 1004 |
| 9. Talın | 91 | 420 | 74 | 416 | - | - | 185 | 1144 | 350 | 1980 |
| 10.Seyidli və Ağsaqqallı | 311 | 1754 | 6 | 28 | - | - | - | - | 317 | 1782 |
| 11.Sərdarabad | 276 | 1837 | 469 | 3214 | 66 | 356 | 4 | 21 | 815 | 5428 |
| 12.Körpübasar | 400 | 2592 | 897 | 5290 | 518 | 2897 | 35 | 176 | 1850 | 10955 |
| 13. Abaran | - | - | 11 | 58 | 330 | 2018 | 1116 | 6857 | 1487 | 8933 |
| 14.Dərəçiçək | 231 | 1300 | 92 | 552 | 575 | 3535 | 539 | 3263 | 1437 | 8650 |
| 15. Göyçə | 999 | 5607 | 15 | 90 | - | - | 1485 | 8557 | 2499 | 14254 |
| Cəmi | 9196 | 49875 | 3498 | 20073 | 4559 | 23568 | 3674 | 21639 | 20927 | 115155 |
| | | | | | | | | | | |
| 2. Naxçıvan əyaləti | | | | | | | | | | |
| Adlar | Müsəlmanlar | | Yerli ermənilər | | İrandan köçürülən ermənilər | | Osmanlı dövlətindən köçürülən ermənilər | | Cəmi | |
| 1 | 2 | | 3 | | 4 | | 5 | | 6 | |
| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| I. Naxçıvan şəhərində | 909 | 3641 | 156 | 719 | 265 | 1110 | - | - | 1330 | 5470 |
| II. Mahallar: 1.Əlincəçay | 400 | 1848 | 123 | 683 | 208 | 1051 | - | - | 731 | 3582 |
| 2. Naxçıvan | 979 | 4194 | 150 | 776 | 941 | 4507 | - | - | 2070 | 9477 |
| 3. Məvazi-xatun | 282 | 1497 | - | - | 216 | 1146 | - | - | 498 | 2643 |
| 4. Xok | 292 | 1375 | 43 | 224 | - | - | - | - | 335 | 1599 |
| 5.Dərələyəz | 1001 | 4583 | 58 | 288 | 507 | 2838 | 8 | 27 | 1574 | 7736 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi | 3863 | 17138 | 530 | 2690 | 2137 | 10652 | 8 | 27 | 6538 | 30507 |

3. Ordubad dairəsi

| Adlar | Müsəlmanlar | | Yerli ermənilər | | İrandan köçürülən ermənilər | | Osmanlı dövlətindən köçürülən ermənilər | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | | 3 | | 4 | | 5 | | 6 | |
| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| Ordubad şəhəri | 767 | 3262 | - | - | 36 | 182 | - | - | 803 | 3444 |
| Mahallar: 1. Ordubad | 146 | 552 | 36 | 215 | 14 | 76 | - | - | 196 | 843 |
| 2. Əylis | 77 | 347 | 214 | 1356 | 29 | 183 | - | - | 320 | 1886 |
| 3. Dəstə | 317 | 1533 | 62 | 346 | - | - | - | - | 379 | 1879 |
| 4. Biləv | 289 | 1210 | 39 | 208 | - | - | - | - | 499 | 2317 |
| 5. Çənnəp | 79 | 343 | 49 | 263 | - | - | - | - | 128 | 606 |
| Cəmi | 1675 | 7247 | 400 | 2388 | 250 | 1340 | - | - | 2325 | 10975 |

4. Köçəri xalqlar

| Adlar | Müsəlmanlar | | Yerli ermənilər | | Köçərilər | | Yezdi kürdləri | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | | 3 | | 4 | | 5 | | 6 | |
| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| Köçəri xalqlar | 1344 | 7489 | - | - | - | - | 67 | 324 | 1411 | 7813 |

5. Cəmi Erməni vilayətində

| | Müsəlmanlar | | Yerli ermənilər | | İrandan köçürülən ermənilər | | Osmanlı dövlətindən köçürülən ermənilər | | Yezdi kürdləri | | Cəmi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | | 3 | | 4 | | 5 | | 6 | | 7 | |
| | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər | ailə | nəfər |
| Cəmi | 16078 | 81749 | 4428 | 25151 | 6946 | 35560 | 3682 | 21666 | 67 | 324 | 31201 | 164450 |

İ.İ.Şopenin 1829-1832-ci illərdə Erməni vilayətində keçirdiyi kameral təsvirin nəticələrindən aydın olur ki, Rusiya işğalından sonra və köçürmədən əvvəl İrəvan xanlığı ərazisində 9196 azərbaycanlı ailəsi (49875 nəfər), 3498 erməni ailəsi (20073 nəfər) yaşamışdır. İrəvan şəhərinin özündə isə 1807 azərbaycanlı ailəsi (7331 nəfər), 567 erməni ailəsi (2369 nəfər) yaşamışdır. Bütövlükdə "Erməni vilayəti"ndə (İrəvan və Naxçıvan xanlıqları ərazisində) isə 16.078 ailə (81.749 nəfər) müsəlman, 4428 ailə (25.151 nəfər) erməni və 67 ailə (324 nəfər) yezdi kürdü yaşamışdır. Buradan da göründüyü kimi, köçürmədən əvvəl bölgənin 107.224 nəfər ümumi əhalisinin 76,24 %-ni azərbaycanlılar, 23,45 %-ni ermənilər təşkil etmişlər[405, c.641-642].

Lakin köçürmə bölgənin demoqrafik vəziyyətini kökündən dəyişmişdir. Belə ki, İrandan köçürülən 8249 erməni ailəsindən 4559 ailə (12.498 kişi, 11.070 qadın, cəmi 23.568 nəfər) İrəvan əyalətində, 2137 ailə (5641 kişi, 5011 qadın, cəmi 10.652 nəfər) Naxçıvan əyalətində, 250 ailə (698 kişi, 642 qadın, cəmi 1340 nəfər) Ordubad dairəsində məskunlaşdırılmışdır. Bütövlükdə Erməni vilayətinə köçürülən İran ermənilərinin sayı 6946 ailə və ya 35.560 nəfər (18.837 kişi, 16.723 qadın) olmuşdur[405, c.635-642].

İ.İ.Şopenin məlumatlarına görə, Osmanlı dövlətindən Cənubi Qafqaza köçürülən ermənilərdən 3674 ailə və ya 21.639 nəfər (11.400 kişi, 10.239 qadın) İrəvan əyalətində, 8 ailə və ya 27 nəfər (17 kişi, 10 qadın) Naxçıvan əyalətində məskunlaşdırılmış, Ordubad dairəsinə isə Osmanlı ermənilərindən məskunlaşdırılan olmamışdır. Bütövlükdə "Erməni vilayəti"nə köçürülən Osmanlı ermənilərinin sayı 3682 ailə və ya 21.666 nəfər (11.417 kişi, 10.249 qadın) olmuşdur[405, c.635-642].

İ.İ.Şopenin kameral təsvirindən aydın olur ki, İran və Osmanlı dövlətlərindən Erməni vilayətinə (İrəvan və Naxçıvan əyalətlərində) köçürülən ermənilərin ümumi sayı 10.631 ailə və ya 57.226 nəfər olmuşdur. Halbuki, köçürməyə qədər bu ərazidə 4428 ailə və ya 25151 nəfər erməni yaşamışdır. Deməli, bütövlükdə "Erməni vilayəti" ərazisinə, o cümlədən İrəvan xanlığı ərazisinə köçürülən ermənilərin sayı bu ərazilərdə yaşayan ermənilərin sayından ən azı 2-2,5 dəfə çox olmuşdur. Nəticədə İrandan köçürülən ermənilər (6946 ailə və ya 35.560 nəfər) hesabına "Erməni vilayəti"ndəki ermənilərin sayı 60711 nəfərə (11374 ailə), Osmanlıdan köçürülən

ermənilər (3682 ailə və ya 21.666 nəfər) hesabına isə 82.377 nəfərə (15.056 ailə) çatdırılmış və bununla da ümumilikdə 164.450 nəfər (31.201 ailə) əhalisi olan bölgədəki ermənilərin sayı (82.377) müsəlmanların sayını (81.749) üstələmişdir[405, c.641-642]. Bundan başqa, bölgənin müharibə dövründə İran və Osmanlı dövlətlərinə dəstək verən müsəlman əhalisinin də təqiblərdən yaxa qurtarmaq üçün kütləvi surətdə İran və Osmanlı dövlətlərinə köçü də baş verdi ki, bu da öz növbəsində bölgənin əhalisinin demoqrafik tərkibində ermənilərin xüsusi çəkisinin artmasına təsir göstərən amillərdən idi.

M.Vəlili yazır ki, Rusiya-Türkiyə (1828-1829) və İran (1826-1828) müharibələri nəticəsində 135 min Türkiyə və İran ermənisi Azərbaycana köçüb gəldi və çar hökumətinin təzyiqləri ilə yerli türk əhalisi buraları tərk edib Türkiyə və İrana mühacirət etdi[239,s.71].

Ermənilərin kütləvi köçürülməsi nəticəsində İrəvan və Naxçıvan bölgələri ilə yanaşı əhalisinin demoqrafik vəziyyətində ermənilərin xeyrinə ciddi dəyişiklik baş verən bölgələrdən biri də Qarabağ əyaləti idi. Belə ki, Cənubi Qafqaza köçürülən İran ermənilərindən 1303 ailə Qarabağ ərazisində məskunlaşdırılmışdı. Qarabağ əyalətinin kameral təsvirinə görə 1823-cü ildə burada 20 minədək ailənin cəmi 1600-ü (8,4 %) erməni idisə, 1832-ci il məlumatına görə erməniləin xüsusi çəkisi 34,8 %-ə qalxmışdı[176,s.41-42].

Ermənilərin köçürülməsinin və yerləşdirilməsinin ümumi nəticələri olaraq Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində əhalinin etnik tərkibində baş verən dəyişikliklər aşağıdakı cədvəldə aydın şəkildə əks olunmuşdur: [176,s.46]

Cədvəl 4.1.3

(Qarabağ, Naxçıvan və İrəvan bölgələrində əhalinin etnik tərkibindəki dəyişikliklər (%-lə))

| Bölgələr | Azərbaycanlılar | | Ermənilər | |
|---|---|---|---|---|
| | 1823-1827 | 1828-1830 | 1823-1827 | 1828-1830 |
| Qarabağ bölgəsi (keçmiş Qarabağ xanlığı) | 91 | 65 | 8 | 35 |
| Naxçıvan bölgəsi (keçmiş Naxçıvan xanlığı) | 86 | 51 | 13 | 49 |
| İrəvan bölgəsi (keçmiş İrəvan xanlığı) | 76 | 46 | 24 | 54 |

Cədvəldən də göründüyü kimi, Cənubi Qafqaza köçürülən ermənilərin məqsədli olaraq əsasən Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ bölgələrində məskunlaşdırılması nəticəsində bu ərazilərdə tarixən formalaşmış etnodemoqrafik vəziyyət süni surətdə kökündən dəyişdirildi. Bununla belə, ermənilərin İrandan və xüsusilə də Osmanlı dövlətindən Cənubi Qafqaza köçü prosesi sonrakı dövrlərdə də davam etdi. Ermənilərin kütləvi şəkildə köçüb Cənubi Qafqaz ərazisində, ilk növbədə azərbaycanlıların torpaqlarında məskunlaşması əsrlər boyu “dalğalarla” baş verirdi və Osmanlı ilə İran hakim dairələrinin bu dövlətlərin ərazisində yaşayan ermənilərlə münasibətləri kəskinləşəndə maksimum həddinə çatırdı. Bunlar çox vaxt Rusiya-Osmanlı müharibələri ilə üst-üstə düşürdü: hər belə müharibədən sonra, bir qayda olaraq, Cənubi Qafqaza Osmanlı və İran ermənilərinin növbəti köçü baş verirdi. Belə ki, Rusiya ilə Osmanlı dövləti arasında 1853-1856-cı illərdə olmuş Krım müharibəsi Osmanlı dövlətindən Cənubi Qafqaza erməni köçünün yeni dalğasını gətirdi. Lakin bu zaman Cənubi Qafqaza köçən ermənilən statistikası aparılmadığından onların dəqiq sayı məlum deyildir[401,c.63].

1832-ci ildən 1873-cü ilədək İrəvan bölgəsinə ermənilərdən əlavə 6710 nəfər (bu rəqəm əslində 9718 nəfər olmalıdır –İ.K)də yad əhali (bunlardan 7339 nəfər rus, 1250 nəfər aysor, 1090 nəfər yunan və 39 nəfər digər xalqların nümayəndələri) köçürülmüşdü[169,s.401].

1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsi də Cənubi Qafqaza, xüsusilə də Azərbaycan ərazilərinə erməni köçünün yeni dalğasını gətirdi. Belə ki, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsində məğlub olan Osmanlı dövlətinin üzərinə Rusiya 1 milyard 410 milyon rubl təzminat qoymuşdu. Bu təzminatı ödəyə bilməyən Osmanlı dövləti Qars, Ərdəhan və Batum vilayətlərini, o cümlədən Dobruçanı Rusiyaya verməyə məcbur olmuş və bunun əvəzində təzminatın həcmi 400 milyon rubla endirilmişdi[250,s.66]. Berlin konqresinin qərarlarına görə, Bəyazid şəhəri və Alaşkert düzü Osmanlı dövlətinə qaytarılsa da, Qars, Ərdəhan və Batum vilayətləri Rusiyada qaldı[253,s.89-90]. Bu ərazilərdə yaşayan böyük erməni kütləsi də Cənubi Qafqaz, xüsusilə də Azərbaycan ərazilərinə səpələndi. Təkcə Qars vilayətində 50.000

erməni və 40.000 yunan Rusiyaya köçdü, eyni zamanda general Ter-Qukasov tərəfindən Sürməli qəzasına 35000 araba ilə Osmanlı ermənisi köçürüldü[401].

Berlin müqaviləsindən sonra Osmanlı dövlətinin ermənilər yaşayan bölgələrindəki vəziyyətə müdaxilə etməyə əlverişli imkan qazanan Rusiyanın bundan istifadə edib Osmanlı dövlətinin daxili işlərinə qarışması və erməniləri silahlandırıb Osmanlı dövlətinə qarşı üsyana, qiyama qaldırması və bu qiyamların da uğursuzluğa düçar olması nəticə etibarilə Cənubi Qafqaza yeni, miqyasına görə daha böyük erməni köçünü gətirdi. Ermənilərin təkcə 1893-1894-cü illərdə Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamlar uğursuzluqla nəticələndikdən sonra 100 mindən çox erməni Cənubi Qafqaza köç edərək əsasən Azərbaycan ərazilərində yerləşdi. Bu proses sonrakı illərdə də durmadan davam etdi. Bu rəsmi və pərakəndə köçürmələr hesabına artıq 1896-cı ildə Cənubi Qafqazda ermənilərin sayı 900.000-ə, 1908-ci ildə isə 1,3 milyona çatdı. Təkcə, 1896-1908-ci illər ərzində ermənilərin sayı 400.000 nəfər artdı[401,c.64].

N.N.Şavrov 1911-ci ildə nəşr etdiyi "Zaqafqaziyada ruslar üçün yeni təhlükə. Muğanın yadlara satılacağı ehtimalı" əsərində ermənilərin Cənubi Qafqaza köçürülməsi, yerləşdirilmələri və bu prosesin davamlı olması ilə bağlı bizim yuxarıda dediklərimizi təsdiq edir. O, yazır: "Biz müstəmləkəçilik fəaliyyətinə Cənubi Qafqazda rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq... 1826-1828-ci illər müharibəsi başa çatdıqdan sonra 1828-ci ildən 1830-cu ilədək iki il ərzində biz (çar hökuməti nəzərdə tutulur – İ.K.) Cənubi Qafqaza 40 mindən artıq İran və 84 mindən artıq Türkiyə ermənilərini köçürdərək, onları əhalisinin olduqca cüzi hissəsinin erməni olduğu Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı xəzinə torpaqlarında, həmçinin Tiflis quberniyasının Borçalı, Axalsıx və Axalkələk qəzalarında yerləşdirdik. Onların yerləşdirilməsi üçün 200.000 desyatin xəzinə torpaqları ayrılmış və 2 milyon rubldan artıq məbləğə müsəlmanlardan özəl torpaqlar satın alınmışdı. Yelizavetpol quberniyasının dağlıq hissəsi və Göyçə gölünün sahilləri bu ermənilərlə məskunlaşdırıldı. Nəzərə almaq lazımdır ki, rəsmi 124.000 ermənidən əlavə buraya həm də xeyli qeyri-rəsmi köçənlər olmuşlar və ümumilikdə onların sayı 200.000-dən çoxdur.

Krım kompaniyasından sonra da dəqiq qeydiyyatdan keçmədən buraya ermənilər köçmüşlər. Müvəffəqiyyətlə başa vurduğumuz 1877-1878-ci illər Türkiyə müharibəsi bizi Kiçik Asiyadan olan yeni köçkün axını ilə töhfələndirirdi: Qars vilayətindən 50000-ə qədər erməni və 40000-ə qədər yunan köçdü... Bundan əlavə, general Ter-Qukasov bizə - Sürməli qəzasına 35000 araba ilə Türkiyə ermənisini köçürür ki, onlar da burada qalacaqlar. Bundan sonra Kiçik Asiyadan tək-tək və ailəliklə erməni axınının ardı-arası kəsilmir. Ermənilərin yeni, daha böyük axını 1893-1896-cı illər arasında, Türkiyədəki erməni iğtişaşları zamanı baş verdi. 1897-ci ildə, diyara yeni təyin olunmuş canişin knyaz Qolitsının gəlişi ərəfəsində gəlmə ermənilər artıq 1896-cı ildə olduğu qədər 10000 deyil, 90.000-ə çatırdı. Onların buradan çıxarılması haqqında knyaz Qolitsının apardığı danışıqlar nəticə vermədi - türklər onları qəbul etmədilər, Xarici İşlər Nazirliyi isə kifayət qədər təkidli deyildi. Nəticədə, ermənilərə elan olundu ki, Rusiya vətəndaşlığını qəbul etməyənlər zor gücünə buradan çıxarılacaqlar. Əlbəttə ki, hamı vətəndaşlığı qəbul etdi və erməni əhalisi içində əridi. O dövr ermənilərinin ardıcılları da oldu - o vaxtdan bəri kiçik Asiyadan axın davam etməkdədir və hazırda təkcə Qars vilayətində xəzinə torpaqları almağa can atan 35000-ə yaxın erməni ailəsi mövcuddur... Bu köçürmələr nəticəsində hazırda Cənubi Qafqazda yaşayan 1,3 milyon erməninin 1 milyondan çoxu yerli əhali deyildir, onları biz (ruslar-İ.K.) bura köçürüb gətirmişik”[401, s.63-64].

Beləliklə, XIX əsrin əvvəllərindən başlayaraq Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsi ilə mərhələ-mərhələ əsrin sonlarına qədər Rusiyanın İran və Osmanlı dövlətlərindən məqsədli şəkildə erməniləri Cənubi Qafqaza köçürməsi və Azərbaycan ərazilərində, xüsusilə də İrəvan bölgəsində yerləşdirməsi nəticəsində regionun tarixən formalaşmış etnik mənzərəsi zor gücünə dəyişdirilmiş oldu. Bununla Rusiya özünün strateji məqsədlərini həyata keçirmək üçün İran və Osmanlı dövlətləri ilə olan yeni sərhədlərində ermənilərdən ibarət bufer zolağ yaratdı. Öz növbəsində, dünyanın müxtəlif ölkələrinə səpələnmiş halda yaşayan ermənilər də Azərbaycan torpaqlarında özlərinə vətən əldə etdilər.

Köçürülən ermənilərin İrəvan və ətraf bölgələrin ən yaxşı xəzinə torpaqlarında yerləşdirilməsi və onlara çarizmin bölgədəki etibarlı ictimai dayağı kimi baxılaraq

dövlət tərəfindən hər cür himayə edilməsi, müsəlmanların əlində olan münbit torpaqlarının dövlət tərəfindən zorla çox aşağı qiymətlərlə satın alınaraq ermənilərə verilməsi və bu kimi bir çox digər amillər ilk gündən yerli müsəlman əhali ilə ermənilər arasında ziddiyyətlərin və münaqişələrin yaranmasına gətirib çıxartdı.

Hələ 1828-ci ildə gəlmə ermənilərlə yerli azərbaycanlı əhalisi arasında münasibətlərin necə qurulması haqqında A.S.Qriboyedov yazırdı: "Ermənilər əksərən müsəlman mülkədarlarının torpaqlarında məskunlaşmışlar". Yenə də A.S.Qriboyedov göstərir ki, bu köçkünlər "...müsəlmanları sıxışdırır, onlar da haqlı olaraq etirazlarını bildirirlər". Rus yazıçısı ümid etdiyini bildirir ki, müsəlman əhalisinin bu "sıxıntısı" uzun çəkməyəcəkdir və onları (müsəlmanları) "əmin etmək lazımdır ki, ermənilərin ilk dəfə ayaq basdıqları bu torpaqları həmişəlik zəbt etmək qorxusu yoxdur" [341,c.32]. Təəssüf ki, əksinə oldu. Ermənilər İrəvan və ətraf bölgələrdə nəinki möhkəmləndilər, həm də oradan köklü azərbaycanlıları sıxışdırıb, öz iddialarını irəli sürdülər.

Həm də XIX əsrin sonlarından başlayaraq siyasi cəhətdən təşkilatlanan və Rusiyanın yardımı ilə silahlanan erməni komitələrinin nəzarəti altında olan erməni köçkünləri əsrin əvvəllərindəki erməni köçkünlərindən fərqlənirdilər, çünki bu erməni kütləsi sivil bir toplum olmayıb, başıpozuq bir qüvvə mahiyyətində idi. Daha sonrakı dövrlərdə Rusiya hakimiyyət orqanları tərəfindən hər cür dəstək alan ermənilərin məskunlaşdıqları İrəvan bölgəsində və digər ətraf Azərbaycan ərazilərində özlərinə dövlət yaratmaq uğrunda mübarizəyə başlamaları bölgədə daha gərgin və qanlı erməni-müsəlman toqquşmalarına gətirib çıxartdı ki, bunun da nəticəsində silahlı erməni birləşmələri qarşısında əliyalın olan türk-müsəlman əhali soyqırıma məruz qaldı.

## 4.2 XIX əsrin sonu - XX əsrin əvvəllərində Cənubi Qafqazdakı erməni-müsəlman konfliktinin İrəvan bölgəsində gedişi

1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrinə görə Rusiyanın istəyi və təkidi ilə İran və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülərək məqsədli şəkildə əsasən Azərbaycanın İrəvan, Naxçıvan və Qarabağ ərazilərində

məskunlaşdırılan ermənilərin çarizmin hər cür qayğı və dəstəyi ilə əhatə olunmuşdular. XIX əsrin ikinci yarısında Cənubi Qafqaza erməni köçünün növbəti mərhələsinin gerçəkləşməsi artıq XIX əsrin sonu – XX əsrin əvvəllərində erməniləri bölgədə əməlli bir güc halına gətirdi. Eyni zamanda, 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsinin nəticəsində imzalanan San-Stefano və Berlin müqavilələrində Osmanlı dövlətinə təzyiq vasitəsi kimi "erməni məsələsi"nin ortaya atılması, bundan sonrakı dövrdə Rusiya ilə paralel İngiltərə, Fransa kimi böyük dövlətlərin xristian təəssübkeşliyi ilə hər vəchlə erməniləri müdafiə etmələri və dəstəkləmələri XIX əsrin sonuna doğru ermənilərin hərbi- siyasi cəhətdən təşkilatlanmalarında mühüm rol oynadı. Məhz bu dövlətlərin dəstəyi ilə dənizdən-dənizə "Böyük Ermənistan" yaratmaq uğrunda mübarizə aparan və "Böyük Ermənistan" yaradılması nəzərdə tutulan ərazilərdə yaşayan aborigen türk-müsəlman əhaliyə qarşı diskriminasiya, terror, qırğın, soyqırımı həyata keçirməyi özünün əsas mübarizə forması elan edən erməni "Armenakan" təşkilatı (1885), "Hnçaq" (1887) və "Daşnaksütyun" (1890) partiyaları meydana gəldi. Bununla da Qafqazda erməni hərəkatı ideoloji, siyasi və hərbi doktrinası formalaşmış məqsədyönlü sistemli bir hərəkata çevrildi.

Rusiya XIX əsrin sonlarından genişlənən erməni hərəkatının təşkilatlanması üçün xaricdə erməni siyasi təşkilatlarının yaranmasına kömək etməklə bərabər öz ərazisində də belə qurumların mövcudluğuna və istənilən fəaliyyətinə göz yumurdu. Bu siyasət Rusiyanın Şərqi Anadolu məsələsində Osmanlı dövlətinə qarşı erməni amilindən istifadə etmək planları ilə bağlı idi.

XX əsrin əvvəllərində artıq Daşnaksütyun partiyasının Rusiyada 2311, Türkiyədə 692, İranda 90 yerli təşkilatı yaradılaraq fəaliyyət göstərirdi. Cənubi Qafqazın demək olar ki, bütün şəhərlərində fəaliyyət göstərən daşnak komitələri xüsusi adlar altında təşkil olunmuşdu. Qars, İrəvan, Naxçıvan və Şuşada yaradılan mərkəzi daşnak komitələri isə Qars və ya İrəvanda yerləşən mərkəzi orqana tabe idilər. Geniş miqyasda fəaliyyət göstərən Daşnaksütyun bölgədə silahlı dəstələrinin sıralarını genişləndirmiş, Rusiyada inqilabi çıxışlar başlayan zaman öz ordusunu səfərbər edərək onun sayını 100 min nəfərə çatdırmışdı[209,s.217]. Bu o demək idi

ki, leqal və ya qeyri-leqal Qafqazda yaşayan hər bir erməni ailəsindən silah altına alınmış əsgər var idi.

Ermənilərin XIX əsrin 90-cı illərində Şərqi Anadolu vilayətlərində Osmanlı dövlətinə qarşı qaldırdığı silahlı üsyanlar məğlub edildikdən sonra onların əsas fəaliyyət mərkəzi Cənubi Qafqaza keçdi. M.S.Ordubadinin yazdığına görə, "erməni yazıçısı və ideoloqu Arsruni Türkiyə şəraitinə baxıb, işin çətinə düşdüyünü görüb, erməniləri Qafqaza daşımağı məsləhət görmüşdü"[215,s.10]. Məhz bu dövrdə Osmanlı dövlətindən köçən ermənilər hesabına Cənubi Qafqazda ermənilərin sayı 400.000 nəfər artaraq 900.000-dən 1,3 milyona qalxdı[401,c.64].

Qaçqın erməni ailələrini məskunlaşdırmaq üçün erməni kilsəsi, erməni siyasi partiyaları və erməni ziyalıları birgə "çıxış yolu" tapdılar ki, silah gücünə, kütləvi qırğınlar törətməklə azərbaycanlıları qırğına məruz qoysunlar, öz tarixi-etnik torpaqlarından qovsunlar və nəticədə azərbaycanlılardan boşaldılacaq bu ərazilərdə Osmanlı dövlətindən köçən erməni ailələrini məskunlaşdırsınlar. "Kaspi" qəzetinin müxbiri həmin dövrdə İrəvandan alınan məktublar əsasında yazırdı ki, ermənilər İrəvan quberniyasından bütün müsəlmanları sıxışdırıb çıxarmağı və sərbəst surətdə onların yerində Türkiyədən gələn erməniləri məskunlaşdırmağı qərara almışlar[11,v.468].

Arsruni və onunla eyni əqidədə olan Bahadurov və digər erməni ideoloqlarının planına görə, Cənubi Qafqazda türk-müsəlmanlara qarşı təqib, terror və soyqırım əməlləri gerçəkləşdirilməli, müharibə səbəbindən erməni və müsəlmanlar bir-birindən ayrılmalı, nəticədə Bakı quberniyasını və Yelizavetpol quberniyasının aran yerlərini müsəlmanlara verib, İrəvan quberniyasını, Yelizavetpol quberniyasının yaylaq və dağətəyi bölgələrini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib bu yerlərdə erməni səltənəti yaradılmalı idi[215,s.11]. 1905-1906-cı illərdə İrəvan bölgəsi də daxil olmaqla Cənubi Qafqazın əksər bölgələrində baş verən erməni-müsəlman toqquşmalarının təməlində ermənilərin bu sərsəm ideyaları dayanırdı. Bölgədəki Rusiya hakimiyyət nümayəndələrinin açıq və ya gizli şəkildə erməniləri himayə etməsi, onlara dəstək verməsi türk-müsəlman əhalinin

təklənməsinə, ermənilərin terror və soyqırım aktları qarşısında dövlət himayəsindən məhrum olmalarına gətirib çıxartdı.

XIX əsrin sonlarına doğru Cənubi Qafqazda erməni hərəkatının genişləndiyi dövrdə Rusiya hökuməti özünün strateji və regional maraqlarına uyğun olaraq erməniləri nəzarət altında saxlamağa çalışırdı. Lakin, bəhs edilən dövrdə erməni maraqlarının həyata keçirilməsi məqsədilə Daşnaksütyun və Hnçaq partiyaları tərəfindən silahlı erməni birləşmələrinin yaradılması işi üçün varlı ermənilərdən hədə-qorxu yolu ilə məcburi “ianə” toplanması işi genişlənirdi. İanə verməkdən imtina edən erməni zənginlərinə qarşı Daşnaksütyun və Hnçaq partiyalarının üzvləri tərəfindən silsilə sui-qəsdlər törədilməsi onunla nəticələndi ki, bu partiyaların siyasətinə və mübarizə formasına rəğbət bəsləməyən erməni zənginləri də özlərinin və ailələrinin həyatlarını qorumaq üçün məcburi şəkildə “erməni maraqları” üçün ianə verməyə məhkum oldular. Getdikcə vəziyyət elə bir şəkil aldı ki, bu prosesə mane olmaq istəyən bölgədəki Rusiya hökumət məmurları belə terrora məruz qaldılar. General Əlixanov-Avarski, Bakı qobernatoru Nakaşidze, Yelizavetpol vitse-qubernatoru Andreyev, polkovnik Bıkov, polkovnik Saxarov və bir çox ermənilərə münasib olmayan, onların əməllərinə dəstək verməyən rus məmurları erməni terrorunun qurbanı oldular.

“Erməni məsələsi”nin ideya mənbəyi rolunu oynayan Eçmiədzin kilsəsi erməni siyasi partiyaları ilə birgə erməni hərəkatına birbaşa rəhbərlik edirdi. Osmanlı Dördüncü Ordu Komandanlığından Hərbiyyə Nəzarəti vasitəsilə Sədarətə təqdim edilən 19 aprel 1903-cü il tarixli bir raportda ermənilərin bir aydan bəri Eçmiədzin kilsəsinin qarşısında iki şikəst qız və oğlan uşağını saxladıqları, xristianların heysiyatına təsir etmək üçün onlara həsr edilən təsirli mahnılar oxutdurduqları, bu yolla erməniləri qızışdırdıqları və külli miqdarda pul yığdıqları haqqında məlumatlar verilirdi[57,v.2].

Artıq erməni hərəkatının idarəolunmaz bir şəkil aldığını və özünün də nəzarətindən çıxdığını görən Rusiya hökuməti ermənilərə qarşı bir sıra cəza tədbirləri həyata keçirdi. Belə ki, 1884-cü ildə Tiflisdə çıxan erməni qəzeti “Mşak” bağlandı. Həmin il Eçmiədzin katolikosu seçilən İstanbul erməni kilsəsinin patriarxı,

Türkiyədəki iğtişaşlarda fəal iştirakı ilə məşhur olan Nerses Varjapetyanın təyinatı qəbul edilmədi və onun Rusiya ərazisinə daxil olmasına icazə verilmədi. 1885-ci ildə erməni məktəblərinin bir çoxu bağlandı. 1896-cı ildə bir çox erməni ziyalıları Sibirə sürgün edildi. Erməni xeyriyyə cəmiyyətləri bağlandı, erməni mətbuatına senzura qoyuldu. Erməni məsələsi ilə çarın tapşırığına əsasən xüsusi məşğul olan Qafqazın o zamankı hakimi knyaz Q.S.Qolitsının 1898-ci ildə təqdim etdiyi məlumatda çarın 14 iyun 1897-ci il sərəncamı ilə erməni məktəblərinin Rusiya Təhsil Nazirliyinə tabe edilməsi haqqında göstərişinə tabe olmaq istəməyən 320 məktəbin bağlandığı, 31 məktəbin isə fəaliyyətinə davam etdiyi bildirilirdi"[145,s.125-126].

Erməni məktəbləri ilə paralel olaraq Eçmiədzin kilsəsinin ixtiyarında olan torpaqların və digər əmlakın dövlət tərəfindən müsadirə edilməsi erməni hərəkatının dini-ideoloji mərkəzi olan və bir çox hallarda birbaşa hərbi-siyasi rəhbər təşkilatı kimi çıxış edən Qriqoriyan kilsəsinin mövqeyini zəiflətmək məqsədi daşıyırdı. Lakin ermənilər kilsənin tövsiyyəsi ilə Rusiyanın bu addımına bütün Cənubi Qafqaz boyu çar məmurlarına qarşı silahlı çıxışlar və sui-qəsdlərlə cavab verdilər[67;68;91].İrəvan quberniyasının Sürməli qəzasının rəisi Aleksandr Antonoviç Boqoslavski sui-qəsd nəticəsində öldürüldü[71]; Yelizavetpol polis rəisi Erməni komitəsinin üzvləri tərəfindən qətlə yetirildi[70];Tiflis Dördüncü Polis Dairə Komissarının müavini öldürüldü[72] və s.

Qafqaz hakimi knyaz Qolitsının ermənilərə qarşı radikal mövqeyi ermənilərin ona qarşı da sui-qəsd törətmələri ilə nəticələndi. 1903-cü ilin oktyabrın 14-də Tiflisdə Hnçaq üzvləri tərəfindən təşkil edilən sui-qəsd nəticəsində knyaz Qolitsın ağır yaralandı. Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən İstanbul hökumətinə göndərilən 6 noyabr 1903-cü il tarixli sənəddə bildirilirdi ki, "Qafqaz valisi Qolitsınə qarşı sui-qəsdə cəhd edən erməni komitəsinin beş üzvündən dördü Osmanlı, biri isə İran ermənisidir. Bunlardan üç nəfəri hücum zamanı valinin köməyinə gəlmiş kəndlilər tərəfindən öldürülmüş, iki nəfəri isə ağır yaralı halda xəstəxanaya aparılmışdır. Buna görə də Rusiya məhəlli hakimiyyət orqanları Erməni komitəsinə qarşı cəza tədbirlərinə başlamış və 50-dən çox erməni həbs edilmişdir"[69].

Bu hadisədən sonra Qolitsın özünün xahişi ilə Qafqaz hakimi vəzifəsindən azad edildi və Peterburqa göndərildi. Qafqaz hakimi vəzifəsinə ermənilərə münasibətdə Qolitsının əks mövqeyində dayanan İ.Vorontsov-Daşkov təyin edildi.

İ.Vorontsov-Daşkov hələ Qafqaz hakimi vəzifəsinə təyin edilməsindən 3 il əvvəl, 1900-cü ildə rus çarına yazırdı: "Böyük Pyotrun dövründən başlayaraq rus siyasəti müharibələrdə bizim tərəfimizdə olan ermənilərə qarşı dostluq münasibətində olmuşdur... Türkiyə ermənilərinin müdafiə edilməsində qətiyyət göstərməliyik, xüsusilə belə bir zamanda ki, hərbi müdaxiləmizə asanlıqla səhnə ola biləcək bölgələrdə yaşayan xalqların bizimlə duyğularına zərbə vurmaq əvəzinə onları müdafiə etməliyik"[255,s.180].

İ.Vorontsov-Daşkovun Qafqaz hakimi təyin edilməsi ilə knyaz Qolitsının dövründə ermənilərə qarşı həyata keçirilən siyasi xətt dəyişildi. Cənubi Qafqazda erməniləri sıxışdırmaqdansa, onların potensial təhlükəyə çevrilmiş qüvvəsindən daha səmərəli istifadə etmək qərarına gəlindi. İ.Vorontsov-Daşkovun ermənilərə münasibətdə tutduğu siyasi xətt və onun bu istiqamətdəki fəaliyyəti çarizm tərəfindən məqbul hesab edildi. Bunun nəticəsi idi ki, çarizm 1905-ci il fevralın 26-da Qafqaz canişinliyini bərpa edərək bölgədə həm mülki, həm də hərbi hakimiyyəti İ.Vorontsov-Daşkova verib onun səlahiyyətlərini genişləndirdi.

Rusiya hökuməti tərəfindən 1903-cü ildə müsadirə edilmiş erməni kilsələrinin əmlakının 1905-ci il avqustun 5-də yenidən onların özlərinə qaytarılması ilə bağlı çar fərmanının verilməsi ermənilərin əl-qolunu əməlli açdı. Bu münasibətlə Tiflisdə olan Eçmiədzin katalokosu Rusiya imperatoruna və onun ailəsinə dualar etdi. Bu əsnada mərasimdəki ermənilərdən beş-on erməni anarxisti katalikosa etiraz edərək, "partlatdıqları bombalar sayəsində hökuməti ermənilərin mallarını geri qaytarmağa məcbur edənlərə təşəkkür etmək lazımdır" dedilər[80]. Lakin onların sözlərinə əhəmiyyət verən olmadı və az sonra polis tərəfindən həbs edildilər.

Çarizm İ.Vorontsov-Daşkovun əli ilə təşkil etdiyi qırğınlarda aşağıdakı taktikanı həyata keçirirdi: bir tərəfdən inqilabiləşən, hakimiyyəti hədələyən çıxışlara cəhd edən xalqlar, digər tərəfdən isə Rusiya üçün arzuedilməz xalqa çevrilmiş ermənilər milli münaqişənin qarşı-qarşıya duran tərəfləri kimi bir-birini qıraraq

zəifləyəcək, bundan çarizm qazanmış olacaqdı.Çarizmlə yanaşı böyük güclərdən biri olan İngiltərə də hər vəchlə Ermənilәri Azərbaycana qarşı təcavüzkar hərəkətlərə təşviq etmişdir.Nəticədə, İngiltərənin siyasi planları çərçivəsində dəstəklənən ermənilər Azərbaycanda ağır dözülməz soyqırımlar törətmişlər.

Ermənipərəstliyini heç vaxt gizlətməyən və hər zaman açıq şəkildə bəyan edən İ.Vorontsov-Daşkovun erməniləri açıq-aşkar himayə etməsi və dəstəkləməsi Cənubi Qafqaz müsəlmanlarına ağır fəlakətlər gətirdi. İ.Vorontsov-Daşkov Cənubi Qafqazda erməni və türk-müsəlman əhali arasında milli ədavət toxumu səpərək knyaz Qolitsının hakimliyi dövründə geniş vüsət alan ermənilərin bölgədəki Rusiya məmurlarına qarşı terror fəaliyyətinin istiqamətini bölgədəki türk-müsəlman əhaliyə qarşı yönəltdi və bununla da bölgə millətlərarası toqquşmalara səhnə oldu.

Hadisələrin xarakteri, miqyası və gedişi azərbaycanlıların soyqırımının dövlət səviyyəsində hazırlanıb həyata keçirilən cinayət olduğunu göstərir. Xüsusilə 1903-cü ildə İ.Vorontsov-Daşkovun Qafqaza hakim təyin edilməsindən sonra hadisələr daha qızğın şəkil almışdı. Türklərə nifrətini, ermənilərə isə hüsn-rəğbətini gizlətməyən bu şəxs hər yerdə öz məmurlarına və kazaklara erməniləri himayə etmək barədə göstəriş vermişdi. Qanlı hadisələrin çar məmurları tərəfindən qızışdırılması, onların bir çox hallarda rus qoşunlarına ermənilərlə bir cəbhədə döyüşmək əmri verməsi, ən yaxşı halda isə çar çinovniklərinin müşahidəçi mövqeyi tutması azərbaycanlıların soyqırımının mütəşəkkilliyini təmin etmək baxımından düşünülmüşdü. Bakıda qubernator Nakaşidze, Deminski, Lileyev, İrəvanda qubernator Paskeviç, vitse-qubernator Baranovski, Naxçıvanda qəza polis rəisi Angil, Şuşada Qalaşşapov və digərləri milli qırğınların birbaşa təşkilatçısı və təhrikçiləri idilər. Bir çox hallarda bu məmurlar azərbaycanlı əhaliyə qarşı qırğınları özlərinin bilavasitə göstərişləri ilə başlayır, sonra isə qanlı hadisələri soyuqqanlılıqla seyr edir, dəhşətli faciəyə göz yumur, insanların kömək üçün etdikləri müraciətləri qulaqardına vururdular. Bunu nəzərdə tutan "Molla Nəsrəddin" jurnalı həmin dövrə aid nömrələrinin birində çarizmin riyakarlığını ifşa edərək yazırdı: "Bu nə sirdir ki, erməni-müsəlman vuruşması düşən kimi hökumət əsgərləri elə şiddətli azara mübtəla olurlar ki, təbiblər onların çölə çıxmasını rəva görmürlər"[145,s.130-131;147,s.55].

Ermənilərin müsəlman əhali üzərinə hücumlarının Rusiya hakimiyyət orqanları tərəfindən təşkil edildiyi, ermənilərin törətdiyi hər cür cinayətlərə rus məmurlarının göz yumduqları və onlara hərtərəfli dəstək verdikləri bəhs edilən dövrdə Osmanlı dövlətinin Cənubi Qafqazın müxtəlif şəhərlərində fəaliyyət göstərən şəhbəndərlərin İstanbul hökumətinə göndərdikləri teleqram və hesabatlarda da öz əksini tapmışdır. Məsələn, Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə daxil olan 13 dekabr 1905-ci il tarixli teleqramda Cənubi Qafqazın müxtəlif bölgələrində ermənilərin müsəlmanlar üzərinə hücum edərək uşaq və qadınlara belə fərq qoymadan hamısını qətl etmələri haqqında məlumat verilir, bildirilir ki, bütün bunlar Rusiya mülki və hərbi məmurlarının gözləri qarşısında baş verir. Rusiya məmurları nəinki ermənilərin cinayətlərinə göz yumur, hətta onları silahla təmin edir, ermənilərə kənardan gələn silah və digər yardımları onlara çatdırırlar. Müsəlmanlara münasibətdə isə ayrıseçkilik vardır. Qırğına məruz qalan müsəlman qardaşlarına yardıma gedən müsəlmanlar rus hərbçiləri tərəfindən gülləbaran edilirlər[85].

Osmanlı dövlətinin Tiflis başşəhbərdərliyindən İstanbul hökumətinə göndərilən 18 iyul 1905-ci il tarixli məlumatda da açıq şəkildə göstərilirdi ki, Qafqazda ermənilərlə müsəlmanlar arasında nifaq salan və toqquşmaların baş verməsinə rəvac verən məhz Rusiya hökümətidir və hökümət bu yolla Cənubi Qafqazı inqilabi çıxışlardan kənarda saxlamaq istəyir[77].

Əslində Rusiyanın hakim dairələri 1905-1906-cı illər erməni-müsəlman iğtişaşlarından öz məqsədləri üçün istifadə etməklə, ikili oyun oynamışdılar. Çar məmurları Qafqazda güclənən narazılıq dalğasının hökumət əleyhinə istiqamətlənəcəyindən qorxduqlarından, ermənilərin müsəlmanların yaşadıqları ərazilərdə törətdikləri qırğınlara biganə qalmış, bəzi hallarda isə ermənilərin tərəfini saxlamaqla hər iki tərəfin gücünün etnik toqquşmalara sərf edilməsinə nail olmuşdur[124,s.48].

C.Zeynaloğlu 1924-cü ildə İstanbulda nəşr olunan “Müxtəsər Azərbaycan tarixi” kitabında Cənubi Qafqazda erməni-müsəlman toqquşmaları törətmək məqsədilə Rusiya hökuməti tərəfindən Peterburqdan xüsusi xəfiyyə məmurlarının

göndərilməsinə diqqəti çəkərək yazırdı: "Qafqazda ermənilər qiyam edərək öz kilsə və vəqflərinin idarəsini ələ aldılar. Hətta ötədən bəri Osmanlı dövləti əleyhinə hərəkət etmək üçün Rusiya tərəfindən təchiz və himayə edilən daşnak firqəsi bu fürsəti qaçırmayaraq, Rusiyadan ayrılmağa və müstəqil bir Ermənistan dövləti vücuda gətirməyə təşəbbüs eylədi... Yalnız azəri türkləri hələ qəflətdə idilər və iğtişaşlarda çar tərəfini saxlayırdılar. Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə biri digəri əleyhinə silah işlətməyə təşviq və əsrlərcə yaxşı keçinən iki milləti biri digərinə qırdırdı" [243,s.106-107].

1905-1906-cı illərdə baş vermiş erməni-müsəlman toqquşmaları ilə bağlı əlimizdə əsas mənbə rolunu oynayan M.S.Ordubadinin 1911-ci ildə nəşr etdiyi "Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi" əsərində müəllif, erməni-müsəlman münaqişəsinin və bunun ətrafında baş verən hadisələrin dörd əsas səbəbinin olduğunu yazır: "Birinci səbəb, erməni Daşnaksütyun komitəsinin müstəbid idarə üsulunu təşkil etməyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı; ikinci səbəb, məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır; üçüncü səbəb və iğtişaşlara gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır; dördüncü səbəb, ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmalarıdır"[215,s.8-10].

1905-1906-cı illər erməni-müsəlman toqquşmaları ilə bağlı M.S.Ordubadinin göstərdiyi səbəblər həqiqəti əks etdirsə də, bunlar həqiqətin hamısı deyildi. Ermənilərin azərbaycanlılara qarşı soyqırım törətməsinin əsas səbəbi onların Azərbaycan torpaqlarına gəlmə olması, ərazi iddiaları və ona nail olmaq üçün əl atdıqları etnik təmizləmə siyasəti idi. Sosial-siyasi, iqtisadi, mədəni və dini sahədə mövcud fərqlər tabe xarakterdə idi[229,s.89].

Bəhs edilən dövrdə Osmanlı dövlətinin Cənubi Qafqazın müxtəlif şəhərlərində fəaliyyət göstərən şəhbəndərlərinin Osmanlı hökumətinə göndərdikləri raport və hesabatlardan məlum olur ki, tarixşünaslığımızda Cənubi Qafqazda erməni-müsəlman toqquşmalarının tarixi ilə bağlı mövcud olan 1905-1906-cı illər xronologiyası hadisələrin sadəcə ən qızğın dövrünü ehtiva edir. Türkiyə

Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan bu sənəd və materiallardan aydın olur ki, Cənubi Qafqazda erməni-müsəlman münaqişəsi ermənilərin XIX əsrin 90-cı illərində Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamların uğursuzluqla nəticələnməsindən sonra onların Cənubi Qafqaza kütləvi axını ilə eyni dövrdə paralel olaraq başlamış və 1910-cu ilə qədər davam etmişdir. Azərbaycanlılara qarşı hücumların təməlində də bir növ Osmanlı dövlətindəki uğursuzluqların hayfını Cənubi Qafqaz müsəlmanlarından çıxmaq və bu ərazidə özlərinə dövlət yaratmaq üçün baza formalaşdırmaq niyyəti dayanmışdı. Bu hücumların ilkin dövrlərində Rusiya hakimiyyət orqanlarının ermənilərə qarşı cəza tədbirlərinə əl atmasına cavab olaraq ermənilərin onların özlərinə qarşı terror aktları həyata keçirmələri nəticə etibarilə ona gətirib çıxartdı ki, hökumət məmurları özlərinin və ailələrinin təhlükəsizliyini təmin etməkdən ötrü ermənilərin müsəlmanlara qarşı hücumlarına qarşı ya səssiz dayanmalı, ya da onlarla əlbir hərəkət etməli oldular. Rusiya hökumət məmurlarının ermənilərlə əlbir hərəkət etmələri və onlara açıq dəstək nümayiş etdirmələri Vorontsov-Daşkovun Cənubi Qafqaza hakim göndərilməsindən sonra rəsmi dövlət siyasətinə çevrildi.

Cənubi Qafqazda müsəlmanlarla ermənilər arasında meydana gələn iğtişaşlarla bağlı Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən İstanbul hökumətinə daxil olan 21 aprel 1903-cü il tarixli məktubdan məlum olur ki, artıq bu dövrdə Cənubi Qafqazın bir çox yerlərində, xüsusilə də İrəvan bölgəsində çox sayda insan tələfatları ilə müşaiyət olunan erməni-müsəlman toqquşmaları baş verməkdə idi. Belə ki, başşəhbəndərin məktubunda göstərilir ki, "İrəvandakı gimnaziya tələbələrindən biri rus, digəri erməni olmaqla iki qızın alış-veriş üçün girdikləri dükanda baş verən xoşagəlməz hadisədən sonra müsəlmanlarla ermənilər arasında iğtişaşlar baş qaldırmışdır. Bu iğtişaşlarda 40 müsəlman və bir neçə xristian öldürülmüşdür. Bu hadisələrlə bağlı Tiflisdə hökümət əleyhinə nümayiş olmuş, amma nümayiş kazak süvari alayı tərəfindən qan içində boğulmuşdur. Bundan bir qədər sonra Bakıda da iğtişaşlar baş qaldırmış, toqquşmalar olmuş, iştirakçıların bir hissəsi həbs edilmiş, bu iğtişaşlarda bir neçə zabit və Bakı polis rəisi də qətlə yetirilmişdir..."[66].

1903-cü ildə Daşnaksütyun partiyası fəallarının və silahlı erməni birləşmələrinin toplaşdığı əsas yerlərdən olan Qars və İrəvan bölgəsindəki vəziyyət Osmanlı siyasilərini də vaxtaşırı narahat etmiş, bu ərazilərdən tez-tez Osmanlı ərazilərinə gerçəkləşdirilən erməni hücumlarının qarşısını almaq üçün hökumət hərbi və diplomatik sahələrdə qabaqlayıcı tədbirlər görmüşdür. Məsələn, 1903-cü il may ayının 6-da Qarsdakı Osmanlı başşəhbəndərliyindən İstanbul hökumətinə daxil olan məlumatda bildirilirdi ki, Qars, İrəvan və digər bölgələrində olan erməni dəstələrindən beş yüz nəfərin yaxın zamanlarda İrəvan tərəfdən Osmanlı ərazilərinə təcavüz edəcəkləri haqda məlumat alındığından Osmanlı dövləti bu təcavüz aktına imkan verilməmək üçün Peterburq və Tehrandakı səfirlikləri vasitəsilə Rusiya və İran hökümətləri nəzdində təşəbbüs göstərməlidir[58,v.2]. Bu məlumatla bağlı Osmanlı hökuməti Peterburq səfirliyi vasitəsilə Rusiya hökuməti ilə danışıqlar aparır və sonuncu bu məsələ ilə bağlı aidiyyəti olan qurumları xəbərdar edəcəyini vəd edərək işini bitmiş hesab edir[59]. 1903-cü il avqustun əvvəllərində Osmanlı dövlətinin Peterburq səfiri ilə Rusiya xarici işlər naziri arasında baş tutan növbəti görüşdə isə, Qafqazda toplanan erməni silahlı birləşmələrinin İrəvan bölgəsindəki türk-müsəlman əhaliyə qarşı təcavüzkar fəaliyyətləri müzakirə mövzusu olmuş və Rusiya baş diplomatı kont Lamsdorf, Qafqaz valisi kont Qalitsin ilə görüşüb bu hadisələrin təkrarlanmaması üçün bütün tədbirlərin görüləcəyi təminatını vermişdir[60].

Cənubi Qafqazda erməni-müsəlman münaqişəsinin qızğın fazaya keçməsi 1905-ci il fevralın 2-də Bakıda Ağarza Babayev adlı bir müsəlmanın Quba meydanı adlanan yerdə erməni komitəçisi tərəfindən öldürülməsi və bunun ardınca bir neçə gün sonra istintaqa aparılan digər bir müsəlmanın yolda erməni əsgəri tərəfindən günahsız olaraq qətlə yetirilməsi ilə başlandı. Əslində bu hadisələr təsadüf deyildi. Ermənilər türk-müsəlmanlara qarşı qırğın həyata keçirmək üçün bütün hazırlıqlarını görmüşdülər və “qığılcım effektili” bu hadisələr millətlərarası münaqişə törətmək üçün ermənilər tərəfindən planlı surətdə həyata keçirilmişdi. XIX əsrin 60-70-ci illərində erməni sahibkarları Bakı neft sənayesində cəmi 9 faiz təşkil edirdilərsə, XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən 167 neft şirkətinin 32,9 faizi, yəni üçdə biri erməni sahibkarlarının əlində idi[189,s.98]. Buna görə də erməni ideoloqları

Bakıdakı erməni zənginlərininköməyi ilə məqsədlərinə nail olacaqlarına, Bakının neft səltənətini əllərinə keçirəcəklərinə və bundan sonra da bütün Cənubi Qafqazdan türk-müsəlman amilini silah gücünə məhv edib və qovub bu ərazilərdə erməni dövləti yaradacaqlarına çalışırdılar. Lakin 1905-ci il fevralın 6-dan 10-na qədər tam şiddətlə davam edən erməni-müsəlman toqquşmaları zamanı hər iki tərəfdən təlefat min nəfərə çatsa da, ermənilərin niyyətləri baş tutmamış və məğlub olmuşlar. Əhalinin mal və digər zəruri əmlakına dəyən zərər isə milyonlarla ölçülür[215,s.12-17].Bakı Neft İxracı Şirkətinin idarə heyətinin sədri Popyenin verdiyi məlumata görə, neft sənayesinə dəyən zərərin miqdarı 150 milyon rubldan çox olmuş və dağıdılan neft sənayesi sahələrinin bərpası üçün ən azı 9-10 ay vaxt lazım olacaqdı[83].

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə daxil olan 6, 11 və 23 fevral 1905-ci il tarixli məlumatlarda Bakıda ermənilərlə müsəlmanlar arasında baş verən toqquşmalar haqqında təfsilatlı məlumat verilir və sonuncu məlumatda bildirilir ki, “Bakıda cinayətdə şübhəli şəxs qismində saxlanılan bir müsəlmanın məhkəməyə gətirilən zaman guya qaçmağa cəhd göstərdiyi iddiası ilə erməni əsgərləri tərəfindən öldürülməsi hadisəsindən sonra müsəlmanlarla ermənilər arasında silahlı toqquşmalar başlamış, üç gün ərzində davam edən bu toqquşmalarda 1000 nəfər ölmüş, 2000 nəfər yaralanmışdır”[73].

Maraqlıdır ki, Bakıdakı erməni-müsəlman toqquşmalarından dərhal sonra Daşnaksütyun partiyası Cənubi Qafqazdakı erməni və müsəlmanlara müraciət mahiyyətli bəyannamə ilə çıxış edir[32,v.4;64,v.1-2]. Bəyannamədə erməni və müsəlmanlar arasında milli ədavətin əsas təşkilatçısı və qızışdırıcısı kimi Rusiya hökuməti göstərilir. İranda Müzəffərəddin şahın hakimiyyəti altında birgə yaşamaqda olan müsəlman və ermənilərin arasında heç bir problemin yaşanmadığı və Qafqazda da indiyə qədər müsəlmanlarla ermənilərin dost və qardaşcasına birgə yaşadıqları vurğulanır. Bildirilir ki, Rusiya hakimiyyət orqanları bu qırğınların əsas təşkilatçısıdırlar. Çünki məhz onlar erməniləri müsəlmanlara, müsəlmanları da yəhudi və gürcülərə qarşı iğtişaşlara təşviq edirdilər[32,v.4;64,v.1-2]. Bəyannamənin sonunda fitnə - fəsadlara uymamaq, sülh və əmin-amanlığı bərpa etmək tövsiyyə olunur.

Bakı qırğınları zamanı ermənilər buradakı hərbi sursatların zənginliyinə, onların çar məmurları tərəfindən müdafiə edilmələrinə baxmayaraq məqsədlərini reallaşdıra bilmədilər. Çünki Bakı qubernatoru Mixail Nakaşidze milli qırğınların davam etdirilməsinin də arzuedilməz nəticələrə səbəb ola biləcəyini başa düşüb, artıq 1905-ci il fevralın 10-da erməni cinayətlərinin qarşısını almağa məcbur oldu. Fevralın 18-də Bakıda fövqəladə vəziyyət elan edildi[74]. Lakin bu tədbirlər onun özünün faciəsi ilə nəticələndi. Bir qədər sonra ermənilər imkan əldə edən kimi M.Nakaşidzeyə qarşı sui-qəsd həyata keçirdilər. M.Nakaşidze 1905-ci il may ayının 15-də şəhərin meydanından keçərkən daşnak dəstə başçısı Dronun atdığı bomba nəticəsində öldürüldü. Qubernatorun milliyyətcə azərbaycanlı olan faytonçusu da öldü[145,s.156;258,s.534]. Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı əsərində bu barədə yazır: "Bakıda baş verən qırğından bir az sonra şəhər qubernatoru faytonda küçə ilə gedərkən bir neçə nəfər erməni faytonun üzərinə hücuma keçərək bomba atıb partlatmışlar. Bombalar faytonun yanında yerə dəyib partlayaraq faytonu darmadağın etmişdir. Partlayışdan ağır yaralar alan qubernator və atlar oradaca ölmüşdür. Quldur ermənilərin biri tutulmuş, digərləri isə qaçıb gizlənmişdilər. Sonra aparılan axtarış nəticəsində bu cinayətdə iştirak edən daha dörd erməni həbsə alınmışdır. Deyilənə görə, həmin beş nəfər cani erməni dar ağacından asılaraq cəzalarına çatmışlar"[212,s.20]. M.Nakaşidzenin öldürülməsi bir tərəfdən onun qalib gələ bilməyən ermənilərin cinayətlərinin qarşısının tez alınmasından doğan qəzəbin nəticəsi idisə, digər tərəfdən erməni terrorçularına mane olmağa cəhd etmək istəyən çar məmurlarına da bir xəbərdarlıq idi. Təbii ki, çarizm istənilən halda hadisələrin öz nəzarətindən çıxması ilə barışmaq istəmirdi. Buna görə də, rus-erməni planlarının, milli qırğınların siyasi şüurun zəif inkişaf etdiyi bölgələrdə həyata keçirilməsi daha məqbul variant idi. Bakı iğtişaşlarından sonra erməni cinayətləri Naxçıvan, İrəvan və Zəngəzur qəzalarında artmağa və genişlənməyə başladı[145,s.156-157]. Bununla da, Bakıda başlanan erməni-müsəlman toqquşmaları bütün ölkəyə yayıldı.

1905-1906-cı illərdə ermənilərin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri soyqırım aktlarının ümumi xronologiyasına nəzər salaq: Bakı – 6-10

fevral 1905; İrəvan – 20-22 fevral 1905; Naxçıvan - 5-12 may 1905; İrəvan - 23 may-4 iyun 1905; Şərur – 29-31 may 1905; Dərələyəz – may-iyun 1905; Eçmiədzin 3-9-iyun 1905; Zəngəzur – iyun 1905; Cəbrayıl – 16 iyun 1905; Şuşa - 16-22 avqust 1905; yenidən Bakı - 20 avqust-14 sentyabr 1905; yenidən İrəvan – 18 sentyabr 1905; Cavanşir qəzası - 26 sentyabr-28 noyabr 1905; yenidən Bakı – 20-25 oktyabr 1905; Qazax – 18-28 noyabr 1905; Gəncə - 19-24 noyabr 1905; Tiflis - 20-29 noyabr 1905; yenidən Naxçıvan - 26-30 noyabr 1905; Ərəş – 28 noyabr 1905; yenidən İrəvan – 27 may, 8-9 iyun 1906; Sürməli – 2-4 iyum 1906; Xocalı – 12-18 iyul 1906; yenidən Şuşa – 12-22 avqust 1906; yenidən Zəngəzur - 29 iyul-29 avqust 1906 və s. Göründüyü kimi, bütün ölkə üzrə baş verən qırğınların tarix və coğrafiyalarına baxıldıqda hadisələrin sanki bir-birini təqib edirmiş kimi müxtəlif bölgələrdə müxtəlif zamanlarda başlayıb qısa müddətdə başa çatdığının şahidi oluruq. Ermənilərin Azərbaycanın müxtəlif bölgələrində bu şəkildə mərhələ-mərhələ türk-müsəlman əhalinin üzərinə gerçəkləşdirdikləri hücumlar heç də təsadüfi olmayıb onların gücünə uyğun olaraq şüurlu şəkildə planlaşdırılmış və həyata keçirilmişdi. Çünki ermənilər Cənubi Qafqazın bütün bölgələrində eyni zamanda türk-müsəlmanlara qarşı silahlı hücumlara başlamaq və bu hücumları qalibiyyətlə başa çatdırmaq gücündə deyildilər. Bu obyektiv həqiqəti M.S.Ordubadi də təsdiq edir: "Əvvəlinci faciələrdə ermənilərin bütün Qafqazı işğal altma alacaq qədərində əsgərləri yox idi. Ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir ovuc könüllü əsgərlərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırtmaqla Şuşada müharibəyə başlayır. Şuşada sülh edib Gəncə quberniyasının sair yerlərini yandırmağa və dagıtmağa təşəbbüs edirdilər. Müsəlmanlar isə əvvəlcə bunları bilməyib sonralar gözlərini açdılarsa da, ermənilər Türkiyədən və İrandan əsgər yığıb müsəlmanları əzməyə çalışırdılar" [215,s.9].

Erməni siyasi partiyaları "Daşnaksutyun" və "Hnçak" partiyalarının terrorçu silahlı dəstələrinin törətdikləri qırğınlara Çar Rusiyası administrasiyasının biganə qalması qırğınların miqyasının genişlənməsinə səbəb olmuş, iğtişaşlar tezliklə İrəvan şəhərinə də sirayət etmişdi. Bakının ardınca qırğınların İrəvan bölgəsinə keçməsi də təsadüfi deyildi. Çünki XIX əsrin əvvəllərindən başlayaraq Rusiyanın dəstəyi və

hərtərəfli yardımı ilə xaricdən köçürülən ermənilərin əsas hissəsi məhz bu bölgədə yerləşdirilmiş və sonrakı dövrlərdə də ermənilərin İrəvan bölgəsində möhkəmləndirilməsi siyasəti yeridilmişdi. Mərhələ-mərhələ həyata keçirilən sistemli köçürülmə və eyni zamanda pərakəndə halda Cənubi Qafqaza gələn Osmanlı ermənilərinə vətəndaşlıq verərək onların məhz İrəvan quberniyası ərazisində yerləşdirilmələrinə baxmayaraq, XX əsrin əvvəllərində hələ də bölgənin bütün qəzalarında ermənilərin say çoxluğunun təmin edilməsi məsələsi tam şəkildə öz həllini tapmamışdı. 1897-ci il Ümumrusiya siyahıyaalmanın nəticələrinə görə, İrəvan quberniyasında mövcud olan 1301 kənddən 959-da azərbaycanlılar, 342-də ermənilər məskunlaşmışdı. İrəvan şəhərinin daxil olduğu İrəvan qəzasında mövcud olan 221 kənddən 151-də azərbaycanlılar, 55-də ermənilər, 15 kənddə isə azərbaycanlılarla ermənilər qarışıq şəkildə yaşayırdılar. XX əsrin əvvəllərində İrəvan quberniyasına daxil olan 7 qəzadan dördündə - Naxçıvan, Sürməli, Şərur-Dərələyəz və İrəvan qəzalarında azərbaycanlılar, üçündə - Aleksandropol (Gümrü), Yeni-Bəyazid və Eçmiədzin qəzalarında ermənilər çoxluq təşkil edirdilər. Ermənilər ilk növbədə azlıq təşkil etdikləri və strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən İrəvan, Naxçıvan, Şərur-Dərələyəz, Zəngəzur qəzalarında sayca üstünlüyə malik olmaq istəyirdilər. Daha sonra isə Qarabağda qırğınlar törədərək, həmin əraziləri ələ keçirmək və nəticədə İrəvan quberniyasının və Yelizavetpol quberniyasının dağlıq ərazilərində erməni muxtariyyətinin, sonrakı mərhələdə isə erməni dövlətinin əsasını qoymaq istəyirdilər. 1905-1906-cı illərdə ermənilər tərəfindən törədilən qırğınların mahiyyətində məhz bu amil dayanırdı[204,s.62].

Əsərlərini A-do imzası ilə çap etdirən erməni müəllifinin (əsl adı Hovanes Ter-Martirosyan) verdiyi məlumata görə, İrəvan şəhərində birinci erməni-türk toqquşması 20-22 fevral 1905-ci il tarixində baş vermişdir. Fevralın 20-də bazar günü səhər saat 10-da şəhərdə ermənilər şayiə yayırlar ki, guya Qantar (Tərəzi) meydanında türklər erməniləri doğrayırlar”. Şəhərdə böyük çaxnaşma yaranır. Bazardakı ermənilər şəhərin erməni hissəsinə, türklər isə türklər yaşayan hissəsinə qaçışırlar, bir neçə saniyə ərzində bazar tamamilə boşalır. Təxminən 15 dəqiqə davam edən atışmadan sonra şəhər xəstəxanasına bir-birinin ardınca ölülər və yaralılar daşınır. Bir qədər

sonra ölən və yaralanların sayı 14-ə çatır. Fevralın 21-22-də də qırğınlar davam etmişdir. A-donun məlumatına görə, İrəvan şəhərində baş verən birinci toqquşma nəticəsində hər iki tərəfdən 54 nəfər öldürülmüş və yaralanmışdır. Şəhərdə ticarətə 5 gün ərzində ara verilmişdir[206].

İrəvan şəhərində baş verən qanlı toqquşmalardan bir qədər sonra Naxçıvan bölgəsi ermənilərin hücumuna məruz qaldı. Əslində Naxçıvandakı erməni-müsəlman toqquşmaları İrəvandan gəlmiş daşnak silahlılarının təhriki və onların bilavasitə iştirakı ilə baş vermişdi. M.M.Nəvvab da bu faktı təsdiqləyərək yazır: "Elə ki İrəvanın fitnə-fəsad törədən erməniləri Naxçıvana gəldilər, orada vəziyyət gərginləşdi. Naxçıvan erməniləri neçə illərdən bəri tədarük etdikləri vuruş sursatlarını: topları, bombaları, beşaçılan tufəngləri və s. növbəti qırğın üçün hazırlamağa başladılar"[212,s.21].

1905-ci il 5-12 may tarixlərində Naxçıvanda baş vermiş hadisələrlə bağlı sənədlər təsdiq edir ki, ermənilər burada türk-müsəlmanlara qarşı qırğın törətmək üçün çoxlu silah-sursat toplamış və ciddi hazırlıq işləri görmüşdülər. Hazırlıq işlərini başa çatdırdıqdan sonra ermənilər müsəlmanları hər vasitə ilə münaqişəyə cəlb etməyə çalışırlar. Belə ki, may ayının 5-də gündüz saat üç radələrindəüç nəfər Cəhri kəndinin sakini - müsəlmanlar köçkun ermənilərin məskunlaşdigı Şıxmahmud adlı yerdən keçdikləri vaxt ağır surətdə yaralanırlar. Bu hadisə ilə bağlı xəbər şəhərə çatdıqda əhali içərisində narahatlıq və həyəcan başlayır. Mayın 5-dən etibarən ermənilər kütləvi surətdə dükanlarını bağlayıb kilsəyə və evlərinə yığışırlar. Müsəlman əhali içərisində təşviş və həyəcan elə bir həddə çatır ki, hər bir şəxs istənilən anda ermənilər tərəfindən hücumun baş verə biləcəyindən narahat olmağa başlayır. Elə bu vaxt, may ayının 7-də bir müsəlman erməni və müsəlmanların birgə yaşadıqları Tunbul kəndini keçdikdə ermənilər tərəfindən vurularaq öldürülür[76]. O vaxt Tunbul kəndinin üçdə iki hissəsi müsəlman, üçdə bir hissəsi erməni idi. Lakin ermənilər sayca az olmalarına baxmayaraq, tədarük etdikləri silah-sursata güvənərək bu kənddə belə müsəlmanlara qalib gəlməyi və onları qırğına məruz qoymağı planlamışdılar.

Bölgədə həyəcanlı vəziyyət yarandığından quberniya rəhbərliyi Naxçıvana gəldi. May ayının 8-dəİrəvan vitse-qubernatoru Viktor Baranovski İrəvandan şəhər qlavası Ağamalov ilə, daha bir ay qabaq Peterburqa getmişşəhər qlavası Cəfərqulu xan Naxçıvanski ilə Naxçıvana daxil oldular. M.S.Ordubadi yazır ki, İrəvan vitse-qubernatoru Baranovskinin başçılıq etdiyi heyət şəhərə gələnə qədər baş verən hadisələrdə itki və tələfat verən tərəfin türk-müsəlman əhalisi olmasına baxmayaraq onlar hadisələrin böyüməsini istəmir, yenə də ermənilərlə barışığa can atır və hökumətdən mühafizə arzu edirdilər: " Ermənilər bizə nə etdilərsə keçdi, fəqət yenə yığışıb bazara gəlsinlər"[215,s.18-19]. Quberniya rəhbərliyi müsəlman əhalisinin şikayət və xahişlərini ən yaxşı halda dinləyir, lakin baş verə biləcək dəhşətli hadisələrin qarşısının alınması istiqamətində heç bir əməli tədbir görmürdü. Bunu M.S.Ordubadi də xüsusi vurğulayaraq yazırdı: "Ayın 9-da Cəhri müsəlmanları qubernatorun hüzuruna gəlib, bu sözləri şikayət etdilər: "Bizim kəndin yolları hər tərəfdən erməni əlindədir. Bu səbəbdən təvəqqə edirik, yolları hökumət mühafizəsinə alasınız". Bu tövr ilə hər tərəfdən müsəlmanlar şikayətə gəlməkdə idilər. Nə fayda ki, hamısı cavabsız qalıb, şikayətçilərə məyusluqdan başqa bir şey qalmadı"[215,s.19].

Hökumət nümayəndələrinin türk-müsəlman əhalisini gözləyən təhlükələrə qarşı laqeydliyi və heç bir tədbir görməməsi onunla nəticələndi ki, ermənilər cinayətlərini daha açıq formada və dəhşətli şəkildə davam etdirdilər. İrəvan vitse-qubernatoru V.Baranovski hələ Naxçıvanda ikən, mayın 9-da naxçıvanlı Əli Hacı Bayramzadə adlı bir müsəlmanın Əliabad adlı erməni kəndliləri tərəfindən yeddi güllə yarası ilə xüsusi amansızlıqla qətlə yetirilməsi şəhərdə vahiməli bir vəziyyət yaratdı.

Daşnaklar erməni komitələri üçün ianə verməyən erməni varlılarına qarşı da terror həyata keçirirdilər. Onlar bu cür terror aktlarından iki məqsəd üçün istifadə edirdilər. Bir tərəfdən bu cür terror aktlarından qorxuya düşən erməni zənginlərinin erməni komitələrinin fəaliyyətini dəstəkləməyən hissəsi də özünün və ailəsinin təhlükəsizliyi naminə komitələrə ianə verməyə məcbur olurdu. Digər tərəfdən də daşnaklar erməni zənginlərinə qarşı həyata keçirdikləri bu cür terror aktlarını müsəlmanların ayağına yazır və bundan öz siyasi - hərbi məqsədləri üçün istifadə edirdilər. Mayın 11-də Kültəpə kəndində erməni varlısı Xaçatur və onun ailəsinə

qarşı həyata keçirilən terror aktı da bu qəbildən idi. Daşnak silahlıları tərəfindən törədilən terror aktı nəticəsində erməni varlısı Xaçatur öz ailəsi ilə birlikdə öldürüldü. Lakin təhqiqat zamanı erməni varlısının daşnak partiyasının üzvü tərəfindən öldürüldüyü üzə çıxdı.

Mayın 11-də vitse-qubernator V.Baranovski tərəfindən yol ilə gedən bir ermənidən çoxlu sayda bomba zəbt edir. Elə həmin gün ermənilər Naxçıvan şəhərini atəşə tuturlar. Müsəlmanlar da əllərində olan silahlardan qarşılıq verirlər. İki saat yarım davam edən atışmada ermənilər tələfat versələr də, müsəlmanlar itki vermir. Səhərisi gün səhər tezdən müsəlmanlar vitse-qubernatorun yanında şikayətə gəlib əncam çəkməsini tələb etdikdə, Baranovskidən "əgər onlar (ermənilər – İ.K.) sizə atəş açır, siz də tutub onların tapancalarını alınız" cavabını aldılar"[215,s.19-20]. Məhz elə vitse-qubernatorun bu mövqeyinin nəticəsi idi ki, mayın 12-də onun başçılıq etdiyi heyətin gözü qarşısında ermənilər Naxçıvan bazarında müsəlmanlara qarşı silahlı çıxışa başladılar. Ermənilərin hücumu zamanı törətdikləri cinayət, vəzifə borcunu yerinə yetirməli olan polis qulluqçusu Angilin qızışdırıcı rolu ilə daha kəskin şəkil aldı. M.S.Ordubadi yazırdı: "Müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətlə mane olmayıb "Tez vur, oğlum! Tez ol, oğlum!" deməklə, könüllü cavanları cinayətə təşviq edirdi. Talan vaxtı "Tez olunuz! Tez aparınız!" deyib camaatı qızışdırırdı" [215,s.20]. Çar məmurlarının əsl sifəti bu atışmada da özünü gostərdi.

Naxçıvan bazarında baş verən atışma zamanı ermənilər vitse-qubernator V.Baranovski, şəhər rəisi Cəfərqulu xan, İrəvan qlavası Ağamalov və pristav Mehdi xan Ordubadskini də atəşə tuturlar. Bu atışma zamanı azərbaycanlılardan 5 nəfər, ermənilərdən isə tacirlər Adamov öz şagirdləri, Xalatov uşaqları ilə və başqaları qətlə yetirildi. Dükanlar qarət edildi.

Naxçıvandakı toqquşmaları yatırmaq üçün Vorontsov-Daşkov tərəfindən general Əlixanov-Avarski Tiflisdən Naxçıvana göndərildi. Eyni zamanda şeyxülislam və İrəvan qazısı Naxçıvana göndərildilər. Aparılan danışıqların yekununda münaqişə tərəfləri arasında sülh əldə edilsə də, bu sülh çox kövrək idi.

Naxçıvanda baş verən hadisələrin sonrakı inkişafı ilə bağlı M.S.Ordubadi yazır: "Hər tərəfdə qırğın və qarət başlandı. Əvvəlcə yarı erməni, yarı

müsəlmanlardan ibarət olan Cəhri kəndində qətl-qarət başlandı. Bu gündən başlayıb ermənilər dükanlarını kilsəyə yığışdırıb müsəlmanlara qarşı zülm və acı töhmətlərdən çəkinmədilər. Hər gündə bir hiylə, hər halda bir hoqqa çıxarmaqda idilər. Bu vaxtda, necə ki, məlumdur, şəhərdə çox hökumət qoşunu mövcud olub, camaatı hər saatda təhqir etməkdə, belini, cibini axtarmaqda idilər. Müxtəsər, Naxçıvan camaatı zülm və əziyyət altında əzilir, nə hökumət, nə filan sidq ilə belə işləri yoluna qoymaq fikrində deyildi. Noyabrın 26-na qədər müsəlmanlar və ermənilər hökumətin siyasəti sayəsində, dəfələrlə sülh edib bir-birilə əl-ələ vurdular. Axırda yenə bu sülhlər hər iki tərəfə ədavətdən başqa bir səmərə vermirdi...” [215,s.20-21].

1905-ci ilin may ayında Ordubad qəzasının Tivi kəndində ermənilərlə müsəlmanlar arasında baş verən münaqişə ilə əlaqədar buraya 500-ə yaxın əsgər və zabit göndərilmişdi. Sənədlərdən aydın olur ki, bu hərbi hissə kənddəki müsəlmanlara qarşı zor tətbiq etmiş, onları doğma yurdlarından qovmuş, adamları öldürmüş, bir sözlə, ermənilərə yaxından kömək göstərmişdilər. Rus kazaklarının köməyindən istifadə edən ermənilər 1905-ci il noyabrın 26-da Naxçıvan şəhərindəki müsəlman bazarını tamam qərət etdikdən sonra od vurmuşdular. Yanğın nəticəsində bazarda 85 dükan, 75 anbar və b. tikililər yandırılmışdı. Kazaklar da ermənilərə qoşulub azərbaycanlılara məxsus evləri və dükanları qarət edirdilər”[341, c.184-185].

Rus əsgərləri ilə əlbir hərəkət edən ermənilərin törətdiyi vəhşiliklər qarşısında təklənən azərbaycanlılar kömək üçün İslam xəlifəsi olan Osmanlı sultanına müraciət etməkdən başqa çarə tapmırdılar. Qafqaz Müsəlmanları adından Məhəmməd Hüseyn Hacı Mirzə Xəlilin Osmanlı padşahına göndərdiyi bu səpkili bir ərizədə “ermənilərin hədlərini aşaraq müsəlmanlara təcavüz etmələri və onları qətliama məruz qoymalarından bəhs edilir və bildirilir ki, ermənilər təkcə müsəlmanları qətl etməklə kifayətlənməyib, eyni zamanda, müsəlmanların müqəddəs məkanlarına da təcavüz edib məscidləri yandırıb, Naxçıvanda Quran nüsxələrini atəşə tutmuşlar”[92]. Ərizənin sonunda ermənilər tərəfindən törədilən bu kimi hadisələrə son qoyulması üçün imdad istənilirdi.

Zamanın şərtləri daxilində Osmanlı dövlətinin Cənubi Qafqazda baş verən türk-müsəlman qırğınının qarşısını almaq sahəsində fəaliyyəti yalnız diplomatik

səciyyə daşıyırdı. Belə bir vəziyyətdə Azərbaycan aydınları türk-müsəlman əhalisini ermənilərin hücumlarından qorumaq üçün Gəncədə “Difai” təşkilatını (partiyasını) qurdular. Yalnız “Difai”nin meydana çıxmasından, onun yerli şöbələrinin yaranmasından və bu partiyanın üzvlərinin erməni terroruna qarşı eyni üsullarla mübarizə aparmasından sonra ermənilərin türk-müsəlman əhalisinə qarşı qırğınları səngidi.

Naxçıvanda baş verən bu hadisələrlə bağlı Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə göndərilən 30 dekabr 1905-ci il tarixli teleqramda bildirilirdi ki, “ermənilər və kazaklar Naxçıvanda 300 müsəlmanı qətl etmiş, evlərini isə qarət etmişlər. Geri qalan müsəlman əhali isə Osmanlı dövlətindən himayə tələb edir”[86]. Naxçıvanda baş verən hadisələr zamanı Osmanlı təbəələri də öldürülmüş və bir çox maddi zərərlərə uğramışdılar. Təkcə Uluxanlıda ermənilərin müsəlman əhali üzərinə hücumu və törətdiyi qırğınlar zamanı 29 Osmanlı təbəəsi öldürülmüş və əmlakları talan edilmişdi[87].

Erməni fitnəkarlığı elə bir şəkil almışdı ki, hətta daşnakların amalını qəbul etməyən bəzi ermənilər daşnaklardan və kilsədən üz çevirib müsəlmanlığı qəbul edərək naxçıvanlılarla dinc, yanaşı yaşamaq istədiklərini açıq şəkildə dilə gətirmişdilər. Naxçıvan qəzasının Böyük Badamlı kəndində yaşayan ermənilərin müsəlmanlığı qəbul etməsi və bu hadisənin İrəvan qubernatorunun qəzəbinə səbəb olması ilə bağlı M.M.Nəvvab yazır: “Həmin kəndin (Böyük Badamlı – İ.K.) bütün erməniləri – gənc və qoca, böyük və kiçik öz külfətləri ilə müsəlmanların qarşısına çıxdılar. Tam ehtiramla kəlmeyi-şəhadəti deyib müsəlmanlığı qəbul etdiklərini bildirdilər... Bu əhvalat dövlətə və divan əhlinə çatan kimi hökm elədilər ki, durmadan İrəvan qubernatoru həmin kəndə getməlidir. İrəvan qubernatoru Əlixanov**** çoxlu kazak götürüb, qoşunla Badamlı kəndinə gəldi. Əlixanovun görüşünə gəlmiş müsəlman dinini qəbul edən ermənilər onu salamlayarkən Əlixanov onların salamını rədd edərək buyurdu ki, erməni qəzetlərinin yazdığına görə

****M.M.Nəvvabın İrəvan qubernatoru kimi təqdim etdiyi Əlixanov general Maqsud Əlixanov-Avarskidir. Qafqaz canişini Vorontsov-Daşkov tərəfindən iğtişaşların qarşısının alınması üçün Naxçıvana göndərilən M.Əlixanov-Avarski tanınmış azərbaycanlı general Hüseyn Naxçıvanskinin bacısının əri idi. Ona görə də “Daşnaksütyun” partiyası Əlixanov-Avarskiyə ölüm hökmü çıxarmışdı. İkinci Qafqaz diviziyasının komandanı olan general-leytenant Əlixanov-Avarski 1907-ci il iyulun 3-də Gümrüdə erməni terrorçuları Dro, Kamo tərəfindən qətlə yetirilmişdir.

müsəlmanlar sizləri zor və hədə-qorxu ilə öz dininizdən döndərərək, müsəlman ediblər. Əgər həqiqət belədirsə, kazak qoşunu burada qalıb, sizi qorumağa hazırdır. Sizə qarşı heç kəs qüvvə işlədə bilməz. Yeni islam dinini qəbul etmiş ermənilər cavab verdilər ki, bizi heç kəs zor və hədə-qorxu ilə müsəlman etməyib. Əksinə, biz özümüz könüllü olaraq, öz razılığımız və rəğbətimizlə islam dinini qəbul etmişik. Bu cavabı eşidən Əlixanov camaata heç bir söz demədən geri qayıdıb getdi"[212,s.22-23].

1905-ci ilin 5-12 may və 26-30 noyabr tarixlərində Rusiya hökumət məmurlarının gözləri qarşısında baş verən Naxçıvan hadisələri hökumət dairələrinin səyindən çox naxçıvanlıların əzmkarlığı və inadlı müqaviməti nəticəsində yatırıldı. Ermənilərin gözləmədiyi şəkildə naxçıvanlıların müqaviməti ilə üzləşmələri onunla nəticələndi ki, onlar burada qarşılarına qoyduqları məqsədə çata bilməyib, türk-müsəlman əhalisinin soyqırımını planlaşdırdıqları şəkildə həyata keçirə bilmədilər.

Hökumət məmurlarından aldıqları hərtərəfli dəstəyə baxmayaraq ermənilərin Naxçıvanda məğlub olmaları bölgədə bir müddət nisbi sakitlik yaratdı. Lakin bu müddətdə ermənilər Naxçıvandakı məğlubiyyətinin əvəzini çıxmaq və burada edə bilmədikləri – müsəlman əhalisinin soyqırımını həyata keçirmək kimi planlarını reallaşdırmaq üçün daha əlverişli yer olan İrəvanda baş qaldırdılar. Çünki ermənilərin Naxçıvandakı məğlubiyyəti M.S.Ordubadinin təbirincə desək, "İrəvan ermənilərini acışdırıb son dərəcə qəzəbləndirmişdi"[215,s.23].

Naxçıvandakı məğlubiyyətdən sonra İrəvan erməniləri intiqam almaq məqsədilə müsəlmanları yeni münaqişəyə çəkmək üçün bütün vasitələrə əl atırdılar. İrəvan müsəlmanları isə, ermənilərdən fərqli olaraq, "milli hisləri hələ oyanmamış bir xəyal kimi idi" və elə bu səbəbdən idi ki, baş verən hadisələr qarşısında hazırlıqsız idilər.

İrəvanda ermənilərlə müsəlmanlar arasında toqquşmaların ikinci mərhələsi 1905-ci il mayın 23-də Qarsaçay bağçasında üç nəfər azərbaycanlının ermənilər tərəfindən ölüncəyə qədər döyülməsi ilə başlandı. Bu üç azərbaycanlı gəncinin ermənilərin əllərindən canlarını qurtarmaq üçün qışqıra-qışqıra qaçıb bazara girməsi

ilə buradakı erməni və müsəlmanlar bir-birinə qarışdı, tərəflər arasında şiddətli atışma başlandı. Lakin bir qədər sonra vəziyyət nizama salındı, gecə sakit keçdi.

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə göndərilən 7 iyun 1905-ci il tarixli raportda mayın 23-də İrəvanda baş verən toqquşmalarda 30 nəfərin öldürüldüyünü və yaralandığını yazır: "İrəvan şəhəri bin-nisbe hal-i sükunda ikən, mayısın iyirmi üçüncü günü sabah saat 10-12 radələrində şəhərin müxtəlif mahallələrində tüfənk sədaları eşidilmiş, dükan ve mağazalar qapanmışdır. Müsəlmanlarla ermənilər arasında baş verən toqquşmada ölü və yaralıların sayı 30 nəfərə çatmışdır"[76]. Daha sonra sənəddə İrəvan, Naxçıvan, Tiflis və Batumda baş verən erməni-müsəlman silahlı toqquşmaları haqqında təfsilatlı məlumat verilir. Toqquşmaların İrəvan qəzasında xüsusilə geniş miqyas aldığı vurğulanan sənədlərdə onların baş verdiyi kənd və qəsəbələrin adları, itki və tələfatların miqdarı dəqiqliklə qeyd edilir və bildirilir ki, erməni silahlıları bu toqquşmalar zamanı hətta kiçik yaşlı uşaqlara belə rəhm etmirlər. Qafqazın müxtəlif bölgələrində davam etməkdə olan erməni-müsəlman toqquşmalarında Rusiya hakimiyyətini günahlandıran başşəhbəndər Rusiya hakimiyyət nümayəndələrinin bu toqquşmalara rəvac verdiklərini və daha sonra tamaşacı mövqeyi nümayiş etdirdiklərini xüsusi olaraq diqqətə çatdırır[76].

24 may 1905-ci ildə səhər saat 9-da ermənilər bazar-dükanı açmağa gedən azərbaycanlıları yenidən atəşə tutdular. Baş verən toqquşmada azərbaycanlılar arasında itki olmadı, ermənilərdən bir neçə nəfər yaralandı. Bazara yetişən əsgərlər bir neçə atəş açmaqla erməniləri atəşi dayandırmağa məcbur etdilər. Günortaya qədər nisbi sakitlik hökm sürdü. Lakin saat 2-də ermənilər yenidən azərbaycanlılar tərəfə atəş açmağa başladılar və bu atışma səhərə qədər davam etdi. Bu zaman bütün erməni məhəllələrindən müsəlman məhəllələrinə atəş açılıb aramsız olaraq güllə yağdırılırdı. Hadisələrin bu cür gedişinə hazır olmayan azərbaycanlıların cəmi bir neçə tüfəngi və az miqdarda patronu vardı, onlar düşmənin intensiv atəşinə ara-sıra cavab verirdilər. M.S.Ordubadi baş verən hadisələr zamanı hökumət məmurlarının biganələyinə diqqəti çəkərək yazır ki, bu halda erməni atəşlərinə hökumət tərəfindən əsla maneçilik olmayıb, iğtişaşa dair də bir tədbir edilmədi. Ermənilər ürəkləri istədiyi

qədər atəş açır və hücum edirdilər. Bunlara mane olan yox idi. Balacaların, arvad-uşaqların zəif səsləri kişilərini son dərəcə çaşdırıb onları mənən sarsıdırdı. Bu vaxtda arvad-uşaq, qoca-cavan, əyan, xan, rəiyyət – hamısı öz canının hayına qalmışdı[215,s.25].

Evləri şəhərin erməni hissəsində olan və buna görə də ən təhlükəli vəziyyətdə qalan müsəlmanların imdad diləyən səsləri hər tərəfə yayılsa da, müsəlmanlarda qüvvə olmadığından onları fəlakət burulğanından qurtarmaq iqtidarında deyildilər. Nəhayət atışma baş verən əraziyə daxil olan əsgərlərin köməyi ilə azərbaycanlı ailələri şəhərin ermənilər yaşayan hissəsindən müsəlmanlar yaşayan hissəsinə keçirmək mümkün oldu. Öz evlərində qalan sadəlövh azərbaycanlılardan 11 nəfər - 4 qadın, 2 uşaq və 5 kişi vəhşicəsinə öldürüldü[341,c.185].

Şəhərin hər tərəfindən və kənardan toplanan azərbaycanlı könüllü gəncləri intiqam almaq üçün ermənilər üzərinə yürüş etməyi planlasalar da, münaqişənin dərinləşməsinin qarşısını almağa səy göstərən ağsaqqallar onları bu fikirdən daşındıra bildilər. İğtişaşların beşinci günü azərbaycanlılar təkidlə hökumət məmurlarından mühafizə əsgərləri alıb şəhərin ermənilər yaşayan hissəsində qalan 30-40 azərbaycanlı ailəni şəhərin müsəlmanlar yaşayan hissəsinə köçürdülər. Bəzi yerlərdə sipərlər düzəldilib, sipərlərdən erməni müsəlmanı, müsəlman ermənini görən kimi hədəfə alırdı.

Nəhayət, İrəvandakı erməni-müsəlman toqquşmalarının doqquzuncu günü ayılan hökumətin dəvəti ilə şeyxülislam, İrəvan qazısı və erməni yepiskopu sülh yaratmaq missiyası ilə mayın 31-də şəhərə gəldilər. Ertəsi gün şeyxülislam və yepiskopun İrəvan bulvarında camaat qarşısındakı moizə və nəsihətlərindən sonra müvəqqəti sülh bərqərar oldu, camaat bazara gəlib alış-verişə başladılar. Lakin bu sülh çox kövrək idi.

İrəvan şəhərində baş verən qırğınlar, ermənilərin törətdikləri qətl və qarətlər haqqında o dövrün qəzetlərindən bəziləri doğru-dürüst xəbərlər vermişdilər. Nisbətən tərəfsiz qəzet hesab olunan "Qafqaz" qəzetində verilən xəbərə görə, İrəvanda iğtişaşların davam etdiyi ilk üç gün ərzində 31 nəfər – 9 erməni, 21 müsəlman, 1 aysor öldürülmüş, 24 erməni, 10 müsəlman, 1 yəhudi və 1 rus yaralanmışdır.

Mayın 26-da baş verən qırğınlar haqqında isə “Kaspi” qəzeti “Tiflisskiy listok” qəzetinə istinadən yazırdı ki, bir tatarın (azərbaycanlının) evinə atılan bombadan 24 nəfər ölüb və yaralanıb, tatarların məskun olduqları Təpəbaşı məhəlləsində də bombalarla evlər partladılıb, çoxlu adam tələf olub, Zəngi dərəsində də çoxlu həlak olanlar var[206].

İrəvanda ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qırğın və talanlar, qadın, qoca, uşaq bilmədən heç kimə rəhm edilməməsi və bu kimi bir çox vəhşiliklər haqqında xəbərlər ətrafa yayıldı və geniş əks-səda doğurdu. İrəvan və Naxçıvanda ermənilərlə müsəlmanlar arasında baş verən toqquşmalarda günahsız müsəlmanların öldürülməsinə etiraz olaraq Təbrizdə ermənilər əleyhinə böyük etiraz nümayişi keçirildi. Nümayiş zamanı baş verən iğtişaşlarda bir neçə nəfər erməni və müsəlman yaralandı[75;45,s.18]. Eyni hadisələr tez bir zamanda Rəştdə də baş verdi[84,s.3]. Lakin iğtişaşların genişlənməsinin qarşısını almaq üçün İran hökuməti təxirəsalınmaz tədbirlər gördü.

İrəvandadakı erməni-müsəlman toqquşmalarının şiddətlənməsi və ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi qırğın və talanlarla bağlı Osmanlı dövlətinin 1905-ci il iyunun 23-də Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə təfsilatlı məlumatlar daxil olduqdan sonra Osmanlı hökuməti Peterburqdakı səfiri vasitəsilə erməni silahlı dəstələrinin Osmanlı ərazilərinə keçməsinin qarşısının alınması və Qafqazdakı müsəlmanların təhlükəsizliyinin təmin edilməsi üçün Rusiya hökuməti ilə yenidən danışıqlara başladı[31,v.1-3]. Rusiyanın baş diplomatı səfirə yenə də bütün lazımi tədbirlərin görüləcəyini vəd etsə də, heç bir real tədbir görülmədi.

İyunun 1-də əldə edilən müvəqqəti sülhdən sonra İrəvan şəhərində sülh-barışıq bərpa oldusa da, bu zaman erməni komitələri tərəfindən müsəlman kəndlərinə hücum əmri verildi. İrəvan mahalında iğtişaş qoparmaq üçün şəhərdən erməni başbilənləri komandanlar təyin edir və hər mənsəb sahibi öz bölüyü ilə təyin edildiyi yerə getməkdə idi. Bu günlərdə yenə də İrəvanda qorxu və müharibə ehtimalı müsəlmanların qəlbində qalmaqda, əhali təşviş içərisində idi. Ara-sıra şəhərdə güllə səsləri hələ də eşidilməkdə idi.

Bu zaman azərbaycanlıların başı hakimiyyət bölgüsünə qarışdı. Yerli hakimiyyət orqanlarına seçkilər keçirilməsi vaxtı deyildi və bu vurnuxma ilə erməni hücumunun təhlükəsi arxa plana keçdi. İş o yerə çatdı ki, ermənilərlə müsəlmanlar arasında barışıq yaratmaq üçün şəhərə gələn şeyxülislam hadisələrə müdaxilə etməli oldu. O, firqəbazlıq edən İrəvan əyanlarına səslənərək deyirdi: "Camaat! Biz bu şəhərə gəlmişik iki ədavətli milləti barışdırıb sülh edək, nəinki rəhbərlik və firqəbazlıq üstə çəkişən əyanları..."[215,s.28]. Rəislər və məmurlar xalqı azdıraraq çoxsaylı partiyalar və qruplaşmalar üçün tərəfdarlar toplayarkən ermənilər azərbaycanlı məhəllələrindən birini mühasirəyə aldılar və onun sakinlərini qırmağa başladılar[341,c.186].

Bu zaman mahalda erməni silahlı birləşmələri müsəlman kəndləri üzərinə hücum edərək əhalini qırmaqda idilər. Uşaq, qadın, qoca bilmədən silahsız azərbaycanlı əhali qılıncdan keçirilir, Quranlar yandırılır, müsəlmanların ən ülvi hissləri təhqir edilirdi. M.S.Ordubadi İrəvan mahalındakı vəziyyəti təsvir edərək yazırdı: "İrəvan mahalı bir yanar dağa, vulkana dönüb nəcib islam millətini yandırmaqda və boğmaqda idi"[215,s.29].

İyunun 1-də ermənilər Qırxbulaq mahalının Gözəcik kəndinə hücum etdilər. Tirjabat adlı erməni kəndindən gerçəkləşdirilən qəfləti hücum Gözəcikdə vahiməli bir vəziyyət yaradır, çaşqın vəziyyətə düşən azərbaycanlılar tələsik kənddən çıxıb yarım verst məsafədə olan qonşu Məngus kəndində pənah apardılar. Ermənilər azərbaycanlıları təqib edib Məngus kəndinə də hücum etmək istəyirlər. Bu zaman Novruz Kazım oğlu adlı bir kənd ağsaqqalı qəhrəmanlıq nümayiş etdirdi. O, kənddən qaçan azzərbaycanlılara üzünü tutaraq dedi: "Hara qaçırsınız? Düşməndən qaçmaq yox, torpağı qorumaq lazımdır... Bilirsiniz ki, bizim bu məzarlığımızda yatan babalarımızın sümükləri çıxarılıb kənddə yandırıldıqdan sonra onların məzarları yerində Ermənistan təşkil ediləcəkdir. Mən axirətdə məsul olmamaq üçün müdafiəyə qalıb qüvvəm çatdığı qədər çalışacağam". Lakin heç kəs onu eşitmədi. O, tək-tənha qoşalülə tüfəngi ilə müdafiə olunmaq qərarına gəldi. Bir neçə erməni öldürdü, sursatı bitdiyi üçün əsir düşdü. Ermənilər kəndə od vurdular, məscidi, minbəri və müqəddəs kitabları yandırdılar. Novruz kişi Tirjabat erməni kəndinə gətirildi və burada kəndin

erməni keşişi Ayrapet tərəfindən başı kəsildi. Daşnaklar Novruz kişinin başını “min beş yüz müsəlman sərkərdəsinin başıdır” deyə əvvəlcə Aleksandropola, sonra isə Bakı şəhərinə göndərdilər[215,s.30-31].

İyunun 2-də 10 min nəfərlik erməni alayı Məngus kəndinə hücum edir. Ermənilər kəndi tərk etməyə macal tapmamış 80 yaşlı ağsaqqal əlili şişə taxmışdılar. Kəndin kəndxudası Qaladibi kəndindən olan Cahanbəxş iki yoldaşı ilə birlikdə dağlarda gizlənərək ermənilərin izlədiyi qadınları qoruyurdular. Hətta, onlar iki erməni yaraqlısını da məhv edə bildilər. On min nəfərlik erməni qoşunu kəndi tutarkən, onun sakinləri Təzəkənd kəndində sığınacaq tapdılar. Ermənilər tərəfindən dağıdılan 12 müsəlman kəndinin əhalisinin hamısı cəmi 20 evdən ibarət olan Təzəkəndə toplanmışdı.

1905-ci il iyun ayının 3-də 150 evdən ibarət Güllücə kəndi ermənilərin hücumuna məruz qaldı. Güllücəyə Başkeni adlı erməni kəndindən gerçəkləşdirilən hücumda 10 minə qədər erməni əsgəri iştirak edirdi. Ermənilərin məqsədi müsəlmanları özlərinə əlaltı etmək, yaxud onları məhv edib çoxdan bəri arzusunda olduqları istiqlaliyyəti əldə etmək idi. Buna görə də bütün məmləkət erməniləri əldə silah müsəlmanlar əleyhinə qiyam etmişdilər. Güllücə kəndi hər tərəfdən erməni yaşayış məntəqələri ilə əhatə olunduğundan erməni cəlladlarının mühasirəsinə düşmüşdü. Güllücə kəndinin Məşədi Qəmbər, Mahmud, Hacı Hüseyn və başqalarından ibarət 15 nəfərlik kiçik bir dəstəsi müqavimət göstərdilər. Lakin qüvvələr nisbəti qeyri-bərabər olduğundan müqavimət itki ilə nəticələndi və dəstə geri çəkilməli oldu. Güllücə kəndinin silahsız əhalisi canlarını qorumaq üçün qaçıb 1,5 verst aralıqda yerləşən Tutya, Damagirməz, Kamal adlı azərbaycanlı kəndlərinə pənah apardılar. Kəndi tərk etməyə macal tapmayanlar isə ermənilər tərəfindən qətlə yetirildilər.

Müsəlman kəndlərinə ermənilər tərəfindən edilən aramsız hücumların yaratdığı anarxiya və panika bölgənin bütün azərbaycanlı kəndlərində normal həyatı iflic etmişdi, əhali səksəkə içərisində yaşayırdı. İyunun 4-də 150 evdən ibarət Kamal kəndinin sakinləri kəndin mövqelərinin təhlükədə olduğunu gördüklərindən arvad-uşaqlarını götürüb qonşuluqdakı Damagirməz kəndinə qaçdılar. Yaranmış panika

şəraitində Damagirməz kəndinin sakinləri də onlara qoşulub 20 verst məsafədə olan Təzəkəndə pənah apardılar. Bu kənddə 18 gün ağır ehtiyac içərisində gün keçirəndən, qonşu müsəlman kəndlərinin sakinləri İrəvanda əldə edilən növbəti sülhdən sonra rus əsgərlərinin mühafizəsi altında öz dağıdılmış, viran edilmiş evlərinə qayıda bildilər[215,s.31-32].

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə daxil olan 8 fevral 1906-cı il tarixli bir sənəddə, İrəvan bölgəsində ermənilər tərəfindən dağıdılaraq yandırılan və əhalisi soyqırıma məruz qalan 25 müsəlman kəndinin adı verilir: 1. Horus, 2. Çəhri, 3. Cənnətli, 4. Tavus, 5. Bitdicə, 6. Köy-vali, 7. Saarımsəng, 8. Məngus, 9. Gözəcik, 10. Güllücə, 11. Tonya, 12. Damagirməz, 13. Kuh, 14. Kamal, 15. Kəmərli, 16. Bozavant, 17. Torpaq-qala, 18. Masumlu, 19. İpəkli, 20. Oğru-bənli, 21. Çidəmli, 22. Novo-Bayazid (Yeni Bəyazid), 23. Dokuzlu, 24. Tutublu, 25. Hamamlı[*****][89].

“Novoe Obozrenie” qəzetinin 6 iyun 1905-ci il tarixli nömrəsində İrəvan bölgəsinin Qırxbulaq mahalının müsəlmanlarının Bakı Dumasına ünvanladıqları 2 iyun tarixli teleqram nəşr olunmuşdu. Abbas Ağayev, Süleyman Bəyov və Konbad bəy tərəfindən imzalanan teleqramda göstərilirdi ki, “bu tarixdədək Qırxbulaq mahalının 10 müsəlman kəndi ermənilərin hücumuna məruz qalmış və bu kəndlərdə müsəlman əhaliyə qarşı qırğın, onların əmlaklarına qarşı isə talan həyata keçirilmişdir. Canlarını qorumaq üçün digər müsəlman kəndlərinə pənah aparan bu kəndlərin müsəlman əhalisi yerli hökumətdən himayə ümidləri olmadığından aclıqdan ölmək təhlükəsi ilə üz-üzədir. Yalvarırıq, yardım əlinizi uzadıb bizi ölməyə qoymayın”[65,s.1].

1905-ci il may ayının sonu – iyun ayının əvvəllərində Şərur-Dərələyəz qəzasının müsəlman kəndləri ermənilərin hücumlarına məruz qaldı. Bəhs edilən dövrdə Şərur-Dərələyəz qəzasında 163 kənd var idi ki, onlardan 109-u Dərələyəz nahiyəsində, 54-ü isə Şərur nahiyəsində yerləşirdi. Şərur nahiyəsində yalnız 6 erməni

---

[*] Kəndlərin adı sənəddə olduğu kimi verilmişdir.

kəndi və 2 qarışıq kənd, Dərələyəz nahiyəsində isə 23 erməni kəndi və 2 qarışıq kənd var idi. Şərur-Dərələyəz qəzasının 76 min nəfər əhalisinin 55 min nəfərini azərbaycanlılar, 21 min nəfərini ermənilər təşkil edirdi. Azərbaycanlıların sayca üstün olmalarına baxmayaraq, ermənilərin hərbi cəhətdən hazırlıqlı olmaları və hökumət məmurlarından aldıqları hərtərəfli dəstək onları cürətləndirirdi. Ermənilərin Şərur-Dərələyəz qəzasının təkcə Hors kəndinə gerçəkləşdirdikləri 1905-ci il 27 oktyabr tarixli hücum zamanı 53 azərbaycanlı öldürülmüş, 255 ev yandırılmış, əhalinin mal-qarası və digər əmlakı talan edilərək aparılmışdı.

Eyni dövrdə Sürməli qəzasında da qırğınlar törədildi. Bu bölgələrdə də həyata keçirilən qırğınların ssenarisi əvvəlkilərlə eyni idi, yenə Daşnaksütyun partiyası azərbaycanlılara qarşı törədilən milli qırğınların əsas təşkilatçısı və bu partiyanın üzvləri iştirakçıları idilər. Hökumət məmurları da yenə erməniləri azərbaycanlılara qarşı hücumlara təhrik edir, bir çox hallarda ermənilərlə birlikdə hərəkət edir, silahsız müsəlman əhalisinin təhlükəsizliyini təmin etmək üçün heç bir iş görmür, ən yaxşı halda bitərəf qalır və ya qırğınlar başa çatandan sonra hadisə yerinə gəlir və əsgərlər göndərirdilər.

Bəhs edilən dövrdə ermənilərlə azərbaycanlıların qarışıq yaşadıqları Eçmiədzin qəzasına daxil olan Əştərək nahiyəsi də qanlı qırğınlar meydanına çevrilmişdi. Əştərək bölgəsində 10 sırf azərbaycanlı (Batrinc, Əkərək, Kiçikkənd, Təkiyə, Nəziravan, Uşu, Persi, Əngirsək, Kavtarlı, Hamamlı), 6 sırf erməni (Əştərək, Muğni, Karbi, Ohannavəng, İlançalan, Qalacıq) kəndi mövcud idi. Parpı, Soğomosavəng və Qotur kəndlərində isə azərbaycanlılarla ermənilər qarışıq yaşayırdılar[204,s.62-63].

1905-ci il iyunun 3-də Abaran, Şoragöl, Pəmbək və Aleksandropol erməniləri bir yerə yığışıb İlançalan erməni kəndi istiqamətindən 142 evdən ibarət olan Uşu adlı azərbaycanlı kəndinə hücum etdilər. Uşu kəndi ermənilərə ciddi müqavimət göstərdi,8 saat davam edən şiddətli vuruşmadan sonra ermənilər davam gətirməyib bir çox tələfatdan sonra qaçmağa məcbur oldular. Ertəsi gün “bu müsəlmanları belə az qüvvələrlə məğlub etmək olmaz” deyən ermənilər döyüşü təxirə salıb ətrafdakı erməni kəndlərindən əsgər yığmağa başladılar. Ermənilərin mühasirəsində olan azərbaycanlıların isə hər tərəfdən yolları kəsildiyindən bir nəfər də olsa onlara

köməyə gələn yox idi. Qüvvələrini artıran ermənilər iyunun 5-də yenidən Uşu kəndinə hücum etsələr də, yenə məğlub olub geri çəkildilər. Bu vuruşmada azərbaycanlılardan iki nəfər qətl edildi, bir nəfər də yaralandı.

Ermənilər yenidən qüvvələrini artırmaq üçün əsgər toplamaqla məşğul olduqlarından iyunun 6-7-də nisbi sakitlik hökm sürdü. İyunun 8-də ermənilər yenidən hər tərəfdən Uşu kəndinə hücum etdilər. Onların əsas silahları beşaçılan tüfənglər olduğu halda, azərbaycanlılarda berdanka tüfəngləri idi. Səhərədən axşamadək davam edən vuruşmada azərbaycanlıların sursatı tükənməkdə olduğundan onlar istehkamları tərk edib Uşu kəndinə çəkildilər. İlk əvvəl arvad-uşaqlarını məscidə yığan azərbaycanlılar daha sonra onların təhlükəsizliyini təmin etməkdən ötrü onları yolsuz keçidlər, dağlarla aparıb yüksək yaylaqlarda yerləşən Sürməli müsəlmanlarının himayəsinə verdilər. Axşam alaqaranlıqda Uşu kəndində davam edən xəncər döyüşündə azərbaycanlılardan 4 nəfər – 2 əlil kişi və 2 qoca şəhid oldu. Tüfəngli ermənilər qarşısına xəncərlə çıxmağa məcbur olan azərbaycanlılar əsl şücaət göstərdilər. Ermənilərdən 180 nəfər öldürüldü və bir o qədər də yaralandı. Azərbaycanlılar artıq kənddə qalmağı münasib bilməyib kəndi boşaltdılar. Ermənilər kəndə od vurdular. Uşu kəndinin əhalisinə vurulmuş maddi zərərin məbləği 200 min manat civarında idi.

İyunun 9-da Pərsi (34 ev), Nazrəvan (58 ev), Kiçikkənd (36 ev), Kötüklü, Qoşabulaq, İrgu, Əngirsək (20 ev) kəndlərinə hücum edən ermənilər bu kəndləri də viran edib, silahsız azərbaycanlı əhalini qılıncdan keçirdilər. Ermənilərin törətdiyi vəhşiliklərlə bağlı M.S.Ordubadi yazırdı: “Bu müharibələrdə ermənilərin şan-şöhrətinə ziyan vuran bir iş vardısa, o da müharibə vaxtında südəmər körpələri, qoca qarıları öldürmək idi”[215,s.34-35].

Həmin gün eyni zamanda 85 evdən ibarət məşhur Təkyə adlı azərbaycanlı kəndi də ermənilərin hücumuna məruz qaldı. Azərbaycanlılar tamamilə silahsız, ermənilər isə mükəmməl silahlı olduqlarından azərbaycanlılar kəndi boşaldıb, arvad-uşaqlarını götürüb yüksək təpələr başına pənah apardılar. Ermənilər kəndə od vurub yandırdılar. Bu zaman axund Məhəmməd Əli Mirzə Əbdül-Hüseyn Qazızadənin imarətində olan 200 cild Quran və digər müqəddəs kitablarla yanaşı, onun bütün

kitabxanası və qazı idarəsinə məxsus kitablar da yandırıldı. Bununla yetinməyən ermənilər Quranları süngülərə keçirib məşəl kimi yandırırdılar. Azərbaycanlıların kəndin məscidinə sığındığını güman edən ermənilər əvvəlcə məscidi gülləbaran etdilər, daha sonra onu oda yaxdılar. M.S.Ordubadi Eçmiədzin qəzasında ermənilər tərəfindən dağıdılan və yandırılan azərbaycanlı kəndlərin sırasına iyunun 10-da daha 9 kəndin də əlavə olunduğunu, bütün bu dəhşətlər qarşısında hökumət məmurlarının etinasızlıq göstərdiyini dilə gətirərək yazırdı: “İyun ayının 10-da Eçmiədzində 9 məşhur islam kəndi dağıdıldı, hökumət isə heç bir tədbir görmədi. Bəzi yerlərdə hökumət etinasızlıq göstərdiyi kimi, bu mahalda da etinasız rəftar edib bir çarə qılmadı. Ümid edirəm ki, hər iki millət bunun mənasını gözəlcə başa düşür”[215,s.35].

Sənədlərdən aydın olur ki, 1905-ci il may ayının sonu - iyun ayının əvvəllərində ermənilərin Eçmiədzin qəzasındakı müsəlman kəndlərinə hücumu zamanı 9 Azərbaycan kəndi dağıdılmış, əhalisi soyqırıma məruz qalmış və öz yurd-yuvalarından didərgin salınmış, bütün bu milli qırğın aktları qarşısında hakimiyyət tərəfindən azərbaycanlı əhalini müdafiə etmək üçün heç bir tədbir görülməmişdir.

Yuxarıda da qeyd edildiyi kimi, ermənilər bir bölgədə qırğınlar törədib başa çatdırdıqdan sonra, burada sülh edib, başqa bölgələrdə əməllərini davam etdirir və sadəcə hadisələrin coğrafiyasını dəyişirdilər. 1905-ci il iyun ayının ortalarından başlayaraq Yelizavetpol quberniyasının Qarabağ və digər bölgələrində azərbaycanlılara qarşı milli qırğın aktları həyata keçirildi. İyun ayından başlayan qırğınlar nəticəsində Cəbrayıl-Qaryagin qəzasının Veysəlli, Qacar, Cəmənli, Arış, Qışlaq, Məzrə kəndləri darmadağın edildi[215,s.36-58]. Təkcə 16-21 avqust tarixlərində Şuşada törədilən qırğınlar zamanı 81 müsəlman öldürülmüşdü[81].

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən Osmanlı Xarici İşlər Nazirliyinə daxil olan 2, 6 və 7 sentyabr 1905-ci il tarixli məlumatlarda ermənilərin Şuşada, Bakıda və digər bölgələrdə müsəlmanlara qarşı törətdiyi iğtişaş və qırğınlardan bəhs edilərək göstərilir ki, avqustun 12-də ermənilər Şuşada müsəlmanlar üzərinə qəflətən hücum etmiş, erməni məhəlləsində yaşayan bütün müsəlmanları qətl etmiş, 40 evdən ibarət bir kəndi tamamilə yandırmışlar. Hazırda

ermənilərlə müsəlmanlar arasında toqquşmalar davam etməkdədir. Ermənilər iğtişaşları yatırmaq üçün gələn Yelizavetpol vitse-qubernatoru Vladimir Nikolayeviç Baranovskini də yaralamışlar. 200 insan ölmüş və yaralanmış, 200-ə qədər ev də xarabalığa çevrilmişdir. İğtişaşlarda İran təbəələri də öldürülmüş və bununla bağlı İranın Tiflisdəki konsulu Eçmiədzin katolikosluğuna teleqram göndərərək, bu hadisənin İranda da erməni-müsəlman toqquşmalarına səbəb ola biləcəyini xatırlatmışdır. Yelizavetpol və Nuxada da iğtişaşlar törədilmişdir. Bu iğtişaşlardan ən çox əziyyət çəkən və zərərlər görən müsəlmanlardır. Bakıda da ermənilər müsəlmanlar üzərinə hücumlar etmiş, nəticədə avqustun 22-nə qədər 270 müsəlman və 130 başqa millətlərin nümayəndələri öldürülmüşdür. 300-ə qədər neft quyusu yandırılmış və dağıdılmışdır[82].

Osmanlı dövlətinin Tiflis başşəhbəndərliyindən İstanbul hökumətinə göndərilən 31 yanvar 1906-cı il tarixli məlumatda ermənilərin Şuşa qəzasında dağıdıb yandırdıqları 19 müsəlman kəndinin adları verilir: 1. Xankəndi, 2. Malkəndi, 3. Qacar, 4. Abdal, 5. Gülanı, 6. Papervənd, 7. Şelli, 8. Kuratlar, 9. Gülablı, 10. Qaradağlı, 11. Dovanalılar, 12. Dəlili, 13. Xanəzək, 14. Qaib Alı, 15. Xəlifəli, 16. Kürk Cihan, 17. Can Həsən, 18. Xocalılar, 19. Həsən Abad[90]. Bu kəndlərlə bağlı başşəhbəndərin növbəti, 5 fevral 1906-cı il tarixli teleqramında isə yandırılan 19 müsəlman kəndinin vəziyyəti haqqında məlumat verilir və bölgənin müsəlman əhalisinin acınacaqlı durumundan bəhs edilir. Bildirilir ki, "Şuşa qəzasının adı çəkilən müsəlman kəndlərinin nümayəndələri şəhbəndərliyə gəlmiş və imdad istəmişdir. Nümayəndələrin verdikləri məlumata görə, ermənilər müsəlman kəndlərini mühasirədə saxlayaraq kənardan kəndlərə ərzaq və digər zəruri malların daxil olmasına imkan vermirlər, əhali qıtlıq çəkir. Yandırılan 19 müsəlman kəndinə gələn hökümət məmurları müsəlmanları tərksilah etmiş, ermənilərə isə toxunmamışlar"[88]. Osmanlı hökuməti Şuşa qəzasında müsəlman əhaliyə qarşı baş verənlərlə bağlı dərhal İstanbuldakı rus səfiri danışıqlar aparır, lakin rus diplomatı İstanbul hökumətinin bu addımını Rusiyanın daxili işlərinə qarışmaq kimi qiymətləndirir[34,v.1-2]. Bundan sonra Osmanlı hökuməti Peterburqdakı Osmanlı səfirliyinə təlimat göndərir ki, Rusiya hököməti qarşısında adı çəkilən məsələni

qaldırsın və müvafiq tədbirlərin görülməsinə çalışsın[88]. Bu təlimat üzrə səfir Rusiya hökumət rəsmiləri ilə görüşür, baş verənlərlə bağlı Osmanlı hökumətinin narahatlığını dilə gətirir və təcili təxirəsalınmaz tədbirlərin görülməsini xahiş edir. Rusiya hökuməti Osmanlı səfirinə yenə də “müsəlman əhalinin təhlükəsizliyini qorumaq üçün bütün lazımi tədbirlərin görüləcəyi” təminatını verir, lakin reallıqda heç bir iş görülmür.

Cənubi Qafqaz müsəlmanları yaxşı anlayırdılar ki, hökumətin möhkəm iradəsi və hadisələrə birbaşa müdaxiləsi olmadan diyarın bütün bölgələrini əhatə edən erməni-müsəlman toqquşmalarının qarşısını almaq mümkün olmayacaqdır. Buna görə də 1905-ci il iyun ayının 10-da Yelizavetpol, Bakı, Tiflis, Borçalı, Dağıstan və Batum vilayətlərinin müsəlmanlarını təmsil edən 9 nəfərdən ibarət nümayəndə heyəti Tiflisə gələrək Qafqaz valisi Vorontsov-Daşkovla görüşdülər. Görüşdə müsəlman nümayəndələr Bakı, Naxçıvan və İrəvanda baş verən erməni-müsəlman toqquşmaları haqqında məlumat verdilər və erməni-müsəlman toqquşmalarının baş verməsində müsəlmanların günahının olmadığını, günahkar tərəfin ermənilər olduğunu valinin diqqətinə çatdırdılar, vali də öz növbəsində erməni-müsəlman toqquşmalarında müsəlmanların günahkar olmadığını bildiyini heyətə bəyan etdi[78].

Bu görüşdə müsəlman nümayəndələr eyni zamanda müsəlmanların Rusiya hökümətindən tələb və təkliflərini valinin diqqətinə çatdıraraq bildirdilər ki, müsəlmanların təhsil haqqı, mətbuat orqanları təsis etmə haqqı və digər hüquqları təmin edilməli, torpaq problemi həll edilməli, yaylaq və qışlaqlardan istifadə haqqı təmin edilməli, kənd polisi ləğv edilməli, müsəlmanların banklardan yararlanması təmin edilməli, müsəlmanlara zadəganlıq hüququ tanınmalı, müsəlmanlar da bölgənin idarəçiliyində iştirak etməli və s. Qafqaz valisi isə bu tələblərin araşdırılacağına və həll ediləcəyinə söz verdi[78].

Lakin Qafqaz valisi tərəfindən verilən sözlərin elə söz olaraq da qalıb yerinə yetirilməməsi Cənubi Qafqaz müsəlmanlarını başqa addımlar atmağa vadar edirdi. Belə ki, ermənilər tərəfindən İrəvanda, Şuşada və Bakıda müsəlmanlar üzərinə edilən son hücumlar və bu hücumlar nəticəsində müsəlmanların qırğınlara məruz qalmalarına cavab olaraq müsəlmanlar keçirdikləri toplantılarda Rusiya silahı ilə

silahlanmış ermənilərin müsəlmanları qırğınlara məruz qoymaları və Rusiya hökümətinin müsəlman əhalini bu hücumlardan qorumaq üçün heç bir iş görmədiyi açıq şəkildə vurğulanmış və müsəlmanları ermənilərin hücumlarından qorumaq üçün Osmanlı sultanına və İran şahına müraciət etmək haqqında qərarlar qəbul olunmuşdu[79].

Onu da qeyd etmək lazımdır ki, İrəvan bölgəsində və Cənubi Qafqazın digər bölgələrində ermənilərin müsəlmanlara qarşı mütəmadi hücumları bölgənin müsəlman əhalisinin Osmanlı dövlətinə mühacirət etməsinə təkan verdi. Təkcə 1905-ci il iyul ayının ilk on günlüyündə Cənubi Qafqaz müsəlmanlarından 250 nəfərdən ibarət 34 ailə Osmanlı ərazilərinə keçərək Osmanlı təbəəliyinə qəbul etmək üçün müraciət etmişdilər. Mühacirlərin müraciətləri təmin edilmişdi[33,v.1-2]. 1905-ci ilin sentyabrında Ərzuruma gələn 75 ailədən ibarət Qarabağ mühacirləri Osmanlı hökumətinin göstərişi ilə Adanaya yerləşdirilmiş və onlara yardımlar göstərilmişdi[30,v.2].

1905-ci il sentyabrın 18-də İrəvanda sayca üçüncü erməni-müsəlman toqquşması baş verdi. Lakin bu dəfə İrəvan qubernatoru tərəfindən iğtişaşların genişlənməsinin qarşısı alındı. Bununla belə, bu iğtişaşlar da tələfatsız ötüşmədi. İrəvan quberniyası general-qubernatorunun verdiyi 19 sentyabr 1905-ci il tarixli məlumatda deyilir ki, baş verən kütləvi iğtişaşlar zamanı 8 müsəlman, 2 erməni öldürülmüş, 3 müsəlman, 8 erməni isə yaralanmışdır[205,s.95-96].

Erməni-müsəlman qırğınlarına son qoymaq məqsədilə 1906-cı ilin fevralında Qafqaz canişini İ.Vorontsov-Daşkovun təşəbbüsü ilə Tiflisdə daşnak liderləri və azərbaycanlı ictimai fikrinin tanınmış nümayəndələrinin iştirakı ilə konfrans çağırıldı. O dövrün mətbuatında “Erməni-müsəlman qurultayı” adlandırılan həmin konfransda canişinliyin bütün heyəti, Tiflis, Yelizavetpol və İrəvan qubernatorları, ermənilərin 28, müsəlmanların 29 nümayəndəsi, iki qazı və iki yepiskop iştirak edirdi. Burada azərbaycanlıları Əhməd bəy Ağayev, İsrafil Hacıyev, Əli Mərdan bəy Topçubaşov, Məhəmməd ağa Vəkilov, Qarabəy Qarabəyov, Ələkbər bəy Xasməmmədov, Adil xan Ziyadxanov və b. təmsil edirdilər. İrəvan quberniyasının müsəlmanlarını Ağa xan İrəvanski, Abbasqulu bəy Hacıbəylinski və şahzadə Şahqulu Mirzə təmsil edirdilər.

Ermənilləri isə, "Mşak" qəzetinin müdiri Kalantar, Aleksandr Xatisov, Samson Artyunov, Muşeksyan, Stepanov, Arakelyan, Taqiyanusov, Ter-Avanesov, arximandrit Muradyan və b. təmsil edirdilər.

Bu toplantıda azərbaycanlı nümayəndələr "Daşnaksütyun" partiyasının niyyətlərini və planlarını ifşa edib, onun Cənubi Qafqazda törədilən qırğınların əsas təşkilatçısı və icraçısı olduğunu, hökumət dairələrinin isə bu təşkilatın əməllərinə və törədilən müsəlman qırğınlarına göz yumduqlarını faktlarla sübuta yetirdilər. Azərbaycan nümayəndələrindən Şahmalıyev açıq şəkildə bəyan etdi ki, "dövlət adamları terrordan qorxub erməni tərəfini müdafiə edirlər..."[215,s.113]. Uzun-uzadı aparılan qarşılıqlı ittihamlarla müşaiyət olunan müzakirələrin yekununda hökumət tərəfindən Cənubi Qafqazda terrorun aradan qaldırılması, ictimai asayişin təmin edilməsi və silahlı dəstələr saxlayan siyasi partiyaların ləğvi haqqında qərarlar qəbul edildi. Lakin  hadisələrin sonrakı axarı bu yığıncağın Qafqaz canişini tərəfindən gözdən pərdə asmaq, Azərbaycan ictimai rəyini öyrənmək üçün təşkil edildiyini göstərdi. Belə ki, bundan sonra ermənilərin törətdiyi milli qırğın nəinki səngidi, əksinə, daha da genişləndi və artıq çar məmurları da hadisələrdə ermənilərin tərəfində açıq-aşkar iştirak etməyə başladılar[209,s.223-224].

Tiflisdə keçirilən konfransın nəticəsi olaraq erməni-müsəlman barışıq komissiyası yaradılmışdı. Lakin toqquşmaların səngiməsindən bir qədər sonra erməni silahlı dəstələri yenidən qırğınlara başladılar. Erməni müəllifi A-donun verdiyi məlumata görə, İrəvan şəhərində dördüncü erməni-müsəlman toqquşması 1906-cı il mayın 27-də və iyunun 8-9-da baş verdi. Toqquşma mayın 27-də İrəvandakı Qantar (Tərəzi) meydanında başladı. Atışma çox qısa davam etdi. Köməyə gələn qoşunlar qayda-qanunu bərpa etdilər. Lakin 36 nəfər ölü və yaralı verdikdən sonra, öldürülən 22 nəfərdən 13-ü erməni, 7-si azərbaycanlı, 1-i molokan, 1-i yəhudi olmuşdur. 14 yaralının 7-si erməni, 4-ü azərbaycanlı, qalanları başqa millətlərin nümayəndələri olmuşlar. İyunun 8-də İrəvanda yenidən toqquşma başlasa da, qoşunların qəti tədbirlərə əl atması sayəsində tezliklə yatırıldı. Bu dəfəki toqquşmada hər iki tərəfdən 10 nəfər öldürüldü. Qətlə yetirilənlərdən 5-i azərbaycanlı, 3-ü erməni, 1-i kürd, 1-i

yəhudi idi. 19 yaralıdan isə 13-ü azərbaycanlı, 6-sı erməni idi. İyunun 9-da səhər güclü atəşlə açılsa da, itki olmadı[206].

1906-cı il iyulun 29-da erməni daşnakları Zəngəzur qəzasının Mədən bazarıında Səfyar bəyi vəhşicəsinə qətlə yetirib, daha sonra Qafan dərəsində yerləşən Karxana kəndinə hücum etdilər. Kəndin əhalisi tamamilə məhv edilir. Karxana qırğınları ilə bağlı M.S.Ordubadi yazır: "Erməni camaatı daş diblərindən, kol aralarından müsəlmanları bir-bir tapıb əsir alır, yainki qətlə yetirirdilər. Bu vaxt bir daşın arxasında 30-a qədər övrət-uşaq və bir neçə hərbi silahını əldən vermiş kişi tayfası gizlənmişdilər. Bu pünhan olmuş övrətlərin arasında Pakizə xanım adlanan cavan bir övrətin döşündə Füruzə adlı südəmər qızı var imiş. Məsum qız açılan güllələrin sədasından anasının döşündən dartınıb qeyri-ixtiyar qorxudan ağlamaqda idi. Bu cocuğun ağlamaq sədasını ermənilər eşidib gəlib hamısını həlak edirlər..."[215,s.120].

Karxana kəndinin əhalisini bütünlüklə qətl edən ermənilər elə həmin gün Lov, Xələc, Saldaşlı, İncəvar, Daşnov kəndlərinə hücum edib bu kəndləri viran etdilər. Bu kənlərin əhalisinin canlarını qurtara bilmiş hissəsi Qatar kəndinə pənah apardı. Ermənilər Qatar kəndinə hücum etdilər. Qatarlılar qəhrəmanlıq göstərərək 8 min nəfərlik erməni silahlıları qarşısında 9 gün ərzində kəndi müdafiə etdilər. Qüvvələr nisbətinin qeyri-bərabər olması, azərbaycanlılara kənardan kömək gəlməməsi və iranlı fəhlələrin satqınlıq edərək ermənilərə kömək etməsi Qatar kəndinin taleyini həll etdi. Avqustun 9-da kəndə girən ermənilər kəndi tamamilə yandırdılar. Qatar kəndinin əhalisi Kəllədağ kəndinə pənah aparmalı oldu. Bundan sonra ermənilər Oxçu-Şəbədək dağ silsiləsində yerləşən müsəlman kəndlərinə hücum etdilər. Erməni hücumuna məruz qalan müsəlman kəndlərin sakinlərinin cəmləşdiyi Saqqarsu kəndinə hücum edən erməni silahlı birləşmələri burada dəhşətli soyqırım həyata keçirdilər. 1906-cı il iyulun 29-dan başlayaraq sentyabr ayının ortalarnadək erməni silahlı birləşmələri Zəngəzurun Xələc, Karxana, Lov, Daşnov, Qatar, İncəvar, Çöllü, Yeməzli, Saldaşlı, Mollalar, Batuman, Oxçu, Şəbədək, Atqız, Pürdavud, Zurul, Güman, İyilli, Sənalı, Minənəvür, Fərcan, Qalaboynu, Əcəbli, Buğacıq, Panuslu, Girdəkan, Kəllədağ kəndlərini dağıdıb və ya yandıraraq viran etdilər, əhalisini qətlə

yetirdilər, əmlaklarını talan etdilər[215,s.136]. Bu kəndlərin canlarını qurtara bilən azərbaycanlıları digər kəndlərə, əsasən də Ordubada pənah apardılar.

Ermənilərin soyqırımından canını qurtarıb Ordubada gələn qaçqınların verdikləri məlumata əsasən ordubadlılar Qafan dərəsində, Saqqaarsuda və digər ərazilərdə ermənilərin qətlə yetirdikləri insanların meyitlərini gətirmək üçün dəstələr təşkil etdilər. Ordubad könüllüləri avqustun 16-da Saqqarsuda Molla Həsən Əfəndinin özü ilə bərabər kənddən çıxardığı 62 qadın və uşağın meyitlərini tapdılar. İki gün sonra isə yenicə ailə qurmuş iki gəncin, Molla Həsən Əfəndinin yandırılmış cəsədlərinə, 15 körpə uşağın palaza bükülmüş və bir-birinə qarışmış kəsilmiş başlarına və digər bədən üzvlərinə rast gəlindi[209,s.225;195,s.29-30].

Ordubad əhalisi çarizmin erməniləri müdafiə və himayə etdiyini başa düşərək Zəngəzur kəndlərini azad etmək üçün könüllülərdən ibarət silahlı dəstələrin təşkilinə başladılar. 1000 nəfəri qaçqınlardan, 800 nəfəri isə yerli əhalidən olmaqla, 1800 nəfərlik hərbi dəstələr Saqqarsuya doğru hərəkət etdilər. 1906-cı il sentyabrın 16-da erməni silahlı qüvvələri ilə həlledici döyüşdə qalıb gələn könüllülər Zəngəzurun bütün işğal olunmuş kəndlərindən erməniləri qovub çıxardılar. Lakin ermənilər işğal etdikləri bütün Zəngəzur kəndlərini yandırıb viran qoymuşdular. Vəziyyətin azərbaycanlıların xeyrinə dəyişdiyini görən rus hakimiyyət dairələrinin göndərdiyi 500 nəfərlik kazak ordusu bölgəyə gələrək qaçqınların guya onlar tərəfindən öz kəndlərinə qaytarıldığı görüntüsünü yaratmağa başladılar. Bu zaman fürsətdən istifadə edən ermənilər yenidən hücuma keçdilər. Lakin Girdəkan-Panuslu döyüşü də Ordubad könüllülərinin qələbəsi ilə başa çatdı[209,s.225-226].

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, XX əsrin ilk illərindən başlayaraq erməni siyasi təşkilatları olan Daşnaksütyun və Hnçaq partiyalarının rəhbərliyi ilə ermənilər Cənubi Qafqazda türk-müsəlman əhalisinə qarşı sistemli soyqırım aktları həyata keçirmişlər. Türk-müsəlman əhalisinə qarşı həyata keçirilən bu soyqırım aktları XX əsin ilk illərindən başlayaraq 1910-cu ilə qədər davam etmiş, 1905-1906-cı illər isə bu soyqırım aktlarının ən qızğın, ən dəhşətli dövrü olmuşdur.

Erməni muəllifı S.Zavaryanın verdiyi məlumata görə, bəhs olunan dövrdə Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43 (cəmi 75) müsəlman kəndi dağıdılmışdı[124,s.51]. T.Svyatoxovskinin məlumatına görə isə, bəhs olunan hadisələr zamanı 128 erməni və 158 müsəlman kəndi dağıdıldı və ya talan edildi. İnsan tələfatı 3000-dən 10000 nəfərə çatırdı[228,s.55-56]. Lakin baş verən soyqırım aktlarının detallarının araşdırılması göstərir ki, bu rəqəmlər hadisələrin miqyasını tam əhatə etmir. Belə ki, 1897-ci ildə İrəvan quberniyasında azərbaycanlı əhalinin sayı 313176 nəfər olduğu halda, 10 ildən sonra - yəni 1907-ci ildə 302965 nəfər qalmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə təkcə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdir[124,s.50].

Bütövlükdə İrəvan və Yelizavetpol quberniyaları ərazilərində ermənilərin hücumuna məruz qalan, talan edilən, dağıdılan və ya yandırılan, əhalisi isə qətl edilən, qaçqına çevrilən Azərbaycan kəndlərinin sayı 200-dən çox olmuşdur. İrəvan quberniyasının ərazisi daşnak silahlı birləşmələrinin və Osmanlı ərazilərindən Cənubi Qafqaza keçən erməni terrorçularının əsas istinadgahı olduğundan bu bölgənin türk-müsəlman əhalisi soyqırım aktlarının ən dəhşətli səhnələrinə şahidlik etmişdir. XX əsrin əvvəllərinə qədər İrəvan şəhərinin özündə azərbaycanlı və erməni əhalisinin sayı təxminən bərabər olduğu halda, 1905-1906-cı illər qırğınlarından sonra şəhər əhalisinin etnik tərkibi ermənilərin xeyrinə dəyişdi.

Erməni daşnaklarının Azərbaycan qəzalarında, xüsusilə də İrəvan quberniyasında və Yelizavetpol quberniyasının dağlıq hissəsində türk-müsəlman əhalisinə qarşı törətdiyi qırğınlar onların bu bölgədə türk-müsəlman əhalisini məhv edib özlərinin etnik üstünlüklərini təmin etmək və siyasi cəhətdən dövlət kimi istinad olunacaq ərazi yaratmaq, növbəti mərhələdə isə bu ərazilərdə siyasi hakimiyyəti ələ almaq və dövlət yaratmaq planları ilə birbaşa bağlı idi. Erməni siyasi təşkilatlarının bu planları Rusiyanın bölgədə yeritdiyi siyasətə uyğunlaşdırıldı və nəticədə türk-müsəlman əhalisinə qarşı sistemli soyqırım aktları törədildi. Ermənilərin türk-müsəlman əhalisinin üzərinə qaldırılması; planlı şəkildə erməni-müsəlman münaqişəsinin törədilməsi; türk-müsəlman kəndlərinə gerçəkləşdirilən erməni

hücumları zamanı Rusiyanın bölgədəki siyasi və hərbi hakimiyyət nümayəndələrinin ermənilərə hərtərəfli dəstək verməsi; ən yaxşı halda hadisələri sadəcə müşahidə edib azərbaycanlı əhalinin təhlükəsizliyini qorumaması Rusiyanın dövlət siyasəti olduğu və bütün bunların planlı şəkildə Cənubi Qafqazı inqilabi proseslərdən kənarda saxlamaq, çarizmin digər strateji planları ilə bağlı olduğu faktlarla sübuta yetirilmişdir. Bu mənada, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımın bilavasitə və birbaşa icraçıları ermənilər olsalar da, həmin illərdə bu bölgədə dövlət hakimiyyətini həyata keçirən çarizm və onun yerlərdəki məmurları da ən azı ermənilər qədər məsuliyyət daşıyırlar.

### 4.3.1918-1920-ci illərdə İrəvan bölgəsində türk-müsəlman əhaliyə qarşı soyqırım və etnik təmizləmə siyasəti

Ermənistanın türk-müsəlmanlara qarşı apardığı soyqırım siyasəti dünyada mövcud olan eyni hallardan, yəni soyqırım və kütləvi qətliam siyasətlərindən bir sıra cəhətlərinə görə əsaslı şəkildə fərqlənir. Dünya tarixində mövcud olan soyqırım hadisələrindən heç biri ermənilərin türk-azərbaycanlılara qarşı həyata keçirdikləri kütləvi məhv etmə siyasəti qədər uzun müddətli olmamışdır. XIX əsrdən başlayan ermənilərin türk-müsəlmanlara qarşı soyqırım siyasəti XX əsrin sonlarına qədər davam etmiş və bu gün də biz bu siyasətin ağır nəticələrin yaşamaqdayıq. Bu qədər uzun müddətdə heç bir xalqa, etnik birliyə qarşı soyqırım siyasəti aparılmamışdır.

Son 200 il ərzində öncə Çar Rusiyasının, sonra isə keçmiş SSRİ-nin apardığı ermənipərəst siyasət nəticəsində Cənubi Qafqazda demoqrafik vəziyyət kəskin şəkildə dəyişdirilmiş, azərbaycanlılar öz tarixi torpaqlarından, doğma yurdlarından sıxışdırılıb çıxarılmışlar. Təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1994-cü illərdə soyqırım, təqib və deportasiyalara məruz qalmış, öz tarixi torpaqlarından didərgin salınmışlar.

Əvvəlki yarımfəsildə də geniş şəkildə qeyd etdiyimiz kimi, 1905-1906-cı illərdə ermənilər, azərbaycanlılara qarşı azərbaycanlıların yaşadığı bütün məntəqələri

əhatə edən irimiqyaslı qanlı əməliyyatlar həyata keçirmiş, yüzlərlə yaşayış məntəqəsini yerlə yeksan etmiş, 10 mindən artıq azərbaycanlını vəhşicəsinə qətlə yetirmişdilər. 1917-ci ilin sonlarından etibarən ermənilərin azərbaycanlılara qarşı Azərbaycanın demək olar ki, bütün bölgələrində həyata keçirdikləri soyqırımlarla bağlı axriv sənədləri ilə tanışlıq onu deməyə əsas verir ki, ermənilərin 1905-1906-cı illərdə azərbaycanlılara qarşı həyata keçirdikləri kütləvi qırğın aktları 1918-1920-ci illərdə törətdikləri soyqırımların sadəcə "baş məşqi" hesab edilə bilər. Belə ki, Birinci dünya müharibəsində Rusiya imperiyasının dağılması ilə bağlı yaranan anarxiyadan istifadə edən ermənilər azərbaycanlılara qarşı forma və miqyasına görə daha böyük soyqırım həyata keçirdilər. Daşnak-bolşevik alyansı tərəfindən 1918-ci ilin martında Bakıda 12 min günahsız insanın irqi, milli əlamətlərinə görə qətlə yetirilməsi ilə başlayan azərbaycanlıların soyqırımı demək olar ki, Azərbaycanın bütün qəzalarında geniş miqyasda davam etdirildi. Təkcə 1918-ci ilin mart-sentyabr ayları ərzində Şamaxı, Quba, Cavanşir, Cəbrayıl, Şuşa, Zəngəzur, Naxçıvan, İrəvan, Ərəş, Cavad, Lənkəran və Azərbaycanın digər bölgələrində həyata keçirilən bu soyqırımlar nəticəsində 100 mindən artıq Azərbaycan türkü qətlə yetirildi, əhaliyə milyardlarla ziyan vuruldu.

İrəvan bölgəsində türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırım aktları motivinə, miqyasına və bu cinayəti törədənlərin tərkibinə görə Azərbaycanın digər bölgələrindən fərqlənir. Belə ki, əvvəla, Azərbaycanın digər qəzalarında türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırım aktları 1918-ci ilin 30 mart-2 aprel tarixlərində Bakıda törədilən və 12 min günahsız türk-müsəlmanın qətli ilə nəticələnən soyqırımdan sonra başladığı halda, İrəvan quberniyası ərazisində bu cinayətlər daha əvvəl – 1917-ci ilin son rübündən başlamışdı və Bakıdakı Mart qırğınına qədər bu bölgədə azərbaycanlılara qarşı soyqırımın birinci mərhələsi artıq tamamlanmışdı. İkincisi, Bakıdan başlanan və qəzalarda davam etdirilən soyqırım aktlarının əksəriyyətində erməni daşnakları bolşeviklərlə (bolşevik cildinə girmiş daşnaklarla) ittifaqda alyans şəklində hərəkət edirdilərsə, İrəvan bölgəsindəki soyqırım cinayətlərinə Daşnaksütyun-Hnçaq ittifaqı rəhbərlik edir və həyata keçirirdi. Üçüncüsü, Bakıda həyata keçirilən soyqırım aktları ilk öncə Azərbaycanın

muxtariyyətini və müstəqilliyini tələb edən Müsavat partiyasının sosial bazasını məhv etmək, bu yolla Azərbaycanın müstəqilliyinin qarşısını almaq məqsədi daşıyırdısa, İrəvan quberniyasında törədilən soyqırım aktlarında əsas məqsəd İrəvan bölgəsini türk-müsəlmanlardan təmizləmək, onların yerində Osmanlı dövlətindən gələn 350 mindən artıq erməni qaçqınlarını yerləşdirmək və bununla da bu ərazilərdə erməni dövləti yaratmaq idi.

Birinci Dünya müharibəsi illərində Şərqi Anadolunu ələ keçirmək üçün hücuma keçən Rusiya ordusunun tərkibində hərbi xidmət keçən 150 min erməni əsgəri var idi. Üstəlik, tərkibində təqribən 10 min könüllünü birləşdirən 4 erməni drujinası da Eçmiədzin kilsəsinin xeyir-duası ilə Cənubi Azərbaycan ərazisindən (Xoy, Urmiya, Səlmas əyalətləri üzərindən) və Qars vilayəti üzərindən hərəkət edərək rus qoşunlarına qoşulmuşdu. Fürsətdən istifadə edən erməni silahlıları keçdikləri yolların üzərindəki azərbaycanlı və türk kəndlərini darmadağın edir, əhalisini ucdantutma məhv edirdilər.

1917-ci ilin noyabrında Rusiyada hakimiyyət çevrilişi nəticəsində rus qoşunlarının silah-sursatı erməni komandirlərinə təhvil verərək Şərqi Anadoludan geri çəkilməsindən sonra ermənilər qırğınların miqyasını daha da genişləndirmişdilər. 1918-ci ilin fevralından etibarən türk qoşunları əks hücuma keçərək erməni qoşunlarını Şərqi Anadoludan təmizlədi. Ermənilərin və onların havadarlarının Birinci Dünya müharibəsi dövründə Şərqi Anadoluda müstəqil erməni dövləti yaratmaq niyyətləri baş tutmamasından sonra İrəvan quberniyası və ona bitişik ərazilərdə erməni dövləti yaratmaq ideyası gündəliyə gəlmişdi.

Andranikin, Hamazaspın, Dronun, Njdenin komandanlığı altında geri çəkilən erməni ordusu əvvəlcə Ərzurum və Qars vilayətlərində, sonra isə İrəvan quberniyasında və Zəngəzurda müsəlmanlara qarşı əsl soyqırım həyata keçirmişdi. Şərqi Anadolunun Rusiya işğalı dövründə qırğınlar törədilməsində iştirak edən ermənilər də erməni qoşunları ilə bərabər Cənubi Qafqaza axışmışdılar. Həmin dövrdə Türkiyədən gələn 350 min erməninin böyük bir qismi İrəvan quberniyasında məskunlaşmış, nəticədə azərbaycanlıların vəziyyəti daha da ağırlaşmışdı[206].

1917-ci ilin sonlarından etibarən bütün Cənubi Qafqaz ərazisində olduğu kimi, İrəvan quberniyası ərazisində də etnik əsaslarla yerli idarəçilik orqanlarının yaradılması prosesinə başlanılmışdı. Bu dövrdə bütün quberniya ərazisində ermənilərin fəallaşması və azərbaycanlı əhali üzərinə hücumlar təşkil edilməsi həm də azərbaycanlıları bölgədə yerli idarəçilik orqanlarının yaradılması prosesindən kənarda saxlamaq planlarına hesablanmışdı.

Ermənilər 1918-ci il yanvarın 14-də Zaqafqaziya Komissarlığı tərəfindən Saak Torosyanın İrəvan quberniya komissarı təyin edilməsinə nail oldular. Bununla da onlar quberniya ərazisində öz məkrli planlarını həyata keçirmək üçün geniş meydan əldə etdilər. Bu dövrdə İrəvan bölgəsindəki silahsız azərbaycanlı əhali mütəmadi olaraq silahlı erməni birləşmələrinin mütəşəkkil hücumlarına məruz qaldığı halda, bölgəyə təyin edilmiş yeni quberniya komissarı Saak Torosyan Tiflis hökumətinə - daxili işlər komissarı A.Çxenkeliyə, maliyyə komissarı Karçikyana göndərdiyi teleqramlarda quberniyadakı ağır vəziyyətdən, milli qarşıdurmanın güclənməsindən şikayətlənir və təcili kömək istəyirdi. O, baş verən silahlı toqquşmaların məsuliyyətini azərbaycanlıların üzərinə qoyur, ermənilərdən ibarət hərbi hissələrin köməyə göndərilməsini xahiş edirdi[209,s.291]. Azərbaycanlı əhalinin vəziyyətini ağırlaşdıran daha bir hadisə 1917-ci il dekabrın 5-də bağlanmış Ərzincan sazişinə əsasən Qafqaz cəbhəsində Birinci dünya müharibəsini tərk etmiş rus ordusunun öz silahlarını ermənilərə verib cəbhədən ayrılması oldu. Tərxis olunmuş rus ordusunun öz silahlarını ermənilərə buraxması ilə mühüm cəbbəxana əldə edən erməni daşnakları bütün quberniya ərazisində silahsız azərbaycanlı əhali üzərinə intensiv hücumlara başladılar.

1918-ci ildə hazırlanmış rəsmi bir dövlət sənədində 1917-ci ilin sonlarından 1918-ci ilin mart ayınadək İrəvan quberniyası ərazisində ermənilər tərəfindən dağıdılmış, məhv edilmiş, əhalisi soyqırıma məruz qalmış və ya tərk edilmiş (qaçqına çevrilmiş) müsəlman kəndlərinin siyahısı verilmişdir. Həmin sənəd qısa bir dövr, cəmi bir neçə ay ərzində ermənilərin törətdiyi vəhşiliklərin nəticələrini əks etdirir, eyni zamanda İrəvan quberniyasında müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırım aktlarının miqyası barədə təsəvvür yaradır [2,v.31-33;12,v.3-7;306, c.216-

220;129,v.19-25]. Bu sənədə görə, 1917-ci ilin son rübündən 1918-ci ilin mart ayınadək erməni silahlı dəstələri tərəfindən İrəvan quberniyasının İrəvan qəzasında 32, Sürməli qəzasında 75, Eçimədzin qəzasında 84, Yeni-Bəyazid qəzasında 7 kəndi – üst-üstə 198 kəndi darmadağın edilmiş, əhalisi soyqırıma məruz qalmış, bir qismi öldürülmüş, qalan hissəsi isə öz yurd-yuvalarını tərk etməyə məcbur olaraq qaçqın və köçkünə çevrilmişdir.

Adı çəkilən sənəddə daha sonra qeyd edilir ki, ümumilikdə 15.155 təsərrüfatın birləşdiyi bu 198 kənddə Qafqaz təqviminin 1908-ci il məlumatına görə 100.626 nəfər əhali yaşamışdır. On il ərzində əhalinin 30 faizlik təbii artımı (34.374 nəfər) da nəzərə alınaraq yuxarıda adları qeyd olunan 198 kənd üzrə ermənilərin törətdiyi soyqırım qurbanlarının ümumi sayı 135.000 nəfər təşkil edir[2,v.31-33;12,v.3-7;306, c.216-220;354,c.90].

Ümumlikdə, 1918-ci ilin yanvarından may ayına kimi, yəni, türk qoşunları İrəvan quberniyasına daxil olana qədər, burada ermənilər tərəfindən 300-dən çox müsəlman kəndi dağıdılmış, onların əhalisi isə qətllərə və zorakılıqlara məruz qalmışdı.

İrəvandan başqa, Azərbaycanın digər bölgələrində də erməni silahlı birləşmələrinin müsəlman əhalisi üzərinə hücumları genişlənmişdi. 1917-ci ildə Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd qismən dağıdılmış, Azərbaycan üzrə isə (Lənkəran çıxılmaqla) 60 yaşayış məskəni tamamilə məhv edilmiş, 388-i qismən zərər çəkmiş, yandırılmış, viran qoyulmuş təsərrüfatların sayı isə 5140-a çatmışdı[203,s.39].

Rus ordularının işğalı altında olan Şərqi Anadolu vilayətlərində və İrəvan quberniyası ərazisində erməni silahlı birləşmələri tərəfindən türk-müsəlman əhaliyə qarşı törədilən soyqırım aktlarının miqyasının genişlənməsi Osmanlı hərbi komandanlığını hərəkətə gətirdi. Osmanlı Qafqaz cəbhəsinin komandanı Vehib paşa 22 yanvar 1918-ci il tarixində Rus Qafqaz Orduları komandanı general Odişelidzeyə teleqramla müraciət edərək, ermənilərin törətdiyi qırğınların qarşısının alınmasını tələb etdi. Eyni məzmunlu teleqramı fevralın 1-də Rus Qafqaz cəbhəsi ordularının baş komandanı general P.A.Prjevalskiyə göndərən Vehib paşa fevralın 11-də yenidən

teleqramla general Odişelidzeyə müraciət edib, ermənilərin müsəlmanlara qarşı törətdiyi vəhşiliklərin qarşısını almağı tələb etdi[292, c.41-47]. General Odişelidze bir gün sonra Vehib paşaya göndərdiyi teleqramda "müsəlman əhalinin qorunacağı" haqqında təminat versə də, bu qırğınların qarşısını almaq üçün Komissarlıq tərəfindən əməli addımlar atılmadı[168,s.119].

Vəziyyətin ağırlığını görən Osmanlı hərbi komandanlığı 1918-ci il fevralın 12-də general Odişelidzeyə işğal altında olan türk torpaqlarında erməni quldur dəstələri tərəfindən müsəlmanlara qarşı törədilən vəhşilikləri bir daha xatırladıb[292, c.49-50], müsəlman əhalisinin təhlükəsizliyini və əmlaklarının mühafizə edilməsini təmin etmək üçün Qafqaz cəbhəsində fəal hərbi əməliyyatlara başladı [252, s. 406-407]. Osmanlı ordusunun hücumları qarşısında tab gətirə bilməyən erməni silahlı birlikləri aprelin 3-də Ərdəhanı, iki gün sonra Sarıqamışı, aprelin 15-də Batumu, aprelin 25-də isə Qarsı tərk etməli oldular.

Lakin Qarsı tərk etməli olan silahlı ermənilər intiqam hisslərini soyutmaq üçün yol boyu yerli türk əhalisinə qarşı zorakılıq və terror aktları həyata keçirməyə başladılar. Qarsdan sonra zorakılıq dalğası İrəvan quberniyasına keçdi. Qısa müddətdə Qars vilayətində 82, İrəvan quberniyasında 211 müsəlam kəndi yandırıldı, əhalisinin bir hissəsi qırıldı, qalan hissəsi isə didərgin düşdü. İrəvan quberniyasından olan qaçqınların sayı 80 min nəfəri keçdi[4,v.26].

Hələ 1918-ci ilin Novruz bayramı günlərində erməni silahlı dəstələri İrəvan quberniyasının Pəmbək mahalının azərbaycanlılar yaşayan kəndlərinə basqınlar etmiş, əhalisini kütləvi qırğınlara məruz qoymuşdu. Pəmbək nahiyəsinin 9 kəndində 1000-dən çox soydaşımız vəhşicəsinə qətlə yetirilmişdi. Arcut kəndində 60 nəfər qətlə yetirilmiş, Vartanlı kəndində isə 13 yaşından yuxarı 411 kişini tövləyə dolduraraq yandırmışdılar. Həmin kənddən yalnız bir nəfər qaçaraq canını qurtara bilmişdi. Erməni silahlı dəstələri həmçinin 1918-ci ilin Novruz bayramı günlərində Əştərək yaxınlığındakı Gözəldərə kəndinə basqın etmiş, 600 nəfərdən çox sakini qətlə yetirmiş, bütün tikililəri yandırmışdılar. Həmin kənddən yalnız üç nəfər gənc qaçaraq canlarını qurtara bilmişdi[207].

1918-ci ilin aprelində türk qoşunlarının Qarsı erməni işğalından azad etməsindən sonra Andranikin qoşunu geri çəkilərək Gümrü şəhərinə daxil olub, sonra isə Axılkələk istiqamətində hərəkət etdi. Həmin qoşun Ağbaba nahiyəsinin Arpaçay boyunca yerləşən Böyük Şiştəpə, İlanlı, Düzkənd, Qaranamaz, Təzəkənd kəndlərini viran etdikdən sonra qonşu Xocabəy nahiyəsinin türk kəndlərini xaraba qoydu. Axılkələkdə türk qoşunlarına məğlub olan Andronikin silahlı dəstələri may ayının 14-dən 18-dək İrəvan quberniyasına bitişik ərazilərdə Voronsovka və Cəlaloğlu nahiyələrinin azərbaycanlı kəndlərini viran qoydu. Mayın 21-22-də Voronsovka və Cəlaloğluda türk qoşunlarına məğlub olan Andronikin qoşunu Loru bölgəsindən Dilicana keçmiş, oradan Qaraqoyunlu dərəsi ilə irəliləyərək iyunun 12-də Göyçə gölünün sahilindəki Axta nahiyəsinin azərbaycanlı kəndlərini darmadağın etmiş və sonra isə, Yeni-Bəyazid qəzasını, daha sonra isə Dərələyəz mahalının kəndlərini viran qoymuşdu. 1918-ci il iyunun 20-də Dərələyəz istiqamətindən Naxçıvana daxil olan Andronikin qoşunu orada da qırğınlar törədərək, Culfa istiqamətindən Cənubi Azərbaycana daxil oldu. İyunun 24-də Xoy şəhərində soyqırımı törədən Andronikin qoşunu Urmiya üzərinə hücum etdi. Aparılan tədqiqatlar göstərir ki, həmin dövrdə ermənilər türk qoşunları ilə qarşılaşmaqdan qorxaraq yenidən Naxçıvana qayıtmış, avqustun əvvəlində Oxçu vadisi ilə Zəngəzura daxil olmuşdu. 1919-cu ilin aprel ayınadək Andronikin qoşunu Ərzurumdan Zəngəzuradək hərəkət trayektoriyası üzərində yerləşən 500-dən artıq türk-müsəlman yaşayış məntəqəsini viran qoymuşdu. Türkiyə arxivlərində saxlanılan sənədlərdə qeyd edilir ki, 1918-ci il aprelin 29-da Gümrüdən 500 araba ilə Axılkələyə götürülməkdə olan 3000-ə qədər qadın, qoca, uşaq və kişi öldürülmüşdü[207].

İrəvan bölgəsində millətlərarası toqquşmalarla bağlı yaranmış gərgin vəziyyət müsəlman fraksiyasının təkidi ilə Zaqafqaziya Seyminin martın 4-də və 17-də keçirilmiş iclaslarında müzakirə olundu. Azərbaycan nümayəndələri öz çıxışlarında əsas diqqəti İrəvan quberniyasında ermənilər tərəfindən törədilən zorakılıqlara, qısa müddətdə (17-21 fevral tarixlərində) 21 kəndin tamamilə dağıdılmasına yönəldərək erməni silahlı dəstələrinin başçıları olan Dro və Pirumovun məsuliyyətə cəlb edilməsini tələb etdilər.  Seym fraksiyaları nümayəndələrinin İrəvan quberniyasındakı

hadisələr haqqında martın 2-də apardıqları birgə müzakirələrdən sonra hazırladıqları tədbirlər planı nəzərdən keçirildi və yekunda aşağıdakı qərar qəbul edildi: 1) Zaqafqaziya hökumətinin icazəsi olmadan müsəlman kəndlərinə cəza dəstələrinin göndərilməsi barədə polkovnik Pirumova və komissar Droya xəbər çatdırılsın; 2) İrəvan quberniyasına fövqəladə komissar təyin edilməsi məsələsi Seymin müzakirəsinə çıxarılsın[3,12,17].

Zaqafqaziya Seyminin müsəlman fraksiyası İrəvan quberniyasında azərbaycanlı əhaliyə qarşı törədilən soyqırım aktlarının qarşısını siyasi yolla almaq üçün yollar axtarmaqla bərabər, 1918-ci ilin mart ayında İrəvan qaçqınlarının problemləri ilə məşğul olmaq üçün müsəlman fraksiyasının qaçqınlar şöbəsini də yaratmışdı. Müsəlman fraksiyası İrəvan quberniyasındakı vəziyyətlə bağlı Seym hökuməti qarşısında bir neçə dəfə məsələ qaldırmış, nəticədə Seym hökuməti tərəfindən İrəvan bölgəsinə nümayəndə heyəti göndərilmiş, araşdırmaların nəticələri Seymin iclasında müzakirə edilmiş, qaçqınların vəziyyətinin müəyyən dərəcədə yüngülləşməsinə nail olunmuşdu. Lakin qırğınları dayandırmaq mümkün olmamışdı.

İrəvan quberniyasındakı müsəlmanlara yardım etmək üçün Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin də İrəvan şəhərində şöbəsi yaradılmış və bu şöbə vasitəsilə müsəlman qaçqınlara bir sıra yardımlar göstərilmişdi.

Zaqafqaziya Seyminin müsəlman fraksiyası 1918-ci il aprel ayının 23-də və 28-də keçirdiyi iclaslarında ermənilərin İrəvan quberniyası ərazisində türk-müsəlman əhaliyə qarşı törətdiyi vəhşiliklər müzakirə edildi. Seym üzvü Mir Hidayət Seyidov İrəvan bölgəsindəki vəziyyətlə bağlı məruzə edərək, İrəvan quberniyası ərazisində ermənilər tərəfindən müsəlmanların müntəzəm olaraq qırılması, məskunlaşdıqları ərazilərdən təmizlənməsi və bununla bağlı yaranmış acınacaqlı vəziyyətdə 80 min qaçqının yardımsız qaldığını xüsusilə qeyd etdi. O, ermənilərin məqsədini açıqlayaraq bildirirdi ki, İrəvan quberniyasında iki ay bundan əvvəl müsəlmanlara qarşı ermənilərin və erməni hərbi hissələrinin həyata keçirdiyi əməliyyatların məqsədi həmin əraziləri qaçqın ermənilər üçün təmizləmək və yeni Ermənistan dövləti yaratmaqdır. Bu müzakirələrdə ermənilərin İrəvan quberniyası ərazisində törətdiyi soyqırım aktlarına qiymət verilərək qeyd edildi ki, erməni ordusu

Ermənistan muxtariyyəti yaratmaq üçün düşünülmüş şəkildə İrəvan quberniyası ərazisini müsəlmanlardan təmizləyir. Müzakirələrin yekununda müsəlman fraksiyası qərara aldı ki, yeni təşkil edilmiş A.Çxenkeli hökuməti ilə İrəvan quberniyası müsəlmanlarının həyatı üçün yaranmış təhlükə barədə danışıqlar aparılsın və Seym qarşısında aşağıdakı tələblər qaldırılsın:

a) Daxili işlər nazirinə tapşırılsın ki, müsəlmanlara kömək etmək üçün xüsusi komissiya göndərilsin;

b) Bütün müsəlman qaçqınları öz yerlərinə qaytarılsın;

c) Ərzaq Nazirliyinə tapşırılsın ki, təcili yardım göstərsin;

d) Azğınlıq edən erməni hərbi hissəsi buraxılsın;

e) Müsəlman qaçqınların sayı və vəziyyəti öyrənilsin, onlara əlavə yardım göstərilsin[4,v.26-27].

Seymin müsəlman fraksiyasının gərgin əməyi sayəsində Zaqafqaziya hökuməti İrəvan müsəlmanlarının vəziyyətini öyrənmək üçün komissiya yaratdı və ilk addım kimi İrəvan qaçqınlarının ən zəruri ehtiyaclarını ödəmək üçün bir milyon manat vəsait buraxdı[4,v.27]. Lakin Seymin vasitəsilə İrəvan bölgəsindəki qırğınların qarşısını almaq mümkün olmadı.

İrəvan quberniyasında erməni vəhşiliklərinin qarşısını almaq məqsədilə İrəvan Müsəlman Milli Şurası yaradılmışdı. Milli Şuranın sədri Əli xan Makinski, katibi isə Cabbar Məmmədzadə idi. İrəvan Milli Şurasının ermənilərin törətdikləri qırğınlar barəsində Bəyaziddəki türk qoşunlarının komandanlığına göndərdiyi məktubda qeyd edilirdi ki, may ayına qədər iki yüz kənd məhv edilmiş, zülmdən qurtula bilənlər dağlara qaçmış, onların da bir qismi aclıqdan və soyuqdan ölmüşdür. İrəvan şəhərinin 18 min nəfərlik müsəlman əhalisi iki aydır ki, mühasirə altındadır[207].

1918-ci il mayın 26-da Zaqafqaziya Seyminin süqutundan sonra İrəvan bölgəsinin hüdudlarında erməni dövlətinin yaradılması bölgənin türk-müsəlman əhalisinin həyatında yeni qırğınlara, dağıntılara və faciələrə yol açdı. Batum konfransında Osmanlı dövləti, Azərbaycan və erməni nümayəndələri arasında aparılan ikitərəfli və üçtərəfli danışıqların yekununda İrəvan şəhəri paytaxt olmaqla İrəvan, Yeni-Bəyazid və Eçmiədzin qəzalarının hüdudlarında Ermənistan dövlətinin

qurulması təsdiqləndi. Batumda imzalanan müqavilə, əlavə müqavilə və protokollara görə, İrəvan şəhərinin ermənilərə verilməsi və İrəvan bölgəsində erməni dövlətinin yaradılması müqabilində erməni tərəfinin öz üzərinə götürdüyü öhdəliklərdən biri o idi ki, erməni silahlı birləşmələri tərəfindən Azərbaycan qəzalarında müsəlmanlara qarşı həyata keçirilən kütləvi qırğınlar dayandırılacaqdır. Eyni zamanda Ermənistan hökuməti Osmanlı-Ermənistan "Sülh və Dostluq" müqaviləsinin 6-cı maddəsi və III əlavəsində öz üzərinə öhdəlik götürmüşdü ki, İrəvanda və yeni yaradılan erməni dövlətinin digər ərazilərində yaşayan müsəlmanların sərbəst dini ibadət, azan oxunması, mədəniyyət, ictimai - siyasi fəaliyyət və ana dilində təhsil almaq hüquqlarını təmin edəcək, müsəlmanlar erməni əhalinin sahib olduğu bütün hüquqlara sahib olacaqlar[167,s.30].

Lakin erməni dövlətinin yaradılmasından sonra Ermənistan hökuməti bu öhdəliklərə əməl etmədi. İrəvan və Gəncə quberniyaları ərazisində türk-müsəlmanlara qarşı soyqırım həyata keçirən erməni silahlı birləşmələrinə rəhbərlik edən Andronik, Dro, Njde və digər canilər indi Ermənistan Respublikası kimi bir hami qazanmış oldular və bu dövrdən etibarən bu respublikanın ərazisini türk-müsəlmanlardan təmizləmək və paralel olaraq bu respublikanın ərazilərini genişləndirmək uğrunda azərbaycanlılara qarşı soyqırım aktlarının yeni mərhələsini həyata keçirməyə başladılar. Osmanlı və Azərbaycan tərəflərinin notalarına verdiyi cavablarda Ermənistan Respublikası türk-müsəlmanlara qarşı soyqırım aktlarına rəhbərlik edən Andronik, Dro, Njde və digərlərinin Ermənistan Respublikasına aidiyyətinin olmadığını bildirsə də, əslində bu canilərin rəhbərlik etdiyi silahlı dəstələrin fəaliyyəti rəsmi İrəvan hökuməti tərəfindən istiqamətlənir və onların ehtiyacları ödənilirdi. Sadəcə Osmanlı dövlətinin mövqeyinin və hərbi mövcudluğunun Cənubi Qafqazda güclü olduğu bu dövrdə (1918-ci ilin yayında) Ermənistan hökuməti verdiyi rəsmi bəyanatlarda adı çəkilən erməni silahlı dəstələrinin İrəvan hökumətinə bağlı olmadıqlarını nümayiş etdirməyə çalışırdı.

Osmanlı dövləti ilə Cənubi Qafqazda yeni yaranan Gürcüstan, Azərbaycan və Ermənistan respublikaları arasında 1918-ci il iyunun 4-də imzalanan Batum müqavilələrinə görə, Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları ilə

yanaşı,İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli (İğdır) qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla, Naxçıvan qəzası Osmanlı dövlətinə keçdi[168,s.183].Batum müqaviləsinə görə Osmanlı dövlətinə keçən ərazilərə türk qoşunlarının daxil olmasına imkan vermək istəməyən erməni silahlı birləşmələrinin müqaviməti uğursuzluğa düçar oldu. Tezliklə türk qoşunları adı keçən ərazilərə daxil oldular. Türk-müsəlman əhali Osmanlı qoşunlarını göydən enmiş bir mələk kimi qarşıladı. Bununla da, İrəvan quberniyasının Aleksandropol, Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının Kəmərli, Uluxanlı, Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsini və Ordubad istisna olmaqla, Naxçıvan qəzasında ermənilərin türk-müsəlmanlara qarşı törətməkdə olduğu qətl və qırğınların qarşısı alınmış oldu. Qaçqınlar öz yürd-yuvalarına qayıtmağa başladılar. Batum müqaviləsinə görə Osmanlı dövlətinə keçən ərazilərə bundan sonrakı dövrdə də erməni silahlı birləşmələri tərəfindən ara-sıra hücumlar təşkil edilsə də, Birinci dünya müharibəsinin sonuna qədər, yəni türk qoşunlarının bu ərazilərdəki mövcudiyyətinin davam etdiyi dövrdə bu ərazilərdə sülh və asayiş təmin edilmiş oldu.

Batum müqaviləsinin şərtlərinə görə Ermənistan Respublikası Cənubi Qafqazda 9 min $km^2$ ərazisi olan bir dövlət oldu. Ermənistan Respublikası Göyçə gölü ilə Osmanlı dövlətinin yeni sərhədləri arasındakı dar dağlıq ərazini əhatə edirdi. Bu ərazilər aşağıdakılar idi: Yeni Bayazit qəzası (Basarkeçər adlanan cənub-şərq qismi istisna olmaqla), İrəvan qəzası (Qəmərli-Gərnibasar, Uluxanlı-Zəngibasar və Vedibasar istisna olmaqla), Eçmiədzin qəzası (Sərdarabad istisna olmaqla) və Aleksandropol qəzası (qəza mərkəzi Aleksandropol istisna olmaqla). Yeni yaradılan Ermənistan Respublikası ərazisində cəmi 321.000 nəfər əhali yaşayırdı ki, onun da 230 mini erməni, 80 mini türk-müsəlman, 11 mini isə digər xalqların nümayəndələri idi[167,s.31].

Ermənistan Respublikası Batum konfransı çərçivəsində onun üçün cızılmış 9 min $km^2$ ərazi ilə yetinmək istəmirdi. 1918-ci ilin mayında keçmiş İrəvan

quberniyasının ərazisində Ararat Respublikasının yaradılması hadisəsini onun ilk baş naziri H.Kaçaznuni belə qiymətləndirirdi: “Biz Ermənistanın sahibləri olmalı idik. Əks halda, onu birdəfəlik itirə bilərdik”[213,s.126]. Buna görə də İrəvan hökuməti erməni dövləti üçün ayrılan ərazinin azlığı ilə barışmayıb, silah gücünə azərbaycanlılara qarşı etnik təmizləmə siyasətini davam etdirməklə yeni-yeni ərazilər ələ keçirməyi hədəfə alan Andranik, Dro, Njde kimi daşnak canilərini silah, maliyyə, insan resursları və digər vasitələrlə dəstəkləyirdi. Əslində İrəvan ətrafında erməni dövlətinin yaradılmasından sonra İrəvan və ətraf bölgələrdə azərbaycanlılara qarşı həyata keçirilməkdə olan soyqırım siyasəti dövlət səviyyəsində davam etdirildi.

1918-ci il iyunun əvvəllərində 8 min əsgər, 4 top, 6 pulemyot və s. ibarət hərbi qüvvə ilə İrəvandan çıxan Andranik qarşısına çıxan türk-müsəlman kəndlərini viran qoya-qoya Göyçə mahalına, oradan Yeni-Bəyazid qəzasından keçərək iyunun 19-da Naxçıvan şəhərinə daxil oldu. Onunla eyni gündə Cənubi Azərbaycandan keçib Culfadan qatarla gələn Osmanlı topçu zabitləri Hüsnü bəy, Helmi bəy və Şükrü bəyin başçılıq etdikləri daha bir türk hərbi qüvvəsinin Naxçıvana daxil olması Andranikin qanlı qırğınlara bilavasitə Naxçıvan şəhərindən başlamaq planının qarşısını aldı.

Andranik Naxçıvan şəhərindən Culfaya doğru hərəkət edərək yol boyu qarşısına çıxan bütün kəndlərin əhalisinə qarşı kütləvi qətl törətməyə başladı. O, eyni zamanda Osmanlı qoşun hissələrinin bölgəyə rahat hərəkət etməsinin qarşısını almaq üçün yol boyu bütün körpü və tunelləri partlatdı, iyunun 21-də iki saatlıq döyüşdən sonra Culfa şəhərini ələ keçirdi. Andranik Culfanı ələ keçirdikdən Bakı Xalq Komissarları Sovetinin sədri S.Şaumyana göndərdiyi 22 iyun 1918-ci il tarixli 577 nömrəli teleqramında öz dəstəsi ilə birgə Mərkəzi Rusiya hökumətinin sərəncamına keçməyə və Bakı Kommunasına yardım göstərməyə hazır olduğunu bildirərək yazırdı: “Culfa mənim əlimdədir, istədiyiniz vaxt onu sizin sərəncamınıza verə bilərəm”. S.Şaumyan “Culfa, xalq rəhbəri Andranikə” sözləri ilə başlayan cavab teleqramında bildirirdi: “Sizin teleqramı aldım. Bütün mətni Moskvaya mərkəzi hökumətə xəbər verdim. Mən şəxsən sizi, həqiqi xalq qəhrəmanını təbrik edirəm. Əgər cənab Kaçaznuni və başqaları sizin kimi olsaydılar, erməni xalqı indi belə çətinliklə yaşamazdı...”[209,s.295]. Buradan da göründüyü kimi, Andranik və

Şaumyan biri daşnak, digəri bolşevik qiyafəsində olsalar da, onların hər ikisi daşnak əqidəsinin daşıyıcısı idilər və eyni məqsədə - erməni xalqının maraqlarını qorumaq, onun üçün dövlət yaratmaq məqsədinə xidmət edirdilər.

1918-ci il iyunun 23-də Andranikin 3 min piyada, 700 süvaridən ibarət qoşunu Xoydan 30 km aralıda yerləşən Evoğlu kəndinə daxil oldu. Urmiya gölünün şimal və şimal-qərb hövzəsində yerləşən Cənubi Azərbaycan kəndlərində kütləvi qırğın - qarətlər törədən Andronikin silahlı dəstələri iyunun 24-də Xoyu bir neçə saatlığa ələ keçirsələr də, həmin gün Osmanlı ordusuna məğlub olub şəhərdən qovuldular. Buradan Naxçıvan istiqamətinə irəliləyən Andronik Araz çayı sahilindəki 4 min nəfər əhalisi olan Yaycı kəndinə girib kəndi yerlə yeksan etdi, 2500 nəfər öldürüldü və Araz çayında boğduruldu. Andronikin Yaycıdan Ordubada yürüşü burada 2 min nəfər dinc sakinin qətlə yetirilməsi və qaçıb qurtarmaq istəyən daha 300 nəfərin Araz çayını keçərkən boğularaq ölməsi ilə nəticələndi[209,s.296]. Bölgənin kəndləri bir-birinin ardınca qətl və qarətlərə məruz qaldı. İyulun 20-də Osmanlı qoşunlarının Naxçıvana daxil olması Naxçıvan qəzası əhalisinin tərksilah olunması haqqında 1918-ci il iyulun 15-də xüsusi əmr verən Andranikin bu ərazini almaq planını pozdu.

Yerli əhalinin ciddi dəstəyi ilə Osmanlı qoşunlarının Andronikin dəstəsini Naxçıvandan qovulub çıxarımasından sonra, o öz qanlı əməllərinin Zəngəzur, Cavanşir, Cəbrayıl və Şuşa qəzalarında davam etdirdi. Bu qəzalardan ən dəhşətli qırğınlar Zəngəzur qəzasında həyata keçirildi. Təkcə 1918-ci ilin yay-payız ayları ərzində Zəngəzur qəzasının 115 kəndi erməni silahlı birləşmələri tərəfindən yerlə yeksan edildi. Nəticədə Zəngəzur qəzasında hər iki cinsdən 10.068 insan öldürüldü və şikəst edildi. Bunlardan 3257-si kişi, 2276-sı qadın və 2196-sı uşaq olmaqla 7729 nəfəri xüsusi amansızlıqla öldürülərək qətlə yetirilmiş, 1060-ı kişi, 794-ü qadın və 485-i uşaq olmaqla 2239 nəfər yaralanaraq şikəst olmuş, qəza əhalisinin 50 min nəfərdən çoxu qaçqın və köçkünə çevrildi, əhalinin əmlakına o dövrün qiymətləri ilə 1 milyard rubldan çox maddi zərər vuruldu[10,v.7-9].

Zəngəzur qəzasının rəisi Məlik Namazəliyevdən Azərbaycan hökumətinə göndərilən 10 yanvar 1919-cu il tarixli teleqramda bildilirdi ki, müttəfiq qoşunlarının komandanı general Tomsonun əmrinə görə mayor Gibbonun başçılıq etdiyi ingilis

missiyası Zəngəzur qəzası ərazisində erməni və müsəlmanlar arasında hər iki tərəfin iştirakı ilə hər cür düşmənçilik fəaliyyətinin dayandırılması və normal həyatın yaradılması haqqında qərar qəbul edilsə də, ermənilər vədlərinə əməl etmədilər. Bu qərarın qəbul edilməsindən dərhal sonra Andranikin dəstəsi başda olmaqla ermənilər 30 azərbaycanlı kəndini dağıtdılar, yandırdılar və əmlaklarını qarət etdilər. Qaçıb canını qurtara bilməyən bütün adamlar cinsindən və yaşından asılı olmayaraq vəhşicəsinə öldürüldülər. Böyük dövlətlərin nümayəndələrinin gözü qarşısında müsəlmanların belə vəhşicəsinə qırılması cəzasız qalır. Ermənilər bütün bunları Andronikin dəstəsinin və Türkiyədən gələn erməni qaçqınlarının üzərinə atırlar[195,s.39-40].

1918-ci il iyulun 15-də Azərbaycan Cümhuriyyəti hökumətinin xarici işlər naziri M.H.Hacınskinin hökumətə təklifinə əsasən F.X.Xoyski hökuməti Avropa müharibəsi başlandığı vaxtdan bütün Cənubi Qafqaz ərazisində müsəlmanlara və onların əmlakına qarşı törədilmiş zorakılıq hallarının təhqiq edilməsi üçün Xarici İşlər Nazirliyi nəzdində Fövqəladə  Təhqiqat Komissiyası yaradılması haqqında qərar qəbul etdi. 1918-ci il avqustun 31-də Nazirlər Şurasının sədri F.X.Xoyski hökumətin 15 iyul tarixli qərarının icra olunması üçün andlı iclasşı Ələkbər bəy Xasməmmədovun sədrliyi ilə 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərarı imzaladı. Fövqəladə Təhqiqat Komissiyasının üzvləri çoxmillətli olmaqla rus, polyak, alman, yəhudi, litva tatarı və azərbaycanlı hüquqşünaslardan ibarət idi. Komissiya fəaliyyət göstərdiyi dövr ərzində - 15 iyul 1918-ci il - 1 noyabr 1919-cu il – Azərbaycanın qəzalarında erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımlarla bağlı 36 cild və 3500 səhifədən ibarət təhqiqat və istintaq materialı toplamışdır. Hansı ki, bu sənədlər əsasında ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı şəkildə soyqırım törətdiyi tam sübuta yetirilir. Təəssüflər olsun ki, İrəvan şəhəri və ətraf ərazilərində erməni dövləti yaradıldığından Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyəti bu əraziləri əhatə edə bilmədi. Bununla belə, ermənilərin və Ermənistan Respublikasının İrəvan bölgəsində türk-müsəlman əhaliyə qarşı planlı şəkildə, dövlət siyasəti səviyyəsində həyata keçirdiyi soyqırım siyasəti və bu cinayətlərin sarsıdıcı

mənzərələrini özündə əks etdirən teleqram, məktub, məruzə və digər sənədlər mövcuddur, bu sənədlər hazırda AzərbaycanTürkiyə arxivlərində qorunur. Bu sənədlər İrəvan bölgəsində törədilən soyqırımların miqyası və dəhşətli mənzərələri ilə bağlı tam təsəvvür yaradır.

Azərbaycan Milli Şurasının 1918-ci il iyunun 13-də keçirilən iclasında İrəvan bölgəsində ermənilər tərəfindən türk-müsəlmanlara qarşı həyata keçirilən qırğınlarla bağlı həmin bölgədən gələn həyəcanlı xəbərlər müzakirə edildi. Şura üzvü İbrahim ağa Vəkilov İrəvan bölgəsində azərbaycanlılara qarşı həyata keçirilən soyqırımlarla bağlı məruzə ilə çıxış etdi. O, qeyd etdi ki, İrəvan bölgəsində 206 azərbaycanlı kəndi (kəndlərin adları sadalanır) erməni təcavüzünə məruz qalmış, bu kəndlərdə yaşayan türk-müsəlmanların bir qismi öldürülmüş, bir qismi də canlarını qurtarmaq üçün meşələrə, dağlara, digər kənd və qəzalara qaçmışlar. Hazırda İrəvan quberniyası ərazisində ac-yalavac dolaşmaqda olan müsəlman qaçqınların sayı 150 min nəfərə çatmışdır. Eyni zamanda, qaçqınlar arasında epidemiya xəstəlikləri yayılmış və hər gün acından ölənlər qeydə alınır. İ.Vəkilovun məruzəsindən sonra Milli Şura üzvləri İrəvan bölgəsində acınacaqlı vəziyyətdə olan müsəlmanlarin işləri ilə bağlı müzakirələr apardılar və sonda qərar qəbul etdilər ki: 1) İrəvan dairəsində qaçqınlara paylamaq üçün tezliklə nümayəndələr vasitəsilə oraya pul vəsaiti göndərilsin; 2) Erməni Milli Şurasından xahiş edilsin ki, imkan daxilində aclıq çəkən müsəlmanlara ərzaq yardımı göstərsin; 3) Türk ordusu komandanlığından xahiş edilsin ki, İrəvan qaçqınlarına ərzaqla yardım etsin və müsəlmanların öz doğma yurd-yuvalarına qayıtmalarına kömək etmək etmək üçün tutarlı göstərişlər versin[7,v.1].

İrəvan bölgəsinin müxtəlif kənd və mahallarının müsəlman nümayəndələri əhalini ermənilərdən qorumaq üçün Osmanlı hərbi - mülki nümayəndələrinə müraciət edərək yardım istəyirdilər. İrəvan bölgəsi müsəlman nümayəndələrinin, Osmanlı dövlətinin İrəvandakı nümayəndəsi Məhəmməd Əli bəyin, Doqquzuncu Ordu komandanı Şövqi bəyin və digər türk mülki - hərbi məmurların Osmanlı siyasilərinə, hərbi komandanlıqlarına göndərdikləri müraciətnamə və raportlarda ermənilərin müsəlmanlara qarşı törətdiyi soyqırım cinayətləri haqqında təfsilatlı məlumat verilir və dönə-dənə vurğulanır ki, bütün bu cinayətlər  Ermənistan hökumətinin gözü

qarşısında baş verir, hökumət bu cinayətlərin qarşısını almaq üçün nəinki tədbir görmür, əksinə bu vəhşilikləri himayə edir.

İrəvan müsəlmanları adından Gümrüyə gələn heyətin üzvlərindən Abdulcabbar Məhəmmədzadə, Məhəmməd Axundzadə, Hacı Xəlilzadə və Məhəmməd Nağının imzası ilə Osmanlı sədrəzəminə göndərilən 12 iyul 1918-ci il tarixli müraciətnamədə ermənilərin və Ermənistan hökumətinin İrəvan bölgəsindəki türk-müsəlmanlara qarşı törətdiyi vəhşiliklər haqqında məlumat verilərək bildirilir ki, rus əsgərləri Qafqaz cəbhə xəttini tərk etdikdən sonra İrəvan bölgəsində idarəni ələ alan ermənilər yarım milyon müsəlmanı qətl etməkdədirlər. Fevralın 18-dən başlayaraq və hal-hazıra qədər bu hücumlar zamanı 300-dən artıq müsəlman kəndi,evləri, məscidləri və əmlakları ilə birgə oda yaxılmış, yüz minlərlə məsum müsəlman uşaqları və zavallı qadınlar ac, çıllpaq şəkildə çöllərə səpələnmişlər. Topların, mitralyözlərin kurşunları altında qaçan qadınların, uşaqların və xəstə ixtiyar sahiblərinin hüququna, heysiyyət və namusuna təcavüz etməkdən çəkinmirlər. Ürək yandıran vəhşiliklər törədən ermənilərdən heç kim cəzalandırılmır. Altı ay içində minlərlə müsəlmanın qanını tökən, müsəlmanların hüququna təcavüz edən ermənilərin bir nəfəri də olsun İrəvan hökuməti tərəfindən məsuliyyətə cəlb edilib cəzalandırılmamışdır[50,v.32-34].

İrəvan müsəlmanlarının bu müraciətini alan Osmanlı sədrəzəmi Mehmed Tələt paşa iyulun 13-dəhəmin bu müraciəti Xarici İşlər Nazirliyinə göndərdi və tapşırıq verdi ki, ermənilərin İrəvan müsəlmanlarına qarşı törətdiyi bu vəhşiliklərin qarşısının alınması üçün təcili lazımi bütün diplomatik tədbirləri görsün və nəticəsini məruzə eləsin[50,v.35].

İrəvan bölgəsində müsəlmanlara qarşı həyata keçirən soyqırımlar Osmanlı hərbi komandanlığında da ciddi narahatlıqla qarşılanır və bu soyqırımların qarşısının alınması üçün yollar aranır, müxtəlif təkliflər irəli sürülürdü. Bu cür təkliflərdən biri Qafqaz cəbhəsindəki Osmanlı 9-cu Ordu komandanlığının Ermənistanda qalan müsəlmanların tamamilə qırılmasının qarşısını almaq üçün onların Osmanlı erməniləri ilə yurd mübadiləsinin həyata keçirilməsi ilə bağlı təklifidir. 9-cu Ordu komandanlığının Şərq Orduları Qrupu Komandan vəkili Əsəd paşa vasitəsilə 1918-ci il iyulun 5-də Hərbiyyə Nazirliyinə göndərdiyi teleqramda Ermənistan Respublikası

ərazisində qalan müsəlmanlara qarşı ermənilər tərəfindən irqi, milli və dini zəmində həyata keçirilən qırğın və talanlardan geniş bəhs olunur, bildirilir ki, bütün bunlar ermənilərin monoetnik dövlət qurmaq arzuları ilə bağlıdır. Belə bir vəziyyətdə artıq ermənilərlə müsəlmanların birgə yaşaması mümkün deyildir. Daha sonra Ermənistanda qalan müsəlmanların Osmanlı ərazilərindəki ermənilərlə mübadilə edilməsi üçün Gümrüdə erməni nümayəndələri ilə aparılan danışıqlar haqqında məlumat verilir və qeyd edilir ki, ermənilər zahirən müsəlmanlarla ermənilərin mübadilə edilməsi təklifinə razı oldular, amma bunu əhalinin arzusu ilə etməyi şərt qoydular. Əgər bu şərt qəbul edilərsə, o zaman Osmanlıdakı ermənilər İrəvan ərazisinə getmək istəməyəcək, amma oradakı müsəlmanlar məhv olmaqdan qurtulmaq üçün Osmanlıya hicrət edəcəklər. Onsuz da müsəlmanlar hicrət etməkdədirlər[50,v.30]. Teleqramın sonunda Ermənistandakı müsəlmanlarla Osmanlı ərazisindəki ermənilərin mübadilə edilməsi məsələsinin İstanbulda toplanacaq konfransda müzakirə edilməsi və yekun bir qərara gəlinməsi xahiş edilir.

Silahlı erməni dəstələri tərəfindən kəndlərinin dağıdılması ilə bağlı İrəvan quberniyasının Yeni Bəyazid qəzasının Əyrivəng, Ağqala, Ağzıbir, Munaq, Rəhmankənd, Bığlı-Hüseyn və Saraclı kəndlərinin müsəlman əhalisinin Qazax qəzasının rəisinə göndərdiyi 24 avqust 1918-ci il tarixli teleqramda adı çəkilən kəndlərdə ermənilərin törətdiyi vəhşiliklər haqqında məlumat verilir və 2 minə qədər azərbaycanlının öldürüldüyü xüsusi qeyd edilir. Teleqramda deyilir: “Bu ilin 15 martından bizim qonşuluğumuzdakı erməni kəndlərinin sakinləri adları çəkilən kəndlərimizin bütün əhalisini talan edib: daşınar əmlakımızı sürüb apardılar, bütün ev əşyalarımızı talan etdilər. Bizi ilk növbədə soyadı məlum olmayan qəza komissarı və Yeni Bəyazid şəhərinin Vaqon Apremovun başçılığı ilə Yeni Bəyazid şəhərinin sakinləri qarət etdilər. Bu soyğun və talanlarda Nərədüz, Qışlaq, Quləli, Paşakənd, Kosaməmməd, Kərimkənd, Başpel, Qozluca, Ördəkli və Dəliqardaş kəndlərinin və Yeni Bəyazid şəhər sakinlərinin böyük hissəsi iştirak edirdi. Yeni Bəyazid qəza komissarı və şəhər rəisi tərəfindən silahlandırılan bu kəndlərin erməni sakinləri bizim kəndlərə basqın edəndə bizim əhali qaçmağa məcbur oldu. Həftələrlə açıq havada qalmağa məcbur olan əhalinin hər iki cinsindən 2 minə yaxın insan həlak oldu. Yeni

Bəyazid şəhərində 27 sakinimiz salamat qaldı. Bizim əhali öz evlərini tərk etdikdən sonra, yuxarıda adları çəkilən erməni kəndlərinin sakinləri bizim evləri dağıdıb tikinti materialları kimi özləri ilə apardılar. Biz acınacaqlı və çıxılmaz vəziyyətdəyik...” [8,v.26-27]. Teleqramın sonunda Qazax qəzasının rəisindən Yeni Bəyazid qəzsının adı çəkilən kəndlərinin acınacaqlı, soyuqdan və aclıqdan məhv olmaqda olan türk-müsəlman əhalisinə yardım göstərilməsi xahiş edilir.

1918-ci ilin yazından etibarən Osmanlı dövlətinin Cənubi Qafqazda fəal hərbi əməliyyatlara başlaması, işğal altında olan Şərqi Anadolu ərazilərinin ardınca Brest-Litovsk sülh müqaviləsi ilə əldə etdiyi Qars, Ərdəhan və Batum vilayətlərini də silah gücünə də olsa, azad etməsi ilə ermənilərin bu ərazilərdəki türk-müsəlman əhalisinə qarşı törətməkdə olduqları soyqırım cinayətlərinin qarşısı alındı. Bunun ardınca Batum müqaviləsinin şərtlərinə uyğun olaraq Osmanlı qoşunlarının Azərbaycana yeridilməsi və Bakının azad edilməsi uğrunda əməliyyatlara başlaması ilə faktiki olaraq ermənilərin Azərbaycanda türk-müsəlman əhalisini tamamilə məhv etmək planının qarşısını aldı. Osmanlı qoşunlarının Azərbaycanda və Cənubi Qafqazın bir sıra digər bölgələrində mövcudluğu dövründə bu ərazilərdə ictimai-siyasi vəziyyət nəzarət altına alınmışdı və bu zaman ermənilər ancaq Osmanlı qoşunlarının nəzarəti altında olmayan İrəvan, Zəngəzur və digər bölgələrdə türk-müsəlman əhalisinə qarşı soyqırım cinayətlərini davam etdirirdilər.

Lakin Osmanlı dövləti Cənubi Qafqazın türk-müsəlmanlar yaşayan bütün ərazilərini hələ nəzarət altına almadan, Birinci dünya müharibəsində məğlub oldu və 1918-ci il oktyabrın 30-da Mudros barışığını imzaladı. Mudros barışığının on birinci maddəsinə görə Osmanlı ordusu tezliklə Cənubi Azərbaycanı və Cənubi Qafqazı tərk etməli; on beşinci maddəyə görə isə, Batum müqaviləsi ilə Türkiyənin nəzarəti altına keçən Cənubi Qafqaz dəmir yolu Müttəfiqlərin nəzarətinə verilir, Müttəfiqlər Batumu tutmaq hüququ alır və nəhayət, Osmanlı dövləti Müttəfiqlər tərəfindən Bakının işğal edilməsinə heç bir etiraz etməməli idi[52,v.21]. Azərbaycanda olan Osmanlı qoşunlarına bir həftədən gec olmayaraq Bakıdan və bir aydan gec olmayaraq Azərbaycandan çıxmaq barədə ultimatum verdilər. Osmanlı qoşunları tezliklə Cənubi Qafqazı tərk etdilər.

Osmanlı qoşunlarının Cənubi Qafqazı tərk etməsi ilə ermənilərin regionda yaranan boşluqdan istifadə edib Osmanlı qoşunlarının boşaltdıqları ərazilərə yiyələnməsinin qarşısını almaq və türk-müsəlman əhalisini erməni hücumlarından qorumaq məqsədilə 1918-ci il noyabrın əvvəllərində Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarını, habelə Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və s. əraziləri əhatə edən, mərkəzi Naxçıvan şəhəri olan Araz-Türk Respublikasını yaratdılar. Araz-Türk Respublikası özünün mövcudluğu dövründə bölgə əhalisini erməni hücumlarından qorumağa maksimum səy göstərdi. Bununla belə, kifayət qədər hərbi gücə malik olmayan bu respublikanın müsəlman əhalisini qorumaq üçün göstərdiyi səylər hər zaman istənilən nəticəni vermirdi, azərbaycanlı əhali ermənilərin dağıdıcı hücumlarına məruz qalırdı.

Osmanlı qoşunlarının Cənubi Qafqazı tərk etməsi ilə ermənilər türk-müsəlmanlara qarşı soyqırım cinayətlərini İrəvan bölgəsi və ətraf ərazilərdə daha geniş miqyasda davam etdirmək üçün əlverişli şərait əldə etdilər və bundan maksimum dərəcədə yararlandılar. Qafqaz cəbhəsindəki Osmanlı 9-cu Ordu komandanı Şövqi paşa Baş Qərargaha göndərdiyi 25 noyabr 1918-ci il tarixli şifrəli teleqramında ermənilərin Qafqazda müsəlman əhaliyə qarşı törətdiyi soyqırım cinayətləri haqqında yazırdı ki, ermənilər Osmanlı ordularının irəli hərəkata başladığı andan Batum müqaviləsinin imzalanmasına qədər qadın və uşaqlara belə rəhm etmədən yaxaladıqları istənilən müsəlmanı qətl edərək bugünkü mövqelərinə çəkildilər. Erməniləri təqib edən Osmanlı orduları müsəlman şəhidlərin cənazələrini və parça-parça edilmiş bədən üzvlərini dəfn edərək gəldilər. Batum müqaviləsindən sonra da ermənilər bu əməllərini davam etdirdilər və hazırda da bu cinayətlər davam edir. Gəncə, İrəvan, Ordubad və İran ərazisində bu qətliamlar davam etməkdədir. Osmanlı dövləti aclıq çəkən Ermənistana taxıl göndərir ,hərtərəfli köməklik edir, ermənilər isə bunun qarşılığında müsəlmanları qətl edir. Ermənistanın dünyaya ermənilərin  qırğınlara məruz qaldığını təbliğ etməyə çalışdığı bu məqamda onların müsəlmanlara qarşı həyata keçirdikləri soyqırım cinayətlərini qarşılarına qoymaq və bunu dünyaya bəyan etmək lazımdır. Bununla paralel olaraq bu biçarə müsəlmanların

həyat və namuslarını erməni təcavüzündən qorumaq üçün lazımi tədbirlər görülməlidir[36,v.3].

9-cu Ordu komandanı Şövqi paşa Başkomandanlıq Vəkalətinə göndərdiyi 27 dekabr 1918-ci il tarixli raportunda ermənilərin müsəlman əhaliyə qarşı törətdiyi soyqırım cinayətləri haqqında yazırdı: “Erməni silahlı birləşmələri İrəvanın cənub-şərqində dəmiryolunun şərqində olan Vedi və Sədərək kəndləri ərazilərinə gələrək müsəlman əhalisini qətl etmişlər və məşhur müsəlmanlardan Dəmir bəy Əlizadə ilə Fəthi Bəyzadə və Bədri bəylər də öldürülənlər sırasındadır. Beş-altı yüzə qədər müsəlman əhalisi Bəyazidə doğru gəlməkdə, ermənilər isə Sədərəkin cənubundakı Xani Hilara doğru müsəlmanların qarşısını kəsmək üçün irəliləməkdədirlər.

Ermənilərdən Babon adlı sərkərdə tabeliyindəki 1200 nəfərlik bir qüvvə ilə 5 dekabr 1918-ci il tarixindən etibarən Naxçıvan ətrafındakı müsəlmanlara qarşı zülümlər yaşatmağa başlayaraq, Naxçıvanın 40 km şimalındakı Almalı adlı kənddə 688 və bu kəndin 12 km şimalındakı qərbi Aqos adlı kənddə 516 nəfəri qətl etmiş, gənc qadınları ayırdıqdan sonra, 2000 nəfəri bir yerə toplayaraq hamısını öldürmüş, ayrıca olaraq 40 qadın və uşağı bir otağa salaraq yandırmışlar. Tanınmış şəxslərdən Seyid Hüseynin ailəsinin namusuna kənd məscidində təcavüz edilmişdir. Bu ərazinin müsəlmanları qorxularından yird-yuvalarını tərk edərək çöllərdə soyuq və aclığa məhkum olmuşlar.

Eçmiədzinin cənubundakı kəndlərin ərzaqları ermənilər tərəfindən qəsb edilmişdir. İrəvanın 10 km cənubunda Hacı İlyas kəndinin ağası iki yaxın qohumu ilə İrəvana gətirilərək burada edam edilmişdir. İrəvanın Təpəbaşı, Hacı Turjeləri və Girbulaq adlı müsəlman məhəllələrinin atəşə tutularaq, yandırıldığı haqda dəqiq məlumatlar alınmışdır...”[37,v.5;39,v.13]. Teleqramın sonunda İrəvan bölgəsindəki müsəlmanlara qarşı erməni təcavüzünün dayandırılması ilə bağlı Ermənistan hökumətinə rəsmi müraciət edildiyi, lakin heç bir nəticəsinin olmadığı vurğulanır və İstanbuldakı Antanta dövlətləri heyətlərinin nəzər-diqqətinin İrəvan müsəlmanlarına qarşı həyata keçirilməkdə olan soyqırım cinayətlərinə yönəldilməsi və onların vasitəsilə bu vəhşətlərə son qoymağa nail olmaq xahiş edilir.

Eyni məzmunlu bir teleqram da Ərzurum vilayəti valiliyindən 25 dekabr 1918-ci il tarixində Osmanlı Daxili İşlər Nazirliyinə göndərilmişdi[41,v.1].

Osmanlı dövləti artıq dünya müharibəsində məğlub olan dövlət olduğundan İstanbul hökuməti İrəvan bölgəsində ermənilərin türk-müsəlmanlara qarşı törətdiyi soyqırım və vəhşiliklərlə bağlı daxil olan məlumatları sadəcə Osmanlı paytaxtındakı Antanta nümayəndəliklərinə bildirməklə kifayətlənirdi, çünki başqa hər hansı bir tədbir görmək imkanında və iqtidarında deyildi. 9-cu Ordu komandanı Şövqi paşanın raportu da hərbi nazir İsmail Cevat paşa tərəfindən Osmanlı Xarici İşlər Nazirliyinə göndərildi ki, bu barədə İstanbuldakı Antanta rəsmilərini məlumatlandırsınlar[38,v.4].

Bu zaman Azərbaycan hökumətiartıq öz hərbi qüvvələri ilə nəzarəti altında olan əraziləri mümkün qədər erməni silahlı dəstələrinin hücumlarından qorumağa çalışır və əsasən buna nail olurdu. Lakin İrəvan bölgəsi Ermənistan Respublikasının nəzarətində olduğundan Azərbaycan hökuməti bu ərazilərdə azərbaycanlılara qarşı törədilən soyqırım aktlarından, baş verən digər hadisə və proseslərdən gec xəbər tuturdu və eyni zamanda bu hadisələrə birbaşa müdaxilə etmək, bunların qarşısını almaq gücündə deyildi. Buna görə də Azərbaycan hökuməti İrəvan bölgəsində azərbaycanlara qarşı törədilən terror, təqib, diskriminasiya və soyqırım cinayətlərinin qarşısını Ermənistan hökumətinə, Müttəfiqlərin bölgədəki nümayəndələrinə müraciət etməklə diplomatik yolla almağa çalışırdı.

1919-cu il yanvarın 7-də Azərbaycan Xarici İşlər Nazirinin müavini Adil xan Ziyadxanov Ermənistan Xarici İşlər Nazirinə nota ilə müraciət edərək qeyd edirdi ki, İrəvan quberniyası ərazisində çoxsaylı erməni silahlı qüvvələri tərəfindən müsəlmanlar hər cür zorakılığa məruz qalır, şəhər və kəndlərdə onlar tərksilah edilir, öldürülür, qarət edilir, zor gücünə onları özlərinə tabe etdirməyə çalışırlar, təkcə ermənilərin təqibindən qurtarmaq üçün Araz çayını keçməyə cəhd edərkən boğulanların sayı 300 nəfərə çatır[142]. Notanın sonunda müsəlmanlara qarşı həyata keçirilən bu soyqırım cinayətlərinin qarşısını almaq təkidlə tələb edilirdi.

Azərbaycan Parlamentinin 1919-cu il yanvarın 8-də keçirilən 7-ci iclasında İrəvan quberniyası müsəlmanlarının ərz-halları dinlənilmişdi. Parlament üzvü

Teymur bəy Makinski, parlament üzvü Məmməd Məhərrəmov, parlament üzvü Əkbərağa Şeyxülislamov, Rəşid bəy İsmayılov, Ə.Makinski, Yusif Tahirov, A.Sultanov və Paşa bəyin imzaladığı 4 yanvar 1919-cu il tarixli ərz-halda deyilirdi: “1917 sənəsi dekabrdan 1918 sənəsi iyuna qədər İrəvan quberniyası dairəsində erməni qoşunları tərəfindən iki yüzdən ziyadə müsəlman kəndləri atəşə tutulub tar-mar olub, bunların əhalisi isə qismən qətl, qismən də dağlara qaçıb buralarda soyuq və aclıqdan tələf olmuşlar. İrəvan quberniyasının müsəlmanlar ilə tamamən məskun qəzaları ki, ibarət ola bütün Sürməlidən, İrəvan, Eçmiyədzin, Şərur və Naxçıvan qəzalarının bəzi hissələrindən Osmanlı ordusu tərəfindən işğal olunduqdan sonra buralarda yaşayan ermənilər yeni təşkil olunmuş Erməni Cumhuriyyətinin dairəsinə hicrət etmişlər. Digər tərəfdən osmanlılar işğal etdikləri mahallarda da 100 minə qədər müsəlmanı İrəvan quberniyasının başqa yerlərindən köçmüşlər. Bunları da hicrətə 80 ziyadə müsəlman kəndlərini atəşə tutub talan edən ermənilər məcbur etmişlər. Bu minval ilə burasında sırf müsəlmanlar ilə məskun 500 min əhali havi bir məhəl törəmiş, müstəqil bir hala düşdükdən sonra da bu müsəlmanlar burada kəndlilərinə bir hökumət təşkil etməyə də müvəffəq olmuşlar isə də kəndilərinin həmişə Azərbaycanın ayrılmaz bir parçası ədd edilmək ilə bərabər və bunu ancaq arzu edirlər ki, gələcəkləri və taleləri ümum sülh konfransında həll olancaya qədər təhti-asayişdə yaşamalarına mane olmasınlar. Əlyom erməni qoşunları Sürməli qəzasını təmamən, İrəvan, Şərur və Eçmiyədzin qəzalarının müsəlmanlar ilə məskun mahalını işğal edib Naxçıvan tərəfə yürüş etməkdədirlər. Yürüşlərdə bərabər yerli müsəlmanları qismən kəsib, qismən köylərindən çıxarıb İrana hicrət etmək məcburiyyətinə salırlar. Belə suirəftardan müsəlmanların təmanən tələf və məhv olması şübhə xaricində müsəddiq bir şeydir. Məcburiyyət ilə müsəlmanlardan təmizlənmiş mahallara Osmanlı Ermənistanından zar etmiş erməniləri köçürürlər. İrəvan quberniyasının bəzi mahallarının təmamilə müsəlmanlar ilə məskun olduğu bu mahalların tarixən və başqa şərait üzrə Azərbaycanın ayrılmaz hissəsi ədd olunmasını nəzərə alıb və məcburən bu mahalları müsəlmanlardan təmizləyib onların yerinə erməni mühacirlərinin oturmağı xilaf və ziddi-qanun hesab edərək bu mahallar məsələsini qəti surətdə həllini sülh konfransına buraxaraq bu imzaları zilrdə mündəric

İrəvan müsəlmanları nümayəndələri cənabi rəisi zati alilərinizdən İrəvan müsəlmanları mövcudinin mühafizəsi üçün lazım gələn tədabir ittixaz etmənizi rica ediriz"[139,s.153-154].

İrəvan müsəlmanlarının ərz-halı dinlənildikdən sonra Müsavat fraksiyası adından çıxış edən Məhəmməd Əmin Rəsulzadə bildirdi ki, burada yenə bir imdad naləsi eşidirik. Təbii millətdaş, dindaş və irqdaşımız olan İrəvan quberniyası müsəlmanlarının bunca müsibətinə millət mənafeyi naminə təhəmmül edən qardaşlarımızın çəkdikləri bəlalara biz biganə qala bilmərik. Onlar ümummillət mənafeyi yolunda bunca əzab və cəfalar çəkirlər. Binaən-ileyh millət dəxi onları müdafiə etməlidir. Azərbaycan hökuməti onlara feylən müavinət göstərə bilməz, lakin mənəvi, siyasi və bəlkə də qismən maddi yardım edə bilər. Binaən-ileyh Azərbaycan hökuməti məsələnin sülh konfransı tərəfindən həllinə və Qafqaziya millətləri bir yerə yığışıb ixtilafi bitirməsinədək millətdaşımızın və irqdaşımızın düçar olduqları ələmlərini yüngülləşdirməlidir"[139,s.155-156]. M.Ə.Rəsulzadənin təklifi səsə qoyularaq qəbul edildi.

Ümumiyyətlə, Azərbaycan Parlamenti özünün mövcudluğunun sonuna qədər daim İrəvan bəlgəsindəki müsəlmanların vəziyyətini diqqətdə saxlamışdı. Parlamentin 8 yanvar 1919-cu il tarixli 7-ci iclasından başqa, 1919-cu il yanvarın 25-də keçirilən 9-cu, aprelin 14-də keçirilən 29-cu, iyulun 7-də keçirilən 52-ci, iyulun 5-də keçirilən 53-cü, iyulun 17-də keçirilən 56-cı, iyulun 21-də keçirilən 57-ci, oktyabrın 30-da keçirilən 90-cı, 1920-ci il yanvarın 8-də keçirilən 115-ci, martın 9-da keçirilən 132-ci iclaslarında da İrəvan bölgəsindəki türk-müsəlman əhalinin vəziyyəti, İrəvan qaçqınlarına ərzaq, maliyyə və s. yardımının göstərilməsi və onların öz yurd-yuvalarına qaytarılması kimi məsələlər müzakirə olunmuş, hökumətə ermənilərin İrəvan bölgəsində türk-müsəlman əhaliyə qarşı törətməkdə olduğu soyqırım əməllərinin qarşısını almağa səy göstərməsi üçün müvafiq təkliflər verilmiş, bəyanatlar qəbul etmiş və İrəvan müsəlmanlarına maddi yardımların göndərilməsi ilə bağlı qərarlar qəbul etmişdi"[139;140].

İrəvan müsəlmanlarının nümayəndələri adından Mir Hidayət Seyidov tərəfindən Azərbaycan hökumətinə ünvanlanan 14 yanvar 1919-cu il tarixli

müraciətdə ermənilərin və Ermənistan hökumətinin İrəvan bölgəsindəki azərbaycanlılara qarşı həyata keçirməkdə olduğu soyqırım siyasətinin arxasında dayanan mətləblərə aydınlıq gətirilir. Müraciətdə qeyd edilir ki, Ermənistan hökuməti İrəvan qubberniyası ərazisində müsəlmanları düşünülmüş şəkildə soyqırıma məruz qoyur, silah gücünə erməni qaçqınlarını müsəlmanların məskun olduqları ərazilərdə məskunlaşdırır, məqsəd də ondan ibarətdir ki, mümkün qədər müsəlmanları məhv edərək bütün qəzalardan onları tamalilə təmizləsinlər ki, Paris konfransında həmin ərazilərin ermənilərə məxsus olduğunu sübut edə bilsinlər.

Bu faktı Osmanlı mənbələri də təsdiqləyir. Məsələn, 1919-cu il iyulun 30-da İrəvandan Osmanlı hökumətinə göndərilən bir sənəddə qeyd olunur: "Ermənistan hökuməti 14 iyul 1919-cu il tarixdə Zəngibasar mahalının 18 müsəlman kəndinin əhalisinə ultimatum verərək, iki ay müddətində kəndlərini tərk edib istədikləri yerlərə mühacirət etmələrini tələb etmiş və bu müddət ərzində kəndləri tərk etməyənlərə təcavüz edliləcəyini bildirmişdir"[62,v.1].

İrəvan quberniyasının müsəlmanlar idarəsinin sədri T.Makinski Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədrinə ünvanladığı 18 yanvar 1919-cu il tarixli müraciətinə bildirirdi: "Məlum olduğu kimi, ötən ilin yayında türk hərbi birləşmələri İrəvan quberniyasının bir hissəsini, xüsusilə də müsəlman əhalisinin yaşadığı Sürməli və Şərur qəzalarını, həmçinin Eçmiədzin, İrəvan və Naxçıvan qəzalarını tutdular. Bu sonuncu qəzalarda müsəlman əhalisi çoxluq təşkil edirdi. Ermənistan Respublikası hökuməti türklərdən təmizlənmiş göstərilən ərazilərə heç bir əsas olmadan öz əraziləri kimi baxır. Ermənistan orduları müsəlmanların kütləvi şəkildə yaşadığı bütün Sürməli, Eçmiədzin və İrəvan qəzalarını tutdular, Şərur və Naxçıvan qəzalarını isə tutmaq niyyətindədirlər. Bunun üçün həmin ərazilərə ordu göndərirlər və əldə etdiyimiz məlumatlara görə göstərilən yerlərdə erməni orduları ilə müsəlman əhalisi arasında hərbi toqquşmalar baş verir"[129,s.44].

Erməni hücumları qarşısında köməksiz vəziyyətdə qalan, hər gün yeni qətl, qarət və soyqırım aktları ilə üzləşən İrəvan bölgəsinin müsəlmanları gah Azərbaycan hökumətinə, gah da Osmanlı dövlətinə müraciətlər ünvanlayaraq imdad umurdular. 1919-cu il yanvarın 18-də İrəvan bölgəsi müsəlmanlarının nümayəndələri yenidən

Qafqaz cəbhəsindəki 9-cu Osmanlı Ordu komandanlığına müraciət edərək ermənilərin törətdiyi vəhşiliklər barədə məlumat verir və yardım istədilər. Müraciətdə deyilirdi: “... Ermənilər külli miqdarda qüvvə, top, tüfənglə üzərimizə hücum edib, Gərnibasar kəndlərindəki yerli əhali və qaçqınları qətl - qarət etdilər. Ən əvvəl zəngin olan müsəlmanları, daha sonra isə məşhur və məharətli müsəlmanları seçib bir çox rəzalətlə qətl etdilər. Müsəlman əhalinin əksəriyyəti öz ailələrini götürüb canlarını qorumaq üçün başqa müsəlman kəndlərinə və ya çöllərə qaçdılar, nəticədə bir çox uşaqlar aclıq, soyuq və səfalətdən tələf oldular. Ermənilər öz vəhşi hərəkətlərini davam etdirərək Şərur nahiyyəsi üzərinə hərəkət edib, Sədərək kəndini tamamilə yağma və qarət etdilər, bir neçə məharətli kişiləri atəşlə qətlə yetirdilər, əsir edib apardıqları 40 nəfər kişini harada olduğu və taleyi məlum deyildir. Daha sonra bütün Şərur kəndlərini bir-birinin ardınca yağmalayıb, yandırıb İrəvan şəhərinə daşıdılar. Daha sonra Naxçıvan nahiyyəsinə hücum etmək istədikdə müqavimətə rast gəlib geri döndülər və dağ kəndlərində məskun olan müsəlmanlar üzərinə yürüdülər. Bu dəfə Şihablı, Kəmərli, Karahaç, Kerkab, Dehnar, Qarabağlar, Akasbəyli, Keşişdağ adlı 8 kənd hədəf seçildi, hansı ki, erməni hücumuna məruz qalan başqa 30 müsəlman kəndinin əhalisi də bu kəndlərdə məskunlaşmışdı. Bu 8 kəndin əhalisi və eyni zamanda bu kəndlərdə məskunlaşan digər 30 kəndin əhalisi güllələbaran edildi, körpə uşaqlar süngüyə keçirildi, ixtiyar sahibi qarılar və qocalara belə aman verilməyərək hamısı qətl edildi. Cavan qızları özləri ilə götürərək apardılar. Hazırda Xaçınkənd və Böyükvedi kəndlərini mühasirəyə alıblar...”[56,v.1-2]. Ümumilikdə 33 nəfərin imzaladığı bu müraciətnamənin sonunda imdad çağırışları edilir və qeyd edilir ki, indiyə qədər bizim yazdığımız, göndərdiyimiz fəryadnamələr Osmanlı dövlətinə çatmadımı? Ümidimiz yalnız Osmanlı dövlətinin mərhəmətinə qalmışdır. Əgər tezliklə bizə imdad olunmazsa tamamilə məhv olarıq. Müraciətnamənin sonunda o da qeyd edilir ki, ermənilırin müsəlmanlara qarşı törətdikləri vəhşiliklər yazmaqla bitməz, bunun üçün də baş verənləri şifahi şəkildə ərz ermək üçün Kiçikvedi əhlindən Hacı Əhməd, İşçilər əhlindən Məşədi Fərəc, Böyükvedi əhlindən İbrahim, Alməmməd əhlindən Mir Cəfər, Xaçınkənd əhlindən Rahim və Xaçınlı əhlindən İsgəndər olmaqla 6 nəfəri hüzurunuza göndəririk... [56,v.1-2].

Bəhs edilən dövrdə İrəvan, Zəngəzur və ətraf ərazilərdəki bütün müsəlman kəndlərinə hücum edib əhalini soyqırıma məruz qoyan ermənilər beynəlxalq aləmə, xüsusilə də Müttəfiq ölkələrin rəhbərlərinə və bölgədəki nümayəndəliklərinə tərtib etdikləri saxta arayış və məlumatları təqdim edərək guya bu ərazilərdə ermənilərin müsəlmanların hücumlarından əziyyət çəkdiyini, qətl - qarətlərə məruz qaldıqlarını sübut etməyə çalışırdılar. Bunun üçün də Azərbaycan hökuməti saxta erməni təbliğatının qarşısını almaq və beynəlxal ictimaiyyəti düzgün məlumatlandırmaq üçün bəhs edilən dövrdə ermənilər tərəfindən müsəlman əhaliyə qarşı törədilmiş soyqırım cinayətlərinin araşdırılması üçün xüsusi komissiya yaratdı və eyni zamanda İrəvan bölgəsindəki erməni vəhşilikləri ilə bağlı məlumatları toplamağa çalışdı. Azərbaycan Cümhuriyyətinin xarici işlər nazirinin müavini Adil xan Ziyadxanov tərəfindən 1919-cu il iyunun 4-də Ermənistandakı diplomatik nümayəndə Məmməd xan Təkinskiyə göndərilən şifrəli teleqramda İrəvan quberniyası ərazisində ermənilərin müsəlman əhaliyə qarşı törətdiyi soyqırım cinayətlərini araşdırmaq üçün xüsusi parlament komissiyasının yaradılacağı bildirilir və təlimat verilirdi ki, İrəvan quberniyasında dağıdılan müsəlman kəndlərinin nümayəndələrinin köməyi ilə müsəlmanların əhali itkisi, mülkiyyətinə dəyən ziyan, adı və soyadı, yaşı və yaşayış yeri, cinsi göstərilməklə öldürülən şəxslər, əsir götürülmüş adamlar haqqında məxfi şəkildə statistik məlumatlar toplayıb Xarici İşlər Nazirliyinə göndərsin...[7,v.49].

Bu təlimata uyğun olaraq, M.X.Təkinskinin yardımı ilə İrəvan Müsəlman Milli Şurası təcili şəkildə İrəvan quberniyasında yaşayan azərbaycanlıların dözülməz vəziyyəti haqqında Amerika və Avropanın böyük dövlətlərinə təqdim etmək üçün məlumat hazırlayıb Azərbaycan Xarici İşlər Nazirliyinə göndərdi. Məlumatda deyilirdi: “Silahlı və qarətçi erməni dəstələri şəhərlərdə, qəzalarda, kəndlərdə, hətta Ermənistan dövlətinin paytaxtı İrəvanda da ac qurdlar kimi müsəlmanlara hücum çəkirlər, hər gün gecə vaxtı üç- dörd müsəlman kəndi basqınlara, qarətlərə və qətllərə məruz qalır. Bu nəhayətsiz zorakılıq şəraitində yaşaya bilməyən müsəlmanlar hər gün öz əmlakını atıb, abad yurd-yuvalarını tərk edirlər; hara baxırsan, minlərlə yetim və dul qadın, müflisləşmiş və köməksiz kişiləri görürsən. Minlərlə müsəlman kəndlisini hökumət öz doğma kəndlərinə buraxmır, hüquqsuz, ev-eşiksiz, ac-yalavac və çıl-

çılpaq insanlar miskin həyat sürür, xəstəliklərə tutulur, köməksiz və himayəsiz küçələrdə ölür, məhv olurlar. Əgər belə vəziyyət davam edərsə, Ermənistanda yaşayan müsəlmanlar labüd məhvə məhkumdurlar”[213,s.131].

Ermənilərin və Ermənistan hökumətinin türk-müsəlman əhaliyə qarşı həyata keçirdiyi soyqırım və vəhşiliklərlə bağlı İrəvan quberniyasının Yeni Bəyazid qəzasının 26 müsəlman əhalisinin 2 aprel 1919-cu il tarixli müraciətində 1918-ci ilin yazından etibarən həmin bölgədə baş verənlər haqqında məlumat verilir və daha sonra bildirilir ki: “...Ermənilər İrəvan quberniyasında qalmış müsəlmanların qalan hissəsini də sıxışdırıb çıxarmaq məqsədilə sakinlərin bütün var-dövlətini, çörəyini və məişət əşyalarını talayır, mal-qarasını əllərindən alırlar. İrəvan quberniyasında 270 müsəlman kəndi dağıdılmışdır. Yuxarıda qeyd olunan vəziyyəti diqqətinizə çatdıraraq bildirmək istəyirik ki, hal-hazırda respublikanın (Ermənistan Respublikası – İ.K.) hər tərəfindən bura erməni ordu hissələri gəlir. Bizi üzük qaşı kimi mühasirə edərək müsəlman aləmindən ayırırlar ki, həyatımızı xilas etmək şansımız olmasın və əlimizdə olan bütün hər şeyi talan edə bilsinlər. Artıq Basarkeçərdə çoxsaylı erməni quldur dəstələri cəmləşib. Burada müsəlmanlar üçün ölüm tələsi hazırlanır. Bizim üçün son dərəcə ağır olan bu anda müsəlman qardaşlarımıza müraciət edərək bizə bu qeyri-bərabər döyüşdə kömək etməyə çağırırıq. Müsəlman qardaşlarımız, son dəfə sizə müraciət edirik. Bizim çıxılmaz vəziyyətimizi nəzərə alın və bacardığınız qədər kömək edin. İrəvan quberniyasında qalmış 60 min müsəlman əhalisinin tiranlar, şovinistlər və daşnaklar tərəfindən qırılmasına imkan verməyin. Vaxtında çatmağa tələsin, vəziyyət dəhşətlidir, məhv oluruq və kömək gözləyirik...”[129,s.68]. Sənədin sonunda qeyd edilir ki, bu çağırış Gəncə qəzasının 5 dairəsinin pristavına müsəlman əhalisinin xəbərdar edilməsi və Azərbaycan hökumətinin məlumatlandırılması üçün təqdim olunur. Göyçə mahalının əhalisi xahiş edir ki, sənədin surətləri Gəncə qəzasının başçısına və qubernatoruna göndərilsin.

Lakin Yeni Bəyazid qəzasının müsəlman kəndlərinin əhalisinin bu müraciətinə lazımi real kömək gəlmədi. Azərbaycan hökumətinin Yeni Bəyazid qəzasının müsəlman əhalisini Ermənistan hökumətinin hücumlarından və soyqırım siyasətindən qorumaq üçün göstərdiyi diplomatik təşəbbüs də heç bir nəticə vermədi. Çünki

Ermənistan hökumətinin yürütdüyü siyasətin mahiyyəti və məramı bu bölgələri azərbaycanlılardan təmizləyib boşaltmaq idi. Nəticədə Yeni Bəyazid qəzasının müsəlman kəndləri tamamilə dağıdıldı, talan edildi, əhalisi isə soyqırıma məruz qaldı. Bunu Yeni Bəyazid qəzasının Göyçə mahalının 5-ci sahəsinin səlahiyyətli nümayəndəsi İsmayıl Sultanovun 1919-cu ilin may ayında Gəncə qəza rəisinin adına göndərdiyi məlumat da təsdiq edir. Məlumatda deyilirdi: "Ararat Respublikası qoşunlarının Yeni Bəyazid qəzasının Göyçə rayonunun dinc müsəlman kəndləri üzərinə (yeni – İ.K.) hücumları başlamışdır. Hal-hazırda 60 min əhalisi olan 22 kənd dağıdılmış, yandırılmış və boşaldılmışdır. Ermənilərin və erməni hökumətinin keçmiş qonşularına, müsəlman təbəələrinə qarşı törətdikləri qeyri-insani qanlı əməlləri görəndə insanı dəhşət bürüyür. Ermənilər xahişlərə, yalvarışlara və müsəlman əhalisinin ah-nalələrinə məhəl qoymurlar. Erməni döyüşçüləri əllərinə düşən müsəlmanları sağ buraxmırlar, görünməmiş işgəncələr verir, qadınları, uşaqları, qocaları və gəncləri öldürürlər. Yalnız az sayda qadın və yeniyetmə qızlar istisnalıq təşkil edir... Sağ qalan qaçqınlar qoşun tərəfindən təqib olunur..., dərələrdə və qarlı zirvələrdə gizlənir..., qar içində batır və kütləvi surətdə qırılırlar. Ararat Respublikası vəzifəsini başa vurmuşdur. Göyçə rayonunda daha müsəlman qalmayıb. Bu günə kimi Yeni Bəyazid qəzasında 84 müsəlman kəndi məhv edilmişdir"[143;213,s.132].

1919-cu ilin yayında və payızında İrəvan bölgəsinin türk-müsəlman kəndləri üzərinə ermənilərin yeni sistemli hücum dalğası həyata keçirildi. İrəvan qəzası ilə paralel olaraq Yeni Bəyazid, Sürməli, Eçmiədzin, həmçinin Zəngəzur və digər ərazilərdə azərbaycanlılar yaşayan kəndlər yenidən dağıdıldı, əhalisi soyqırıma məruz qaldı və ya öz yurd-yuvalarını tərk edərək qaçqına çevrildi. Bu hücumlarla bağlı Başbakanlıq Osmanlı arxivinin Daxiliyyə Nəzarəti fondunda saxlanılan 1919-cu il avqust tarixli bir sənəddə qeyd edilir ki, İrəvan hökuməti və Erməni Daşnak Cəmiyyətinin İrəvan və Araz bölgələrində, Elviye-i Səlasədə bir tək müsəlmanın belə sağ buraxılmamasına qərar vermiş olduğu onların bu bölgələrdə türk-müsəlmanlara qarşı həyata keçirdikləri soyqırım cinayətlərinin miqyasından aydın şəkildə görünür. Ermənistan hökumətinin silahlı qüvvələrinin müsəlmanlara qarşı qətl və qırğınlarda geniş miqyasda iştirak etməsi səbəbiylə Kars, Sarıqamış, İğdır, İrəvan və Araz çayı

bölgələrində müsəlmanlara qarşı həyata keçirilən soyqırım son dərəcəyə çatmışdır. Qadınlara işgəncələr verilir, namuslarına təcavüz edilir. Əsir alınan müsəlman qadınlar çılpaq və lüt-üryan bir şəkildə yollarla aparılır[42,v.3-4;55,v.227]. Sənəddə daha sonra müsəlman əhaliyə qarşı təkcə avqust ayında həyata keçirilən soyqırım cinayətlərinin xronikası qeyd edilir: "1919-cu il 11 avqust: Kağızmana hücum olunmuşdur; 12 avqust: Tavusgölü, Yuxarı Qatırlı və ətrafındakı müsəlman kəndlərinə təcavüz edilmiş, qətliam törədilmişdir; 18 avqust: Kağızman əhalisini top və makinəli tüfənglərlə qətlə yetirməyə başlamışlar və digər məntəqələrdə də eyni zülümlər həyata keçirilmişdir; 19 avqust: Müsəlman kəndləri bir təyyarə tərəfindən bombardman edilmişdir; 20 avqust: Şitagen kəndinin şərqindəki tarlalarda əkin biçməkdə olan əhaliyə top və makinəli tüfənglərdən atəş açılmışdır..."[42,v.3-4;55,v.227].

Qafqaz cəbhəsindəki Osmanlı 15-ci Kolordusundan Ərzurumda olan ingilis nümayəndəsi və Ravilsona, Trabzondakı fransız nümayəndəsinə göndərilən 16 iyul 1919-cu il tarixli teleqramda da "İrəvan və Araz hövzəsində bir tək müsəlman qalmayıncaya qədər müsəlmanların məhvinə davam edəcəkləri və komandanlıqdan belə bir əmr aldıqlarını" bəyan edən ermənilərin adı çəkilən bölgələrdə törətdiyi son vəhşiliklər haqqında məlumat verilir və qeyd edilir ki, Naxçıvan və Şərur bölgəsində ermənilər 45 kəndə təcavüz etmiş, dəmiryol xəttinə yaxın müsəlman kəndlərini zirehli vaqonlardan atəşə tutmuşlar. Böyükvedi kəndinə iki alay ilə hücum edən ermənilər kəndin əhalisinin çoxunu qətlə yetirmişlər" [61,v.2-3].

Sənədlərdə qeyd edilir ki, Eçmiədzin qəzsında bir azərbaycanlı kəndi belə salamat qalmamışdır. Yeni Bəyazid qəzası azərbaycanlılardan tamamilə təmizlənmişdir. Ermənistandakı müsəlman əhalisinin iqtisadi vəziyyəti ilə bağlı Azərbaycan Cümhuriyyəti Himayədarlıq Nazirliyinin səlahiyyətli nümayəndəsi Teymur xan Makinskinin nazirliyə təqdim etdiyi 2 sentyabr 1919-cu il tarixli məruzədə bütün bunlar barədə məlumat verilərək qeyd edilirdi ki: "...Son günlərin hadisələri müsəlmanların vəziyyətini faciəli hala saldı. İrəvan, Yeni Bəyazid, Eçmiədzin qəzalarından 150.000-dək müsəlman mühacirət etdi. Hazırda Ermənistanın sərhədlərində müsəlmanların sayı az qalıb, lakin bu az say da talanların

və qorxu təzyiqi altında gündən-günə azalır. Artıq Yeni Bəyazid qəzasında müsəlman qalmayıb. Ermənistan hökumətinin nəzarətində olan İrəvan qəzasının bölgələrində olan müsəlmanların sayı 25 min nəfərdən çox deyil, eyni ilə Eçmiədzin qəzasında (25 min nəfərdən çox deyil), Sürməli qəzasında isə 15 mindir. Aleksandropol qəzasında isə müsəlmanların sayı həmişə az olub. Beləliklə, İrəvan quberniyasında müsəlmanların sayı azı 70.000 - ən çoxu 80.000 təşkil edir...”[9;129,v.193-196;342, c.69-70]. Himayədarlıq Nazirliyinin məlumatına görə, 1919-cu ilin sonunda təkcə Yeni Bəyazid, Eçmiədzin və İrəvan qəzaları üzrə qaçqınların sayı 200 min nəfərə çatmışdı[342,c.71].

Azərbaycan Cümhuriyyətinin Parlamentinin 1920-ci il yanvarın 5-də keçirilən iclasında İrəvan bölgəsinin azərbaycanlı əhalisinin vəziyyəti ilə bağlı çıxış edən Mustafa Vəkilov Ermənistandan Azərbaycana 300 min qaçqının gəldiyini qeyd etmiş və diqqəti onların aclıq, xəstəlik və səfilliklə müşaiyət olunan acınacaqlı durumuna yönəldərək lazımi təcili tədbirlərin görülməsini tələb etmişdi[140,s.523].

T.Makinskinin 11 noyabr 1919-cu ildə Himayəçilik Nazirliyinə göndərdiyi məruzəsində Ermənistanda türk-müsəlman əhaliyə qarşı dövlət səviyyəsində həyata keçirilən soyqırım siyasətininin ümumi nəticələrindən söz açılır və qeyd edilir ki: “1918-ci ilin fevralından davam edən qırğınlar nəticəsində 500 min əhali dilənçi vəziyyətinə düşüb. (Naxçıvan qəzasından, Şərur məntəqəsindən, Sürməli məntəqəsinin 2-3-cü polis sahələrindən və Zəngibasar rayonundan başqa). Həmin ərazilərdə müsəlman əhali hər şeyini itirib. Dağıntıya məruz qoyulan rayonlarda əhali 200 min nəfərdən artıqdır. Onlar xəstəlikdən və aclıqdan məhv olurlar, dəfələrlə talanlara və qırğınlara məruz qalıblar. Bu kateqoriyaya İrəvan şəhərinin müsəlmanları, Zəngibasarın Göykümbət, Arbat, Ağcaqışlaq və Çarbax kəndləri aiddir. Qəti demək olar ki, ölənlərin sayı 100-120 min nəfərdir. 50 min nəfər Azərbaycana qaçqın kimi gəlib. Təqribən bir o qədər İrəvanda, Zəngibasar rayonunda, Sürməli qəzasının 2 məntəqəsində və Eçmiədzində yaşayırlar. Qalan qaçqınlar Naxçıvan qəzasına, Şərur məntəqəsinə, Sürməli qəzasının 3-cü sahəsinə və Qars vilayətinin Kağızman dairəsinə sığınıblar. Bəziləri Maku xanlığına və Türkiyə ərazisinə köçüblər. İndiki məqamda 50 min nəfərə ərzaq yardımı (un, taxıl və çörək

şəklində) göstərilməlidir. İrəvan şəhərində aclıq keçirən əhalinin sayı 8 min nəfərdir"[206].

İrəvan bölgəsində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi dəhşətli soyqırım aktları ilə bağlı məlumatlar həmin dövrdə Cənubi Qafqazdakı Böyük Britaniya missiyası təmsilçilərini raportlarında da əks olunmuşdur. Bu raportlarda qeyd edilir ki, erməni silahlı qüvvələri heç bir iyrənc əməldən çəkinmir və Yelizavetpol və İrəvan quberniyalarının dinc azərbaycanlı əhalisinin məhv edilməsi üçün ən əcaib üsullardan istifadə edirdilər. Cənubi Qafqazdakı Böyük Britaniya ali komissarı Oliver Uordropun öz hökumətinə göndərdiyi məlumatlar bu cür faktlarla zəngindir. Onun öz hökumətinə göndərdiyi 1919-cu il oktyabrın 2-də Londona göndərdiyi raportunda deyilirdi: "Bu yaxınlarda ermənilər Yeni Bəyazid, Aleksandropol və İrəvan bölgələrində 60 müsəlman kəndini dağıtmışlar"[158,s.144].

Britaniya kitabxanasının arxiv sənədlərindən məlum olur ki, bəhs edilən dövrdə İrəvan quberniyası ərazisində ermənilərin türk-müsəlmanlara qarşı həyata keçirdiyi vəhşiliklər və dinc müsəlman əhalisinin məhv edilməsi İran hökumətinin də narazılığına səbəb olmuş və şahzadə Əla-üs-Səltənə ermənilərin törətdiyi vəhşiliklərlə bağlı Qacar hökumətinin Britaniya komandanlığına rəsmi etirazını bildirmişdi. İrandakı ingilis diplomatik nümayəndəsi general Persi Koks Böyük Britaniyanın xarici işlər naziri Lord Corc Kerzona göndərdiyi məlumatında yazırdı: "Mən İran hökumətindən aldığım və erməniləri İrəvanda, Naxçıvanda və Qarsda müsəlmanlara qarşı vəhşiliklər törətməkdə ittiham edən memorandumun tərcüməsini əlavə etməyi və bu iğtişaşlara son verməsi üçün müttəfiq hökumətlərin üzərinə məsuliyyət qoymağı özümə şərəf bilirəm". İranın Xarici İşlər Nazirliyinin 1919-cu il oktyabrın 21-də Böyük Britaniyanın diplomatik missiyasına göndərdiyi məlumatda göstərilirdi: "Şübhə yoxdur ki, Britaniyanın diplomatik missiyasının İrəvanda, Naxçıvanda, Qarsda və Ermənistanın bütün sərhədi boyunca bu yaxınlarda baş verən hadisələr, ermənilərin bu bölgələrin müsəlman əhalisinə qarşı törətdiyi vəhşiliklər, kütləvi qətllər və qarətlər haqqında məlumatı var. Xarici İşlər Nazirliyi belə bir məlumat da almışdır ki, ermənilər həmin bölgələrdə milliyyəyindən asılı olmayaraq bütün müsəlmanlara qarşı zorakılıq əməlini törətmək fürsətinin birini də əldən

verməmişdir. Müsəlman ailələri məhv edilmiş, heç bir günahı olmayan kişilər və uşaqlar öldürülmüş, qadınlar cinsi təcavüzə məruz qalmış, onların bütün əmlakı qarət edilmişdir. Ermənilər əsla təhrik etməyən bir çox kəndin əhalisi məhv edilmişdir... Xarici İşlər Nazirliyi ... xahiş edir ki, ermənilərin bu cinayətkar əməllərinin qarşısının alınması və müqəssirlərin cəzalandırılması üçün tədbirlər görəsiniz"[158,s.141-142].

Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirliyinin fondunda saxlanılan xüsusi bir siyahı-sənəddə təkcə 1919-cu ilin son iki ayı ərzində ermənilər tərəfindən Eçmiədzin qəzasında 62, Sürməli qəzasında isə 34 kəndin məhv edildiyi göstərilir. Sənəddə dağıdılan, məhv edilən və əhalisi soyqırıma məruz qalan kəndlərin adları da qeyd olunmuşdur[1,v.47-48].Sənəddə Sürməli qəzasının kəndlərinin adları verildikdən sonra üçüncü punkt kimi İrəvan qəzası göstərilir və burada dağıdılmış kənd adları bir-bir sadalanmır, sadəcə qeyd edilir ki, İrəvan qəzasının Zəngibasar kəndlərindən başqa qalan bütün yaşayış məntəqələri məhv edilmişdir[1,v.48].

İrəvan bölgəsində yaşayan türk-müsəlman əhaliyə qarşı həyata keçirilən soyqırım cinayətlərinin qarşısını almaq üçün Azərbaycan Cümhuriyyəti hökumətinin Ermənistana göndərdiyi notaların, eyni zamanda Müttəfiqlərin bölgədəki komissarlarına etdiyi müraciətlərin heç bir əməli nəticəsi olmadı. 1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsindən sonra ermənilərin İrəvan bölgəsindəki türk-müsəlmanlara qarşı törətdikləri qırğınlar yeni mərhələyə qədəm qoyaraq daha kütləvi və kəskin xarakter almağa başladı. Daşnakların 1920-ci ilin aprel-iyun aylarını əhatə edən hücumları zamanı Zəngibasarda 48 kənd tamamilə yandırılmış, 400-dən çox uşaq, 150 qadın və qoca öldürülmüş, 100 nəfər xəstə odda yanaraq məhv olmuş, 816 qaçqın Araz çayında boğulmuş, 160 min nəfər isə qaçqına çevrilərək Cənubi Azərbaycanın çöllərində açıq havada qalmışdı. Vedibasarda 118 kənd yandırılmış, 900 nəfər artilleriya atəşi nəticəsində həlak olmuş, 300-dən çox uşaq və qoca qətlə yetirilmiş, 6 qadın əsir aparılmışdı. Dərələyəzdə 74, Şərur və Şahtaxtı ətrafında 76 kənd yandırılmışdı. Şərurda 810 xəstə yatağında qətlə yetirilmiş, 72 nəfər artilleriya atəşindən tələf olmuşdu. 150 qadın və qoca öldürülmüş, 144 qadın əsir götürülmüşdü. Şahtaxtıda isə 35 uşaq, 8-i qadın olmaqla 22 qoca, 9 xəstə qətl edilmiş, 3 qadın daşnaklar tərəfindən əsir aparılmışdı. Cənubi Azərbaycana

pənah aparan 45 mindən çox qaçqın aclıqdan və xəstəlikdən dünyasını dəyişmişdi. Zəngibasarda təkcə iyulun 2-də 1500 nəfər suda boğularaq öldürülmüşdü. İxtilafların sonunda 180 min müsəlman, yaxud İrəvan quberniyasının müsəlman əhalisinin 2/3 hissəsindən çoxu qətlə yetirilmiş və didərgin düşmüşdü[209,s.305;146,s.35].

1920-ci ilin dekabrında Osmanlı hərbi komandanlığının yerli əhali nümayəndələri ilə birgə apardığı təhqiqatların nəticələrinə görə, 1918-1920-ci illərdə Şərur və Sədərək rayonlarının 56 kəndində 506 nəfər vəhşicəsinə öldürülmüş, 24 nəfərin namusuna təcavüz edilmiş, 186 nəfər əsir götürülmüş, 4 nəfər həbs edilmiş, evlərindən didərgin düşənlərdən 7773 nəfəri aclıq, soyuq və xəstəlikdən ölmüş, 9907 nəfər mühacirətdən döndükdən sonra vəfat etmişdir. Ümumilikdə Şərur və Sədərək bölgəsinin yuxarıda adları qeyd olunan 56 kəndi üzrə ermənilərin törətdiyi soyqırım qurbanlarının sayı 18.376 nəfərdir[63].

Osmanlı hərbi komandanlığının yerli əhali nümayəndələri ilə birgə 1920-ci ilin dekabrında apardığı təhqiqatların nəticələrinə görə, 1918-1920-ci illərdə təkcə Dərələyəz qəzasının 53 kəndində 9.735 ev dağıdılmış və ya yandırılmış, 57.240 nəfər türk-müsəlman öldürülmüşdür[63]. Öldürülənlərin əksəriyyəti qadın, qoca və uşağa fərq qoyulmadan işgəncə ilə öldürülmüş, meyidlər üzərində belə sözlə ifadə edilməsi mümkün olmayan təhqiramiz hərəkətlər və iyrəncliklər həyata keçirilmişdir.

Beləliklə, bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, ermənilər XIX əsrin sonu – XX əsrin ilk illərində olduğu kimi, Birinci dünya müharibəsi illərində də Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamlar uğursuzluğa düçar olduqda türk-müsəlmanlara qarşı soyqırım siyasətinin mərkəzini Cənubi Qafqaza köçürdülər. 1917-ci ildə Rusiyada baş verən inqilabı hadisələr fonunda regionda yaranan anarxiya, cəbhəni tərk edən rus əsgərlərinin öz silahını ermənilərə verməsi, habelə rus ordusunun dağılması fonunda Osmanlı ordusunun Cənubi Qafqaza girməsinə imkan verməmək üçün Antanta dövlətlərinin ermənilərə verdiyi siyasi, hərbi və maliyə dəstəyi ermənilərə bölgədə türk-müsəlmanlara qarşı soyqırım həyata keçirmək üçün geniş meydan vermiş oldu. Bundan yararlanan ermənilər Cənubi Qafqazda özlərinə dövlət yaratmaq üçün türk-müsəlmanların yaşadıqları əraziləri, xüsusilə də İrəvan quberniyasının ərazisini terror, diskriminasiya və soyqırımı həyata keçirməklə

müsəlmanlardan təmizləmək yolunu tutdular. Təkcə 1917-ci ilin sonlarından 1918-ci ilin mart ayınadək olan üç ay müddətində İrəvan quberniyası ərazisində 198 kəndin dağıdılması və əhalisinin soyqırıma məruz qoyulması hadisələrin miqyasının nə qədər böyük olduğunu göstərir. Bir haşiyə çixaraq vacib olan məsələni qeyd etmək istəyirəm ki,erməni vandalları xalqimiza məxsus bir cox şeyləri zaman-zaman mənimsəyiblər.Görkəmli tarixçi alim H.F.Səfərlinin "Ordubad Şəhərinin Müsəlman Epiqrafikası Abidələri" əsərində diqqətimi bir vacib hətta mən özüm də xatırladığım fakt cəlb etdi."Ermənilər bütün XX əsr boyu Naxçıvan qəbiristanliqlarinda olan daş qoç və qoyun fiqurlarını oğurlayıb indiki Ermənistana aparmiş,onların üstündəki ərəb əlifbası ilə yazılan kitabələri,xalqimıza məxsus ornament və təsvirləri pozmuş,yerinə özlərinə məxsus kitabələr,təsvirlər həkk etdirərək böyük şəhərlərin küçələrinə,meydanlarına yerləşdirmiş,xaricdən gələn alim və turistlərə erməni mədəniyyəti kimi təqdim etmiş,indi də bu işi davam etdirməkdədirlər"[223,s.124].

1918-ci ilin mayında Zaqafqaziya Seyminin süqutundan sonra İrəvan mərkəz olmaqla, İrəvan bölgəsində özlərinə dövlət yaratmağa nail olan ermənilər bu ərazidə yaşayan azərbaycanlılara qarşı soyqırım siyasətinin növbəti mərhələsinə başladılar. Bu mərhələdə artıq İrəvan bölgəsindəki türk-müsəlmanlara qarşı soyqırımı erməni quldur dəstələri tək deyil, Ermənistan Respublikası ilə birgə və onunla ittifaqda həyata keçirməyə başladılar və bununla da, bölgədə yaşayan türk-müsəlmanlara qarşı soyqırımı siyasəti rəsmi Ermənistan dövləti tərəfindən həyata keçirilmiş oldu. Məqsəd də o idi ki, türk-müsəlmanlar yaşayan kəndlər tamamilə boşaldılsın, bu kəndlərdə Türkiyədən gələn erməni qaçqınları yerləşdirilsin və eyni zamanda Paris sülh konfransına qədər bölgənin etnik tərkibi dəyişdirilməklə bu ərazilərin ermənilərə məxsus olduğu sübuta yetirilsin. Nəticədə, İrəvan bölgəsinin bütün türk-müsəlman kəndlərinə qarşı hücumlar təşkil edildi, dövlət səviyyəsində türk-müsəlman əhaliyə qarşı soyqırım həyata keçirildi.

Təkcə 1917-ci ilin sonlarından 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyası ərazisində 198 türk-müsəlman kəndi dağıdılmışdı ki, ümumilikdə bu kəndlərdə Qafqaz təqviminin 1908-ci il məlumatına görə 15.155 təsərrüfat və 100.626 nəfər əhali qeydə alınmışdı. On il ərzində əhalinin 30 faizlik təbii artımı

(34.374 nəfər) da nəzərə alınmaqla bu 198 kənd üzrə ermənilərin törətdiyi soyqırım qurbanlarının ümumi sayı 135.000 nəfər təşkil edir[2,v.31-33]. 1916-cı ildə İrəvan quberniyasında 373.582 nəfər azərbaycanlı qeydə alındığı halda, 1920-ci ilin noyabrında Ermənistanda cəmi 10 min nəfər azərbaycanlı qeydə alınmışdı. Qaçqınların qayıtması nəticəsində 1922-ci ildə Ermənistan SSR ərazisində azərbaycanlıların sayı cəmi 77.767 nəfərə çatdı. 1926-cı il siyahıyaalmasına görə Ermənistan SSR ərazisində 84.717 nəfər azərbaycanlı qeydə alınmışdı.

İrəvan bölgəsi Ermənsitan Respublikasının nəzarətində olduğundan azərbaycanlılara qarşı törədilən soyqırımları araşdıran Fövqəladə Təhqiqat Komissiyasının fəaliyyəti İrəvan bölgəsini əhatə etməmişdi. Bununla belə, həmin dövrdə İrəvan bölgəsində azərbaycanlılara qarşı həyata keçirilən soyqırımlarla bağlı Azərbaycan Cümhuriyyəti hökumətinin, onun Ermənistandakı diplomatik nümayəndəliyinin, habelə İrəvan bölgəsinin qəza və kəndlərinin nümayəndələrinin Azərbaycan və Osmanlı hökumətlərinə ünvanladıqları imdad çağırışlı müraciət və sənədlər bu gün də arxivlərdə mühafizə olunmaqdadır. Bu sənədlər onu sübut edir ki, İrəvan bölgəsində azərbaycanlılara qarşı baş verən bu faciəli hadisələr ən qatı soyqırım cinayətidir. Bu sənədlərdə təsdiqlənən ən vacib fakt ondan ibarətdir ki, İrəvan bölgəsində azərbaycanlıların soyqırımı Ermənistan Respublikasının həyata keçirdiyi siyasətin nəticəsində törədilib və bu respublika soyqırım cinayətlərinə birbaşa rəhbərlik edib. Bu da faktiki olaraq dövlət cinayətidir.

# NƏTİCƏ

Tarixi Azərbaycan torpağı olan İrəvan bölgəsinin XIX-XX əsrin əvvəlləri tarixinin kompleks şəkildə öyrənilməsinin zərurəti və aktuallığı nəzərə alınaraq, problem ayrıca mövzu kimi xüsusi tədqiqat obyekti olmuşdur.

İrəvan bölgəsi tarixən Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin tərkibində olmuşdur. İrəvan şəhərinin bir mərkəz kimi yüksəlişi isə, Çuxursəd bəylərbəyliyi və İrəvan xanlığı dövrlərinə aiddir. XV əsrdən etibarən Arpa çayın Arazla birləşdiyi yerdən başlayaraq Ağrıdağla Alagöz dağları arasındakı çökəklik vadi ərazi Sədi çuxuru kimi tanınmış və Çuxursəd istilahı şəklində işlənmişdir. Azərbaycan Səfəvi dövləti dövründə, XVI əsrin əvvəllərində bu ərazidə mərkəzi İrəvan şəhəri olan Çuxursəd bəylərbəyliyi yaradılmışdır. Çuxursəd bəylərbəyliyi Qərbi Azərbaycan torpaqlarının böyük bir hissəsini əhatə etməklə, bu ərazinin ilk ümumi coğrafi adı hesab oluna bilər. İstər Çuxursəd bəylərbəyliyini, istərsə də ondan sonrakı dövrdə mövcud olmuş İrəvan xanlığını idarə edənlər arasında bir nəfər də olsun erməni olmamış, tarix boyu bu ərazidə yaşayanlar türk-müsəlmanlar olduğu kimi, bu ərazini idarə edənlər də türk sülalələri olmuşdur.

İrəvan xanlığı da əsasən, tarixi Çuxursəd bəylərbəyliyinin ərazisində yaranıb, Ağrı dağı ilə Alagöz dağı arasındakı Araz çayının hər iki sahilində yerləşən əraziləri əhatə edirdi. Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsi İrəvan xanlığının mərkəz əraziləri idi. 23,8 min kv. km. ərazini əhatə edən İrəvan xanlığı şimaldan Pəmbək əyaləti, Şəmşədil və Qazax sultanlıqları və Gəncə xanlığı, şərqdən Qarabağ və Naxçıvan xanlıqları, cənubdan Xoy və Maku xanlıqları, cənub-qərb və qərbdən Osmanlı imperatorluğu ilə həmsərhəd idi.

İrəvan xanlığı yarandığı 1747-ci ildən 1797-ciilədək müstəqil xanlıq kimi mövcud olmuş, 1797-1828-ci illər ərzində isə İranın ali hakimiyyəti altında öz mövcudiyyətini davam etdirərək, daxili müstəqilliyini, eyni zamanda xarici siyasətdə də bu və ya digər dərəcədə müstəqilliyini qoruyub saxlaya bilmişdi. XVIII əsrin ikinci yarısında Azərbaycanda mövcud olan başqa xanlıqlar kimi, İrəvan xanlığının da siyasi tarixi ardı-arası kəsilməyən feodal vuruşmaları, qanlı saray çevrilişləri və

yadelli işğalçılara qarşı mübarizə ilə bağlı olmuşdur. XVIII əsrin ikinci yarısı boyu Azərbaycan xanlıqlarının vahid dövlətdə birləşdirilməsi uğrunda aparılan müharibələrə və diplomatik-siyasi mübarizələrə baxmayaraq, Azərbaycan xanlıqlarının vahid bayraq ətrafında birləşdirilməsi prosesi uğursuzluqla nəticələndi. Sərhədyanı bölgədə yerləşən İrəvan xanlığı həm də özünün müstəqilliyini və ərazi bütövlüyünü qorumaq üçün qonşu xanlıqlarla yanaşı xarici qüvvələrlə də mübarizə aparmalı olmuşdur. Bu isə, əsrin sonlarına doğru Azərbaycan xanlıqlarına, o cümlədən İrəvan xanlığına xarici hərbi müdaxilə və onları işğal etmək üçün əlverişli şərait yaradırdı.

XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Azərbaycanda, o cümlədən də İrəvan xanlığı ərazisində üç dövlətin: Qacar İranının, Çar Rusiyasının və Osmanlı dövlətinin mənafeyi toqquşurdu. İranda mərkəzi ali hakimiyyətə yiyələnən Qacarlar bu əraziləri işğal edib Nadir şah imperiyasının sərhədləri daxilində imperiyanı bərpa etməyə çalışırdı. İrəvan xanı Məhəmməd xan (1784-1805) öz müstəqilliyini qorumaq üçün uzun müddət rus-gürcü birliyinə və Qacarlara qarşı mübarizə aparmalı olmuşdur. Məhəmməd xan Osmanlı dövlətinin nüfuzu və diplomatik təzyiqlərindən yararlanaraq İrəvan xanlığını rus-gürcü birliyinin işğalçılıq planlarından qoruya bildi. Məhəmməd xan, İrəvan xanlığının müstəqilliyini qoruyub saxlamaq üçün ömrünün sonunadək Qacarların işğalçılıq planlarına qarşı uzunmüddətli mübarizə aparmalı oldu. Lakin bu mübarizə son nəticədə onun özünün fiziki məhvi ilə nəticələnsə də, İrəvan xanlığı müstəqilliyini qoruyub saxlaya bildi. Belə ki, 1805-ci ildə Fətəli şah (1797-1834) Məhəmməd xanın hakimiyyətinə son qoydu və İrəvan xanlığını Qacar dövlətinə birləşdirdi. Lakin bu uzun sürmədi. Sonuncu İrəvan xanı Hüseynqulu xanın (1806-1827) hakimiyyəti dövründə İrəvan xanlığı müstəqil xanlıq kimi mövcudiyyətini davam etdirdi.

XIX əsrin əvvəllərində İrəvan xanlığının müstəqilliyinə ən böyük təhlükəni Rusiya təşkil edirdi. Belə ki, Rusiya Cənubi Qafqazda, o cümlədən Azərbaycanda möhkəmlənmək üçün XVIII əsrin 90-cı illərində bu ərazilərə işğalçı yürüş təşkil etdi. Lakin II Yekaterinanın (1762-1796) ölümü ilə bu yürüş yarımçıq qaldı, rus qoşunları bölgəni tərk etdi. Bu, I Pyotrdan sonra rus qoşunlarının Azərbaycandan ikinci dəfə

əliboş geri dönməsi idi. 1801-ci ildə çar I Pavelin (1796-1801) sui-qəsd nəticəsində öldürülməsi və I Aleksandrın (1801-1825) imperator taxtına oturması ilə Rusiya Cənubi Qafqazı işğal etmək üçün yenidən fəallaşdı, Azərbaycan xanlıqlarına hərbi təcavüz etdi. Rusiyanın Azərbaycan xanlıqlarına qarşı hərbi təcavüzü və faktiki olaraq Rusiya-Azərbaycan müharibəsinin başlaması İran və Osmanlı dövlətlərinin də bölgədə hərbi-siyasi fəallaşmasına gətirib çıxardı. XIX əsrin birinci otuz illiyində baş vermiş iki Rusiya-İran müharibəsinin (1804-1813 və 1826-1828) obyekti birbaşa Azərbaycan əraziləri idi. Eyni zamanda, bəhs edilən dövrdə baş vermiş iki Rusiya-Osmanlı müharibəsinin (1806-1812 və 1828-1829) də obyekti dolayısı ilə Azərbaycan əraziləri idi.

Şərqi Gürcüstanın Rusiyaya ilhaq edilməsi ilə Azərbaaycanın Kartli-Kaxetiya çarlığından asılı olan Qazax, Şəmşədil, Borçalı və Pəmbək əraziləri də Rusiyanın nəzarətinə keçdi. 1801-ci ilin payızından başlayaraq İrəvan xanlığının öz ərazisi hesab etdiyi Pəmbəkin geri qaytarılması və eyni zamanda Rusiyanın da İrəvan xanlığını işğal etmək İrəvan xanlığı ilə rus qoşunları arasında hərbi toqquşmalar başladı. 1802-ci ilin aprelində Rusiya diplomatik-siyasi vasitələrlə İrəvan xanı Məhəmməd xana Rusiya təbəəliyini qəbul etdirməyə çalışdı, lakin buna nail ola bilmədi. 1802-ci ildə Qafqazdakı rus qoşunlarının baş komandanı vəzifəsində Azərbaycan xanlıqlarına münasibətdə nisbətən mülayim siyasəti ilə seçilən və daha çox diplomatik-siyasi vasitələrə üstünlük verən Knorrinqi qatı irticaçı və açıq təcavüz siyasəti yeridən Sisianov (1802-1806) əvəz etdi. Bununla da, Azərbaycan xanlıqlarına, o cümlədən İrəvan xanlığına qarşı açıq hərbi təcavüz siyasəti yeridilməyə başladı. Lakin 1804-cü ildə Sisianovun və 1808-ci ildə onun xələfi Qudoviçin (1806-1809) İrəvan xanlığını işğal etmək üçün xanlıq üzərinə həyata keçirdikləri hər iki yürüş biabırçı məğlubiyyətlə nəticələndi. Ermənilərin xəyanətinə baxmayaraq, İrəvan xanlığının qəhrəmanlığı nəticəsində Birinci Rusiya-İran müharibəsində Rusiyanın İrəvan xanlığını da işğal, edib sonra Qacarlarla müqavilə imzalamaq planları həyata keçmədi. Bu məğlubiyyət 1813-cü ildə imzalanan Gülüstan müqaviləsində də təsbit edildi.

İkinci Rusiya-İran müharibəsinin gedişində 1827-ci il oktyabrın 1-də İrəvan şəhəri və xanlığı general İ.F.Paskeviçin komandanlıq etdiyi rus qoşunları tərəfindən irəvanlıların ciddi müqaviməti qırıldıqdan sonra zor gücünə işğal edilərək Rusiya imperiyasına qatıldı. Ciddi strateji əhəmiyyətə malik İrəvanın alınması Rusiyada elə böyük bir ruh yüksəkliyi yaratdı ki, bu münasibətlə Peterburqda təntənəli mərasimlər təşkil edildi, xüsusi medallar təsis olundu. İrəvanın alınmasına görə general İ.F.Paskeviç “qraf” və “Erivanski” titullarını və 1 milyon rubl mükafat aldı. O, eyni zamanda 2-ci dərəcəli Georgi ordeni və bir çox başqa orden və medallarla təltif edildi. İrəvanın işğalı ilə Şimali Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi prosesi başa çatdı və bu işğal 1828-ci il Türkmənçay müqaviləsində təsbit edildi. İrəvan bölgəsi çarizmin süqut etdiyi 1917-ci ilədək Rusiya imperiyasının tərkibində qaldı.

İrəvan xanlığı inzibati-ərazi quruluşuna görə mahallara və kəndlərə bölünürdü. Siyasi vəziyyətlə əlaqədar olaraq, İrəvan xanlığının və sonrakı dövrdə İrəvan bölgəsinin mahallar üzrə bölgüsü, inzibati quruluşu bir neçə dəfə dəyişikliyə uğramışdır. Belə ki, İrəvan bölgəsi XVIII əsrin əvvəllərində 1 şəhər və 17 mahaldan, xanlığın yarandığı ilkin dövrlərdə 9 mahaldan, XVIII əsrin ikinci yarısında 16, 1802-1805-ci illərdə 15, 1805-1810-cu illərdə 14, 1810-1827-ci illərdə 16 mahaldan ibarət olmuşdur.

Rusiya işğalından dərhal sonra tələm-tələsik xanlığının səltənəti dağıdıldı, bölgənin idarəçiliyi imperiyanın maraqlarına uyğun olaraq yenidən qurulmağa başladı. 1827-ci il oktyabrın 6-da Qafqazdakı rus qoşunlarının komandanı general İ.Paskeviçinin əmri ilə İrəvanda “Müvəqqəti idarə” yaradıldı. Yerli qoşunların komandanı general Krasovski idarənin rəisi, İrəvan qalasının komendantı podpolkovnik Borodin və erməni arxiyepiskopu Nerses Aştarakesi idarənin üzvləri təyin edildilər. İrəvan bölgəsində hakimiyyəti tam ələ almaq, idarəetmə işlərini həyata keçirmək, qayda-qanun yaratmaq, bölgədəki rus qoşunlarının təminat və təchizat məsələlərini həll etmək kimi məsələlər Müvəqqəti idarənin qarşısına əsas vəzifə kimi qoyuldu. İrəvan xanlığı ərazisində azərbaycanlı əhalinin mütləq çoxluğa malik olmasına baxmayaraq Müvəqqəti idarədə azərbaycanlıların təmsil olunmaması,

təhlükəsizlik və qaravul xidməti üçün məhz erməni əhalidən silahlı birləşmələrin yaradılması ilə İrəvan bölgəsinin erməniləşdirilməsinin əsası qoyuldu.

1828-ci il martın 21-də Rusiya imperatoru I Nikolay İranla müharibənin başa çatması və Rusiya ilə İran arasında sülh imzalanması haqqında manifest verdi. Bu manifestdə yeni işğal olunmuş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi "qədim Ermənistanın bir hissəsi" elan olundu. Bununla da, I Pyotr dövründən başlayaraq Azərbaycan torpaqlarının işğalı üçün onun etnik mənsubiyyətinin zorla dəyişdirilməsinə dair dövlət siyasəti və strateji məqsədin yerinə yetirilməsi burada təsbit edildi.

Türkmənçay müqaviləsinin imzalanmasından az sonra – 1828 ci il martın 21-də Rusiya imperatoru I Nikolayın verdiyi fərmanla İrəvan Müvəqqəti idarəsi ləğv edildi , İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" adlı müvəqqəti inzibati-idarə yaradıldı. Erməni vilayətinin rəisi vəzifəsinə yerli qoşunların komandanı, general-mayor Aleksandr Çavçavadze təyin edildi. Naxçıvan və İrəvan xanlıqları ərazilərində "Erməni vilayəti"nin yaradılması ilə Azərbaycan torpaqlarında erməni dövləti yaradılması üçün mühüm addım atıldı. Erməni vilayətinin idarə edilməsi üçün hazırlanan "Qaydalar" layihəsində erməni əhaliyə qarşı müəyyən liberallığın tətbiq edilməsi nəzərdə tutulurdu. Layihə, ümumilikdə Rusiyanın vilayətdəki hakimiyyətinin möhkə1mləndirilməsinə xidmət etsə də, bu bölgənin erməniləşdirilməsinə də zəmin yaratmalı idi.

Rusiya Şimali Azərbaycanın işğalı zamanı ermənilərin çar ordusuna göstərdikləri xidmət müqabilində işğal olunmuş Azərbaycan torpaqlarında – İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində "Erməni vilayəti" adlandırılan ərazi yaratdı və bu ərazini ermənilərə pay verdi. Bundan sonrakı dövrdə də Rusiya- İran və xüsusilə də, Osmanlı dövlətinə qarşı işğalçılıq siyasətində, eyni zamanda bölgə daxilində sosial baza kimi ermənilərdən istifadə etdi. Ermənilər də çar Rusiyasının himayəsi və köməyi ilə Cənubi Qafqazda özlərinə ərazi bazası yaratmış oldular. Bundan sonrakı mərhələdə Rusiya imperiyası tərəfindən İrəvan bölgəsində həyata keçirilən köçürmə siyasəti, inzibati, iqtisadi və siyasi islahatların təhlili göstərir ki, bütün bunlar

məqsədli olaraq adı çəkilən bölgədə ermənilərin sayının artmasına, onların burada güclənməsinə və bölgənin tamamilə erməniləşdirilməsinə xidmət etmişdir.

1833-cü il 23 iyun qanunu ilə "Erməni vilayəti"ndə həyata keçirilən yeni inzibati-ərazi dəyişikliyinə görə, vilayətin kollegial idarə sistemi ləğv edilərək, vilayət rəisinə böyük səlahiyyətlər verildi. İrəvan bölgəsi dörd dairəyə: İrəvan, Şərur, Sürməli və Sərdarabad dairələrinə bölündü. Dairələr rus hərbçiləri tərəfindən idarə olunurdu. Hər bir dairə rəisliyində biri azərbaycanlı, digəri isə erməni olmaqla, iki köməkçi var idi. Yeni qanuna əsasən mahallar olduğu kimi qalırdı.

İrəvan bölgəsi Rusiyanın nəzarətinə keçdikdən sonrakı dövrdə Rusiya hökuməti bu bölgədə idarəçilik aparatını təkmilləşdirmək, xanlıq dövründəki idarəçilik quruluşunu tamamilə sıxışdırıb aradan qaldırmaq və rus idarəçilik strukturlarını formalaşdırmaqla yanaşı, burada süni şəkildə erməni inzibati vahidini yaradıb bölgənin erməniləşdirilməsinə də xüsusi diqqət ayırmışdır. Lakin qısamüddətli "erməni vilayəti" idarəçiliyi dövründə vilayətin idarə olunmasında yaranan anarxik vəziyyət, bölgədə tüğyan edən qanunsuzluq və özbaşınalıqlarla müşaiyət olunan xaos elə bir həddə çatdı ki, Rusiya hökuməti bölgənin idarəçiliyini dəyişdirməli oldu. 1840-cı ilin inzibati islahatı ilə bölgədə 1828-ci il martın 21-də yaradılmış erməni inzibati vahidi və vilayət idarəçiliyi ləğv edildi. Onun yerində bəzi istisnalarla keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazi bazaları əsasında İrəvan və Naxçıvan qəzaları təşkil edildi. Həmçinin, İrəvan bölgəsində daha bir yeni qəza – Axalkələk sahəsinin də birləşdirilməsi ilə Pəmbək-Şuragöl bölgəsində Aleksandropol (Gümrü) qəzası təşkil edildi. Hər üç qəza Gürcü-İmeretiya quberniyasının tərkibinə daxil edildi. Cənubi Qafqazın digər bölgələri kimi, İrəvan bölgəsində də quberniya, əyalət, qəza idarəsi tətbiq edildi.Lakin erməni kilsə xadimləri və ideoloqları "Erməni vilayəti"nin bərpası üçün müxtəlif yollarla bölgədəki çar məmurlarına təsir göstərməyə çalışır və bu istiqamətdə mübarizələrini davam etdirirdilər.

1844-cü ildə Qafqaz canişini təyin olunan, ermənipərəstliyi ilə seçilən və ermənilərə xüsusi simpatiya bəslədiyini heç də gizlətməyən M.S.Vorontsov yenidən erməni inzibati vahidinin yaradılması işinə girişdi. Amma canişinin 1846-cı il inzibati islahatı zamanı "Erməni vilayəti" idarəçiliyini bərpa etmək səyləri müsbət nəticə

vermədi. 1846-cı il inzibati islahatında da İrəvan bölgəsi - İrəvan, Aleksandropol qəzaları və Naxçıvan qəzası 8 qəzadan ibarət olan Tiflis quberniyasının tərkibində qaldı. Mövcud şərtlər altında erməni inzibati vahidinin yaradılmasını əsaslandırmaq mümkün deyildi. Buna görə də, Qafqaz canişini İrəvan bölgəsində ayrıca quberniyanın yaradılması təklifini irəli sürüb, bunu Tiflis quberniyasının idarəçiliyinin olduqca mürəkkəb və geniş olması ilə əsaslandırmalı oldu. İrəvan bölgəsində ayrıca quberniyanın təşkil edilməsini buradakı erməni əhalisinin iqtisadi inkişafı üçün vacib hesab edən Vorontsov bu qərarla bölgənin tamamilə erməniləşdirilməsi işini sürətləndirəcəyini düşünürdü. Canişinin səyləri bir qədər sonra, 1849-cu ildə nəticə verdi. 1849-cu il iyunun 9-da İrəvan bölgəsində eyni adlı quberniyanın yaradılması haqqında qərar verildi.

1849-cu il iyunun 9-da yaranan və 1850-ci il yanvarın 1-dən fəaliyyətə başlayan İrəvan quberniyasında yaradılan idarəçilik sistemi Rusiyanın digər quberniyalarında mövcud olan idarəçilik strukturları ilə eyni idi. İrəvan bölgəsində yeni tətbiq olunan quberniya, qəza, sahə, kənd idarəçilik sistemində də bölgənin türk-müsəlman əhalisinin sahib olduğu ənənəvi idarəçilik quruluşunun qalıqları hələ qalmaqda idi. İrəvan quberniyasının mərkəzi İrəvan şəhəri oldu. Bəzi inzibati ərazi dəyişikliklərindən sonra quberniyanın tərkibinə ilkin dövrdə Tiflis quberniyasından İrəvan, Naxçıvan və Aleksandropol qəzaları, Şamaxı quberniyasının Şuşa qəzasının Mehri mahalı və Qapan kəndi daxil edildi. Quberniya 5 qəzaya bölündü: İrəvan, Aleksandropol, Yeni Bəyazid, Naxçıvan və Ordubad qəzaları. Yarandığı dövrdə İrəvan quberniyasının ərazisi 26.450 kv.verst (28.217 km$^2$) idi.

XIX əsrin ikinci yarısında İrəvan quberniyasının inzibati-ərazi quruluşunda bir sıra dəyişikliklər edildi. 1867-ci ildə İrəvan quberniyasının tərkibində Ordubad qəzası ləğv edildi. Ləğv edilmiş Ordubad qəzasının yerinə İrəvan quberniyasında Eçmiədzin qəzası təşkil edildi. İrəvan quberniyası yenə də beş qəzadan (İrəvan, Aleksadropol, Yeni Bəyazid, Naxçıvan, Eçmiədzin) ibarət oldu. 1868-ci ildə Mehri sahəsi yeni yaradılmış Yelizavetpol quberniyasının tərkibinə daxil edildi. 1870-ci ildə İrəvan quberniyasının tərkibində mərkəzi Baş Noraşen olan Şərur-Dərələyəz qəzası yaradıldı. 1874-cü ildə İrəvan quberniyasının tərkibində Sürməli qəzası yaradıldı. Bu

inzibati-ərazi dəyişikliklərindən sonra İrəvan quberniyası 7 qəzadan: İrəvan, Aleksandropol, Eçmiədzin, Naxçıvan, Yeni Bəyazid, Şərur-Dərələyəz və Sürməli qəzalarından ibarət oldu və bu inzibati bölgü 1918-ci ilə qədər qüvvədə qaldı. Qafqaz təqviminin 1917-ci il üçün olan məlumatına görə, İrəvan quberniyasının formalaşmış son inzibati bölgüsü üzrə ərazisi 23194,79 verst$^2$ və ya 24744,2 km$^2$ olmuşdur.

İrəvan bölgəsinin əhalisinə gəldikdə, qeyd edə bilərik ki, Rusiya işğalından sonrakı dövrdə Azərbaycanın əhalisinin say və etnik tərkibində ən çox və kəskin dəyişikliklər olan bölgələrindən biri İrəvan bölgəsi olmuşdur. Çar Rusiyası tərəfindən İran və Osmanlı dövlətlərindən ermənilərin kütləvi surətdə İrəvan bölgəsinə köçürülməsindən əvvəl, İrəvan şəhərində 7331 nəfər (1807 ailə) azərbaycanlı (75,6 %), 2369 nəfər (567 ailə) erməni (24,4 %), ümumilikdə İrəvan xanlığı ərazisində isə 49875 nəfər (9196 ailə) azərbaycanlı, 20073 nəfər (3498 ailə) erməni yaşayırdı. Bütövlükdə, sonradan "Erməni vilayəti" adlandırılan ərazidə (İrəvan və Naxçıvan xanlıqları ərazisində) isə 81749 nəfər (16078 ailə) müsəlman, 25151 nəfər (4428 ailə) erməni və 324 nəfər (67 ailə) yezdi kürdü yaşayırdı. Deməli, köçürmədən əvvəl bölgənin 107224 nəfər ümumi əhalisinin 76,24 %-ni azərbaycanlılar, 23,45 %-ni ermənilər təşkil edirdi.

Rusiya Cənubi Qafqazın, xüsusilə də İrəvan xanlığının işğalında ermənilərin xidmətindən istifadə etdi və bu işğal başa çatan kimi ermənilər bu xidmətlər müqabilində mükafatlandırıldı. Müharibə dövründə təbəəsi olduqları dövlətlərə xəyanət edərək Rusiyaya xidmət edən ermənilərin İran və Osmanlı dövlətlərindən Cənubi Qafqaza, xüsusilə də İrəvan bölgəsinə köçürülməsi üçün xüsusi layihələr hazırlandı və bu layihələr Türkmənçay və Ədirnə müqavilələrinin müvafiq olaraq on beşinci və on üçüncü maddələrində təsbit edildi. Türkmənçay müqaviləsinə görə, 1828-ci ilin fevral-iyun aylarında İrandan Cənubi Qafqaza köçürülən 8249 erməni ailəsindən (təxminən 40-50 min nəfər) 6946 ailə və ya 35560 nəfər "Erməni vilayəti"ndə yerləşdirildi. Bunlardan 4559 ailə (12.498 kişi, 11.070 qadın, cəmi 23.568 nəfər) İrəvan əyalətində, 2137 ailə (5641 kişi, 5011 qadın, cəmi 10.652 nəfər) Naxçıvan əyalətində, 250 ailə (698 kişi, 642 qadın, cəmi 1340 nəfər) Ordubad dairəsində məskunlaşdırıldı. Nəticədə yeni təşkil edilmiş "Erməni vilayəti"ndə

müsəlmanların sayı 81749 nəfər (16078 ailə) və ermənilərin sayı 25131 nəfər (4428 ailə) olmuşdusa, İrandan erməniləri köçürdükdən sonra onların sayı 60691 nəfərə (11374 ailə) çatdı. Bununla da, bölgədə ermənilərin sayı 24 faizdən 43 faizə qalxdı.

Ədirnə müqaviləsinə görə də, rəsmi rəqəmlərə görə Osmanlı dövlətindən 14.044 erməni ailəsi və ya 90.000 nəfər erməni əhalisi Cənubi Qafqaza köçürüldü. Osmanlı dövlətindən köçürülən ermənilərdən də 3682 ailə və ya 21.666 nəfər (11.417 kişi, 10.249 qadın) "Erməni vilayəti"nə yerləşdirildi. Bunlardan 3674 ailə və ya 21.639 nəfər (11.400 kişi, 10.239 qadın) İrəvan əyalətində, 8 ailə və ya 27 nəfər (17 kişi, 10 qadın) Naxçıvan əyalətində məskunlaşdırıldı, Ordubad dairəsinə isə Osmanlı ermənilərindən məskunlaşdırılan olmadı.

Ermənilərin İran və Osmanlı dövlətlərindən İrəvan bölgəsində kütləvi köçü ilə paralel olaraq bölgənin müharibə dövründə İran və Osmanlı dövlətlərinə dəstək verən müsəlman əhalisinin də təqiblərdən yaxa qurtarmaq üçün kütləvi surətdə İran və Osmanlı dövlətlərinə köçü də baş verdi ki, bu da öz növbəsində bölgənin əhalisinin demoqrafik tərkibində ermənilərin xüsusi çəkisinin artmasına təsir göstərən amillərdən idi.

Ermənilərin köçürülməsi İrəvan bölgəsində və bütövlükdə "Erməni vilayəti" adlandırılan ərazidə tarixən formalaşmış demoqrafik vəziyyəti kökündən dəyişdirdi. Belə ki, İran və Osmanlı dövlətlərindən "Erməni vilayəti"nə (İrəvan və Naxçıvan əyalətlərinə) köçürülən ermənilərin ümumi sayı 10.631 ailə və ya 57.226 nəfər olmuşdur. Halbuki, köçürməyə qədər bu ərazidə 4428 ailə və ya 25151 nəfər erməni yaşamışdır. Deməli, bütövlükdə "Erməni vilayəti" ərazisinə, o cümlədən İrəvan xanlığı ərazisinə köçürülən ermənilərin sayı bu ərazilərdə yaşayan ermənilərin sayından ən azı 2-2,5 dəfə çox olmuşdur. Nəticədə İran və Osmanlı dövlətlərindən köçürülən ermənilər hesabına "Erməni vilayəti"ndəki ermənilərin sayı 25151 nəfərdən (4428 ailə) 82.377 nəfərə (15.056 ailə) çatdı və bununla da, ümumilikdə 164.450 nəfər (31.201 ailə) əhalisi olan bölgədəki ermənilərin sayı (82.377) müsəlmanların sayını (81.749) üstələdi. Bütün bunlar rəsmi rəqəmlərdir. Qeyri-rəsmi köçən ermənilərin sayı da kifayət qədər böyük olmuşdur. İran və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçən ermənilərin ümumi sayı qeyri-rəsmi

köçkünlərlə birlikdə 200 mindən çox idi. Bu, həmin dövrdə İrəvan, Naxçıvan və Qarabağın ümumilikdə əhalisindən də çox idi. Sonrakı illərdə də ermənilərin İrəvan və bütövlükdə Cənubi Qafqaz bölgəsinə köç prosesi davam etdi və nəticədə, XX əsrin əvvəllərində bölgədə onların sayı 1,3 milyona çatdı.Bütün bu rəqəmlər İrəvan bölgəsinin əzəli Azərbaycan torpağı, aborigen əhalisinin isə ¾ hissəsindən çoxunun azərbaycanlılar olduğu, ermənilərin isə bu bölgənin yerli əhalisi olmayıb, Rusiya tərəfindən İran və Osmanlı dövlətlərindən bu ərazilərə köçürüldüyü, çarizmin məqsədyönlü şəkildə bu bölgəni erməniləşdirməyə çalışdığı faktını ortaya qoyur.

Köçürülən ermənilərin Azərbaycan ərazilərində, xüsusilə də İrəvan bölgəsində yerləşdirilməsi nəticəsində regionun tarixən formalaşmış etnik mənzərəsi zor gücünə dəyişdirilmiş oldu. Bununla Rusiya özünün strateji məqsədlərini həyata keçirmək üçün İran və Osmanlı dövlətləri ilə olan yeni sərhədlərində ermənilərdən ibarət bufer zolağ yaratdı. Öz növbəsində, dünyanın müxtəlif ölkələrində səpələnmiş halda yaşayan ermənilər də Azərbaycan torpaqlarında özlərinə vətən əldə etdilər.

Köçürülən ermənilərin İrəvan və ətraf bölgələrin ən yaxşı xəzinə torpaqlarında yerləşdirilməsi və onlara çarizmin bölgədəki etibarlı ictimai dayağı kimi baxılaraq, dövlət tərəfindən hər cür himayə edilməsi, müsəlmanların əlində olan münbit torpaqlarının dövlət tərəfindən zorla çox aşağı qiymətlərlə satın alınaraq ermənilərə verilməsi və bu kimi bir çox digər amillər ilk gündən yerli müsəlman əhali ilə ermənilər arasında ziddiyyətlərin və münaqişələrin yaranmasına gətirib çıxartdı.

1917-ci il Qafqaz təqviminin 1 yanvar 1916-cı il üçün olan məlumatlarına görə, İrəvan quberniyasında yaşayan 1120242 nəfər əhalinin 59,8 %-ni (669871 nəfər) ermənilər, 33,35 %-ni (373582 nəfər) azərbaycanlılar təşkil edirdi. Deməli, Rusiya çarizminin Türkmənçay müqaviləsindən başlayaraq özünün mövcudluğunun sonunadək keçən,yəni 89 il müddətində sistemli şəkildə və ardıcıl olaraq həyata keçirdiyi bölgə əhalisinin etnik tərkibinin ermənilərin xeyrinə dəyişdirmək siyasəti nəticəsində bölgə əhalisinin milli tərkibində azərbaycanlıların sayı 2,5 dəfə azalmış, ermənilərin sayı isə 2,5 dəfə artmışdır.

İstər xanlıq dövründə, istərdə də rus işğalından sonrakı dövrdə Azərbaycanın digər bölgələri kimi, İrəvan bölgəsinin də iqtisadiyyatında əsas yeri kənd təsərrüfatı

tuturdu. Torpaq mülkiyyəti formaları: xan, xass, mülk, vəqf və icma torpaqlarından ibarət idi. Rusiya işğalından sonra xan torpaqları xəzinənin sərəncamına keçdi.

Əkinçilik, maldarlıq, bağçılıq və bostançılıq əsas kənd təsərrüfatı sahələri idi. Əkinçilikdə əsas taxıl bitkilərindən buğda, arpa, çəltik, texniki bitkilərdən pambıq, tütün, küncüt, kətan becərilməsi və baramaçılıq aparıcı yer tuturdu. Eyni zamanda meyvəçilik, üzünçülük və bostançılıq da mühüm sahələr idi.Əkinçilikdə xış və kotandan istifadə edilirdi. Çay vadilərində suvarma əkinçiliyi, dağlıq ərazilərdə isə dəmyə əkinçiliyi üstünlük təşkil edirdi.İrəvan bölgəsinin iqtisadiyyatında maldarlıq da mühüm yer tuturdu. Oturaq maldarlıqla yanaşı yarımköçəri və köçəri maldarlıq geniş yayılmışdı. Qoyunçuluq daha çox inkişaf edən sahə idi.

Bütövlükdə götürdükdə, XIX əsrin birinci rübündə İrəvan bölgəsində feodal münasibətlər hakim idi. Əsas istehsal vasitəsi olan torpaq hüquqi cəhətdən dövlətə məxsus idi. Kəndli təsərrüfatları əsasən natural xarakter daşıyır, sənaye və sənətkarlıq hələ də tam şəkildə kənd təsərrüfatından ayrılmamışdı.

XIX əsrin ikinci yarısında İrəvan bölgəsində sənaye sahələri yaranmağa başlasa da, natural təsərrüfatın hökmranlığı şəraitində bölgədə sənaye hələ kənd təsərrüfatından ayrılmamışdı. Burada xammal kəndli təsərrüfatlarında emal edilirdi, başqa sözlə, zavod sənayesi tam mövcud olmasa da, onun struktur elementlərinə az da olsa rast gəlinirdi. Sahəvi sənaye nomenklaturasında pambıqtəmizləmə, toxuculuq, sabunbişirmə, dəri emalı, yağ emalı və dəyirmanlara rast gəlinirdi. Sadalanan sənaye sahələrinin siyahısı belə bir qənaətə gəlməyə əsas verir ki, burada kənd təsərrüfatı xammalının emalı elə həmin təsərrüfatların ehtiyacını ödəmək məqsədi ilə həyata keçirilirdi.

İrəvan bölgəsində ticarət əkinçiliyinin meydana gəlməsində ilk ciddi stimul rolunu rus toxuculuq sənayesinin inkişafı və onun pambığa böyük tələbatı rolunu oynadı. Sonrakı dövrlərdə ticarət pambıqçılığı ilə paralel şəkildə inkişafı daxili bazarın genişlənməsi ilə bağlı olan şərabçılıq da inkişaf etməyə başladı.İrəvan bölgəsində üzümçülük də islahatdan sonrakı dövrdə artıq kapitalist inkişaf yoluna qədəm qoymuşdu. Ticarət üzümçülüyü əsasən İrəvan və Eçmiədzin qəzalarında geniş yayılmışdı.

İrəvan bölgəsində mövcud olan sənaye sahələrindən ən çox diqqəti cəlb edən mis sənayesi idi. Geoloq Abixin axtarışlarından sonra belə zavodlardan biri indiki Mehri rayonunun Aqaraq kəndində, 1852-ci ildə Zəngəzurda Qavart və 1856-cı ildə Qatar zavodunun, 1861-ci ildə isə Axta mis zavodunun əsası qoyuldu. Beləliklə, XIX əsrin 50-60-cı illərində bölgədə xırda və orta tipli bir neçə zavod fəaliyyət göstərməyə başladı.

XIX əsrin sonu – XX əsrin əvvəllərində İrəvan bölgəsində sənayenin zəif inkişafı XIX əsrin sonuna qədər sənayeyə nə xarici, nə də rus kapitalının geniş miqyasda cəlb edilməməsi ilə bağlı olmuşdur. Burada mövcud olan müəssisələri ölçülərinə, fəhlələrin sayına və sərmayəsinə görə kiçik müəssisələr hesab etmək olar. Bölgə sənayesi XIX əsrin sonuna qədər iki başlıca sahə - mis emalı və şərab-konyak istehsalı ilə məhdudlaşırdı. Lakin hər iki sahədə texnoloji yeniliklər olduqca ləng gedirdi.

Qeyd etmək lazımdır ki, bölgədə ictimai əmək bölgüsü kifayət qədər inkişaf etmədiyindən, mövcud sahələrin bazasında yeni istehsal sahələri də yarana bilmirdi. Sənaye istehsalının bu şəkildə geri qalmasının başlıca səbəblərindən biri, şübhəsiz çarizmin ucqarların inkişafına mane olan müstəmləkəçilik siyasəti idi. Bütün bunların nəticəsi idi ki, mis emalı kimi mühüm sənaye sahəsində texnika XIX əsrin 90-cı illərinin sonuna qədər bir heç bir dəyişikliyə məruz qalmamışdı. Bir çox sənaye sahələri isə adi manufaktura emalatxanalarından olduqca az fərqlənirdi.

İrəvan bölgəsinin sənayesində rus kapitalının rolu XIX əsrin sonuna qədər demək olar ki, sıfıra bərabər idi. Rus kapitalı yalnız XX əsrin əvvəllərindən etibarən şərab-konyak istehsalı sənayesinə nüfuz etməyə başlamışdı.

Xarici kapitalın rus kapitalından əvvəl bölgə iqtisadiyyatına nüfuz etməsinə baxmayaraq, o burada yalnız mis sənayesində təmsil olunmaqla kifayətlənirdi. Rəqibi olmayan xarici kapitalistlər sənaye texnikasının inkişaf etdirilməsinin qayğısına qalmırdılar.

Yuxarıda göstərdiyimiz şərtlər daxilində İrəvan bölgəsinin sənayesi birləşmə və təmərküzləşmə yolu ilə deyil, ilkin müəssisələrin genişlənməsi hesabına inkişaf edirdi. Sənayenin eksterritorial xarakteri kapitalın təmərküzləşməsinə əngəl törədirdi.

Sənayenin ümumi inkişafı hələ təmərküzləşmə və inhisarların yaranması səviyyəsinə çatmamışdı.

XIX əsr və XX əsrin əvvəllərində İrəvan bölgəsi əhalisinin sosial-iqtisadi vəziyyətində dəyişikliklər ictimai-iqtisadi həyatda baş verən yeniliklərələ düz mütənasib olduğundan, biz onu şərti olaraq bir neçə dövrə bölə bilərik:

1. XIX əsrin ilk 30 illiyinə düşən birinci dövrdə İrəvan xanlığında feodal münasibətləri mövcud olmuş, təsərrüfatın aparılmasında əsasən patriarxal qaydalar üstünlük təşkil etmişdir. Bu dövrdə xanlığın qonşu dövlətlər tərəfindən təcavüz obyektinə çevrilməsi, Rusiya-İran müharibələrinin onun ərazisində aparılması, Rusiya imperiyasının məkrli köçürmə siyasəti nəticəsində ermənilərin buraya köçürülməsi kimi amillər bölgə əhalisinin sosial-iqtisadi vəziyyətinin olduqca pisləşməsinə səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, işğalın ilk illərində mövcud münasibətləri dəyişdirməyən çarizmin müstəmləkəçi siyasəti əhalinin vəziyyətini daha da ağırlaşdıran amillərdən biri idi.

XIX əsrin 40-60-cı illərini əhatə edən ikinci dövrdə çarizmin həyata keçirdiyi müstəmləkə və təhkimçilik siyasəti əhalinin vəziyyətini nəinki yaxşılaşdırdı, əksinə daha da ağırlaşmasına səbəb oldu.

XIX əsrin 70-ci illərindən XX əsrin əvvəllərinə qədər davam etmiş üçüncü dövrdə həyata keçirilmiş kəndli islahatı feodal-asılı münasibətlərə zərbə vurub, kapitalizmin inkişafına yol açsa da, təhkimçilik qalıqlarının saxlanılması, kredit verilməməsi nəticəsində kəndlilərin öz pay topaqlarına sahib ola bilməmələri onların vəziyyətinin müsbətə doğru dəyişməməsinə səbəb oldu.

2. XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvan bölgəsində kapitalist münasibətlərinin inkişafı təsərrüfatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatında özünü göstərməyə başlamışdı. Kapitalist münasibətlərinin inkişafı – muzdlu əməyin tətbiqi, ticarət və sələm kapitalının meydana gəlməsi kəndlilərin sürətlə təbəqələşməsinə səbəb olmuş, torpaqsız və aztorpaqlı kəndlilərin sayı nəzərəçarpacaq dərəcədə artmışdı.

3. XIX və XX əsrin əvvəllərində İrəvan bölgəsində baş vermiş sosial hərəkatlar ictimai-iqtisadi həyatın bir sıra problemlərindən, habelə çarizmin məkrli köçürmə

siyasətindən qaynaqlanırdı. Kəndli etirazlarının kökündə ilk səbəblərdən biri kimi, XIX əsrin 40-cı illərindən etibarən çarizmin həyata keçirdiyi təhkimçilik siyasəti dayanırdı. Xüsusilə çarizmin yerli feodallarla ittifaqa girməsi və onları himayə etməsi kəndlilər üzərində istər-istəməz mülkədar hakimiyyətinin güclənməsinə səbəb olmuşdur. Bununla yanaşı, Azərbaycanda heç bir zaman təhkimçilik ənənələri və onun yaranması üçün zəruri şərtlərin də olmaması səbəbindən çarizmin bu istiqamətdə həyata keçirdiyi siyasət uğur qazana bilmədi.

XIX əsrin 70-ci illərindən etibarən kəndlilərin etiraz hərəkatının yeni bir dalğası – təhkimçilik qalıqlarına qarşı mübarizə dövrü başladı.

İrəvan bölgəsində kəndli hərəkatının spesifik cəhəti bu mübarizənin qeyri-fəal formalarına üstünlük verilməsi idi. Buna görə də kəndlilərlə hakimiyyət orqanları arasında iri silahlı qarşıdurma, yaxud kütləvi zorakılıq hallarına demək olar ki, olduqca az təsadüf edimişdir. Bunun əsas səbəbi Azərbaycan kəndlisinin bütün tarix boyunca azad olması, mülkədarların onların həyatları barədə sərəncam vermək kimi səlahiyyətlərinin olması ilə bağlı idi. Buna görə də Şimali Azərbaycanın bütün bölgələrində, o cümlədən İrəvan bölgəsində kəndli hərəkatları böyük qarşıdurmalar və zorakılıqla müşayiət edilmirdi.

XX əsrin əvvəllərində də bölgədə baş verən kəndli hərəkatının əsas mübarizəsi yenə də mülkədarlara və onların dayağı kimi çıxış edən çar hakimiyyət orqanlara qarşı aparılırdı.

XIX-XX əsrin əvvəllərində İrəvan bölgəsində həyata keçirilən köçürmə və məhz azərbaycanlı əhaliyə qarşı yönəlmiş diskriminasiya və bir sıra digər etnik-siyasi baskılara baxmayaraq bölgə mədəni inkişaf səviyyəsinə görə də Azərbaycanın digər bölgələrindən geridə qalmamış, hətta bir sıra parametrlər üzrə bəzi bölgələri qabaqlamışdır. Faktların müqayisəli təhlili belə bir nəticə çıxarmağa əsas verir ki, dünyəvi məktəblərin, teatrın açılması kimi mühüm uğurlar İrəvan mədəni mühiti tərəfindən lazımınca qiymətləndirilmiş və vaxtında reaksiya verilmişdir. Elm, təhsil, ədəbiyyat, incəsənət və digər sahələrdə baş verən bir çox mədəni yeniliklərin İrəvanda Şimali Azərbaycanın digər şəhərlərindən daha tez həyata keçirilməsi həmin dövrdə bölgənin azərbaycanlı əhalisinin yüksək mədəni səviyyəsi ilə izah edilə bilər.

Göstərilən dövrdə bölgənin ölkəyə dünya şöhrətli elm və mədəniyyət dahilərini bəxş etməsi də İrəvanın Azərbaycanın mədəni inkişafında öncül yerlərdən birini tutmasını sübut edir.

XIX əsrin sonlarında yaranan erməni siyasi və terror təşkilatlarının dənizdən dənizə böyük Ermənistan yaratmaq uğrunda apardıqları mübarizə Şərqi Anadolu və Cənubi Qafqazın türk-müsəlmanlar yaşayan bölgələrinə fəlakətlər gətirdi. Ermənilərin Şərqi Anadoluda Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamlar uğursuzluğa düçar olandan sonra onlar mübarizə meydanlarını Cənubi Qafqaza keçirdilər və bu ərazilərdə özlərinə dövlət yaratmaq uğrunda mübarizəyə başladılar. Lakin erməni dövlətinin yaradılması üçün nəzərdə tutulan ərazilərdə türk-müsəlman əhalisi ermənilərdən çoxluq təşkil edirdi. Buna görə də ermənilər türk-müsəlmanlara qarşı soyqırım aktlarının həyata keçirilməsinə qərar verdilər və bu yolla erməni dövləti yaratmaq üçün nəzərdə tutduqları əraziləri müsəlmanlardan təmizləməyi planlamışdılar. 1895-1910-cu illərdə Cənubi Qafqazda ermənilər tərəfindən türk-müsəlmanlara kütləvi hücumlar, terror və soyqırım aktları həyata keçirildi. 1905-1906-cı illər bu soyqırım aktlarının ən dəhşətli illəri idi. Təkcə bu illər ərzində İrəvan və Yelizavetpol quberniyaları ərazilərində ermənilərin hücumuna məruz qalan, talan edilən, dağıdılan və ya yandırılan, əhalisi isə qətl edilən və ya qaçqına çevrilən Azərbaycan kəndlərinin sayı 200-dən çox olmuşdur. 1897-ci ildə İrəvan quberniyasında azərbaycanlı əhalinin sayı 313176 nəfər olduğu halda, 10 ildən sonra - yəni 1907-ci ildə 302965 nəfər qalmışdı. Deməli, 1905-ci və 1906-cı illərdə təkcə İrəvan quberniyasında əhalinin 10 illik təbii artımından 10 min nəfər artıq azərbaycanlı qətlə yetirilmişdir. XX əsrin əvvəllərinə qədər İrəvan şəhərinin özündə azərbaycanlı və erməni əhalisinin sayı təxminən bərabər olduğu halda, 1905-1906-cı illər qırğınlarından sonra şəhər əhalisinin etnik tərkibi ermənilərin xeyrinə dəyişdi.

Ermənilərin türk-müsəlman əhalisinin üzərinə qaldırılması, planlı şəkildə erməni-müsəlman münaqişəsinin törədilməsi, türk-müsəlman kəndlərinə gerçəkləşdirilən erməni hücumları zamanı Rusiyanın bölgədəki siyasi və hərbi hakimiyyət nümayəndələrinin ermənilərə hərtərəfli dəstək verməsi və ya ən yaxşı halda hadisələri sadəcə müşahidə edib azərbaycanlı əhalinin təhlükəsizliyini

qorumaması Rusiyanın dövlət siyasəti olduğu və bütün bunların planlı şəkildə Cənubi Qafqazı inqilabi proseslərdən kənarda saxlamaq və çarizmin digər strateji planları ilə bağlı olduğu faktlarla sübuta yetirilmişdir. Bu mənada, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımın bilavasitə və birbaşa icraçıları ermənilər olsalar da, həmin illərdə bu bölgədə dövlət hakimiyyətini həyata keçirən çarizm və onun yerlərdəki məmurları da ən azı ermənilər qədər məsuliyyət daşıyırlar.

1905-1906-cı illərdə ermənilərin türk-müsəlmanlara qarşı törətdiyi soyqırımlar eyni ssenari əsasında, amma daha geniş miqyasda 1917-1920-ci illərdə davam etdirildi. XX əsrin ilk illərində olduğu kimi, Birinci dünya müharibəsi illərində də ermənilərin Osmanlı dövlətinə qarşı qaldırdıqları qiyamlar uğursuzluğa düçar olduqda türk-müsəlmanlara qarşı soyqırım siyasətinin mərkəzini Cənubi Qafqaza keçirildi. 1917-ci ildə Rusiyada baş verən inqilabı hadisələr fonunda regionda yaranan anarxiya, cəbhəni tərk edən rus əsgərlərinin öz silahını ermənilərə verməsi, habelə rus ordusunun dağılması fonunda Osmanlı ordusunun Cənubi Qafqaza girməsinə imkan verməmək üçün Antanta dövlətlərinin ermənilərə verdiyi siyasi, hərbi və maliyə dəstəyi ermənilərə bölgədə türk-müsəlmanlara qarşı soyqırım həyata keçirmək üçün geniş meydan vermiş oldu. Bundan yararlanan ermənilər Cənubi Qafqazda özlərinə dövlət yaratmaq üçün türk-müsəlmanların yaşadıqları əraziləri, xüsusilə də İrəvan quberniyasının ərazisini terror, diskriminasiya və soyqırımı həyata keçirməklə müsəlmanlardan təmizləmək yolunu tutdular.

1918-ci ilin mayında Zaqafqaziya Seyminin süqutundan sonra, İrəvan mərkəz olmaqla, İrəvan bölgəsində özlərinə dövlət yaratmağa nail olan ermənilər bu ərazidə yaşayan azərbaycanlılara qarşı soyqırım siyasətinin növbəti mərhələsinə başladılar. Bu mərhələdə artıq İrəvan bölgəsindəki türk-müsəlmanlara qarşı soyqırımı erməni quldur dəstələri tək deyil, Ermənistan Respublikası ilə birgə və onunla ittifaqda həyata keçirməyə başladılar və bununla da, bölgədə yaşayan türk-müsəlmanlara qarşı soyqırımı siyasəti rəsmi Ermənistan dövləti tərəfindən həyata keçirilmiş oldu. Məqsəd də o idi ki, türk-müsəlmanlar yaşayan kəndlər tamamilə boşaldılsın, bu kəndlərdə Türkiyədən gələn erməni qaçqınları yerləşdirilsin və eyni zamanda Paris sülh konfransına qədər bölgənin etnik tərkibi dəyişdirilməklə bu ərazilərin ermənilərə

məxsus olduğu sübuta yetirilsin. Nəticədə İrəvan bölgəsinin bütün türk-müsəlman kəndlərinə qarşı hücumlar təşkil edildi, dövlət səviyyəsində türk-müsəlman əhaliyə qarşı soyqırım həyata keçirildi.

Təkcə 1917-ci ilin sonlarından 1918-ci ilin mart ayına qədər olan dövrdə İrəvan quberniyası ərazisində 198 türk-müsəlman kəndi dağıdılmışdı ki, ümumilikdə bu kəndlərdə Qafqaz təqviminin 1908-ci il məlumatına görə 15.155 təsərrüfat və 100.626 nəfər əhali qeydə alınmışdı. On il ərzində əhalinin 30 faizlik təbii artımı (34.374 nəfər) da nəzərə alınmaqla, bu 198 kənd üzrə ermənilərin törətdiyi soyqırım qurbanlarının ümumi sayı 135.000 nəfər təşkil edir. 1916-cı ildə İrəvan quberniyasında 373.582 nəfər azərbaycanlı qeydə alındığı halda, 1920-ci ilin noyabrında Ermənistanda cəmi 10 min nəfər azərbaycanlı qeydə alınmışdı. Qaçqınların qayıtması nəticəsində 1922-ci ildə Ermənistan SSR ərazisində azərbaycanlıların sayı cəmi 77.767 nəfərə çatdı. 1926-cı il siyahıyaalmasına görə Ermənistan SSR ərazisində 84.717 nəfər azərbaycanlı qeydə alınmışdı. Bu rəqəmlər İrəvan bölgəsində azərbaycanlılara qarşı törədilən soyqırımın miqyasının nə qədər böyük olduğunu göstərir.

Dövrün arxiv sənədləri İrəvan bölgəsində azərbaycanlılara qarşı baş verən bu faciəli hadisələrin ən qatı soyqırım cinayəti olduğunu tam sübuta yetirir. Bu sənədlərdə təsdiqlənən ən vacib fakt ondan ibarətdir ki, İrəvan bölgəsində azərbaycanlıların soyqırımı əvvəl erməni siyasi təşkilatları və erməni ziyalılarının, 1918-ci ilin iyun ayından etibarən isə Ermənistan Respublikasının həyata keçirdiyi siyasətin nəticəsində törədilib və bu respublika soyqırım cinayətlərinə birbaşa rəhbərlik edib. Bu da faktiki olaraq o dövrün dövlət cinayətidir.

XIX əsrin son rübündən başlayaraq özlərinin Osmanlı dövlətinə qarşı yönəlmiş planlarını həyata keçirmək üçün Rusiya, İngiltərə və Fransa kimi dövlətlərin ermənilərdən bir vasitə kimi istifadə etmələrinə baxmayaraq, son nəticədə ermənilərə İrəvan bölgəsində dövlət yaradan adı çəkilən dövlətlər deyil, nə qədər təzadlı görünsə də, məhz Osmanlı dövləti oldu. 1918-ci il mayın 26-da Cənubi Qafqaz Seyminin dağılmasından sonra bölgədə gürcü və Azərbaycan dövlətləri ilə yanaşı erməni dövlətinin də yaradılması məsələsi ciddi müzakirə obyekti oldu. Bu məsələ ilə bağlı

Osmanlı hökumətində olan fikir ayrılıqlarına Azərbaycan nümayəndələrinin mövqeyi də təsir etdi. Batum konfransında aparılan müzakirələrin yekununda ermənilərin türk-müsəlman əhaliyə qarşı davam etməkdə olan soyqırım cinayətlərinə son qoyulması, bölgədə yaşayan azərbaycanlıların ictimai, siyasi, mədəni və digər sahələrdə bütün hüquqlarının qorunması və Azərbaycana qarşı ərazi iddialarından imtina edilməsi qarşılığında İrəvanın ermənilərə verilməsi və bu bölgədə 9 min kv. km ərazidə erməni dövlətinin yaradılması qərarlaşdırıldı. Lakin sonrakı dövrdə ermənilər bu şərtlərin heç birinə əməl etmədilər. Bölgənin azərbaycanlı əhalisinə qarşı soyqırım siyasəti Ermənistanın dövlət siyasətinə çevrildi, Azərbaycana qarşı yeni-yeni ərazi iddiaları gündəmə gətirildi. Nəticədə, Ermənistan Sovet hakimiyyəti illərində öz ərazisini Azərbaycan torpaqları hesabına 29,8 min kv. km-ə çatdırdı, Ermənistanda yaşayan bütün azərbaycanlılar soyqırım, terror kimi dəhşətli cinayətlərə məruz qaldılar. 1948-1953 və 1988-1991-ci illərdə həyata keçirilən kütləvi terrorla müşaiyət olunan deportasiyalar nəticəsində Qərbi Azərbaycanda, hazırki Ermənistan ərazisində, dədə-baba torpaqlarında yaşayan 300 mindən çox azərbaycanlı əhali son nəfərinə qədər ölkədən deportasiya edildi. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Dağlıq Qarabağ və ona bitişik 7 rayon, ümumilikdə Azərbaycanın 20 % ərazisi işğal edildi, dünyanın gözü qarşısında XX əsrin ən dəhşətli soyqırımlarından biri olan Xocalı soyqırımı törədildi, 1 milyondan çox azərbaycanlı öz torpaqlarından didərgin salınaraq hazırda qaçqın və məcburi köçkün şəraitində yaşamağa məcbur edilmişdir.

Yuxarıda sadaladığımız faktlar sübut edir ki, 1988-ci ildən üzü bəri Ermənistan Silahlı qüvvələri tərəfindən işğal edilən Dağlıq Qarabağ və ona bitişik rayonların, həmçinin hazırda Ermənistan Respublikasının əhatə etdiyi bütün ərazilər belə ermənilərə aid deyil. O doğma yurd yerləri əzəli Azərbaycan torpaqlarıdır, Qərbi Azərbaycan əraziləridir. Bunun sübutu üçün uzağa getməyə ehtiyac yoxdur. İrəvan bölgəsinin təkcə XIX əsr və XX əsrin I rübündə Azərbaycan tarixinin tədqiqi, araşdırılması, öyrənilib üzə çıxarılması kifayətdir.

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT

## I. Arxiv materialları


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA): fond (F.) 894, siyahı (siy.) 10, iş 20
2. ARDA:F. 894, siy. 10, iş 80
3. ARDA:F. 894, siy. 10, iş 144
4. ARDA:F. 970, siy. 1, iş 1
5. ARDA:F. 970, siy. 1, iş 3
6. ARDA:F. 970, siy. 1, iş 4
7. ARDA:F. 970, siy. 1, iş 6
8. ARDA:F. 970, siy. 1, iş 15
9. ARDA:F. 970, siy. 1, iş 57
10. ARDA:F. 970, siy. 1, iş 161
11. ARDA:F. 970, siy.1, iş. 202
12. ARDA:F. 970, siy. 1, iş 242
13. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA):(F.) 276, siy. 2, iş 25
14. ARPİİSSA: F. 276, siy. 9, iş 1
15. Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu: F.2069
16. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi: iş.7415
17. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA): fond (F.) 314, siyahı (siy.) 5, iş 9
18. NMRDA:F. 314, siy. 5, iş 14
19. NMRDA:F. 45, siy. 5, iş 15
20. NMRDA:F. 314, siy. 5, iş 16
21. NMRDA:F. 314, siy. 5, iş 18
22. NMRDA:F.314, siy 1, iş 19
23. NMRDA:F.582, siy 1, iş 40
24. NMRDA:F.314, siy 1, iş 73

25. Türkiye Cumhuriyeti Genelkurmay Askeri Tarih ve Stratejik Etüd Dairesi Başkanlığı Arşivi (ATASE): A. 4/3671, K. 2917, D. 493-302, F. 1-34
26. ATASE: A. 4/3671, K. 2917, D. 493-302, F. 1-136, 1-137
27. ATASE: A. 4/3671, K. 2918, D. 28-496, F. 1-151
28. ATASE: A. 4/3671, K. 2919, D. 61-499, F. 3-26
29. ATASE: A. 4/3671, K. 2919, D. 61-499, F. 3-31
30. Türkiye Cumhuriyeti Başbakanlık Osmanlı Arşivi (BOA): A.MKT.MHM, Dosya (D.) 527, Gömlek (G.) 32
31. BOA: A.MKT.MHM, D. 549, G. 24
32. BOA: BEO, D. 2547, G. 191008
33. BOA: BEO, D. 2620, G.196439
34. BOA: BEO, D. 2757, G. 206702
35. BOA: BEO, D. 4523, G. 339163
36. BOA: BEO, D. 4544, G. 340775
37. BOA: BEO, D. 4549, G. 341149
38. BOA: BEO, D. 4549, G. 341149
39. BOA: BEO, D. 4552, G. 341351
40. BOA: C.HR. D. 1342
41. BOA: DH.İ.UM, D. 20-18, G. 12-3
42. BOA: DH.KMS, D. 49-2, G. 50
43. BOA: HAT, D. 15756 C
44. BOA: HMŞ.İŞO, D. 107, G. 11
45. BOA: HR.SFR (20), D. 61, G. 8
46. BOA: HR. SYS, D. 2297, G. 1
47. BOA: HR. SYS, D. 2297, G. 4
48. BOA: HR. SYS, D. 2303, G. 2-13
49. BOA: HR.SYS, D. 2371, G. 6
50. BOA: HR.SYS, D. 2372, G. 1
51. BOA: HR.SYS, D. 2372, G. 3
52. BOA: HR.SYS, D. 2397, G. 6

53. BOA: HR. SYS, D. 2398, G. 4
54. BOA: HR.SYS, D. 2398, G. 5
55. BOA: HR.SYS, D. 2602, G. 1
56. BOA: HR.SYS, D. 2602. G. 1
57. BOA: HR.SYS, D. 2774. G. 61
58. BOA: HR.SYS, D. 2774, G. 62
59. BOA: HR.SYS, D. 2864, G. 29
60. BOA: HR.SYS, D. 2864, G. 38
61. BOA: HR.SYS, D. 2877, G. 40
62. BOA: HR.SYS, D. 2877, G. 69
63. BOA: HR.SYS, D. 2878, G. 76
64. BOA: HR.TO, D. 359, G. 27
65. BOA: HR.TO, D. 359, G. 40
66. BOA: Y.A.HUS, D. 448, G. 91
67. BOA: Y.A.HUS, D. 458, G. 118.
68. BOA: Y.A.HUS, D. 459, G. 7
69. BOA: Y.A.HUS, D. 463, G. 28
70. BOA: Y.A.HUS, D. 477, G. 73
71. BOA: Y.A.HUS, D. 477, G. 100
72. BOA: Y.A.HUS, D. 483, G. 28
73. BOA: Y.A.HUS, D. 485, G. 64
74. BOA: Y.A.HUS, D. 485, G. 88
75. BOA: Y.A.HUS, D. 489, G. 18
76. BOA: Y.A.HUS, D. 489, G. 21
77. BOA: Y.A.HUS, D. 490, G. 85
78. BOA: Y.A.HUS, D. 491, G. 80
79. BOA: Y.A.HUS, D. 492, G. 96
80. BOA: Y.A.HUS, D. 493, G. 60
81. BOA: Y.A.HUS, D. 493, G. 110
82. BOA: Y.A.HUS, D. 494, G. 36

83. BOA: Y.A.HUS, D. 494, G. 79
84. BOA: Y.A.HUS, D. 494, G. 134
85. BOA: Y.A.HUS, D. 496, G. 128
86. BOA: Y.A.HUS, D. 497, G. 121
87. BOA: Y.A.HUS, D. 498, G. 66
88. BOA: Y.A.HUS, D. 499, G. 57
89. BOA: Y.A.HUS, D. 500, G. 6
90. BOA: Y.A.HUS, D. 500, G. 21
91. BOA: Y.MTV, D. 249, G. 133
92. BOA: Y.PRK.BŞK, D. 75, G. 102
93. Gürcüstan Respublikası Dövlət Tarix Arxivi:F. 2, sən. 39
94. Gürcüstan Respublikası Dövlət Tarix Arxivi:F. 13, siy. 3, iş. 2291
95. Gürcüstan Respublikası Dövlət Tarix Arxivi:F. 13, siy. 10. iş 780
96. Gürcüstan Respublikası Dövlət Tarix Arxivi:F. 416, siy. 3, iş 290
97. Gürcüstan Respublikası Dövlət Tarix Arxivi:F. 480, iş 968
98. Российский Государственный Исторический Архив (РГИА):Ф. 396, оп. 2, д. 11
99. РГИА: Ф. 561, оп. 1, д. 21
100. РГИА: Ф. 561, оп. 1, д. 206
101. РГИА: Ф. 1149, оп. 2, д. 23а
102. РГИА: Ф. 1149, оп. 3, д. 44
103. РГИА: Ф. 1268, оп. 1, д. 2
104. РГИА: Ф. 1268, оп. 1, д. 7а
105. РГИА, ф. 1268, оп. 1, д. 13
106. РГИА: Ф. 1268, оп. 1, д. 67
107. РГИА: Ф. 1268, оп.1, д. 180
108. РГИА: Ф. 1268, оп. 26, д. 5
109. РГИА: Ф. 1268, оп. 26, д. 12
110. РГИА: Ф. 1405, оп. 47, д. 512

111. Российский Государственный Военно-Исторический Архив (РГВИА): Ф. 1, оп. 1, ч. 2 а, д. 3742
112. РГВИА: Ф. 1, оп. 1, ч. 2 а, д. 3744
113. РГВИА: Ф. 35, оп. 5, д. 2488
114. РГВИА: Ф. 35, оп. 5, д. 2488 В
115. РГВИА: Ф.169, оп. 1, д. 4
116. РГВИА: Ф.169, оп. 7, д. 145
117. РГВИА: Ф. ВУА, док. 4266
118. РГВИА: Ф. ВУА, док. 6164
119. РГВИА: Ф. ВУА, док. 6265
120. РГВИА: Ф. ВУА, док. 4377

## II. Ədəbiyyat

### a) Azərbaycan dilində

121. Abbasov İ. Azərbaycan folkloru XIX əsr erməni mənbələrində. Bakı: Azərnəşr, 1977. 154 s.
122. Adıgözəlov Ə. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı: Təhsil, 2003, 92 s.
123. Ağdam rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi // http://www.president.az/articles/21943
124. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
125. "Aşıq Qərib". (Türk nağılı). M. Y. Lermontovdan tərcümədir. Mütərcimi İ. M. Əkbərov. Naşiri Məhəmməd Axundov. İrəvan : "Kultura" nəşriyyatı. Nəşr tarixi göstərilməyib. 18 s.
126. Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi və müxbir üzvləri, institut direktorları və aparıcı alimləri ilə görüşdə Azərbaycan prezidenti Heydər Əliyevin nitqi - Prezident sarayı, 31 yanvar 1997-ci il // Azərbaycan qəzeti, 1 fevral 1997, № 22.

127. Azərbaycan folkloru antalogiyası. X cild. İrəvan çuxuru folkloru. Bakı: Səda, 2004, 282 s.
128. Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi // http://president.az/articles/16703
129. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Sənədlər toplusu. 3 cilddə. II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırım. 1918-1920-ci illər. Tərtibçi: İlqar Niftəliyev. Bakı: Çaşıoğlu, 2011, 456 s.
130. Azərbaycan Sovet Ensiklopediyası. VI cild. Bakı: 1980, 608 s.
131. Azərbaycan tarixi. 7 cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı: Elm, 1999, 584 s.
132. Azərbaycan tarixi. 7 cilddə. IV cild (XIX əsr). Bakı: Elm, 2000, 508 s.
133. Azərbaycan tarixi. 7 cilddə. V cild (1900-1920 ci illər). Bakı: Elm, 2001, 672 s.
134. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci ilə qədər). S.Əliyarlının red. ilə. Bakı: Çıraq, 2009, 872 s.
135. Azərbaycan tarixi. II hissə (XIX-XXI əsrin əvvəli). Red. A.Ə.Rzayev. Bakı: Bakı Universiteti nəşriyyatı, 2010, 544 s.
136. Azərbaycan tarixi üzrə qaynaqlar. Tərtibçilər: S.S.Əliyarov, Y.M.Mahmudov və b. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.
137. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Baş Redaktor: Y.Mahmudov. Bakı: "Lider" nəşriyyatı, 2004, 440 s.
138. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki ciddə. II cild. Baş Redaktor: Y.Mahmudov.Bakı: "Lider" nəşriyyatı, 2005, 472 s.
139. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). 2 cilddə. C. I. Bakı: Azərbaycan nəşriyyatı, 1998, 976 s.
140. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). 2 cilddə. C. II. Bakı: Azərbaycan nəşriyyatı, 1998, 992 s.
141. "Azərbaycan" qəzeti (rusca), 14 yanvar 1919.
142. "Azərbaycan" qəzeti (rusca), 14 yanvar 1919.
143. "Azərbaycan" qəzeti (rusca), 17 may 1919.

144. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi. Bakı: ADPU, 2006, 258 s.
145. Cəfərli E. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı:Nurlan,2008,278 s.
146. Cəfərov F.Erməni vəhşiliyi.Bakı: Nurlan, 2009, 186 s.
147. Şıxəliyev E.A. İngiltərənin geosiyasi maraqlarında “erməni məsələsi”nin yeri və Azərbaycana təsiri (1917-1920). Naxçıvan: “Əcəmi” NPB, 2016, 144 s.
148. Eldarova Ə. Azərbaycan aşıq sənəti. Bakı: Elm, 1992, 165 s.
149. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 2007, 312 s.
150. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərnəşr, 1993, 304 s.
151. Əfəndiyev T. Azərbaycan mədəniyyəti və incəsənəti: Bakı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2003, 208 s.
152. Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1985, 300 s.
153. Əkbərli Ə. Qərbi Azərbaycan abidələri. 10 cilddə. I cild. Vedibasar mahalı. Bakı: Ağrıdağ, 2000, 736 s.
154. Ələkbərli Ə. Qədim türk-oğuz yurdu Ermənistan. Bakı: “Sabah”, 1994, 208 s.
155. Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı: Nurlan, 2007, 272 s.
156. Ələsgər ocağı. Red. Zəlimxan Yaqub. Toplayan və tərtib edən: İ. Ələsgər. Bakı: 1991, 304 s.
157. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq-Qərb, 2007, 144 s.
158. Gözəlova N. 1918-1920-ci illərdə Azərbaycanın türk-müsəlman əhalisinin soyqırımı Britaniya kitabxanasının arxiv sənədlərində // Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, s. 137-150.
159. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 2012,192 s.
160. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin Xarici Siyasəti (1918-1920). Bakı: “Garisma” MMC, 2009, 576 s.
161. Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920). Bakı: Azərnəşr, 1993, 362 s.
162. İsmayıl E. Məndən ötrü Ermənistan yoxdu, yox... Bakı: Nurlan, 2002, 142 s.

163. İsmayılov İ. İrəvan ərazilərinin dünəni və bu günü. Bakı:Şirvannəşr, 2001, 114s.
164. İsmayılov R. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1993,163 s.
165. İrəvan əyalətinin icmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəll.: Z. Bünyadov, H. Məmmədov. Bakı: Elm, 1996, 184 s.
166. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Elmi red. Y.Mahmudov. Bakı: Azərbaycan, 2010, 620 s.
167. Qafarov V. İrəvanın ermənilərə verilməsi və erməni dövlətinin yaradılması prosesi // AMEA Xəbərlər, İctimai Elmlər Seriyası, № 4, 2016, s. 24-32.
168. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.
169. Qarayev E. Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVI yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016, 543 s.
170. Qarayev E.T. İrəvan xanlığı (1747-1828). Bakı:“Avropa” nəşriyyatı, 2010, 342s.
171. Qasımlı M. “Erməni məsələsi”ndən “erməni soyqırımı”na: gerçək tarix axtarışında (1724-1920). Bakı: Mütərcim,  2014, 462 s.
172. Qədirzadə H.Q. Naxçıvan: Nuh baba və Türk atadan gələn yol. (rəvayətlər, baxışlar, tarixi həqiqətlər). Naxçıvan: “Əcəmi” NPB, 2011, 192 s.
173. Qəmərli M.V. Atalar sözü. İrəvan: “Edilson” nəşriyyatı, 1899, 84s.
174. Qlinka S.N. Azərbaycan ermənilərinin Rusiya hüdudlarına köçürülməsinin təsviri. Bakı: “Azərbaycan” nəşriyyatı, 1995, 128 s.
175. Quliyev M, Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri. Naxçıvan: “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, 184 s.
176. Kazımov İ. Naxçıvan: Əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair (1828-1920-ci illər). Bakı: Elm, 2007,175 s.
177. Kazımov İ.F. “1918-1920”-ci illərdə Naxçıvan və çevrəsində erməni zülmünün doğurduğu demoqrafik fəlakət” Naxçıvan. İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. Naxçıvan, “Əcəmi”NPB, 2005, s. 84-94.
178. Kazımov İ.F. Azərbaycanın Zəngəzur bölgəsində əhalinin say dinamikası və yerləşməsi. Naxçıvan Dövlət Universiteti. Xəbərlər,Naxçıvan “Qeyrət” – nəşriyyatı, 2005, №16; s. 89-91.

179. Kazımbəyli İ.F. İnzibati ərazi vahidlərimizin strateji yeri, əzəli Azərbaycan torpağı İrəvan. Naxçıvan Müəllimlər İnstitutu. Xəbərlər, № 2 (18), "Məktəb" nəşriyyatı, Naxçıvan, 2009, s. 58-61.
180. Kazımbəyli İ.F. İrəvan bölgəsinin inzibati ərazi bölgüsündə baş vermiş dəyişikliklər. Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər. Tarix və ictimai elmlər seriyası, № 1 (29) Naxçıvan, NOU, 2010, s. 131-135.
181. Kazımbəyli İ.F. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində İrəvan bölgəsinin iqtisadi həyatı (I məqalə). "Naxçıvan" Universiteti, Elmi əsərlər, № 2 (3), Naxçıvan, NU, Nuh, 2016, s. 143-153.
182. Kazımbəyli İ.F. Naxçıvan və İrəvan qalalarının Çar Rusiyasına qarşı müqavimət hərəkatı. AMEA-nın Naxçıvan bölməsi. Xəbərlər. İctimai və humanitar elmlər seriyası, № 1. Naxçıvan, Tusi, cild 13, 2017, s. 103-110.
183. Kərimov K. İrəvan Sərdarının sarayı"// Yeni fikir qəzeti, 1995-ci il, 18 oktyabr, № 5.
184. Namazov Q. Aşıqlar. Bioqrafik məlumat kitabı. I kitab. Bakı: Səda, 2004, 444 s.
185. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı: Yazıçı, 1984, 190 s.
186. Mahmudov Y. İrəvan və ətrafındakı torpaqlar ermənilərə hansı şərtlərlə verilmişdi? Azərbaycan xalqının həmin torpaqlara tarixi varislik hüququ bərpa olunmalıdır//Azərbaycan qəzeti, 14 oktyabr 2014.
187. Mahmudov Y.M., Şükürov K.K. Azərbaycan: Beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları. Dörd cilddə. I cild. Bakı: 2009, 512 s.
188. Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilik. Bakı:Nurlan, 2010, 319 s.
189. Məmmədova L., Abbasov R . Azərbaycanda erməni kapitalının bədnam "şohrət"i və onun nəticələri // "Dircəliş - XXI əsr" jurnalı, 2000, № 5 (27).
190. Məmmədov İ. Erməni kilsəsi və Türk-Azərbaycan torpaqlarını dolaşmaqda olan "Böyük Ermənistan" kabusu (Etnik təmizləmə, fiziki və mənəvi soyqırımı. Dünənin tarixi, bu günün gerçəyi). Bakı: Nurlan, 2010,345 s.
191. Məmmədov İ. İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri, Bakı: Adiloğlu, 2002, 210 s.

192. Məmmədov İ. İrəvan dəftəri I. İctimai fikir tariximizin qəribsəyən üfüqləri. İkinci, təkmilləşdirilmiş nəşri. Bakı: Adiloğlu, 2008, 216 s.
193. Məmmədov. İ. İrəvan dəftəri II. Sətirlənmiş duyğuların qəribsəyən sədası. Bakı: Adiloğlu, 2004, 318 s.
194. Məmmədov İ. Tariximiz, Torpağımız, Taleyimiz. Bakı: Adiloğlu, 2003, 700 s.
195. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. (Qısa tarixi oçerk). Bakı: Azərbaycan nəşriyyatı, 1992, 72 s.
196. Məmmədov Vasaq (Nəzmi). "Gözə görünməyən şal". Vodevil, bir hissə. İrəvan: Edilson mətbəəsi, 1900, 24 s.
197. Məmmədov Vasaq (Nəzmi). "Tamahkarlı düşmən qazanır". Komediya, üç məclisdə. Naşiri Xəlilov. İrəvan: Edilson mətbəəsi, 1900, 44 s.
198. Məmmədquluzadə H. Mirzə Cəlil haqqında xatirələrim. Bakı: Azərnəşr, 1967, 211 s.
199. Mirzə Adıgözəl bəy. Qarabağnamələr. Bakı: Azərnəşr, 1989.192 s.
200. Mirzə Ağa Əli Həkimi-İrəvani Əlmütəxəllüs bə Ləli. "Divan" (növhə və qəzəllər). Azərbaycan və fars dillərində. Təbriz: Daş basması, 1884, 247 s.
201. Mirzə Ağa Əli həkimi-İrəvani. "Divani-Ləli" (mərsiyə, mədh, qəsidə). Azərbaycan və fars dillərində. Naşiri Hacı Rəfi tacir-Xorasançı. Təbriz: Daş basması, 1898, 259 s.
202. Molla Hüseyn İrəvani. "Müseyibnamə". Təbriz: 1888, 201 s.
203. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996,328 s.
204. Mustafa N. Ermənilərin 1905-ci ildə Eçmiədzin qəzasında törətdikləri qırğınlar // Tarix və onun problemləri, 2013,№ 4; s. 62-67.
205. Mustafa N. Erməni silahlı dəstələrinin 1905-1906-cı illərdə Cənubi Qafqazda törətdikləri qırğınlar // "Hərbi bilik" hərbi elmi-nəzəri, publisistik jurnal, Bakı: 2013, № 5; s. 92-100.

206. Mustafa N. İrəvan şəhəri. Bakı, 2013 //Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident kitabxanası, http://www.iravan.info/1905-1906_qirginlar.html
207. Mustafa N. 1918-1920-ci illərdə İrəvan quberniyasında azərbaycanlıların soyqırımı // Azərbaycan qəzeti, 1 aprel 2015.
208. Mustafazadə T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.
209. Naxçıvan tarixi. Üç cilddə. II cild. Naxçıvan: Əcəmi, 2014, 528 s.
210. Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı: Nurlan, 2002, 131 s.
211. Nəcəfli G. XVIII əsrdə Azərbaycan ərazisində erməni dövləti yaratmaq cəhdləri. Bakı: Nurlan, 2007, 248 s.
212. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: “Azərbaycan”, 1993, 128 s.
213. Niftəliyev İ. 1918-1920-ci illərdə İrəvan quberniyasında azərbaycanlıların soyqırımı / Azərbaycan xalqına qarşı 1918-ci il soyqırımları. Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, s. 125-136.
214. Niftəliyev R. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. Bakı: 2006, 139 s.
215. Ordubadi M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman(azərbaycanlı) davasının tarixi. Bakı: 1991, 190 s.
216. Paşayev S. XIX əsr Azırbaycan aşıq yaradıcılığı. Bakı: APİ-nin mətbəəsi, 1990, 612 s.
217. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
218. Rzayev S. Ermənistanda Azərbaycan teatrı. Bakı: Azərnəşr, 1963, 244 s.
219. Rzayev V. XIX əsr və XX əsrin əvvəllərində İrəvanda və Naxçıvanda məscid məktəbləri və mədrəsələr. Naxçıvan: “Əcəmi,” Nəşriyyat Poliqrafiya Birliyi, 2016, 88 s.
220. Sazlı-sözlü Göyçə. Tərtib edən: İslam Ələsgər. Bakı: Çinar-çap, 2002, 184 s.

221. Sərdariniya S. İrəvan müsəlman sakinli vilayət olmuşdur. Bakı: Zərdabi nəşriyyatı, 2014, 224 s.

222. Səfərli F.Naxçıvanda Sosial-siyasi və ideoloji mərkəzlər.Bakı: Elm, 2003, 392 s.

223. Səfərli F.H. Ordubad şəhərinin müsəlman epiqrafikası abidələri. Bakı : NBM, 2009, 191s .

224. Sokrat. Təlimati Soqrat. Rus dilindən tərcümə edəni İrəvan gimnaziyasının elmi-ilahiyyat müəllimi Firidun Köçərli. Baxçasaray: Tərcüman, 1891, 42 s.

225. Süleymanov M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: Hərbi nəşriyyat, 2008, 398 s.

226. Süleymanov M. Gülüstan müqaviləsi. II hissə. Bakı: Elm və Təhsil, 2014, 605 s.

227. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı: Elm və təhsil, 2015, 744 s.

228. Svyatoçovski T. Rusiya və Azərbaycan: sərhədyanı bölgə keçid dövründə. Bakı: Xəzər Universitəsi, 2000, 374 s.

229. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s.

230. Şərif Ə. Keçmiş günlərdən.Atam və mən.(sənədli xatirələr) Bakı: Yazıçı, 1983, 614s.

231. Şükürov K. Alban (Qafqaz) kilsəsinin ləğvi - 1836: Bu necə olmuşdu? / http://apa.az/xeber-az/sosial_xeberler/azerbaycanda-alban-kilsesinin-legvinden-180-il-otur-meqale.html

232. Şükürov K. Ermənilərin Azərbaycanda və Osmanlı imperiyasındakı türk genosidi tarixinin öyrənilməsi: metodoloji problemlər // Azərbaycan tarixinin çağdaş problemləri. Bakı: Xəzər Universiteti, 2000, s. 266-275.

233. Şükürov K. Türkmənçay – 1828. Tarixi xronika. Bakı: Çaşıoğlu, 2006, 188 s.

234. “Tərcüman” qəzeti, 1885, 28 yanvar, № 6.

235. Torçu və balıq. Mütərcimi Firidun bəy Köçərli. “Güləmiryan” mətbəəsi. İrəvan: 1892, 12 s.

236. Umudlu V. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə (1801-1828). Bakı, Elm, 2004, 180 s.

237. Urud M. Urud. Bakı, 2000 123 s.

238. Üç xurma ağacı və ya kişi niyə yatıbsan?”. Mütərcimi Firidun bəy Köçərli. Şuşa: “Məsihi ruhaniyyəsinin vəqf basmaxanası”. 1895, 36 s.
239. Vəlili M. Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat). Bakı: Azərnəşr, 1993, 208 s.
240. Yerevanlı Ə. Yunis Nuri. İrəvan, 1980, 144 s.
241. Zaqafqaziya Seyminin Müsəlman fraksiyası və Azərbaycan Milli Şurası iclaslarının protokolları. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi. Məsul red: A.Ə.Paşayev. Bakı: Adiloğlu, 2006, 216 s.
242. Zamanov E. Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). Bakı: Elm və təhsil, 2011,176 s.
243. Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1992, 144 s.
244. Zeynalov Ə. Bir məktəbin ömür yolu. “Ağrıdağ” qəzeti. 8-14 aprel, 1998-ci il.
245. Zeynalov Ə. İrəvan ziyalıları. Bakı: Oğuz eli, 1999, 368 s.
246. “Zorən təbib”. Molyer. Komediya. Üç məclis, dörd pərdədə. Azərbaycan dilinə təğyir və təbdil edəni müsəlman artisti Əhməd bəy Məlikov Qəmərlinski, Bakı: Orucov qardaşlarının elektrik mətbəəsi, 1912. 80 s.

**b) Türk dilində**

247. Beydili K. 1828-1829 Osmanlı-Rus savaşında Doğu Anadolu’dan Rusya’ya Göçürülen Ermeniler // Belgeler. Cilt XIII, Sayı 17, Ankara: Türk Tarih Kurumu, 1988, s. 365-468.
248. Budak M. Osmanlı-Rus İlişkilerinde Kafkasya // Avrasya Etüdleri, Cilt 1, Sayı 4, Kış 1995, s. 101-128.
249. Gökçe C. Kafkasya ve Osmanlı İmperatorluğu’nun Kafkasya Siyaseti. İstanbul: Has-Kutulmuş Matbaası, 1979, 255s.
250. Karal E.Z. Osmanlı Tarihi. C. VIII. Ankara, Türk Tarih Kurumu Yayınları, 1988, 631 s.
251. Kocabaş S. Tarihde Türk-Rus Mücadelesi. İstanbul:Vatan Yayınları, 1989, 408s.

252. Kurat A.N. Brest-Litovsk Müzakereleri ve Barışı // Belleten, XXXI/121-124, 1967, s. 375-413.
253. Kurat A.N. Türkiye ve Rusya. Ankara, Kültür Bakanlığı Yayınları, 1990, 756 s.
254. Osmanlı Devleti İle Azerbaycan Türk Hanlıkları Arasındakı Münasebetlere Dair Arşiv Belgeleri. 2 Ciltde. (1575-1918). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, 1993, 483 s.
255. Öke M.K. Uluslararası Boyutlarıyla Anadolu-Kafkasya Ekseninde Ermeni Sorunu. İstanbul, İz Yayıncılık, 1996, 423s.
256. Swietochowski T. Müslüman Cemaat'ten Ulusal Kimliğe Rus Azerbaycanı 1905-1920. İstanbul, Bağlam Yayınları, 1988, 296 s.
257. Turan Ş. 1829 Edirne Antlaşması/Ankara Üniversitesi Dil, Tarih, Coğrafya Dergisi, 1951,Sayı 8, no. 1-2, Ankara, Mart-Haziran, 1951, s. 111-151.
258. Uras E. Tarihde Ermeniler ve Ermeni Meselesi. İstanbul, Belge Yayınları, 1987, 471 s.

**c) Rus dilində**

259. Авалов З. Независимость Грузии в международной политике. 1918-1921 гг. Париж: 1924, 319 с.
260. Аграрная политика царизма и крестьянское движение в Армении в начале XX века. Ереван: Из-во Академии Наук Армянской ССР, 1951, 357 с.
261. Акты собранные Кавказской Археографической комиссией. Т. I, Тифлись: 1866, 816 с.
262. Акты собранные Кавказской Археографической комиссией. Т. II, Тифлись: 1868, 1238 с.
263. Акты собранные Кавказской Археографической комиссией. Т. III, Тифлись: 1869, 760 с.
264. Акты собранные Кавказской Археографической комиссией. Т. IV, Тифлись: 1970, 1013 с.
265. Акты собранные Кавказской Археографической комиссией. Т. V, Тифлись: 1873, 1170 с.

266. Акты собранные Кавказской Археографической комиссией. Т. VI, Часть I, Тифлис: 1874, 941 с.
267. Акты собранные Кавказской Археографической комиссией. Т. VI, Часть II, Тифлис: 1875, 950 с.
268. Акты, собранные Кавказской Археографической комиссией. Т. VII, Тифлис: 1878, 994 с.
269. Акты, собранные Кавказской Археографической комиссией. Т. VIII, Тифлис: 1881, 1009 с.
270. Акты, собранные Кавказской Археографической комиссией. Т. IX, Тифлис: 1884, 1013.
271. Акты собранные Кавказской Археографической комиссией. Т. X, Тифлис: 1885, 938 с.
272. Акты собранные Кавказской Археографической комиссией. Т. XI, Тифлис: 1888,1020 с.
273. Акты собранные Кавказской Археографической комиссией. Т. XII, Тифлис: 1904, 1552 с.
274. Амбарян А.С. Развитие капиталистических отношений в Армянской деревне. Ереван: Из-во Академии Наук Армянской ССР, 1959, 286 с.
275. Армянский вопрос в английском парламенте. – Газ. “Каспий”, 22.04.1915. № 88.
276. Арутюнян В., Асратян М., Меликян А. Ереван. Москва: Издательство литературы по строительству, 1968, 303 с.
277. Балаян Б.П. Дипломатическая история русско-иранской войны и присоединение Восточной Армении к России. Ереван: Изд-во АН АрмССР, 1988, 280 с.
278. Берже А.П. Император Николай на Кавказе в 1837 г. // Русская старина. 1884, Август, № 8, Т. 43, с. 375-396.
279. Брейтерман. Медная промышленность России и мировой рынок. Часть 3. Ленинград: Изд-во АН СССР, 1930, 360 с.

280. Величко В.Л. Кавказ. Русские дело и междуплеменные вопросы. Баку: «Элм», 1990, 224 с.
281. Везиров М. Г. Несколько сведений о татарских поверях. СМОМПК, вып. IX. Отдель V. Тифлис: 1890.103-112 с.
282. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XXв.). Баку: «Алтай», 1999, 300 с.
283. Владыкин М. Путеводитель и собеседник в путешествии по Кавказу. Москва: 1874, 533 с.
284. Военно-статистическое обозрение Российской Империи. Издаваемое по Высочайшему повелению при 1-м отделении Департамента Генерального Штаба. Т. XVI, Ч. 6. Эриванская губерния. По рекогносцировкам и материалам, собранным на месте, составлял Ген. штаба кап. Услар, Петр Карлович. - 1853.Военно-статистическое обозрение Эриванской губернии. СПб, 1855, 300 с.
285. Вопросы истории сельского хозяйства, крестьянства и революционного движения в России. Сб. статей. Москва: 1961, 385 с.
286. Гизетти А.А. Сборник сведений о потерях кавказских войск во время войн (1801-1885). Тифлис: 1901, 230 с.
287. Горный инженер Ченгеры, Алавердское медное дело, Тифлись: 1901, 132 с.
288. Губернии Российской империи. История и руководители. 1708-1917. Москва: Обьединенная редакция МВД России, 2003, 535 с.
289. Гусейнова Д. С. Азербайджанская интеллигенция в конце XIX- начале XX века. Диссертация на соискание степени доктор исторических наук. На правах рукописи. Баку: 1993. 325 с.
290. Декреты Советской власти. Т. 1. Ред. комис: Г.Д.Обичкин и др. Москва: Политиздат, 1957, 626 с.
291. Документы внешней политики СССР. В 22-х томах. Т. I. (7 ноября 1917 г – 31 декабря 1918 г. Ред. коллегия: И.Н.Земсков и др.). Москва: Госполитиздат, 1957, 771 с.

292. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис: Типография правительства Грузинской Республики, 1919, 513 с.
293. Договоры России с Востоком, политические и торговые. Собрал и издал Т.Юзефович. СПб: 1869, 326 с.
294. Дубровин Н. Закавказье от 1803 по 1806 г. СПб: 1866, 542 с.
295. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Т. I. СПб.: 1871, 656, 431 с.
296. Дубровин Н. История войны и владычества русских на Кавказе. Т. IV. СПб.: 1886, 546 с.
297. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. Т. V. СПб.: 1887, 502 с.
298. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе. В 6 томах. СПб.: 1871-1888, Т. 1, kн. 1: 656 с.; Т. 1, kн. 2: 431 с.; Т. 1, kн. 3: 463 с.; Т. 2: 324 с.; Т. 3: 557 с.; Т. 4: 546 с.; Т. 5: 502 с.; Т. 6: 765 с.
299. Егиазаров С.А. Исследование по истории учреждений в Закавказье. Ч. 2. Городские цехи. Организация и внутреннее правление Закавказских амкар. Казан: 1891, 441 с.
300. Журнал Министерства народного просвещения. 1835. Ч. VI.
301. Журнал Министерства народного просвещения. 1849. Ч. IX. раздел 1.
302. Зубов П. Подвиги русских воинов в странах Кавказских с 1800 до 1834 г. Т. II, Ч. 3. СПб.: 1836, 320 с.
303. Ибрагимбейли Х.М. Россия и Азербайджан в первой трети XIX века (Из военно-политической истории). Москва: «Наука», 1969, 287 с.
304. Иваненко В.Н. Гражданские управление за Кавказом. Тифлис6 1901, 527 с.
305. История армянского народа с древнейших времен до наших дней. Ереван: Из-во Ереванского Университета, 1980, 460 с.
306. История Азербайджана по документам и публикациям. Под. ред. акад. З.М.Буниятова. Баку: Элм, 1990, 384 с.
307. История сооружения и эксплуатации Закавказской железной дороги за двадцать лет ее существования. Тифлис: 1896, 286 с.

308. «Кавказ» 1894, 7 ноября.
309. «Каспий» 1892, 1 mая.
310. Кавказский календарь на 1852 год. Тифлис: 1851, Отдел. Третие, 724 с.
311. Кавказский календарь на 1877 г. Тифлис: 1876, Разд. 2, 629 с.
312. Кавказский календарь на 1878 год. Тифлис: 1877, Отдел. Второе, Часть Первая, 597 с.
313. Кавказский календарь на 1880 г., Тифлис: 1879. Отдел. 2, 544 с.
314. Кавказский календарь на 1883 г. Тифлис: 1882. Отдел 1, 506 с.
315. Кавказский календарь на 1887 г. Тифлис: 1886. Отдел 1, 490 с.
316. Кавказский календарь на 1888 г. Тифлис: 1887 г. Приложение к первому отделу, 542 с.
317. Кавказский календарь на 1889 год. Тифлис: 1888, Отдель I, 530 с.
318. Кавказский календарь на 1890 г. Тифлись: 1889. Отдел 4, 538 с.
319. Кавказский календарь на 1891 год. Тифлис: 1890, Отдель I; VI, Приложения, 688 с.
320. Кавказский календарь на 1893 год. Тифлись: 1892, 922 с.
321. Кавказский календарь на 1898 год. Тифлись: 1897. III Статистическая сведения, 760 с.
322. Кавказский календарь на 1899 год. Тифлис: 1898, III Отдель, 785 с.
323. Кавказский календарь на 1901 год. Тифлись: 1900. III Отдель. Статистическая сведения, 675 с.
324. Кавказский календарь на 1902 г. Тифлись: 1901. Отдел 3, 748 с.
325. Кавказский календарь на 1903 г. Тифлись: 1902. Отдел 3, 752 с.
326. Кавказский календарь на 1904 г. Тифлись: 1903. Отдел 3, 810 с.
327. Кавказский календарь на 1905 г. Тифлись: 1904. Отдел 3, 790 с.
328. Кавказский календарь на 1909 г. Тифлись: 1908. Отдел 3, 118 с.
329. Кавказский календарь на 1917 год. Тифлис: 1916, Отдель статистический, 1609 с.
330. Кавказский сборник. Т.1. Тифлис: 1876, 342 с.

331. Князь Воронцов и А.П. Ермолов. Их переписка о Кавказе // Русский архив. 1890, кн.1, с. 239-292.

332. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в. Часть I.Москва-Ленинград: Из-во Академии наук СССР, 1936, 463 с.

333. Краткий обзор коммерческой деятельности Закавказской железной дороги по статистическим данным о перевозках пассажиров и грузов за 1904 г. Тифлис: 1906, 111 с.

334. Краткий обзор коммерческой деятельности Закавказской железной дороги по статистическим данным о перевозках пассажиров и грузов за 1910 г. Тифлис: 1910, 108 с.

335. Краткий обзор коммерческой деятельности Закавказской железной дороги по статистическим данным о перевозках пассажиров и грузов за 1913 г. Тифлис: 1913, 114 с.

336. Краткий обзор коммерческой деятельности Закавказской железной дороги по статистическим данным о перевозках пассажиров и грузов за 1916 г. Тифлис: 1916, 124 с.

337. Крестьянское движение в Армении в XIX веке. Ереван: Издательство Академии Наук Армянской ССР, 1948, 407 с.

338. Кузнецов О. Нашествие или исход? Переселение армян в Закавказье в 1829-1831 гг. в трудах российских военных историков второй трети XIX – начала XX столетия // İRS- Наследие, № 5 (59), Баку: 2012, с. 56-61.

339. Материалы по вопросу о распространение действий Крестьянского поземельного банка на Закавказский край. СПБ, 1904, 334 с.

340. Мильман А. Политический строй Азербайджана в XIX– начале XX вв. Баку, Азернешр, 1966, 318 с.

341. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX – начале XX в. Часть I. Баку, Элм, 1992, 382 с.

342. Нифталиев И. Геноцид азербайджанцев в Иреванской губернии (1918-1920). Баку, Турхан, 2014, 184 с.

343. Обзор Эриванской губернии за 1912 г., 29 с.

344. Обзор Эриванской губернии за 1913 г.,  26 с.
345. Обзор отраслей промышленности в Закавказском крае. Тифлись,1907, 86 с.
346. Обзор отраслей промышленности в Закавказском крае. Тифлись,1912, 97 с.
347. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Ч. 1-IV. СПб., 1836, 399 с.; 401 с.; 392 с.; 401 с.
348. Отчет по Главному Управлению наместника Кавказского за время первого десятилетия управления, с 6 декабря 1862-6 декабря 1872 г., 96 с
349. Отчет по главному управлению наместника Кавказского за 1842-1862 г. Тифлис, 1873, 128 с.
350. Отчет по Главному управлению наместника Кавказского за 1862-1872 гг.Тифлис, 1893, 84 с.
351. Памятная книжка Эриванской губернии на 1902. Эривань, 1902. Отд. 1, с. 1-96.
352. Памятная книжка Эриванской губернии на 1906 г. Отд. IV, с. 1-122.
353. Парсамян В.А. История армянского народа. 1801-1900. Ереван: Из-во «Айастан», 1972, 398 с.
354. Пашаев А. Что это было: Геноцид или депортация? // Исторические факты о деяниях армян на Азербайджанской земле. Науч. Ред. Я.Махмудов. Баку: “Təhsil”, 2009, 262 с.
355. Петрович П.  Хлопководства в Закавказье.изд. Императорского Кавказского Общества сельского хозяйство. Тифлись: 1912, 135 с.
356. Петрушевский И.П. К вопросу об иммунитете в Азербайджане в XVII-XVIII вв. “Исторический сборник”. Т. 4. Москва — Ленинград, 1935, с.35-72
357. Петрушевский И.П. Очерки по истории феодальных отношения в Азербайджане и АрменииXVI  – начале XIX вв. Ленинград, Из-во ЛГУ, 1949, 385 с.
358. Первая всеобшая перепись населения Российской империи. LXXI. Эриванская губерния. СПб., 1905,1вв. л. XXIII,185 с.

359. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. III, 1828. СПб., 1830, 1670 с.
360. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. IV. СПб.,1830, 1676 с.
361. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. VIII. Отделение первое. СПб., 1834, 838 с.
362. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. X. СПБ,1835, 922 с .
363. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. XV, 1840. СПб., 1841, 996 с.
364. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. XX, 1845. СПб., 1846, 1052 с.
365. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. XXI, 1846, СПб., 1847, 674 с.
366. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. XXI, 1846, СПб., 1847, 674 с.
367. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. XXIV, Част 1, 1849, СПб., 1850, 642 с.
368. Полное собрание законов Российской империи. Собр. Второе (1825-1881). Т. 42 (XLII), Част 1, 1867, СПб., 1871, 1218 с.
369. Последняя война с Турцией заключаюшая в себе компанию 1828 и 1829 гг. в Европейской и Азиатской Турций и на Кавказе. Ч. II, СПб., 1850, 306 с.
370. Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. В 5 томах. Т. II, СПб., 1886, 759 с.
371. Потто В.А. Кавказская война в отдельных очерках, эпизодах, легендах и биографиях. Т. III. СПб., 1886, 745 с.
372. Потто В.А. Кавказская война. Персидская война 1826-1828 гг. Т. 3. Ставрополь, 1993, 608 с.
373. Потто В. А. Первые добровольцы Карабага в эпоху водворения русского владычества. 2-е изд., Тифлис, 1902, 78 с.

374. Присоединение Восточной Армении к России. Т. I. 1801-1813. (Сб. док.). Ред. Ц.П.Агаян. Ереван, Издательство Академии Наук Армянской ССР, 1972, 715 с.
375. Присоединение Восточьный Армении к России. Под. Ред. Ц.П.Агаяна. Том 2. Ереван, 1978, 605 с.
376. Развитие Еревана после присоединение Восточной Армении к России. (Сбор. док.). Ереван, Изд-во Ерев. ун-та, 1978, 490 с.
377. Размещение транспорта. Москва: 1939, 316 с.
378. Рштуни В. Основные моменты крестьянского движения в Армении в XIX веке // Крестьянское движение в Армении в XIX веке. Издательство Академии Наук Армянской ССР, Ереван, 1948, с. 8-19.
379. Сборник сведений по виноградарству и виноделию на Кавказе. Вып. 6, Эриванская губерния. Издательство кавказского филоксерного комитета. Тифлись, 1896, 201 с.
380. Сборник статических данных о землевладении и способа хозяйство в 5-ти губерниях Закавказского края. 1899. Приложния I. 524 с.
381. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т. I-V. Тифлис. 1885-1888. Т. I, 132 с.
382. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Т. I-V. Тифлис, 1885-1888. Т. V, Ч.1, 112 с.
383. Свод статистических данных о населении Закавказского края, извлеченных из посемейных списков 1886 г. Тифлис, 1893, 52 с.
384. Сельскохозяйственные сведения об Эриванской губернии за 1870 г., // Сборник сведений о Кавказе. Том 2. Тифлис, 1872 г., 340 с.
385. Смирнов Н.А. Политика России на Кавказе в XVIII-XIX веках. Москва, Социально-экономический литературы, 1958, 244 с.
386. Собрание актов, относящихся к обозрению истории Армянского народа. Часть I, Москва, 1933, 391 с.
387. Статистика хлопководства в Закавказском крае за 1905 г. Тифлись: 1911, 64 с.

388. Статические описание городов Тифлисской и Эриванской губерний, Тифлис: 1864 г.
389. Тавакалян Н.А. Переселение армян из Персии и Турции в Закавказье после присоединения Восточной Армении к России // Историко-филологический журнал АН Арм. ССР. Ереван, 1978, № 3 (82), с. 26-40.
390. Таратинов Н.П. Очерк хлопководства в Закавказье// Труды Кавказского общества сельского хозяйство № 9-12. Тифлись: 1888, с. 17-28.
391. Тимофеев С.Н. Статистика и хлопководство в Закавказском крае. Тифлис: 1914, 118 с.
392. Туган-Барановский. Русская фабрика. Москва: 1937, 192 с.
393. Тунян В.Г. “Защитник Отецества” – каталикос всех армян Нерсес Аштаракеци. 1826-1857 гг. Ереван: Св. Эцмиадзин, 2007, 440 с.
394. Тунян В.Г. Восточная Армения в составе России. Ереван: Айастан, 1989, 169 с.
395. Туманян О.В. Развития экономики Армении в XIX и в начале XX вв. Ереван: 1947, 475 с.
396. Утверждение русского владычества на Кавказе. Под редакцией генераль-майора Потто В.А. Т. 1. Тифлис: Топография Я.И.Либермана, 1901, 354 с.
397. Ушаков Н.И. История военных действии а Азиатской Турции в 1828 и 1829 годах. В двух частях. Част 1-2. СПб., Тип. Э. Прача и К, 1836, 403 с.; 306 с.
398. Фадеев А.В. Россия и Кавказ первой трети XIX в. Москва: Издательство Академии Наук СССР, 1960, 398 с.
399. Фадеев Р. Кавказская война. Москва: Эксмо Алгоритм, 2005, 640 с.
400. Халилов Р. Траурный месяц магаррам у мусульман шиитов Эриванской губернии. СМОМПК. Вып. XXV. Тифлись: 1898 г. Отдель I. 161-188с.
401. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. СПб., Типография редакции периодических издании Министерства Финансовь, 1911. Репринт изд. Ваку: Элм, 1990, 156 с.

402. Шербатов М. Генерал-фельдмаршал князь Паскевич. Его жизнь и деятельность. Т. II. СПб.: 1890, 421 с.

403. Шербатов А.П. Генерал фельдмаршал князь Паскевич, его жизнь и деятельность. В 3-х томах. СПб.: 1890-1891, 430 с; 421 с.; 465.

404. Шеремет В.И. Турция и Адрианопольский мир 1829 г. Москва: Из-во «Наука», 1975, 226 с.

405. Шопен И.И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб.: Типография Императорской Академии наук, 1852, 1231 с.

406. Эвентов Л.Я. Иностранные капиталы в русской промышленности. Москва: 1931, 624 с.

407. Эсадзе С. Очерк истории горного дела на Кавказе. Тифлис: 1903, 187 с.

408. Эсадзе С. Историческая записка об управлении Кавказом. Т. 1. Тифлис: Типография,»Гуттенберг»1907, 616 с.

409. Эзов Г.А. Отношения Петра Великого с армянским народом. СПб.: 1898, 509 с.

**ç) İngilis dilində**

410. Hovannisian R.G. Armenia on the Road to İndependence 1918. Los Angeles, Berkeley, 1967, 675 p.